# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*səkkizinci kitab*

*noyabr, 1996 - mart, 1997*

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1998**

**BBK 66.3(5Aze)8**
**Ə - 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1998, 488 səh.

Bu cilddə zəmanəmizin görkəmli şəxsiyyəti, indiki dünyanın nüfuzlu liderlərindən biri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının 1996-cı ilin noyabrından 1997-ci ilin martın əvvəlinədək olan dövrdəki çıxışları, mühazirə, nitq, müsahibə, bəyanat, məktub və təbrikləri nəşr edilir.

Materiallarda Azərbaycan mövqeyinin dünya birliyində möhkəmləndirilməsi, ATƏT-in Lissabon zirvə toplantısında Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli, beynəlxalq hüquq ölçülərinə uyğun istiqamətdə həll edilməsi barədə tarixi qərarı və bu qərarın qəbul edilməsində Azərbaycan nümayəndə heyətinin müdrik, cəsarətli fəaliyyəti, Azərbaycanın dünyanın qabaqcıl ölkələri ilə iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi, türk xalqları arasında dostluq və qardaşlığın daha da möhkəmləndirilməsi, Azərbaycan iqtisadiyyatının, elm və mədəniyyətinin inkişaf etdirilməsi uğrunda Azərbaycan Prezidentinin əsaslı və dolğun fəaliyyəti parlaq əks olunmuşdur.

**BBK - 66.3(5Aze)8**

**Ə $\frac{0801000000}{M - 651(07) - 98}$**

**© Azərnəşr, 1998**

## KİTABIN İÇİNDƏKİLƏR


**TÜRK DÜNYASI YAZIÇILARININ III QURULTAYINDA NİTQ**
*6 noyabr 1996-cı il*............................................................................................... 10

**TÜRKSOY BEYNƏLXALQ TƏŞKİLATININ BAKIDA KEÇİRİLƏN VIII TOPLANTISINDA NİTQ**
*6 noyabr 1996-cı il*............................................................................................... 14

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ UİLYAM C. KLİNTON CƏNABLARINA**
*6 noyabr 1996-cı il*............................................................................................... 17

**MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ SİMPOZİUMA**
*6 noyabr 1996-cı il*............................................................................................... 18

**DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ**
*8 noyabr 1996-cı il*............................................................................................... 19

**DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ**
*8 noyabr 1996-cı il*............................................................................................... 23

**12 NOYABR – KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*11 noyabr 1996-cı il*............................................................................................... 25

**TÜRKİYƏNİN TQRT TELEKANALININ "ÜZ ÜZƏ" PROQRAMINA MÜSAHİBƏ**
*13 noyabr 1996-cı il*............................................................................................... 26

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT FƏHD İBN ƏBDÜL ƏZİZ ƏL-SƏUD CƏNABLARINA**
*13 noyabr 1996-cı il*............................................................................................... 34

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ EDUARD AMVROSİYEVİÇ ŞEVARDNADZE CƏNABLARINA**
*13 noyabr 1996-cı il*............................................................................................... 35

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA**
*16 noyabr 1996-cı il*............................................................................................... 36

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ MAQOMEDƏLİ MAQOMEDOVİÇ MAQOMEDOV CƏNABLARINA**
*16 noyabr 1996-cı il*............................................................................................... 37

**AZƏRBAYCAN VƏ TATARISTAN RESPUBLİKALARI ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*21 noyabr 1996-cı il*............................................................................................... 38

**AZƏRBAYCAN PREZİDENTİNİN ADINDAN TATARISTAN PREZİDENTİ**

**MİNTİMER ŞAYMİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ**
*21 noyabr 1996-cı il*............ **41**

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA ÇIXIŞ**
*22 noyabr 1996-cı il*............ **43**

**"ŞƏRQ QAPISI" QƏZETİNİN KOLLEKTİVİNƏ**
*26 noyabr 1996-cı il*............ **45**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN İCLASINDA NİTQ**
*27 noyabr 1996-cı il*............ **46**

**ATƏT-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ LİSSABON ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT**
*30 noyabr 1996-cı il*............ **51**

**LİSSABONA GEDƏRKƏN YOLÜSTÜ İSTANBULDA – ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT**
*30 noyabr 1996-cı il*............ **52**

**ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ**
*2 dekabr 1996-cı il*............ **53**

**ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNÜN YEKUN İCLASINDA NİTQ**
*3 dekabr 1996-cı il*............ **55**

**ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN DƏRHAL SONRA MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*3 dekabr 1996-cı il*............ **57**

**PORTUQALİYA TELEVİZİYASI MÜXBİRİNƏ MÜSAHİBƏSİ**
*3 dekabr 1996-cı il*............ **60**

**DANİMARKA TELEVİZİYASI MÜXBİRİNƏ MÜSAHİBƏ**
*3 dekabr 1996-cı il*............ **61**

**TÜRKİYƏ JURNALİSTİNƏ MÜSAHİBƏ**
*3 dekabr 1996-cı il*............ **62**

**RUSİYANIN "VESTİ" İNFORMASİYA-TELEVİZİYA PROQRAMINA MÜSAHİBƏ**
*3 dekabr 1996-cı il*............ **63**

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ JURNALİSTİNƏ MÜSAHİBƏ**
*3 dekabr 1996-cı il*............ **64**

**ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN TƏYYARƏDƏ RESPUBLİKA JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ**
*5 dekabr 1996-cı il*............ **65**

**ATƏT-in LİSSABON ZİRVƏ TOPLANTISININ YEKUNLARI İLƏ ƏLAQƏDAR RESPUBLİKA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*6 dekabr 1996-cı il*............ **68**

BAKIDA AMERİKANIN "PENNZOYL KASPİAN KORPOREYŞN" ŞİRKƏTİ OFİSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*7 dekabr 1996-cı il*.......................................................................................................... 83

MƏBƏS BAYRAMI – MƏHƏMMƏD SALAVATULLAHA PEYĞƏMBƏRLİK VERİLƏN GÜN MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ
*9 dekabr 1996-cı il*.......................................................................................................... 84

AZƏRBAYCANDA AMERİKA TİCARƏT PALATASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*13 dekabr 1996-cı il*.......................................................................................................... 87

XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA "DAN ULDUZU" VƏ "ƏŞRƏFİ" NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏ İMZALANMASI MƏRASİMİNDƏ NİTQ
*14 dekabr 1996-cı il*.......................................................................................................... 90

BAKIDA YENİ SELLÜLYAR RABİTƏ SİSTEMİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*15 dekabr 1996-cı il*.......................................................................................................... 96

UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ, HABELƏ YUNİSEF-in 50 İLLİYİ MÜNASİBƏTİLƏ "UŞAQLAR DÜNYANIN SEVİNCİDİR" ŞƏNLİK MƏRASİMİNDƏ ÇIXIŞ
*15 dekabr 1996-cı il*.......................................................................................................... 98

AZƏRBAYCAN RESPUBLİKASI SƏRHƏD QOŞUNLARININ YARADILMASININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*16 dekabr 1996-cı il*.......................................................................................................... 99

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ QVARDİYASININ YARADILMASININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*25 dekabr 1996-cı il*.......................................................................................................... 104

XALQ ARTİSTİ ZEYNƏB XANIM XANLAROVAYA
*27 dekabr 1996-cı il*.......................................................................................................... 106

AZƏRBAYCAN-TÜRKİYƏ MÜŞTƏRƏK MÜƏSSİSƏSİNİN – ÇAYPAKETLƏMƏ FABRİKİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*28 dekabr 1996-cı il*.......................................................................................................... 107

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ MÜRACİƏTİ
*28 dekabr 1996-cı il*.......................................................................................................... 110

ZƏNGİLAN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ
*29 dekabr 1996-cı il*.......................................................................................................... 111
YEKUN SÖZÜ
*29 dekabr 1996-cı il*.......................................................................................................... 111

XARİCİ DÖVLƏTLƏRİN AZƏRBAYCANDAKI SƏFİRLİKLƏRİNİN, BEYNƏLXALQ TƏŞKİLATLARIN NÜMAYƏNDƏLİKLƏRİNİN VƏ ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ RƏSMİ GÖRÜŞDƏ NİTQ
*30 dekabr 1996-cı il*.......................................................................................................... 118

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN ŞƏHİD ÖVLADLARI VƏ KİMSƏSİZ

UŞAQLAR ÜÇÜN KEÇİRDİYİ YENİ İL ŞƏNLİYİNDƏ ÇIXIŞ
*31 dekabr 1996-cı il*........................................................................................................ 119

AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ
*31 dekabr 1996-cı il*........................................................................................................ 120

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA
*5 yanvar 1997-ci il*........................................................................................................ 123

XALQ ŞAİRİ QABİLİN ANADAN OLMASININ 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNİN RƏSMİ HİSSƏSİNDƏN VƏ KONSERTDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*7 yanvar 1997-ci il*........................................................................................................ 124

FRANSA RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*13 yanvar 1997-ci il*........................................................................................................ 126

FRANSA PREZİDENTİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*13 yanvar 1997-ci il*........................................................................................................ 127

AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ FRANSANIN "ELF AKİTEN" VƏ "TOTAL" ŞİRKƏTLƏRİ ARASINDA NEFT MÜQAVİLƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ BƏYANAT
*13 yanvar 1997-ci il*........................................................................................................ 128

FRANSA BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA – "AZƏRBAYCAN VƏ QAFQAZ XXI ƏSRİN ASTANASINDA" MÖVZUSUNDA MÜHAZİRƏ
*13 yanvar 1997-ci il*........................................................................................................ 129

FRANSA TİCARƏT-SƏNAYE PALATASINDA KEÇİRİLƏN GÖRÜŞDƏ ÇIXIŞ
*14 yanvar 1997-ci il*........................................................................................................ 135

FRANS-PRESS AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏSİ
*14 yanvar 1997-ci il*........................................................................................................ 139

FRANSANIN "TV ARTE" TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*14 yanvar 1997-ci il*........................................................................................................ 141

FRANSANIN HƏFTƏLİK "PUAN" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*14 yanvar 1997-ci il*........................................................................................................ 142

FRANSANIN "EKSPANSİON" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*14 yanvar 1997-ci il*........................................................................................................ 144

FRANSA-AZƏRBAYCAN TİCARƏT-SƏNAYE PALATASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*14 yanvar 1997-ci il*........................................................................................................ 146

FRANSA MİLLİ MƏCLİSİNDƏ AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*14 yanvar 1997-ci il*........................................................................................................ 148

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETTİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*14 yanvar 1997-ci il*........................................................................................................ 149

"YEVRONYUS" BEYNƏLXALQ TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*15 yanvar 1997-ci il*........................................................................................................ 151

FRANSADA AKKREDİTƏ OLUNMUŞ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*15 yanvar 1997-ci il*........................................................................................................ 155

FRANSANIN "TV-5" TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*15 yanvar 1997-ci il*........................................................................................................ 161

FRANSADA YAŞAYAN AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*15 yanvar 1997-ci il*........................................................................................................ 164

QUSAR RAYONUNUN YUXARI ZEYXUR KƏNDİ ƏRAZİSİNDƏ AVTOBUS QƏZASINDA HƏLAK OLANLARIN AİLƏLƏRİNƏ
*16 yanvar 1997-ci il*........................................................................................................ 168

M. QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*19 yanvar 1997-ci il*........................................................................................................ 169

ÜMUMXALQ HÜZN GÜNÜNƏ, ŞƏHİDLƏRİN ANILMASINA HƏSR OLUNMUŞ XATİRƏ GECƏSİ BAŞA ÇATDIQDAN SONRA ƏDƏBİ-BƏDİİ KOMPOZİSİYANIN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*20 yanvar 1997-ci il*........................................................................................................ 174

"NEFTÇİ" İDMAN-SAĞLAMLIQ MƏRKƏZİNİN 60 İLLİYİ VƏ MƏRKƏZİN OLİMPİYA QURĞUSUNUN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*25 yanvar 1997-ci il*........................................................................................................ 175

XALQ ARTİSTİ LEYLA XANIM VƏKİLOVAYA
*29 yanvar 1997-ci il*........................................................................................................ 178

AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK KOMİTƏSİNİN YARADILMASININ 5-ci İLDÖNÜMÜNƏ VƏ GÖMRÜK ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*30 yanvar 1997-ci il*........................................................................................................ 179

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ RƏHBƏRLİYİ, HƏQİQİ VƏ MÜXBİR ÜZVLƏRİ, İNSTİTUT DİREKTORLARI VƏ APARICI ALİMLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*31 yanvar 1997-ci il*........................................................................................................ 183

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏRİNİN 1-ci FORUMUNUN BİRİNCİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ FORUM NÜMAYƏNDƏLƏRİNİN BIR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*1 fevral 1997-ci il*........................................................................................................ 193
YEKUN SÖZÜ
*1 fevral 1997-ci il*........................................................................................................ 193

GÖRKƏMLİ AZƏRBAYCAN BALERİNASI, XALQ ARTİSTİ, PROFESSOR LEYLA VƏKİLOVAYA HƏSR EDİLMİŞ TAMAŞAYA BAXDIQDAN SONRA BALETİN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*2 fevral 1997-ci il*........................................................................................................ 199

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA
*5 fevral 1997-ci il*........................................................................................................ 200

**RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*7 fevral 1997-ci il*........................................................................................................ **201**

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA**
*10 fevral 1997-ci il*........................................................................................................ **202**

**İRAN İSLAM İNQİLABININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ**
*10 fevral 1997-ci il*........................................................................................................ **203**

**AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞ NATO-nun BAŞ KATİBİ XAVYER SOLANA İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*13 fevral 1997-ci il*........................................................................................................ **205**

**NATO-nun BAŞ KATİBİ XAVYER SOLANA İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT**
*13 fevral 1997-ci il*........................................................................................................ **206**

**XALQ ARTİSTİ QƏDİR RÜSTƏMOVA**
*14 fevral 1997-ci il*........................................................................................................ **207**

**BMT-nin YAXIN VƏ ORTA ŞƏRQDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ NƏZARƏT VƏ BUNUNLA BAĞLI PROBLEMLƏR ÜZRƏ YARDIMÇI KOMİSSİYASININ 32-ci SESSİYASINDA NİTQ**
*17 fevral 1997-ci il*........................................................................................................ **208**

**AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT**
*18 fevral 1997-ci il*........................................................................................................ **211**

**AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ARASINDA İKİTƏRƏFLİ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*18 fevral 1997-ci il*........................................................................................................ **212**

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ**
*18 fevral 1997-ci il*........................................................................................................ **217**

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZEYƏ M. Ə. RƏSULZADƏ ADINA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*19 fevral 1997-ci il*........................................................................................................ **220**

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN AZƏRBAYCAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ**
*19 fevral 1997-ci il*........................................................................................................ **222**

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ TSZEN TSZYAMİN CƏNABLARINA**
*20 fevral 1997-ci il*........................................................................................................ **225**

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT FƏHD İBN ƏBDÜL ƏZİZ ƏL-SƏUD CƏNABLARINA**
*13 noyabr 1996-cı il*........................................................................................................ **226**

**AKADEMİK ZİYA BÜNYADOVUN AİLƏSİNƏ BAŞSAĞLIĞI**
*21 fevral 1997-ci il*........................................................................................................ **227**

**GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, AKADEMİK ZİYA BÜNYADOVLA VİDALAŞMA MƏRASİMİNDƏ NİTQ**
*23 fevral 1997-ci il*........................................................................................................ **228**

**XOCALI SOYQIRIMININ BEŞİNCİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ**
*25 fevral 1997-ci il*........................................................................................................ **234**

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**
*26 fevral 1997-ci il*........................................................................................................ **235**

**XORVATİYA RESPUBLİKASI VƏ NİDERLAND KRALLIĞININ AZƏRBAYCANA TƏYİN EDİLMİŞ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**
*26 fevral 1997-ci il*........................................................................................................ **236**

**"ƏSRİN MÜQAVİLƏSİ" ÜZRƏ LAYİHƏNİN RƏHBƏR KOMİTƏSİNİN ÜZVLƏRİ VƏ ABƏŞ-in RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ**
*28 fevral 1997-ci il*........................................................................................................ **237**
**YEKUN NİTQİ**
*28 fevral 1997-ci il*........................................................................................................ **237**

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏHMƏD XAN LEQARİ CƏNABLARINA**
*1 mart 1997-ci il*........................................................................................................ **239**

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA**
*1 mart 1997-ci il*........................................................................................................ **240**

## TÜRK DÜNYASI YAZIÇILARININ III QURULTAYINDA NİTQ

*Azərbaycan Elmlər Akademiyası*
*Rəyasət Heyətinin İclas Salonu*

*6 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Sizi, türk dünyası yazıçılarının III qurultayını Azərbaycan xalqı, vətəndaşları adından, Azərbaycan dövləti adından səmimi qəlbdən salamlayır, bu şərəfli işinizdə uğurlar arzulayıram.

Türk dünyasının, türkdilli xalqların, ölkələrin yazıçılarının III qurultayının Azərbaycanda keçirilməsini ölkəmiz üçün əlamətdar hadisə hesab edirəm və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi qiymətləndirirəm.

Türk dünyası yazıçılarının qurultayı üçüncü dəfədir ki, toplaşır. Bu qurultay ilk dəfə 1992-ci ildə Türkiyədə, Ankarada öz əsasını qoymuş və Allaha şükürlər olsun ki, artıq ənənəyə çevrilmişdir. Heç şübhə etmirəm ki, bu, daim davam edəcəkdir. 1992-ci ildə Türkiyədə, Ankarada, Türkiyə Cümhuriyyətinin, onun mərhum prezidenti Turqut Özalın təşəbbüsü ilə başlanan bu qurultay türkdilli xalqların, türk dünyasının qədim, böyük tarixini yenidən canlandırmaq üçün çox gözəl və dəyərli təşəbbüs olmuşdur. Sonra, bu qurultay ikinci dəfə Türkiyədə, Ankarada keçirilərkən bizim əziz dostumuz, qardaşımız, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəlin təşəbbüsü və iştirakı ilə bu qurultaya güc verilmiş və bu ənənənin köklənməsini göstərmişdir.

Bu dəyərli təşəbbüs bu gün davam edir. Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar. [5-6]

Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır. Xalqlarımız tarix boyu insan həyatının bütün sahələrində, bəşəriyyətin bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri və böyük bədii əsərləri, musiqisi ilə parlaq səhifələr yazmışlar. Bunların arasında şairlərimizin, yazıçılarımızın xidməti və tariximizin yaranmasında, saxlanmasında onların əsərlərinin qiyməti çox böyükdür.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Biz adətən böyük tariximiz haqqında, xalqlarımızın böyük mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək, eyni zamanda öz tariximizi, mədəniyyətimizi təbliğ edirik. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Bunlar bizim keçmiş, uzaq tariximizdir. Amma eyni zamanda xalqlarımızın mədəniyyəti, ədəbiyyatı, şeri bir çox məh[6-7]rumiyyətlərə, çətinliklərə məruz qalmışdır. Bu çətinliklər tarixin, ola bilər ki, bəzən çox böyük mərhələlərində mədəniyyətimizə zərbələr vurmuş, ancaq mədəniyyətimizi, ədəbiyyatımızı, şerimizi öldürə, məhv edə, yox edə bilməmişdir. Türkdilli xalqların bütün bu çətinliklərdən, sınaqlardan keçib gəlmiş mədəniyyəti, ədəbiyyatı, şeri indi dünyada, bəşəriyyətdə özünəməxsus görkəmli yerini tutubdur.

XX əsr dünya tarixində çox mürəkkəb, ziddiyyətli, gərgin proseslər dövrü olmuşdur. Bizim əksəriyyətimiz, demək olar, hamımız bu əsrdə doğulmuşuq və artıq bu əsri başa çatdırırıq. Xalqlarımızın – türkdilli xalqların, ölkələrin mədəniyyəti, ədəbiyyatı XX əsrdə ziddiyyətli, eyni zamanda çox şərəfli və müvəffəqiyyətli yol keçmişdir. Bir tərəfdən, bizim mənəviyyatımızı, mədəniyyətimizi, ədəbiyyatımızı bir-birindən ayırmaq, parçalamaq, milliliyin qarşısını almaq cəhdləri çox güclü olmuş, ikinci tərəfdən də yaranmış, ictimai-siyasi vəziyyət və xalqlarımızın cürbəcür imkanlardan istifadə edib dünya mədəniyyəti ilə daha sıx əlaqələr qurması

nəticəsində ədəbiyyatımız, mədəniyyətimiz çox inkişaf etmişdir.

Bu baxımdan Şərq mədəniyyətinin, Şərq ədəbiyyatının nə qədər zəngin olduğunu bu gün bir daha qeyd edərək, eyni zamanda XIX-XX əsrlərdə xalqlarımızın mədəniyyətinin, ədəbiyyatının Avropa mədəniyyəti, Rusiya mədəniyyəti ilə yaranmış əlaqələrdən istifadə edib çox böyük nailiyyətlər qazanmasını xüsusi qeyd etmək lazımdır. Bu, yeni bir şey deyil, təbiidir. Keçmişdə də böyük, dahi şairlərimiz, yazıçılarımız, tarixçilərimiz qədim yunan, Roma ədəbiyyatından, qədim Avropa ədəbiyyatından istifadə etmişlər. Eyni zamanda Qərb də həmişə Şərqin və xüsusən türkdilli xalqların, müsəlman Şərqinin yaratdığı böyük, tarixi əsərlərdən istifadə etmişdir. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir. Bu proses XIX-XX əsrlərdə bizim xalqlarımız üçün çox müvəffəqiyyətli olmuşdur və onların ədəbiyyatının, mədəniyyətinin inkişafına çox güclü, müsbət təsir göstərmişdir.

Beləliklə, milli mədəniyyətimizin, ədəbiyyatımızın inkişafının qarşısını almaq cəhdləri nə qədər çox olmuşdursa da, milli ədəbiyyatımızda, mənəviyyatımızda, mədəniyyətimizdə olan bir o qədər, bəlkə də ondan da çox olan güclər özünə cürbəcür yollar açmış və ümumbəşəri dəyərlərdən istifadə edərək daha da yüksək səviyyələrə çatmışdır. Bunu bizim türkdilli xalqların, [7-8] türk dünyasına mənsub olan ölkələrin XX əsr ədəbiyyatında, mədəniyyətində yaranmış əsərlərdə çox açıq-aydın görmək olar. Bizim hamımız bu əsərlərlə fəxr edirik.

Bu proseslər xüsusən Sovetlər İttifaqına mənsub olmuş türkdilli respublikaların həyatında baş vermişdir. Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Qırğızıstanda da, Tatarıstanda da, Başqırdıstanda da, Azərbaycanda da və başqalarında da. Bu illərdə bizim çox itkilərimiz olmuşdur. Böyük, dahi şəxsiyyətlərimiz repressiya qurbanları olmuş, onların əsərləri uzun illər qadağan edilmişdir. Ancaq bununla yanaşı – mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə vurulan bu zərbələrlə yanaşı, bu illərdə milli mədəniyyətimiz inkişaf etmiş, çox yüksək zirvələr fəth etmişdir. Bunların hamısının əldə olunmasında, bu nailiyyətlərimizdə yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın xüsusi xidmətləri var.

XX əsrdə mədəniyyətimizi inkişaf etdirmək üçün cürbəcür qurultaylarda iştirak etmişik, cürbəcür formalarda əlaqələr yaratmışıq. Bunların əksəriyyəti səmərəli olubdur, bunların müsbət nəticələrini inkar etmək düzgün olmazdı. Çəkdiyimiz zərərləri, bizə vurulan zərbələri əldə etdiyimiz nailiyyətlərlə müqayisə edəndə hər iki sahəyə ədalətli qiymət verməliyik.

Ancaq indi, XX əsrin sonunda bizim xalqlarımız, ölkələrimiz üçün yeni, gözəl fürsət, yeni bir şərait yaranmışdır. O da ondan ibarətdir ki, dünyada gedən ictimai-siyasi proseslər, baş vermiş dəyişikliklər, Sovetlər İttifaqının dağılması türkdilli, türk dünyasına mənsub olan xalqların tam azad olmasına, müstəqillik əldə etməsinə və müstəqil dövlət qurmasına imkanlar yaratmış və bu, qısa bir müddətdə öz gözəl nəticələrini vermişdir.

Keçmiş Sovetlər İttifaqına mənsub olan respublikalar, o cümlədən, türkdilli ölkələr beş ildir ki, öz dövlət müstəqilliyini əldə ediblər. Tarix nöqteyi-nəzərindən beş il çox az bir zamandır. Ancaq bu beş il içərisində xalqlarımızın həyatında çox böyük müsbət dəyişikliklər baş vermişdir. Doğrudur, xalqlarımız keçid dövrünü yaşayır, keçid dövrünün özünün sosial-iqtisadi çətinlikləri var. Yenidən dövlətlər qurulur, demokratik proseslər bərqərar olur. Bununla yanaşı, bəzi münaqişələr və başqa hadisələr də bizim ölkələrin həyatının sürətlə inkişaf etməsinə maneçilik törədir. Ancaq bunların hamısına baxmayaraq xalqlarımızın əldə etdiyi nailiyyət ən yüksək qiymətə malikdir. Milli azadlıq, dövlət müstəqilliyi bizim xalqlarımız [8-9] üçün hər bir şeydən üstündür və bunun naminə bütün əzab-əziyyətlərə dözmüşük, bu gün də dözürük, gələcəkdə də dözəcəyik. Ona görə ki, biz əbədi olaraq azad, sərbəst, müstəqil yaşamaq istəyirik.

Milli azadlığın, sərbəstliyin, müstəqilliyin xalqlarımıza bəxş etdiyi töhfələr göz qabağındadır. Ancaq biz bunun böyük gələcəyini də görürük. Bunlardan da biri ondan ibarətdir ki, biz sərbəst, müstəqil olaraq, heç bir kəsdən, heç bir dövlətdən asılı olmayaraq, öz istədiyimiz kimi əlaqələrimizi qururuq və əməkdaşlıq edirik, milli ənənələrimizi, milli dəyərlərimizi, mədəniyyətimizi birlikdə inkişaf etdirməyə çalışırıq. Türk dünyası yazıçılarının III qurultayı da və ümumiyyətlə, belə bir qurultayın yaranması, ənənəyə çevrilməsi də əldə etdiyimiz azadlığın, müstəqilliyin bəhrələridir.

Türkdilli ölkələr bu illərdə keçmiş, hamımıza mənsub olan mədəniyyətimizi, ədəbiyyatımızı yenidən təhlil etmək üçün, bu mənəvi dəyərlərimizin qiymətini birlikdə anlamaq üçün çox iş görübdür. Türkdilli ölkələrin dövlət başçılarının görüşü bu baxımdan çox mühüm amildir. Bu görüşün də əsası, 1992-ci ildə Türkiyə Cümhuriyyətində türkdilli dövlət başçılarının təşəbbüsü ilə qoyulubdur. Bu il oktyabrın 21-də biz Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının dördüncü görüşünü keçirdik. Onu bildirmək istəyirəm ki, görüşdən-görüşə bu qurumun, yəni türkdilli dövlətlərin başçılarının, bu təşkilatın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu biz dərk edirik.

Keçən görüşlərlə Daşkənd görüşünü müqayisə edərkən tam aydın görünür ki, bizim dövlətlərimiz, ölkələrimiz, dövlət orqanlarımız belə görüşlərin hər bir ölkə, xalq üçün son dərəcə əhəmiyyətli və səmərəli olduğunu dərk ediblər və mən tam əminəm ki, gələcək görüşlər daha da səmərəli olacaq və bu təşkilat daim yaşayacaqdır.

Bizim bu təşkilatın, görüşlərin əsas məna-məqsədi aydındır. Biz birinci növbədə ölkələrimiz arasında olan iqtisadi əməkdaşlığı genişləndirməyə çalışırıq. Bir dilə, bir kökə mənsub olmağımız, ölkələrimizin bir ərazidə, bir-birinə qonşu olan ərazidə yerləşməsi və coğrafi cəhətdən bir-birimizə çox yaxın olmağımız, şübhəsiz ki, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün əsas yaradır. Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır. Bu baxımdan ölkələrimizin bir-biri ilə iqtisadi əməkdaşlıq etməsi üçün daha çox imkanlar var. [9-10]

Amma eyni zamanda xalqlarımızın böyük tarixini yenidən təhlil etmək, yenidən qiymətləndirmək, ona düzgün, ədalətli qiymət vermək və hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyat, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran prinsiplərdir, vəzifələrdir. Bu sahədə yenə də mədəniyyətin, ədəbiyyatın, yazıçıların rolu böyükdür.

Təsəvvür edin, biz, türkdilli dövlətlər birlikdə "Manas"ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illiyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd edəcəyik.

Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və qeyd etdim, – mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da, dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim vəzifəmizdir, borcumuzdur. Bir də qeyd etmək istəyirəm ki, bu sahədə yazıçıların böyük xidməti, böyük rolu var və onların üzərinə bundan sonra da böyük vəzifələr düşür.

Bizim xalqlarımız uzun illər cürbəcür dövlətlərin tərkibində olduqlarına görə bir çox hallarda dillərindən və milli dəyərlərindən lazımi qədər istifadə etməkdən məhrum olublar, yaxud da ki, onların bu imkanları məhdudlaşdırılıbdır. Ancaq bizim dilimizi, mədəniyyətimizi. milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olublar. Ona görə də bu gün türk dünyası yazıçılarının III qurultayında mən bütün xalqlarımızın bütün dövrlərdə yaşayıb-yaratmış yazıçılarına və bu gün həyatımızda yaşayıb-yaradan yazıçılara təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Siz, şübhəsiz ki, burada öz yazıçılıq işlərinizin gələcəkdə qurulması ilə əlaqədar lazımi tədbirlər görəcək, lazımi qərarlar qəbul edəcəksiniz. Ancaq mənim tövsiyəm ondan ibarət olardı ki, bizim xalqlarımızın bir-biri ilə daha da yaxınlaşması üçün, bir-birini bilavasitə daha da anlaşması üçün, dillərimizin inkişaf etməsi üçün və bir kökdən olan dillərimizin bir-birinə [10-11] daha da yaxınlaşması üçün yazıçılar öz xidmətlərini göstərsinlər. Bizim dillərimiz bir kökə mənsubdur və bir-birimizi anlayırıq. Ancaq yaxşı olardı ki, dediyim bu sözləri mənim özbək, qırğız, qazax qardaşlarım da azərbaycanlı kimi anlasınlar və eyni zamanda bu qurultayda Başqırdıstandan, Qırğızıstandan olan yazıçıların çıxışlarını bizim azərbaycanlılar da tamam anlaya bilsinlər.

Şübhəsiz ki, bizim xalqlarımızın dilləri bir kökdən olaraq, hərəsi öz tarixi yolu ilə gedərək böyük inkişaf dövrü keçmişdir. Ancaq mən Azərbaycan dili haqqında danışarkən deyə bilərəm ki, bizim Azərbaycan dilimiz XX əsrdə çox inkişaf etmiş, çox zənginləşmişdir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublikada proseslər cürbəcür gedibdir.

Bizim respublikamızda – Azərbaycanda təxminən 30-cu, 40-cı, 50-ci illərdə, hətta 60-cı illərə qədər Azərbaycan dili hakim bir dil deyildi. Ona görə də Azərbaycan dilinin inkişaf etməsi, zənginləşməsi üçün dövlət tərəfindən lazımi işlər görülmürdü. Ancaq bunların hamısına baxmayaraq, bizim yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız, dilçi alimlərimiz öz işlərini görüblər və məlumdur ki, 70-ci illərdə onlar Azərbaycan Respublikasının dövlət dəstəyini də alıblar və bütün bunların nəticəsində biz indi, dövlət müstəqilliyimizi əldə edən zaman, müstəqil dövlət kimi Dünya Birliyinə daxil olduğumuz zaman zəngin Azərbaycan dövlət dili ilə fəxr edə bilərik.

Son illər bizim ölkələrimizdə gedən cürbəcür proseslər mədəni, elmi, ədəbi əlaqələrimizi müəyyən qədər zəiflədibdir. Ona görə də indi xalqlarımızın böyük simalarının yubileylərinin keçirilməsi ilə əlaqədar, türk dünyası yazıçılarının bu qurultaylarının keçirilməsi, TÜRKSOY təşkilatının fəaliyyəti ilə əlaqədar biz keçən illərdə müəyyən sahələrdə yaranmış boşluğu aradan götürməliyik. Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında olan əlaqələr bundan sonra bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət nöqteyi-nəzərindən, dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlətlərin başçılarının görüşləri buna çox böyük imkan verir. Dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir, dövlətləri[11-12]miz, ölkələrimiz arasında imzalanmış sazişlər və surətlə inkişaf edən iqtisadi əlaqələr bunların hamısına imkan yaradır. Alimlərimiz, mədəniyyət xadimlərimiz, yazıçılarımız bütün bu imkanlardan səmərəli istifadə etməli və bizim mədəni, ədəbi əlaqələrimizi daha da gücləndirməlidirlər. Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir.

Biz bu günlər böyük şair Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edəcəyik və bu münasibətlə də burada keçirilən görüşlər hesab edirəm ki, mədəni və ədəbi əlaqələrimizin inkişaf etməsi üçün yeni bir imkandır.

Bu gün, türk dünyası yazıçılarının III qurultayı işə başladığı zaman bu qurultayın yaranması və inkişaf etməsi üçün Türkiyə Cümhuriyyətinin və onun dövlət orqanlarının xidmətlərini bir daha xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, dövlət müstəqilliyi əldə edəndən sonra türkdilli dövlətlərin bir-biri ilə əlaqələrinin sürətlə inkişaf etdirilməsi, mədəni əlaqələrin yaranması üçün və bunlarla əlaqədar cürbəcür tədbirlərin keçirilməsi üçün Türkiyə Cümhuriyyətinin və xüsusən onun prezidenti, bizim böyük dostumuz hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Bu gün burada, türk dünyası yazıçılarının III qurultayında çıxış edən dəyərli qonaqlarımız çox qiymətli sözlər dedilər. Mən hesab edirəm ki, bunlar hamısı Azərbaycanın ictimai-siyasi həyatı, Azərbaycanın ictimaiyyəti üçün çox əhəmiyyətlidir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu günlər keçirilən cürbəcür görüşlər bizim əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Yazıçılıq sənətinə, ədəbiyyata, mədəniyyətə bir daha öz hörmət və ehtiramımı bildirir, türk dünyası yazıçılarının III qurultayının işində sizə uğurlar arzulayıram. Sağ olun. [12-13]

## TÜRKSOY BEYNƏLXALQ TƏŞKİLATININ BAKIDA KEÇİRİLƏN VIII TOPLANTISINDA NİTQ

*Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı*

*6 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, dostlar!

Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda türk dünyası yazıçılarının III qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. Sonra Azərbaycana təşrif gətirmiş qonaqlarımızla görüşlər və nəhayət, noyabrın 8-də böyük şair Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçiriləcəkdir. Beləliklə, qədim Azərbaycan torpağı, müstəqil respublikamız öz dostları, qonaqları ilə görüşür, qucağını öz dostlarına, qonaqlarına açır və səmimi qəlbdən ölkəmizi sayıb, hörmət edib, Məhəmməd Füzulinin yubileyinə rəğbət göstərib Azərbaycana gələnlərin hamısını ürəkdən salamlayır.

Hörmətli dostlar, TÜRKSOY Beynəlxalq Təşkilatının VIII toplantısının işə başlaması münasibətilə mən sizi ürəkdən təbrik edirəm, bu işinizdə sizə uğurlar arzulayıram.

Böyük məmnuniyyətlə qeyd edirəm ki, TÜRKSOY ötən dövrdə böyük yol keçibdir, yaxşı nailiyyətlər əldə edibdir, özünün çox zəruri və böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir. Böyük məmnuniyyət hissi doğurur ki, TÜRKSOY artıq beynəlxalq təşkilatdır. Birləşmiş Millətlər Təşkilatının bir hissəsi olan YUNESKO ilə bilavasitə əlaqə qurubdur. Böyük məmnuniyyət hissi doğurur ki, bu gün TÜRKSOY təşkilatının növbəti toplantısına artıq Gürcüstan Respublikasının nümayəndələri, mədəniyyət naziri və Rusiya Federasiyasının nümayəndələri, mədəniyyət nazirinin müavini də gəliblər, onlar da bu top[13-14]lantıda iştirak edirlər. Bunlar hamısı mədəniyyətin nə qədər böyük imkanlara malik olduğunu sübut edir. Bunlar hamısı mədəniyyətin müasir dövrdə insanların qarşısına çıxmış ağır, çətin, siyasi-iqtisadi, sosial problemlərin həllində nə qədər əhəmiyyət kəsb etdiyini və böyük xidmətlər göstərə biləcəyini sübut edir.

Ona görə də biz – Azərbaycan Respublikası, dövlətimiz TÜRKSOY Beynəlxalq Təşkilatının yaranmasından indiyə qədər onun zəruri olduğunu qeyd etmişik, bu barədə öz fikrimizi bildirmişik. Bu gün TÜRKSOY təşkilatının VIII toplantısında iştirak edərək xalqımız və dövlətimiz adından bəyan edirəm ki, bu təşkilatın gələcəkdə də uğurlu fəaliyyət göstərməsi üçün biz əlimizdən gələni əsirgəməyəcəyik.

Bu gün mən TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərini dinləyərək çox böyük hissiyyatlar keçirirəm. Bu, yeni bir aləmdir, dövrdür. Biz XX əsri sona çatdırırıq. Bir çox mərhələlərdən keçmişik. Həyatımızın çox xoşbəxt günlərini də yaşamışıq, eyni zamanda qanlı-qadalı, faciəli günlərini də görmüşük. Ona görə də hər bir yeni hadisə, şübhəsiz ki, bizi maraqlandırır və öz mənasına görə qiymətlidir.

TÜRKSOY-un yaranması və indi artıq geniş fəaliyyət göstərməsi bizim xalqlarımızı, ölkələrimizi həqiqətən ən çox sevindirən hadisələrdən biridir.

Vaxtilə biz Mərkəzi Asiyada olan türkdilli, türk kökünə mənsub xalqlarla, respublikalarla, ölkələrlə sıx əlaqədə olmuşuq.

Vaxtilə biz Tatarıstan və Başqırdıstan ilə sıx əlaqədə olmuşuq, görüşlərimiz keçirilib, mədəniyyət xadimlərimiz yaxından əməkdaşlıq ediblər, bir-birimizin ölkələrində mədəniyyət günləri keçirmişik. Ancaq mədəniyyətlərimizin bugünkü qədər yaxın, bu qədər sıx olduğunu görməmişik. Şəxsən mən dəfələrlə Mərkəzi Asiya ölkələrində olmuşam və o ölkələrin dövlət başçıları, respublikaların rəhbərləri, mədəniyyət nümayəndələri də Azərbaycanda olublar. Ancaq öz kökümüzə mənsub olan dildə bizim bir-birimizə müraciət etməyimiz, belə görüşlərdə öz dilimizdən istifadə etməyimiz və öz mədəniyyətimizin mənasını öz dilimizlə ifadə etməyimiz indiyədək olmamışdır. Mən bunları görərkən çox sevinirəm və hesab edirəm ki, bu, bizim böyük gələcəyimizin başlanğıcıdır.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın dövlətlərarası əlaqələrinin beşillik tarixi var. Ancaq Türkiyə ilə Azərbaycan [14-15] arasındakı dostluq və qardaşlıq əlaqələri əsrlərdən-əsrlərə keçibdir. Təəssüflər olsun ki, XX əsrdə bizim bu əlaqələrimiz çox məhdudlaşdırılmış, hətta kəsilmişdir. Türkiyədə baş verən hadisələr barədə məlumatı biz ancaq dünya mətbuatından alırdıq. Türkiyədəki qardaşlarımız, bacılarımız Azərbaycana həsrətlə baxır, burada olan hadisələrdən, gedən proseslərdən çox cüzi məlumatlar alırdılar. Ancaq indi biz müstəqillik əldə edəndən, sərbəst, azad olandan sonra bizim qısa bir müddətdə geniş əlaqələrimiz yaranıbdır. Türkiyə ilə Azərbaycan arasında indi olan əlaqələr bəlkə də tarix boyu bu qədər geniş, dərin olmayıbdır.

Bizim dilimiz, mədəniyyətimiz eynidir, bir-birimizlə də qonşuyuq. Ancaq bir-birimizdən nə qədər uzaqda olmuşuq, nə qədər aralı düşmüşük, bir-birimizin həsrətini çəkmişik. Bu gün artıq bir yerdəyik. Bu gün artıq

hamımıza aydın olan, hamımızın anladığı dildə danışırıq və öz ürək sözlərimizi bir-birimizə çatdırırıq.

Tatarıstanın və Başqırdıstanın TÜRKSOY-a üzv olması xüsusən əlamətdar bir hadisədir. Bu, sevindirici bir haldır. Tatarıstan da, Başqırdıstan da böyük respublikalardır. Biz çox sevinirik ki, bu respublikalar Rusiya Federasiyasının tərkibində özlərinə çox böyük səlahiyyətlər əldə ediblər. Bu səlahiyyətlər çox yüksək səviyyəlidir. Onlar artıq öz mədəniyyətini, milli irsini, milli tarixini istədikləri kimi həm geniş təhlil, həm də təbliğ etmək imkanı əldə ediblər.

Mən Tatarıstanın nümayəndələri ilə mərasimlərdə də, toplantılarda da və təkbətək də dəfələrlə görüşmüşəm. Ancaq biz ikimiz də anladığımız dildə heç vaxt danışmamışıq. Bu gün mən Tatarıstanın və Başqırdıstanın mədəniyyət nazirlərinin burada öz ana dillərində danışmasına çox sevinmişəm və bu ölkələri vaxtilə yaxşı bildiyimə baxmayaraq indiyədək heç təsəvvür edə bilmirdim ki, bu dillər bizim Azərbaycan dilinə bu qədər yaxındır və bu qədər də anlaşıqlıdır.

Bunlar hamısı dünyada gedən böyük ictimai-siyasi dəyişikliklərin nəticəsidir. Bunlar hamısı xalqlarımızın dövlət müstəqilliyini əldə etməsinin, milli azadlığa nail olmasının bəhrəsidir. Bunlar hamısı bizim üçün yeni bir eranın, yeni bir parlaq gələcəyin başlanğıcıdır. Biz xoşbəxt adamlarıq ki, bunlar bizə nəsib olubdur. Biz belə bir gələcəyin təməlini qoyanlardanıq. Ümidvaram ki, biz bu gələcəyi də görəcəyik, gələcək nəsillər görülən işləri layiqincə qiymətləndirəcəklər. [15-16]

Çox sevindirici haldır ki, bu gün TÜRKSOY-un növbəti toplantısında Rusiya Federasiyasının və Gürcüstan Respublikasının nümayəndə heyətləri də iştirak edirlər. Mən qonşu Gürcüstanın mədəniyyət naziri cənab Asatianini çox məmnuniyyətlə dinlədim. Rusiya Federasiyasının mədəniyyət nazirinin müavini, bizim üçün çox yaxın və hörmətli olan cənab Şerbakovun çıxışını çox böyük məmnuniyyətlə dinlədim. Hər iki çıxışda TÜRKSOY-a çox doğma, müsbət münasibət, bu təşkilatla əməkdaşlıq etmək arzusu və gələcək əməkdaşlığa ümid verən sözlər həddindən artıq sevindiricidir.

Cənab Şerbakovun çıxışındakı bir nöqtə çox maraqlıdır. O bildirdi ki, Rusiya Federasiyasında slavyandilli xalqlardan sonra ikinci yerdə türkdilli xalqlar durur və onların da sayı 12 milyondur. O bildirdi ki, slavyandilli xalqlarla türkdilli xalqların əməkdaşlığına Rusiya Federasiyasında çox böyük diqqət və qayğı göstərilir. Bu, sevindirici haldır. Keçmişdə bu məsələlərə biz heç vaxt toxunmurduq, toxuna bilmirdik. Yəni toxunmaq istəsəydik də, bu, keçmiş dövrün tələblərinə uyğun ola bilməzdi. Ancaq görürsünüz dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqı məkanında baş vermiş hadisələr, meydana gəlmiş dəyişikliklər və dövlətlərin, respublikaların öz müstəqilliklərinə nail olmaları və Rusiya Federasiyasının keçmişdə Sovetlər İttifaqına mənsub olmuş respublikaların dövlət müstəqilliyinə böyük hörmət və ehtiram hissi ilə münasibət göstərməsi belə bir yeni amillərin meydana çıxmasına, onlardan istifadə edilməsinə şərait yaradır.

Bir daha qeyd edirəm ki, bu son illərdə meydana çıxmış dəyişikliklərin nəticəsidir. Bunlar bizim hamımızın – həm türkdilli dövlətlərin, həm də türkdilli ölkələrlə qonşu olan dövlətlərin bir-biri ilə sıx əməkdaşlıq etməsi üçün çox gözəl imkanlar yaradıb və böyük yollar açıbdır.

Türkdilli ölkələrin dövlət başçılarının toplantılarında TÜRKSOY təşkilatına xüsusi əhəmiyyət verilir. Oktyabrın 21-də Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının 4-cü görüşündə biz mədəniyyət sahəsi ilə əlaqədar bir çox məsələləri müzakirə etdik və artıq bəyan edilmiş Daşkənd Bəyannaməsində bu təşkilatın qarşısında bir çox vəzifələr irəli sürdük. Bunlar sizə məlumdur. Hesab edirəm ki, türkdilli ölkələrin dövlət başçılarının Daşkənddə qəbul etdikləri bəyannamə TÜRKSOY beynəlxalq təşkilatı üçün yeni böyük vəzifələr meydana gətiribdir. Onların həyata keçirilməsi bu təşkilatın [16-17] işinin daha da canlanmasına gətirib çıxaracaqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, burada – Bakıda keçirilən VIII toplantıda Daşkənd Bəyannaməsində irəli sürülmüş vəzifələr sizin tərəfinizdən diqqətlə müzakirə olunacaqdır və onların həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəksiniz.

Ümumiyyətlə, türkdilli dövlət başçılarının görüşlərinin əsas məqsədi iqtisadi əməkdaşlığı inkişaf etdirməkdən, ölkələrimiz arasında olan bütün başqa əlaqələri genişləndirməkdən ibarətdir. Biz bəyan edirik ki, bizim bu görüşlərimiz siyasi xarakter daşımır. Eləcə də TÜRKSOY təşkilatı siyasi xarakter daşımır. Eyni zamanda, biz ölkələrimizin həyatı ilə əlaqədar olan ictimai-siyasi məsələlərə də biganə qala bilmirik və qala bilmərik. Ancaq bir daha deyirəm, bizim fəaliyyətimizin əsas istiqaməti iqtisadiyyat, elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığı genişləndirməkdən ibarətdir.

Bu baxımdan bizim üçün, yəni dövlət başçıları üçün TÜRKSOY təşkilatının fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Daşkənd Bəyannaməsində öz əksini tapmış qərarların əksəriyyəti elmə, mədəniyyətə, təhsilə aiddir. Onların çoxu da TÜRKSOY vasitəsilə həyata keçirilməlidir. Ona görə də mən güman edirəm ki, gələcəkdə bütün bu əlaqələrin genişlənməsi üçün siz lazımi tədbirlər həyata keçirəcəksiniz.

Bizim ölkələrimizdə gedən ictimai-siyasi proseslər, sosial-iqtisadi çətinliklər, şübhəsiz ki, mədəniyyətə istənilən qədər qayğı göstərməyə və maddi yardım etməyə imkan vermir. Bilirsiniz ki, Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində işğal olunubdur. İşğal olunmuş torpaqlarımızdan 1 milyondan artıq vətəndaşımız, azərbaycanlılar yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşüb qaçqın vəziyyətində yaşayırlar. Belə bir şəraitdə, şübhəsiz ki, bütün fəaliyyətimizin əsas hissəsi Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək,

yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz evlərinə, ellərinə-obalarına qaytarmaq və bununla yanaşı, iqtisadi islahatları həyata keçirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir. Bunlar bizim dövlətimizin, hökumətimizin işinin demək olar ki, bütün məzmununu təşkil edir, yəni biz fəaliyyətimizi əsasən buna yönəldirik. Bu vaxtı[17-18]mızın çox hissəsini alır və işimizin hamısını buna həsr etməyə məcburuq. Ancaq buna baxmayaraq, mədəniyyət, elm, təhsil bizim üçün ən əsas vəzifələrdəndir.

Mədəniyyətimizi, elmimizi, təhsilimizi, insanların mənəviyyatını daha da yüksəklərə qaldırmaq üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir. TÜRKSOY bu işi görür və indiyə qədər, qısa müddətdə – üç il ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə bilər və ölkələrimiz, xalqlarımız üçün daha çox iş görə bilər. Bu da ondan ibarətdir ki, xalqlarımızın əlaqələrini bir-biri ilə daha da sıx bağlasın. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir.

Burada çıxış edən natiqlər də dedilər ki, müxtəlif tədbirlər keçirilməsi artıq öz nəticəsini veribdir. Ancaq qarşıda böyük vəzifələr durur. Məsələn, Daşkənd Bəyannaməsində biz TÜRKSOY-a tövsiyə etdik ki, bu təşkilat ona daxil olan türkdilli ölkələrin xalqlarının ümumi bir təqvimini tərtib etsin və bu təqvim, ola bilər, gələcəkdə hər bir xalqın tarixinə, mədəniyyətinə, tarixi keçmişinə aid hadisələrin birlikdə qeyd olunmasını, lazım gələrsə yubiley mərasimlərinin, təntənələrinin bir yerdə keçirilməsini təmin etsin.

Məhəmməd Füzulinin yubileyinin keçirilməsi xalqlarımızın son illərdə bu baxımdan əlaqələrinin inkişaf etməsinin nəticəsidir. Artıq Azərbaycana bir çox ölkələrdən – türkdilli, qonşu və başqa ölkələrdən bu yubiley mərasimlərində iştirak etmək üçün yüksək səviyyəli nümayəndə heyətlərinin gəlməsi respublikamızın, xalqlarımızın, ölkələrimizin həyatında yeni bir mərhələnin yarandığını göstərir. Bunlar hamısı sevindirici haldır. Bunlar TÜRKSOY təşkilatı üçün gələcəkdə də yaxşı əsas yaradır.

Mən sizinlə bugünkü görüşümdən çox məmnunam. Sizin hamınıza bu işinizdə müvəffəqiyyətlər arzu edirəm. Bu fürsətdən istifadə edib TÜRKSOY təşkilatına daxil olan ölkələrin xalqlarına və bu mərasimdə iştirak edən nümayəndə heyətlərinin təmsil etdikləri ölkələrin xalqlarına hörmət və ehtiramımı bildirirəm və dostluq salamımı göndərirəm. Sağ olun, işləriniz uğurlu olsun, gələcək görüşlərə qədər. [18-19]

**AMERİKA BİRLƏŞMİŞ**
**ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**UİLYAM C. KLİNTON**
**CƏNABLARINA**

Hörmətli cənab prezident!

Seçkilərdə inandırıcı qələbə qazanaraq ikinci dəfə Amerika Birləşmiş Ştatlarının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə, ailənizə, bütün Amerika xalqına səadət, əmin-amanlıq və firavanlıq arzulayıram.

Amerika Birləşmiş Ştatlarının prezidenti vəzifəsində olduğunuz dövrdə Siz Amerika xalqı üçün, həm də bütün bəşəriyyət üçün böyük əhəmiyyət kəsb edən parlaq nailiyyətlər əldə etmisiniz. Demokratiya və azadlıq ideallarını ardıcıl surətdə müdafiə etməklə, sülh, sabitlik və insan hüquqları uğrunda, dünyada mövcud olan münaqişələrin ədalətlə aradan qaldırılması naminə yorulmadan mübarizə aparmaqla Siz dünya birliyinin inkişafına layiqli töhfələr verirsiniz.

Əminəm ki, prezidentliyinizin yeni mərhələsində də Siz Amerika Birləşmiş Ştatlarının tərəqqisini və çiçəklənməsini əmin edəcəksiniz, bütün dünyada gedən proseslərə müsbət təsir göstərəcəksiniz.

Məmnuniyyətlə qeyd etmək olar ki, Sizin rəhbərliyiniz dövründə Amerika-Azərbaycan münasibətləri əməkdaşlığın bütün sahələrində müvəffəqiyyətlə inkişaf etmişdir. Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü Sizin qətiyyətlə dəstəkləməyinizi, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində göstərdiyiniz səyləri biz yüksək qiymətləndiririk. Ümidvaram ki, bu səylər tam uğurla nəticələnəcək və bizim regionumuz sülhə qovuşacaq, çiçəklənən iqtisadi əməkdaşlıq məkanına çevriləcəkdir.

Azərbaycanda apardığımız siyasi və iqtisadi islahatlara, demokratik hüquqi dövlət quruculuğuna və sərbəst bazar iqtisadiyyatı yaradılmasına Sizin diqqətinizi və yardımınızı biz daim hiss edirik. [19-20]

Ümidvaram ki, bizim səmərəli iqtisadi əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir. Xəzər dənizinin Azərbaycan sektorunda energetika resurslarının Amerikanın məşhur şirkətləri ilə müştərək işlənməsi sahəsində əməkdaşlığımızın gələcəyinə mən xüsusi əhəmiyyət verirəm.

Sizi Amerika Birləşmiş Ştatlarının prezidenti seçilməyiniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edirəm. Sizə və bütün Amerika xalqına ən xoş arzularımı bildirirəm.

Səmimiyyətlə, Sizin

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 noyabr 1996-cı il* [20-21]

## MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ SİMPOZİUMA

Hörmətli alimlər!

Xanımlar və cənablar!

Sizi dünya ədəbiyyatının klassiki, dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş beynəlxalq simpoziumun açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Füzuli beş əsrdir ki, dünya poetik fikrinin inkişafında misilsiz rol oynayır. Onun yaradıcılığı əsrlərdən bəri Yaxın və Orta Şərqin ədəbi fikrini öz təsiri altında saxlamışdır. Füzuli poeziyasının türk xalqlarının mədəniyyətlərinin yaxınlaşması və qovuşmasında əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu gün türkdilli xalqların hər biri Füzulini öz doğma şairi kimi sevir və onun 500 illik yubileyini təntənəli şəkildə qeyd edir.

Füzuli Azərbaycanın böyük milli sənətkarı olmaqla yanaşı bütün müsəlman aləminin qəlb şairidir. Qoca Şərqin bədii, ədəbi-nəzəri, mənəvi-estetik dünyasının elə bir guşəsi yoxdur ki, Füzuli şeri ilə bəhrələnməsin. Füzulinin humanizm və ümumbəşəri dəyərlərlə mayalanmış yaradıcılığı bütün bəşəriyyət üçün böyük mənəvi qidadır.

Əziz füzulişünas alimlər!

Sizi bu gün Füzulinin tarixi Vətənində – milli dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında [21-22] salamlamaqdan xüsusi fərəh hissi duyuram. Bu beynəlxalq simpozium bir daha təsdiq edir ki, dünyanın bir çox ölkələrində Füzulişünaslıq bir elmi istiqamət kimi artıq özünü təsbit etmişdir. Füzulinin tədqiqi və nəşri sahəsində Azərbaycanda da, sizin ölkələrdə də böyük işlər görülmüşdür.

Mən inanıram ki, Azərbaycanda keçirilən bu yubiley təntənələrindən sonra bütün dünyada Füzulişünaslıq elmi daha da inkişaf edəcəkdir. Füzuli irsinin və dövrünün öyrənilməsində yeni elmi nəticələr əldə olunacaqdır. Sizə bu nəcib və şərəfli işinizdə uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 noyabr 1996-cı il* [22-23]

## DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

*Respublika sarayı*

*8 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar, dostlar!

Sizi dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi, xalqımızın el bayramı münasibətilə ürəkdən təbrik edirəm!

Məhəmməd Füzulinin 500 illik yubileyinə, yubiley mərasimlərində iştirak etmək üçün respublikamıza gəlmiş bir çox ölkələrdən olan nümayəndə heyətlərinə, dövlət xadimlərinə, ictimai xadimlərə, elm, mədəniyyət xadimlərinə, bütün qonaqlarımıza Füzuli yaradıcılığına, Azərbaycan Respublikasına göstərdikləri hörmət və diqqətə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Məhəmməd Füzulinin 500 illik yubileyi üç ildir ki, Azərbaycanın hər bir guşəsini fəth edibdir və dünyanı dolaşır. Bu üç il müddətində Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasında, onun hər bir yerində – şəhərində, qəsəbəsində, hər bir guşəsində böyük təntənəli mərasimlər keçirilib, bu dahi şairin yaradıcılığına hörmət və ehtiram bildirilibdir.

Məhəmməd Füzulinin yubileyi təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində təntənəli surətdə keçirilibdir. Türkiyədə – Ankarada, Rusiyada – Moskvada, İraqda – Bağdadda, Kərbəlada, Kərkükdə, İranda – Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə, YUNESKO-nun baş qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli [23-24] mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır.

Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında keçirilməsi ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının YUNESKO təşkilatı tərəfindən qəbul olunmuş qərar xalqımıza, mədəniyyətimizə, Məhəmməd Füzuliyə verilmiş böyük qiymət, hörmət və ehtiramdır. Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə Birləşmiş Millətlər Təşkilatının YUNESKO təşkilatının baş direktoru hörmətli cənab Federiko Mayor Azərbaycana gəlib, bu gün bizimlə bərabərdir, bu yubileyi bizimlə bir yerdə qeyd edir.

Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycanda son üç ildə böyük tədbirlər keçirilmişdir. Türk dünyası yazıçılarının III qurultayında Məhəmməd Füzulinin yaradıcılığı və onun 500 illik yubileyi diqqət mərkəzində olmuşdur. Türkdilli ölkələrin beynəlxalq TÜRKSOY təşkilatının VIII toplantısında Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi diqqət mərkəzində olmuşdur. Bakıda beynəlxalq simpozium keçirilmişdir. Məhəmməd Füzulinin yaradıcılığı bu günlər bir daha həm Azərbaycanın ictimaiyyəti qarşısında yüksəlmiş, həm də dünyaya nümayiş etdirilmişdir.

Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.

Məhəmməd Füzulinin yaradıcılığı, əsərləri, onun irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir. Məhəmməd Füzuli 40 illik yaradıcılıq dövründə 500 il daim yaşayan böyük əsərlər yaratmışdır. O, Azərbaycan şerinin, Şərq şerinin ən yüksək zirvəsinə çatmış və onun yaratdığı şerlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir insanlara böyük mənəvi ruh verir.

Məhəmməd Füzulinin yaradıcılığında elmin, fəlsəfənin bir çox sahələri geniş təhlil olunmuş və onun əsərlərində öz əksini tapmışdır. Onun bütün əsərləri şer, poeziya, ədəbiyyat nümunələri olmaqla bərabər, eyni zamanda böyük fəlsəfi ideyalar, elmi fikirlər daşıyır. Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək, yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi ola[24-25]raq şerin, elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır.

Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır. Bu abidə 500 ildir ki, insanların qəlbindədir. O, Azərbaycan Respublikasının hər bir vətəndaşının qəlbindədir. Bu, mənəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, bütün müharibələrdən, döyüşlərdən, vuruşlardan keçərək yaşayır, gün-gündən yüksələrək zirvələri fəth edir. Biz bu gün, bu el bayramı günü Məhəmməd Füzulinin Azərbaycanın paytaxtı Bakıda, Füzuli meydanında ucaldılmış heykəlinin önünə getdik, onun heykəlinin qarşısına güllər qoyduq. Ancaq Füzulinin özünün yaratdığı mənəvi heykəl bizim hər birimizin qəlbindədir. O, əbədi yaşayacaq, gələcək nəsillərin qəlbində də yaşayacaqdır.

Məhəmməd Füzuli xalqların keçdiyi tarixi yolu təhlil edərək çox yüksək fəlsəfi ümumi bəşəri fikirləri, dəyərləri öz əsərlərində əks etdirmişdir. O, yaşadığı dövrdə gedən ictimai-siyasi prosesləri, insan cəmiyyətini, insan həyatını təhlil edərək insanlar, cəmiyyət üçün ölməz fikirlər söyləmiş, ölməz tövsiyələr vermişdir. Onun əsərlərinin hamısı insan cəmiyyəti, insanların bir-birinə münasibətini, insanlarda bütün müsbət keyfiyyətləri tərənnüm etməkdən, insanlarda, cəmiyyətdə olan mənfi hallara öz etirazını, nifrətini bildirməkdən ibarət olmuşdur.

Məhəmməd Füzulinin əsərlərində insanların sevgisi, məhəbbəti, eşqi, insanın insana münasibəti, sədaqəti, etibarlığı vəsf, tərənnüm edilmişdir. Məhəmməd Füzuli bütün əsərlərində insanları sədaqətə, etibarlılığa, ataya-anaya, Vətənə, torpağa, eşqə, məhəbbətə, öz ülvi duyğularına sədaqətə dəvət etmişdir – bunların hamısı 500 il bundan əvvəl olduğu kimi, bu gün də insanlar üçün ən vacib, lazım olan yüksək mənəvi keyfiyyətlərdir.

Məhəmməd Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir. Ona görə də Füzulinin əsərləri 500 ildir ki, yaşayır və bundan sonra da yüz illərlə, min illərlə yaşayacaqdır.

Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış [25-26] və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

Məhəmməd Füzulinin yaşadığı dövr çox mürəkkəb, böyük müharibələr dövrü olmuşdur. O, bu müharibələrin şahidi olmuş və müharibənin, düşmənçiliyin, cürbəcür münaqişələrin insana, cəmiyyətə nə qədər zərbələr vurduğunu öz gözləri ilə görmüşdür. Ona görə də Füzulinin əsərlərinin əsas motivlərindən biri də zorakılığa, zülmə, müharibəyə etirazdır. O, insanları barışığa, sülhə, dostluğa, mehribanlığa dəvət etmişdir, insanlardakı, cəmiyyətdəki bu keyfiyyətləri öz əsərlərində tərənnüm etmişdir.

Füzuli onun bugünkü nəvə-nəticələri kimi sülhsevər, xeyirxah insan olmuş, xeyirxahlığı, sülhsevərliyi öz əsərlərində daim təbliğ etmişdir.

Məhəmməd Füzuli öz əsərləri ilə ondan sonrakı nəsillərin hamısına böyük təsir göstərmişdir. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə şairlər, yazıçılar, alimlər çox şerlər yazmış, yaratmışlar. Bir çoxları onu təkrar etməyə çalışmışlar. Bu da Məhəmməd Füzuli yaradıcılığının bəşəriyyətə, xalqlarımıza göstərdiyi böyük xidmətlərindən biridir.

Məhəmməd Füzulinin əsərlərindən irəli gələn ideyalar xalqımızın, digər türkdilli xalqların, İslam dünyasına mənsub xalqların mədəniyyətində, ədəbiyyatında yeni-yeni böyük əsərlərin yaranmasına səbəb olmuşdur. Bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki. Azərbaycan xalqının dahi şairi Nizami Gəncəvi ilk dəfə qədim Şərqin məşhur əfsanəsi əsasında özünün ölməz "Leyli və Məcnun" poemasını yaratmışdır. Bu, XII əsrdə olmuşdur. XI əsrdə Məhəmməd Füzuli həmin əfsanənin əsasında öz "Leyli və Məcnun" poemasını yaratmışdır. Leyli ilə Məcnuna həsr olunmuş əbədi əsərlər dünyada çoxdur. Orta əsrlərdə yüzlərlə belə əsər yaradılmışdır. Ancaq biz belə hesab edirik ki, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması o əfsanənin fəlsəfi mənasını ən yüksək zirvələrə qaldırmışdır.

XX əsrin əvvəlində böyük Azərbaycan bəstəkarı Üzeyir [26-27] Hacıbəyov Məhəmməd Füzulinin poeması əsasında müsəlman Şərqində ilk opera əsəri – "Leyli və Məcnun" operasını yaratmışdır. Bu da çox səciyyəvidir ki, XII əsrdə Nizami Gəncəvi bu mövzuda ilk poemanı yaratmış, XVI əsrdə Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasını yüksək səviyyələrə qaldırmış, XX əsrin əvvəllərində Üzeyir Hacıbəyov bu poemanın əsasında Azərbaycanın ilk opera əsərini yaratmışdır. 90 ildir ki, "Leyli və Məcnun" operası Azərbaycanın opera səhnəsindən düşmür. Bu opera 90 il müddətində bütün dünyanı dolaşıb. Füzuli yaradıcılığını, Üzeyir Hacıbəyov yaradıcılığını bütün dünyaya nümayiş etdirib, Azərbaycan xalqının şerini, musiqisini yüksək zirvələrə qaldırıbdır.

Bizim əsrimizdə Azərbaycan yazıçıları, şairləri, bəstəkarları, rəssamları, heykəltəraşları Məhəmməd Füzulinin əsərlərinə həsr olunmuş, onun əsərlərindən irəli gələn ideyalardan istifadə edərək gözəl əsərlər yaratmışlar. Qara Qarayevin "Leyli və Məcnun" simfoniyası, Cahangir Cahangirovun "Füzuli" kantatası və digər əsərlər buna misal ola bilər.

Beləliklə, Məhəmməd Füzuli öz yaradıcılığı ilə, öz əsərləri ilə indiyədək yaşamış, indi də yaşayan və bizim hamımıza ilham verən, mənəvi qida və ruh verən əsərləri ilə sonrakı nəsillərin şair, yazıçı, bəstəkar, rəssam və heykəltəraşlarının yaradıcılığı üçün gözəl mövzular, ideyalar vermiş, onlara ilham vermiş, onların öz sənətlərinin yüksək zirvələrinə qalxmasına kömək etmişdir. Bütün bunlar Məhəmməd Füzulinin yaradıcılığının və onun sonrakı nəsillərə qoyduğu irsin məzmunu və mənasıdır, onların yüksək qiymətidir.

O dövrdən 500 il keçibdir. Bu əsrlər, bu illər ərzində Məhəmməd Füzuli daim yaşayıbdır. Təsadüfi deyildir ki, onun əsərlərinin böyük əksəriyyəti bugünədək gəlib çatıbdır. Ancaq Məhəmməd Füzuli elmi cəhətdən, nəzəri cəhətdən indiki kimi öyrənilməyib, təhlil və tədqiq olunmayıb, təbliğ edilməyibdir.

Bu 500 il ərzində ilk dəfədir ki, Məhəmməd Füzulinin yubileyi, onun xatirəsi belə yüksək səviyyədə, belə geniş miqyasda keçirilir, yad olunur. Bu, bizim müasir Azərbaycanın, indiki nəslin, Azərbaycan Respublikasının, Azərbaycan xalqının öz mədəniyyətinə, öz tarixinə, öz dahi şəxsiyyətlərinə göstərdiyi hörmət və ehtiramdır. Lakin bu, Məhəmməd Füzuli yaradıcılığının tədqiq və təbliğ olunmasının başlanğıcıdır. Hesab edirəm ki, Məhəmməd Füzuli yaradıcılığı, onun irsi elə bir dəryadır ki, onun dərinliklərinə nüfuz etmək üçün, o dərin [27-28] qatlardakı fikirləri, tövsiyələri mənimsəmək üçün, öyrənmək üçün hələ çox işlər görülməlidir. Güman edirəm ki, 500 illik yubiley tədbirləri Məhəmməd Füzuli yaradıcılığının elmi-nəzəri cəhətdən gələcəkdə də tədqiq, təbliğ olunması üçün böyük yollar açır.

Əmin olduğumu bildirmək istəyirəm ki, gələcək nəsillər Füzulinin 500 illik yubiley mərasimlərini unutmayacaq və bu təşəbbüsü daha da yüksəklərə qaldıracaqlar.

Məhəmməd Füzulinin yaradıcılığına, onun əsərlərinə xalqımızda hörmət və minnətdarlıq hissi həmişə olmuşdur. Ancaq Məhəmməd Füzulinin əsərlərini və yaradıcılığını biz keçmişdə heç vaxt indiki kimi dərk edə bilməmişdik. Bunlar da Azərbaycan xalqının artıq milli azadlığa, dövlət müstəqilliyinə nail olması ilə əlaqədardır. Biz indi öz müstəqil dövlətimizdə, müstəqil ölkəmizdə öz tariximizi, öz milli-mənəvi dəyərlərimizi, ənənələrimizi sərbəst, daha doğru, daha düzgün qiymətləndirə bilirik və onları heç nədən çəkinmədən, qorxmadan təbliğ edə bilirik.

Biz Məhəmməd Füzuli yubileyini xalqımızın, respublikamızın həyatında ağır bir mərhələdə keçiririk. Bildiyiniz kimi, səkkiz il bundan öncə Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı Ermənistan tərəfindən hərbi təcavüz edilmişdir. Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin bir qismi, 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, zəbt edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşmüş, qaçqın düşmüş, qaçqın vəziyyətində çadırlarda yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, onun milli dövlətçiliyinə, ərazi bütövlüyünə böyük zərbələr vurulmuşdur.

Bununla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmək ərəfəsində və dövlət müstəqilliyinə nail olduqdan sonra böyük ictimai-siyasi, sosial-iqtisadi proseslər dövrünü yaşayır. Bu dövrdə Azərbaycanın həyatında çox təhlükəli, Azərbaycanın dövlətçiliyi üçün, milli mədəniyyəti üçün çox qorxulu hadisələr də baş vermişdir. Bütün bunlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatını zəhərləmiş, pozmuş, böyük çətinliklər yaratmışdır. Bunlarla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurmuşdur. Respublikamızda demokratik proseslər inkişaf edir, iqtisadi islahatlar həyata keçirilir. Biz yeni dövlət qururuq, yeni demokratik cəmiyyət formalaşdırırıq, yeni [28-29] iqtisadiyyat formaları yaradırıq. Bunların hamısı çox mürəkkəb, eyni zamanda çətin proseslərdir.

Belə bir zamanda, belə bir dövrdə Məhəmməd Füzuli yaradıcılığı bizə ruh verir, ilham verir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızda həmişə milli mənlik duyğularını, hisslərini tərbiyə etmiş və xalqımızı öz milli mənliyini dərk etmək, qorumaq ruhunda tərbiyə etmişdir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızın milli azadlıq uğrunda mübarizəsində, yeni dövlət quruculuğu prosesində, ölkəmizdə demokratik, hüquqi dövlət qurulması prosesində bizə kömək edən ən böyük amillərdən biridir. Biz fəxr edirik ki, xalqımız belə qədim, zəngin mədəniyyətə malikdir. Biz fəxr edirik ki, xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini daim qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir. Biz fəxr edirik ki, Məhəmməd Füzuli kimi dahi şairimiz var, böyük alimimiz var, böyük filosofumuz var.

Şübhə yoxdur ki, Məhəmməd Füzulinin 500 illik yubiley mərasimləri xalqımızın mənəvi həyatını daha da zənginləşdirir, xalqımıza daha böyük ruh verir, xalqımızı vətənpərvərlik, Vətənə sədaqət, torpağa sədaqət ruhunda tərbiyələndirir və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqları azad etmək üçün, Azərbaycan Respublikasını yüksəklərə qaldırmaq üçün bizim hamımızı səfərbər edir. Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə Məhəmməd Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq.

Mən əminəm ki, bu yubiley şənlikləri, bu böyük bayram xalqımızı daha da birləşdirəcək, daha da yekdil edəcəkdir. Məhəmməd Füzuli insanları dostluğa, mehribanlığa dəvət edibdir. Eşqi, məhəbbəti, sevgini vəsf edərkən, insanlarda saf mənəviyyatı, ülvi duyğuları vəsf edərkən Məhəmməd Füzuli insanları birliyə, həmrəyliyə, dostluğa, mehribanlığa çağırıbdır. Bu gün Məhəmməd Füzulinin bu fikirləri bizim üçün hər şeydən vacibdir. Biz ölkəmizi bu ağır mərhələdən keçirmək üçün, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqlarımızı azad etmək üçün, ölkəmizdə demokratik prosesləri inkişaf etdirmək üçün, ölkəmizin dünya birliyində özünə layiq yer tutması üçün, onu daha da irəliyə aparmaq üçün daxilimizdə olan birliyi, həmrəyliyi möhkəmlətməliyik. [29-30]

Mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, son illər Azərbaycan dövlətinin qüdrətinin möhkəmlənməsi illəri olmuşdur. Son illər Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin sabitləşməsi illəri olmuşdur. Son illər insanların bir-birinə münasibətlərinin daha da mehribanlaşması, daha da inkişaf etməsi illəri olmuşdur. Biz bunları öz nailiyyətlərimiz kimi qiymətləndiririk. Amma eyni zamanda respublikanın gələcəyi üçün bunları ilk addımlarımız hesab edirik və ümidvaram ki, Məhəmməd Füzuli yaradıcılığı, onun nəsihətləri, onun bizə bəxş etdiyi töhfələr və irs bizə bu yolda uğurla getməyə kömək edəcəkdir.

Eşq olsun şerə, eşq olsun Füzuliyə, eşq olsun Füzuli yaradıcılığına! Yaşasın elm, mədəniyyət, yaşasın şer! Yaşasın müstəqil Azərbaycan Respublikası! [30-31]

## DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*8 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, əziz dostlar!

Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr olunmuş mərasimlər sona çatır. Üç ildir ki, Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilir. Hesab edirəm ki, bu müddətdə Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunubdur və onun böyük şəxsiyyətinə, yaradıcılığına, irsinə xalqımızın, millətimizin hörmət və ehtiramını bildirə bilmişik.

Bu gün yubiley mərasimlərinin son günüdür və çox böyük görüşlərlə və Məhəmməd Füzuliyə həsr olunmuş sözlərlə, bədii ifadələrlə, musiqi ilə, şerlə dolu bir gündür. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikası və onun dövləti öz böyük oğlunun – böyük Füzulinin xatirəsini bu günün imkanları çərçivəsində qeyd etmək üçün əlindən gələni etmişdir. Eyni zamanda onu da demək yerinə düşərdi ki, 500 il ərzində – Füzulinin sağlığında da, o həyatdan gedəndən sonra da Füzuli yaradıcılığı, Füzuli şəxsiyyəti haqqında bu qədər yüksək səviyyəli tədbirlər keçirilməmişdir. Füzulinin 400 illiyi də olub. 450 illiyi bizim nəslin vaxtında olub, indi 500 illik yubileyini başa çatdırırıq. Biz fəxr edə bilərik ki, bu 500 illik yubileydə Füzulini onun yaradıcılığının, şəxsiyyətinin layiq olduğu səviyyəyə çatdırdıq.

Şübhəsiz ki, Füzuli elə bir şəxsiyyət, elə bir dahidir ki, onun haqqında, xatirəsi ilə əlaqədar nə qədər çox iş görülsə də Füzulinin öz səviyyəsinə çatmaq mümkün olmayacaqdır. Ancaq biz buna çalışmışıq, bu yolla getmişik və şübhə yoxdur ki, bu yolla getməkdə davam edəcəyik. [31-32]

Füzulinin yubileyini keçirmək üçün bu üç il müddətində Azərbaycanın dövlət orqanları, ictimai və mədəniyyət təşkilatları olduqca çox iş görüblər. Füzulinin 500 illik yubileyi üzrə dövlət komissiyasının üzvləri çox iş görüblər. Füzulinin 500 illik yubileyinin hazırlanmasında, üç il müddətində keçirilməsində və bu son günlərdə yubiley mərasimlərinin keçirilməsində xidmət göstərmiş, iştirak etmiş dövlət orqanlarına, ictimai təşkilatlara, mədəniyyət təşkilatlarına, ayrı-ayrı elm, mədəniyyət, incəsənət xadimlərinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Məhəmməd Füzulinin 500 illik yubileyi bir çox dost ölkələrin nümayəndələrini Azərbaycana topladı. Biz Azərbaycanda böyük Nizaminin 800 illik yubileyini də qeyd etmişik. Nizaminin 840 illik və 850 illik yubileyləri də qeyd olunubdur. Böyük Azərbaycan şairi Nəsiminin 600 illik yubileyini qeyd etmişik. Deyə bilərəm ki, Məhəmməd Füzulinin 500 illik yubileyi Azərbaycanın böyük şəxsiyyətlərini indiyə qədər keçirilmiş bütün yubiley mərasimlərindən öz məzmununa, mənasına görə və tədbirlərin əhatəliliyinə görə hamısından yüksəyə qalxmışdır.

Bunun səbəblərindən biri də odur ki, Azərbaycan xalqı bu yubileyi öz dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra keçirir. Biz müstəqil ölkəyik, müstəqil dövlətik, öz tariximizə, mədəniyyətimizə, milli mənəviyyatımıza istədiyimiz münasibəti, layiqli münasibət göstərmək imkanına malikik və bu haqqı qazanmışıq. Ona görə də Məhəmməd Füzulinin 500 illik yubileyinə gələn nümayəndə heyətlərinin, qonaqların da sayı keçmiş dövrlərdə ölkəmizə gələn qonaqların, nümayəndə heyətlərinin sayından artıq olmuşdur. Şəxsən mən çox məmnunam ki, bir neçə qitəni əhatə edən insanlar Füzulinin 500 illik yubileyi ilə əlaqədar bu gün Azərbaycan torpağında bir araya gəlmişlər. Amerika Birləşmiş Ştatlarından, Amerika qitəsindən, Avropadan, Asiyadan, Ərəbistandan, Afrikadan gələn qonaqlar bizim bu yubiley mərasimlərini həddindən artıq mənalı-məzmunlu etmiş və ona böyük beynəlxalq xarakter vermişlər. Bunlara görə, güman edirəm, beynəlxalq YUNESKO təşkilatı da Füzuli yubileyinin böyük beynəlxalq miqyas almasını bu günlərdə hiss etdi.

Füzulinin 500 illik yubileyinə gəlmiş bütün qonaqlara təşəkkürümü bildirirəm. Azərbaycana gəlmiş hörmətli qonaqlarımız bu günlərdə keçirilən elmi simpoziumda, yazıçıların qu[32-33]rultayında, TÜRKSOY-un toplantısında və nəhayət, bu gün yubiley mərasiminin zirvə tədbirində Füzuli haqqında, onun aradıcılığı, irsi haqqında, Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası haqqında çox xoş sözlər dedilər. Hörmətli qonaqlar, bütün bu sözlərə, xoş arzulara görə, dostluq münasibətinə görə, bu günlər Məhəmməd Füzulinin əziz xatirəsinə həsr olunmuş yubileyi bizimlə bir yerdə keçirdiyinizə görə sizə dərin minnətdarlığımı və böyük təşəkkürümü bildirirəm.

Hesab edirəm ki, Füzulinin 500 illiyi ilə əlaqədar keçirilmiş tədbirlər, yaranmış əhval-ruhiyyə Füzulinin yaradıcılığını daha da dərindən öyrənmək və təbliğ etmək üçün bizə çox mühüm imkanlar yaradıbdır. İnanıram ki, Füzuli yaradıcılığına, onun irsinə olan hörmət və ehtiram bundan sonra daha da artacaqdır.

Bu, təkcə Füzuliyə görə, Füzulinin yaradıcılığına görə deyil, bizim bugünkü günümüz, sabahımız üçün lazımdır. Füzulini oxuyaraq, ona sitayiş edərək, Füzulinin xatirəsi qarşısında baş əyərək, biz eyni zamanda dostluğa, mehribanlığa, milli həmrəyliyə, bərabərliyə sadiq olmağımızı nümayiş etdiririk. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dostluğa, əməkdaşlığa bundan sonra da sadiq olacaqdır. Əmin edirəm ki, müstəqil, demokratik Azərbaycan Respublikasında birlik, həmrəylik, dostluq, mehribanlıq üçün bundan sonra da gərəkli addımlar atılacaqdır. Bunların hamısını bizə böyük Füzuli vəsiyyət edibdir. Bunlar hamısı Füzuli yubileyindən çıxardığımız nəticələrdir.

Mən bu el bayramı, dostluq bayramı, şer, mədəniyyət bayramı münasibətilə sizi bir daha təbrik edir, hamınıza cansağlığı, səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Füzuli yaradıcılığı, Füzuli irsi şərəfinə, şerin, mədəniyyətin şərəfinə, insanlığın, mənəviyyatın şərəfinə badə qaldırmağınızı xahiş edirəm. Hörmətli dostlar, əziz qonaqlar, sizin şərəfinizə! [33-34]

## 12 NOYABR – KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz Azərbaycan vətəndaşları!

1995-ci il noyabrın 12-də müstəqil dövlətimiz və bütün xalqımız üçün taleyüklü əhəmiyyət kəsb edən ilk konstitusiyamız ümumxalq referendumu yolu ilə qəbul edilmişdir.

Bu konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir.

Qəbul olunduğu gündən keçən bir ildə Azərbaycan dövlətinin diqqəti respublika həyatının bütün sahələrini bu konstitusiyaya uyğunlaşdırmağa və ondan irəli gələn başlıca tələbləri həyata keçirməyə yönəlmişdir. İctimai-siyasi, iqtisadi və mədəni sahələrdə aparılan islahatların əsasını da məhz konstitusiya təşkil edir.

Bu gün ən mühüm vəzifə konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir. Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

Əmin olduğumu bildirmək istəyirəm ki, respublikamızın hər bir vətəndaşı dövlətin ali qanununun həyata keçirilməsi yolunda və müstəqil Azərbaycanda inkişaf etmiş vətəndaş cəmiyyətinin bərqərar olması işində öz səylərini əsirgəməyəcəkdir. [34-35]

Əziz həmvətənlərim!

Sizi Konstitusiya günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət arzulayır, hər birinizə müstəqil dövlətimizin yaranması və tərəqqisi yolunda böyük uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 1996-cı il* [35-36]

## TÜRKİYƏNİN TQRT TELEKANALININ "ÜZ ÜZƏ" PROQRAMINA MÜSAHİBƏ*

*Prezident Sarayı*

*13 noyabr 1996-cı il*

**Müxbir:** Cənab prezident, axşamınız xeyir. Görüşümüz gec oldu, bir neçə saatdan sonra günəş doğacaq, azan oxunacaq.

**Cavab:** Axşamınız xeyir.

**Sual: Cənab prezident, necəsiniz?**

**Cavab:** Yaxşıyam, sağ olun, siz necəsiniz?

**Sual: Sağ olun. Sizə cansağlığı arzulayıram. TQRT-yə xoş gəlmisiniz! İcazə verin, hörmətli tamaşaçılarımıza qısa bir məlumat verim. Azərbaycanın paytaxtı Bakıdayıq. Azərbaycandan hamınıza xeyirli axşamlar diləyirik. İndi Azərbaycanda gecə saat 1-dir. Bəli, üç saatdan sonra səhər azanı oxunacaq, dörd saatdan sonra günəş doğacaq. Gecənin, bu saatında cənab prezident Heydər Əliyev ilə "Üz-üzə"də bir yerdəyik. Cənab Heydər Əliyev önəmli bir şəxsiyyətdir. O, Naxçıvandan Sovet Sosialist Respublikaları İttifaqı baş nazirinin birinci müavini vəzifəsinədək yüksələn bir yol, mənalı bir həyat yolu keçmişdir. Heydər Əliyev oradan təkrar Naxçıvana qayıtmış və hazırda Azərbaycan Respublikasının prezidentidir.**

**Bəli, Sovet Sosialist Respublikaları ittifaqının ən parlaq dövründə görkəmli bir türk adlandırılan bu şəxsiyyət həmin imperiyanın dağılmasının şahididir. Biz həmin imperiyanın yüksəlişinin və süqutunun canlı şahidini bu gecə dinləyəcəyik.** [36-37]

**Necəsiniz, cənab prezident? Cənab prezident, öz həyatınız haqqında qısa məlumat verərsinizmi ki, harada doğulmusunuz, atanız nə işlə məşğul idi?**

**Cavab:** Həyatım haqqında danışmaq üçün çox vaxt lazımdır. Buna bir saat bəs etməz. Amma qısa olaraq deyə bilərəm. Mən 1923-cü ildə Naxçıvanda anadan olmuşam.

**Sual: Yəni bizdə Türkiyə Respublikasının yaradıldığı ildə?**

**Cavab:** Bəli, Türkiyə Respublikasının yaradıldığı ildə mən anadan olmuşam.

**Sual: Cənab prezident, Siz hansı ayda doğulmusunuz?**

**Cavab:** Mən may ayında doğulmuşam. Sizin Cümhuriyyətiniz isə noyabr ayında yaranıbdır.

**Sual: Deməli, bizim cümhuriyyətlə eyni yaşdasınız?**

**Cavab:** Bəli, elədir, eyni yaşdayam. Naxçıvanda böyümüşəm, orada orta təhsilimi almışam. Sovet sistemində orta təhsil on il oxumaqdır. O vaxtlar da, indi də belədir. On il oxuyandan sonra ali məktəbə daxil olmaq imkanı yaranırdı. Mən 1939-cu ildə Naxçıvanda onillik orta təhsil alandan sonra Bakıda texniki universitetin memarlıq fakültəsinə daxil olmuşam. İkinci dünya müharibəsi başlandı. Sovet İttifaqı bu müharibəyə qoşuldu.

**Sual: Cənab prezident, Sovetlər İttifaqının bu müharibəyə qoşulması haqqında danışmazdan əvvəl istərdim ki, deyəsiniz, atanız nə işlə məşğul olurdu?**

**Cavab:** Mənim atam dəmir yolunda fəhlə işləyibdir. Keçmiş dövrlərdə Bakıda neft mədənlərində fəhlə olub, sonra Naxçıvanda dəmir yolunda işləyibdir.

**Müxbir:** Bəli, indi 1941-ci ilə qayıdaq.

**Cavab:** O illərdə mən universitetdə oxuyurdum. Ancaq müharibə başlandı, təhsilim yarımçıq qaldı, həyatımız bu dünya müharibəsi ilə bağlandı. O vaxt Daxili İşlər Nazirliyində KQB deyilən bir təşkilat var idi, siz bunu bilirsiniz.

**Sual: Siz KQB-yə o vaxt qəbul olundunuz?**

**Cavab:** Bəli, gənc vaxtlarımda mən ali məktəbdə təhsil alırdım, oradan da bu təşkilata işə keçdim.

**Sual: Bu təşkilatda işləməyə necə keçdiniz, bu barədə qısa məlumat verə bilərsinizmi?** [37-38]

**Cavab:** Universitetdə oxuyarkən məni oraya dəvət etdilər. Sonra orada zabit oldum.

**Sual: Yəni KQB-nin zabiti oldunuz?**

**Cavab:** Bəli, orada zabit oldum.

**Sual: O vaxt KQB-də türk zabit təkcə siz idiniz, yoxsa başqaları da var idi?**

**Cavab:** Türk var idi, ancaq az idi. Ruslar və başqa millətlərdən olanlar daha çox idi. Bu işdə türk millətindən çox az adam var idi.

---

* Müsahibə canlı yayımla Avropa, Yaxın Şərq və Mərkəzi Asiya ölkələrinə, həmçinin Azərbaycanın Milli televiziyasının birinci və ikinci kanalları ilə respublikamıza birbaşa yayılmışdır.

**Sual: Lütfən, daha bir söz soruşum. Siz KQB-yə daxil oldunuz, nə işlə məşğul idiniz? Çünki bu, xəbəralma, yəni casusluqla məşğul olan bir təşkilatdır.**

**Cavab:** Bu elə bir casusluq deyil. Dünyada kəşfiyyat aparmaq casusluq deyil. Bilirsiniz, bunu kim hansı ölkəyə qarşı aparırsa, həmin ölkə ona casus deyir. Amma kimsə başqa bir ölkədə bunu edirsə bu, casus deyil. O öz ölkəsinə xidmət edir, casus deyil. Bu, şərəfli bir vəzifədir. Türkiyədə də belə olubdur. O vaxtlar mən məktəbdə oxuyurdum. Türkiyədə MAH təşkilatı var idi. Siz cavansınız, bəlkə xatirinizdə deyil. O vaxt belə bir təşkilat var idi, ona MAH deyirdilər, indi onun adı MİT olubdur.

**Sual: O vaxt siz orada rütbə aldınız. Əsasən hansı işlə məşğul olurdunuz?**

**Cavab:** Elə bir şey deyil ki, bu barədə geniş danışım. Geniş danışsam, gərək sizinlə beş saat söhbət edək. Ona görə də vaxtınızı belə şeylərə itirməyin.

**Sual: KQB-də olduğunuz illər, aylar barədə qısaca məlumat verə bilərsinizmi?**

**Cavab:** KQB-də günlərim, aylarım çox olub. 25 yaşımdan başlayaraq orada 27-28 il işləmişəm. Ən kiçik zabit rütbəsindən – leytenantdan generaladək yüksəldim.

**Sual: Siz general idiniz?**

**Cavab:** Bəli, general idim. O vaxt sovet generalı olmaq çox şərəfli vəzifə idi. Bu rütbəyə hər adam çata bilməzdi.

**Sual** : **Türk dünyasından Sizdən başqa general çıxdımı?**

**Cavab:** Məndən sonra çıxdı, mənə qədər yox idi. Orduda vardı, amma KQB-də mənə qədər türk general olmamışdı.

**Sual: Siz KQB-də çalışırdınız. Təbii ki, bu təşkilata İkinci dünya müharibəsindən sonra daxil olmuşdunuz. Türkiyə İkinci dünya müharibəsinə qoşulmadı.** [38-39] **Türkiyənin bu siyasəti o vaxt necə qarşılanırdı, necə qiymətləndirilirdi?**

**Cavab:** O vaxt biz Türkiyənin dünya müharibəsinə qoşulmasından çox qorxurduq. Yəni belə bir təhlükə var idi ki, Türkiyə dünya müharibəsinə qoşulsun. Amma Türkiyədə ağıllı adamlar oldular. Türkiyənin İkinci dünya müharibəsinə qoşulmasına imkan vermədilər. Çünki Türkiyə bu müharibəyə qoşulsaydı, gərək Qafqaz da qoşulaydı. Necə olacaqdı, – bunu demək mümkün deyil. Burada ordu çox idi. Mən o vaxt bu barədə düşünürdüm. Amma müharibədən sonrakı illərdə, yaşa dolandan sonra tarixə, bu işlərə baxanda gördüm ki, – mən Türkiyənin dövlət adamları ilə görüşlərimdə də bu barədə dəfələrlə demişəm, – çox vacib bir hal oldu ki, Türkiyə dünya müharibəsinə qoşulmadı.

**Sual: Əgər Türkiyə İkinci dünya müharibəsinə girmiş olsaydı, müharibənin nəticəsi dəyişə bilərdimi?**

**Cavab:** Yox, dəyişə bilməzdi.

**Sual: Yəni demək istəyirsiniz ki, Türkiyə məğlub olacaqdı?**

**Cavab:** Türkiyə də Almaniya kimi məğlub olacaqdı. Amma bilirsiniz ki, Almaniyanın məğlubiyyətindən bir az əvvəl Türkiyə Almaniyaya müharibə elan etdi.

**Sual: O vaxt Sovetlər İttifaqındakı bir türk kimi Siz yəqin ki, Türkiyənin müharibəyə girməsini istəmirdiniz?**

**Cavab:** Bəli, Türkiyənin müharibəyə girməsini istəmirdim. Əgər Türkiyə müharibəyə girsəydi, müharibə Qafqazda gedəcəkdi. Çünki almanlar gəlib Qafqaz dağlarında durmuşdular. Bakıya girə bilmirdilər. Bilirsiniz ki, o vaxt bütün Sovetlər İttifaqı ordusunun nefti Bakıdan gedirdi. Əgər Bakının nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi bəlkə də mümkün deyildi. Müharibədə qələbənin əldə edilməsində Azərbaycan neftinin müstəsna, fövqəladə xidməti, rolu var. Amma Türkiyə bu savaşa girsəydi, burada, Qafqazda müharibə başlayacaqdı. Burada kim müharibə edəcəkdi? Burada türk türkə qarşı müharibə edəcəkdi. Burada sovet ordusu rus ordusu da var idi. Amma burada türklər, azərbaycanlılar da yerləşirdi. Ona görə də Türkiyənin bu müharibəyə girməməsi tarixdə çox önəmli bir haldır.

**Sual: O vaxt eyni zamanda Siz kəşfiyyatçı idiniz.** [39-40] **Stalinin o vaxt Türkiyəyə qarşı siyasəti necə idi? Çünki Siz illərlə bu işin içində olmusunuz?**

**Cavab:** O vaxt Türkiyəyə düşmən münasibəti bəslənilirdi. Çünki Türkiyə Almaniya ilə bir blokda idi. Ona görə də Türkiyəni düşmən hesab edirdilər. Amma eyni zamanda Türkiyənin savaşa girməməsi Sovetlər Birliyi tərəfindən çox yaxşı qəbul olunurdu.

**Sual: Yəni Sovetlər Birliyi Türkiyənin savaşa girməsini istəmirdi?**

**Cavab:** Əlbəttə ki, istəmirdi.

**Sual: Kommunist Partiyasına Siz o vaxt daxil oldunuz?**

**Cavab:** Bəli, Kommunist Partiyasına müharibə vaxtı, 1943-cü ildə daxil olmuşam.

**Sual: Partiyaya Siz özünüz daxil oldunuz, yoxsa Sizi qəbul etdilər?**

**Cavab:** Bilirsiniz ki, o vaxt vəziyyət belə idi. Kommunist Partiyası elə bir hörmətli partiya idi ki, burada başqa bir partiya yox idi, hər bir gənc, yəni gənclərin əksəriyyəti, – o vaxt komsomol, gənclər təşkilatı var idi, – bu təşkilatdan sonra Kommunist Partiyasına daxil olmaq imkanı alırdısa, bu, onun üçün şərəf idi. Mən də o vaxt istedadlı bir gənc idim, yəni tanınan bir gənc idim. Ona görə də mənim Kommunist Partiyasına daxil olmağım çətin olmadı.

**Sual: Naxçıvanda tanınırdınız, yoxsa bu bölgədə?**

**Cavab:** O vaxt partiyaya girəndə məni ancaq Naxçıvanda tanıyırdılar. Amma KQB-də, Azərbaycanda da tanıyırdılar. Kommunist Partiyasına daxil olanda gənc idim. 20 yaşım var idi.

**Sual: Sizi kim qəbul etdi? Partiyaya özünüz daxil oldunuzmu?**

**Cavab:** O vaxt partiya komitəsi var idi. Onlar imtahan edirdilər, sual verirdilər. Partiyaya qəbul olunmaq asan iş deyildi.

**Sual: Parlaq zəkalı insanları partiyaya qəbul edirdilər?**

**Cavab:** Bəli, zəkalı, ağıllı, etibarlı insanlar o vaxt Kommunist Partiyasına qəbul oluna bilərdilər.

**Sual: Partiyaya qəbul olunandan sonra Sizin ilk vəzifəniz nə oldu?**

**Cavab:** Partiyada elə bir vəzifəm olmadı. Mən KQB-də [40-41] işləyirdim. Partiyanın üzvü o demək deyildi ki, gərək onun partiyada bir vəzifəsi olsun. KQB-də çalışırsan, amma Kommunist Partiyasının üzvüsən.

**Sual: Siz 20 yaşında Kommunist Partiyasının üzvü oldunuz. Xatirinizdədirmi ki, Siz bu işləri doğru və yaxud yanlış etmisiniz?**

**Cavab:** O vaxt mən hesab edirdim ki, mən bunları çox doğru etmişəm. İndi də hesab edirəm ki, doğru etmişəm.

**Sual: Nə üçün fikirləşirsiniz ki, doğru etmisiniz?**

**Cavab:** Çünki o vaxt həyat belə idi. Mən bu ölkədə doğulmuş, təhsil almış, böyümüş bir insanam, bu quruluşu, cəmiyyəti sevmiş bir adamam. Mən orada yanlış heç bir şey etməmişəm.

**Sual: O vaxt kommunist sistemi Sizə tərs görünmürdü ki?**

**Cavab:** Xeyr, kommunist sistemi mənə tərs görünmürdü. Bunu dəfələrlə demişəm, – həyatımın bütün mərhələləri mənim üçün əzizdir. Heç bir şeyi yanlış etməmişəm. Nə etmişəmsə hamısını doğru etmişəm. Heç bir şeyə də heyflənmirəm.

**Sual: Sizdən daha başqa şeylər soruşmaq istəyirəm. O vaxtlar Sovetlər Birliyi və orada yaşayan insanlar, Kommunist Partiyası bizə çox soyuq görünürdü.**

**Cavab:** Kommunistlərin istisi də, soyuğu da var. Hər bir insan insandır. Kommunist olan insanı kommunist soyutmur ki, yəni onun istisini çıxarmır ki! O da insandır. Hər ölkədə insanın yaxşısı da var, pisi də var. Sizin dildə desək, iyisi də, kütüsü də var.

**Sual: İkinci dünya müharibəsi başa çatdı. Siz o vaxt KQB-də işləyirdiniz. O vaxtdan sonra Sizin həyatınızda hansı yeniliklər oldu?**

**Cavab:** Ondan sonra mən KQB sistemindəki ən yüksək məktəblərdə – Moskvada, Peterburqda oxudum.

**Sual: Bu məktəblərdə hansı ixtisaslara yiyələndiniz?**

**Cavab:** KQB, sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxudum. Müharibədən əvvəl mən memar olmaq istəyirdim. Müharibəyə görə bu pozuldu. Sonra mən siyasətə qoşulduğuma görə tarix fakültəsini bitirdim, tarix elmini öyrəndim. KQB-nin ən yüksək məktəblərini bitirdim, ha[41-42]mısını da çox gözəl. Yəni mən harada oxumuşamsa, – biz əla deyirik, sizdə isə ən yüksək deyirlər, qiymətlərlə oxumuşam.

**Sual: KQB-nin məktəblərində Siz hansı ölkənin, yaxud xalqın tarixini, türk tarixinimi, Osmanlı tarixinimi öyrənirdiniz?**

**Cavab:** Orada bütün tarixləri – Osmanlı, rus, Avropa, qədim yunan, Çin tarixini də – hamısını öyrənirdik.

**Sual: Bunların içərisində İslam tarixi də var idimi?**

**Cavab:** Bəli, İslam tarixi də var idi.

**Sual: Daha sonra Siz Azərbaycanda, Naxçıvanda partiyanın baş katibi vəzifəsinə yüksəldiniz, elədirmi?**

**Cavab:** Yox, Naxçıvandan 1948-ci ildə oxumağa getdim. Ondan sonra Bakıda çalışmağa başladım. Bakıda mən çox böyük pillələrdən keçdim.

**Sual: Hansı pillələrdən?**

**Cavab:** Bilirsiniz, KQB sistemində çox mərtəbələr var. Onlar onun daxilindədir. Mən çox gənc vaxtlarımdan ən yüksək mərtəbəyə qalxdım.

**Sual: Azərbaycanda, Bakıda olarkən Sizin vəzifəniz nə idi?**

**Cavab:** Burada mən böyük bir idarənin başçısı idim. Yəni KQB-də həm xarici kəşfiyyat, həm də daxili kəşfiyyat sahəsinə rəhbərlik edirdim. Sonra Azərbaycanda KQB-nin sədr müavini, daha sonra isə sədri oldum.

**Sual: O vaxt kəşfiyyat .sahəsində Sizi ən çox hansı ölkələr maraqlandırırdı, – İran, Türkiyə...**

**Cavab:** Nə barədə?

**Sual: Yəni məlumat toplamaq baxımından ən çox maraq göstərdiyiniz sahə...**

**Cavab:** Hamısından – İrandan da, Türkiyədən də, Amerikadan da toplayırdıq.

**Sual: Ən çox hansı sahədə – siyasi, hərbi, iqtisadi sahələrdə məlumatlar toplayırdınız?**

**Cavab:** Ən çox hərbi məlumatlar. Bir də biz Sovetlər Birliyinə qarşı casusluq edib, məlumatlar toplayıb öz ölkələrinə vermək istəyənləri çox arayırdıq.

**Sual: Ələ keçirdiyiniz adamlar oldumu?**

**Cavab:** Bəli, çoxlarını yaxaladıq. Eyni zamanda digər ölkələrdə də bu işləri gördük.

**Sual: Heç Türkiyədən də yaxaladığınız adamlar** [42-43] **oldumu? Məsələn, neçə nəfər yaxalandığı yadınızdadırmı?**

**Cavab:** Xatirimdə deyil.

**Sual: O vaxt yaxaladığınız adamlar içində indi Türkiyədə yüksək vəzifə tutanlar varmı?**

**Cavab:** Yox, xatırlamıram. Bunlar çoxdan olub.

**Sual: Siz burada Azərbaycan KQB-sinin sədri idiniz...**

**Cavab:** Bəli, mən Azərbaycan KQB-sinin sədri idim. Bu, azərbaycanlı, türk üçün çox əhəmiyyətli bir vəzifə idi. Çünki mənə qədər Azərbaycanda 1920-ci ildən bəri KQB-nin heç bir sədri azərbaycanlı olmamışdır. Bu vəzifədə həmişə ruslar, ermənilər, yəhudilər və digər millətlərdən olan adamlar işləmişdilər. Mən ilk türk, azərbaycanlı – Heydər Əliyev idim ki, KQB sədri olmuşdum.

**Sual: Bu vəzifədə Sizdən sonra kim oldu? Siz buradan Moskvaya getdiniz, deyilmi?**

**Cavab:** Yox, mən buradan Moskvaya getmədim. Mən KQB-nin sədrliyindən Azərbaycan Respublikasının rəhbəri oldum, yəni Azərbaycan KP MK-nın birinci katibi oldum. Birinci katib indiki mənada respublika prezidenti demək idi.

**Sual: Buradan Moskvaya, Siyasi Büroya getdiniz, deyilmi?**

**Cavab:** Bəli, buradan Moskvaya getdim.

**Sual: Orada uzun müddət yaşadınız. İndi gəlin, Moskvadan dünyaya baxaq.**

**Cavab:** Mən Moskvaya 1982-ci ilin dekabrında getdim. Bu belə oldu. Mən Bakıda işləyirdim, amma burada çalışarkən Moskvada Siyasi Büro üzvlüyünə namizəd idim. Bu da Azərbaycanın tarixində ilk dəfə baş vermişdi. Yəni Sovet hakimiyyəti qurulandan bəri Azərbaycan rəhbəri heç vaxt burada işləyə-işləyə Moskvada Siyasi Büronun tərkibində olmamışdır nə üzv, nə də üzvlüyə namizəd. Mən ilk dəfə 1975-ci ildə, burada rəhbər ikən Siyasi Büro üzvlüyünə namizəd seçildim.

**Sual: 1970-ci ildə rəhbər oldunuz, 1982-ci ildə isə...**

**Cavab:** Xeyr, mən 1969-cu ildə Azərbaycanın rəhbəri oldum. Rəhbər olmaq avtomatik surətdə Siyasi Büronun üzvü olmaq deyil. Məndən əvvəl də, sonra da burada nə qədər rəhbərlər olmuşdu. Onların heç biri Siyasi Büro tərkibinə seçilmədi. [43-44]

**Sual: Amma Siz seçildiniz.**

**Cavab:** Mən altı il Azərbaycana rəhbərlik etdikdən sonra eyni zamanda, Siyasi Büro üzvlüyünə namizəd oldum. Bu o deməkdir ki, mən həm Azərbaycanın rəhbəri idim, həm də Siyasi Büro üzvlüyünə namizəd olduğum üçün SSRİ rəhbərliyinə daxil idim. 1982-ci ildə Brejnev vəfat etdikdən sonra Andropov baş katib seçildi. O, məni Moskvaya dəvət etdi. Mənə müraciət etdi ki, Moskvaya gəlim, orada həm Siyasi Büronun üzvü, həm də baş nazirin birinci müavini işləyim. Baş nazirin 12 müavini var idi. Onlardan ancaq bir nəfəri birinci müavini idi. Siyasi Büronun isə cəmi 10 üzvü var idi. Amma mən həm Siyasi Büro üzvü, həm də baş nazirin birinci müavini olduğuma görə o vaxt Sovetlər Birliyinin rəhbərliyində üçüncü-dördüncü şəxs idim.

**Müxbir:** 1982-ci ildən Sovetlər İttifaqı süquta uğramağa başladı.

**Cavab:** Yox, süqut 1982-ci ildən başlamadı. Süqut 1985-1986-cı illərdən başladı.

**Sual: O zaman Siz bu sistemin çökdüyünü görürdünüzmü?**

**Cavab:** Bəli, artıq görürdüm. Mən 1987-ci ilin sonunda istefaya getdim.

**Müxbir:** Brejnev vəfat etdi, Andropov gəldi. Siz Moskvaya getdiniz. Qorbaçov gəlməzdən öncə orada idiniz.

**Cavab:** Mən Qorbaçovla da bərabər işlədim.

**Sual: 1940-cı ildən etibarən Siz həm KQB-də, həm də partiyada işlədiniz. 1969-cu ildən Azərbaycanın rəhbəri, 1982-ci ildən isə Sovetlər Birliyinin rəhbərlərindən biri oldunuz. Bu müddət ərzində sovet rəhbərlərindən Sizə ən çox kim təsir göstərib, onların ən ağıllısı, ən çalışqanı kim idi?**

**Cavab:** Bilirsiniz, bu məsələ belədir. Brejnev 18 il ölkə və rəhbərlik etdi. 1982-ci ildə vəfat etdi. Brejnevin vaxtından mən Azərbaycana rəhbər seçildim. 1969-cu il idi, Brejnev məni Moskvaya çağırdı və təklif etdi ki, Azərbaycanın rəhbəri olum. Mən imtina etdim, istəmirdim. Çünki KQB əməkdaşı, general, bu işin mütəxəssisi kimi mən Azərbaycan Respublikasına rəhbərlik etməyi özüm üçün bəlkə də çətin hesab edirdim. Amma onlar xahiş etdilər. Mən də buna razılıq verdim. Mən Brejnevlə çox işlədim. 1969-cu ildən 1982-ci ilədək, yəni təxminən 14 ilə yaxın Brejnevin rəhbərliyi altında işlədim. [44-45]

**Sual: Brejnevi ondan əvvəl tanıyırdınızmı?**

**Cavab:** Yox. Tanıyırdım, ancaq şəxsi tanışlığımız yox idi. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra Brejnevlə təmaslarımız çox oldu. Ondan sonra daim əlaqədə olurduq.

**Sual: Brejnev türk dünyasına necə baxırdı?**

**Cavab:** Brejnev də, Andropov da türk dünyasına, əslində Sovetlər İttifaqının rus olmayan xalqlarına çox normal münasibət bəsləyirdilər.

**Sual: Yaxşı, ən pis münasibət kimin dövründə oldu?**

**Cavab:** Qorbaçovun dövründə.

**Sual: Bəs Qorbaçovdan əvvəl?**

**Cavab:** Qorbaçovdan əvvəl Andropov bir il rəhbər oldu, öldü. Ondan sonra bir il Çernenko oldu, o da vəfat etdi. 1985-ci ildə biz Qorbaçovu seçdik. Qorbaçovu seçənlərdən, ona səs verənlərdən biri də mənəm.

**Sual: Bəli, Qorbaçov dövrü başlandı və Siz Moskvadasınız.**

**Cavab:** Moskvada Qorbaçovla birlikdə işləyirdik.

**Sual: Sovet sistemi yavaş-yavaş çökürdü, deyilmi? Siz bunu nə vaxt hiss etdiniz?**

**Cavab:** 1986-cı ildə. Hiss etdim ki, sistem tədricən süquta uğrayır.

**Sual: Sizcə, bu sistem niyə çökdü?**

**Cavab:** O vaxt mən belə düşünmürdüm, amma sonrakı təhlillər göstərdi ki, bu məhz belə olmalı idi, sistemin çökməsi labüd idi.

**Sual: Niyə labüd idi?**

**Cavab:** Bilirsiniz, bu quruluş dünyadakı bütün quruluşlardan fərqli idi. Ya gərək bütün dünya sovet sisteminə keçəydi, ya da gərək sovet sistemi dağılaydı. Artıq sovet sistemi özünün bütün proqramlarını yerinə yetirə bilmirdi, Qərb isə getdikcə güclənirdi. Qərbdə iqtisadiyyat çox gücləndi, yüksəldi, Stalin dövründə Sovetlər Birliyi qapalı cəmiyyət idi, yəni dünya ilə heç bir əlaqəsi yox idi. İnsanlar xaricdə – Almaniyada, Fransada nələr baş verdiyini bilmirdilər. Elə bilirdilər ki, həyat elə budur, bundan artıq həyat yoxdur. Stalin öləndən sonra qapılar müəyyən qədər açıldı, insanlar xaricə getdilər-gəldilər, iqtisadi əlaqələr genişləndi. Get-gedə insanlar gördülər ki, Qərbdəki həyat bizdəkindən firavandır. Qərbdə [45-46] hürriyyət var, burada o qədər yoxdur, iqtisadiyyat Qərbdə daha yaxşıdır. Bu fərq isə get-gedə çoxaldı. 20, 30, 40-cı illərdə insanları mübarizəyə qaldıran, səfərbər edən sovet quruluşu, sistemi artıq buxova çevrildi, işləmədi. Ona görə də sistem yavaş-yavaş çökməyə başladı.

**Sual: 1985-ci ildən Qorbaçovla bərabər işlədiniz?**

**Cavab:** Biz Qorbaçovla Brejnevin vaxtından bir yerdə çalışırdıq, o da Siyasi Büroda idi, mən də, yan-yana otururduq. Ancaq 1985-ci ildə biz onu baş katib seçdik. Yenə də bərabər işləyirdik. Yəni Siyasi Büronun üzvü, baş nazirin birinci müavini baş katiblə hər gün təmasda idi. O vaxt sistem belə idi.

**Sual: O vaxt Qorbaçovla Sizin aranızda narazılıq başladı. Bu, nədən oldu?**

**Cavab:** 1986-cı ildə ilk dəfə Qorbaçov Sovetlər Birliyinin tərkibindəki türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz. Onunla bir neçə dəfə belə söhbətim oldu. Nəhayət, 1986-cı ilin dekabrında Qazaxıstanın rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Kunayev qazax, türk idi. O, 22 il orada bu vəzifədə çalışmışdı. Onun vaxtı gəldi, yəni o, vəzifədən istefa verməli idi. Mən ona qarşı olan ədalətsizliyə etiraz etdim. Digər tərəfdən, o, istefa verəndən sonra onun yerinə Moskvadan Qorbaçova yaxın, rus millətindən olan bir adamı təyin etdilər. Mən Qorbaçova söylədim ki, bunu etmək olmaz. Qazaxıstan böyük bir respublikadır. Kunayev qazaxdır, o, 22 ildir ki, oraya rəhbərlik edib. Bundan əvvəl də bu respublikaya rəhbərlik edənlər qazaxlar olublar. Amma indi Qazaxıstana başqa millətdən olan bir adamı rəhbər göndərmək doğru deyil. O, mənə dedi ki, qazaxlar özləri bunu rica ediblər. Ancaq yanlış deyirdi, əslində belə şey yox idi. Mən bildirdim ki, bunu qazaxların hamısı istəmir. Ola bilər, bəziləri istəsinlər, amma hamısı istəmir. Bu, doğru siyasət deyil.

Qazaxlar yeni təyin olunan adamı qəbul etmədilər. Orada gənclər ayağa qalxıb üsyan etdilər. Onların bir çoxlarını həbs etdilər, bəziləri həlak oldular. Sonra araşdırmalar aparıb "Qazaxıstan millətçiliyi" barədə qərar qəbul etdilər. Yəni qazax xalqına qarşı bir qərar çıxardılar. Mən buna qarşı da etiraz etdim.

Tək bu deyildi. Şimali Qafqazda bir çox kiçik müsəlman [46-47] respublikaları var. Məsələn, Kabardin-Balkar Muxtar Respublikasının rəhbəri Malbaxov da müsəlman idi. Qorbaçov onu çıxarıb, yerinə Sibirdən bir rusu gətirib qoymaq istəyirdi. Mən buna da, digər belə məsələlərə də etiraz etdim. Siyasi Büroda mənim – bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi.

**Sual: Təbii ki, Siz bütün bunlara qarşı çıxdınız. Əlinizdə KQB kimi böyük bir kəşfiyyat təşkilatı var idi. Yəni Qorbaçov Qazaxıstandakı bu vəziyyəti kəşfiyyatdan aldığı məlumatlara görə idarə edirdi, yoxsa ona yanlış məlumatlar verilirdi? Siz bu işin içində idiniz, bu barədə Sizə etibarlı məlumatlar gəlmirdimi?**

**Cavab:** Qorbaçov doğru kəşfiyyat məlumatlarını yox, özü istədiyi məlumatları alırdı.

**Sual: Yəni o, oradakı vəziyyəti və KQB-nin üzvlərini özü istədiyi şəkildə istiqamətləndirirdi?**

**Cavab:** Bəli. O vaxt KQB məlumatları mənə vermirdi.

**Sual: Siz artıq kənarda qalmışdınız?**

**Cavab:** KQB kəşfiyyat məlumatlarını ancaq Qorbaçova verirdi.

**Sual: O da yəqin ki, bu məlumatlar əsasında hərəkət edirdi. Siz buna qarşı çıxdınız, sonra mübahisə etdiniz?**

**Cavab:** Yox, elə bir böyük mübahisə olmadı. Doğrudur, bir neçə mübahisəmiz oldu, sonra mən gördüm ki, işləmək mümkün deyil, istefa verdim.

**Sual: Siz istefa verdikdən sonra Naxçıvana döndünüz?**

**Cavab:** Yox, istefa verib, qalıb orada yaşadım. 1987-ci ilin sonundan Moskvada yaşamaqda davam etdim. 1988-ci ildə mənə qarşı kampaniya qaldırdılar ki, Heydər Əliyev Azərbaycanda bunu düzgün etməyib, onu düzgün etməyibdir, bu yanlış olub, o yanlış olub. Azərbaycanda da bəzi pis adamlar Qorbaçova qoşuldular,

məni ləkələmək, hörmətdən salmaq istədilər. Mənim haqqımda qəzetlərə yazdılar. Etiraz etmək istədim, amma buna imkan vermədilər.

Bax, o quruluşa mən sonralar nə üçün etiraz etdim? Çünki imkan vermədilər ki, mən öz hüquqlarımı qoruyum, müdafiə edim. Qəzetlərdə mənim əleyhimə yazılar yazırdılar. Mən qəzetin redaktoruna zəng edirəm, – onların hamısı məni tanı[47-48]yır, mən də onları tanıyıram, – deyirəm ki, mənə imkan ver, balaca bir cavab yazım. Deyir ki, olmaz. Televiziyada mənim haqqımda deyirlər, televiziyada mənim yaxın adamım olan, baş nazirin birinci müavini işləyərkən mənə tabe olan, yəni əlimin altında çalışan bir adama zəng edirəm ki, icazə ver, mən də beş dəqiqəlik cavab verim. Deyir ki, olmaz.

Yəni bir tərəfdən məni təhqir etmək, ləkələmək olar, ancaq mənim cavab vermək imkanım yoxdur.

**Müxbir:** Siz Sovetlər Birliyi baş nazirinin birinci müavini işləyərkən Azərbaycanın inkişafında mühüm rol oynamısınız. Neft sənayesinin, ölkənin sənayesinin inkişafı üçün, çoxlu fabrik və zavodların, müəssisələrin tikilməsi üçün çox böyük işlər görmüşünüz.

**Cavab:** Bilirsiniz, mən 1969-cu ildə Mərkəzi Komitənin birinci katibi olanda 14 il Azərbaycanda çox böyük xidmətlər göstərmişəm. Zavodlar, fabriklər, yollar, elektrik stansiyaları, binalar, xəstəxanalar, mədəniyyət sarayları, ali məktəblər, universitetlər tikilib. Bakıda hansı binaya baxsan, deyəcəklər ki, bunu Heydər Əliyevin vaxtında tikiblər. Bunun çoxunu mən burada işləyərkən etmişəm. Azərbaycanın rəhbəri olarkən Sovetlər Birliyinin vəsaitindən, imkanlarından çox faydalanıb respublikamızda, Bakıda, digər şəhərlərdə bu işləri gördüm. Gördüyünüz bu binanı da mən tikdirmişəm. Təkcə bu bina deyil.

14 il burada çalışdım. Beş ildən artıq Moskvada işləyərkən orada yenə də Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işlərini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm. Ancaq 1987-ci ilin sonunda istefaya getdim. Vaxtı itirməmək üçün demək istəyirəm ki, 1990-cı ilədək Moskvada yaşadım. Mən Moskvada heç bir siyasi fəaliyyətlə məşğul olmadım.

O vaxt Sovetlər İttifaqında, Qorbaçov hakimiyyətində mənə qarşı çox mənfi münasibət yarandı. Onlar məni bir millətçi kimi ittiham etmək istədilər. Hətta məni təqib etməyə başladılar. Məni həbs etmək istədilər.

1990-cı ilin yanvarında Azərbaycana qarşı bir təcavüz edildi. Onda mən Moskvada idim. Mən o vaxt Moskvada bununla əlaqədar keçirilən mitinqə getdim. Orada Qorbaçovun Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə sözlər dedim. Onları məhkum etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz ci[48-49]nayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar. Qəzetlərdə mənim əleyhimə yazılar yazdılar.

Mən Moskvada daha beş ay yaşadım. Məni həbs etməyə çalışdılar, oradan çıxıb buraya gəldim. Gələndə məni buraya buraxmırdılar. Azərbaycana rəhbərlik edənlər, yetirdiklərim, tələbələrim olan adamlar məni Azərbaycana buraxmırdılar. Azərbaycana gəlmək istəyəndə Moskvadan da, buradan da mənim qarşımı almaq istədilər. Mən gələndə Bakıda bir kişini, ziyalı bir insanı gecə öldürdülər. O gəlib hava limanında məni qarşılayacaqdı. Onu vurub öldürdülər ki, məni qorxutsunlar. Dedilər ki, Heydər Əliyev gəlsə, onu da öldürəcəyik. Amma mən 10 gün keçəndən sonra Bakıya gəldim.

Burada – binaları, evləri qurduğum, yaratdığım şəhərdə mənə yaşamağa yer vermədilər. Üç gün qardaşımın evində qaldım. Ondan sonra mənə xəbərdarlıq etdilər ki, sən buradan çıxmalısan. Dedim ki, mən haraya çıxacağam? Bildirdilər ki, ya Moskvaya, ya da haraya istəyirsən qayıt. Mən Moskvaya qayıda bilməzdim. Buradan təyyarə ilə Naxçıvana getdim.

**Sual: Siz buradan Naxçıvana gizli, yaxud açıq getdiniz?**

**Cavab:** Yox, buradan Naxçıvana gizli getdim. 1990-cı ilin iyun ayında Naxçıvana gəldim. Naxçıvanda məni insanlar bağrına basdı, qucaqladı. Bakıda da insanlar məni çox yaxşı qarşılayırdılar. Ancaq məni camaat arasına çıxmağa qoymurdular. Naxçıvanda bir il sərbəst yaşadım, heç bir şeylə məşğul olmadım. Amma insanlarla görüşürdüm. Onlara söyləyirdim ki, Sovetlər Birliyi, Kommunist Partiyası dağılacaqdır. Mən Kommunist Partiyasından Moskvada çıxmışdım. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı mən Kommunist Partiyasını tərk etdim və Sovetlər Birliyinə qarşı çıxdım. Naxçıvanda Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə və Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədar təbliğat aparmağa başladım.

**Sual: Siz Naxçıvanda olarkən Bakı ilə əlaqələriniz var idimi?**

**Cavab:** Heç bir əlaqəm yox idi. Yəni mən buraya gəlmirdim. Ancaq mənim yanıma buradan çox adamlar gəlirdi. Mənim gəlib-getməyim yasaq idi. Mən Naxçıvanda yaşayırdım, onlar da məni qoruyurdular. Yenə də deyirəm, amma Bakı[49-50]dan yanıma çox adamlar mənimlə görüşmək, bəzi şeyləri öyrənmək, məsləhət almaq üçün gəlirdilər. Mən də onlarla görüşürdüm. Alimlər, ziyalılar, elm adamları yanıma gəlirdilər.

1991-ci ilin sentyabrında Naxçıvan əhalisi ayağa qalxdı, meydanlarda dörd gün tələb etdi ki, Heydər Əliyev Naxçıvana rəhbər olmalıdır. Mən istəmirdim. Çünki Sovetlər Birliyi kimi bir fövqəldövlətin rəhbərliyində olmuş bir adam kimi gəlib Naxçıvana, kiçik bir muxtar respublikaya rəhbərlik etmək mənim üçün o qədər də yararlı bir şey deyildi. Mən bunu özümə sığışdırmırdım. Amma xalq gəlib məndən rica etdi, meydanlarda dörd gün bunu tələb etdi, mən də bunu qəbul etdim. Qəbul etməyim də çox gözəl, yaxşı oldu. Nə üçün? Çünki Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan Azərbaycandan ayrılmış bir vəziyyətdə idi, Azərbaycanın yolu kəsilmişdi, elektrik işığı, istilik, qaz yox idi. Naxçıvan çox ağır bir şəraitdə idi.

Naxçıvanın rəhbəri olduğuma, hörmətimə, gördüyüm işlərə görə muxtar respublika ayağa qalxmağa başladı. Türkiyə ilə Naxçıvan arasında körpü tikdik. Körpü tikilib qurtarmamışdan əvvəl Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Süleyman Dəmirəllə mən 1968-ci ildən dost idik. Mən burada çalışarkən Türkiyənin baş naziri kimi o, ilk dəfə Azərbaycana gəlmişdi. Burada ilk görüşümüz olmuşdu, sonra isə əlaqələrimiz davam etmişdi. Mən Moskvada çalışanda da onunla əlaqələrimiz var idi. Ona görə də Naxçıvana gələn kimi o, mənə diqqət yetirdi, yəni qayğı göstərdi. Məni Ankaraya dəvət etdi. Süleyman Dəmirəl mənim üçün Naxçıvana təyyarə göndərdi. Ankaraya getdim, görüşdük. O, Naxçıvana yardım etdi. Biz körpünü istifadəyə verdik, Türkiyəyə yol açıldı. Sonra Türkiyədən elektrik xətti çəkdik. Digər elektrik xəttini isə İrandan çəkdik. Bundan sonra məni İrana dəvət etdilər. Rəfsancanı da mənə təyyarə göndərdi. Tehrana getdim, onunla da əlaqə qurdum. Biz Naxçıvanı qaldırdıq, yaşatdıq.

**Sual: Naxçıvandan sonra Azərbaycanın paytaxtına gəldiniz?**

**Cavab:** 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandı. Gəncədən silahlı adamlar gəlib burada Elçibəy hakimiyyətini devirdilər. Bu zaman insanlar gəlib dedilər ki, Azərbaycan dağılır, qardaş qanı tökülür, vətəndaş müharibəsi başlayıbdır, mən Bakıya gəlməliyəm. Gəlmək istəmədim. Çünki doğrusunu deyim, mən Bakıdan küsmüşdüm. [50-51] Burada bu qədər xidmət göstərməyimə baxmayaraq, mənə qarşı belə münasibət bəslənildiyinə görə küsdüm. Dedim ki, ömrümün sonunadək Naxçıvanda yaşayacağam. Əbülfəz Elçibəy dörd gün ərzində hər gün təyyarə göndərirdi, ancaq mən gəlmirdim. Nəhayət, gəldim görüm ki, burada işlər, vəziyyət necədir? Gəlib gördüm ki, Azərbaycan dağılır, parçalanır, qardaş qardaşı öldürür. Mən gələndən sonra bir həftə ərzində danışıqlar getdi, sonra parlament sədri seçilməyimə razılıq verdim. Amma iki gün sonra Əbülfəz Elçibəy buradan gizli olaraq qaçdı. Respublika prezidentsiz qaldı. Mən prezidentin səlahiyyətlərini üç-dörd ay icra etdim. Ondan sonra məni prezident seçdilər.

**Müxbir:** Beləcə, Azərbaycan xilas oldu, qardaş qanı tökülməsinin qarşısı alındı. Ermənistan-Azərbaycan müharibəsində atəşkəs əldə edildi.

**Cavab:** Azərbaycan bu vətəndaş müharibəsindən xilas oldu. Sonra Ermənistanla müharibəni dayandırmaq lazım idi. 1994-cü ilin mayında buna da nail oldum. Atəşkəs haqqında saziş imzalandı. İndi iki il yarımdır ki, atəş yoxdur. Amma burada yenə də çevriliş etmək istədilər.

**Sual: Sizə qarşı neçə çevriliş cəhdi edilib?**

**Cavab:** Çox.

**Sual: Bu çevrilişləri kimlər etmək istəyirdi?**

**Cavab:** Mən Surət Hüseynovu baş nazir təyin etmişdim. O, Gəncədən gəlib Əbülfəz Elçibəy hakimiyyətini devirən adam idi. Amma o vaxt vəziyyət elə idi ki, onun əlində ordu, çoxlu silah var idi. Mən birlik yaratmaq, Azərbaycanı vətəndaş müharibəsindən xilas etmək üçün onu baş nazir təyin etdim. Gənc adam idi. Dedim ki, sən mənə qulaq as, öyrən, gələcəkdə bəlkə doğrudan da baş nazir oldun. Çünki indi baş nazir deyilsən. O, bu vəzifədə bir il oldu, ancaq bir şey edə bilmədi. Onun başında prezident olmaq iddiası var idi. Bir gün çevriliş etmək istədi ki, məni devirsin. O vaxt mən televiziyadan istifadə etdim, xalqa müraciət etdim ki, Azərbaycan təhlükədədir, çevriliş edirlər, kim Azərbaycan dövlətini qorumaq istəyirsə bu meydana gəlsin. Bir-iki saatdan sonra bu meydana 500 min adam toplaşdı. Surət Hüseynov öz ordusu, silahları ilə heç bir şey edə bilmədi. Gəlib 500 min adamı öldürə bilməyəcəkdi ki! Qaçmağa çalışdı, qoymadım. İkinci gün bütün şəhərlərdən bir milyondan çox adam gəlib məni dəstəkləmək üçün bu meydana toplaşdı. Bundan sonra mən [51-52] Surət Hüseynovu işdən çıxardım. Surət Hüseynov qaçıb Moskvaya getdi.

Altı aydan sonra dövlət çevrilişinə yeni bir cəhd oldu. Burada bir Xüsusi Təyinatlı Polis Dəstəsi var idi, adı OMON idi. Ona Rövşən Cavadov kimi yaramaz bir insan rəhbərlik edirdi. O, daxili işlər nazirinin müavini idi. O, bir çevriliş etməyə çalışdı. Buna özü tək cəhd göstərmədi, Moskvaya qaçmış keçmiş prezident Mütəllibov, Kələkidə oturan Əbülfəz Elçibəy və Xalq Cəbhəsindən olan bir neçə adam ona qoşuldular. Onun min nəfərlik, bir silahlı dəstəsi var idi. Tələb etdi ki, mən istefa verim. İstefa verməsəm, öldürəcəyi ilə hədələdi. Bildirdim ki, istefa vermirəm, kim məni öldürmək istəyirsə gəlsin. Gecə saat 2-də buraya hücum etdilər. Mən bunun qarşısını aldım.

Sonra səfərdən qayıdarkən mənim təyyarəmi raketlə vurmağa çalışdılar. Ondan da xilas oldum. Hava limanına gedən yolda 600 metrlik bir körpü var, onun altına çox güclü partlayıcı maddələr qoydular ki, körpünü partlatsınlar. Ukraynanın prezidenti Leonid Kuçma ilə məni oradan keçərkən öldürmək istədilər. Onu da edə bilmədilər. Sonra yenə də bir-iki terror aktına cəhd göstərildi. Amma Allah məni qorudu.

**Sual: Allah Sizi qorudu. İndi sakitlikdir, eləmi?**

**Cavab:** Bəli, indi sakitlikdir.

**Sual: İcazənizlə, Türkiyə - Azərbaycan əlaqələri məsələsinə toxunaq. Çünki proqramımız sona çatmaq üzrədir. İndi Türkiyə ilə yaxın əlaqələriniz vardır. Bakı-Ceyhan neft kəmərinin çəkilib-çəkilməməsi məsələsi tez-tez gündəliyə çıxır. Vəziyyət nə yerdədir?**

**Cavab:** Bilirsiniz, Türkiyə Azərbaycanda imzalanmış ilk neft müqaviləsinin iştirakçısıdır. Müqavilə imzalananda orada Türkiyənin payı 1,75 faiz idi. Müqavilə imzalanandan sonra mən Azərbaycanın payı hesabına bunu 5 faiz artırdım, 6,75 faiz oldu. İyun ayında biz "Şahdəniz" yatağının birgə işlənməsi barədə yeni

bir müqavilə imzaladıq. Türkiyə bu müqavilənin də iştirakçısıdır. Orada Türkiyənin payı 9 faizdir. İlkin neftin ixrac edilməsi üçün iki neft kəməri marşrutunu müəyyənləşdirdik. Bu xəttin birincisi Rusiya ərazisindən keçərək Qara dənizin Novorossiysk limanına gedir, digəri isə buradan Gürcüstanın Qara dənizdəki Supsa limanına, Türkiyənin yaxınlığına çıxacaq. Böyük boru xəttinin çəkilməsi barədə danışıqlar gedir. Yəni biz bu boru xəttini iki-üç ilə müəyyənləş[52-53]dirməliyik. Şübhəsiz, mənim ürəyimdən keçən bu xətti Ceyhana çəkməkdir.

**Sual: Necə fikirləşirsiniz, bu boru xətti Ceyhana çəkiləcəkmi?**

**Cavab:** Onun çəkilməsi tək məndən asılı deyil. Bu konsorsiumda 11 neft şirkəti var. Burada Amerikanın da, Norveçin də, Rusiyanın da, İngiltərənin də şirkətləri var.

**Sual: Sizcə, buna kim mane olur?**

**Cavab:** Mane olan yoxdur. Bu məsələ hələ həll edilməyibdir. Mən kimin mane olduğunu deyə bilmərəm. Mən bilirəm ki, kimsə bunu istəmir.

**Sual: Bunu bilirsiniz?**

**Cavab:** Bəli, bilirəm. Amma bu məsələnin həll edilməsinin vaxtı hələ çatmayıb. Onun həlli üçün hələ vaxt var. İndi bu barədə danışmağın əhəmiyyəti yoxdur. Hər şeyi vaxtı gələndə həll edəcəyik.

**Sual: Türkiyənin iş adamları Azərbaycana sərmayə qoyurlar. Onlara deyəcəyiniz bir söz varmı?**

**Cavab:** Mən türkiyəli iş adamlarını buraya çox dəvət edirəm. Bu günlərdə Bakıda Azərbaycan-Türkiyə əməkdaşlıq şurasının iclası oldu. Türkiyənin dövlət naziri Namik Kamal Zeybək də bu iclasda iştirak edirdi. Azərbaycanın baş nazirinin müavini Abid Şərifov bizim tərəfimizdən bu işlərə rəhbərlik edir. Burada keçən iclasda araşdırmalar aparıldı. Mən türk iş adamlarının böyük heyətini qəbul etdim. Bu gün də televiziyadan istifadə edib deyirəm: Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm. Təkcə ticarət üçün yox, sərmayə qoymaq üçün. İndi dünyanın ən böyük şirkətləri Azərbaycana sərmayə qoyurlar, respublikamıza gəlirlər. Məsələn, Norveç kimi kiçik bir ölkənin 50 şirkətinin hazırda burada ofisi var. Amerikanın 60 şirkətinin, İngiltərənin 60 şirkətinin Azərbaycanda ofisi fəaliyyət göstərir. Yaponiyalılar da Bakıya gəlirlər, onlar da burada ofis açıblar. Ona görə də Türkiyənin iş adamları buraya daha çox gəlməlidirlər. Azərbaycanın iqtisadiyyatının gələcəyi çox genişdir. Türkiyəli iş adamlarına bir daha deyirəm ki, gecikməyin, erkən gəlin, daha yaxşı yer tutun. Azərbaycana gələn iş adamlarına hər cür yardım edilir. Gələnlər çoxdur, amma bundan da çox iş adamlarının gəlməsi lazımdır.

**Müxbir:** Cənab prezident, proqramımız sona yaxınlaşır. TQRT-nin rəhbərləri adından zati-alinizə plakat təqdim etmək istəyirik. Çox sağ olun, təşəkkür edirəm. [53-54]

**Heydər Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Mən TQRT-yə uğurlar arzulayıram. Güman edirəm ki, sizinlə gələcəkdə yeni-yeni görüşlərim olacaqdır.

**Müxbir:** Cənab prezident, proqramımız sona yetdi. Lütf edib bizi qəbul etdiniz. Artıq 53 dəqiqədir ki, Sizinlə söhbət edirik. Təbii ki, Sizinlə 53 saat da belə söhbət etmək kifayət deyildir. Çünki Siz bir tarixsiniz, tarixdə silinməz iz qoyan lidersiniz. Buna görə Sizə çox təşəkkür edirik. Azərbaycan televiziyasının əməkdaşlarına da minnətdarıq. Hamınıza təşəkkür edirik, çox sağ olun.

**Heydər Əliyev:** Çox sağ olun, mən də sizə təşəkkür edirəm. Sizin bu imkanlarınızdan istifadə edib öz hörmətimi, ehtiramımı, salamlarımı Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına çatdırıram. Türkiyə Cümhuriyyətinə, dövlətinə, xalqına öz sevgimi, məhəbbətimi bildirirəm. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri sarsılmazdır. Bunu artıq heç kəs sarsıda bilməz. Azərbaycanın dövlət müstəqilliyi yenilməzdir, dönməzdir, əbədidir. Azərbaycan əbədi müstəqil bir dövlətdir. Müstəqil dövlət kimi Azərbaycan Türkiyəni özünə ən yaxın bir qardaş, dost ölkə kimi qəbul edibdir. Mən Türkiyədə olarkən demişəm ki, biz bir xalq iki məmləkət, iki dövlət, bir xalqıq. Bu sözləri Türkiyədə indi çox adamlar təkrar edirlər. Bu sözləri bir daha deyirəm. Bu, o deməkdir ki, xalqlarımız bir kökdən olan xalqlardır. Biz bir dildə danışan xalqlarıq. Ənənələrimizin, adətlərimizin hamısı eynidir. Adlarımız da, bütün həyatımız da eynidir. Xalqlarımız bu köklər əsasında əsrlərdən-əsrlərə dost kimi yaşayıblar. Məhəmməd Füzuli kimi böyük türk – Azərbaycan şairinin 500 illik yubileyini biz bu günlərdə qeyd etdik. Buraya bütün türk dünyasının nümayəndələri toplaşdılar. Türk dünyasının ən böyük təmsilçiləri ilk dəfə olaraq Azərbaycan torpağında Məhəmməd Füzulinin 500 illik yubileyinə toplaşdılar. Bunlar hamısı dostluğumuzu, qardaşlığımızı həm göstərir, həm də dünyaya nümayiş etdirir. Bu dostluğumuz da əbədidir.

**Müxbir:** Bu dostluğun əbədi qalması arzusu ilə Sizə çox təşəkkür edirəm. Hörmətli tamaşaçılar, TQRT telekanalı öz tarixində bu axşam daha bir yeni addım atdı. Azərbaycanın paytaxtı Bakıda, Prezident sarayında hörmətli prezident Heydər Əliyevin iştirak etdiyi ilk canlı yayımı, "Üz-üzə" proqramını sizə təqdim etdik. Bu proqram Azərbaycan televiziyasının birinci və ikinci kanalları ilə də birbaşa yayıldı.

Hamınıza xeyirli gecələr arzulayıram. Sağ olun. [54-55]

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,**
**SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI**
**ƏLAHƏZRƏT FƏHD İBN ƏBDÜL ƏZİZ**
**ƏL-SƏUD CƏNABLARINA**

Əziz qardaşım!

Hindistan səmasında baş vermiş təyyarə qəzası nəticəsində Səudiyyə Ərəbistanı vətəndaşlarının faciəli surətdə həlak olması Azərbaycan xalqını və şəxsən məni sarsıtmışdır.

Zati-alinizə və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və kədərinizə şərik olduğumu bildirirəm.

Allah rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 noyabr 1996-cı il* [55-56]

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ EDUARD AMVROSİYEVİÇ ŞEVARDNADZE CƏNABLARINA**

Hörmətli Eduard Amvrosiyeviç!

Kutaisi şəhəri yaxınlığında çoxsaylı insan tələfatına səbəb olmuş nəqliyyat qəzası haqqında xəbər məni dərindən sarsıtdı.

Sizə, habelə zərər çəkənlərin qohumlarına və yaxın adamlarına səmimi qəlbdən başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 noyabr 1996-cı il* [56-57]

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA**

Hörmətli Boris Nikolayeviç!
Kaspiysk şəhərində faciəli hadisə nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtdı. Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına səmimi qəlbdən başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 noyabr 1996-cı il* [57-58]

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ MAQOMEDƏLİ MAQOMEDOVİÇ MAQOMEDOV CƏNABLARINA**

Hörmətli Maqomedəli Maqomedoviç!

Kaspiysk şəhərində çoxsaylı insan tələfatı ilə nəticələnmiş faciə məni və bütün Azərbaycan xalqını dərindən sarsıtmışdır.

Sizə və sizin şəxsinizdə qardaş Dağıstanın bütün xalqlarına, həlak olanların qohumlarına və yaxın adamlarına səmimi qəlbdən başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 noyabr 1996-cı il* [58-59]

## AZƏRBAYCAN VƏ TATARISTAN RESPUBLİKALARI ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident sarayı*

*21 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar, siz bilirsiniz ki, Tatarıstan prezidenti möhtərəm Mintimer Şaymiyev və onu müşayiət edən şəxslər mənim dəvətimlə dünən axşam Azərbaycana rəsmi səfərə gəlmişlər. Mən prezident Mintimer Şaymiyevə minnətdaram ki, o, dəvətimi qəbul etdi və Azərbaycana gəldi. Dünən axşamdan bəri biz fikir mübadiləsi etməyə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında, o cümlədən Azərbaycan ilə Tatarıstan arasında münasibətlərə dair bir çox məsələləri müzakirə etməyə imkan tapdıq.

Biz Azərbaycanın Rusiya ilə dostluq münasibətlərinə böyük əhəmiyyət veririk, bu münasibətlərin bütün sahələrdə inkişafı, dərinləşməsi və genişlənməsi üçün bütün səylərimizi göstərir və göstərəcəyik. Rusiya böyük ölkədir, federasiyanın bir çox subyektlərindən ibarətdir. Federalizmi inkişaf etdirmək prinsipi bu subyektlər üçün kifayət qədər müstəqilliyi və böyük səlahiyyətləri təmin etmişdir. Tatarıstan həmin subyektlər arasında mühüm yer tutur və bir respublika kimi Rusiyanın tərkibində çox yüksək səlahiyyətlərə, böyük hüquqlara malikdir. Bu hüquqlar Tatarıstan iqtisadiyyatının azad və müstəqil inkişafını, sosial problemlərin və mədəniyyət, elm, təhsil ilə bağlı bir çox digər məsələlərin həllini təmin edir.

Azərbaycan əsrlər boyu Tatarıstanla bağlı olmuşdur. Xalqlarımız eyni tarixi köklərə malikdir, ənənələrimiz mənəvi dəyərlərimiz bir-birinə çox oxşardır, dinimiz eynidir. Bütün bunlar Azərbaycan və tatar xalqları arasında ötən dövrlərdə [59-60] də, bu gün də sıx əlaqənin, əməkdaşlığın , dostluğun və qarşılıqlı anlaşmanın təməlidir.

Azərbaycan ilə Tatarıstan arasında iqtisadi əlaqələr də həmişə çox sıx olmuşdur. Keçmiş vaxtlarda bir-biri ilə əsasən Volqa və Xəzərdə gəmiçilik vasitəsilə əlaqə saxlamış olan respublikalarımızın coğrafi mövqeyi də Azərbaycan ilə Tatarıstan arasında ticarəti təmin etmişdir. Respublikalarımız arasında ticarət əlaqələrinə dair bir çox nümayəndələri – mədəniyyət, elm, təhsil xadimləri dostluq etmiş, xalqlarımız arasında dostluğu və əməkdaşlığı möhkəmlətmişlər.

Sovet İttifaqı çərçivəsində biz neft və qaz, neft emalı, neft kimyası, maşınqayırma sənayesi sahəsində çox sıx əməkdaşlıq edirdik. Bir vaxtlar Azərbaycandan Tatarıstana və Tatarıstandan Azərbaycana bir çox mallar, avadanlıq göndərilirdi. Tatar millətindən olan bir çox şəxslər Azərbaycanın yerli sakinləridir və onlar elm və mədəniyyətimizin inkişafına böyük töhfə vermişlər. Bununla yanaşı, bir çox azərbaycanlı Tatarıstanı özünün vətəni hesab edir, onların neçə-neçə nəsilləri orada yaşamış və yaşayır, tatar xalqının bir hissəsidir. İkinci dünya müharibəsindən sonra Tatarıstanda neft yataqları işlənilməyə başladıqda Azərbaycan neftçiləri bu yataqların kəşfinə və onlardan istifadə edilməsinə böyük töhfə vermişlər. Çoxları o vaxtdan bəri Tatarıstanda qalmış və yaşayırlar. O vaxtlar Tatarıstanı "İkinci Bakı" adlandırırdılar.

Bütün bunlar həmişə bizi yaxınlaşdırırdı, nümayəndə heyətlərimiz gedib gəlirdi. 1969-cu ildə Tatarıstanda Azərbaycan mədəniyyəti günlərinin uğurla keçməsi xatirimdədir. Tatarıstanın elm və mədəniyyət nümayəndələrinin Azərbaycanda görüşləri də müvəffəqiyyətlə keçmişdi. Yəni, ictimai-siyasi quruluşa, dövlət quruluşuna baxmayaraq, xalqlarımız sıx dostluq münasibətlərini qoruyub saxlayıbdılar. Bu münasibətlər bu günədək də saxlanmışdır. Üstəlik, indi həmin münasibətləri inkişaf etdirmək və möhkəmləndirmək üçün imkan var. Bu məqsədlə mən və prezident Şaymiyev hesab edirik ki, respublikalarımız arasında bir çox sahələrdə əməkdaşlıq üçün daha sıx qarşılıqlı münasibətlər yaradılması zəruridir. Azərbaycan və Tatarıstan prezidentlərinin indicə imzaladıqları saziş də bu məqsədə xidmət edir.

Hesab edirəm ki, Tatarıstan prezidenti cənab Şaymiyevin Azərbaycana səfəri Rusiya-Azərbaycan münasibətləri tari[60-61]xində, tatar və Azərbaycan xalqları arasında münasibətlərin tarixində mühüm hadisədir. Əminəm ki, bu gün gördüyümüz və gələcəkdə görəcəyimiz işlər Rusiya ilə Azərbaycan arasında da, Tatarıstan ilə Azərbaycan arasında dostluğu və əməkdaşlığı möhkəmləndirəcək, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Tatarıstan nümayəndə heyətinin burada olduğu dövrdə Tatarıstanın müxtəlif iqtisadi strukturlarının nümayəndələrinin, rəhbərlərinin bizim nazirlərlə, Nazirlər Kabineti ilə, istehsal birliklərimizin rəhbərləri ilə fərdi görüşləri olacaqdır. Hesab edirəm ki, biz iqtisadi münasibətlərimizi bundan sonra da, daha uğurla inkişaf etdirmək üçün yaxşı zəmin yarada bilərik. Biz bunu istəyirik və şəxsən mən belə hesab edirəm ki, Tatarıstan ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri çox əlverişli və ürəkaçandır. Qarşımızda duran məqsədlərə nail olmağı təmin etməkdən ötrü biz öz tərəfimizdən səylərimizi əsirgəməyəcəyik. Diqqətinizə görə sağ olun.

**Sual**: **Birinci sual Mintimer Şaymiyevədir. Enerji ehtiyatlarının işlənməsi sahəsində Tatarıstan rəhbərliyinin strateji xətti necədir? Siz öz qüvvənizə arxalanırsınız, yoxsa xarici investisiyaların cəlb olunmasına ümid bəsləyirsiniz? İkinci sual Azərbaycan prezidentinədir. Tatarıstan prezidenti ilə danışıqlar zamanı neft hasilatı sahəsində ikitərəfli əməkdaşlıqla bağlı konkret məsələləri müzakirə etmisinizmi? Əgər etmisinizsə, onda ilk birgə layihələrin meydana çıxacağını gözləmək olarmı? Bununla əlaqədar iki neft şirkətinin prezidentlərinə hansısa konkret tapşırıqlar verilibmi?**

**Mintimer Şaymiyev**: Bilirsiniz ki, sizin yataqlar kimi bizim yataqlar da, necə deyərlər, lap çox işlənmişdir. İndi biz əsasən yalnız laylara su vurmaq yolu ilə neft çıxarırıq. Şübhəsiz ki, yeni texnologiyaya da ehtiyac var. Biz ayrı-ayrı texnologiyalar üzrə xarici firmalarla altı birgə müəssisə yaratmışıq. Onlar yaxşı işləyirlər, perspektivsiz quyuları bərpa edir, qazdan istifadə edilməsi ilə məşğul olur, bir sıra texniki problemləri həll edirlər. Demək lazımdır ki, "Tatneft" Birliyinin müəyyən nüfuzu var, dünya ekspert şirkətlərinin auditindən keçmişdir. "Tatneft"in başçısı cənab Qaliyev birliyin səhmlərinin Amerika birjasında keçiriləcək ilk hərracında iştirak etmək üçün buradan, Bakıdan Amerikaya gedəcəkdir. Hazırda orada həmin [61-62] səhmlərin məzənnəsi çox yaxşıdır. Zənnimcə, gələn həftənin sonunda biz ilk nəticələri biləcəyik. Birlik bizim lokal yataqların işlənməsi üçün bankdan investisiya alır. Lakin bizim əlavə gücümüz də var. Təxminən 14-15 min nəfər növbə ilə işləmək üçün Sibirə getmişdir, orada hasilat azalır və sərbəst iş yerləri var. Lakin bu, xüsusi danışıqların mövzusudur. Hesab edirəm ki, bu məsələ bu gün burada müzakirə olunacaqdır. Prinsip etibarilə biz sizin yataqların işlənməsində iştirak edə bilərdik, özü də yalnız podratçı kimi yox.

**Heydər Əliyev**: Mən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə, baş nazirin birinci müavini Rasizadəyə tapşırmışam ki, birgə iş imkanlarını müəyyənləşdirmək üçün neft hasilatı problemi ilə bağlı məsələləri Tatarıstan Neft Şirkətinin prezidenti ilə müzakirə etsinlər. Bununla yanaşı, bizim müvafiq şəxslər bu gün danışıqlar aparacaq, neft maşınqayırma, neft kimyası sahələrində, neft və qaz xammalı ilə bağlı digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə edəcəklər.

**Sual**: **Cənab Şaymiyev, hörmətli prezidentimiz Heydər Əliyev bugünkü görüşdə dedi ki, biz Ermənistan ilə Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına xüsusi əhəmiyyət veririk. Sizin böyük həyat təcrübənizi və siyasət sahəsindəki təcrübənizi, Rusiyaya olan hörməti nəzərə alaraq, bilmək istərdim ki, Rusiya Federasiyasının subyekti kimi Tatarıstan bu məsələnin həlli üçün nə edə bilər?**

**Mintimer Şaymiyev**: Zənnimcə, Tatarıstan çox şey etmişdir. Biz Rusiyanın dövlət hakimiyyəti orqanları ilə ilk müqavilə imzalamağa nail olmuş və bununla da yeni Rusiyada yeni federativ münasibətlərin başlanğıcını qoya bilmişik. Bundan sonra o, özünün unitar dövlət kimi inkişaf etmək yolunu bağlamışdır. Lakin ən dəyərlisi budur ki, münaqişə vəziyyəti Rusiya Federasiyasının bütövlüyü pozulmadan aradan qaldırılmışdır. Ona görə də istənilən demokratik dövlət qurmaq prosesində onun bütövlüyünü pozmadan çox şeyə nail olmaq mümkündür. Tatarıstanın dünyada "Tatarıstan modeli" adlandırılan nümunəsi digər regionların, respublikaların dövlət quruculuğunda da istifadə edilə bilər.

**Sual**: **Möhtərəm prezident Heydər Əliyev dəfələrlə bəyan etmişdir ki, Qarabağ probleminin həllinin açarı Moskvadadır. Hörmətli prezidentlər, necə bilir**[62-63]**siniz, bu açar tez tapılacaq və Azərbaycan ərazisində ədalətli sülh tez yaranacaqmı?**

**Heydər Əliyev**: Siz hansı prezidentə müraciət edirsiniz?

**Jurnalist**: Həm Sizə, həm də cənab Şaymiyevə.

**Heydər Əliyev**: Onda cənab Şaymiyev cavab verməlidir. Çünki mən bu barədə çox danışmışam.

**Mintimer Şaymiyev**: Müəyyən bir müddət göstərmək mənim tərəfimdən əsla ciddi bir iş olmazdı. Lakin şübhəsiz, məsələnin daha sürətlə həllinə çalışmaq lazımdır, çünki onun yubadılmasından adamlar əziyyət çəkirlər. Axı həyata keçirməyə çalışdığımız hər hansı işdə gərək ön sıraya həmişə insanın maraqlarını çəkəsən. Lakin hər hansı münaqişənin həllində asılılıq və ya qarşılıqlı əlaqə müəyyən miqyasa malikdir. Bununla yanaşı bu gün Heydər Əliyeviçin dediyi kimi Rusiya ilə xoş münasibətlər yaratmaq üçün göstərilən indiki səylərlə məsələnin həlli yolu da tapılacaqdır. Hökmən tapılmalıdır.

**Sual**: **Cənab Əliyev və cənab Şaymiyev, Xəzər-Volqa nəqliyyat arteriyasından istifadə barədə sizin konkret planlarınız və ya təklifləriniz varmı? Əgər varsa, onda siz Rusiya tərəfindən olan nəqliyyat məhdudiyyətlərini nəzərə alaraq, bu planı necə həyata keçirmək fikrindəsiniz? Cənab Şaymiyev, Sizin Bakıya İrandan gəldiyinizi nəzərə alaraq, güman etmək olarmı ki, bu, üçtərəfli münasibətlərin başlanğıcı ola bilər?**

**Heydər Əliyev**: Volqa və Xəzər vasitəsilə nəqliyyat əlaqəsi bir vaxtlar Azərbaycanla Tatarıstan arasında çox fəal olmuşdur. Mən cənab Şaymiyevlə Davosda ilk görüşümüz zamanı əməkdaşlıq məsələlərini müzakirə edərkən bu mövzuya toxundum. Biz ona bu gün danışıqlarımız zamanı da toxunduq. Hesab edirəm ki, Azərbaycan ilə Tatarıstan arasında Volqa və Xəzərlə nəqliyyat əlaqəsini sahmanlamaq üçün biz bütün tədbirləri görməliyik. Tatarıstan üçün bu, bütün Xəzəryanı ölkələrlə əlaqə saxlamaqdan ötrü vacibdir. Siz bilirsiniz ki, son iki ildə Çeçenistan hadisələri ilə əlaqədar Rusiyanın dövlət strukturları Dağıstanla sərhəddə nəqliyyat əlaqələrimizi kəsmiş, habelə Həştərxan və Mahaç-Qala limanlarına yolumuzu bağlamışlar. Biz danışıqlar

apardıq və bu limanların bizdən ötrü açılmasına nail olduq. Volqa ilə hərəkət üçün [63-64] razılığa isə hələlik malik deyilik. Mən bu barədə Rusiya hökumətinin sədri Viktor Çernomırdin ilə dəfələrlə danışmışam. Hesab edirəm ki, biz həmin sahədə əməkdaşlığın təmin edilməsinə hər halda nail olacağıq. Ümidvaram ki, Tatarıstan da, xüsusən onun prezidenti cənab Şaymiyev də səy göstərəcəkdir. Çünki bütün Xəzəryanı dövlətlərlə əlaqələr üçün bu nəqliyyat arteriyasının sahmanlanmasına və ondan fəal istifadə edilməsinə Tatarıstanın da iqtisadi marağı göz qabağındadır. Odur ki, biz bu istiqamətdə birlikdə işləyəcəyik.

**Mintimer Şaymiyev**: Heydər Əliyeviçin dedikləri ilə tamamilə razıyam. Yalnız onu əlavə edə bilərəm ki, biz bu niyyətlərin həyata keçirilməsinə əslində girişmişik və respublikamızda çay-dəniz tipli neftdaşıyan gəmilərin inşasına başlamışıq. Elə gəmilər ki, yol üstündəki şlüzlərdən keçmək imkanı nəzərə alınmaqla, Volqa ilə dənizə çıxa bilsin. Əgər buna ehtiyacımız olmasaydı, biz elə bahalı layihənin həyata keçirilməsinə girişməzdik.

Dünən Bakıya gəldikdən sonra mən İran prezidentinin və Milli Məclis sədrinin Heydər Əliyevin ünvanına xoş arzularını, Azərbaycan xalqına təbrikini ona çatdırdım. Mən bu tapşırığı məmnuniyyətlə yerinə yetirdim. Biz ticarət, iqtisadiyyat və maliyyə nazirlikləri ilə iqtisadi əməkdaşlıq məsələlərini nəzərdən keçirərkən onlar üçtərəfli işin zəruri olduğu barədə fikir söylədilər, əmtəə mübadiləsi əməliyyatları aparılmasına, qarşılıqlı ödənişlər kimi çətin məsələlərin həllinə, təkcə Tatarıstanla deyil, Rusiyanın digər regionları ilə də qarşılıqlı surətdə mal göndərilməsinə, barter əməliyyatları aparılmasına dair öz təkliflərini bildirdilər. Biz bu təklifləri iş üçün qəbul etdik və hökumətimizin üzvləri onun necə həyata keçirilməsi barədə düşünməyə başlamışlar. Zənnimcə, burada işləmək üçün mövzu var.

**Heydər Əliyev**: Dünən prezident Şaymiyev İran tərəfinin bu təklifi barədə mənə danışdı. Hesab edirəm ki, təklif diqqətəlayiqdir. Biz müvafiq orqanlarımıza tapşırmışıq ki, onu praktikada necə həyata keçirmək barədə düşünsünlər. Hesab edirəm ki, bu təklif yaxşı nəticələrə gətirib çıxara bilər.

Diqqətinizə görə sağ olun. [64-65]

## AZƏRBAYCAN PREZİDENTİNİN ADINDAN TATARISTAN PREZİDENTİ MİNTİMER ŞAYMİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*Prezident iqamətgahı*

*21 noyabr 1996-cı il*

Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Tatarıstan prezidenti, bizim dostumuz Mintimer Şaymiyev və onunla birlikdə geniş nümayəndə heyəti dünən və bu gün Azərbaycanda rəsmi səfərdədirlər. Bu səfər mənim dəvətimlə həyata keçirilir. Çox şadam ki, Azərbaycan ilə Tatarıstan, Azərbaycan ilə Rusiya Federasiyası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dərinləşdirilməsi ilə bağlı məsələləri, problemləri burada, Azərbaycanda müzakirə etmək imkanımız var.

Biz artıq dünəndən başlayaraq işləyə bilmişik, bu gün Tatarıstan ilə Azərbaycan arasında əməkdaşlıq haqqında saziş imzalanıbdır. Belə saziş bizim aramızda ilk dəfə imzalanıbdır və onu iki respublikanın prezidentləri imzalamışlar. Bu sazişdə əməkdaşlığımızın, xüsusən iqtisadiyyat, sosial sahə, elm, mədəniyyət sahəsində əməkdaşlığın əsas istiqamətləri nəzərdə tutulubdur. Əməkdaşlığımızın daha etibarlı və daha uğurlu olunası üçün saziş yaxşı hüquqi-müqavilə əsası, normativ zəmin yaradır.

Tatarıstan prezidentinin Azərbaycana səfəri, imzalanmış saziş, dünən və bu gün keçirilmiş görüşlər, söhbətlər həyatımızda yeni hadisədir. Bu hadisə həm Rusiyada, həm də Azərbaycanda baş verən demokratik dəyişikliklərlə bağlıdır və xalqlarımızın daha çox ünsiyyət saxlamasına və onların əlaqələrinin möhkəmlənməsinə kömək edir. Tatar xalqı ilə Azərbaycan xalqı arasında əlaqələrin tarixi əsrlərlə hesablanır. Bizim xalqlarımız eyni etnik köklərə mənsubdur, xalqlarımızın genetik baxımdan mənəviyyatı, əxlaqı, adətləri, mərasimləri [65-66] ümumidir. Bizim dillərimiz bir-birinə yaxındır, bunlar da eyni kökə – türkdilli xalqların dillərinə mənsubdur. Bütün bunlar keçmişdə böyük tarix boyu xalqlarımız arasında dostluğu və sıx əlaqələri şərtləndirmişdir.

İndi biz bütün sahələrdə daha dərin əməkdaşlıq etmək üçün imkan qazanmışıq. Bu isə son illərdə keçmiş Sovetlər İttifaqı məkanında baş vermiş ictimai-siyasi proseslər nəticəsində mümkün olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyi, milli azadlıq qazanması, Rusiya Federasiyası tərkibində Tatarıstanın geniş hüquqlar və səlahiyyətlər əldə etməsi elə bir kəmiyyət mərhələsi və elə bir imkandır ki, biz bunlardan əməkdaşlığımızı, dostluq münasibətlərimizi möhkəmləndirmək və inkişaf etdirmək üçün istifadə edirik. Şübhəsiz ki, bunların hamısı Rusiya Federasiyasında, Rusiyanın tərkib hissəsi olan Tatarıstanda, bizim ölkəmizdə Azərbaycan Respublikasında baş vermiş və baş verən demokratik dəyişikliklərin nəticələrini əks etdirir.

Biz Rusiyada gedən bütün prosesləri diqqətlə izləyir və demokratik dəyişiklikləri, Rusiya həyatının bütün sahələrini daha da demokratikləşdirmək xəttini, demokratik islahatların həyata keçirilməsini bütünlüklə dəstəkləyirik. Bu, Azərbaycan Respublikasının strateji xəttinə də tamamilə uyğundur. Biz Azərbaycanda hüquqi demokratik sivil dövlət qururuq, həyatın bütün sahələrində demokratik islahatlar aparırıq, cəmiyyətin demokratikləşdirilməsinə çalışırıq, iqtisadiyyatda demokratik bazar islahatları keçirmək yolu ilə gedərək dövlətçiliyimizi möhkəmləndirmək və inkişaf etdirmək, insanların rifahını, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün Azərbaycanın potensial imkanlarından, iqtisadi potensialından daha dolğun istifadə etməyə çalışırıq.

Ona görə də bu istiqamətdə Rusiyada, Tatarıstanda görülən bütün işlər bizdə rəğbət doğurur, bizi daha da ruhlandırır, götürdüyümüz xətti həyata keçirmək naminə daha geniş fəaliyyət göstərməyimizə kömək edir.

Dünənki və bugünkü görüşlər zamanı biz bir çox məsələlər barəsində fikir mübadiləsi etdik. Rusiyada, o cümlədən Tatarıstanda iqtisadi islahatlar aparılması təcrübəsinin, habelə demokratikləşdirmə təcrübəsinin bizim üçün böyük əhəmiyyəti var. Əlbəttə, birinci növbədə tarixin bizi bağladığı ölkələrdə, o cümlədən Tatarıstanda gedən prosesləri müşahidə edirik. Suveren Tatarıstan haqqında indiyədək və bu gün bildikləri[66-67]miz, həmçinin danışıqlarımız zamanı aldığımız məlumatlar onu göstərir ki, Tatarıstanda yeni həyatın qurulub təşəkkül tapması sahəsində böyük proses gedir və Tatarıstan xalqı keçid dövrünün bir çox çətinliklərini dəf edərək mühüm uğurlar qazanır.

Prezident Mintimer Şaymiyevin dediklərindən başlıcası budur ki, Tatarıstanda ictimai-siyasi vəziyyət sabitdir, yaradıcı qüvvələrdən və xalqın bacarığından maksimum istifadə etmək üçün, respublikanın iqtisadi potensialından istifadə etmək üçün yaradılmış əlverişli şərait və bütün bunlar təbii olaraq böyük ehtiram hissi oyadır.

Biz yaxşı bilirik ki, Tatarıstan çoxlu əhalisi, böyük iqtisadi və intellektual potensiala malik olan iri respublikadır və Rusiya Federasiyasının tərkibində özünə layiqli yer tutur. Sovet İttifaqı dağıldıqdan sonra burada tezliklə Tatarıstanın tutduğu mövqeyin – prinsipial, düzgün və tatar xalqının milli mənafelərinə uyğun olan mövqeyin də böyük əhəmiyyəti var. Tatarıstanın, onun rəhbərliyinin və prezidentinin mövqeyi, Tatarıstanın bu gün malik olduğu statusu, Tatarıstanın Rusiya Federasiyasının tərkibində aldığı hüquq və səlahiyyətləri təmin etmişdir.

Tatarıstan və təbii olaraq, Rusiya Federasiyasının dövlət rəhbərliyi məsələnin federativ quruluşlu dövlət çərçivəsində həll oluna bilməsini inandırıcı surətdə nümayiş etdirirlər. Rusiya Federasiyasının mərkəzi ilə Tatarıstan arasında səlahiyyətlərin bu cür bölünməsi, Tatarıstana böyük hüquq və səlahiyyətlər verilməsi keçmiş Sovet İttifaqında, Rusiya Federasiyasında yeni tarixi təzahürdür. Bu nümunə böyük diqqətə layiqdir və ondan istifadə etməyə və onu yaymağa dəyər.

Biz buna böyük əhəmiyyət verir və onu əsas tuturuq ki, məsələnin bu cür həlli Rusiya Federasiyasının dövlət maraqlarına, tatar xalqının, Tatarıstanın milli mənafelərinə tamamilə uyğundur.

Bütün bunlarda Tatarıstan prezidenti hörmətli Mintimer Şaymiyevin böyük xidməti var. O, Tatarıstanda uzun illər ərzində dövlət fəaliyyəti sahəsində zəngin təcrübəyə, xalq arasında böyük nüfuza malikdir və öz xalqını ağıl-zəka ilə, müdrikliklə irəliyə doğru aparır, öz ölkəsinə rəhbərliyi təmin edir və belə mövqeyə nail olmuşdur. Təsadüfi deyildir ki, hörmətli dostumuz Mintimer Şaymiyev bu ilin mart ayında ikinci dəfə yekdilliklə Tatarıstan Respublikasının prezidenti seçilmişdir. [67-68]

Mən tarixi əlaqələrimizdən, Azərbaycan xalqının və tatar xalqının əlaqələrindən danışdım. Bu, bizim ümumi sərvətimizdir, ümumi dəyərimizdir, biz bunu qayğı ilə qoruyuruq və bugünkü həyatımız naminə, gələcək nəsillər naminə qoruyacaq və inkişaf etdirəcəyik: Xalqlarımız arasında dostluq həmişə ülvi olmuşdur, həmişə səmimi olmuşdur. Bu gün əmin ola bilərsiniz ki, Azərbaycan xalqının simasında tatar xalqı şərəfli, vəfalı və sadiq dosta malikdir. Təkrar edirəm, dostluğumuz istər tatar xalqı üçün, istərsə də Azərbaycan xalqı üçün eyni dərəcədə qiymətli olan dərin tarixi köklərə əsaslanır.

Bu yaxınlarda, Azərbaycanın böyük mütəfəkkiri və şairi Məhəmməd Füzulinin 500 illiyinin bayram edildiyi gün bu, nümayiş etdirildi, bizim fəxri qonaqlarımız arasında Tatarıstanın yüksək səviyyəli geniş nümayəndə heyəti vardı. Biz Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd etdik və ümumi əxlaqi və mənəvi dəyərlərimizə sadiq olduğumuzu, mənşəyimizə, tarixi köklərimizə sadiqliyimizi, gözəl ənənələrimizə sadiqliyimizi bir daha bildirdik.

Hesab edirəm ki, bu, mənəvi əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yaxşı əsasdır və biz bu istiqamətdə lazım olan hər şeyi edəcəyik. Azərbaycan kimi indi Tatarıstan da çətin keçid dövrünü yaşayır. Dünən və bu gün mən Azərbaycanın vəziyyəti, xüsusən Ermənistanın hərbi təcavüzü ilə əlaqədar vəziyyəti haqqında, bu təcavüz nəticəsində Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması, Azərbaycanın bir milyondan artıq vətəndaşının öz yerlərindən qovularaq ağır şəraitdə, çadır şəhərciklərində yaşaması, dünya birliyinin üzvü kimi Azərbaycanın ərazi bütövlüyünün, hüquqlarının pozulması haqqında prezident Mintimer Şaymiyevə ətraflı məlumat verdim.

Eyni zamanda mən gördüyümüz tədbirlər haqqında ətraflı məlumat verdim. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik, iki il yarımdan çoxdur ki, Ermənistanla barışıq vəziyyətindəyik, hərbi əməliyyatların yenidən başlanmasını istəmirik, münaqişənin sülh yolu ilə ədalətlə həll olunmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, zəbt olunmuş bütün torpaqların Ermənistanın işğalçı qoşunlarından azad edilməsini, yaşayış yerlərini tərk etmiş Azərbaycan vətəndaşlarının öz yerlərinə qayıtmasını, Azərbaycanın beynəlxalq aləmdə tanınmış dövlət sərhədlərinin tamamilə bərpa olunmasını istəyirik. [68-69]

Biz bu məsələnin həllinə çalışır, bütün imkanlardan – beynəlxalq təşkilatların, ATƏT-in, Minsk qrupunun imkanlarından, Rusiya Federasiyasının vasitəçiliyindən istifadə edirik. Biz ATƏT-in üzvü olan dövlətlərin başçılarının dekabrın əvvəlində Lissabonda başlanacaq görüşü ərəfəsindəyik və ümid edirik ki, bu görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsini daha səmərəli həll etməyə imkan verəcək qərarın qəbul edilməsinə nail ola biləcəyik.

Şübhəsiz ki, Ermənistanın təcavüzü Azərbaycanın sosial-iqtisadi vəziyyətini mürəkkəbləşdirir. Lakin buna baxmayaraq, biz iqtisadi potensialımızdan, imkanlarımızdan istifadə edərək iqtisadi islahatlar aparır, demokratikləşdirməyə dair tədbirlər həyata keçiririk və bu tədbirlər öz nəticələrini veribdir. Mən əminəm ki, suveren dövlət, müstəqil respublika kimi Azərbaycan uğurlu, firavan gələcəyə ümid bəsləyə bilər.

Tatarıstanın və Azərbaycanın bu keçid dövrünü müvəffəqiyyətlə aradan qaldırması üçün, daxili problemlərimizin və keçid dövründə bizə mane olan digər problemlərin öhdəsindən gələ bilməyimiz üçün daha sıx əməkdaşlıq etmək, əlaqələrimizi, dostluğumuzu möhkəmləndirmək lazımdır. Prezident Mintimer Şaymiyevin Azərbaycana gəlməsi də bundan ötrü əlverişli şərait yaradır.

Mən Tatarıstanın şərəfinə, tatar xalqının şərəfinə, Tatarıstan Respublikasının şərəfinə, Tatarıstan xalqlarının firavanlığı və uğurları şərəfinə, Tatarıstan prezidentinin, hörmətli dostumuz Mintimer Şaymiyevin şərəfinə, bütün qonaqlarımızın şərəfinə badə qaldırmağı təklif edirəm.

Sağ olun, sizin sağlığınıza! [69-70]

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA ÇIXIŞ

*22 noyabr 1996-cı il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin yeni binasının açılması münasibətilə sizi ürəkdən təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Almaniya Federativ Respublikası səfirliyinin yeni təmir olunmuş və modern səviyyəyə çatdırılmış bu binada işləri bundan sonra daha da yaxşı gedəcəkdir. Almaniya səfirliyinə və səfirliyin bütün əməkdaşlarına böyük və şərəfli işlərində uğurlar arzulayıram.

Biz Almaniya Federativ Respublikası ilə Azərbaycan arasındakı əlaqələrə xüsusi əhəmiyyət veririk. Ona görə də Almaniya səfirliyi ölkəmizdə işə başladığı gündən indiyədək biz səfirliklə daim əməkdaşlıq edirik. Səfirlik və digər vasitələrlə biz Azərbaycan ilə Almaniya Federativ Respublikası arasında olan əlaqələri inkişaf etdirməyə və genişləndirməyə çalışırıq.

Ölkələrimiz arasındakı əlaqələr sürətlə inkişaf edir. Xüsusən iqtisadiyyat sahəsindəki əlaqələrimiz özünü yeni-yeni uğurlarla göstərir. Şübhəsiz ki, bununla əlaqədar olaraq Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin işi də, onun əməkdaşlarının sayı da artır. Onların müvəffəqiyyətlə, səmərəli işləməsi üçün məhz belə bina, şərait lazımdır. Mən çox məmnunam ki, Almaniyanın Bakıdakı səfirliyi özünə layiq bir binada yerləşir, yaxşı işləmək üçün burada yaxşı da şərait yaranıbdır.

Mən xüsusi qeyd etmək istəyirəm ki, səfirliyin binası Bakının mərkəzi nöqtələrindən birində olan, keçmişdə tikilmiş bir binada yerləşir və bu da səfirliyin işləməsi üçün yaxşı şərait yaradır. Səfirin çıxışındakı bir müddəaya mən bir balaca düzəliş vermək istəyirəm: Bu bina indi yox, çoxdan, on illərlə [70-71] bundan əvvəl səhv etmirəmsə, əsrin əvvəlində tikilibdir. İndi isə bu buna sadəcə olaraq bərpa, təmir edilib, modernləşdiribdir. Arzu edərdim ki, səfirlik bu gözəl binada Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etdirilməsi üçün bundan sonra daha da səmərəli işlər görsün.

Cənab Şmunk Almaniya Federativ Respublikasının Azərbaycanda ilk səfiridir. İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür. Azərbaycanda Almaniya səfirliyinin təşkil olunması, fəaliyyətə başlaması və nəhayət, indi onun gözəl bir binada yerləşməsi işlərinin hamısı səfir cənab Şmunkun üzərinə düşmüşdür. Məmnuniyyət hissi ilə qeyd etmək lazımdır ki, o, bu işləri çox müvəffəqiyyətlə başa çatdırmışdır və Azərbaycanda Almaniya səfirliyinin yaranmasında öz xidmətlərini çox yüksək səviyyədə göstərmişdir.

Mən çox məmnunam ki, Almaniya səfirliyinin əməkdaşları və şəxsən cənab Şmunk ölkəmizdə yaşadıqları, işlədikləri qısa müddətdə Azərbaycan xalqının mədəniyyətini, ənənələrini, xalqımıza məxsus keyfiyyətləri qavrayıblar, bunlara hörmət hissi bəsləyiblər. Mən görürəm ki, xalqımıza, ənənələrimizə onlarda hörmət oyanıbdır. Bu, məni çox sevindirir. Rəssamlarımızın əsərlərinin, xalq çalğı alətlərimizin, Azərbaycana məxsus başqa eksponatların burada təmsil olunması buna əyani sübutdur.

Mən hesab edirəm ki, indi Azərbaycan-Almaniya əlaqələri yüksək səviyyədədir. Azərbaycan prezidenti kimi mən bu ilin iyulunda Almaniyada rəsmi səfərdə olarkən federal kansler cənab Helmut Koll, federal prezident cənab Roman Hersoq ilə və bu ölkənin digər dövlət xadimləri ilə apardığım danışıqlardan, imzaladığımız müqavilələrdən, sənədlərdən sonra əlaqələrimizin inkişafı üçün yeni böyük yollar açılmışdır.

Almaniyanın xarici işlər naziri cənab Klaus Kinkelin Azərbaycana səfəri zamanı apardığımız danışıqlar və əldə etdiyimiz razılıqlar ölkələrimizin əlaqələrinin inkişafında mühüm rol oynamışdır. Mən Almaniyanın Azərbaycana göstərdiyi qayğı və diqqəti xüsusi qeyd etmək istəyirəm.

Bu gün qarşımızda duran ən böyük problem Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsindən, Ermənistan tərəfindən respublikamıza edilmiş təcavüzün qarşısının alınmasından, ölkəmizin işğal edilmiş ərazilərinin azad olunmasından və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən ibarətdir. Bu məsələlərin həll edilməsi ilə bağlı bizim [71-72] gördüyümüz və beynəlxalq təşkilatlarda görülən işlərlə, aparılan danışıqlarla əlaqədar Almaniya Federativ Respublikasının mövqeyi həmişə prinsipial, düzgün mövqe olubdur. Biz Almaniyanın bu gün də belə mövqeyini yüksək qiymətləndiririk. Bu məsələlərin həll edilməsində ATƏT-in əsas prinsiplərinə, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə, beynəlxalq hüquq normalarına riayət etmək ən əsas şərtdir. Mən çox məmnunam ki, Almaniya Federativ Respublikası bu məsələlərin həll olunması prosesində məhz beynəlxalq hüquq normalarını, prinsiplərini əsas tutaraq münaqişənin ədalətli həlli üçün öz səylərini göstərir.

Azərbaycan ilə Almaniya arasındakı əlaqələrin, xüsusən iqtisadiyyat sahəsindəki əlaqələrin böyük perspektivləri, gələcəyi vardır. Biz Almaniyanın bir çox böyük şirkətləri ilə əməkdaşlıq etmək üçün danışıqlar aparırıq və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu danışıqlar müvəffəqiyyətlə nəticələnəcəkdir. Almaniyanın məşhur şirkətləri hələ əsrin əvvəlində Azərbaycanda fəaliyyət göstəriblər və öz işlərinin müsbət izlərini qoyublar. Hesab edirəm ki, Almaniyanın şirkətləri bu gün və gələcəkdə Azərbaycanda daha çox işlər görə bilərlər. Mən Almaniyada səfərdə olduğum zaman bu ölkənin şirkətlərini Azərbaycana dəvət etmişəm. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan-Almaniya iqtisadi əməkdaşlığının çox böyük imkanları vardır. Biz öz tərəfimizdən çalışacağıq ki, bu imkanlardan Almaniya ilə birlikdə istifadə edək.

Səfirliyin yeni binasının açılışı ilə əlaqədar keçirilən bu mərasimdəki nitqində cənab Şmunk yaxın günlərdə Azərbaycanı tərk edəcəyini bildirdi. Mən bilirəm ki, cənab Şmunk gəncdir, öz vəzifəsinin daha da yüksəlməsini, inkişaf etməsini istəyir. O dedi ki, cənab Kinkel Bonnda onun üçün yeni vəzifə hazırlayıbdır. Şübhəsiz ki, hər bir şəxsin işinin inkişaf etməsinin qarşısını almaq düzgün olmaz. Mən də bunu etmək istəmirəm. Ancaq hesab edirəm ki, cənab Şmunk Azərbaycanda az işləyibdir. Almaniya-Azərbaycan əlaqələri indi-indi böyük sürət götürübdür. Bunun üçün də burada bundan sonra də işləmək daha da maraqlı, əhəmiyyətli olardı. Ancaq görünür, doğma torpaq adamı daha çox çəkir. Ona görə də biz cənab Şmunkun vəzifə pillələri ilə yuxarı qalxmasının qarşısını almayacağıq. Əksinə, arzu edəcəyik ki, o, gələcək işində bir pillə yox, bir neçə pillə yuxarıya qalxsın. Yadımızda saxlayacağıq cənab Şmunk bildirdi ki, o, Almaniyada olduğu zaman da [72-73] Azərbaycanı unutmayacaq, ölkəmizin qayğıları ilə yaşayacaqdır.

Mən çox məmnunam ki, Almaniya Bundestaqının üzvləri, Azərbaycanda yaxşı tanınan cənab Vimmer və cənab Fozen də bu mərasimdə iştirak edirlər. Onlar ölkəmizin böyük dostlarıdırlar və Azərbaycan vətəndaşlığı hüququ almağa gəlib çatıblar. Hörmətli dostlar, mən sizi ürəkdən salamlayıram. Çox məmnunam ki, bu hadisə münasibətilə siz bizimlə burada bir yerdəsiniz.

Almaniya birləşdikdən sonra Almaniya Federativ Respublikası yeni bir dövr, mərhələ yaşayır. Artıq Almaniya Avropada və bütün dünyada özünəməxsus bir yer tutubdur və dünya iqtisadiyyatına, siyasətinə öz təsirini göstərir. Bu bizi sevindirir. Hesab edirik ki, birləşmiş yeni Almaniya öz demokratik ənənələri, imkanları ilə dünya birliyində sülhün, əmin-amanlığın yaranması sahəsində çox böyük işlər görə biləcəkdir.

Qafqaz regionunda sülhün, əmin-amanlığın yaranması, Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsi, ölkəmizin ədalətli tələblərinin həyata keçirilməsi üçün də biz Almaniya Federativ Respublikasının köməyinə və yardımına ümidlər bəsləyirik.

Bu mərasim münasibətilə mən sizi bir daha təbrik edirəm. Alman xalqına səadət, xoşbəxtlik arzulayıram. Almaniyanın ölkəmizdəki səfirliyinin əməkdaşlarına öz işlərində müvəffəqiyyətlər arzu edirəm. Sağ olun. [73-74]

## "ŞƏRQ QAPISI" QƏZETİNİN KOLLEKTİVİNƏ

Əziz dostlar!

Sizi – Naxçıvan Muxtar Respublikasının "Şərq qapısı" qəzetinin bütün kollektivini qəzetinizin 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

75 illik şərəfli yaradıcılıq yolu keçmiş "Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə öz oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur.

Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir.

Sizə bundan sonra da oxucu etibarına layiq olmağı arzulayır, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 noyabr 1996-cı il* [74-75]

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN İCLASINDA NİTQ**

*27 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi dünən mən Azərbaycan Respublikasının baş naziri vəzifəsinə Artur Rasizadəni təyin etmişəm. Artur Rasizadə sizə tanış adamdır. O, may ayından Nazirlər Kabinetində işləyir, iyuldan baş nazirin birinci müavini kimi baş nazir səlahiyyətlərini həyata keçirir. Dünən mən onu baş nazir təyin etmişəm.

Rasizadənin həyat yolu sizə məlumdur. O, daim Azərbaycan Respublikasında işləyir. Burada doğulub, təhsil alıb, bütün əmək fəaliyyətini Azərbaycanda keçiribdir. Elmi işdə, sənaye sahəsində işləyibdir. Vaxtilə Dövlət Plan Komitəsində sədrin birinci müavini olubdur. Sonra Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində sənaye şöbəsinin müdiri olubdur. 6 ildən çox Azərbaycan Nazirlər Soveti sədrinin müavini vəzifəsində işləyibdir. 1992-ci ildə bu vəzifədən azad olunubdur və 1996-cı ildə yenidən, artıq sizə məlum olan vəzifələrə təyin edilibdir.

Rasizadəni mən 1970-ci illərdən bir yerdə işlədiyimiz zamandan işgüzar, öz işini, sənətini bilən bir adam kimi tanıyıram. O, xüsusən sənaye, maşınqayırma sənayesində – həm maşınqayırmanın elmi, layihə məsələləri ilə, həm də istehsalla məşğul olubdur. Eyni zamanda respublikada yüksək vəzifələrdə işləyibdir. O, xüsusən 6 ildən yuxarı Azərbaycan Nazirlər Soveti sədrinin müavini vəzifəsində işləyərək, şübhəsiz ki, respublika iqtisadiyyatının işini yaxşı mənimsəyibdir, bilir. Hesab edirəm ki, bütün bu keyfiyyətlərinə görə o, bu vəzifəni, yəni müstəqil Azərbaycan Respublikasında indiki mərhələdə baş nazir vəzifəsini daşıya bilər. Bunları nəzərə alaraq mən Artur Rasizadəni bu vəzifəyə təyin etmişəm.

Şübhəsiz ki, son vaxtlar, iyulun 18-də baş nazir həmin vəzifədən azad olunandan sonra, Rasizadə baş nazirin birinci [75-76] müavini kimi, baş nazirin səlahiyyətlərini icra etmək funksiyasını mən onun üzərinə qoyandan sonra da müəyyən müşahidələr aparmışam və belə qərara gəlmişəm ki, indiki zamanda bu vəzifəni o, apara bilər. Yenə də təkrar edirəm ki, ona görə də mən onu həmin vəzifəyə təyin etmişəm.

Güman edirəm ki, Rasizadə bu yüksək etimadı doğrultmağa çalışacaqdır və çox arzu edirəm ki, bu etimadı doğrultsun. O, həm öz şəxsiyyəti naminə, həm respublikamızın bugünkü gələcək işləri naminə, həm də ki, Azərbaycan prezidentinin bu qədər böyük etimadına layiq olmaq naminə çalışmalıdır və bu etimadı doğrultmalıdır. Mən əminəm ki, o, bu etimadı doğruldacaqdır.

Doğrudur, son illər bizim acı təcrübəmiz də vardır. Bu iki il müddətində bu salonda mən artıq üçüncü dəfədir ki, baş nazir vəzifəsinə təyin olunan şəxsləri təqdim edirəm. Vaxtilə, 1993-cü ildə mən Surət Hüseynovu bu vəzifəyə təyin etdim və burada sizə təqdim etdim. Sonra, 1995-ci ildə bu vəzifəyə Fuad Quliyevi təyin etdim. İndi bu, üçüncü dəfədir. Çox təəssüf edirəm ki, keçən təyinatlar mənim arzu etdiyim, istədiyim ümidləri və respublika ictimaiyyətinin, xalqının ümidlərini doğrultmadı.

Ola bilər ki, bu, bizim də günahımızdır, ancaq ən çox o şəxslərin özlərinin günahıdır. Mən bilirdim ki, Surət Hüseynov bu vəzifəyə layiq deyil. Lakin bu, yaranmış şəraitə görə idi. Eyni zamanda, bu gün yenə də açıq-aydın demək istəyirəm ki, mən çalışıram hər bir şəxsdə müsbət tərəfi, meylləri daha çox görüm. Mən müsbət arzulara fikir verirəm və o arzularla Surət Hüseynovu təyin etdim. Çox çalışdım ki, o, bu vəzifəyə müəyyən qədər layiq olmağını sübut etsin. Təəssüf ki, görünür, belə insanları tərbiyə etmək, yaxud dəyişdirmək mümkün deyil. Onlar bəzi vəhşi insanlarda olan xarakterə malikdirlər: nə qədər tərbiyə etməyə çalışırsansa, yenə də öz təbiətindən əl çəkə bilmirlər. Bu da onunla qurtardı ki, xalqımıza, ölkəmizə, dövlətimizə xəyanət etdi. Xəyanət etdiyinə görə də vəzifədən azad olundu. Düzdür, qaçdı, ancaq gördüyü işlərə görə o, xalqın lənətindən qurtara bilməyəcəkdir.

Fuad Quliyevi baş nazir təyin edərkən, şübhəsiz ki, mən bu təyinatı çox böyük ümidlərlə etdim. Çünki Fuad Quliyev vaxtilə, uzun müddət Bakı kondisionerlər zavodunda işləmişdir. Bu zavodun tikilməsi də, işləməsi də bilavasitə mənim rəhbərliyim altında olmuşdur. Fuad Quliyevi o zavodda mühəndis, [76-77] baş mühəndis kimi tanıyırdım. Fuad Quliyev həmin zavodun direktorluğuna da mənim tərəfimdən təyin olunmuşdur. Ona görə də, keçmiş işlərindən tanıdığıma görə mən ona çox ümidlər bəslədim. Ancaq təəssüflər olsun ki, yəqin bir tərəfdən bu vəzifənin, etimadın nə qədər əhəmiyyətli olduğunu dərk edə bilmədi, ikinci tərəfdən də, görünür, şəxsi keyfiyyətləri buna imkan vermədi. Bəlkə bir zavodun direktoru vəzifəsini o, müvəffəqiyyətlə apara bilirdi, amma böyük həcmdə olan bu işin öhdəsindən gələ bilmədi. Bir ona görə yox ki, onun bacarığı yox idi, işi bilmirdi, – işi bilirdi. Amma, bilirsiniz, gərək işə can yandırasan, həyatını sərf edəsən. Tənbəllik, yaxud işlərin çoxuna biganəlik, öz şəxsi məsələləri ilə məşğul olub onlara üstünlük vermək insanların aqibətini həmişə bu cür tamamlayır, gətirib belə şəraitə çıxarır.

Bir də təəssüf ki, Fuad Quliyev bəzi mənfi təsirlər altına düşdü və bunların hamısı da gətirib ona çıxardı ki, həyatında ən böyük bir anı itirdi. Şübhəsiz ki, göstərilən etimadı doğrulda bilmədiyinə görə Fuad Quliyevi mən

bu vəzifədən azad etdim.

Bu tarixi mən ona görə xatırlayıram ki, sözdə təəssürat olsun ki, bu proseslərin hamısını unutmamışam, bilirəm. Ancaq bütün bu proseslərdən, ola bilər, buraxılan səhvlərdən nəticə çıxararaq, hesab edirəm ki, bundan sonra gərək səhv olmasın. Ona görə də mən ümid edirəm ki, Artur Rasizadə baş nazir kimi onun tabeliyində olan şəxslərlə, nazirlərlə, komitə sədrləri ilə, iqtisadiyyat sahəsindəki idarələrlə birlikdə Nazirlər Kabinetinin işinin canlandırılmasına çalışacaq və ona göstərilən etimadı doğruldacaqdır. Mən buna inanıram və bu inamla da dünən bu fərmanı imzalamışam. Mən Rasizadəni təbrik edirəm və ona bu işlərində uğurlar arzulayıram.

Nazirlər Kabinetinin qarşısında duran vəzifələr haqqında biz Nazirlər Kabinetinin bu il iyulun 18-19-da keçirilən iclasında çox ətraflı danışmışıq. İndi bu barədə geniş söhbət açmaq fikrim yoxdur. Hesab edirəm ki, Nazirlər Kabinetinin iki gün keçən həmin iclasında mənim tərəfimdən irəli sürülən vəzifələr, verilən göstərişlər öz qüvvəsindədir və siz onları birlikdə həyata keçirməyə çalışmalısınız. Qeyd etmək istəyirəm ki, bu sahədə ötən müddətdə müəyyən işlər görülübdür. Baxmayaraq ki, baş nazir olmayıbdır, Nazirlər Kabinetinin rəhbərliyində say bir qədər azalıbdır, amma müəyyən işlər görülübdür. Lakin bu vəzifələr hələ ki, həyata keçirilməyibdir. Buna [77-78] görə də mən Nazirlər Kabinetindən tamamilə və xüsusən Nazirlər Kabinetinin rəhbərliyindən, baş nazirdən, onun müavinlərindən, Nazirlər Kabinetinin üzvlərindən bu gün bir daha tələb edirəm ki, işdə ciddi dönüş yaradılmalıdır. 18-19 iyul iclasında verilən göstərişlərin, irəli sürülən vəzifələrin həyata keçirilməsi ilə daha da ciddi məşğul olmaq lazımdır.

Hər halda, bu son üç ilin təcrübəsi onu göstərir ki, Nazirlər Kabinetinin işi yaxşı qurulsa, biz iqtisadiyyatda çox şeylər əldə edə bilərik. Əgər biz bütün obyektiv səbəblərlə yanaşı, iqtisadiyyatda bir çox məsələləri həll edə, vəzifələri yerinə yetirə bilməmişiksə və bəzi nöqsanları, gerilikləri aradan qaldıra bilməmişiksə bunun əsas səbəblərindən biri də Nazirlər Kabinetinin işində olan zəiflik, buraxılan qüsurlar və xüsusən Nazirlər Kabinetinin rəhbərliyinin işi indiyədək lazımi səviyyədə təşkil edə bilməməsidir. Ona görə də siz indi çalışmalısınız ki, Nazirlər Kabinetinin işi yaxşı təşkil edilsin, ahəngdar, operativ olsun. Nazirlər Kabinetinin işinin nəticəsi birinci növbədə onun operativliyindən asılı olacaqdır.

Mənim bu üç illik müşahidəmə görə, təəssüflər olsun ki, bütün başqa nöqsanlarla, qüsurlarla yanaşı, Nazirlər Kabinetinin işini geriyə salan və ümumiyyətlə, iqtisadiyyatımızda çox böyük çətinliklər yaradan cəhətlərdən biri Nazirlər Kabinetinin işində olan qeyri-operativlik, səhlənkarlıq, süründürməçilik, məsələlərin həllinin uzadılması, onların həllində qətiyyətsizlik, ümumiyyətlə, məsələləri həll etmək əvəzinə onları həll etməmək meyllərinin daha üstün olmasıdır.

Bu, dəfələrlə müşahidə olunub. Nazirlər Kabinetinin işi haqqında danışarkən Nazirlər Kabinetinin, xüsusən onun rəhbərliyinin, baş nazirin işində olan bu nöqsanları mən dəfələrlə qeyd etmişəm. Təəssüf ki, Nazirlər Kabineti, xüsusən onun rəhbərliyi bunları aradan qaldıra bilməyibdir. Ona görə də birinci növbədə Nazirlər Kabinetinin işinin təşkilində gərək ciddi dəyişikliklər əmələ gəlsin. Mən bu barədə Artur Rasizadə ilə ətraflı danışmışam, ona bir daha öz tövsiyələrimi, göstərişlərimi vermişəm.

Bilirsiniz, son vaxtlara qədər mənə məlumat gəlirdi ki, nazir baş nazirlə iki aya, üç aya qədər telefon əlaqəsi yarada bilmir. Yaxud da ki, Nazirlər Kabinetinin aparatındakı ayrı-ayrı məmurlar məsələlərin həllində, verilən təkliflərə baxılmasında, sənədlərin keçməsində maneçiliklər, cürbəcür bürokratik əngəllər yaradırlar. Bunlar artıq bütün Azərbaycanda [78-79] hamıya məlumdur. Bunlarla yanaşı, Nazirlər Kabineti aparatının işi haqqında da xoşa gəlməyən çox söhbətlər gedir. Burada bəziləri təmənnasız məsələ həll etmirlər, bəzi məsələləri həll etmək üçün kiməsə rüşvət vermək, kiməsə nəsə etmək lazımdır. Bu cür çirkin şeylər haqqında məlumatlar nəinki bizə, həm də ictimaiyyətə gəlib çatanda, əlbəttə ki, Nazirlər Kabinetinin rəhbərliyinin, aparatının nə hörməti ola bilər, nə də ki, burada iş lazımi səviyyədə gedə bilər.

Mən bu nöqsanların üzərində geniş dayanmaq istəmirəm. Bilirsiniz, bunların haqqında danışmaq özü də insanda ikrah, həyəcan hissi, narahatlıq doğurur. Ancaq biz reallığı unutmamalıyıq. Bu, həqiqətdir. Həqiqəti heç vaxt gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz. Ona görə də vəzifə ondan ibarətdir ki, belə halları aradan qaldırmaq, Nazirlər Kabinetinin işində düzlük, təmizlik, dürüstlük, paklıq yaratmaq lazımdır.

Mən göstəriş vermişəm, hesab edirəm ki, Nazirlər Kabinetinin strukturu yaxın vaxtlarda təkmilləşdirilməlidir və bu cür işlərlə məşğul olan adamlar buradan kənarlaşdırılmalıdır. Nazirlər Kabinetinin aparatında sağlam, işi bilən, işə can yandıran və saf insanlar olmalıdır. Belə insanlar olmalıdır. Əgər belə olmasa, bugünkü mərhələdə iqtisadiyyatla bağlı böyük-böyük problemləri həll edə bilmərik.

Ancaq bu, təkcə Nazirlər Kabinetinin aparatına aid deyildir. Təəssüflər olsun ki, dövlət strukturlarının hamısına – nazirliklərin, komitələrin aparatlarına, dövlət orqanlarının, ayrı-ayrı digər orqanların aparatına və bir çox hallarda onların rəhbərlərinə aiddir. Ona görə də belə hallar aradan qaldırılmalıdır.

Təəssüflər olsun ki, rüşvətxorluq halları, korrupsiya əgər aşağı pillələrdə varsa və onlarla mübarizə etməliyiksə, yuxarı mərtəbələrdə bunların qarşısı alınmasa, bunlarla mübarizə kəskinləşməsə, belə şəxslər, insanlar öz cəzalarını almasalar, vəzifələrindən kənar olunmasalar biz ümumiyyətlə, cəmiyyətimizdə belə halların, bu bəlanın qarşısını ala bilmərik. Ona görə də mən bu barədə lap sözümün əvvəlində deyirəm, biləsiniz ki, bu məsələ bir prezident kimi məni narahat edir. Nazirlər Kabinetinin bu sahədə mövqeyi çox açıq-aydın və kəskin olmalıdır. Mən çox arzu edirəm ki, biz bundan sonra Nazirlər Kabinetinin, ümumiyyətlə dövlət

orqanlarımızın işi haqqında danışarkən artıq bu mövzuya toxunmayaq. [79-80]

Mən eyni zamanda qeyd edirəm ki, son vaxtlar ümumiyyətlə iqtisadiyyatımızda, nazirliklərin, komitələrin, maliyyə, iqtisadiyyat orqanlarının işində müəyyən müsbət meyllər hiss olunur. Bu da ondan irəli gəlir ki, ardıcıl surətdə həyata keçirdiyimiz tədbirlər, iqtisadiyyat sahəsində apardığımız siyasət xırda-xırda öz nəticəsini verir.

Şübhəsiz ki, iqtisadiyyatımızın vəziyyəti, yəni respublikanın sosial-iqtisadi vəziyyəti bu gün də gərgin olaraq qalır. Biz bu gün də böhran dövründəyik. Mən bunu bir daha qeyd edirəm. Biz keçid dövrünü yaşayırıq, keçid dövrü ilə əlaqədar bu çətinliklərdən keçib gedirik. Ancaq bununla yanaşı, yenə də deyirəm, həyata keçirilən tədbirlər, atılan addımlar və iqtisadiyyat sahəsində siyasətimiz özünün kiçik də olsa nəticələrini verir.

Bu, ondan ibarətdir ki, məsələn, keçən 10 ayın yekunlarına görə ümumi daxili məhsulun az da olsa artımını görürük. Doğrudur, bu, kiçik bir şeydir. Ancaq məhsul azalmayıbdır, az da olsa artıbdır. Məsələn, əgər keçmiş vaxtlarda sənaye istehsalı 20-25 faiz aşağı düşürdüsə, indi onun aşağıdüşmə sürəti azalıb. Verilən məlumatlara əsasən sənaye istehsalı 10 ayın yekunlarına görə 8 faiz aşağı düşübdür. Əlbəttə, aşağıdüşməni müsbət hal kimi qeyd etmək olmaz. Ancaq hər şey müqayisə ilə ölçülür. Təəssüf ki, müqayisəyə görə bu, belədir. Vaxt var idi, yadımdadır, 1970-ci illərdə, 1980-ci illərin birinci yarısında da respublikada iqtisadiyyatın artım sürəti 6, 7, 8, 9, 10 faiz olurdu. Əgər bir ayda, rübdə biz əvvəlkinə nisbətən 1 faiz geri qalmış olsaydıq bu, fövqəladə bir vəziyyət, faciə olurdu. Respublikamızda sənaye istehsalı hər il orta hesabla 7-8 faiz, kənd təsərrüfatı istehsalı da təxminən o qədər artırdı, milli gəlir də artırdı. Bunların hamısı tarixdən, statistikadan məlumdur.

İndi bir biz deyilik, keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələrin hamısında istehsal da, milli gəlir də, sənaye məhsulları da aşağı düşür. Ancaq indi aşağıdüşmə sürətləri bu işin nə səviyyədə olduğunu müəyyən qədər göstərir. Ona görə də əgər əvvəlki vaxtlarda aşağıdüşmə sürəti 20-25 faiz olurdusa, indi bu 10 ay müddətində 8 faizdir və bu, müəyyən qədər müsbət meyldir. Əlbəttə, bununla, necə deyərlər, fəxr etmək, toxluq hiss etmək olmaz. Ancaq bunu müsbət bir meyl kimi qeyd etmək olar. Yaxud da vergi müfəttişliyi, gömrük [80-81] komitəsi üzrə vergilərin toplanması 10 ay müddətində 98 faiz olubdur. Amma başqa vergi mənbələrini də götürsək bu, ümumən 90 faiz olubdur. Şübhəsiz ki, bu da keçən ilə nisbətən xeyli irəlidədir. Ancaq mən bununla da razı deyiləm. Hesab edirəm ki, xüsusən vergi müfəttişliyi, gömrük komitəsi üzrə yığılan vergilər əsas vergilərdir. İlin yekunlarına görə vergilər üzrə plan 190 faizə çıxmalıdır.

Bu gün-sabah biz gələn ilin dövlət büdcəsinə baxacağıq. Büdcə təqdim olunub və mən bu gün elan edirəm ki, biz gələn il vergilərin yığılması üzrə planı, hesab edirəm, xeyli artırmalıyıq. Ancaq hər halda planın bu il bu səviyyədə yerinə yetməsi də müəyyən qədər müsbət hal kimi qeyd oluna bilər.

Respublikamızda inflyasiya demək olar ki, yox dərəcəsindədir: 10 ay müddətində onun 4 faiz olması yox dərəcəsi deməkdir. Manatın dəyəri sabitdir, dollara nisbətən normaldır, sabitdir. Hesab edirəm ki, bu da maliyyə sistemində, ümumiyyətlə, iqtisadiyyatımızda son dövrdə olan – yəni ilin əvvəlindən belədir, keçən ilin axırından da biz belə bir şəraitdə yaşayırıq – müsbət haldır. Bir neçə başqa göstəricini də misal gətirmək olar. Bunlar hamısı bizim həyata keçirdiyimiz iqtisadi siyasətin, yəni iqtisadi islahatların yerinə yetirilməsinin iqtisadiyyatda, idxal və ixracda liberallaşdırmanın həyata keçirilməsinin nəticəsidir.

Yenə də deyirəm, bu nailiyyətləri, yəni bu müsbət meylləri mən müəyyən qədər qiymətləndirərək, heç kəsi arxayın salmaq istəmirəm. Ancaq bəzi populist çıxışlar edənlər, proqnozlar verənlər – "Azərbaycan dağıldı, fəlakətli vəziyyətdir, bu gün fəlakət gözlənilir, sabah xalq qalxacaq" deyənlər, o arzularla yaşayanlar, həm müxalifətdə olanlar, həm də təəssüf ki, içimizdə də bəzi beləlәri var idi, bəlkə bu gün də var – onlar gördülər ki, boş danışıqlarla, populist sözlərlə iqtisadiyyatı irəli aparmaq olmaz. İqtisadiyyatı idarə etmək və bu ağır dövrdə təşkil etmək, yenidən qurmaq, iqtisadi islahatlar aparmaq üçün lazımi tədbirləri ağılla, təmkinlə, ardıcıllıqla həyata keçirmək lazımdır. Hay-küylə, populist çıxışlarla, bəyanatlarla heç vaxt heç kəs bir şey edə bilməz. Biz doğru yoldayıq. Bu, bizim yolumuzdur. Bu, Azərbaycan prezidentinin strategiyasıdır, iqtisadi siyasətidir. Biz bu yolla gedirik.

İndi bizim yolumuz iqtisadi islahatları ardıcıl surətdə həyata keçirməkdir, özəlləşdirməni sürətləndirmək və həyata ke[81-82]çirməkdir. Bilirsiniz, ilin əvvəlində bəziləri qışqırırdılar: özəlləşdirmə aparılmasa biz batacağıq. Şübhəsiz ki, özəlləşdirmə iqtisadi islahatların böyük bir hissəsidir. Ancaq bəzi adamlar belə hesab edirlər ki, biz elə özəlləşdirmə aparmaqla bütün iqtisadiyyat sahəsində hər şeyi əldə edəcəyik. Bu, yanlış bir fikirdir. Bu, bəzi adamlara özlərinə siyasi kapital toplamaq üçün, bəzi adamlara isə bu özəlləşdirmədən şəxsi məqsədlərindən ötrü istifadə etmək üçün lazım idi. Beləlәri deyirdilər ki, nə olur-olsun, Azərbaycanın əmlakı dağılsa da, batsa da heç bir şeyə baxmadan gəlin bu gün bu özəlləşdirməni keçirək. Onlar bu məqsədi daşıyırdılar. Belə adamlar bu gün də var və belə məqsəd daşıyırlar.

Özəlləşdirmə ağılla, kamalla, təmkinlə, ancaq gecikmədən, sürətlə həyata keçirilməlidir. Biz "Torpaq islahatı haqqında" qanun qəbul etmişik. Bu qanun bütün dünyada əks-səda veribdir. Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin çoxunda müsbət qiymətləndirilibdir, ictimaiyyətimiz tərəfindən yaxşı qəbul olunubdur. Onu ardıcıl surətdə həyata keçirmək lazımdır və həyata da keçiririk, keçirəcəyik. Sizin də borcunuz ondan ibarətdir ki, bu əməli işləri görəsiniz. Qanun qəbul etmək, strategiyanı təyin etmək, istiqamətləri müəyyənləşdirmək bizim işimizdir. Ancaq bunları əməli surətdə həyata keçirmək sizin işinizdir, Nazirlər Kabinetinin, nazirlərin, komitələrin, yerli icra hakimiyyəti orqanlarının işidir. Bunların hamısını ardıcıl surətdə

həyata keçirmək lazımdır.

Beləliklə, hesab edirəm ki, biz bu ili keçən ilə nisbətən müəyyən qədər müsbət, fərqli nəticələrlə başa çatdıra biləcəyik. Ancaq 1997-ci ildə qarşımızda çox böyük vəzifələr durur. Bu günlərdə biz 1997-ci ilin büdcəsinə baxıb, Milli Məclisə təqdim edəcəyik. Milli Məclis qəbul edəndən sonra onun həyata keçirilməsi ilə məşğul olmaq lazımdır. Yenə də deyirəm, 1997-ci ildə qarşımızda çox böyük vəzifələr durur və bu vəzifələrin həyata keçirilməsində Nazirlər Kabineti və iqtisadiyyatla məşğul olan bütün orqanlarımız ciddi iş görməlidirlər.

Şübhəsiz ki, bütün bu tədbirlərin son məqsədi əhalinin sosial vəziyyətini, yaşayış tərzini yaxşılaşdırmaqdan, insanları bu ağır vəziyyətdən çıxarmaqdan ibarətdir. Hesab edirəm ki, son vaxtlar bu sahədə atdığımız addımlar bu problemin müəyyən qədər həll olunmasına kömək edibdir.

Bildiyiniz kimi, bu ilin əvvəlindən indiyədək biz büdcədən maliyyələşdirilən sahələrdə kontingentin məvacibini bir dəfə [82-83] 20 faiz, sonra isə 40 faiz artırmışıq. Demək, büdcədən maliyyələşdirilən idarələrdə maaş 60 faiz artırılıbdır. Mən bu gün sizə bildirmək istəyirəm ki, biz hazırlaşırıq, büdcəyə baxırıq və gələn ildən maaşların yenə də artırılmasına çalışacağıq. Bu, bizim planlarımızda var. Bunu nəzərdə tutmuşuq və biz bunu mütləq edəcəyik.

Siz Moskva televiziyasına baxırsınız, görürsünüz ki, maaşların 3 ay, 4 ay, 5 ay verilməməsi, pulun oradan götürülüb buraya, buradan götürülüb, oraya göndərilməsi haqqında hər gün danışırlar. Mən demək istəmirəm ki, bizdə hər şey yaxşıdır. Mən daim maraqlanıram, – bizdə maaşlarla, pensiyalarla əlaqədar borc bir aylıqdır. Yaxşı olardı ki, hər ayınkı vaxtında verilsin və buna da çalışmaq lazımdır. Biz başqa ölkələrin televiziyasını görmürük, təkcə Rusiya televiziyasına baxırıq. Başqalarını görsək bəlkə oradakı vəziyyəti də bilərdik. Hər halda Rusiya televiziyasından aldığımız məlumata baxanda, şübhəsiz ki, bizim bu sahədə də işlərimizi müsbət qiymətləndirmək lazımdır.

Ümumiyyətlə insanların yaşayışı az da olsa, yaxşı istiqamətdə gedir. Mən ümidvaram ki, özəlləşdirmə, iqtisadi islahatların, torpaq islahatının həyata keçirilməsi, xüsusən, kənd təsərrüfatı məhsullarının artırılmasına gətirib çıxaracaqdır və biz 1997-ci ildə bunların müsbət nəticələrini görəcəyik. Ancaq bu o demək deyildir ki, bunlar hamısı asanlıqla əldə olunacaqdır. Yox, qarşıda hələ görüləsi işlər olduqca çoxdur. Gərgin iş görülməlidir və bu sahədə Nazirlər Kabinetinin üzərinə çox böyük vəzifələr düşür.

Sizin diqqətinizi bir məsələyə cəlb etmək istəyirəm. Sənaye, nəqliyyat və digər müəssisələrimizin bir çoxu da zəif işləyir, yaxud gücünün az bir hissəsindən istifadə edir. Gələn siqnallar onu göstərir ki, orada onlar dağıntılara yol verirlər. Bilirsiniz ki, respublikamızın sənaye potensialı böyük olduğuna görə müəssisələrin özündə çoxlu metal avadanlıq, dəzgahlar və sairə vardır. Yəni dövlət əmlakı böyükdür. Borcumuz, vəzifəmiz və sizin vəzifəniz bu dövlət əmlakını qoruyub saxlamaqdan ibarətdir. Özəlləşdirmə vaxtı o dövlət əmlakının dağılmasına qətiyyən yol vermək olmaz. Ancaq belə siqnallar var və belə hallarla da rastlaşırıq.

Mən Nazirlər Kabinetinə və baş nazirə qəti göstəriş verirəm ki, bu məsələni xüsusi araşdırsınlar və bunların qarşısının alınması üçün tədbirlər görsünlər. Çünki bizə siqnallar gəlir [83-84] ki, sənaye, nəqliyyat və başqa müəssisələrdə yararlı olan dəzgahlar, avadanlıq və başqa şeylər sökülür, dağıdılır. Bunları cürbəcür yollarla respublikadan çıxarırlar, xarici ölkələrə satırlar, ayrı-ayrı adamlar bundan şəxsi mənfəət götürürlər, amma dövlət əmlakı dağılır. Biz dövlət əmlakını əsasən özəlləşdirəcəyik. Amma özəlləşdirmə dövlətimizə mənfəət gətirməlidir. Şübhəsiz ki, özəl sektorda da mənfəət verməlidir. Bu dövrdə, bu zaman dövlət əmlakını dağıtmaq, quru-quru yerləri gətirib özəlləşdirməyə vermək qətiyyən yaramaz bir haldır.

Ona görə də mən bütün inzibati orqanlara, Gömrük Komitəsinə, yerli icra hakimiyyəti orqanlarına bu tapşırığı verirəm. Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalıdır. Çünki belə siqnallar bizi çox narahat edir.

Aydındır ki, respublikamızın böyük iqtisadi, sənaye, aqrar potensialı var. Elə aqrar sektordakı heyvandarlıq komplekslərini, cürbəcür kənd təsərrüfatı müəssisələrini götürək. Onların bəziləri indi lazım deyil. Amma bu o demək deyildir ki, indi onları söküb, dağıdıb, kəsib harasa atmaq lazımdır. Bu yaxınlarda mənə məlumat gəlmişdir ki, Füzuli, İsmayıllı rayonlarında şərab zavodlarının çənlərini, avadanlığını kəsirlər, götürürlər, yığırlar, aparıb xaricdə satırlar. Mən göstəriş vermişəm ki, bunları yoxlasınlar. Bu adamlar cəzalanacaqlar, özü də ən şiddətli cəza alacaqlar, siz onu bilməlisiniz. Ancaq bu işlə təkcə prezident məşğul olmamalıdır. Axı bu iynə deyil, əgər şərab zavodlarının çənlərini kəsib doğrayırlarsa, bu, insanların gözü qabağında olur. Verilən məlumatdan belə görünür ki, orada həm dövlət orqanları, həm də inzibati orqanlar iştirak edirlər. Mənə yazılan o məktubdan görünür ki, hətta hərbi hissədən olan adamlar da iştirak edirlər. Demək, yığışırlar, ümumi, şəxsi mənafelərini bir yerə qoyurlar, dövlətin əmlakını dağıdırlar. Beləliklə, iqtisadiyyatımıza nə qədər zərbələr vururlar.

Bilirsiniz, burada bəzi adamlar özlərinə şirkətlər, firmalar yaradırlar. Firmanın məqsədi nədir? Guya onların məqsədi Azərbaycanda metal qırıntısı yığıb satmaqdır. Bu şirkətlərin də bəziləri bizim rəhbər vəzifəli şəxslərin himayəsi altındadır. Metal qırıntısı həmişə yığılıb, yığılmalıdır. Ancaq bu metal qırıntısı yığılıb dövlətə verilməlidir. Əgər gedib küçəyə, harayasa atılmış metalı yığırsa, bu başqa məsələ. Ancaq gedib dövlətin zavodunu, fabrikini, digər istehsal, sənaye, nəqliyyat müəssisəsini söküb-dağıdırsa, bu, biabırçılıqdır, cinayətdir. Bunun qarşısı alınmalıdır. [84-85]

Nazirlər Kabineti bax, bu işlərlə ciddi məşğul olmalıdır. Tək bu işlə deyil, Nazirlər Kabinetinin qarşısında

çox vəzifələr durur. Yenə də deyirəm, bu gün mənim məqsədim bu barədə geniş danışmaqdan ibarət deyil. Biz bu barədə artıq danışmışıq və təkrar etməyin əhəmiyyəti yoxdur. Mən sadəcə bir neçə məqamı yada salıram ki, Nazirlər Kabinetinin məsuliyyətini bir daha xatırladım, Nazirlər Kabineti, onun rəhbərliyi – baş nazir, onun müavinləri, Nazirlər Kabinetinin aparatı üzərilərinə düşən məsuliyyəti daha da ciddi dərk etsinlər.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, qəbul olunan bu qərar və xüsusən iyulun 18-19-da keçirilmiş iclasdan çıxarılan nəticələr Nazirlər Kabinetinin işinin köklü surətdə yaxşılaşmasına, dəyişdirilməsinə kömək edəcəkdir və onu təmin edəcəkdir. Əminəm ki, Nazirlər Kabineti baş nazir Artur Rasizadənin rəhbərliyi altında işini bundan sonra da ciddi surətdə yaxşılaşdıracaqdır. Sizin hamınıza işinizdə müvəffəqiyyətlər arzulayıram. Sağ olun. [85-86]

## ATƏT-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ LİSSABON ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

*30 noyabr 1996-cı il*

Lissabon görüşünə gedirik. Bu təkcə bizə aid olan görüş deyildir. Lissabon görüşü Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin başçılarının görüşüdür. Orada Avropanın təhlükəsizliyinə, Avropada əməkdaşlığa aid, dünyaya aid məsələlər müzakirə olunacaqdır. Şübhəsiz ki, hər bir dövlət, hər bir ölkə həm ümumi məsələlərin həll olunmasında öz səyini göstərməyə çalışır, həm də öz ölkəsinə, dövlətinə, öz regionuna aid olan məsələlərin həllinə çalışır.

Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülh olmasını Ermənistan-Azərbaycan münaqişəsinin həlli barəsində müəyyən addımların atılmasını istəyirik. Bu barədə biz çox iş görmüşük, mən bunu bir neçə dəfə demişəm. Lissabon görüşü məhkəmə deyil ki, orada hansısa qərar çıxarılsın, yox. Sadəcə, bəzi prinsipial məsələlərə münasibət bildiriləcəkdir. Bizim məqsədimiz ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Lissabon görüşünün sənədlərində yeni imkanlar açılsın. Məqsədimiz bundan ibarətdir, orada kiməsə qalib gəlmək, kimisə məhkum etmək deyildir. Bizim mövqeyimiz məlumdur. Minsk qrupu tərkibində, sonra da Helsinkidə, axır zamanlar Vyanada bir çox işlər aparmışıq. Neçə gündür ki, nümayəndələrimiz Lissabonda işləyirlər.

ATƏT-in əsas prinsipi – hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı prinsipi Azərbaycan ba[86-87]rəsində Ermənistan tərəfindən indiyə qədər tanınmır. Bizim məqsədimiz ondan ibarətdir ki, bu barədə müəyyən bir münasibət bildirilsin. Mən ATƏT-in üzvü olan dövlətlərin başçılarının hamısına müraciət etmişəm, məktublar göndərmişəm, bir çox ölkələrin başçılarından cavablar da almışam. Hamı bunu müdafiə edir. Ancaq hamı bir yerə toplaşanda konsensus olmalıdır. Necə olacaq, – görərik. Hər halda mən hesab edirəm ki, hər bir belə görüş Azərbaycanın sülhsevər ölkə olmasını təsdiq edir, münaqişə başlayandan bəri dünyada Azərbaycan haqqında yaranmış mənfi fikrin aradan götürülməsinə və müsbət fikir yaranmasına doğru çox yaxşı nəticələr verir. Bu, bizim nailiyyətimizdir. Budapeştdən Lissabona qədər keçən dövrü də çox yaxşı qiymətləndirirəm. [87-88]

# LİSSABONA GEDƏRKƏN YOLÜSTÜ İSTANBULDA – ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

*30 noyabr 1996-cı il*

Gün aydın, mən sizi salamlayıram və suallarınıza cavab verməyə. hazıram. Öncə yəqin ki, bilmək istəyirsiniz ki, mən buraya, İstanbula nə üçün gəlmişəm. Mən Portuqaliyaya, Lissabona gedirəm. Bilirsiniz ki, dekabrın 2-də orada ATƏT-in Zirvə görüşü başlanacaqdır. Bu gün axşama qədər mən oraya gedib çatmalıyam. Zirvə görüşü başlanana qədər orada bizim bir çox işlərimiz var.

Ancaq Türkiyəni həmişə özüm üçün doğma ölkə hesab edərək hər bir fürsətdən, imkandan istifadə edib Türkiyə torpağına ayağımı qoymağa çalışıram. Ona görə də mən bu yolu gedərkən bir saatlıq dayandım ki, İstanbula baxım, sizinlə, insanlarla görüşüm. Ola bilərdi ki, Lissabona birbaşa gedim, ancaq bura üçün çoxdan darıxmışdım, ona görə də istədim bir saat da burada qalım. Əgər sualınız, sözünüz varsa, buyurun.

**Sual: Qarabağdakı son "seçkiləri" necə izah edirsiniz?**

**Cavab:** Bilirsiniz, Qarabağdakı son "seçkiləri" biz seçki hesab etmirik. Çünki Qarabağın heç bir hüququ yoxdur, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində müvəqqəti olaraq bir qrup silahlı dəstələrin əlindədir. Onlar Azərbaycanın izni, icazəsi olmadan orada heç bir seçki keçirə bilməzlər. Dağlıq Qarabağ dövlət qurumu kimi təşkil olunmayıbdır, ona görə də orada "seçki" keçirilməsi sadəcə olaraq erməni separatçılarının, Ermənistanın işğalçılıq, qəsbkarlıq siyasətinin yeni bir təzahürüdür. Odur ki, bu "seçki" qeyri-qanunidir, beynəlxalq hüquq normalarına tamamilə ziddir, biz bunu tanımırıq və heç bir beynəlxalq təşkilat, heç bir ölkə də bunu tanıya bilməz.

**Sual: ATƏT-in Lissabon toplantısında bu məsələni qaldıracaqsınızmı?**

**Cavab:** Bəli, çıxışımda bu məsələni çox ətraflı deyəcəyəm. Azərbaycanın həyatında nə yeniliklər var, siz bunu hər gün bilirsiniz. Bir sözünüz yoxdurmu? Sağ olun. [88-89]

## ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*2 dekabr 1996-cı il*

Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

Dövlət və hökumət başçılarını, Zirvə görüşümüzün bütün iştirakçılarını səmimi salamlayıram. Ümidvaram ki, bu görüş Avropada təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işində mühüm mərhələ olacaqdır.

Avropa qitəsində xalqlar və ölkələr arasında qarşılıqlı münasibətlərin hüquqi və humanitar prinsiplərinin yüksək standartlarını müəyyən etmiş Helsinki Yekun aktının imzalanmasından iyirmi ildən çox vaxt keçmişdir.

Bu dövr ərzində dünyada əsaslı müsbət dəyişikliklər baş vermiş, yeni müstəqil dövlətlər meydana gəlmiş, azadlıq və demokratiya ideyaları bütün Avropa qitəsində, onun hüdudlarından çox-çox uzaqlarda hakim prinsiplərə çevrilmişdir.

Beynəlxalq təhlükəsizliyi təmin etmək, dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin pozulmazlığını dəstəkləmək, münaqişələri sülh yolu ilə aradan qaldırmaq, insanın hüquqlarını və əsas azadlıqlarını qorumaq sahəsində ATƏT-in fəaliyyəti bu dəyişikliklərin gedişinə və xarakterinə böyük təsir göstərmişdir.

Zaman ATƏT-in yaşarı, səmərəli təşkilat olduğunu sübut etmişdir və biz təşkilatımızın keçdiyi yolu, onun Ümumavropa və dünya proseslərinə verdiyi sanballı töhfəni yüksək qiymətləndiririk.

Öz müstəqilliyini bərpa etmiş, demokratik hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı formalaşdırmaq yolunu tutmuş Azərbaycan xalqı ATƏT-in əməli köməyini daim hiss edir.

Keçid dövrünün obyektiv çətinliklərinə, zorla cəlb edildiyimiz müharibənin nəticələrinə baxmayaraq, biz dövlət müstəqilliyimizi möhkəmləndiririk, əsaslı siyasi və iqtisadi islahatlar həyata keçiririk.

Azərbaycanda siyasi plüralizm, çoxpartiyalı sistem, söz, dini etiqad azadlığı kimi demokratik prinsiplər bərqərar olmuşdur. Ümumxalq referendumu yolu ilə müstəqil Azərbaycanın ilk [89-90] demokratik Konstitusiyası qəbul edilmiş, çoxpartiyalı zəmində respublikanın yeni parlamenti seçilmişdir.

İqtisadiyyatın sərbəstləşdirilməsi, dövlət mülkiyyətinin geniş miqyasda özəlləşdirilməsi, aqrar sektorun islahatı, o cümlədən heç bir məhdudiyyət qoyulmadan alıb-satmaq hüququ ilə torpağın özəl mülkiyyətə verilməsi müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycan iqtisadiyyatına xarici investisiyalar qoyulması üçün geniş imkanlar açılmışdır. Xəzər dənizinin Azərbaycan sektorunda energetika resurslarının birgə hasilatı barədə dünyanın ən böyük neft şirkətləri ilə çoxmilyardlıq müqavilələr bağlanmışdır.

Biz əminik ki, müstəqil demokratik dövlətlərin Dünya Birliyinə Azərbaycanın siyasi və iqtisadi cəhətdən qovuşması yolu Azərbaycan xalqının həyati mənafeyinə uyğundur və bizim bu strateji xəttimizə ATƏT-in, başqa beynəlxalq təşkilatların və demokratik təsisatların bundan sonra da dəstək verəcəklərinə ümid edirik.

Xanımlar və cənablar!

Regional münaqişələr, davakar millətçiliyin və separatçılığın artması, beynəlxalq terrorizm bizim regionumuzda sülh, tərəqqi və inkişaf üçün real təhlükə olaraq qalır.

Bir çox xalqlar, o cümlədən keçmiş sovet məkanında, Qafqazda yaşayan xalqlar qanlı müharibələrə cəlb olunmuşlar. Bu müharibələr insanların kütləvi surətdə qırılması, etnik təmizləmələr, milyonlarla adamın qaçqına çevrilməsi, müstəqil dövlətlərin ərazilərinin işğal edilməsi ilə nəticələnir. Ona görə də ATƏT Avropa qitəsində ümumən təhlükəsizliyin təmin edilməsi üçün hələ olduqca çox iş görməlidir.

Bildiyiniz kimi, Ermənistan Respublikası əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı öz əlinə keçirmək məqsədi ilə respublikamıza qarşı təcavüz etmişdir.

Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin iyirmi faizi Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bizim vətəndaşlarımızın iyirmi min nəfərdən çoxu öldürülmüş, yüz min nəfərdən çoxu yaralanmış və ya əlil olmuş, altı min nəfəri əsir düşmüşdür. Bir milyondan çox azərbaycanlı, yəni ölkəmizin əhalisinin təqribən on beş faizi qaçqına çevrilmişdir. Dörd ildir ki, onlar qışı çadır şəhərciklərində dözülməz şəraitdə keçirməli olurlar.

İşğal olunmuş ərazilərdə 700-ə qədər şəhər və kənd, habelə [90-91] minlərlə xəstəxana, məktəb, yaşayış evi, Azərbaycan xalqının tarix və mədəniyyət abidələri dağıdılmış, yandırılmış, talan edilmişdir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə və onun sədrinin altı bəyanatında Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması, qaçqınların və köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması tələb olunur. Həmin sənədlərdə respublikamızın suverenliyi və ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olduğu təsdiq edilir. Lakin Ermənistan Respublikası bütün bu qərarlara etinasızlıq göstərir.

ATƏT-in 1992-ci ildə yaradılmış Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün az səy göstərməmişdir. Onun fəaliyyəti və Rusiya Federasiyasının yaxından iştirakı sahəsində 1994-cü ilin may ayında atəşkəs əldə edilmişdir.

Atəşkəs rejiminə uzun müddət əməl olunması bizim sülh istəyimizi nümayiş etdirən mühüm nailiyyətdir. Atəşkəs sabit davam edən danışıqlar prosesini sahmana salmağa imkan vermiş, münaqişənin aradan qaldırılması üçün göstərilən səylərin etibarlı təməlinə çevrilmişdir və Azərbaycan tərəfi sülh müqaviləsi imzalananadək bu rejimə əməl etmək niyyətindədir.

Ermənistan-Azərbaycan münaqişəsini tez bir zamanda aradan qaldırmaq ATƏT-in sülhü qoruyan çoxmillətli qüvvələrini yaratmaq məqsədi ilə 1994-cü ildə ATƏT-in Budapeşt Zirvə görüşündə qəbul edilmiş qərarlara biz tamamilə tərəfdar çıxmışıq.

Budapeşt Zirvə görüşündən sonra Minsk qrupu çərçivəsində danışıqlar prosesi intensivləşmişdir. Biz həmçinin prezidentlərin nümayəndələri səviyyəsində Ermənistan ilə birbaşa ikitərəfli danışıqlar kanalını yaratmış, hərbi əsirlər və girovları qarşılıqlı surətdə azad etmişik.

Bu ilin aprel ayında Lüksemburqda Ermənistan Respublikası və Azərbaycan Respublikası prezidentlərinin verdikləri birgə bəyanat münaqişənin aradan qaldırılması istiqamətində mühüm addım olmuşdur. Həmin bəyanat əslində tərəflərin silahlı münaqişəyə beynəlxalq prinsiplər və normalar əsasında son qoymaq əzmini nümayiş etdirən ilk birgə Ermənistan-Azərbaycan sənədidir. [91-92]

ATƏT-in dövlət başçıları ilə bütün başqa səviyyələrdə mənim şəxsi görüşlərim zamanı biz geniş məsləhətləşmələr aparmış, Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmağın optimal, qarşılıqlı surətdə məqbul üsullarını axtarmışıq.

Hörmətli dövlət və hökumət başçıları, Lissabon Zirvə görüşü ərəfəsində mən Sizə məktub göndərmiş, orada ATƏT-in prinsiplərinə, BMT nizamnaməsinə və hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına ciddi əməl etmək əsasında münaqişənin aradan qaldırılması üsulunu təklif etmişəm. Bu təklifdə bütün tərəflərin mənafeyi nəzərə alınır.

Nizamasalmanın bu kompromisli üsulu aşağıdakı tərkib hissələrindən ibarətdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı. Bu üsul beynəlxalq vasitəçilər tərəfindən dəstəklənir, ATƏT-in indiki sədrinin 1996-cı ilin fevral ayında münaqişə regionunda olarkən təklif etdiyi prinsiplərə bir çox cəhətdən uyğun gəlir.

Lakin çox təəssüf ki, Ermənistan Respublikası BMT nizamnaməsinə, ATƏT-in prinsiplərinə, beynəlxalq hüquqa əsaslanan hər hansı bir qərarın qəbul edilməsindən boyun qaçırmaqda davam edir.

O, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımaqdan imtina edir, təcavüzün nəticələrini qanuniləşdirməyə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu üçün müstəqillik statusu əldə etməyə və həmin regionu Ermənistana birləşdirməyə cəhd göstərir.

Dağlıq Qarabağ ilə əlaqədar Ermənistan-Azərbaycan münaqişəsinin başlandığı vaxtdan bəri dünyada çox böyük hadisələr baş vermişdir. Keçmiş sovet məkanında yeni müstəqil dövlətlər yaranmışdır, onların arasında Azərbaycan Respublikası da vardır. Dövlətlərimizin suverenliyini, sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü bütün Dünya Birliyi təsdiq etmişdir.

Bu prinsiplərin hər hansı şəkildə pozulması sülh və sabitlik yaradılmasına əngəl törədir, qarşıdurmanı gücləndirir, xalqların dinc və firavan gələcəyə bəslədikləri ümidləri puça çıxarır.

Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayaca[92-93]ğıq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik.

Erməni tərəfi, nəhayət, başa düşməlidir ki, onun başladığı və səkkiz ildir davam edən münaqişə Azərbaycan xalqını çox böyük fəlakətlərə və iztirablara məruz qoyduğu kimi, erməni xalqını da ağır vəziyyətə salmışdır.

Əminəm ki, münaqişənin BMT nizamnaməsi, ATƏT-in prinsipləri və beynəlxalq hüquq əsasında aradan qaldırılması az bir vaxt ərzində Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaranmasına imkan verəcək, erməni və Azərbaycan xalqları arasında xoş münasibətləri bərpa edəcək, Dağlıq Qarabağın bütün əhalisi üçün ən əlverişli şərait yaradacaqdır. Münaqişənin aradan qaldırılması Zaqafqaziyada uğurlu iqtisadi əməkdaşlığı təmin edəcək, respublikalarımızda sosial-iqtisadi vəzifələri müvəffəqiyyətlə yerinə yetirməyə, demokratiyanın və azadlığın bəhrələrindən tamamilə faydalanmağa imkan açacaqdır.

Biz müharibə istəmirik, biz sülh istəyirik. Mən Ermənistanın prezidenti Levon Ter-Petrosyan cənablarına, bütün erməni xalqına müraciət edib onları sülhə və əməkdaşlığa çağırıram.

Mən ATƏT-in Lissabon Zirvə görüşünün iştirakçısı olan dövlət və hökumət başçılarına üz tutub onlardan xahiş edirəm ki, Avropada sürəkli və viranedici regional münaqişələrdən biri olan Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə aradan qaldırılması üçün səylərini əsirgəməsinlər.

Qitəmizdə sülh, sabitlik və xalqların firavanlığı naminə bütün tədbirləri görmək bizim müqəddəs borcumuzdur.

Diqqətinizə görə təşəkkür edirəm. [93-94]

## ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNÜN YEKUN İCLASINDA NİTQ

*3 dekabr 1996-cı il*

..."Lissabon Zirvə toplantısının bəyannaməsi" adlanan sənədin lahiyəsinə keçirik. Xahiş edirəm, nəzərə alasınız ki, bütün bu mətn kvadratşəkilli mötərizəyə alınmışdır. Bir sual vermək istərdim: Konsensus üçün həmişə tələb edildiyi kimi, qarşılıqlı anlaşmaya nail olmağa imkan varmı? Çünki konsensus Avropada sülh və sabitlik üçün yeganə zəmindir. Buna görə də xahiş edirəm ki, konsensusa gələsiniz. Soruşuram? İndi bu kvadratşəkilli mötərizələri götürmək üçün konsensus varmı? Azərbaycan.

Azərbaycan Prezidenti **Heydər Əliyev:** Cənab sədr, hörmətli dövlət və hökumət başçıları. Azərbaycan bu sənəd üçün konsensus vermir, ona görə ki, bu sənədin 20-ci maddəsi mötərizəyə alınmışdır, yəni Ermənistan Respublikası 20-ci maddə üçün konsensus vermir. Bildiyiniz kimi 20-ci maddə Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsinə aiddir. ATƏT bu münaqişə ilə artıq bir çox illərdir məşğul olur. Budapeşt Zirvə toplantısından sonra iki il ərzində ardıcıl danışıqlar getmişdir. Odur ki, Lissabon Zirvə toplantısının bu yekun sənədində Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsi barədə heç nə deyilməsə, bu, başa düşülməz. Buna görə də mən bütün sənədi mötərizəyə almışam. Belə hesab edirəm ki, bu məsələ barəsində mənim qərar qəbul edə bilməyim üçün Ermənistan Respublikası 20-ci maddədən mötərizələri götürməlidir. Əgər Ermənistan Respublikası 20-ci maddəyə konsensus verərsə, mən mötərizələrin götürülməsinə razılıq, yəni konsensus verə bilərdim.

**Sədr**: Xahiş edirəm, nəzərə alasınız ki, sənədin bu layihəsinin 20-ci maddəsi də kvadratşəkilli mötərizələrdədir. İndi 20-ci maddənin salındığı bu kvadratşəkilli mötərizələri götürmək üçün konsensus varmı? Ermənistan. [94-95]

Ermənistan prezidenti Levon Ter-Petrosyan: Bütövlükdə aydındır ki, biz bu bəyannaməni alqışlayırıq, amma, təəssüf ki, Ermənistan 20-ci maddə barəsində öz etirazını geri götürə bilməz və onu dünənki çıxışımda şərh etdiyim mülahizələrə görə bəyannamənin ümumi mətnindən çıxarmağı təklif edirəm. Sağ olun.

**Sədr**: Nümayəndə heyətlərindən daha hər hansı birisi söz almaq istəyirmi? ABŞ.

ABŞ vitse-prezidenti Albert Qor: Təşəkkür edirəm, cənab sədr. Mən yaranmış vəziyyətdən belə başa düşürəm ki, sənədlərdən heç birisi barədə konsensus yoxdur. Azərbaycan bütün mətni əhatə edən öz kvadratşəkilli mötərizələrini götürmədi. Sual belədir: Biz sənəddə əksini tapmalı olan tarazlıq barəsində razılığa gələrək, 20-ci maddənin mahiyyətini götürə bilərikmi və 20-ci maddənin bu mahiyyətini sənədə deyil, ATƏT-in indiki sədrinin bəyanatına daxil olunmasını xahiş edə bilərikmi? Bu, yaranmış vəziyyətdə mümkün olarsa, bəlkə onda Azərbaycan bütün sənədin ətrafındakı öz kvadratşəkilli mötərizələrini götürməyə razılıq verərdi. Məsələ bax belədir. Sağ olun.

**Sədr**: Təşəkkür edirəm. Zənnimcə, çox yaxşı ideyadır. Təklif bundan ibarətdir. Sənəd 20-ci maddəsiz qəbul edilsin. 20-ci maddə onun barəsində şərtlər irəli sürmüş ölkə istisna olmaqla, ATƏT-in bütün üzvlərinin dəstəyi ilə sədrin bəyanatına daxil edilərdi. Azərbaycan belə halda öz şərtlərini və kvadratşəkilli mötərizələrini götürməyə razılıq verə bilərmi?

Prezident Heydər Əliyev: Bu şərtlə, Azərbaycan ATƏT-in fəaliyyətinə hörmətini, Lissabon Zirvə toplantısına hörmətini, buraya toplaşmış və iki gün ərzində Avropada təhlükəsizliyin və əməkdaşlığın çox mühüm məsələlərini müzakirə etmiş həmkarlarıma hörmətimi ifadə edərək, mötərizələrin çıxarılmasına, yəni bütün mətn barəsində öz etirazlarını geri götürməyə razılıq verərdi, o mənada ki, indiki sədrin adından, burada olan dövlət başçılarının adından bəyanat – haqqında iclasımızın sədrinin dediyi bəyanat veriləcəkdir.

**Sədr**: Cənab prezident, bizi başa düşdüyünüzə görə çox sağ olun. Biz bu sənədi indi olduğu kimi qəbul edə bilərikmi – bu iclasın gedişində irəli sürülmüş düzəlişlə "Lissabon Zirvə toplantısının bəyannaməsi" qəbul edilir. Söz ATƏT-in indiki sədrinə verilir. [95-96]

ATƏT-in sədri Flavio Kotti: Cənab sədr, zati-aliləri, xanımlar və cənablar. Zənnimcə, siz razılaşarsınız ki, Lissabonda ATƏT-in bütün bu mərkəzi iclası ərzində hökm sürmüş mühit həqiqətən əla olmuşdur. Mən Azərbaycan nümayəndələrinə onların məsələyə çox ciddi yanaşdığına görə minnətdarlığımı bildirmək istərdim. Hamınız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində tərəqqi əldə olunmayıbdır. Təəssüf edirəm ki, tərəflərin tənzimlənmənin prinsiplərinə dair fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk konfransı həmsədrlərinin səyləri uğursuz olub. **Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını təşkil edəcək üç prinsip tövsiyə edilibdir. Həmin prinsiplər Minsk qrupunun üzvü olan bütün dövlətlər tərəfindən dəstəklənir. Onlar aşağıdakılardır. Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə hüququ verən öz müqəddəratını təyin etmək əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu, tənzimləmə müddəalarına bütün tərəflərin əməl etməsini təmin edən qarşılıqlı**

**öhdəliklər daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.**

Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir.

Bu bəyanat Lissabon Zirvə toplantısının sənədlərinə daxil ediləcəkdir. Sizə təşəkkür edirəm, cənab sədr. [96-97]

## ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN DƏRHAL SONRA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*3 dekabr 1996-cı il*

Xanımlar və cənablar! ATƏT-in Lissabon sammitinin iclası yenicə başa çatmışdır. Azərbaycan nümayəndə heyəti bütün məsələlər haqqında Lissabon sammitinin qərarlarından razıdır. Biz belə hesab edirik ki, Avropada təhlükəsizlik və əməkdaşlıq işində daha bir böyük addım atılmışdır.

Mən sizinlə görüşə Azərbaycanla, bütün regionumuzla bilavasitə bağlı olan məsələdə Azərbaycanın mövqeyini açıqlamaq üçün gəlmişəm.

Sizə məlumdur ki, Ermənistanla Azərbaycan arasında münaqişə artıq səkkiz ildir davam edir. Bu münaqişəyə Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ilhaq edib Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Münaqişəni aradan qaldırmaq üçün hələ 1992-ci ildə ATƏT çərçivəsində Minsk qrupu yaradılmışdır. Azərbaycan tərəfi bu münaqişənin dincliklə aradan qaldırılması mövqeyində durur. 1994-cü ilin mayında atəşin dayandırılması haqqında saziş imzalanmışdır. Bizim tərəfimizdən ona indiyədək əməl edilir. Təbiidir ki, biz ATƏT-ə böyük ümidlər bəsləmişik və bəsləyirik.

ATƏT-in Lissabon görüşünün hazırlanması prosesində biz öz təkliflərimizi verdik ki, onlar Ermənistan-Azərbaycan münaqişəsi məsələsi barədə Lissabon sammitinin bəyannaməsində öz əksini tapsın. Məsələn, biz buna nail olmağa çalışırdıq ki, ATƏT-in ona üzv olan bütün ölkələrə, o cümlədən də Azərbaycana aid əsas prinsipləri ATƏT-in sənədlərində dəqiq qeyd edilsin. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, ərazimizin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş və zəbt edilmiş, bu torpaqlardan bir milyondan çox azərbay[97-98]canlı zorakılıqla didərgin salınmışdır. Onlar respublikamızın bölgələrində çox ağır şəraitdə, çadır şəhərciklərində yaşayırlar. Biz belə hesab edirik ki, ATƏT-in başlıca prinsiplərindən birini əsas tutaraq, Azərbaycanın ərazi bütövlüyünün tanınması münaqişəni aradan qaldırmaq üçün zəmin ola bilər. Azərbaycana qarşı təcavüz törədən Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edir və bu da təbii olaraq danışıqlar prosesini çətinləşdirir.

ATƏT-in Minsk qrupunun Helsinkidə noyabrın 19-22-də keçirilmiş axırıncı iclasında Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunmuş layihədə Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmağın formulu göstərilir. Buna oxşar layihəni ATƏT-in fəaliyyət göstərən sədri cənab Flavio Kotti bu ilin hələ fevralında irəli sürmüşdü. Bu layihə üç maddədən ibarətdir: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə əsasında muxtariyyət və özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi. Bu layihə Azərbaycan tərəfini tamamilə razı salmasa da, Helsinkidə Minsk qrupunun görüşündə Ermənistan tərəfindən rədd olunmuşdur. Həmin layihə ATƏT-in Lissabon sammiti bəyannaməsinin layihəsinə 20-ci maddə kimi daxil edilmişdir. Lakin erməni tərəfi ATƏT-in əsas prinsiplərinin ziddinə gedərək, bu maddəyə konsensus verməmişdir. Buna görə sammitin hazırlanması dövründə keçirilmiş görüş və söhbətlər zamanı, onun keçirilməsi prosesində Azərbaycan Respublikası Lissabon sammiti bəyannaməsinin bütün mətni üçün konsensus verməkdən imtina etməli olmuşdur.

Bu, ATƏT-in üzvlərində böyük narahatlığa səbəb oldu, çünki belə halda sammit hər hansı bir sənəd qəbul edilmədən başa çatardı. Siz bilirsiniz ki, ATƏT-də konsensus prinsipi var. Odur ki, Azərbaycan Respublikası bu hüquqdan istifadə edərək, sammitin bütün sənədinə, bütün bəyannaməsinə konsensus vermədi. Buna görə də dünən, bu gün və hətta srağagün ATƏT-in üzvü olan ölkələrin dövlət başçıları, nümayəndə heyətlərinin təmsilçiləri Azərbaycan nümayəndə heyəti ilə intensiv danışıqlara başladılar. Onlar bizdən xahiş edirdilər ki, sammitin bəyannaməsinin bütün mətni ilə əlaqədar öz etirazlarımızı geri götürək. Lakin biz öz mövqeyimizi izah etdik. Bütün görüş və söhbətlər zamanı müsahiblərimiz bizim hərəkət[98-99]lərimizin qanunauyğun olduğunu vurğulayırdılar. Biz isə öz tərəfimizdən izah edirdik ki, hərəkətlərimiz ATƏT-in prinsiplərinə tamamilə uyğundur. Azərbaycanın ərazi bütövlüyünü Ermənistan tərəfindən tanınmasından imtina edilməsi ATƏT-in əsas prinsiplərindən imtina etmək deməkdir.

Dünən və bu gün bizimlə aparılmış intensiv danışıqlar zamanı ATƏT-in üzvü olan ölkələrin, Minsk qrupunun, Avropa Birliyinin nümayəndələri, ATƏT-in fəaliyyət göstərən sədri tələblərimizin ödənilməsi üçün müxtəlif alternativ variantlar təklif edirdilər. Azərbaycan nümayəndə heyəti sammitin əsas sənədinə son iclasadək konsensus vermədi. Bu iclasda belə bir təklif irəli sürüldü ki, ATƏT-in fəaliyyət göstərən sədri cənab Flavio Kotti ATƏT-in bütün üzvləri – sammit iştirakçıları adından bəyanat verəcək və bu sənəddə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair həmin üç prinsipi təsdiq edəcəkdir. Mən dedim ki, bu halda biz sammitin əsas sənədinə qarşı öz etirazımızı geri götürməyə hazır olacağıq. Belə də oldu. Son iclasda ATƏT-in fəaliyyət göstərən sədri cənab Flavio Kotti bəyanat verdi və dedi ki, Dağlıq Qarabağ münaqişəsinə dair hər

hansı bir razılıq əldə edilmədiyinə görə təəssüflənir və hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına həmin üç prinsip əsasında nail olmaq mümkündür, yəni Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsipləri əsasında cənab Flavio Kottinin bəyanatında göstərilmişdir ki, bu prinsipləri və bəyanatı, bir ölkə istisna olmaqla, bütün sammit iştirakçıları – ATƏT-in üzvləri dəstəkləyirlər. Başqa sözlə desək, fəaliyyət göstərən sədrin bu bəyanatı Ermənistandan savayı, bütün sammit iştirakçılarının – ATƏT üzvlərinin iradəsinin ifadəsi olmuşdur.

Təbii ki, belə bir bəyanatla, bu məsələdə Azərbaycanın mövqeyinin müəyyən dərəcədə dəstəklənməsi ilə əlaqədar mən Lissabon sammitinin əsas sənədinə qarşı Azərbaycanın etirazlarını geri götürdüm, yəni bu sənədin qəbul edilməsi üçün konsensus verdim. Biz ondan razıyıq ki, Flavio Kottinin bu bəyanatı, Ermənistan istisna olmaqla, ATƏT-in bütün üzvləri adından verilmişdir. Biz həmçinin ondan razıyıq ki, bu bəyanatın dəstəkləndiyi barədə Avropa Birliyi adından çıxış edilmişdir. Rusiya Federasiyasının nümayəndə heyətinin başçısı, [99-100] Rusiyanın baş naziri cənab Çernomırdin, Minsk qrupunun həmsədri, Finlandiya prezidenti cənab Ahtisaari və bəzi digər nümayəndə heyətlərinin üzvləri çıxış edərək bu bəyanatı dəstəklədilər.

Sammit, bax, beləcə, əsas sənədin qəbul edilməsi ilə başa çatdı. Biz ondan razıyıq ki, ATƏT-in sammiti Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in əsas prinsiplərini, xüsusən Azərbaycanın ərazi bütövlüyünün tanınması baxımından bir daha dəstəklədi.

Bilirəm, sammitin əsas bəyannaməsinin layihəsi barədə mövqeyimizlə əlaqədar mətbuatda belə xəbərlər olmuşdur ki, guya Azərbaycan əsas sənədin qəbul edilməsinə əngəl törədir. Buna görə də nə üçün belə etdiyimizi aydınlaşdırmağı lazım bildim. Bu bizim qəti mövqeyimiz idi. Biz öz mövqeyimizdən yalnız ona görə geri çəkildik ki, fəaliyyət göstərən sədrin adından, sammitin bütün üzvləri – iştirakçıları adından məqbul bəyanat verilmişdi. Fəaliyyət göstərən sədr bəyan etmişdir ki, onun rəsmi yazılı bəyanatı ATƏT-in Lissabon sammiti sənədlərinin tərkibinə daxil edilir.

Demək istədiklərim bunlardır. İndi isə suallarınıza cavab verməyə hazıram.

**Sual**: **Cənab prezident, Siz bu gün səhər Böyük Britaniyanin xarici işlər naziri Malkolm Rifkind ilə görüşdünüzmü? Bu görüş barədə bir neçə kəlmə deyə bilərsinizmi?**

**Cavab**: Bəli, bu gün səhər mən Böyük Britaniya Krallığının xarici işlər naziri cənab Rifkindlə görüşdüm. Demək olar, bütün görüşümüz, sizə danışdığım məhz həmin məsələlərə həsr edildi. Cənab Rifkind məni inandırmağa çalışırdı ki, sammitin əsas sənədinin qəbul olunmasına konsensus vermək lazımdır. Mən isə cənab Rifkində bu məsələdə mövqeyimizi, mülahizələrimizi şərh etdim. Deməliyəm ki, görüşdüyüm digər həmkarlarım kimi, cənab Rifkind də mövqeyimizin qanunauyğun və əsaslı olduğunu təsdiqlədi.

**Sual**: **Rusiya hökuməti Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına hazırdırmı?**

**Cavab**: Bəli, Rusiya Federasiyası nümayəndə heyətinin başçısı Rusiyanın baş naziri cənab Çernomırdin bu gün sammitin son iclasında çıxış edərək, ATƏT-in fəaliyyət göstərən sədri cənab Kottinin bəyanatını tamamilə dəstəklədi və bildirdi ki, o, belə hesab edir ki, münaqişənin tezliklə aradan qal[100-101]dırılmasına fəaliyyət göstərən sədrin bəyanatında göstərilmiş məhz həmin prinsiplər əsasında nail olmaq mümkündür. Deməli, o bildirmişdir ki, onlar bu məsələ ilə gələcəkdə də məşğul olacaqlar.

**Sual**: **Cənab prezident, əgər Ermənistan öz ərazisi ilə Azərbaycan neftinin dünya bazarlarına nəql olunmasına icazə versə, bundan o, beynəlxalq meydanda bir şey qazanacaqmı?**

**Cavab**: Bilirsinizmi, bu sual çox mücərrəd sualdır. Azərbaycandan neftin dünya bazarlarına nəql edilməsinə dair layihələrimiz, planlarımız var. Lakin bu, Ermənistanla qətiyyən bağlı deyildir. Başa düşmürəm, siz bu məsələləri nə dərəcədə əlaqələndirmək istəyirsiniz. Mən burada  qarşılıqlı əlaqələr görmürəm.

**Sual**: **Cənab prezident, əvvəlcə bütün Azərbaycan jurnalistləri adından Sizi Lissabon sammitində qazandığınız parlaq diplomatik qələbə münasibətilə təbrik etmək istərdim. Çünki biz hamımız onun şahidi olduq ki, Ermənistan tam diplomatik tənhalıqda və təklikdə qaldı. Bununla əlaqədar belə bir sualım var: Lissabon sammitinin qərarları danışıqlar prosesini canlandırmağa və Qarabağ probleminin dincliklə tənzimlənməsində müvəffəqiyyətə təsir göstərəcəkmi və hansı dərəcədə? Yəni bundan sonra Ermənistan tərəfindən hər hansı irəliləyiş və güzəştlər gözləmək olarmı?**

**Cavab**: Hesab edirəm ki, danışıqlar prosesi davam etdiriləcəkdir. Mən sammitdə çıxışım zamanı belə bəyanat verdim. Ermənistan Respublikasının prezidenti də bu cür bəyanat verdi. ATƏT-in fəaliyyət göstərən sədrinin bütün ATƏT üzvləri adından verdiyi bəyanat isə, onun dediyi kimi, ATƏT-in Lissabon sammitinin sənədidir və problemin dincliklə tənzimlənməsi üçün, təbii olaraq, danışıqlar prosesinin canlandırılması üçün çox yaxşı əsasdır.

**Sual**: **Cənab prezident, dünən Levon Ter-Petrosyan sammitdə çıxışında dedi ki, Azərbaycanda – Bakıda, Sumqayıtda, Gəncədə, "Erməni qırğınları" Dağlıq Qarabağın təhlükəsizliyini təmin etməyə imkan vermir. Bu, doğrudanmı belədir? O qırğınlara görə kim – Azərbaycan Respublikası, yoxsa keçmiş Sovet İttifaqı məsuliyyət daşıyır?**

**Cavab**: Prezident Ter-Petrosyanın dünən sammitdəki [101-102] çıxışında dediyi sözlər yeni sözlər deyildir. Bu sözləri onlar, eləcə də Ter-Petrosyan bir neçə dəfə demişlər və dünən də bir daha təkrar etdilər. O zamanlar

olmuş məsələlərin dəqiqliyinə varmadan demək istəyirəm ki, belə ittihamlar əsassızdır, həqiqətdən kənardır. Biz Ermənistanda azərbaycanlılara qarşı olmuş soyqırımı haqqında və Dağlıq Qarabağda, Xocalıda ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar haqqında ondan da çox faktlar və dəlillər gətirə bilərik. Kimin və hansı ölkənin, hansı dövlətin həmin qırğınlara görə məsuliyyət daşıması indi bizim bu məsələlərin həlli üçün əhəmiyyətli deyildir. Hesab edirəm ki, biz irəliyə baxmalıyıq və Azərbaycan-Ermənistan münaqişəsinin aradan qaldırılması üçün bu gün Lissabon sammitində bəyan olunmuş prinsiplər əsasında danışıqlar aparıb sülh əldə etməliyik.

**Sual**: **Sammitdən əvvəl Azərbaycan ilə Ermənistan birbaşa danışıqlar aparmışlar və cənab Ter-Petrosyanın başqa liderlərlə görüşlər zamanı söylədiyi sözlərdən belə başa düşdük ki, bu danışıqlar Azərbaycan tərəfinin təqsiri üzündən dayandırılmışdır. Azərbaycan tərəfi bu birbaşa danışıqları nə üçün kəsmişdir?**

**Cavab**: Prezident Ter-Petrosyan düz demir. Bu, birinci dəfə deyil ki, onlar ictimaiyyətə yalan məlumatlar verirlər. Azərbaycanla Ermənistan arasında ikitərəfli, yəni hər iki prezidentin nümayəndələrinin apardıqları birbaşa danışıqlar davam edir və son dəfə noyabrın 7-də Parisdə olmuşdur. Biz bu danışıqları kəsməmişik, bundan sonra da davam etdirəcəyik. Dünən axşam mən prezident Levon Ter-Petrosyanla görüşən zaman hər ikimiz eyni fikirdə olduq ki, danışıqlar davam etdirilməlidir. Danışıqları aparan Azərbaycan prezidentinin nümayəndəsi Vəfa Quluzadəyə və Ermənistan prezidentinin nümayəndəsi Libaridyana dünən axşam orada birbaşa göstərişlər verilibdir.

Daha sual yoxdur? Sağ olun. [102-103]

## PORTUQALİYA TELEVİZİYASI MÜXBİRİNƏ MÜSAHİBƏSİ

*Lissabon*

*3 dekabr 1996-cı il*

**Sual**: **Cənab prezident, Dağlıq Qarabağ münaqişəsindən danışa bilərsinizmi?**

**Cavab**: Bəli, danışa bilərəm. Doğrudan da, onun haqqında Portuqaliyada az məlumata malikdirlər. İndi, Lissabon sammitindən sonra Portuqaliya ictimaiyyəti müəyyən dərəcədə təsəvvürə malik olacaqdır. Bu gün mən Portuqaliyanın baş naziri ilə xüsusi olaraq görüşdüm. Biz bu mövzuda söhbət etdik. Başa düşdüm ki, baş nazir artıq bu məsələni yaxşı bilir.

Bu münaqişə 1988-ci ildə Ermənistanın təqsiri üzündən başlanmışdır. Azərbaycanda Dağlıq Qarabağ adlı kiçik bir region var. Bir vaxtlar o, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti adlanırdı. O vaxtlar bütün bunlar Sovet İttifaqının tərkibinə daxil idi. Sahəsi dörd min kvadratkilometr olan bu regionda təxminən 130 min əhali yaşayırdı. Onların 70 faizi erməni millətindən, 30 faizi Azərbaycan millətindən olan sakinlər idi. Bu region Azərbaycanın mərkəzində yerləşir və hər tərəfdən ancaq azərbaycanlıların yaşadıqları məntəqələrlə əhatə olunmuşdur.

Beləliklə, Ermənistan Dağlıq Qarabağı ilhaq etmək məqsədilə bu münaqişəni törətmişdir. Münaqişə qan tökülməsinə, sonra da müharibəyə gətirib çıxarmışdır. Hərbi əməliyyatlar elə genişlənmişdir ki, nəticədə çoxlu adam öldürülmüş və yaralanmışdır. Lakin müxtəlif obyektiv və subyektiv səbəblər üzündən və açığını deyək, Ermənistan və Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən erməni tərəfi Sovet İttifaqının rəhbərliyi, digər ölkələrin müəyyən dairələri tərəfindən dəstəklənmişdir, Azərbaycanda isə vəziyyət sabit deyildi. Bundan istifadə edən Ermənistan silahlı qüvvələri əvvəlcə [103-104] Dağlıq Qarabağ ərazisindən bütün azərbaycanlıları qovmuş, sonra da öz təcavüzünü Dağlıq Qarabağın hüdudlarından kənarda genişləndirmişlər. Bütün bunlar isə nəticə etibarı ilə Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsinə gətirib çıxarmışdır. Buraya Dağlıq Qarabağ və onun ətrafında yerləşən yaşayış məntəqələri, şəhər və rayonlar daxildir.

**Sual**: **Sizə elə gəlirmi ki, Rusiya bu münaqişənin qarşısını ala bilmədiyi üçün təqsirin müəyyən hissəsi onun üzərinə düşür?**

**Cavab**: Əlbəttə, Sovet İttifaqının rəhbərliyi üçqat təqsirkardır və bunun üçün bilavasitə məsuliyyət daşıyır. O vaxtlar ölkə Rusiya deyil, Sovet İttifaqı adlanırdı.

**Müxbir**: **İndi isə Rusiya məsuliyyət daşıyır.**

**Heydər Əliyev**: İndi nə Ermənistan, nə də Azərbaycan sözün əsl mənasında Rusiyaya tabe deyildir. Lakin Rusiya regionumuzda, şübhəsiz, təsirə malikdir. Onun Ermənistanda xüsusilə daha böyük təsiri var, Ermənistanla Rusiyanın bir çox əlaqələri olduqca fəaldır. Buna görə də Rusiya bu münaqişənin qarşısını ala bilərdi, bu qırğına yol verməyə bilərdi. Yeri gəlmişkən, Sovet İttifaqının, sonra isə Rusiyanın rəhbərliyi öz səhvlərinin altını çəkir. Bu, Sovet İttifaqının ərazisində ilk münaqişə və bəlkə də Avropa qitəsində ilk münaqişə idi. Əgər vaxtında bu münaqişənin qarşısı alınsaydı, ola bilsin, sonralar gürcü – abxaz, gürcü – osetin, osetin – inquş, Pridnestrovye – Moldova, nəhayət, çeçen münaqişələri də meydana gəlməzdi. Bir baxın, nə qədər münaqişə var, hamısı da bir-birinin yaxınlığında. Bunların hamısı Dağlıq Qarabağdan başlamışdır. Hamısı da ona görə ki, o vaxtlar Sovet İttifaqının rəhbərliyindəki ayrı-ayrı adamlar erməni separatçılara, millətçilərə havadarlıq edərək düşünürdülər ki, Dağlıq Qarabağı Azərbaycandan qoparmaq, onu Ermənistana birləşdirmək və buna görə yaxşı qazanc götürmək olar. Amma bu niyyət baş tutmadı. Müharibəyə başladılar, ərazini ilhaq etmək mümkün olmadı. Budur, artıq səkkiz ildir ki, bu münaqişə gedir.

**Sual**: **Siz düşünürsünüzmü ki, münaqişə sona yetir?** [104-105]

**Cavab**: O, hələ sona yetmir, amma düşünürəm ki, sona yetəcəkdir. Münaqişə uzun sürə bilməz. Bu gün ATƏT-in fəaliyyət göstərən sədrinin, Ermənistan istisna olmaqla, bütün ATƏT üzvləri adından prinsipləri – münaqişənin aradan qaldırılmasının əsasını təşkil etməli olan prinsipləri elan etməsi ona sübutdur ki, ATƏT, ona daxil olan ölkələr bu münaqişəni məhz həmin prinsiplər əsasında aradan qaldırmaq qərarını dəstəkləyirlər. Münaqişə ona görə həll olunmur ki, Ermənistan bu prinsiplərə əməl etmək istəmir, onları tanımır. Lakin indi, ATƏT-ə daxil olan bütün ölkələr həmin prinsiplərə sadiq olduqlarını elan etdiyi bir vaxtda, zənnimcə, Ermənistan tərəfi düşünməlidir.

**Sual**: Yəni səkkiz ildən sonra!

**Cavab**: Nə etmək olar, bundan da çox davam edən münaqişələr olur. [105-106]

## DANİMARKA TELEVİZİYASI MÜXBİRİNƏ MÜSAHİBƏ

*Lissabon*

*3 dekabr 1996-cı il*

**Sual**: **Cənab prezident, xahiş edirəm, Ermənistan-Azərbaycan münaqişəsindən danışasınız.**

**Cavab**: Bilirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsi Dağlıq Qarabağ üstündə yaranmışdır və bu münaqişəyə səkkiz il əvvəl Ermənistan Respublikası başlamışdır. Ermənistan Dağlıq Qarabağı ilhaq məqsədilə Azərbaycana qarşı hərbi təcavüz etmişdir.

Dağlıq Qarabağ Azərbaycanın mərkəzində yerləşən kiçik bir regiondur və ərazisi dörd min kvadratkilometrdir. O vaxtlar orada təxminən 130 min adam yaşayırdı. Onların 70 faizi erməni millətindən və 30 faizi Azərbaycan millətindən olan sakinlərdir. Ermənistan Dağlıq Qarabağı zor gücünə qoparıb özünə birləşdirməyi qərara almışdır. Münaqişə də bax buna görə yaranmışdır. Bundan sonra hərbi əməliyyatlar başlanmış, qan tökülmüş, çoxlu adam həlak olmuşdur. Lakin Ermənistan silahlı qüvvələri müxtəlif səbəblərə görə Azərbaycanın bəzi rayonlarını, o cümlədən də Dağlıq Qarabağı işğal etmiş, oradan bütün azərbaycanlıları didərgin salmışlar, çünki onlar digər dövlətlərdən yardım alırdılar, elə keçmiş Sovet İttifaqının rəhbərliyi də Azərbaycana nisbətən Ermənistana daha çox kömək göstərirdi. İndi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, oradan bir milyon nəfərdən çox azərbaycanlı qovulmuşdur. Bu adamlar Azərbaycanın müxtəlif bölgələrində çox ağır şəraitdə, çadırlarda yaşayırlar.

Lakin iki il yarım bundan əvvəl biz hərbi əməliyyatları dayandırdıq, atəşkəs haqqında saziş əldə etdik və sülh danışıqları aparırıq. Lakin bu danışıqlar hələlik bir nəticə verməmişdir. Lissabon sammitində biz bunun üçün müvafiq mandat almağa çalışdıq və hesab edirəm ki, onu aldıq. ATƏT-in fəaliyyət göstərən sədri cənab Flavio Kottinin xüsusi bəyanatı oldu. O, bildirdi ki, ATƏT-in üzvü olan bütün dövlətlər Dağlıq [106-107] Qarabağ münaqişəsinin aradan qaldırılması üçün əsas prinsipləri dəstəkləyirlər. Bunlar Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu və bütün Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyi üçün təminat verilməsi prinsipləridir. Biz hesab edirik ki, bu prinsiplər ATƏT-in prinsiplərinə uyğundur. Amma Ermənistan onları qəbul etmir. Halbuki bütün ATƏT üzvləri fəaliyyət göstərən sədrin bəyanatında öz əksini tapan bu prinsipləri dəstəklədiyini bildirmişlər. Bu bəyanat, ATƏT-in əsas sənədlərindən biri oldu. Biz bundan məmnunuq.

**Müxbir**: **Çox sağ olun!** [107-108]

## TÜRKİYƏ JURNALİSTİNƏ MÜSAHİBƏ

*Lissabon*

*3 dekabr 1996-cı il*

**Sual**: **Cənab prezident, Lissabon Zirvə görüşünün yekunu barədə nə deyə bilərsiniz.**

**Cavab**: Lissabon Zirvə görüşünün yekununu Azərbaycan üçün müsbət hesab edirəm. Bu görüşdə qəbul olunan bəyannamədə Ermənistan-Azərbaycan münaqişəsi haqqında bir yazı olmasa da ATƏT-in hazırkı sədri Flavio Kotti ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları adından bir bəyanat verdi. Bu bəyanatda o, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin yalnız üç prinsip əsasında həll edilməsini bəyan etdi. Bəyan etdi ki, ATƏT-in üzvü olan bütün dövlətlər, – Ermənistan istisna olmaqla, – bu prinsipləri dəstəkləyir. Bu üç prinsipdə Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsi, Dağlıq Qarabağda yaşayan bütün əhalinin təhlükəsizliyinin təmin olunması öz əksini tapmışdır. Ona görə də mən hesab edirəm ki, bu Zirvə görüşünün yekunu Azərbaycan üçün müsbətdir.

**Sual**: **Cənab prezident, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində Türkiyənin Azərbaycana dəstəyini necə qiymətləndirirsiniz?**

**Cavab**: Yaxşı, qiymətləndirirəm. Mən Lissabona gələn kimi burada hörmətli prezident Süleyman Dəmirəl ilə görüşdük, bu işləri müzakirə etdik. ATƏT-in hazırkı sədri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli barədə bu gün bəyanat verərkən Türkiyənin təmsilçisi də buna dəstək verdi. [108-109]

## RUSİYANIN "VESTİ" İNFORMASİYA-TELEVİZİYA PROQRAMINA MÜSAHİBƏ

*Lissabon*

*3 dekabr 1996-cı il*

**Sual**: **Heydər Əliyeviç, istərdik ki, ATƏT-in Dağlıq Qarabağa dair qərarını şərh edəsiniz.**

**Cavab**: ATƏT-in Dağlıq Qarabağa dair qərarı mükəmməl deyildir. Bununla yanaşı, ATƏT-in fəaliyyət göstərən sədrinin bütün sammit iştirakçıları – ATƏT üzvləri adından əsas prinsipləri, yəni Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün əsas tutulacaq prinsipləri elan etməsi Lissabon sammitinin müsbət nəticəsidir. Yeri gəlmişkən, mən böyük məmnunluqla bildirirəm ki, Rusiya Federasiyası nümayəndə heyətinin başçısı, Rusiyanın baş naziri hörmətli Viktor Stepanoviç Çernomırdin sammitdə çıxışında bu bəyanatı dəstəkləmişdir. O, bildirmişdir ki, onun fikrincə, məhz bu prinsiplər əsasında danışıqlar prosesi davam etdirilməli və münaqişənin aradan qaldırılması haqqında saziş əldə olunmalıdır.

**Sual**: **Siz burada Ermənistan prezidenti ilə görüşdünüzmü?**

**Cavab**: Mən dünən onunla, habelə Rusiyanın baş naziri ilə görüşdüm.

**Sual**: **Ter-Petrosyanla görüş barədə bir şey deyə bilərsinizmi?**

**Cavab**: Biz müxtəlif mövqelərdə idik, Viktor Stepanoviç Çernomırdinlə isə mövqelərimiz tamamilə uyğun gəldi.

**Sual**: **Hesab edirsinizmi ki, ATƏT Dağlıq Qarabağ münaqişəsinin həllində fəal rol oynaya bilər?**

**Cavab**: Hesab edirəm ki, oynaya bilər. Bu münaqişə ilə məhz ATƏT məşğul olur. Lap əvvəldən belə olmuşdur. Minsk qrupu ATƏT-in tərkibindədir və o, məhz ATƏT-in qərarı ilə 1992-ci ildə yaradılmışdır.

**Müxbir**: **Sağ olun.** [109-110]

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ JURNALİSTİNƏ MÜSAHİBƏ

*Lissabon*

*3 dekabr 1996-cı il*

**Sual: Cənab prezident, Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məsələsinin müzakirəsi haqqında nə deyə bilərsiniz?**

**Cavab**: Mən belə hesab edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli ilə əlaqədar Lissabon Zirvə görüşündə bizim üçün məqbul olan bir sənəd qəbul edilibdir.

**Sual: Ermənistan-Azərbaycan münaqişəsinin gələcəyini necə görürsünüz?**

**Cavab**: Ermənistan-Azərbaycan münaqişəsi aradan götürülməlidir. Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqları azad olunmalıdır, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz evlərinə, doğma obalarına qayıtmalıdırlar.

**Sual: Cənab prezident, İslam ölkələrinə çatdırmaq istədiyiniz bir sözünüz varmı?**

**Cavab**: Mən İslam ölkələrinə hörmət və ehtiramımı bildirirəm. Bütün müsəlmanlara mənim salamımı çatdırmağınızı xahiş edirəm. Müstəqillik qazanmasının 25 illik yubileyi münasibətilə Birləşmiş Ərəb Əmirlikləri dövlətini təbrik edirəm. Birləşmiş Ərəb Əmirliklərinin prezidenti, mənim əziz dostum, cənab Şeyx Zahidə cansağlığı və işlərində uğurlar arzulayıram. [110-111]

## ATƏT-in LİSSABON ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN TƏYYARƏDƏ RESPUBLİKA JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*5 dekabr 1996-cı il*

Siz hamınız Lissabonda məni müşayiət etmisiniz, orada olan mühiti və apardığımız işi, danışıqları həm eşitmisiniz, həm də görmüsünüz. Ona görə də bu barədə sizə geniş məlumat verməyə ehtiyac yoxdur. Ancaq Lissabondan Vətənimizə qayıdarkən Zirvə görüşünün yekunları haqqında bir neçə söz demək istəyirəm.

Şübhəsiz ki, Lissabon Zirvə görüşü ATƏT-in tarixində özünəməxsus yer tutacaqdır. Hesab edirəm ki, Avropada hazırkı vəziyyət ilə əlaqədar Lissabonda aparılan işlər, Lissabon Zirvə görüşünün qəbul etdiyi qərarlar Avropada təhlükəsizliyin, əməkdaşlığın təmin olunması üçün öz xeyrini verəcəkdir.

ATƏT-in tərkibində olan bir dövlət kimi Azərbaycan, şübhəsiz ki, ATƏT-in bütün qərarlarına çox böyük maraq göstərir və onların hər birinin respublikamız üçün, Avropanın bir hissəsi olan Azərbaycan üçün çox əhəmiyyəti olduğunu dərk edir. Ona görə də Lissabonda olan hər bir şey bizim üçün həm maraqlı, həm də əhəmiyyətli idi. Mən bu baxımdan, Lissabon Zirvə görüşündə iştirak etdiyim və orada olduğum müddətdə məhz Azərbaycanın bu Zirvə görüşündən nə əldə edəcəyi haqqında düşünürdüm, buna çalışırdım.

Eyni zamanda məlumdur ki, ümumi, qlobal məsələlərlə yanaşı, hər bir ölkənin özünə aid olan məsələləri var. ATƏT çərçivəsində respublikamızın özünə aid olan məsələ Ermənistan-Azərbaycan münaqişəsidir, Dağlıq Qarabağ problemidir. Bilirsiniz ki, iki il bundan əvvəl ATƏT-in Budapeşt Zirvə görüşündə də bizim bu məsələ dövlət başçılarının diqqət mərkəzində olmuşdur. Hesab edirəm, Budapeşt görüşündə bu münaqişəyə aid əhəmiyyətli bir qərar qəbul edilmişdir. Ona görə də bizim arzumuz, məqsədimiz burada daha da irəliyə getmək idi. Çünki Budapeştdən Lissabona qədər bu iki il müddətində biz atəşkəs şəraitində yaşamışıq. Həmin iki il müddə[111-112]tində görülən işlər nəticəsində daha da irəliyə getmək arzusundayıq və bu məqsədi daşıyırıq. Bütün görüşlərimiz, danışıqlarımız buna həsr olunmuşdur. Həm Lissabona hazırlaşarkən, həm birbaşa Lissabon Zirvə görüşü ərəfəsindəki dövrdə, yəni Helsinskidə, Vyanada və Lissabonun özündə görülən işlər, həm də bilavasitə mən noyabrın 30-da Lissabona gələn dəqiqədən sonadək apardığım işlər ən çox bu məsələlərə həsr olunmuşdur.

Demək istəyirəm ki, Lissabon Zirvə görüşünə gələrkən vəziyyət bizim üçün qeyri-münasib idi. Hazırlanmış bəyannamədə Ermənistan-Azərbaycan münaqişəsinə aid bir bənd var idi. Amma o, çox neytral xarakter daşıyırdı. Bizim əsas məqsədimiz orada əks olunmamışdı. Bizim əsas məqsədimiz isə məsələnin gələcəkdə ədalətli həll olunması üçün Lissabon zirvə görüşündə ən məqbul formulamı təsdiq etdirmək, yaxud onun orada bəyənilməsinə nail olmaq idi.

Bilirsiniz, bu formula ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bütün ölkələr tərəfindən, o cümlədən Ermənistan tərəfindən tanınmalıdır, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yalnız Azərbaycanın ərazi bütövlüyünün tanınması çərçivəsində həyata keçirilməlidir. Ancaq bu tezisə Ermənistan daim əks çıxdığına və hazırlıq dövründə də bu tezisə qəti etiraz etdiyinə görə hazırlayıcı qrup bəyannamə layihəsinə bu anlayışların daxil edilməsinə nail ola bilməmişdir.

Orada belə bir bənd var idi ki, bəli, danışıqlar gedibdir, ancaq bir nəticə verməyibdir. Danışıqlar bundan sonra da aparılmalıdır, kompromis olmalıdır və məsələ sülh yolu ilə həll edilməlidir – onun ümumi məzmunu bundan ibarət idi.

Şübhəsiz ki, biz bununla razı ola bilməzdik. Ona görə də mən bir çox görüşlər, danışıqlar apardım, hazırlayıcı qrupun tərkibində olan nümayəndələrimizə qəti göstərişlər verdim. Bu göstərişlər də ondan ibarət idi ki, Minsk qrupunun həmsədrləri tərəfindən son dəfə Helsinskidə irəli sürülmüş bu layihədə münaqişənin həll edilməsi üçün məqbul olan bir formula var idi. O, üç bənddən, elementdən ibarət idi: Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə zəmanət verilməsi. Məqsəd bu formulanın Lissabon sammitinin bəyannamə layihəsinə daxil edilməsinə nail olmaqdan ibarət idi. [112-113]

Həddindən artıq gərgin iş aparıldı. Nəhayət, biz belə bir layihənin bəyannamə layihəsinə daxil edilməsinə nail olduq. Bu da 20-ci bənddə öz əksini tapmışdı. Doğrudur, o bənd bizi tam qane etmir. Ancaq biz gördük ki, bundan artığına nail olmaq mümkün deyil. Hesab edirdik ki, əgər o üç elementdən ibarət olan prinsip orada öz əksini taparsa bu, gələcək danışıqlarda bunları əsas götürməyə imkan verəcəkdir.

Ancaq Ermənistanın tərəfi bu 20-ci bəndin əleyhinə çıxdı, konsensusa imkan vermədi. Hazırlıq zamanı 20-ci bənd oradan çıxarılmalı idi. Belə olan halda mən bütün danışıqlardan, imkanlardan istifadə etdim. Bütün danışıqlarda dövlət başçıları, ayrı-ayrı ölkələrin yüksək səviyyəli nümayəndələri bizim tələblərimizin ədalətli olduğunu tamamilə bəyənirdilər və təsdiq edirdilər. Ancaq ATƏT-in konsensus prinsipi var. Əgər bir ölkə konsensus vermirsə, demək, o məsələ qəbul ediləcək sənədə daxil ola bilməz, bunun qarşısını heç kəs ala

bilməz.

Ona görə də bütün imkanlar istənilən nəticəni vermədiyinə görə mən çox cəsarətli, çox da kəskin bir addım atmağa məcbur oldum. Mən bəyan etdim ki, belə olarsa, onda Azərbaycan bütünlüklə bəyannaməyə konsensus verməyəcəkdir. Bu o deməkdir ki, sammit heç bir sənəd qəbul edə bilməz. Bəlkə də əvvəlcə bəziləri belə hesab edirdilər ki, mənim bu addımım müəyyən qədər taktiki bir manevrdir. Ancaq mən çox intensiv danışıqlar apardım, bu danışıqlar saatlarla yox, dəqiqələrlə ölçülürdü.

Son nəticədə dekabrın 2-də və 2-dən 3-nə keçən gecə səhərədək davam edən danışıqlar, dekabrın 3-də səhər tezdən başlanan danışıqlar onu göstərdi ki, Azərbaycan bu mövqeyindən geri çəkilməyəcək. ATƏT-in üzvü olan ölkələrin dövlət başçıları və sammiti təşkil edənlərin hamısı real təhlükəni gördülər ki, ola bilər, sammit heç bir sənəd qəbul etməsin. Ondan sonra vəziyyətdən çıxış yolu barədə mənə təkliflər gəldi. Mən dedim ki, yalnız və yalnız 20-ci maddənin qəbul edilməsi bu vəziyyətdən çıxış yolu ola bilər. Bildirdim ki, siz mənimlə iş aparmamalısınız, Ermənistan prezidenti ilə görüşməlisiniz və ona anlatmalısınız ki, o, bu maddənin saxlanmasına razılıq versin. Dedilər ki, bu, mümkün olmur. Bilirdim ki, onda sizin təkliflərinizi gözləyirəm. Bir neçə təklif gəldi. Mən onları qəbul etmədim, çünki onlar bizim üçün əlverişli olmadı.

Son təklifi Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları və ATƏT-in indiki sədri, İsveçrənin xarici işlər naziri cənab [113-114] Flavio Kotti və bir neçə böyük ölkənin nümayəndələri hazırladılar. O, təklif, ATƏT-in sədrinin bəyanatı artıq sizə məlumdur. Həmin təklifi mənə sammitin son iclasına bir saat qalmış təqdim etdilər. Mən baxdım, bəzi düzəlişlər verdim. Bildirdim ki, yalnız ATƏT-in bu Zirvə görüşünü nəticəsiz etməmək üçün, əgər belə bəyanat qəbul edilərsə onda mən öz etirazımı geri götürüb Lissabon Zirvə görüşünün bəyannaməsinə konsensus verə bilərəm. Belə də oldu.

Lissabon sammitinin son iclasını siz müşahidə edirdiniz, hamısını özünüz gördünüz. Mənə təklif olundu, bəyan etdim ki, öz etirazımı geri götürməyəcəyəm, 20-ci maddə qalmalıdır. Ermənistan prezidenti öz etirazını geri götürmədi. Ondan sonra müraciət edildi ki, əgər belə bir bəyanat qəbul olunarsa mən nə edə bilərəm? Mən bildirdim ki, onda bəyanat oxunsun. Bəyanat oxunandan sonra bildirdim ki, əgər belə bir bəyanat qəbul olunarsa və o, ATƏT-in Zirvə görüşünün sənədləri içərisinə daxil olursa, onda mən bəyannamənin qəbul edilməsinə razılıq verə bilərəm. Belə də oldu.

Bilirsiniz ki, o bəyanat ATƏT-in sədri cənab Flavio Kotti tərəfindən elan olunandan sonra bu sənədin ATƏT-in bütün üzvləri tərəfindən dəstəklənməsi də bəyan edildi. Eyni zamanda, Amerika Birləşmiş Ştatlarının nümayəndəsi xüsusi çıxış edib onu dəstəklədi. Bilirsiniz ki, Avropa Birliyi adından İrlandiyanın baş naziri çıxış etdi və bu bəyanatın Avropa Birliyinə daxil olan bütün dövlətlər tərəfindən dəstəklәndiyini bəyan etdi.

Minsk qrupunun həmsədrləri olan ölkələrin rəhbərləri çıxış etdilər. Rusiya nümayəndə heyətinin başçısı, baş nazir cənab Çernomırdin çıxış etdi və bəyanatı dəstəklədiyini bildirdi. O, dedi ki, bu bəyanat əsasında sülh danışıqları aparılmalıdır. Sonra Minsk qrupunun ikinci həmsədri olan ölkənin – Finlandiyanın prezidenti cənab Ahtisaari çıxış etdi, Türkiyənin nümayəndə heyəti çıxış etdi, başqa nümayəndələr çıxış etdilər. ATƏT-in bütün üzvləri həmin bəyanatı dəstəklədilər. Beləliklə də biz Lissabon görüşündə hesab edirəm ki, istədiyimiz sənədi aldıq, məqsədimizə nail olduq. Hesab edirəm ki, bu böyük bir nailiyyətdir, qələbədir. Çünki ilk dəfə ATƏT-in Zirvə görüşü səviyyəsində Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün ATƏT-in prinsiplərinə uyğun olan, bu münaqişənin həllinin əsasını təşkil edən prinsiplər bir sənəd kimi qəbul olundu. Yenə də deyirəm, bu prinsiplər [114-115] Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarəetmə statusu verilməsi, bir də ki, Dağlıq Qarabağın bütün əhalisinə təhlükəsizlik zəmanəti verilməsidir.

Bilirsiniz ki, Ermənistanın prezidenti Ter-Petrosyan Lissabon Zirvə görüşündə çıxış edərkən qəti dedi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz və bu məsələ yalnız öz müqəddəratını təyinetmə prinsipi ilə həll olunmalıdır. Azərbaycanın tərkibində olsa, guya ki, Ermənistana qarşı, yaxud ermənilərə qarşı Azərbaycan tərəfindən soyqırımı ediləcəkdir. O, tamamilə əsassız olan bir bəyanatla çıxış etdi.

Amma bunun əksinə olaraq, ATƏT-in Zirvə görüşü belə bir sənəd qəbul etdi. Mən hesab edirəm ki, bu, gələcəkdə bizim sülh danışıqlarımız üçün, məsələnin sülh yolu ilə həll olunması üçün yaxşı bir əsasdır və biz Lissabon Zirvə görüşündən böyük məmnuniyyət hissi ilə qayıdırıq.

Mən Lissabon Zirvə görüşündə çıxış edərkən də qeyd etmişəm və bu gün, Zirvə görüşü bitəndən və bizim üçün əhəmiyyətli sənəd əldə ediləndən sonra da deyirəm ki, Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həll olunması üçün bundan sonra da öz səylərini sərf edəcəkdir. Biz atəşkəs rejiminə sadiq qalacağıq, məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq, Ermənistan ilə Azərbaycan arasında iki prezidentin nümayəndələri tərəfindən aparılan bilavasitə danışıqlar davam edəcəkdir. Hesab edirəm ki, indi, ATƏT belə bir sənəd bəyan edəndən sonra Minsk qrupu da danışıqları artıq bu sənədin çərçivəsində aparmalıdır. Mən hesab edirəm ki, gələcək işlərimiz üçün yaxşı əsas yaranıbdır. Bir də qeyd edirəm, Lissabon Zirvə görüşündən çox məmnun olduğumu bildirirəm və məmnuniyyət hissi ilə də Vətənə qayıdıram.

**Sual: Cənab prezident, bu, Sizin böyük qələbənizdir. Sizin həyatınız da qələbələrlə müşayiət olunan bir həyatdır. Bunu hansısa bir qələbə ilə müqayisə edərdinizmi, yoxsa bunun yeri tamamilə əlahiddədir?**

**Cavab**: Bilirsiniz, qələbəni hələ biz tam qələbə əldə edəndə deyəcəyik.

**Sual: Cənab prezident, xarici mətbuat yazır ki, Azərbaycan prezidentinə çox təzyiq olub, ancaq onu mövqeyindən döndərmək mümkün olmayıb.**

**Cavab**: Təzyiq olub? Bunu kim təzyiq, kim müraciət, kim danışıqlar hesab edir, özü bilər. Ancaq şübhəsiz ki, mən [115-116] bu qərarı qəbul edəndən sonra bir çox dövlət başçıları, nümayəndə heyətlərinin yüksək vəzifəli şəxsləri mənimlə xüsusi görüşlər keçirdilər və hər biri məndən təkidlə xahiş edirdi ki, qərarımı geri götürüm. Ancaq gətirilən bütün dəlillərin əvəzində, bunlara cavab olaraq mən onlara anladırdım ki, bu mövqeyimdən geri çəkilməyəcəyəm. Onu da demək lazımdır ki, mənə olan bütün bu müraciətlərdə, kimsə bunu təzyiq adlandırırsa, təzyiqlərdə hər bir dövlət başçısı, hər bir nümayəndə heyətinin təmsilçisi mənim bu qərarımın əsaslı olduğunu qeyd edirdi. Yəni, məni heç də günahlandırmırdılar ki, niyə belə qərar qəbul etmişəm. Heç kəs bunu mənə irad tuta bilmirdi. Mənə deyirdilər ki, sizin buna haqqınız var, ancaq xahiş edirdilər ki, Lissabon görüşünü pozmayın. Mən də deyirdim ki, siz istəmirsiniz Lissabon görüşü pozulsun, mən də istəmirəm. Ancaq bizim vəziyyətimizi anlayın. Burada hər bir dövlət başçısı öz dövlətinin mənafeyi üçün çalışır. Mənim tələblərim ATƏT-in prinsiplərinə tam uyğundur, bu prinsiplərə zidd bir hərəkət etmirəm, odur ki, mənim bütün addımlarım tam hüquqidir. Ona görə də mənə təzyiq edirdilər, ya xahiş edirdilər, müraciət edirdilər, – bunlar hamısı nəticəsiz qaldı. Əgər mənim belə mövqeyim olmasaydı, o sənəd də əldə olunmayacaqdı.

Onu bilin ki, bu prinsiplər indiyə qədər heç bir sənəddə öz əksini tapmamışdır. Minsk qrupunda nə qədər çalışırdıq ki, bu prinsipləri əsas götürək. Ermənistan tərəfi buna etiraz etdiyinə görə Minsk qrupu da heç bir şey edə bilmirdi.

**Sual: Cənab prezident, Ermənistan prezidentinin müşaviri Libaridyan bildirir ki, Azərbaycan danışıqlarda Minsk qrupundan guya onlara qarşı istifadə edir.**

**Cavab**: Biz heç kimdən istifadə etmirik. Mən orada qəti mövqe göstərdim, mən çox kəskin mübarizəyə hazır idim və elə bir mübarizəyə də girişdim.

**Sual: Lissabon görüşünün əsas məsələləri ikinci planda qalmışdı, bütün müxbirlər ancaq Dağlıq Qarabağ məsələsindən yazırdılar.**

**Cavab**: Elə bunun özü Azərbaycan üçün böyük qələbədir. Əgər sammitə gələndə Dağlıq Qarabağ, Azərbaycan məsələsi tamamilə unudulmuşdusa, iki-üç gün içərisində bu, bir nömrəli məsələyə çevrildi. Təkcə bu sənədə görə yox, ona görə ki, bütün dövlətlər dərk etdilər ki, bu məsələ nə qədər kəskin məsələdir və biz nə qədər geniş ictimai rəy yarada bildik. Bunun özü ən böyük qələbədir. [116-117]

## ATƏT-in LİSSABON ZİRVƏ TOPLANTISININ YEKUNLARI İLƏ ƏLAQƏDAR RESPUBLİKA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*6 dekabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar! Bugünkü görüş ATƏT-in Lissabon Zirvə toplantısının yekunlarına həsr olunmuşdur. Buraya bu görüşə Azərbaycan Respublikası ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri və nümayəndəliklərinin başçıları və nümayəndələri, beynəlxalq təşkilatların nümayəndəliklərinin bütün başçıları, respublikanın kütləvi informasiya vasitələrinin və xarici ölkələrin informasiya orqanlarının nümayəndələri dəvət ediliblər.

Hörmətli görüş iştirakçıları, mən sizi salamlayıram və sizi əmin edirəm ki, Lissabon Zirvə görüşü haqqında lazımi qədər məlumat verməyə çalışacağam. Təəssüf olsun ki, burada sinxron tərcümə etməyə hələlik imkanımız yoxdur. Buna görə də Azərbaycan dilini bilməyən görüş iştirakçılarından üzr istəyirəm və rica edirəm ki, onlar burada olan imkanlardan istifadə etsinlər. Güman edirəm ki, onlar öz həmkarlarından, yaxud başqa vasitələrdən istifadə edib mənim Azərbaycan dilində söylədiyim sözləri başa düşəcəklər.

ATƏT-in Lissabon Zirvə görüşü beynəlxalq aləmdə böyük və əlamətdar bir hadisədir. ATƏT yaranandan indiyə qədər Avropada təhlükəsizliyi, əməkdaşlığı təmin etməyə çalışan bir təşkilatdır. Helsinki aktında ATƏT-in prinsipləri həkk olunubdur və 1975-ci ildən indiyə qədər ATƏT bu prinsiplərin Avropada və bütün başqa ölkələrdə bərqərar olmasına çalışır. Hesab edirəm ki, bu müddətdə ATƏT çox böyük iş görüb, nailiyyətlər əldə edibdir. Avropada, dünyada sülhün bərqərar olması, təhlükəsizliyin təmin edilməsi, demokratiyanın inkişaf etməsi, insan hüquqlarının qorunması sahəsində dəyərli işlər [117-118] görüb və lazımi nəticələr əldə edibdir. Ona görə də ATƏT bir təşkilat kimi dünyanın hər yerində böyük hörmət və ehtiram qazanıbdır.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən ATƏT-ə üzv qəbul olunubdur. Azərbaycan ATƏT-də üzv olmağı ölkəmizin beynəlxalq aləmdə siyasətini həyata keçirməsi üçün, dövlət müstəqilliyini təmin etməsi üçün mühüm bir vasitə hesab edir.

ATƏT-in Lissabon Zirvə görüşündə müasir problemlərə aid bir çox məsələlər müzakirə olundu və sənədlər qəbul edildi. Birinci mühüm sənəd XXI əsrdə Avropanın təhlükəsizliyi modelinə həsr olunmuşdur. Bu, çox əhəmiyyətli bir sənəddir. Yəni artıq, ATƏT irəliyə baxır, XXI əsrin problemləri ilə bağlı qayğılarla yaşayır və ona görə də məhz indi, 96-cı ilin sonunda Zirvə görüşündə birinci sənədi buna həsr edibdir. Biz bu sənədin hazırlanmasında və qəbul olunmasında iştirak etdik, onu dəstəklədik, ona səs verdik. Ümumiyyətlə, bu sənəd ATƏT-in üzvləri tərəfindən yekdilliklə qəbul olundu.

ATƏT-in Avropada təhlükəsizliyə və əməkdaşlığa dair yekun sənədi, onun hazırlanması və müzakirəsi, demək olar, çox mürəkkəb və gərgin şəraitdə keçdi. Çünki bu sənəddə ATƏT-ə daxil olan ölkələrin bir çoxunun problemlər, münaqişələr haqqında, yaxud qarşılıqlı əlaqələr haqqında, bu ölkələrin özlərinə və ya ölkələr birliyinə olan münasibətlər haqqında bir sıra müddəalar əks edilmişdir. Ona görə də hazırlıq zamanı müzakirə həm Vyanada, həm də Lissabonda çox gərgin və mürəkkəb keçdi. Azərbaycan da bu sənədə çox maraqlı olduğuna görə onun hazırlanması mərhələsindən qəbul edilməsi mərhələsinə qədər bu sənədin hazırlanmasında və müzakirəsində fəal iştirak etdi, ölkəmizin mövqelərinin orada əks olunmasına çalışdı.

Siz artıq bu sənədlərlə informasiya orqanlarının verilişlərindən, mətbuatdan tanışsınız. Ancaq mən Azərbaycana aid məsələlər haqqında sizə lazımi qədər geniş məlumat vermək istəyirəm. Güman edirəm ki, bu barədə sizin də məlumatınız var, bütün Azərbaycan ictimaiyyətinin də. Çünki televiziya vasitəsilə, mətbuat vasitəsilə bir çox məsələlər haqqında məlumatlar verilibdir. Ancaq bununla yanaşı, mən orada gedən proseslər haqqında, Azərbaycanla əlaqədar məsələnin həll edilməsi mərhələsi və onun həll olunması prosesi haqqında, Lissabon sammitində Azərbaycana aid və xüsusən Ermənistan-Azərbaycan münaqişəsinə, Dağlıq Qarabağ münaqişəsinə [118-119] aid məsələlərin müzakirəsi haqqında sizə daha geniş məlumat vermək istəyirəm. Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra bu, ATƏT-in üçüncü Zirvə görüşüdür. 1992-ci ildə ATƏT-in Zirvə görüşü Helsinkidə olmuşdur. Artıq o vaxt Azərbaycan müstəqil dövlət idi və ölkəmizin nümayəndə heyəti Azərbaycanın o vaxtkı prezidenti başda olmaqla Helsinkidə ATƏT-in Zirvə görüşündə iştirak etmişdi. Sonra ATƏT-in Zirvə görüşü 1994-cü ilin dekabr ayında Macarıstanda, Budapeştdə keçirilmişdir. Orada Azərbaycanın bugünkü prezidenti başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Nəhayət, bu il dekabrın 2-3-də Portuqaliyada, Lissabonda ATƏT-in növbəti Zirvə görüşü olmuşdur və biz orada iştirak etmişik. 1992-ci ildə Helsinkidə ATƏT-in Zirvə görüşünün sənədlərində Azərbaycan haqqında, Azərbaycan-Ermənistan münaqişəsi haqqında, Dağlıq Qarabağ münaqişəsi haqqında heç bir iz yoxdur. Yəni

bizim əlimizdə olan sənədlərdə bu məsələnin orada müzakirə edilib-edilməməsi, yaxud qoyulması məlum deyildir, ancaq Azərbaycana aid, Azərbaycan-Ermənistan münaqişəsinə aid heç bir sənəd yoxdur. 1994-cü ildə Budapeştdə ATƏT-in Zirvə görüşündə isə Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi haqqında çox əhəmiyyətli qərar qəbul olunmuşdur.

Xatirinizdədir, o Zirvə görüşü ərəfəsində biz belə bir qərarın qəbul edilməsi üçün geniş fəaliyyət göstərmişdik, çox iş görmüşdük. Budapeştdə Zirvə görüşündə mənim rəsmi nitqimdə də və aparılan ikitərəfli, çoxtərəfli danışıqlarda da, həyata keçirilmiş bütün işlər nəticəsində biz nəhayət, Budapeşt sammitində Azərbaycana aid, bir daha qeyd edirəm Ermənistan-Azərbaycan münaqişəsinə aid əhəmiyyətli bir qərarın qəbul edilməsinə nail olmuşduq. Mən sizə xatırladım, o qərarın əsas məzmunu bundan ibarətdir ki, ATƏT bu münaqişənin tezliklə həll olunmasının, sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini bir daha bəyan etmişdir. O vaxt Ermənistan-Azərbaycan münaqişəsində artıq yeddi ay davam edən atəşkəsin çox əhəmiyyətli olduğunu qeyd etmişdir və tövsiyə etmişdir ki, atəşkəs rejiminə riayət olunsun, münaqişəyə son qoymaq üçün, məsələni sülh yolu ilə həll etmək üçün danışıqlar prosesi intensivləşdirilsin və Minsk qrupunun işi daha intensiv aparılsın. Əgər Minsk qrupu o vaxta qədər bir sədrin rəhbərliyi altında fəaliyyət göstərirdisə, dekabr ayında Budapeştdə Minsk qrupu[119-120]nun formatı dəyişdi və onun iki həmsədri – Rusiya və Finlandiya təyin edildi. Sənədin ən mühüm hissələrindən biri ondan ibarətdir ki, ilk dəfə olaraq ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılması haqqında qərar qəbul edildi və Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün, əldə olunacaq sülh sazişinin yerinə yetirilməsi, təmin edilməsi üçün çoxmillətli sülhü mühafizə qüvvələrindən istifadə edilməsi zərurəti nəzərə alındı.

Bildiyiniz kimi, Budapeşt sammitinə qədər nəzərdə tutulurdu ki, əgər Böyük Sülh Sazişi əldə edilsə, şübhəsiz, buraya sülhü mühafizə qüvvələri daxil olmalıdır və bu qüvvələr bir ölkədən olacaqdır. Ancaq Budapeştdə qəbul edilən qərar elə oldu ki, əvvəlcə ATƏT-in çoxmillətli sülhü mühafizə qüvvələri yaradılmalıdır və bu qüvvələrdən Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məqsədi ilə əldə ediləcək sazişin həyata keçirilməsi üçün istifadə olunmalıdır. Qərarın əsas məzmunu, əsas mənası bundan ibarətdir.

Budapeştdən sonra Minsk qrupunun fəaliyyəti həqiqətən gücləndi. Bu iki il müddətində Minsk qrupu çox görüşlər keçirmiş, onun nümayəndələri dəfələrlə regionumuzda olmuş, danışıqlar aparmış, çox işlər görmüşlər. Bilirsiniz ki, biz bu iki il müddətində tək Minsk qrupunun vasitəsilə deyil, həm də bütün imkanlardan istifadə etməyə çalışmışıq və məqsədimiz də tezliklə sülh əldə etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək və doğma yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarını öz yerlərinə, obalarına qaytarmaqdır. Bunun üçün biz Minsk qrupu çərçivəsində daim fəal iş görməklə məşğul olmuşuq, eyni zamanda ikitərəfli görüşlərdən, dövlət və hökumət başçılarının görüşlərindən, Azərbaycanda keçirilən görüşlərdən, mənim xarici ölkələrə səfərim zamanı keçirdiyim görüşlərdən, beynəlxalq təşkilatlar çərçivəsində olan ikitərəfli görüşlərdən, başqa imkanlar çərçivəsində keçirilən görüşlərdən səmərəli istifadə etməyə çalışmışıq.

Eyni zamanda beynəlxalq təşkilatların imkanlarından da istifadə etməyə çalışmışıq, yəni beynəlxalq təşkilatların toplantılarında onların tribunasından istifadə edərək Azərbaycanın vəziyyəti, Ermənistan-Azərbaycan münaqişəsi barədə məlumat vermişik və həmin təşkilatların bu işə qoşulmasına çalışmışıq. Mən beynəlxalq təşkilatlar dedikdə həm Birləşmiş Millətlər Təşkilatını, həm ATƏT-i, həm İslam Konfransı Təşkila[120-121]tını, həm İqtisadi Əməkdaşlıq Təşkilatını, həm MDB-ni, həm Avropa Birliyini, həm də Avropa Şurasını nəzərdə tuturam. Biz onların hamısının imkanlarından səmərəli istifadə etməyə çalışmışıq.

Bütün bu dövr ərzində, bu iki ildə çalışmışıq ki, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün ədalətli qərar qəbul edilsin və biz buna nail ola bilək. Ancaq təəssüflər olsun ki, biz bu iki il müddətində atəşkəs rejimini saxlamağa nail olmaqla yanaşı, ümumiyyətlə, sabitliyi təmin etməklə yanaşı eyni zamanda son məqsədə çata bilməmişik, yəni Böyük Sülh Sazişini əldə edə bilməmişik. Bunların da səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv mövqe tutaraq, Azərbaycan torpaqlarının bir qisminin işğal olunması vəziyyətindən istifadə edərək, bir tərəfdən məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdar olduğunu daim bildirmişdir, ikinci tərəfdən isə daim danışıqlardan nəyin bahasına olursa-olsun Dağlıq Qarabağa müstəqillik statusu almağa çalışmış və cəhd göstərmişdir.

Biz bu il Ermənistanla bilavasitə danışıqlar aparmaq üçün yeni bir kanal da yaratmışıq. Ermənistan prezidentinin xüsusi nümayəndəsinin və Azərbaycan prezidentinin xüsusi nümayəndəsinin mütəmadi görüşlərini təşkil etmişik. Bu görüşlər Avropanın bir neçə ölkəsində dəfələrlə keçirilibdir. Biz bu görüşlərdən də istifadə etməyə çalışmışıq. Nəhayət, şəxsən mən beynəlxalq təşkilatların iclaslarında, toplantılarında Ermənistan prezidenti Levon Ter-Petrosyanla bir neçə dəfə görüşlər keçirmiş, danışıqlar aparmışam, Azərbaycanın mövqelərini izah etməyə çalışmışam və məsələnin sülh yolu ilə həll olunması üçün konstruktiv addımlar atdığımı nümayiş etdirmişəm.

Belə görüşlərdən biri də biz apreldə Lüksemburqda Avropa Birliyində olduğumuz zaman baş vermişdir. Azərbaycanın və Ermənistanın prezidentləri münaqişənin sülh yolu ilə həll olunması ilə əlaqədar orada ilk dəfə birgə bəyanat vermişdilər. Ancaq yenə də qeyd edirəm, bunların hamısı bizi son məqsədə, nəticəyə gətirib

çıxarmamışdır. Ona görə də biz ATƏT-in Lissabon Zirvə görüşünə hazırlaşdığımız dövrdə çox geniş fəaliyyət göstərməyə çalışdıq və bunu edə bildik.

Biz həm Minsk qrupunun işini daha da sürətləndirməyə və Minsk qrupunun vasitəsindən istifadə etməyə çalışmışdıq, həm [121-122] də Minsk qrupuna daxil olan dövlətlərin – Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Türkiyə və başqa dövlətlərin nümayəndə heyətləri, dövlət başçıları ilə əlaqə quraraq Minsk qrupunun işini gücləndirməyə xüsusi diqqət yetirmişik. Eyni zamanda bu ölkələrin dövlət başçıları, yaxud o dövlətlərin nümayəndələri ilə görüşlərdə də bu işi sürətləndirməyə və Lissabon Zirvə görüşündə məsələnin sülh yolu ilə həllini təmin edə biləcək bir qərar qəbul olunması üçün əsas yaratmağa çalışmışıq.

Bunun üçün mən bu il noyabrın əvvəlində ATƏT-in üzvü olan bütün ölkələrin dövlət və hökumət başçılarına məktublar göndərmişəm. Bu məktublarda hər bir dövlət və hökumət başçısına həmin problemi bir daha geniş izah etməyə çalışmışam, Azərbaycanın konstruktiv mövqedə olduğunu nümayiş etdirmişəm və respublikamızın konkret təkliflərini irəli sürmüşəm. Bizim bu təkliflərimizin Lissabon Zirvə görüşünədək həyata keçirilməsi üçün dövlət və hökumət başçılarından lazımi səylər göstərmələrini xahiş etmişəm. Bu məktublara, mənim müraciətimə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının bir çoxu yazılı cavablar da, şifahi cavablar da vermişlər, bütün bu cavablarda bizim mövqelərimizi ümumiyyətlə müdafiə etmişlər.

Bilirsiniz ki, ABŞ prezidenti Bill Klinton mənim məktubuma cavab olaraq noyabrın 8-də məktub göndərmişdir. Bu məktub mətbuatda dərc olunub, sizə məlumdur. O, bizim bu prinsiplərimizi dəstəkləmişdir. Yenə deyirəm, Rusiya, Böyük Britaniya, Fransa, Türkiyə və bir çox digər ölkələrin dövlət başçılarından da belə məzmunlu məktublar almışıq. Bunlarla yanaşı, biz noyabr ayında Minsk qrupunun Azərbaycana gələn bütün tərkibi ilə, ABŞ-dan, Rusiyadan gələn böyük nümayəndə heyətləri ilə görüşüb danışıqlar aparmışıq.

Bunların hamısında biz bir məqsədi irəli sürürdük. Şübhəsiz ki, ATƏT-in Zirvə görüşü münaqişəyə son qoymaq üçün bir qərar qəbul etmək imkanında deyil. Ancaq münaqişənin sülh yolu ilə həll olunmasının ATƏT-in prinsiplərinə söykənən əsas prinsiplərinin qəbul edilməsi Zirvə görüşündən sonra, 1997-ci ildə bu işin daha da sürətlə və müvəffəqiyyətlə aparılmasına kömək edəcəkdir. Ona görə də həm dövlət və hökumət başçılarına göndərdiyim müraciətlərdə, həm də apardığım bütün danışıqlarda biz belə izah etmişik ki, bu prinsiplər üç elementdən ibarət olmalıdır. Azərbaycanın ərazi [122-123] bütövlüyünün Ermənistan tərəfindən tanınması – bilirsiniz ki, indiyədək Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edir və onu da bilirsiniz ki, 1989-cu ildə qərar qəbul edilibdir ki, Dağlıq Qarabağ Ermənistanın tərkibinə daxil olmuşdur və bu qərar indiyədək ləğv olunmayıb – ona görə də bu, çox prinsipial məsələdir.

Bizim formulun ikinci elementi Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək status verilməsidir. Üçüncü element, – bu Ermənistan tərəfinin daimi təkididir – Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunmasına zəmanət verilməsidir.

Bu üç əsas elementdən ibarət olan formulu biz dəfələrlə Minsk qrupuna da təklif etmişdik və dünya ölkələrinin dövlət və hökumət başçılarına mənim göndərdiyim müraciətlərdə də bunlar irəli sürülmüşdür. Biz Lissabon Zirvə toplantısı ərəfəsində keçirdiyimiz bütün görüşlərdə bunları irəli sürmüşdük. Bizim məqsədimiz də ondan ibarət idi ki, əgər Lissabon Zirvə görüşü Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün bu prinsipləri qəbul etsə, demək, bundan sonra gedəcək danışıqlar, Minsk qrupunun fəaliyyəti bu prinsiplər üzərində qurulmalıdır.

Siz bunu bilməlisiniz, iş burasındadır ki, Minsk qrupu, ümumiyyətlə, bu prinsipləri qəbul edərək, eyni zamanda Minsk qrupunun görüşlərində, Ermənistan-Azərbaycan nümayəndələrinin görüşlərində Ermənistan bu prinsiplərə etiraz etdiyinə görə Minsk qrupu bu prinsipləri müzakirəyə qoya bilməyib. Ona görə də Minsk qrupunun bu məsələdə həmin prinsipləri müzakirənin əsasına çevrilməsi üçün biz bu prinsiplərin Zirvə görüşündə qəbul edilməsinə nail olmağa çalışırdıq. Bunun üçün də biz Zirvə görüşü ərəfəsində Helsinkidə – Minsk qrupunun son toplantısında bu məsələni çox kəskin qoymuşuq, Lissabon görüşünü hazırlayan qrupun Vyanadakı işində də biz bu prinsipləri irəli sürmüşdük və nəhayət, Lissabonun özündə, Zirvə görüşü başlanmazdan əvvəl bu prinsiplərin sammitin sənədinə daxil olunmasını təkid edirdik və buna cəhd göstərirdik, çalışırdıq.

Ancaq təəssüflər olsun ki, əvvəl Vyanada, sonra Lissabonda hazırlanmış bəyannamə layihəsində başqa bir maddə meydana gəlmişdi. O maddə də ondan ibarət idi ki, Ermənistan-Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunmalıdır, danışıqlar prosesi intensivləşdirilməlidir, tərəflər razılığa gəlməlidir, [123-124] kompromis əldə edilməlidir, atəşkəs qorunub saxlanmalıdır, sülh danışıqları davam etdirilməlidir.

Bizə izah edirdilər ki, Ermənistan tərəfi bizim irəli sürdüyümüz təklifə konsensus vermədiyinə görə o təklif, layihə heç ümumi sənədin layihəsinə də daxil olunmamışdır. 18-ci paraqraf altında belə bir yazı var idi. Biz Lissabonda çalışdıq və buna nail olduq ki, o yazı oradan çıxarıldı və Lissabon sənədinə 20-ci paraqraf altında həmin bu prinsipləri əks etdirən bir paraqraf salındı.

Mən sizə bildirmək istəyirəm ki, bu, asan məsələ deyildi, çox çətin məsələ idi. Minsk qrupunun üzvləri və bir çox başqa dövlətlərin nümayəndələri orada bizi dəstəklədiklərinə görə biz bu paraqrafın ora salınmasına nail olduq. Yəni o paraqrafın salınması, hesab edirəm, bizim ilk, çox uğurlu addımımız oldu ki, əvvəlki, bizim üçün

qeyri-məqbul məzmun daşıyan paraqraf əvəzinə bu paraqraf layihəyə salındı.

Ancaq bilirsiniz ki, ATƏT konsensus əsasında işləyir. Ermənistan bu maddəyə veto qoydu və bu paraqrafın qəbul olunmasına qəti etiraz etdi. Bizim sonrakı işlərimiz ona yönəldildi ki, bu paraqrafın orada saxlanılmasına nail olaq. Siz açıq bilməlisiniz, – baxmayaraq ki, bu paraqraf özü də bizi tam təmin etmirdi. Çünki o paraqrafda üç elementdən olan formul yazılmışdı, ancaq eyni zamanda deyilirdi ki, sammit təəssüf edir ki, konsensus olmadığına görə bu, qəbul olunmur və tövsiyə edilir ki, danışıqlar davam etsin. Biz bunu da qəbul etdirməyə çalışırdıq ki, ATƏT-in sənədində heç olmasa ilk dəfə olaraq prinsiplər əks edilsin. Çünki ATƏT-in indiyə qədərki sənədlərində bu formul öz əksini tapmamışdı, yəni Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması və Dağlıq Qarabağın statusu məsələsinin Azərbaycanın tərkibində həll edilməsi indiyə qədər heç bir sənədə daxil olmamışdı. Ona görə də biz bu paraqrafın, bəndin saxlanmasına çalışırdıq. Ancaq Ermənistan buna veto qoydu və bu vetonun üzərində də axıradək durdu.

Belə olan vəziyyətdə bizim başqa çıxış yolumuz yox idi. Biz çox müzakirələr, təhlillər apardıq. Bunların nəticəsində, – sizə açıq deyirəm, – mən çox riskli qərar qəbul etdim. Bu qərar da ondan ibarət idi ki, hələ Lissabon Zirvə görüşü, yəni sammitin iclası başlanmazdan əvvəl, dekabrın 1-də axşam mən Lissabon Zirvə toplantısının son sənədinə veto qoydum. Konsensus hüququ buna imkan verir. Şübhəsiz ki, bu, çox böyük narahat[124-125]lıq, təşviş doğurdu. Çünki belə bir addım bəlkə də gözlənilməz idi. Ancaq biz belə bir addımı atdıq. Ondan sonra bizim işimizin yeni bir mərhələsi başlandı.

Mən həm dekabrın 1-də – Zirvə görüşü işə başlamamışdan əvvəl, həm də dekabrın 2-də, 3-də bir çox görüşlər keçirmişdim. Orada demək olar ki, dövlət və hökumət başçılarının tam əksəriyyəti ilə həm hazırlıq dövründə, həm dekabrın 2-də səhər saat 9-da sammit öz işinə başlayandan sonra tənəffüslər zamanı, yaxud Portuqaliya prezidentinin, baş nazirinin təşkil etdikləri qəbullar zamanı dövlət və hökumət başçıları ilə fərdi görüşlər keçirirdim, danışıqlar aparıb mövqelərimizi izah edirdim. Nümayəndə heyətimizin üzvlərinin hər biri də öz səviyyəsində bu mövqeləri izah edirdi və biz sübut etməyə çalışırdıq ki, mövqeyimiz düzgündür, doğrudur.

Ancaq bu çoxsaylı görüşlərlə yanaşı, həmin məsələləri müzakirə etmək və orada müəyyən dəstək almaq üçün mən bir neçə dövlət və hökumət başçıları ilə, xarici işlər nazirləri ilə xüsusi görüşlər də keçirdim. Bunlar xüsusi, ayrıca, müstəqil görüşlər idi. Mən ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə, Rusiyanın baş naziri, bu ölkənin nümayəndə heyətinin başçısı cənab Viktor Çernomırdinlə, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəllə, Finlandiyanın prezidenti cənab Marti Ahtisaari ilə, Ukraynanın prezidenti Leonid Kuçma ilə, Portuqaliyanın baş naziri cənab Antonio Qutyereslə, İsrailin baş naziri cənab Netanyahu ilə, Qazaxıstanın prezidenti cənab Nursultan Nazarbayevlə, Gürcüstanın prezidenti cənab Eduard Şevardnadze ilə, ATƏT-in hazırkı sədri, İsveçrənin xarici işlər naziri cənab Flavio Kotti ilə bir neçə dəfə, Ermənistanın prezidenti cənab Ter-Petrosyanla, Rusiyanın xarici işlər naziri cənab Yevgeni Primakovla, Almaniyanın xarici işlər naziri cənab Klaus Kinkellə, Böyük Britaniyanın xarici işlər naziri cənab Malkolm Rifkindlə, Fransanın xarici işlər naziri cənab Evre de Şarettlə, ABŞ dövlət katibinin müavini xanım Linn Devislə xüsusi görüşlər keçirdim, müzakirələr apardım, mövqelərimizi izah etməyə çalışdım.

Bu və digər görüşlərdə mənə eyni zamanda izah etdilər ki, bizim atdığımız addım Azərbaycana ümumiyyətlə çox pis nəticələr gətirə bilər. Əgər Azərbaycan Lissabon Zirvə görüşünün sənədinə tamamilə veto qoysa, demək, heç bir sənəd qəbul olunmayacaqdır, Zirvə görüşü sənədsiz keçəcəkdir. Beləliklə, 55 dövlət Azərbaycandan narazı olacaqdır. Belə bir və[125-126]ziyyətdə Azərbaycan təcrid ediləcəkdir. Mən düşünürdüm ki, ola bilər, buna başqa mənalar da versinlər, başqa nəticələr də çıxarsınlar.

Bu cür izahatlar verərək həmin görüşlərdə mənə təkidlə müraciət olunurdu ki, mən bu vetonu götürüm. ATƏT-in Lissabon Zirvə görüşünün sənədi qəbul edilsin. Mən isə bunun cavabında bildirdim ki, siz mənimlə danışdığınız, mənə müraciət etdiyiniz kimi, Ermənistan prezidenti ilə də danışmalısınız və ona müraciət etməlisiniz ki, o, 20-ci paraqrafdan öz vetosunu götürsün. Şübhəsiz ki, onunla da danışıqlar gedirdi, – bu barədə mənə məlumat verirdilər, – ona da belə təkliflər edilirdi. Ancaq onlar da bu məsələnin üzərində çox möhkəm durmuşdular, çünki hesab edirdilər ki, əgər buna razılıq versələr, bu, onların ümumi işi, daxili vəziyyəti üçün çox çətin olacaqdır.

Dekabrın 2-də axşam mən Levon Ter-Petrosyan ilə görüş keçirdim, çox ətraflı danışıqlar apardım. Mən çalışdım ona izah edəm ki, onun 20-ci paraqrafa veto qoyması düzgün deyil və 20-ci paraqrafın qəbul olunması bizim gələcək danışıqlarımıza çox kömək edəcəkdir. Mən bunu ona dəfələrlə izah etdim. Ancaq o öz dediyinin üzərində durdu. Bu danışıqlarda mən bir neçə məsələni də izah etdim. Mən bunları bildirmək istəyirəm. Lissabon Zirvə görüşü ərəfəsində Ermənistan prezidentinin müşaviri Libaridyan bir neçə bəyanat vermişdi ki, biz heç bir sənədin qəbul olunmasına imkan verməyəcəyik, veto qoyacağıq. Prezident Levon Ter-Petrosyan bəyanat vermişdi ki, guya Azərbaycan Ermənistanda daxili vəziyyətin mürəkkəb, müəyyən mənada qeyri-sabit olduğuna görə bu fürsətdən istifadə edib Ermənistana təzyiq göstərir və bəyan etmişdi ki, heç bir təzyiq Ermənistana təsir edə bilməz. Belə fikir söyləmişdi ki, Lissabonda heç bir sənəd qəbul olunmayacaqdır. Ona görə də mən prezident Levon Ter-Petrosyanla danışarkən onun bu fikirlərini təkzib etdim.

Mən bu fikirləri bu gün də deyirəm ki, Ermənistanın daxili vəziyyətində müəyyən çətinliklər, gərginliklər,

qeyri-sabitlik olsa da, biz heç vaxt heç bir fürsətdən istifadə etmək istəmirik. Bizim bu mövqeyimiz bugünkü mövqe deyil, bir il də, iki il də bundan əvvəl biz bu mövqeni tutmuşuq.

Mənim Lissabon Zirvə görüşündəki nitqim sizə məlumdur, mətbuatda onunla tanış olmusunuz. Mən Lissabonda öz nitqimi sərt qurdum, yəni orada reallığı bildirdim ki, Ermənistan [126-127] Azərbaycana qarşı təcavüz edibdir. Ermənistan təcavüzkardır, Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir, Ermənistan qeyri-konstruktiv mövqe tutubdur, Ermənistan Dağlıq Qarabağı müstəqil dövlət etmək istəyir və bildirdim ki, biz bunların heç birisi ilə razı ola bilməyəcəyik. Biz heç vaxt yol verə bilmərik ki, Dağlıq Qarabağ dövlət müstəqilliyi əldə etsin. Biz heç vaxt yol verə bilmərik ki, Azərbaycanın ərazisində ikinci erməni dövləti yaransın. Ancaq eyni zamanda, mən nitqimin ikinci hissəsində sülhə doğru addım barədə fikirlər irəli sürmüşdüm. Ermənistanın həm rəhbərliyinə, həm də xalqına müraciət etmişdim ki, onlar anlasınlar ki, səkkiz il davam edən bu münaqişə onlara da bir şey verməyib və verməyəcəkdir. Bundan əl çəkmək, sülh danışıqları aparmaq lazımdır. Dediyim həmin üç elementdən ibarət olan prinsipləri də irəli sürmüşdüm.

Levon Ter-Petrosyan mənimlə görüşündə bildirdi ki, mən onlara qarşı çox sərt çıxış etdim, guya ona görə də o, həmin çıxışını etdi və izah verdi. Bilirsiniz ki, o, çıxışında belə bir fikir söylədi ki, guya Dağlıq Qarabağ Azərbaycanın tərkibində olsa, Dağlıq Qarabağdakı ermənilər daim soyqırımı təhlükəsi altında olacaqlar və onların təhlükəsizliyi təmin edilməyəcəkdir. Guya 1988-ci, 1989-cu, 1990-cı, 1991-ci illərdə Azərbaycanda ermənilərə qarşı soyqırımı olubdur və belə bir soyqırımı davam edə bilər. Bu sözlərinə görə mən ona etiraz etdim. O isə mənə izah etdi ki, mən onları təcavüzkar elan etdim, onlar da belə bir cavab vermək məcburiyyətində oldular. Ancaq mən ona dedim ki, mən Ermənistanın Azərbaycana hərbi təcavüz etdiyini həmişə demişəm və bu, yeni bir söz deyil.

Bir sözlə, Ter-Petrosyanla mənim görüşüm bir nəticəyə gətirmədi. O öz mövqeyində qaldı. Ancaq mən hiss etdim ki, o da Lissabon görüşünün nəticəsiz olacağından çox narahatdır.

Bir daha qeyd edirəm, bu məsələ ilə əlaqədar mənimlə olan danışıqlarda məni inandırmağa çalışırdılar ki, əgər mən bu sənədin qəbul olunmasının qarşısını axıradək alaramsa, bu, Azərbaycan üçün gələcəkdə çox mürəkkəb vəziyyət yaradacaq, Azərbaycan ATƏT-dən, bütün dövlətlərdən təcrid olacaqdır. Mən onsuz da bunu anlayırdım, bunu anlayaraq bu addımı atmışdım. Mən dəfələrlə demişdim ki, əgər 20-ci paraqraf çıxarılarsa, onda bilin ki, heç bir sənəd qəbul olunmayacaqdır. [127-128]

Mənim son saatlaradək belə qəti, kəskin mövqeyimi hiss edənlər, eyni zamanda sammitin sənədinin qəbul olunması üçün çalışanların şübhəsiz ki, hamısı mənə bir neçə alternativ variant təklif etdilər. Ancaq o variantlar cürbəcür idi, mən onları qəbul etmədim.

Nəhayət, sizə məlum olan bəyanat sammitin son iclasından yarım saat qabaq mənə təqdim olundu ki, ATƏT-in sədri ATƏT-in üzvlərinin, sammitin iştirakçılarının hamısının iradəsini ifadə edərək belə bir bəyanat verir və bu prinsipləri təsdiq edir. Beləliklə, bu, ümumi sənədə daxil olmasa da, ancaq ATƏT-in sənədi kimi qəbul olunacaqdır və görünəcəkdir ki, Ermənistandan başqa bütün dövlətlər bu prinsipləri müdafiə etdilər. Mənə Avropa Birliyi tərəfindən ayrıca müraciət oldu. Avropa Birliyinə daxil olan dövlətlər yığışıb danışmışdılar, onlar mənə müraciət etdilər ki, əgər mən buna razılıq versəm, onlar da həm ATƏT-in üzvü kimi bunu müdafiə edəcəklər, eyni zamanda Avropa Birliyi adından həmin prinsipləri müdafiə edəcəklər. Mən isə bildirdim ki, şübhəsiz, bunları real şəkildə görməliyəm, ondan sonra öz qərarımı qəbul edəcəyəm.

Dünən axşam Lissabon sammitinin son iclası televiziya ilə verilibdir, siz artıq o vəziyyəti görmüsünüz, mən bunu danışmaq istəmirəm. Məhz son iclasda yenə də mən sədrlik edən Portuqaliya baş nazirinin müraciətini qəbul etmədim və dedim ki, vetonu götürmürəm. Ondan sonra Amerika Birləşmiş Ştatlarının nümayəndəsi təşəbbüs etdi və dedi ki, əgər belə bir bəyanat verilsə necə? Mən də dedim ki, baxacağam, əgər belə bir bəyanat olsa, bəlkə də vetonu götürə bilərəm. Ermənistana təklif etdilər, lakin o, vetosunu götürmədi.

Nəhayət, sizə məlum olan bəyanat elan edildi. Bundan sonra isə mən vetonu götürdüm. Beləliklə, ATƏT-in sənədi qəbul olundu. Amma eyni zamanda Azərbaycan üçün çox əhəmiyyətli, çox dəyərli bir sənəd qəbul edildi.

Şübhəsiz ki, bu iclas ərəfəsində mənimlə çox görüşlər keçirilmişdir. Elə o iclas salonunda, onun qarşısında, otaqlarda hər bir dövlət başçısı bəyan edirdi ki, əgər mən buna razılıq versəm, onlar çıxış edəcək və bizi müdafiə edəcəklər. Ancaq bu çıxışların hamısına ehtiyac olmadı. Çünki artıq hər şey məlum idi.

ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti ATƏT üzvlərinin hamısının adından bu bəyanatı verəndən sonra, Minsk [128-129] qrupunun başçıları, – bunlar iki dövlətdir, Rusiya, bir də Finlandiya, – Rusiyanın nümayəndə heyətinə başçılıq edən cənab Çernomırdin çıxış etdi, hesab edirəm, çox yaxşı çıxış etdi; Finlandiyanın, yəni həmsədr olan o biri ölkənin prezidenti cənab Ahtisaari çıxış etdi. Avropa Birliyinə daxil olan 15 dövlət adından İrlandiyanın baş naziri çıxış etdi, Türkiyənin nümayəndəsi çıxış etdi. Hamı bunu dəstəklədi və beləliklə də bu sənəd qəbul olundu.

Bu sənəd sizə məlumdur. Ancaq bir daha sizə oxumaq istəyirəm:

"ATƏT-in fəaliyyət göstərən sədrinin bəyanatı.

Hamımız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində tərəqqi əldə olunmayıb.

Təəssüf edirəm ki, tərəflərin tənzimlənmənin prinsiplərinə dair fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün

Minsk konfransı həmsədrlərinin səyləri uğursuz olub.

Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını təşkil edəcək üç prinsip tövsiyə edilibdir. Həmin prinsiplər Minsk qrupunun üzvü olan bütün dövlətlər tərəfindən dəstəklənir. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə verən özünütəyinetmə əsasında Dağlıq Qarabağın razişlə müəyyən edilmiş hüquqi statusu;
- tənzimləmə müddəalarına bütün tərəflərin əməl etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir.

Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil olacaq".

Belə bir bəyanat verildi və Lissabon sammitinin belə bir sənədi əldə olundu. Mən hesab edirəm ki, bizim apardığımız işlər müsbət nəticə veribdir. Hesab edirəm ki, ATƏT-in belə bir sənədinin qəbul olunması Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün bizim istədiyimiz prinsiplərin, tək bizim istədiyimiz yox, ümumiyyətlə, bu məsələnin həlli üçün yeganə olan prinsiplərin təsdiq edilməsi, birinci [129-130] növbədə Azərbaycanın ərazi bütövlüyünün tanınması, ATƏT çərçivəsində bu sənəd ilk dəfə əldə olunubdur, – Dağlıq Qarabağa məhz Azərbaycanın tərkibində status verilməsi – bunlar bizim üçün çox əhəmiyyətlidir. Təsadüfi deyil ki, bu sənəd elan olunandan sonra Ermənistan prezidenti çıxış etdi və sənədə öz etirazını bildirdi. Hətta belə fikir söylədi ki, guya bu sənəd Helsinki yekun aktına və Budapeşt Zirvə görüşünün qərarlarına ziddir. Şübhəsiz ki, onun bu fikirləri doğru deyil, yanlışdır, ancaq hərə öz mövqeyindən çıxış edir.

Hesab edirəm ki, bundan sonra Minsk qrupunun səmərəli işləməsi üçün, Minsk qrupunda Azərbaycanın öz mövqelərini daha da etibarlı təmin etməsi üçün ATƏT-in Zirvə görüşünün belə bir sənədi bizdən ötrü çox böyük əsasdır. Mən bunu yüksək qiymətləndirirəm, hesab edirəm ki, bu, ATƏT tərkibində apardığımız işlər sırasında uğurlu bir addım, müsbət nəticədir. Bir də qeyd edirəm, bu bizim üçün gələcəkdə sülh danışıqlarını aparmağa yaxşı əsas verir və bu prinsiplər əsasında əldə olunması üçün irəliləməyə əsas verir.

Mən Lissabondakı nitqimdə də bildirmişdim, bu gün bir daha bəyan edirəm ki, Lissabonda çox gərgin, mürəkkəb, çox kəskin, çox münaqişəli, dramatik vəziyyət yaranmasına baxmayaraq və Ermənistanla Azərbaycanın mövqelərinin çox sərt toqquşmasına baxmayaraq, Azərbaycan yenə də öz sülhsevər siyasətini bəyan edir. Mən bu gün bir daha bəyan edirəm ki, biz ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş bu sənədi əsas tutacağıq, ona riayət edəcəyik, onun əsasında gələcəkdə öz fəaliyyətimizi quracağıq. Eyni zamanda atəşkəs rejimini qoruyub saxlayacağıq, Ermənistanla Azərbaycan arasında iki prezidentin xüsusi nümayəndələrinin apardıqları bilavasitə danışıqlar prosesini davam etdirəcəyik və Ermənistanla Azərbaycan arasında danışıqlar prosesini bərpa etmək üçün öz tərəfimizdən bütün addımları atacağıq.

Mən bir daha bəyan edirəm, – Lissabonda bunu prezident Ter-Petrosyana demişəm, ancaq bu gün mətbuat nümayəndələrinin qarşısında yenə də bəyan edirəm, – Azərbaycan heç vaxt Ermənistanın daxilində olan proseslərdən, hansısa fürsətdən istifadə edərək nə isə əldə etmək fikrində deyildir. Bu cür şayiələri, fikirləri mən tamamilə rədd edirəm. Ermənistanın daxilində gedən proseslər onun daxili işidir. Biz Ermənistanın daxili işinə qarışmırıq. Ermənistan öz daxili məsələləri ilə özü məşğul olur və güman edirəm ki, Ermənistanda daxili [130-131] sabitlik yaranacaqdır. Mən prezident Ter-Petrosyana dedim ki, bizim də daxilimizdə çox gərgin vəziyyətlər olmuşdur, ancaq mən heç vaxt bəyan etmədim ki, Ermənistan Azərbaycanın daxilində 1994-cü ildə, yaxud 1995-ci ildə yaranmış gərgin vəziyyətdən istifadə etməyə çalışıbdır – mən bunu heç yerdə bəyan etməmişəm. Ona görə də o bəyanatın da heç bir əsası yoxdur, mən onu təkzib etmişəm, bu gün də təkzib edirəm.

Bir də deyirəm, biz bu sənədə yüksək qiymət verərək çalışacağıq ki, onun əsasında bundan sonra da sülh prosesini davam etdirək və məsələnin sülh yolu ilə həllinə nail olaq.

Eyni zamanda Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zivə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik.

Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan münaqişəsi yaranandan indiyə qədər, bu səkkiz il müddətində Ermənistanın xarici ölkələrdə, xüsusən Avropada, Amerikada təbliğatı bizdən həmişə güclü olubdur. Onlar təbliğatda da güclü olublar və onları bu ölkələrdə dəstəkləyən erməni diasporu, lobbisi də çox iş görübdür. Onlara üstünlük verən ayrı-ayrı dövlət strukturları olub və bu gün də mövcuddur. Ona görə də, Azərbaycan təcavüz altında olduğu halda, təəssüf ki, bir çox ölkələrdə məsələ belə anlaşılıbdır ki, guya biz Dağlıq Qarabağı əzirik, sıxırıq və onlara öz hüquqlarını təmin etməyə imkan vermirik. Yəni, Ermənistan tərəfi, Ermənistanın özü və onun xaricdə olan havadarları bu təbliğatı elə qurublar ki, təəssürat bizim xeyrimizə yox, Ermənistanın xeyrinə yaranıbdır.

Ancaq Lissabon görüşündə belə bir münaqişəli vəziyyət yarandığına görə və xüsusən mən o sənədə veto qoyandan sonra hər bir dövlət, nümayəndə heyəti maraqlandı ki, axı, nə olub, nədir, məsələ nədən ibarətdir? Şübhəsiz ki, məsələni öyrənməyə, dərindən bilməyə çalışdılar. Məsələn, Portuqaliyanın baş naziri məhz son

saatda, Zirvə görüşünün son iclasına bir saat, yaxud saat yarım vaxt qalanda məni görüşə dəvət etdi. Mən ona vəziyyəti izah edərkən dedi ki, biz artıq hər şeyi bilirik, siz haqlısınız, ancaq gəlin, bu sammiti pozmayın və biz, Portuqaliya hökuməti də ev sahibi kimi pis vəziyyətdəyik.

Bir şeyi də qeyd etmək istəyirəm ki, mən o sənədə veto qoyandan sonra mənimlə aparılan danışıqlarda heç bir nüma[131-132]yəndə heyəti, heç bir dövlət başçısı buna görə mənə irad tutmadı. Hər bir kəs bildirdi ki, mənim bu addımım əsaslıdır, buna hüququm var. Nəinki hüququm var, əsasım da var. Yəni doğrudan da bu prinsiplər ümumi sənəddə olmalıdır. Biz çalışırıq ki, bu olsun. Ancaq konsensus prinsipi olduğuna görə bir dövlət, ATƏT-in bir üzvü veto hüququndan istifadə edib buna mane olur. Mən isə dedim ki, onda mənim də veto hüququm var, mən də bundan istifadə edirəm. Yenə də deyirəm, bunu heç kəs mənə irad tutmadı. Yalnız və yalnız mənə izah etməyə çalışırdılar, məndən xahiş edirdilər, mənə müraciət edirdilər ki, vetonu götürüm, çünki, bu, şübhəsiz, böyük beynəlxalq iflas ola biləcəkdi.

Dediyim fikrə bir də qayıdıram – Lissabon Zirvə görüşünün müsbət nəticələrindən biri də ondan ibarətdir ki, bu günlər bütün dünya ictimaiyyəti, dünyanın bütün informasiya orqanlarının – qəzetlərin, televiziya və radionun diqqəti Lissabona cəlb olunmuşdu – bu, təbiidir, çünki orada böyük bir beynəlxalq tədbir həyata keçirilirdi, o cümlədən xüsusən Ermənistan-Azərbaycan münaqişəsinə cəlb olunmuşdu. Dünya ictimaiyyətinin nəzər-diqqətinin bu problemə belə geniş cəlb olunması, eyni zamanda onların bu məsələnin həlli yollarını axtararaq problemi dərindən araşdırması, öyrənməsi nəticəsində biz Azərbaycanın haqlı olmasını dünyaya yaya bildik, təbliğ edə, nümayiş etdirə bildik. Hesab edirəm ki, bu da Lissabon Zirvə görüşünün Azərbaycana verdiyi müsbət nəticələrdən biridir.

Mən bu məlumatı sizə verərək bir də qeyd etmək istəyirəm ki, biz Lissabon Zirvə görüşündə əldə olunan sənəd əsasında bundan sonra da sülh danışıqları aparacağıq, məsələnin sülh yolu ilə həllinə çalışacağıq. Lazımdır ki, Azərbaycanın ictimaiyyəti, əhalisi bütün bu prosesləri dərindən dərk edə bilsin, tutduğumuz yolu dərk edə bilsin və biz də bundan sonra bu yolla daha da cəsarətlə gedə bilək. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ictimaiyyəti – Azərbaycan nümayəndə heyətinin Lissabon Zirvə görüşündəki fəaliyyətini layiqincə qiymətləndirəcəkdir və ictimaiyyət, xalqımız, millətimiz sülhsevər xalq kimi, məsələnin bundan sonra da sülh yolu ilə həllinə nail olunmasında bizə dəstək verəcəkdir.

Eyni zamanda məlumdur ki, məsələ həll olunmalıdır. Bir çox dövlət başçıları, o cümlədən, məsələn, Rusiyanın baş naziri cənab Çernomırdin də öz çıxışında bildirdi ki, bu sənəd qə[132-133]bul edildikdən sonra güclü danışıqlar getməlidir və 1997-ci ildə bu məsələ sülh yolu ilə həll olunmalıdır. Biz də belə fikirdəyik və mən bu fikirlərimlə də sizə verəcəyim məlumatı tamamlayıram. Diqqətinizə görə təşəkkür edirəm.

Mən suallara cavab verməyə hazıram. Buraya kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunublar. Ancaq görürəm ki, bizim ictimaiyyətin nümayəndələri fikir söyləmək üçün müraciətlər göndəriblər. Ona görə hesab edirəm ki, təkcə mən danışmayım, yaxşı olardı ki, imkan verim, yəqin, ictimaiyyətin nümayəndələrindən də kimsə söz demək istəyir. Fikirlərini desinlər, ondan sonra isə mən kütləvi informasiya orqanları nümayəndələrinin bütün suallarına cavab verməyə hazıram.

Mən bilirəm ki, burada Rusiyanın, digər ölkələrin kütləvi informasiya orqanlarının rusdilli nümayəndələri də iştirak edirlər. Ona görə də bu barədə rus dilində danışıb, sonra xahiş edəcəyəm ki, tərcüməçi ingilis dilinə tərcümə etsin.

İctimaiyyətin nümayəndələrindən bəziləri bu məsələ barədə öz fikirlərini söyləmək istədiklərini bildirmişlər. Hesab edirəm ki, onlara qısa danışmaq üçün imkan verək, sonra isə mən kütləvi informasiya orqanları nümayəndələrinin bütün suallarına cavab verməyə hazıram, özü də nəinki hazıram, həm də borcluyam.

## YEKUN SÖZÜ

Hörmətli xanımlar və cənablar!

Bugünkü görüş həm respublikamızın ictimaiyyətinə, həm də bütün dünyaya Azərbaycanın sülhsevər siyasətini bir daha nümayiş etdirdi. Bu görüş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə, sülh yolu ilə aradan qaldırılması haqqında Azərbaycan Respublikası prezidentinin fəaliyyətini bir daha dəstəklədi və müdafiə etdi. Bu görüş bizim bu mühüm məsələ ətrafında həmrəy, yekdil olduğumuzu bir daha sübut etdi. Ona görə də mən hesab edirəm ki, respublikamızın bütün ictimaiyyəti, xalqımız, vətəndaşlarımız Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar qəbul edilmiş sənədi dəstəkləyəcəklər və bu da bizim üçün, bundan sonra bu istiqamətdə hərəkət etməyimiz üçün daha da geniş imkanlar yaradacaqdır. [133-134]

Mən sizi bir daha əmin edirəm ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, respublikamızın sərhədlərinin toxunulmazlığını təmin etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerindən-yurdundan didərgin düşmüş, indi çadırlarda ağır vəziyyətdə yaşayan bacılarımızı, qardaşlarımızı öz evinə, obasına qaytarmaq üçün bundan sonra da əzmlə çalışacağıq və mən ümidvaram ki, biz buna nail olacağıq.

Bu gün buradakı görüşdə hökm sürən sağlam əhval-ruhiyyə, natiqlərin Azərbaycan dövlətinin siyasətini dəstəkləməsi və yolumuzun doğru-düzgün olması bizə daha da çox güc, inam verir. Əmin ola bilərsiniz ki, biz

bundan sonra da bu inamla, bu iradə ilə çalışacağıq və Azərbaycan Respublikasının müstəqilliyini göz bəbəyimiz kimi qoruyub saxlayacağıq.

## GÖRÜŞDƏN SONRA AZƏRBAYCANIN VƏ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BƏYANAT

Hörmətli xanımlar və cənablar, axşamınız xeyir olsun!

Bu gün ictimaiyyətin nümayəndələri ilə geniş söhbətimiz oldu, ona görə də mətbuat konfransının keçirilməsi bir balaca ləngidi və bu, xüsusən respublikamıza gəlmiş jurnalistlər üçün müəyyən qədər çətinlik yaratdı. Ümidvaram ki, siz bunu üzrlü səbəb sayacaqsınız. Lakin indi mən sizin qarşınızdayam və bütün suallarınıza cavab verməyə hazıram.

Doğrudur, mən azərbaycanca danışmışam, tərcümə olunmasa da güman edirəm ki, verdiyim məlumatla müəyyən qədər tanışsınız. Ona görə də hesab edirəm ki, xüsusi bir bəyanat verməyə ehtiyac yoxdur. Yəqin ki, sizi maraqlandıran və narahat edən suallara dərhal cavab versəm, daha yaxşı olar. Buyurun.

**Sual: Hörmətli cənab prezident, zaman Qarabağ probleminə yeni mövqelərdən yanaşmağı tələb edir. Təəssüf ki, bunu hamı başa düşmür və bəzi kütləvi informasiya vasitələrindən olan həmkarlarımız belə yazmışlar ki, Lissabonda Azərbaycan nümayəndə heyəti və Azərbaycan diplomatiyası guya məğlubiyyətə uğramışdır. Hörmətli cənab prezident, xahiş edi**[134-135]**rəm, bu görüşün yekunlarından və mühüm sənədlərin imzalanmasından danışasınız.**

**Cavab:** Lissabon Zirvə görüşünün yekunları haqqında bu gün azərbaycanca danışmışam. Təəssüflənirəm ki, danışdıqlarım tərcümə olunmadı. Buna baxmayaraq, sualınıza cavab verərək deyə bilərəm ki, əlbəttə, bizdə informasiya orqanları tamamilə müstəqildir və istədiklərini azad şəkildə yaza bilərlər. Lakin həqiqətdən uzağa getmək lazım deyildir.

Dövlət və hökumət başçılarının Lissabon görüşü bütövlükdə uğurla bitdi. Hesab edirəm ki, görüş Azərbaycan Respublikası üçün, Azərbaycan nümayəndə heyəti üçün də uğurla başa çatdı. Orada vəziyyət çox mürəkkəb idi. Azərbaycan çalışırdı ki, Lissabon Zirvə görüşünün yekun sənədində xüsusi maddə olsun və bu maddədə Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin dinclik1ə aradan qaldırılmasının əsas prinsipləri öz əksini tapsın. Bunlar Azərbaycan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində öz müqəddəratmı təyinetmə əsasında özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın, onun bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsipləridir. Layihədəki 20-ci maddə məhz bu prinsiplər nəzərə alınaraq tərtib edilmişdi. Lakin Ermənistan nümayəndə heyəti bu maddəni qəbul etmədi və öz veto, konsensus hüququndan istifadə edərək, onun qəbul olunmasına maneçilik törətdi. Hərçənd ki, bu maddə bizi də tam qane etmirdi. Buna baxmayaraq, biz belə hesab edirdik ki, əgər o qəbul edilərsə, onda bütün üç prinsip – ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağın yüksək özünüidarə muxtariyyəti və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat prinsipləri Lissabon Zirvə görüşünün yekun sənədində öz əksini tapacaqdır.

Lakin Ermənistan tərəfi öz vetosunu götürmədi. Onda biz bütün sənədə, yəni Lissabon Zirvə görüşünün bütün bəyannaməsinə veto qoyduq. Bu, dövlət və hökumət başçılarında çox böyük narahatlığa səbəb oldu. Ona görə ki, bu halda Zirvə görüşü hər hansı bir sənəd qəbul edilmədən başa çata bilərdi. Bizimlə çoxlu danışıqlar aparıldı. Bizə izah edirdilər ki, Zirvə görüşünün belə qurtarması arzuolunmazdır və çox kədərlidir. Bu zaman biz də öz mövqeyimizi izah edirdik. Axırıncı iclasa[135-136]dək, hətta dekabrın 3-də günorta iclas başlanana qədər sənəd, diplomatik dildə deyildiyi kimi, kvadrat mötərizələrdə qaldı. Yəni sənəd üçün Azərbaycan nümayəndə heyətinin konsensusu yox idi. Biz ona veto qoymuşduq.

Nəhayət, dövlət və hökumət başçılarının, müxtəlif nümayəndə heyətləri nümayəndələrinin bizimlə çoxsaylı görüşləri, danışıqları, söhbətləri və məsləhətləşmələri nəticəsində bizə alternativ variant, yəni artıq məlum olan və dərc olunan bəyanatı təklif etdilər – əgər Zirvə görüşünün bütün iştirakçıları, ATƏT-in üzvləri münaqişənin tənzimlənməsinin əsas prinsiplərini əks etdirən formulla razı olarlarsa, lakin Ermənistan veto qoyarsa, bu halda ATƏT-in qalan bütün üzvləri, – bu isə 53 və ya 54 dövlətdir, – bu barədə öz ümumi rəyini, ümumi iradəsini ATƏT-in indiki sədrinin xüsusi bəyanatında ifadə edə bilərlər. ATƏT-in indiki sədri təşkilatın bütün üzvləri adından çıxış edəcək və bu formul onun bəyanatında əks olunacaqdır.

Biz bunu məqbul saydıq və bununla yalnız axırıncı iclasın başlanğıcında bir şərtlə razılaşdıq ki, bu, qəbul edilsin. İclasda təşkilatın indiki sədrinin məhz bu cür bəyanatı oxunduqda biz öz vetomuzu götürdük və Lissabon Zirvə görüşünün ümumi sənədi qəbul olundu. Bununla da, biz Zirvə görüşünün sənədini aldıq, çünki orada qeyd olunmuşdur ki, bu bəyanat Lissabon Zirvə görüşünün sənədlərinə daxil edilir. Zirvə görüşünün bu sənədində Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının üç bənddən ibarət prinsipləri – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə verən özünütəyinetmə əsasında

Dağlıq Qarabağın sazişdə müəyyən edilmiş hüquqi statusu və Dağlıq Qarabağın, onun bütün əhalisinin təminatlı təhlükəsizliyi prinsipləri əks etdirilmişdir. Bəyanatda göstərilir ki, bu bəyanatı, Ermənistan istisna olmaqla, ATƏT-in bütün üzvləri dəstəkləyirlər və bu bəyanat ATƏT-in sənədlərinə daxil edilir. Biz həmin sənədlə geri qayıtdıq. Buna görə də kim necə istəyirsə, elə də hesab edir. Mən belə hesab edirəm ki, ATƏT bizim bu təşkilatda olduğumuz dövr ərzində və bu münaqişə ilə məşğul olduğu dövrdə biz ilk dəfə elə bir sənəd əldə etdik ki, burada Ermənistanla Azərbaycan arasındakı münaqişənin aradan qaldırılmasının əsas prinsipləri əks etdirilmişdir. [136-137]

**Sual: Hörmətli prezident, Siz Qafqazda və bütün dünyada sülh axtaran lidersiniz. Bunun ən bariz nümunəsi Lissabon Zirvə toplantısıdır. Qafqazda sülhün, əmin-amanlığın və sabitliyin bərqərar olması üçün Azərbaycan qonşu ölkələrə və digər türk dövlətlərinə nə ilə kömək edə bilər? Təşəkkür edirəm.**

**Cavab:** Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsi artıq səkkiz ildir davam edir. Ermənistan Azərbaycana hərbi təcavüz edibdir, torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur, bir milyondan çox Azərbaycan vətəndaşı bu işğal olunmuş torpaqlardan zorla çıxarılıbdır və indi çadırlarda ağır vəziyyətdə yaşayır. Biz 1994-cü ilin may ayında atəşi dayandırmışıq, 2 il 7 aydır ki, atəşkəs rejimi mövcuddur. Biz atəşkəs rejimini bundan sonra da davam etdirmək fikrindəyik. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Məsələni məhz sülh yolu ilə həll etmək üçün Lissabon Zirvə görüşündə bu sülh danışıqlarının əsas prinsiplərini əldə etmək istəyirdik ki, bu, tək bizim təklifimiz olmasın, həmin prinsiplər ATƏT-ə daxil olan dövlətlər üçün də məqbul olsun, yəni onlar bunu təsdiq etsinlər. Biz buna nail olduq. Biz bundan sonra da bu yolla getmək istəyirik. Mən bu gün artıq bəyan etmişəm və bir daha bəyan edəcəyəm ki, biz döyüşə yenidən başlamaq istəmirik, müharibə istəmirik. Biz tam sülh istəyirik. Hesab edirəm ki, biz bu münaqişəni həmin prinsiplər əsasında aradan qaldıra bilərik.

O ki qaldı başqa ölkələrdəki münaqişələrə, bəli, Qafqazda Gürcüstan-Abxaziya münaqişəsi var, Gürcüstan-Osetiya münaqişəsi var, yaxud da Qafqazda Çeçenistan-Rusiya münaqişəsi var, bir balaca zəif olsa da çeçeninquş münaqişəsi var. Bəli, Qafqaz bölgəsində bu münaqişələr var. Arzu edirəm ki, bu münaqişələrin hamısı sülh yolu ilə həll edilsin, müharibə olmasın, heç yerdə atəş olmasın. Biz həm öz münaqişəmizi, həm də qonşu ölkələrdəki münaqişələri sülh yolu ilə həll etmək üçün öz imkanlarımızdan bundan sonra da istifadə edəcəyik.

**Sual: Heydər Əliyeviç, Sizə sual verməzdən əvvəl demək istəyirəm ki, mən bu salonda bəlkə də yeganə adamam ki, Siz mənə borclusunuz. Bəli, dörd ildir ki, Siz mənə müsahibə borclusunuz. Biz Sizinlə Naxçıvanda söhbət edəndə mən Sizə dedim ki, vaxt gələcək,** [137-138] **xalq Sizi Bakıya çağıracaq. Siz onda gülümsədiniz. Mən isə dedim: Onda mənə müsahibə verərsiniz. Buraya da məhz ondan ötrü gəlmişəm. Mən mətbuat konfransından sonra Sizin qərarınızı gözləyəcəyəm.**

**Hələlik isə sualım belədir – sənədi imzalamaq, yoxsa imzalamamaq kimi ən faciəli, ən incə məqamda Siz Rusiya hökumətinin başçısı Viktor Çernomırdinin və xarici işlər naziri Yevgeni Primakovun münasibətini necə hiss etdiniz – bu, diplomatik nəzakət, yoxsa Sizin mövqeyinizin güclü şəkildə dəstəklənməsi demək idi?**

**Cavab:** Hörmətli Korsunski, ən əvvəl mən sizi Azərbaycanda salamlayır və şadam ki, siz respublikamıza gəlmisiniz. Söz yox ki, mən öz borcumu verəcəyəm və Siz məndən müsahibə alacaqsınız. Sizə minnətdaram ki, mənim üçün ağır dövrdə – 1990-cı və ya 1991-ci ildə, mən Naxçıvanda yaşadığım dövrdə siz həqiqətən Sankt-Peterburqdan Naxçıvana gəldiniz və mənimlə söhbət etdiniz. O dövrdə Naxçıvan blokadada idi, – yeri gəlmişkən, indi də blokadadadır, lakin bu gün ona kömək göstərməyə hər halda imkanımız var, – mən Moskvada və Bakıda məruz qaldığım təqiblərdən can qurtararaq oraya getmişdim və adi bir sakin kimi orada yaşayırdım. Yadımdadır, suallarınıza cavab verdim və sonra siz mənimlə müsahibəni "Ças pik" qəzetində dərc etdirdiniz. Mən sizə buna görə, həmçinin ona görə təşəkkür edirəm ki, siz söhbətimiz barəsində vicdanlı hərəkət etdiniz və hər şeyi dediyim kimi dərc etdirdiniz. Buna görə də mən sizinlə görüşməyə çox şadam. Güman edirəm ki, bu gün, ya da sabah sizinlə xüsusi olaraq. görüşəcəyəm.

İndi də sizin sualınız barədə. Deməliyəm ki, Rusiya nümayəndə heyətinə başçılıq edən Rusiya Federasiyasının baş naziri cənab Çernomırdin və Rusiyanın xarici işlər naziri cənab Primakov bu prosesdə çox fəal iştirak etdilər. Mən onlarla sammitdən əvvəl də, sammit zamanı da görüşdüm. Onlar mənim mövqeyimi başa düşdülər və ümumi sənədə konsensus verməməyimə rəğbətlə yanaşdılar. Lakin bununla yanaşı, digər nümayəndə heyətlərinin rəhbərləri kimi, onlar da çox narahat idilər ki, sammit sənəd qəbul edilmədən başa çata bilər. Bildiyiniz kimi Rusiya Minsk qrupunun həmsədridir, buna gö[138-139]rə də Rusiyanın üzərinə xüsusi məsuliyyət düşürdü. Həmçinin Minsk qrupunun həmsədri olan Finlandiya ilə birlikdə Rusiya Lissabon Zirvə toplantısı ərəfəsində Helsinkidə təklif irəli sürmüşdü və bu təklif sammitin yekun sənədinin 20-ci maddəsinin prinsipcə əsasını təşkil etmişdi. Lakin Ermənistanın veto qoyması nəticəsində bu maddə qəbul olunmadı. Alternativ qərar axtarmağa başlandıqda Rusiya nümayəndə heyəti, cənab Çernomırdin və cənab Primakov bu işdə çox yaxından iştirak etdilər və buna görə mən onlara minnətdaram.

Rusiya nümayəndə heyətinin başçısı, baş nazir cənab Çernormrdin ATƏT-in fəaliyyətdə olan sədrinin

Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanatı qəbul olunan zaman da çıxış etdi və zənnimcə, bu bəyanatı çox güclü dəstəklədi və əmin etdi ki, Rusiya bu münaqişənin aradan qaldmlmasT üçün hər şey edəcəkdir. Mən çox razıyam. Burada, sizin dediyiniz kimi, diplomatik nəzakət yox idi, real dəstək var idi.

**Sual: Bu gün Azərbaycanın dəqiq xarici siyasət strategiyası sayəsində Ermənistanın beynəlxalq meydanda təklənməsi artıq bir faktdır. Odur ki, Yuqoslaviya barəsində görülmüş tədbirin ATƏT çərçivəsində Ermənistan barəsində də həyata keçirilməsi, yəni Ermənistanın ATƏT forumlarında səs hüququndan məhrum edilməsi mümkündürmü?**

**Cavab:** Bilirsiniz ki, mən ATƏT-in adından danışa bilmərəm. Lakin şəxsən mən istəməzdim ki, Ermənistan barəsində belə qərar qəbul edilsin. Mən bu gün də, Lissabonda da bildirmişəm ki, biz hər halda Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı anlaşma yaratmaq istəyirik. Ermənistan nümayəndə heyətinin Lissabonda özünü destruktiv aparmasına baxmayaraq, ümidvaram ki, ATƏT-in fəaliyyətdə olan sədrinin bütün ATƏT üzvləri adından məlum bəyanatı qəbul edildikdən sonra artıq Ermənistanda düşünərlər və qarşılıqlı anlaşmaya nail olmağımız, danışıqlar prosesini daha da gücləndirməyimiz, əlbəttə, sammitin bəyanatında öz əksini tapmış üç prinsip əsasında gücləndirməyimiz üçün yəqin ki, müəyyən addımlar atacaqlar.

**Sual: Cənab prezident, Xəzəryanı dövlətlərin noyabrda Aşqabadda axırıncı görüşündə Xəzərin statusu haqqında qəti qərar yenə də qəbul edilmədi. Məni maraqlandıran budur ki, indi bu məsələnin həlli hansı mərhələdədir və statusun perspektivi necədir?** [139-140]

**Cavab:** Bilirsinizmi, Xəzər dənizinin statusu haqqında indi hər hansı bir qərar qəbul etmək son dərəcə çətindir. Hətta deyərdim ki, əslində qeyri-mümkündür. Xəzərin statusunu müəyyənləşdirmək məqsədi ilə hər hansı bir əsas işləyib hazırlamaq üçün cəhdlər göstərilir. Məsələn, mən hesab edirəm ki, buna çox vaxt, bəlkə də illərlə vaxt gedəcəkdir. Azərbaycanın mövqeyinə gəldikdə, biz onu noyabrın 12-də Aşqabadda Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin görüşü zamanı bildirmişik. Azərbaycanın və Qazaxıstanın mövqeyi eyni olmuşdur – biz Xəzərin təkindən, onun mineral resurslarından istifadə olunması üçün Xəzər dənizini sektorlara bölməyi təklif edirik. Digər üç ölkə – İran, Rusiya və Türkmənistan başqa variant təklif edirlər. Bu variant nəinki təkcə bizim üçün, hesab edirəm ki, prinsipcə məqbul deyildir. Buna görə də orada heç bir qərar qəbul edilmədi. Belə bir ümumi bəyanat verildi ki, nazirlərin görüşü oldu və onlar Xəzər dənizinin statusu problemləri barədə fikir mübadiləsi apardılar. Doğrudur, orada Rusiya, İran və Türkmənistan Xəzər dənizinin bu ölkələrə aid sahil sularındakı resurslardan istifadə olunması üçün müştərək şirkət yaradılması haqqında saziş imzaladılar. Biz buna etiraz etmirik, yarada bilirlər – qoy yaratsınlar.

**Sual: Cənab prezident, Azərbaycan NATO-nun üzvü olmaq niyyətindədirmi? Azərbaycan hansı təşkilatı regionda sabitliyin və sülhün təminatçısı, habelə bölgədəki mövcud regionlararası, millətlərarası münaqişələrin aradan qaldırılmasının təminatçısı hesab edir? Ermənistanla birbaşa dialoq barəsində Siz nə düşünürsünüz? Bu, mümkündürmü?**

**Cavab:** Birinci suala cavab olaraq deyim ki, biz 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramım imzaladıq və bu proqram çərçivəsində NATO ilə əməkdaşlıq edirik.

O ki qaldı ikinci sualınıza, yəni Azərbaycanın hansı təşkilatı sabitliyin və münaqişəni aradan qaldırmağın təminatçısı hesab etməsi barədə suala, bilirsinizmi, indi Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə həlli məsələsi müzakirə olunur. Bu məsələ ilə əlaqədar ATƏT-in və onun yaratdığı Minsk qrupunun, Minsk konfransının müvafiq tədbirləri həyata keçirilir. ATƏT Minsk konfransım 1992-ci ildə, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün xüsusi olaraq yaratmışdır. Biz belə hesab edirik ki, ATƏT-in Minsk qrupu, Minsk konfransı Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə nail olmaq üçün daha böyük imkanlara malikdir Buna görə [140-141] də biz ATƏT çərçivəsində Minsk qrupu ilə əməkdaşlığı davam etdirəcəyik, xüsusən də tənzimlənmənin əsas prinsiplərinin öz əksini tapdığı ATƏT bəyanatım, sənədini əldə etdikdən sonra. Əlbəttə, bununla yanaşı, biz danışıqlar prosesinin gedişinə müsbət təsir göstərmək üçün bütün beynəlxalq təşkilatlardan, o cümlədən BMT-dən, habelə başqa ölkələrə nisbətən buna daha böyük imkanları olan ABŞ, Rusiya kimi dövlətlərlə ikitərəfli münasibətlərimizdən də istifadə edəcəyik. Biz bu imkanlardan gələcəkdə də istifadə edəcəyik. Ancaq biz hesab edirik ki, indi ATƏT və Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün mühüm vasitədir.

Üçüncü sual ilə əlaqədar deyim ki, Ermənistanla Azərbaycan arasında bilavasitə dialoq, əlbəttə, kəsilməmişdir. Bu dialoqu Azərbaycan prezidentinin nümayəndəsi Vəfa Quluzadə və Ermənistan prezidentinin nümayəndəsi Libaridyan aparmışlar. Lissabonda prezident cənab Ter-Petrosyanla görüş zamanı da biz razılığa gəldik ki, bu dialoq fəal surətdə dayam etdirilsin. Yeri gəlmişkən, Ter-Petrosyan sammitin yekun iclasında da bu cür bəyanat vermişdir.

**Sual: Cənab prezident, Azərbaycanın Avropa Şurasına daxil olması haqqında danışıqlar indi hansı mərhələdədir?**

**Cavab:** Siz bilirsiniz ki, bizi oraya, özlərinin dediyi kimi, dəvət olunmuş qonaq, yaxud Avropa Şurasına namizəd kimi qəbul ediblər. Ümidvarıq ki, təxminən gələn ilin əvvəllərində Azərbaycan Avropa Şurasına qəbul ediləcəkdir.

**Sual: Bundan əvvəlki Zirvə toplantısında – Budapeştdə Ermənistanın mövqeyi indiki kimi sərt olmamışdır. O vaxtdan iki il keçmişdir və elə təsəvvür yaranır ki, indi bütün atəşkəs dövrü ərzində ən gərgin günlər başlayır. Sizcə, bununla əlaqədar Lissabon sammiti yekunlarının real əhəmiyyəti nədən ibarətdir və dəyişmiş vəziyyətdə Rusiyanın rolu necə ola bilər?**

**Cavab:** Bilirsinizmi, sammitin yekunu ondan ibarətdir ki, onun son, əsas sənədində münaqişədən bəhs olunmur, çünki 20-ci maddə Ermənistanın təkidi ilə çıxarılmışdır. Lissabon sammitinin daha bir sənədi var – bu, fəaliyyətdə olan sədrin sammit adından verdiyi bəyanatdır. Mən demişəm və təkrar edirəm, – bu yaxşı zəmindir və hesab edirəm ki, mühüm sənəd[141-142]dir. Bu sənəd tam sülhə nail olmaq, münaqişəni aradan qaldırmaq üçün Ermənistanla Azərbaycan arasındakı danışıqlarda yeni mərhələ açır. Çünki Ermənistan Minsk qrupu çərçivəsində görüşlər zamanı Azərbaycanın ərazi bütövlüyündən söhbət gedən formulu qəbul etməkdən boyun qaçırdı. Son vaxtlar onlar hətta o dərəcəyə çataraq bildirmişlər ki, Dağlıq Qarabağ öz müqəddəratını Azərbaycanın tərkibindən kənarda təyin edə bilər – aydın deyil ki, harada və necə. Ona görə də indi, Ermənistan istisna olmaqla, sammitin bütün iştirakçıları, ATƏT üzvləri bu bəyanata səs verdiyi bir vaxtda – özü də bu bəyanat qəbul edilərkən Amerika Birləşmiş Ştatlarının da, Rusiyanın da, Finlandiyanın da nümayəndələri çıxış edib bildirdilər ki, onlar bu bəyanatı dəstəkləyirlər və danışıqlar məhz onun əsasında aparılacaqdır, Avropa Birliyinin 15 ölkəsi adından İrlandiyanın baş naziri çıxış etdi və bu üç prinsipi dəstəklədiyini bildirdi, – bütün bunlar sülh danışıqlarının aparılması üçün tamamilə yeni səhifə, yeni mərhələ açır. Sammitdən sonra Ermənistan tərəfi öz mövqelərmi yenidən nəzərdən keçirib müəyyən dərəcədə dəyişməlidir. Ümidvaram ki, biz dialoqu davam etdirəcək və sülhə nail olmaq üçün bu prinsiplər əsasında daha intensiv danışıqlar apara biləcəyik.

Rusiyanın roluna gəldikdə, Rusiya Minsk qrupunun həmsədri olaraq qalır. Finlandiya Minsk qrupunda bundan sonra həmsədr olmayacaq və onun yerini başqa dövlət tutacaqdır. Rusiya isə həmsədr olaraq qalır. Buna görə də həm Minsk qrupunun həmsədri, həm də Zaqafqaziya bölgəsinə, Ermənistana və Azərbaycana çox yaxın münasibəti olan ölkə kimi Rusiya bu münaqişənin həllində, sülh əldə edilməsində, şübhəsiz, çox böyük rol oynaya bilər. Mən buna ümid bəsləyirəm.

**Sual: Hörmətli prezident, Lissabonda çətin mübarizəniz zamanı Sizə ən çox hansı ölkə dəstək verdi? Türkiyənin mövqeyini necə qiymətləndirirsiniz? Lissabon Zirvə toplantısının prinsiplərinə uyğun olaraq qarşıdakı illərdə Azərbaycan xalqı Türkiyədən nə kimi yardım gözləyir? Bir də, Siz nə üçün rusca danışırsınız?**

**Cavab:** Mən rusca verilən suallara rusca cavab verirəm, buna görə də siz gərək məni üzrlü hesab edəsiniz.

Mən sizə bildirmək istəyirəm ki, orada bizim mövqeyimizi, demək olar, bütün dövlətlər dəstəkləyirdilər. Ancaq aydındır [142-143] ki, bu problemlə birinci növbədə məşğul olan Minsk qrupunun dövlətləridir. Onların arasında Amerika Birləşmiş Ştatları da, Rusiya da, Türkiyə də, Almaniya da, Fransa da, Finlandiya da və başqa dövlətlər də var. Onların hamısı bizim mövqeyimizi dəstəkləyirdi. Başqaları da dəstəkləyirdi. Mən orada çox görüşlər keçirdim. Məsələn, ABŞ-ın vitse-prezidenti cənab Qor, Rusiyanın baş naziri cənab Çernomırdin, Almaniyanın xarici işlər naziri cənab Kinkel, Fransanın xarici işlər naziri cənab Erve de Şarett, Böyük Britaniyanın xarici işlər naziri cənab Rifkind və digər şəxslər – prezidentlər, baş nazirlər ilə görüşdüm. Ümumiyyətlə, biz çox görüşlər keçirdik. Türkiyənin cümhur başqanı, əziz dostum Süleyman Dəmirəl bizim bu məsələlərlə daim məşğul olur. Mən Lissabona gələn günü, yəni dekabrın 1-də Süleyman Dəmirəl ilə xüsusi görüş keçirdik. O məni Türkiyənin Lissabondakı səfirliyinə dəvət etdi. Orada biz bu məsələni də müzakirə etdik. Türkiyə bizim mövqeyimizi daim dəstəkləmişdir – keçmişdə də, Lissabonda da.

Biz Türkiyədən nə gözləyirik? Onu gözləyirik ki, Tiirkiyə bundan sonra da bizimlə birlikdə olsun, bizim yanımızda olsun. Türkiyənin cümhur başqanı Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də deyirlər ki, Azərbaycanın dərdi Türkiyənin dərdidir, Azərbaycanda güləndə Türkiyədə də gülürlər, Azərbaycanda kədərlənəndə Türkiyədə də kədərlənirlər. Bax, bu, doğrudan da, bizim dostluğumuzun, qardaşlığımızın prinsipidir. Biz dostluğumuzu məhz bu prinsip əsasında davam etdirəcəyik.

**Sual: Cənab prezident, Siz sammitin birinci günündə edilən çıxışdan sonra Levon Ter-Petrosyanla keçirdiyiniz görüşdən danışdınız. Sammitin əhəmiyyətini dərk edərək biz bu görüşün gedişini Portuqaliyadan peyk vasitəsilə birbaşa verilişdə izləyirdik. Sammit bitdi və bu zaman Sizin Ter-Petrosyanla kiçik bir dialoqunuz oldu. Maraqlıdır, bu zaman nə danışdınız? Sualımın davamı olaraq soruşmaq istəyirəm: Sizə elə gəlmirmi ki, diplomatiyanın güclü və ya zəif olması praktikası diplomatiya arxayınçılığına gətirib çıxarır? Çox sağ olun.**

**Cavab:** Siz sammit bitəndən sonra Ter-Petrosyanla olan görüşümüzümü deyirsiniz? Bəli, həmin dialoq ondan ibarət oldu ki, biz bir gün əvvəl danışmışdıq və danışığımızın sonunda prezident Ter-Petrosyan da, mən də bəyan etdik ki, bir-birimizə qarşı sərt çıxışlarımıza baxmayaraq, biz danışıqlar [143-144] prosesini davam etdirəcəyik – Minsk qrupu çərçivəsində danışıqlar aparacağıq və birbaşa danışıqlar da davam etdiriləcəkdir. Həmin bir neçə saniyəlik görüşümüz də bunun təsdiqinə həsr olunmuşdu.

O ki qaldı diplomatiyanın güclü və ya gücsüz olmasına, bilirsinizmi, bunlar bir növ nəzəri fikirlərdir. Mən buna vaxt itirmək istəmirəm.

**Sual: Siz MDB-nin gələcəyini necə görürsünüz?**

**Cavab:** Mən MDB-ni indikindən daha təsirli birlik kimi görmək istərdim. Ona görə ki, MDB onu görmək istədiyimiz səviyyəyə hələ gəlib çıxmamışdır. Dünyada nümunə ola biləcək misallar var. Məsələn, Avropa Birliyi, digər ittifaqlar. Elə etmək lazımdır ki, MDB-nin fəaliyyətində qarşılıqlı münasibətlərdə demokratik prinsiplər üstünlük təşkil etsin. Gərək MDB öz fəaliyyətinin üstün istiqamətlərini müəyyənləşdirsin, ayrı-ayrı sahələrə səpələnməsin. Aydındır ki, MDB öz təşəkkül dövrünü yaşayır və bu dövrdə qarşıya olduqca çoxlu çətinlik çıxır. Onu da nəzərə almaq lazımdır ki, MDB öz müstəqilliyini yenicə əldə etmiş olan ölkələrdən ibarətdir. Hər ölkənin öz problemləri var, xüsusən də iqtisadi-sosial sahədə. Odur ki, belə bir şəraitdə MDB-nin, məsələn, Avropa Birliyi səviyyəsində olması barədə düşünmək sadəlövhlük olardı. Görünür, illər, bəlkə də çox-çox illər gərəkdir ki, biz bu səviyyəyə gəlib çataq. Lakin biz buna nail olmağa çalışmalı, bu yolla getməliyik. Misal üçün, Azərbaycan bunu istəyir.

**Sual: Hörmətli prezident, iki ildən sonra ziyarət etdiyim Azərbaycan həqiqətən çox böyük nailiyyətlər əldə etmişdir. Buna neftdən əldə olunacaq gəliri də əlavə etsək, görərik ki, gələcəkdə Azərbaycanı daha böyük uğurlar gözləyir. Sualım belədir – boru kəmərləri ilə neft nə vaxt axacaq? Azərbaycan neftdən gəliri nə vaxt götürməyə başlayacaq? Təşəkkür edirəm.**

**Cavab:** Əvvəla, təşəkkür edirəm ki, siz iki il bundan öncə gördüklərinizi indi müqayisə edərək ədalətli olaraq, Azərbaycanda baş vermiş dəyişiklikləri görmüsünüz və bu barədə öz sözlərinizi dediniz. Təşəkkür edirəm. Ona görə ki, bəzən ölkəmizə gələn bir para adamlar vəziyyəti düzgün qiymətləndirə bilmirlər. İkincisi, öz ölkəmizin daxilində elə adamlar var ki, onlar müxalifətdə olduqlarına görə Azərbaycanda baş verən hər şeyi qara eynəklə görürlər və hər bir şeyi də pis qiymətləndirirlər. Odur ki, bu müsbət qiymətinizə görə sizə təşəkkürümü bildirirəm. [144-145]

Azərbaycanda iqtisadiyyat sahəsində baş vermiş dəyişikliklər doğrudan da mövcuddur. Bunlar Azərbaycanın yeritdiyi iqtisadi siyasətin, iqtisadi islahatlar aparılmasının, özəlləşdirmə prosesinə başlanmasının, torpaq islahatının həyata keçirilməsinin, torpağın şəxsi mülkiyyətə verilməsi haqqında qanun qəbul olunmasının, idxal-ixrac prosesinin liberallaşdırılmasının və ümumiyyətlə, iqtisadiyyatda liberallaşdırma prosesinin nəticəsidir.

Şübhəsiz ki, biz Azərbaycanın qapılarım açaraq xarici şirkət və firmaları ölkəmizə dəvət edirik. Ola bilsin ki, keçən illərdə sabitlik olmadığından Azərbaycana o qədər də etibar etmirdilər və çoxları da gəlmirdi. Artıq son iki ildə Azərbaycanda tam sabitlik var və bunu da xarici ölkələrin şirkətləri görür, nəticədə Azərbaycana qoyulan investisiyalar gündən-günə artır. Söz yox ki, bunlar bizim imzaladığımız neft müqavilələri ilə əlaqədar qoyulan investisiyalardır. Güman edirəm ki, bizim neft müqavilələrimiz vaxtında həyata keçirilir. Bir-iki ay bundan öncə mən bu barədə məlumatı dinlədim. Mənə verilən hesabat göstərir ki, nəzərdə tutulan proqram vaxtında həyata keçirilir. Biz heç bir şeydə gecikmirik. Azərbaycandan nefti ixrac etmək üçün Rusiyadan keçən boru kəməri bu ilin sonunda hazır olacaq. 1998-ci ilin sonunda isə Azərbaycandan Qərbi Gürcüstan ərazisi ilə Qara dənizin Supsa limanına gedən boru kəməri çəkilib başa çatdırılacaqdır. Bu boru kəmərinin inşasına 1997-ci ildə başlanacaqdır. Biz böyük boru kəməri barədə də düşünürük. Güman edirəm ki, 1997-ci ildə bu barədə qərar qəbul olunacaqdır.

Mən bilirəm, Türkiyə ictimaiyyəti maraqlanır ki, Bakı-Ceyhan boru kəməri olacaqmı? Mən istəyirəm ki, bu olsun və bunun üçün də çalışıram.

**Sual: Cənab prezident, iki il bundan qabaq ağayi Həsənovla mənim müsahibəm oldu. O bildirdi ki, Azərbaycanın həm daxili, həm. də xarici siyasəti Azərbaycanın neftindən asılıdır. İndiki vəziyyətdə Azərbaycanın daxili siyasətində də, xarici siyasətində də birinci məsələ Qarabağ problemidir. Sizin fikrinizcə, Xəzər nefti Qarabağ probleminin həllinə nə dərəcədə kömək edəcək?**

**Cavab:** Mən bilmirəm, kim sizə deyib ki, Azərbaycanın daxili və xarici siyasəti Azərbaycan neftindən asılıdır. Deyirsiniz ki, bunu Həsənov bildirib? Mən belə hesab etmirəm, Hə[145-146]sənov da belə hesab etmir. Bizim xarici və daxili siyasətimiz heç bir şeydən asılı olmayan, Azərbaycan Respublikasının milli mənafelərini qoruyan, Azərbaycanın dövlət müstəqilliyini təmin edən, Azərbaycanı Dünya Birliyində bərabər hüquqlu dövlət etməyə yönəldilən bir siyasətdir.

Daxili siyasətimiz Azərbaycanda demokratik hüquqi dövlət qurmaqdır, demokratik prinsipləri inkişaf etdirmək, bərqərar etmək, insan azadlığım, söz azadlığını, mətbuat azadlığını, vicdan azadlığını təmin etməkdir. Bunlar daxili siyasətimizdir və eyni zamanda iqtisadi islahatlar aparmaq, özəlləşdirmə proqramını həyata keçirmək, torpaq islahatı keçirmək, torpağı şəxsi mülkiyyətə vermək və beləliklə də bu iqtisadi islahatlarla Azərbaycanın iqtisadiyyatmı canlandırmaqdır. Azərbaycanın böyük iqtisadi potensialı var. Hesab edirəm ki, Azərbaycanda torpaq islahatı başa çatdırılsa, – bunun üçün 2-3 il lazımdır, – Azərbaycanın təbiəti, ümumi torpaqları çox böyük məhsul verəcək və iqtisadiyyatımızın böyük bir hissəsini təşkil edəcəkdir. Azərbaycan həmçinin böyük sənaye potensialına malikdir. Özəlləşdirmə həyata keçirildikdən sonra Azərbaycanın sənaye potensialı yeni bir mərhələyə qədəm qoyacaqdır. Bunun özü də böyük bir nəticə verəcəkdir. Gələcəkdə neft sənayesindən əldə edəcəyimiz nailiyyətləri də bunun üstünə əlavə edim. Bütün bunlar həm daxildə Azərbaycanın sosial-iqtisadi vəziyyətini xeyli yaxşılaşdıracaqdır, həm də xarici ölkələrlə ticarət əlaqələri üçün,

iqtisadiyyatımızı dünya iqtisadiyyatına bağlamaq üçün şərait yaradacaqdır.

O ki qaldı Qarabağ məsələsinin həllinə neftin nə dərəcədə kömək edə bilməsinə, ola bilər, kömək edə bilsin. Amma bunları bir-birinə bilavasitə bağlamaq olmaz.

**Sual: Ermənistan ərazisində Rusiya hərbi bazalarının yerləşdirilməsi haqqında saziş bağlanmışdır. Bu saziş çox uzun müddət nə Rusiya Dövlət Duması tərəfindən, nə də Ermənistan parlamenti tərəfindən təsdiq edilməmişdir, dünən Ermənistanın konstitusiya məhkəməsi bu sazişin Ermənistan konstitusiyasına müvafiqliyi barədə vaxtından əvvəl qərar çıxarmış və onun təsdiq olunmasını tövsiyə etmişdir. Siz burada Lissabon sammitinin hər hansı bir nəticəsi olduğunu görürsünüzmü? Təşəkkür edirəm.**

**Cavab:** Verdiyiniz məlumata görə sizə təşəkkür edirəm. Mən bunu bilmirdim. Bəlkə də müəyyən bir qarşılıqlı [146-147] əlaqə var. Mən bunu bilmirəm. Mən prinsipcə hesab etmişəm və edirəm ki, Rusiya Federasiyasının Zaqafqaziya ərazisində, xüsusən Ermənistanda hərbi bazalarının olmasına heç bir lüzum yoxdur. Onlar nəyə gərəkdir, – mən başa düşmürəm. Məsələn, mən hesab edirəm ki, bu tamamilə lazım deyildir. Əgər Ermənistan saziş bağlayıb onu indiyədək təsdiq etməmişdirsə, dünən isə konstitusiya məhkəməsi sazişin təsdiqlənməsi barədə rəy vermişsə, bu, Ermənistanın daxili işidir. Mən Zaqafqaziya ərazisində Rusiya Silahlı Qüvvələrinin yerləşdirilməsinin prinsipcə əleyhinəyəm.

**Sual: Möhtərəm prezidentimiz, Lissabon sammitində Azərbaycan nümayəndə heyəti nə mümkünsə, ona nail oldu, Budapeşt sammiti ilə müqayisədə irəliyə doğru önəmli addım atdı. Lakin bu dəfə də ermənilər Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyindən düzgün nəticə çıxarmadılar. Bir sözlə, Dağlıq Qarabağa yüksək status verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat onları razı salmır. İndi hamını bir məsələ düşündürür: Bundan sonra ermənilərlə sülh danışıqları hansı yöndə aparılacaqdır?**

**Cavab:** Elə həmin yöndə aparılacaqdır. Yəni Azərbaycanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək status verilməsi prinsipləri Lissabon sammitində ATƏT-in üzvü olan dövlətlər tərəfindən dəstəklənib, qəbul edilibdir. Biz danışıqları da bu prinsiplər əsasında aparacağıq.

**Sual: Möhtərəm prezident, Sizdən əvvəlki dövlət rəhbərləri Dağlıq Qarabağla bağlı keçirilən beynəlxalq görüşlərdə heç bir müsbət nəticə əldə edə bilməmişlər. Siz hələ Naxçıvanda blokada şəraitində olarkən Jeleznovodsk danışıqlarının uğursuz nəticələrini xalqa açıqlamışdınız. Siz dövlət rəhbəri olduqdan sonra bütün qüvvənizi Dağlıq Qarabağda sülh əldə olunmasına və Azərbaycanın ərazi bütövlüyünün qorunmasına sərf edirsiniz. Atəşkəs və Lissabondakı qələbə buna bir daha sübutdur. Cənab prezident, Lissabon Zirvə toplantısından sonra Azərbaycan xalqı Sizin siyasi müdrikliyiniz sayəsində hansı qələbəni gözləyə bilər? Çox sağ olun.** [147-148]

**Cavab:** Bilirsinizmi, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Məsələnin sülh yolu ilə həll olunmasına "qələbə" sözü o qədər də uyğun deyildir. Qələbə adətən vuruşlarda, döyüşlərdə olur, kimsə kiməsə qalib gəlir. Ancaq məsələni sülh yolu ilə həll etmək üçün danışıqlar lazımdır, qarşılıqlı razılıq lazımdır, bir-birinə müəyyən güzəştlərə getmək lazımdır, müəyyən kompromislər lazımdır. Biz məhz belə halda, bu yolla sülh əldə edə bilərik. Sülhün əldə edilməsi heç kəsin qələbəsi deyildir – nə Azərbaycan tərəfinin, nə də Ermənistan tərəfinin. Bu, ümumi qələbədir. Sülh Azərbaycan üçün o deməkdir ki, Azərbaycanın işğal olunmuş əraziləri Ermənistan silahlı qüvvələrindən təmizlənməli, o silahlı qüvvələr oradan çıxarılmalı, didərgin düşmüş vətəndaşlarımız Azərbaycanın işğal olunmuş torpaqları təmizləndikdən sonra öz yerlərinə qayıtmalıdırlar. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi bağlanmalı, bir-birinə qarşılıqlı inam yaranmalı, bir-birinə olan düşmənçilik, ziddiyyətlər aradan götürülməlidir, keçmiş əlaqələrimizi bərpa etməliyik. Yaralarımız nə qədər dərin olsa da, itkilərimiz nə qədər çox olsa da, bu itkilər bizə nə qədər ağır olsa da, biz irəliyə baxmalıyıq. Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri saxlamaq olmaz. Mən bunu Lissabonda prezident Ter-Petrosyanla görüşdə ona da bildirdim və dedim: Əgər siz düşünürsünüz ki, Azərbaycanla Ermənistan daim düşmən olacaq – bu, mümkün deyil, belə olmayacaqdır. Zaman keçəcək, biz sülh əldə edəcəyik, qonşuluq münasibətlərimiz, ticarət və iqtisadiyyat sahəsində əlaqələr bərpa olunacaqdır. Bu, həm Ermənistan, həm də Azərbaycan vətəndaşlarının, həm erməni xalqının, həm də Azərbaycan xalqının rifahı naminə olacaqdır.

Bu yolla getdikdə, şübhəsiz, qələbədən söhbət ola bilməz. Burada söhbət qarşılıqlı razılıqdan gedir. Biz bu yolla gedəcəyik.

**Sual: Son vaxtlar Qafqazdakı bütün münaqişə ocaqlarında prezident seçkiləri keçirilməsinə cəhd göstərilir, o cümlədən də qondarma "Dağlıq Qarabağ Respublikası"nda. Sizcə, bu, təsadüfdür, yoxsa hansısa böyük məqsədyönlü siyasətin tərkib hissəsidir?**

**Cavab:** Bilirsinizmi, buna birmənalı cavab vermək mümkün deyildir – bu, təsadüfdür, yaxud da məqsədyönlü siyasətin nəticəsidir. Ola bilər, təsadüf də var, ola bilər, məqsədyönlü bir siyasətdir. Bunun o qədər də böyük əhəmiyyəti yoxdur. [148-149]

**Sual: Əgər Ermənistan ATƏT-in Lissabon sammitinin yekun bəyannaməsinə əlavə edilmiş bəyanatın prinsiplərinə tabe olmasa, onda Azərbaycan hökuməti nə kimi tədbirlər görəcəkdir?**

**Cavab:** Bilirsinizmi, Ermənistan hətta sammitin iclasında da bəyanat elan olunduqdan sonra onun əleyhinə

çıxdı. Odur ki, Ermənistan bu bəyanata öz münasibətini bildirmişdir. Buna görə də biz Ermənistanın bu bəyanata tabe olacağını çətin ki, gözləyək. Lakin Ermənistan yaranmış gerçəkliklə hesablaşmaya bilməz. Axı bu bəyanatda göstərilmişdir ki, onu Minsk qrupunun bütün üzvləri və sammitin bütün iştirakçıları – ATƏT-in üzvləri dəstəkləyirlər. Əlbəttə, Ermənistan veto hüququndan istifadə edə bilərdi. Amma həmişə hamıya qarşı çıxış etmək onlar üçün yaxşı hal deyildir. Ermənistan bunu nəzərə almalıdır.

**Sual: Möhtərəm prezident, vaxtınızı çox alsam da, bu münaqişədən ən çox zərər çəkmiş əhalinin mətbu orqanının – "Qarabağ" qəzetinin nümayəndəsi kimi bir neçə qısa və konkret sual verəcəyəm. Birinci sualım Lissabon sammiti ilə bağlıdır, yəni xalq, ayrılıqda götürsək qarabağlılar bu Zirvə toplantısına böyük ümidlər bəsləyirdilər. İkinci sualım: Atəşkəsin uzanması bu münaqişənin Fələstin – İsrail münaqişəsinə yaxınlaşmasına zəmin yaratmırmı? Azərbaycan tərəfi güzəştlərə getdikcə, güzəştlərin sayını artırdıqca Ermənistan tərəfinin öz tələblərini daha da sərtləşdirməsini necə izah edə bilərsiniz və sərtləşmiş tələblərlə, yəni bizim güzəştlərimizlə barışmayan Ermənistanla danışıqlara getməyə dəyərmi? Üçüncü sualım sırf iqtisadi məsələlərlə bağlıdır. Azərbaycanda özəlləşdirmə prosesi artıq başlanmış və davam edir, eşitdiyimizə görə, aldığımız məlumatlara görə, 1997-ci ilin yanvarından vauçerlər paylanacaqdır. Bu baxımdan qaçqın əhali özəlləşdirmədən nə əldə edəcəkdir – itirilmiş torpaqları, dağıdılmış evləri, ləğv edilmiş mülkiyyəti və daha nəyi? Sağ olun.**

**Cavab:** Mən artıq dedim ki, Lissabon sammitində əldə olunmuş sənəd Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün yeni bir mərhələ açır. Bir daha təkrar edirəm, çünki bu sülh danışıqlarım aparmaq üçün əsas prinsiplər [149-150] müəyyən olunub və onlar o sənəddə öz əksini tapıbdır. Ona görə də hesab edirəm ki, Lissabon sammiti bizi bu məsələnin həllinə daha da yaxınlaşdırıbdır.

İkinci sualınıza cavab verirəm. Siz dediniz ki, guya məsələnin uzanması Fələstin – İsrail münaqişəsi vəziyyətinə gətirib çıxara bilər və biz güzəştlərə getdikcə Ermənistan da öz tələblərini sərtləşdirir. Əvvəla, demək istəyirəm ki, biz heç bir güzəştə getməmişik. Kimsə hesab edirsə ki, biz güzəştlərə getmişik, o, səhv edir. Təklif etdiyimiz üç elementdən ibarət formul əsla güzəşt deyil. Bu, Azərbaycanın mənafelərini tamamilə təmin edən bir formuldur. O ki qaldı məsələnin uzanmasına, məsələ nə qədər tez həll edilsə, şübhəsiz, bir o qədər yaxşı olar. Amma məsələnin uzanmasının da obyektiv səbəbləri var. Əgər vaxtilə Dağlıq Qarabağdan azərbaycanlılar çıxmasaydılar və rayonlarımız işğal edilməsəydi, şübhəsiz, münaqişəni daha asanlıqla aradan qaldırmaq mümkün olardı. Belə vəziyyət isə danışıqlar prosesini çox mürəkkəbləşdiribdir. Amma mən hesab edirəm ki, biz düz yoldayıq və məsələni də məhz bu yolla həll edə bilərik.

Özəlləşdirmə haqqında. Özəlləşdirmə iqtisadiyyatımızı canlandırmaq üçün əsas yoldur. Məlumdur ki, işğal olunmuş torpaqlardakı əmlakımız erməni işğalçılar tərəfindən tamamilə dağıdılıbdır. Ancaq o torpaqlar azad edildikdən sonra onların bərpası üçün xaricdən çox böyük kömək alacağıq. Bunun üçün beynəlxalq təşkilatlar, Ümumdünya Bankı bizə böyük vədlər veriblər. Bunun sayəsində həmin ərazilərdə hər şey bərpa ediləcək və insanlar öz yerlərinə qayıdacaq, orada olan öz əmlakından istifadə edəcəklər.

Vauçerlər isə yaşayış yerindən asılı olmayaraq, qaçqınlığından və ya öz daimi yerində yaşamasından asılı olmayaraq Azərbaycan əhalisinin hamısına veriləcəkdir. Hamı vauçerlərdən istifadə edəcəkdir, özü də hamı eyni hüquqla.

**Sual: Siz Qafqazda əmin-amanlıq və sabitlik olmasının vacibliyini ATƏT-in Zirvə toplantısından əvvəl də, bu görüş zamanı da daim vurğulamısınız. Sizin bu istəyiniz Türkiyə xalqı tərəfindən də dəstəklənir. Siz Lissabona gedərkən Türkiyədə bir nəqliyyat qəzası baş verdi. Mətbuatın yazdığına görə, qəza zamanı sabiq baş nazir, indiki xarici işlər naziri Tansu Çillərin əhatəsindən olan Abdulla Çatlı adlı birisi həlak olmuşdur. Bu adam Qafqazda, ən əvvəl Azərbaycanda [150-151] bir sıra təxribatlar törətmişdir. Siz Abdulla Çatlının Azərbaycanda fəaliyyəti barədə hər hansı məlumata maliksinizmi?**

**Cavab:** Abdulla Çatlı da, onunla bağlı olan əhvalatlar da mənə məlum deyildir. Əgər Türkiyədə belə. bir məlumat varsa və Abdulla Çatlı dediyiniz adam Azərbaycanda bir iş görübsə, yəni onun burada bir suçu varsa, mən sizdən də, bütün Türkiyədən də rica edərdim ki, araşdırıb bizə bir məlumat verəsiniz. Bir şey məlumdur ki, sizin televiziyada və "Hürriyyət" qəzetində Fərman Dəmirqol adlı birisi bəyanatlar veribdir. O, Azərbaycanda həqiqətən bir neçə il yaşamışdır. Azərbaycanda Xalq Cəbhəsi iqtidarda olan zaman onu parlamentdə işə götürmüşdülər. Sonra isə burada 1995-ci ilin mart ayında Xüsusi Təyinatlı Polis Dəstəsi tərəfindən dövlət çevrilişinə cəhd göstərilmişdir. O dəstənin başçısı Rövşən Cavadov idi. Həmin dövlət çevrilişi cəhdində Fərman Dəmirqol da iştirak etmişdir. Dəmirqol bu işdə suçludur. Ona görə də yaxşı olardı ki, o öz günahından danışsın.

**Sual: Türkiyədə həm hökumət, həm də ictimaiyyət Azərbaycanda baş verən hadisələri çox yaxından izləyir. Siz söylədiniz ki, Lissabon toplantısında Türkiyə Qarabağ məsələsində Azərbaycanı dəstəklədi. Lakin Türkiyədə belə fikirlər də var ki, Türkiyənin bəzi siyasi dairələri Azərbaycanda daxili siyasi çəkişmələrə qarışırlar. Bu xəbərlər Azərbaycanda necə qarşılanır?**

**Cavab:** Türkiyə ilə Azərbaycan arasında, dövlətlərimiz və xalqlarımız arasında çox gözəl dostluq və qardaşlıq əlaqələri var. Mən bu əlaqələrin bundan sonra daha da genişlənməsini və daha da güclənməsini istəyirəm. Bilirəm ki, Türkiyənin dövlət və hökumət başçıları da, xüsusən cümhur başqanı, əziz dostum Süleyman Dəmirəl də mənimlə eyni fikirdədirlər. Dediyiniz kimi, Türkiyənin ayrı-ayrı siyasi dairələrinin

Azərbaycanın daxili işlərinə qarışması, şübhəsiz, yararsız bir şeydir. Belə olmamalıdır. Həmin Fərman Dəmirqolun və onunla əlaqədar olan bəzi məmurların gördükləri iş orada məlumdur. O siyasi dairələr bilməlidirlər ki, Azərbaycanın daxili işlərinə qarışmaq olmaz.

**Sual: Türkiyə bütün bu dövlət çevrilişi cəhdləri ilə bağlı hadisələri çox diqqətlə izləmişdir. Belə bir məlumat var ki, Siz bu dövlət çevrilişi cəhdi barədə Danimarkada olarkən Süleyman Dəmirəldən xəbər** [151-152] **tutmuşdunuz. Əvvəla, bu, belədirmi? İkincisi, Siz dediniz ki, Fərman Dəmirqol dövlət çevrilişi cəhdlərində iştirak etməkdə təqsirləndirilir. Amma o, Türkiyəyə xüsusi təyyarə ilə göndərilmişdir. Nə üçün o, məsuliyyətə cəlb edilməmişdir?**

**Cavab:** Doğrudur, Türkiyənin cümhur başqanı, hörmətli Süleyman Dəmirəl Azərbaycanda belə bir qəsdin hazırlanması barədə mənə məlumat vermişdi. Lakin o vaxt mən bilmirdim ki, bu qəsddə Fərman Dəmirqol və digər Türkiyə vətəndaşları da iştirak edirlər. Qəsdin qarşısı alındıqdan sonra Fərman Dəmirqolu biz həbs etdik. Amma o Türkiyə vətəndaşı olduğuna görə biz onu Türkiyəyə təhvil verdik.

**Sual: Bu, Azərbaycan-Türkiyə münasibətlərinə necə təsir göstərir?**

**Cavab:** Bunların heç birisi əlaqələrimizə, Azərbaycan-Türkiyə əlaqələrinə heç bir təsir göstərə bilməz. Əlaqələrimiz sarsılmazdır. Ona görə də belə kiçik işlər bizim böyük işlərimizə mane ola bilməz.

**Sual : Hörmətli prezident, bir az öncə Ciz Fərman Dəmirqolun suçlu olduğunu söylədiniz. Onun günahkar olduğu barədə dəlil-sübut varmı?**

**Cavab:** Bəli, onun suçlu olması haqqında Türkiyənin müvafiq orqanlarına lazımi məlumatlar verilibdir.

**Sual: Hörmətli prezident, biz Amerika-Azərbaycan əlaqələrini diqqətlə izləyirik. Sizinlə ABŞ prezidenti Bill Klinton arasında telefon söhbətləri, məktub mübadiləsi olur. Aranızda sıx bir təmas var. Bill Klintonun yenidən prezident seçilməsindən sonra onun siyasətində, daha doğrusu, ABŞ-ın siyasətində yeni bir mərhələ olacaqmı, Amerikanın Azərbaycanı dəstəkləməsi davam edəcəkmi?**

**Cavab:** Mən Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarının əlaqələrinin çox yüksək səviyyədə olduğunu bildirmək istəyirəm. Biz bu əlaqələrimizi bundan sonra da davam etdirəcəyik. Mən cənab Bill Klintonun yenidən prezident seçilməsindən çox məmnunam. Çünki onunla bizim aramızda şəxsi əlaqələr yaranıbdır. Mən hesab edirəm ki, o, yenidən öz prezidentlik fəaliyyətinə başladıqdan sonra əlaqələrimizdə böyük tərəqqi olacaqdır. [152-153]

Sağ olun, təşəkkür edirəm. Mən öz minnətdarlığımı bildirmək istəyirəm ki, siz bizə qonaq gəldiniz. Əgər hər hansı narahatlıq olubsa, nəzərə alın ki, mən dünən axşam Lissabondan çox gec qayıtmışam, bu gün səhərdən isə bütün bu məsələlərlə məşğul olmuşam. Odur ki, siz sabah burada qalıb qonağımız ola bilərsiniz.

Mən çox məmnunam ki, Türkiyə mətbuatından Azərbaycana müxbirlər gəliblər. Sizin hər birinizə təşəkkür edirəm, siz bizim qonağımızsınız. Əgər sizlərdən kimsə mənimlə şəxsən görüşmək istəyirsə sabah görüşə bilərik.

Hamınıza təşəkkür edirəm. [153-154]

## BAKIDA AMERİKANIN "PENNZOYL KASPİAN KORPOREYŞN" ŞİRKƏTİ OFİSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*7 dekabr 1996-cı il*

Möhtərəm prezident cənab Hamilton,
hörmətli xanımlar və cənablar!

Mən sizi bu gün Amerikanın "Pennzoyl" şirkətinin Azərbaycanda, Bakıda ofisinin açılması münasibətilə təbrik edirəm. Amerika Birləşmiş Ştatlarının "Pennzoyl" şirkəti Azərbaycana, ölkəmizin neft sənayesində Azərbaycanla müştərək iş görmək üçün respublikamıza gəlmiş ilk şirkətlərdən biridir. "Pennzoyl" şirkəti başqa şirkətlərə nisbətən, Azərbaycanın neft və qaz yataqlarının nə qədər zəngin və perspektivli olmasını hiss etmişdir, Azərbaycan Respublikası ilə əvvəldən indiyədək sağlam əməkdaşlıq edir. Məhz ona görə də "Pennzoyl" şirkəti 1994-cü ilin sentyabrında, 1995-ci ilin noyabrında imzalanmış iki böyük müqavilənin iştirakçısıdır, yəni o müqavilələrin Azərbaycan Dövlət Neft Şirkəti ilə bağlanması üçün təşkil olunmuş konsorsiumun üzvüdür.

Bununla yanaşı, "Pennzoyl" şirkəti Azərbaycanın dənizdəki qədim neft mədəni olan Neft Daşlarında qazdan istifadə edilməsi ilə əlaqədar böyük bir kompressor stansiyasının tikilib istifadəyə verilməsi ilə də məşğul olmuş və bununla da Azərbaycanda qaz istehsalının artırılmasına öz xidmətini göstərmişdir. Mən bütün bunları çox yüksək qiymətləndirirəm və ona görə də "Pennzoyl" şirkəti ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın böyük gələcəyini bir daha qeyd edirəm.

Burada "Pennzoyl" şirkəti ofisinin yeni binasının tikilməsi və yaradılması da onu göstərir ki, "Pennzoyl" şirkəti Azərbaycanda uzunmüddətli iş görmək proqramına malikdir və buna görə də Azərbaycanla daim əməkdaşlıq etmək üçün belə bir gözəl, zənnimcə, yaraşıqlı binanı tikib özlərinin istifadəsinə veriblər. [154-155]

"Pennzoyl" şirkətinin indiyədək Azərbaycanda gördüyü işlərdə, Azərbaycanla etdiyi əməkdaşlıqda, əldə olunan nəticələrdə "Pennzoyl"un prezidenti hörmətli cənab Hamiltonun xüsusi xidmətləri var. Ona görə də bu gün mən Azərbaycan dövləti adından "Pennzoyl" şirkətinə hörmət və ehtiramımı bildirir və bəyan edirəm ki, biz bundan sonra "Pennzoyl" şirkəti ilə əməkdaşlığımızı daha da gücləndirəcəyik, genişləndirəcəyik. Bunların hamısı Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında yaranmış sağlam dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir.

Mən "Pennzoyl" şirkətinin Amerika Birləşmiş Ştatlarında, xüsusən ABŞ Konqresində Azərbaycanın mövqelərinin müdafiə edilməsində xidmətlərini xüsusi qiymətləndirirəm. Mən şirkətin buradakı ofis binasının tikilib başa çatdırılması və istifadəyə verilməsi münasibətilə "Pennzoyl" şirkətini və eyni zamanda Azərbaycan Dövlət Neft Şirkətini təbrik edirəm. Bu bina Azərbaycanın, Bakının qədim hissəsi olan İçərişəhərin abadlaşmasında, buranın keçmiş bina və abidələrinin bərpa olunmasında da çox mühüm rol oynayır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu bina "Pennzoyl" şirkətinin burada fəaliyyətinin daha səmərəli olmasına kömək edəcəkdir. Bu bina eyni zamanda Amerika-Azərbaycan dostluğu mərkəzi rolunu da oynayacaqdır. Güman edirəm ki, bu binada həm yaxşı iş görmək üçün şərait yaradılıbdır, həm də Amerika ilə Azərbaycan arasında əlaqələri daha da inkişaf etdirmək üçün, Amerika vətəndaşları ilə Azərbaycan vətəndaşlarının görüşlərinin keçirilməsi, danışıqların aparılması və onların müəyyən məsələləri birlikdə müzakirə etməsi üçün yaxşı şərait yaranıbdır.

Bütün bunlara görə mən bugünkü hadisəni əlamətdar hadisə kimi qiymətləndirirəm. Sizi bir daha təbrik edirəm. "Pennzoyl" şirkətinə onun bütün gələcək işlərində uğurlar arzulayıram. Cənab Hamilton, sizi xüsusilə təbrik edir, sizə cansağlığı, xoşbəxtlik və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Sağ olun. [155-156]

## MƏBƏS BAYRAMI – MƏHƏMMƏD SALAVATULLAHA PEYĞƏMBƏRLİK VERİLƏN GÜN MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*Təzəpir məscidi*

*9 dekabr 1996-cı il*

Hörmətli həmvətənlər!
Əziz müsəlmanlar!

Bu gün mən bizim üçün müqəddəs olan bu bayram günü burada – Allahın evində, Təzəpir məscidində sizinlə birlikdə olmağımdan həddindən ziyadə şadam.

Bu gün Məhəmməd əleyhissəlamın peyğəmbərliyə yetişdiyi gündür. Onun Allah-təala ilə bilavasitə danışdığı gündür, mehrab günüdür. Bu gün bütün müsəlmanların böyük bayramıdır.

Mən sizi bu bayram münasibətilə təbrik edirəm və Allah-təaladan xalqımıza, millətimizə, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq arzulayıram. Biz müsəlmanlar Allah-təalanın buyurduğu, peyğəmbər Məhəmməd əleyhissəlamın bizə göstərdiyi yolla, müqəddəs kitabımız Qurani-Şərifin verdiyi tövsiyələr yolu ilə əsrlər boyu getmişik, bu gün də bu yolla gedirik. Bu yol sülh yoludur, bu yol mehribanlıq, dostluq, əmin-amanlıq yoludur. Bu yol insanlara səadət gətirən yoldur. Mən fəxr edirəm ki, Azərbaycan müsəlmanları öz müqəddəs dininə itaət etmək, dini ayinlərə, qanun-qaydalara riayət etmək üçün indi geniş imkanlar əldə ediblər.

Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. Müsəlmanlar öz müqəddəs dininə sadiq olaraq əzab-əziyyətlər çəkmiş, ancaq böyük xoşbəxtliklərə də çıxmış və öz dininin, məsləkinin hər bir insan nə qədər böyük bir nemət olduğunu daim hiss etmişlər və bundan bəhrələnmişlər.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, [156-157] bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik, xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi islamın bu yüksək mənəvi dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik, həyatımızı bu mənəvi dəyərlər əsasında qurmalıyıq. Mən məmnunam ki, müstəqil Azərbaycan Respublikasında, ölkəmizdə dinimiz – islam dini xalqımızı sıx birləşdirir, həmrəy edir, dövlətimizin möhkəmlənməsinə, yüksəlməsinə çalışır və düşdüyü bu ağır bəlalardan, əzab-əziyyətdən qurtarmaqda xalqımıza kömək edir.

Biz bir daha dərk etməliyik ki, bunlar hamısı xalqımızın islamın mənəvi dəyərlərinə olan hörmət və ehtiramı, sədaqəti ilə bağlıdır. Xalqımız əsrlər boyu çox böyük sınaqlarla üzləşərək, şərəfli yol keçibdir. Ancaq tarix boyu qurbanlar da veribdir. Verdiyimiz o qurbanlar da bizim dinimizə, məsləkimizə, mənəviyyatımıza olan sadiqliyimizin təzahürüdür, nümunəsidir.

Son illər Azərbaycan xalqının başına bəlkə indiyə qədər görünməmiş misilsiz bir bəla gəlmişdir. O da Ermənistanın Azərbaycana səkkiz il bundan öncə başladığı hərbi təcavüzdür. Bu təcavüz nəticəsində, məhz bizim içimizdə olan ayrı-ayrı qüvvələrin məsləkimizə, mənəviyyatımıza və milli dəyərlərimizə, ruhumuza xəyanət etdiklərinə görə biz itkilər vermişik, böyük çətinliklərlə qarşılaşmışıq, torpaqlarımızın bir qismi işğal olunubdur, qəsbkar Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. İşğal olunmuş torpaqlarda Azərbaycan xalqının varidatı viran olub, dağılıb, bizə böyük zərbələr dəyibdir. İşğal edilmiş torpaqlarımızda milli abidələrimiz, islam abidələri, müqəddəs məbədlərimiz, qəbirlərimiz, ocaqlarımız dağıdılıbdır, viran olunubdur. Bunlar xalqımıza vurulan böyük mənəvi zərbələrdir. Şəhidlər vermişik, Azərbaycanın qəhrəman övladları Vətənimizin, torpağımızın müdafiəsi yolunda özlərini qurban veriblər. Onlar əbədiyyətə qovuşublar. Onlar milli-mənəvi dəyərlərimizə sadiq qalaraq, həyatlarını qurban verərək özlərinə behiştdə daim yer tapıblar.

Bunlar hamısı bizim itkilərimizdir. Eyni zamanda xalqımızın öz milli dəyərlərinə, dininə, mənəviyyatına sədaqətinin nümunəsidir. Bildiyiniz kimi, iki il yarımdan çoxdur ki, biz atəşi dayandırmışıq. Artıq qan tökülmür, övladlarımız tələf olmur. Sülh şəraiti yaratmışıq. Bunu da məhz ona görə yaratmışıq ki, məsələlərin sülh yolu ilə həll edilməsinə nail olaq.

Bu da bizim milli, dini dəyərlərimizin üzərində qurulmuş [157-158] siyasətdir. İslam həmişə insanları sülhə, barışığa dəvət edibdir. Biz dinimizin bütün qanunlarına sadiqik. Amma eyni zamanda, islam dini heç vaxt başqa dinlərə düşmənçilik göstərməmiş və göstərmir. Ona görə də biz bu milli, mənəvi dəyərlərimizə əsaslanaraq məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırıq.

Bildiyiniz kimi, atəşkəs əldə olunandan indiyədək ardıcıl surətdə, mütəmadi olaraq biz bu işlərlə daim məşğuluq. Ümidvaram ki, bu sülhsevər yolumuz öz müsbət nəticəsini verəcək və biz işğal olunmuş torpaqlarımızı azad edə biləcəyik, müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa edə biləcəyik, öz ərazimizin, torpaqlarımızın tam sahibi olacağıq. İndi ağır vəziyyətdə yaşayan, həyatını çadırlarda keçirən

çoxlu bacı-qardaşlarımız öz yerlərinə-yurdlarına qayıdacaqlar.

Mən bu gün, bu müqəddəs gündə torpaqlarımızın, Vətənimizin müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Onların valideynlərinə, qohum-əqrəbalarına Allahdan səbir diləyirəm. Mən yerindən-yurdundan didərgin düşmüş, ağır şəraitdə yaşayan, bir neçə ildir ki, həyatını çadırlarda keçirən vətəndaşlarımıza bu gün, bu müqəddəs gündə səbir, dözümlülük diləyirəm. Bu müqəddəs bayram günü dəyanətə, dözümlüyə görə onlara təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bilməlidirlər ki, onlar Azərbaycan dövlətinin, prezidentin daim qayğısı altındadırlar. Bilirlər və bilməlidirlər ki, bütün Azərbaycan xalqı, vətəndaşlarımız onların bu dərdlərinə şərikdirlər və onlarla həmişə bərabərdirlər, həmrəydirlər, onların bu vəziyyətdən çıxmasını Allah-təaladan arzu edirlər və buna dua edirlər.

Bütün bu məsələlərin həll edilməsi üçün son illər gördüyümüz işlərin demək olar ki, zirvəsi dekabr ayının 2-3-də Portuqaliyanın Lissabon şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin dövlət başçılarının Zirvə görüşü idi. İki ildən bir Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının görüşü keçirilir. Belə bir görüş iki il bundan əvvəl Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmişdir. Biz orada Azərbaycanın mövqelərinin təmin olunması üçün dəyərli işlər görmüşdük və yaxşı nəticələr əldə etmişdik. Bundan sonra iki il müddətində atəşkəsin saxlanması və sülhün əldə edilməsi üçün aparılan geniş miqyaslı danışıqlar məhz iki il bundan öncə Macarıstanda, Budapeştdə qəbul edilmiş bu qərarın əsasında olmuşdur.

İndi isə biz bundan sonra da sülh danışıqlarını müvəffəqiy[158-159]yətlə həyata keçirmək, bu danışıqların əsas prinsiplərini təsdiq etmək məqsədi ilə Lissabonda çox gərgin mübarizə apardıq və hesab edirəm ki, yaxşı, müsbət nəticə əldə etdik. Bu nəticə də ondan ibarətdir ki, biz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına əsas yaradan bir sənədin qəbul edilməsinə nail olduq. Əgər televiziyanı, radionu izləmisinizsə, bilirsiniz ki, bu danışıqlar nə qədər gərgin, çətin, dramatik vəziyyətdə keçmişdir. Ancaq yəqin siz televiziya verilişlərindən onu da görüb hiss edə bilmisiniz ki, Azərbaycan nümayəndə heyəti, Azərbaycan prezidenti xalqımızın milli mənliyini, onun müstəqil bir millət, ölkəmizin müstəqil bir dövlət olduğunu orada bütün dünyaya nümayiş etdirə bildi.

Orada biz öz tələblərimizi irəli sürdük. Lissabon Zirvə görüşünün son sənədinin qəbul olunması məsələsində çox gərgin və təhlükəli bir vəziyyət yarandı. Biz məsələni belə qoyduq: bizim tələblərimiz qəbul olunmalıdır, əgər belə olmasa, Azərbaycan dövlətinin nümayəndə heyəti bu təşkilatın qanuna görə olan öz hüququndan istifadə edərək Zirvə görüşünün yekun sənədinin qəbul olunmasının qarşısını alacaqdır.

Şübhəsiz ki, bu, çox mürəkkəb bir vəziyyət yaratdı. 55 dövlətin başçılarının iki ildə bir dəfə bir araya gəlməsi, məsələləri müzakirə etməsi və son nəhayətdə heç bir qərar qəbul etməməsi, şübhəsiz ki, hər bir ölkə, dövlət üçün beynəlxalq aləmdə çox ağır bir nəticə ola bilərdi. Ancaq biz milli mənafeyimizin təmin olunmasını əsas şərt kimi qoyaraq həmin o hüququmuzdan çox cəsarətlə, deyə bilərəm, böyük risklə istifadə etdik. Məhz bunun nəticəsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Lissabon Zirvə görüşü bizim istədiyimiz bəyannaməni, bəyanatı qəbul etdi. Bu bəyannamə, bəyanat ondan ibarətdir ki, Zirvə görüşündə təmsil olunan bütün dövlətlər, – Ermənistan istisna edilməklə, – hamısı təsdiq etdi ki, Azərbaycanın ərazi bütövlüyü dəyişilməzdir, toxunulmazdır və o, təmin olunmalıdır. Məsələnin sülh yolu ilə həll olunması üçün Dağlıq Qarabağa yalnız və yalnız Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilə bilər.

Bu bəyannamə, bəyanat, sənəd çox tarixi bir sənəddir. Demək, ATƏT-ə, yəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin hamısı, ən böyük ölkələrdən [159-160] başlamış – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Fransa, Almaniya, Türkiyə və başqaları, lap kiçik dövlətlərə qədər, hamısı yekdil oldular ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmalıdır. Bu məsələnin sülh yolu ilə həll edilməsi ancaq bu prinsiplər əsasında ola bilər. Biz buna nail ola bildik.

Hesab edirəm ki, apardığımız sülhsevər siyasətdə bu sənədin qəbul olunması indi bizim üçün böyük bir mərhələ, imkanlar açır. Biz çalışacağıq ki, bu imkanlardan səmərəli istifadə edib, Azərbaycan Respublikasını, nəhayət, bu bəladan qurtaraq, işğal olunmuş torpaqlarımızı azad edək və Azərbaycan torpaqlarının hamısının üzərində öz hakimiyyətimizi bərpa edək.

Bir-iki gün bundan əvvəl ictimaiyyət nümayəndələri ilə görüşümdə mən bu barədə çox geniş məlumat vermişəm. O məlumat, mənim o çıxışım qəzetlərdə dərc olunubdur. Güman edirəm ki, siz mənim dediyim o sözlərlə, həmin o yazılarla ətraflı tanış olmusunuz. İnanıram ki, hərəniz sahənizdə bu siyasətimizin, tədbirlərimizin aparılmasında bizə dayaq, kömək, bizimlə həmrəy olacaqsınız.

Respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün xalqımız daha da sıx birləşməlidir, həmrəy olmalıdır, millətimiz bir olmalıdır. Millətimizin içində cürbəcür, bəlkə də nadürüst, nalayiq qüvvələr hələ ki var. Ancaq mən bu gün məmnuniyyət hissi ilə qeyd edirəm ki, xalqımızın tam əksəriyyəti, millətimizin, respublikamızın vətəndaşlarının tam əksər hissəsi Azərbaycanın bu doğru, düzgün yolunu, dövlətçilik, müstəqillik prinsiplərimizə, yüksək milli-mənəvi, dini amallarımıza uyğun olan bu yolu bəyənir, dəstəkləyir və bu yolda hamımızın bir yerdə getməsi üçün əlindən gələni edir.

Ona görə də mən bu gün məlumatları verərək bir daha sizi, bütün Azərbaycan xalqını, müsəlmanları,

vətəndaşlarımızı birliyə, həmrəyliyə dəvət edirəm. Azərbaycan dövlətinin müstəqilliyinin yaşaması və möhkəmlənməsi naminə, respublikamızın ərazi bütövlüyünün bərpa olunması naminə, işğal edilmiş torpaqlarımızdan Ermənistan silahlı qüvvələrinin çıxarılması və bu torpaqların azad olunması naminə hamınızı birliyə, həmrəyliyə dəvət edirəm.

Mən əminəm ki, siz, xalqımızın hamısı mənim bu səsimə səs verəcək, siz bu ağır günləri, illəri birlikdə keçib gedəcəyik və Azərbaycanın xoşbəxt gələcək günlərini görəcəyik. [160-161]

Bu bayram münasibətilə mən sizi bir daha təbrik edirəm. Bizim Lissabonda əldə etdiyimiz bu nailiyyətlər xoşbəxt bir günlərə təsadüf edir – Məhəmməd peyğəmbərin peyğəmbərliyə yetişməsi gününə, onun Allah-təala ilə bilavasitə danışması, merac gününə təsadüf edir. Bunun özü də böyük bir xoşbəxtlikdir. Bu da onu göstərir ki, bizim amalımız safdır, pakdır, ülvidir. Bu amallar bizi uğurlara, xoşbəxt günlərə gətirəcəkdir.

Sizin hamınıza, bütün Azərbaycan müsəlmanlarına cansağlığı, xoşbəxtlik, rifah arzu edirəm. Müstəqil Azərbaycan Respublikasına günü-gündən möhkəmlənmək, yüksəlmək arzu edirəm. Sağ olun. [161-162]

## AZƏRBAYCANDA AMERİKA TİCARƏT PALATASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*13 dekabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və "Azərbaycana xoş gəlmisiniz" deyirəm, Amerika Birləşmiş Ştatları Ticarət Palatasının Azərbaycanda mütəşəkkil işə başlaması Amerika-Azərbaycan əlaqələri tarixində əlamətdar bir hadisədir.

Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə edəndən sonra dünyanın bütün ölkələri ilə iqtisadi əməkdaşlığa cəhd göstərir və Amerika Birləşmiş Ştatları bu arada xüsusi yer tutur. Son illər Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında əməkdaşlıq müvəffəqiyyətlə inkişaf edir. Biz Azərbaycanda buna yüksək qiymət veririk və bu əlaqələrin bundan sonra da inkişafı üçün əlimizdən gələni etməyə çalışacağıq. Bu əməkdaşlıq müstəqil Azərbaycan Respublikasının iqtisadiyyat sahəsində strateji siyasətinə tam uyğun olan bir əməkdaşlıqdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür. Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik. Bunlar Azərbaycanda iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirilməsi və respublikamıza xarici sərmayənin müntəzəm gətirilməsi üçün görülən əsas işlərdir.

Bilirsiniz ki, Azərbaycan böyük təbii sərvətlərə malikdir. Ölkəmizin böyük sənaye, kənd təsərrüfatı potensialı var. Res[162-163]publikamız öz coğrafi vəziyyətinə görə də Dünya Birliyi ilə iqtisadi əməkdaşlıq etmək üçün böyük imkanlara malikdir. Dünya təcrübəsi bunu artıq dəfələrlə sübut edib ki, heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz. Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətdir və ümumiyyətlə, dünyada iqtisadiyyatı daha da yüksəltmək üçün bu, yeganə bir yoldur.

Biz dövlət müstəqilliyi əldə edəndən sonra bu təcrübəni əsas tutaraq Azərbaycana xarici sərmayənin davamlı olaraq gəlməsi üçün və respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq üçün cəhdlər göstərmişik və göstəririk. Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarının şirkətləri arasında müştərək iş görmək sahəsində son illər əldə edilmiş nailiyyətlər bu işlərimizin əyani nümunəsidir.

Məlumdur ki, Amerika Birləşmiş Ştatlarının şirkətlərini, eləcə də digər ölkələrin şirkətlərini Azərbaycana cəlb edən amillərdən biri və əsası ölkəmizin neft və qaz yataqlarıdır. Azərbaycan Respublikasının ərazisində, Xəzər dənizinin Azərbaycan sektorunda ölkəmizə məxsus zəngin neft və qaz yataqlarının olması artıq bütün dünyaya məlumdur. Azərbaycan qədim və böyük neft ölkəsidir. Respublikamızın bu sahədə nailiyyətləri də bütün dünyaya məlumdur. Ancaq daha indi biz Azərbaycanın neft və qaz sənayesinin yeni bir dövrünü, mərhələsini yaşayırıq. Bu mərhələ Azərbaycanın neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə müştərək işlənməsi ilə bağlıdır.

Bildiyiniz kimi, iki il bundan əvvəl – 1994-cü ilin sentyabrında biz ilk böyük müqavilə imzalamışıq. Bu müqavilə "Əsrin müqaviləsi" kimi dünya tarixinə daxil olubdur. Həmin müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətlərinin təşkil etdiyi konsorsium arasında imzalanmış bir müqavilədir. Bu konsorsiumun tərkibində isə Amerika Birləşmiş Ştatlarına mənsub olan neft şirkətləri daha çox yer tuturlar. Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu müqavilənin keçən iki il müddətində nəticələri müsbətdir və müqavilədə nəzərdə tutulan proqram ardıcıl surətdə, vaxtlı-vaxtında həyata keçirilir. Əgər iki il bundan əvvəl, müqavilə imzalanarkən bəziləri buna şübhə ilə yanaşırdılarsa, bir çoxları isə bu müqavilənin müsbət nəticələr verməsini arzu edirdilərsə, indi bu nəticələr reallığa çevrilibdir. Şübhə edənlər isə, güman edirəm, artıq öz şübhələrindən geri çəkilməlidirlər. [163-164]

Bilirsiniz ki, bundan sonra əlavə iki böyük neft müqaviləsi də imzalanıbdır. Bir il bundan əvvəl imzalanmış neft müqaviləsində yenə də Amerika Birləşmiş Ştatlarının şirkətləri iştirak edirlər. Sabah Bakıda yeni bir neft müqaviləsi imzalanacaqdır və bu müqavilənin əsas iştirakçıları yenə də Amerika Birləşmiş Ştatlarının neft şirkətləridir.

Bu müqavilələr və onların əməli surətdə həyata keçirilməsi Amerika Birləşmiş Ştatlarının nəinki neft şirkətlərinin, eyni zamanda bir çox başqa şirkətlərin Azərbaycana gəlməsini təmin edibdir. Mən məmnuniyyət

hissi ilə qeyd edirəm ki, Azərbaycanda təkcə neft şirkətlərinin yox, Amerika Birləşmiş Ştatlarının başqa sahələrdə fəaliyyət göstərən bir çox şirkətlərinin ofisləri artıq açılıbdır. Bunlar hamısı Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın gözəl nəticələridir, bizim əldə etdiyimiz böyük potensialdır.

Bu nəticələrin, potensialın əhəmiyyəti ondan ibarətdir ki, bunlar gələcəkdə daha da gözəl nəticələr verəcəkdir. Məhz bunlara görə də Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Ticarət Palatasının fəaliyyətə başlaması, onun bugünkü açılış mərasimi, hesab edirəm ki, çox əsaslıdır və gələcək üçün yeni bir mərhələdir. Biz indiyə qədər də Amerika Birləşmiş Ştatlarının nəinki şirkətlərinin, Amerikanı təmsil edən, Azərbaycana gələn hər bir şəxsin ölkəmizdə öz işlərini görməsi üçün əlimizdən gələn köməyi etmişik və imkanlar yaratmışıq. Ancaq indi, Amerika Birləşmiş Ştatlarının Ticarət Palatası Azərbaycanda mütəşəkkil fəaliyyət göstərməyə başladıqdan sonra hesab edirəm ki, biz bu işləri daha da müvəffəqiyyətlə həyata keçirəcəyik.

Mən bilirəm ki, Amerika Birləşmiş Ştatlarının Ticarət Palatası ABŞ-ın respublikamızdakı bütün şirkətlərinin və burada olan bütün iş adamlarının fəaliyyətini tənzimləmək, onlara kömək etmək, istiqamət vermək, onlara müəyyən proqnozlar vermək üçün yaradılıbdır. Mən bu təşəbbüsü bəyənirəm və yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Ticarət Palatası sərbəst və çox müvəffəqiyyətli fəaliyyət göstərəcəkdir.

Əmin ola bilərsiniz ki, Amerika Birləşmiş Ştatları Ticarət Palatasının ölkəmizdə uğurlu fəaliyyət göstərməsi üçün Azərbaycanın dövləti, hökuməti və bütün dövlət orqanları tərəfindən kömək göstəriləcəkdir. Bu, nə qədər sizin üçün lazımdırsa, o qədər də bizim üçün lazımdır. Biz bunda çox maraqlıyıq. [164-165] Çünki yenə də qeyd edirəm, biz Amerika Birləşmiş Ştatları şirkətlərinin Azərbaycana daha da çox gəlməsini istəyirik.

Biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərini, iqtisadi islahatları, özəlləşdirmə proqramını həyata keçirərək, şübhəsiz ki, bu yolla gedirik və gedəcəyik. Siz də, Azərbaycan ictimaiyyəti də bunu görürsünüz ki, son vaxtlar iqtisadi islahatların özəlləşdirmə proqramının həyata keçirilməsi artıq öz müsbət nəticələrini verir. Xarici ölkələrin şirkətlərinin ofisləri, onların burada yaratdıqları birgə müəssisələr, özəl müəssisələr, böyük və yaraşıqlı mağazalar Azərbaycanın, xüsusən Bakının mənzərəsini xeyli dəyişdiribdir. Bunlar hamısı bizdə məmnuniyyət hissi doğurur.

Bu gün sizə bildirmək istəyirəm ki, biz iqtisadi islahatlar yolu ilə davamlı surətdə gedirik və bundan sonra da gedəcəyik. Biz özəlləşdirmə proqramını sürətlə həyata keçiririk, bu sahədə çox ciddi addımlar atırıq. Məsələn, Azərbaycanda uzun müddət fəaliyyət göstərən Taxıl Məhsulları Dövlət Şirkətini iki gün bundan əvvəl ləğv etdim və bu şirkətə mənsub olan bütün müəssisələrin, təşkilatların özəlləşdirilməsi üçün onları Dövlət Əmlak Komitəsinə verdim.

Bu, ayrı-ayrı müəssisələrin özəlləşdirilməsi kimi yox, böyük bir dövlət strukturu sisteminin hamısının birlikdə özəlləşdirilməsi üçün həyata keçirilən tədbirdir. Amerika Birləşmiş Ştatlarından olan qonaqlarımız üçün bəlkə də bu adi bir hadisədir. Ancaq bu, bizim üçün heç də adi deyil. Çünki uzun illər dövlət tərkibində olan böyük təşkilatların birdən-birə ləğv olunması və onların özəlləşdirilməsi üçün qərar qəbul edilməsi, bilin ki, çox böyük cəsarət tələb edir və biz bunu cəsarətlə həyata keçiririk. Bu tədbirləri həyata keçirmək üçün ölkəmizə xarici sərmayənin gəlməsi, Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə əməkdaşlıq lazımdır.

Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycanda özəlləşdirmə prosesində iştirak etməyə, bizim iqtisadi həyatımızda, bazar iqtisadiyyatı prosesinin həyata keçirilməsində özlərinə məxsus yer tutmağa çalışmalıdırlar. Mən sizi buna dəvət edirəm.

Sizin üçün və Amerika Birləşmiş Ştatlarında olan bütün partnyorlarınız üçün bir daha bəyan edirəm ki, Azərbaycan Respublikasının dövləti və onun prezidenti ölkəmizin iqtisadiyyatını bazar iqtisadiyyatı, iqtisadi islahatları həyata keçirmək, özəlləşdirmə yolu ilə bundan sonra da əzmlə inkişaf etdirə[165-166]cəkdir. Ona görə də mən həmişə xarici şirkətlərə, o cümlədən Amerika şirkətlərinə deyirəm ki, gecikməyin. Azərbaycana nə qədər tez-tez gəlsəniz, o qədər də yaxşı yer tutacaqsınız.

Siz bilməlisiniz ki, Azərbaycanda səmərəli iş görmək üçün yaxşı ictimai-siyasi mühit yaranmışdır. Biz xarici sərmayənin Azərbaycana gəlməsi üçün bir neçə çox əlverişli qanunlar qəbul etmişik. Belə qanunları bundan sonra da qəbul edəcəyik. Əgər bu gün bu işlərin görülməsinə hər hansı bir sahədə maneçilik göstərən ünsürlər varsa, biz mütləq onları aradan qaldıracağıq. Əgər hər hansı bir qanunun hər hansı bir hissəsi bu işlərin müvəffəqiyyətlə həyata keçirilməsinə mane olursa, biz bu qanunları da dəyişdirəcək, qanunlar da qəbul edəcəyik. Buna əmin ola bilərsiniz.

Biz bütün bu tədbirləri həyata keçirmək üçün Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı və Avropa Birliyi ilə çox əməkdaşlıq edirik. Mən bu əməkdaşlıqdan məmnun olduğumu bildirirəm və hesab edirəm ki, bu əməkdaşlıq Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin iqtisadiyyatının yüksəlməsi üçün çox yaxşı bir vasitədir.

Mən bugünkü görüşdən bir daha məmnun olduğumu bildirmək istəyirəm. Sizin hamınıza və Amerika Birləşmiş Ştatlarının bütün iş adamlarına, şirkətlərinə uğurlar arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, indiyədək əldə etdiyimiz nailiyyətlər əsasında Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq bundan sonra daha da sürətlə inkişaf edəcəkdir.

Amerika Birləşmiş Ştatlarının prezidenti, hörmətli cənab Bill Klinton ilə mənim əvvəllər olmuş

görüşlərimdə, vitse-prezident Albert Qor ilə bir neçə gün bundan əvvəl Lissabonda keçirdiyimiz görüşdə, danışıqlarda biz Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrin bütün sahələrdə inkişaf etməsi barədə fikir mübadiləsi aparmışıq, eyni mövqedə olmuşuq. Mən Azərbaycanın bu sahədəki mövqelərini onlara açıq-aydın bildirmişəm.

Amerika Birləşmiş Ştatlarının dövlət orqanları, onun prezidenti ilə Azərbaycanın prezidenti arasında yaranmış bu dostluq, əməkdaşlıq əlaqələrini mən yüksək qiymətləndirirəm və əmin ola bilərsiniz ki, Azərbaycan bu dostluq, əməkdaşlıq əlaqələrinə həmişə sadiq olacaqdır.

Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatasının bugünkü açılış mərasimi münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizin hamınıza işinizdə müvəffəqiyyətlər, həyatınızda xoşbəxtlik, cansağlığı arzu edirəm. Sağ olun. [166-167]

## XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA "DAN ULDUZU" VƏ "ƏŞRƏFİ" NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏ İMZALANMASI MƏRASİMİNDƏ NİTQ

*Gülüstan Sarayı*

*14 dekabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında yeni əlamətdar bir hadisə baş verir. Azərbaycanın neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə müştərək işlənməsi və istifadə olunması ilə əlaqədar yeni bir neft müqaviləsi imzalanır.

Bu hadisə Azərbaycan Respublikasının neft yataqlarının, təbii sərvətlərinin birgə işlənməsi və ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifah halını yüksəltmək üçün atılan daha bir dəyərli addımdır. Bu hadisə Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək üçün aparılan kompleks tədbirlərin, ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsinin yeni bir təzahürüdür. Bu hadisə Azərbaycan Respublikasının dünya iqtisadiyyatı üçün açıq olduğunu və dünya iqtisadiyyatı ilə bağlılığa daim cəhd göstərdiyini bir daha nümayiş etdirir. Bunlar hamısı birlikdə Azərbaycan Respublikasını inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün atılan addımlardır. Eyni zamanda bu, Azərbaycan Respublikasının iqtisadi siyasət sahəsində tutduğu strateji yolun davamıdır və ölkəmizin təbii sərvətlərindən, dünyanın qabaqcıl texnologiyasından səmərəli istifadə olunması üçün dünyanın böyük şirkətləri ilə sıx əməkdaşlıq etməyimizin yeni bir təzahürüdür.

Biz bu sahədə tutduğumuz yola sadiqik. 1994-cü ilin sentya[167-168]brında Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək istifadə olunması barədə dünyanın çox iri və ən nüfuzlu neft şirkətləri ilə böyük bir müqavilə imzalanmışdır. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, iki il bundan əvvəl imzalanmış müqavilə həyata keçirilir, artıq o öz müsbət nəticələrini verir. Həmin müqavilənin həyata keçirilməsi üçün yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu müddətdə xeyli iş görübdür və yaxşı nəticələr əldə edibdir.

Bu ilin sentyabrında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin hesabatını dinləyərkən məlum oldu ki, nəzərdə tutulan proqram vaxtlı-vaxtında və ardıcıl surətdə həyata keçirilir. Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən hazırlanmış, modernləşdirilmiş, bərpa edilmiş "Dədə Qorqud" yarımdalma qazma qurğusu bu ilin avqust ayında istifadəyə verilmiş və bu qurğu vasitəsilə "Çıraq" neft yatağında qısa müddətdə – 69 gün ərzində böyük bir quyu qazılmış, yaxşı nəticələr əldə olunmuşdur. Verilən məlumatlar onu göstərir ki, qazılan quyudan alınan nəticələr bizim nəzərdə tutduğumuz, gözlədiyimiz proqnozlardan da yüksəkdir. İndi orada ikinci quyunun qazılmasına başlanır və bu gün daha qətiyyətlə demək olar ki, o da öz müsbət nəticəsini verəcəkdir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti qazma işləri ilə bərabər, hasil olunan neftin ixracı ilə bağlı tədbirlər də həyata keçirir.

Bildiyiniz kimi, ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi barədə qərar qəbul olunmuşdur. Bu kəmərlərin biri şimal istiqaməti ilə Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, ikincisi isə Qərb istiqamətində – Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına gedən kəmərdir.

Bu ilin sonunda – 1997-ci ilin ilk günlərində birinci neft kəməri, yəni Rusiya ərazisindən şimala, Novorossiysk limanına gedən neft kəməri tamamilə hazır olacaqdır və Azərbaycandan bu kəmər vasitəsilə neft nəql etmək mümkün olacaqdır. Qərb istiqamətində neft kəmərinin inşasına 1997-ci ilin əvvəlində başlanacaq və Beynəlxalq Əməliyyat Şirkətinin verdiyi məlumata görə, bu iş 1998-ci ilin sonunda başa çatacaqdır. Beləliklə, 1994-cü ildə imzalanmış neft müqaviləsi əsasında hasil olan ilkin neftin ixracı məsələləri tamamilə həll edilibdir.

Bu ilin sentyabrında biz Beynəlxalq Əməliyyat Şirkətinin məlumatı əsasında geniş müzakirə aparmışıq, mən onların he[168-169]sabatını dinləmişəm. Beynəlxalq Əməliyyat Şirkəti məlumat veribdir ki, "Əsrin müqaviləsi"nin proqramı əsasında 1997-ci ilin avqustunda "Çıraq" yatağından neft hasil ediləcək və bu məhsul ixrac üçün hazır olacaqdır.

Beləliklə, 1994-cü ildə imzaladığımız neft müqaviləsinin son iki il müddətində yüksək səmərəli olduğunun şahidiyik və bunlar indən sonra da bu istiqamətlə hərəkət etməyə bizdə daha da çox inam yaradır.

Bildiyiniz kimi, 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan "Qarabağ" neft yatağının müştərək istifadə edilməsi üçün ikinci bir müqavilə imzalanmışdır. İndi bu müqavilə də işləyir, həyata keçirilir. Xəzərin Azərbaycan sektorunda olan "Şahdəniz" neft və qaz yatağının müştərək işlənməsi üçün bu il iyunun 4-də üçüncü müqavilə imzalanıbdır.

Bu gün isə biz bu istiqamətdə hərəkətimizi davam etdirərək dördüncü neft müqaviləsinin imzalanmasına toplaşmışıq. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" yataqlarının müştərək istifadə edilməsinə həsr olunubdur. Bu zəngin neft yataqları Azərbaycan Respublikasının alimləri, geoloqları, neftçiləri, mütəxəssisləri tərəfindən hələ 1970-ci illərdə kəşf olunmuş, açılmışdır. Bundan sonra həmin yataqların istifadə olunması üçün bəzi cəhdlər göstərilmişdir. 1982-1985-ci illərdə bu yataqlardan istifadə etmək üçün müəyyən addımlar atılmış, ancaq bu məsələ o vaxt başa çatdırıla bilməmişdir.

"Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə danışıqlar başlanmışdır. O vaxtdan indiyədək həm danışıqlar, həm də bu yataqların istifadə olunmasına hazırlıq aparılmışdır. 1996-cı ildə bu işlər son mərhələyə çatmışdır. Bu yataqlardan müştərək istifadə olunması bu məsələnin konkret həll edilməsi üçün 1996-cı ildə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" neft şirkətləri tərəfindən təkliflə irəli sürülmüşdür. Bu təkliflərin səmərəliliyi, Azərbaycan Respublikası üçün faydası, əhəmiyyəti və bütün iqtisadi, texniki göstəriciləri bir neçə dəfə müzakirə edilmiş, təhlil olunmuşdur.

Bütün bunlardan sonra mən bu təklifləri bəyənmişəm, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarında bundan sonra iş [169-170] görmək, bu yataqların istifadəsinə əməli surətdə başlamaq barədə Azərbaycan Dövlət Neft Şirkətinin verdiyi təklif əsasında müvafiq sərəncam imzalamışam, danışıqların son mərhələsinin həyata keçirilməsi üçün respublika Dövlət Neft Şirkətinə səlahiyyətlər vermişəm.

Bütün bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə birlikdə "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün müqavilənin layihəsini hazırlayıb təqdim etmişdir. Bu layihəyə baxıldıqdan sonra, yenə də deyirəm, bütün göstəricilərinə görə onun respublikamız üçün səmərəli olduğunu nəzərə alaraq mən bu müqavilənin imzalanması barədə lazımi qərar qəbul etmişəm.

Qeyd etdiyim kimi, 1992-ci ildən indiyə qədər "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə birgə iş, danışıqlar aparılıbdır. Son mərhələdə bu yataqlara başqa neft şirkətləri də maraq göstəriblər.

Mən məmnuniyyətlə qeyd edirəm ki, Yaponiya Azərbaycan iqtisadiyyatına son illər günü-gündən daha çox maraq göstərir. Yaponiyanın şirkətləri Azərbaycana gəlib respublikamızın imkanlarını öyrənirlər və ölkəmizlə müştərək iş görmək haqqında bir neçə təklif irəli sürüblər. O cümlədən, Yaponiyanın böyük "İtoçu" şirkəti Azərbaycan Respublikasının neft və qaz yataqlarına maraq göstərmiş və bu barədə ciddi addımlar atmışdır.

Yaponiyanın "İtoçu" şirkətinin ABŞ-ın "Pennzoyl" və "MakDermott" şirkətləri ilə apardığı danışıqlar nəticəsində o, 1996-cı ildə bizim əvvəl imzaladığımız neft müqavilələrinə daxil olmuşdur. Biz bunu bəyənmişik və buna razılıq vermişik. İndi "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının işlənməsi ilə əlaqədar aparılan danışıqlar prosesində Yaponiyanın "İtoçu" şirkəti bu neft yataqlarında müəyyən hissə almaq və bu müqavilənin iştirakçısı olmaq barədə bizə müraciət etmişdir. Biz bu müraciəti qəbul etmişik və Yaponiyanın "İtoçu" şirkəti də indi bu müqavilənin üzvüdür.

Bildiyiniz kimi, Səudiyyə Ərəbistanının "Delta" şirkəti Amerika Birləşmiş Ştatlarının "Yunokal" şirkəti ilə daim əməkdaşlıq edir. 1994-cü ildə imzalanmış neft müqaviləsində "Delta" şirkətinin də özünün müvafiq hissəsi var. Səudiyyə Ərəbistanının "Delta" şirkəti "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün hazırlanan neft müqaviləsində də iştirak [170-171] edir və onun da burada özünəməxsus hissəsi var. Beləliklə, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının müştərək işlənməsi, istifadə olunması və neft hasil edilməsi üçün hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "AMOKO", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri tərəfindən yaradılmış konsorsium ilə bağlanır.

Xəzərin Azərbaycan sektorunda olan "Dan ulduzu" və "Əşrəfi" neft yataqları bizim neft yataqlarımızdandır. Proqnozlara görə bu yataqlardan 150 milyon ton neft hasil etmək mümkün olacaqdır. Bu müqaviləni həyata keçirmək üçün hazırlanmış layihənin yerinə yetirilməsi üçün təxminən iki milyard Amerika dolları sərmayə qoyulması nəzərdə tutulur. Bütün bu sərmayə Azərbaycan ilə neft müqaviləsi imzalayan şirkətlər tərəfindən qoyulacaqdır. Müqavilənin müddəti 25 ildir.

Şübhəsiz ki, bu göstəricilərin hamısı ilkin xarakter daşıyır, bunlar müəyyən qədər dəyişilə bilər. Amma mən hesab edirəm ki, onların dəyişilməsi bu göstəricilərin artması istiqamətində olacaqdır. Beləliklə, mən qeyd etdiyim kimi, bu müqavilə hər cəhətdən səmərəli bir müqavilədir. Azərbaycan Respublikasının milli mənafelərinə, ölkəmizin iqtisadiyyatına çox faydalı olan bir müqavilədir. Eyni zamanda o, Azərbaycan Respublikası ilə müştərək iş görmək istəyən və bu müqaviləni imzalayan xarici ölkələrin neft şirkətləri üçün faydalı və səmərəli olan bir müqavilədir.

Bu müqavilə bir daha onu nümayiş etdirir ki, Azərbaycan dünyanın bütün ölkələri, respublikamıza maraq göstərən şirkətləri, korporasiyaları ilə əməkdaşlıq etmək yolu ilə gedir. Bu gün mən qeyd etmək istəyirəm ki, biz

bundan sonra da bu yolla gedəcəyik.

Mən əməkdaşlıq sayəsində Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış dostluq əlaqələrinin xüsusi əhəmiyyətini qeyd edirəm.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycan Respublikasının təbii sərvətlərinə, o cümlədən neft və qaz yataqlarına maraq göstərən ilk şirkətlərdir. Amerika Birləşmiş Ştatlarının xüsusən "AMOKO" şirkəti hələ 1990-cı illərin əvvəllərində Azərbaycana gələn ilk şirkətdir. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının "AMOKO" və digər şirkətləri Azərbaycanın bu sahədə gördüyü işlərin təşəbbüskarlarındandır. Artıq [171-172] bu əməkdaşlıq geniş miqyas alıbdır. Bu əməkdaşlığı nəinki Amerika Birləşmiş Ştatlarının özəl şirkətləri, həm də bu ölkənin hökuməti, Prezident cənab Bill Klinton və digər yüksək vəzifəli şəxslər daim dəstəkləyirlər və bu əməkdaşlığın indən sonra da daim inkişaf etməsi üçün səylər göstərirlər.

Bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton ilə, vitse-prezident cənab Albert Qor ilə mənim görüşlərimdə və danışıqlarımda və bütün başqa məsələlərlə yanaşı, Amerika-Azərbaycan iqtisadi əməkdaşlığının inkişaf etdirilməsi və xüsusən Xəzərin Azərbaycan sektorunun enerji ehtiyatlarından müştərək istifadə edilməsi məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Məhz bunların nəticəsidir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan Ticarət Palatası və Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatası yaradılmışdır. Dünən biz Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Ticarət Palatasının işə başlaması mərasimində birlikdə iştirak etdik.

Mən bu əməkdaşlığı yüksək qiymətləndirirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim əməkdaşlığımız bundan sonra günü-gündən genişlənəcək və inkişaf edəcəkdir. Mən bununla yanaşı, bütün başqa ölkələrlə də iqtisadi əməkdaşlığın Azərbaycan üçün çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm. Azərbaycandan çox uzaqda yerləşən, iqtisadi cəhətdən inkişaf etmiş və böyük imkanlara malik olan Yaponiyanın və onun iri şirkətlərinin Azərbaycana marağını mən bir daha xüsusi qeyd edirəm. Hesab edirəm ki, bizim bu sahədə əməkdaşlığımız səmərəli ola bilər və mən onun çox müsbət gələcəyinə inanıram.

Mən qeyd etmək istəyirəm ki, özəl şirkətlərlə birbaşa əməkdaşlığımız eyni zamanda dövlətlərin bu əməkdaşlığa böyük maraq göstərməsi, yardım etməsi beləliklə bizim dövlətlərarası əməkdaşlığımızın inkişaf etməsinin əsasını yaradır. Məhz buna görə də həmişə – artıq dördüncü dəfədir ki, bu müqavilələrin imzalanması mərasimində şirkətlərin rəhbərləri ilə yanaşı, ölkələrin hökumət nümayəndələri də iştirak edirlər.

Bu gün bu müqavilənin imzalanması mərasimi münasibətilə Azərbaycana Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, başqa ölkələrdən qonaqlar gəliblər. Mən bütün qonaqları səmimi qəlbdən salamlayıram və onların hamısına "Xoş gəlmisiniz!" deyirəm.

Mən Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə [172-173] heyətinin rəhbəri cənab Yan Kalitskini salamlayıram. Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətlərinin başçıları – "AMOKO"nun prezidenti cənab Don Steysini, "Yunokal"ın vitse-prezidenti cənab Marti Milleri salamlayıram.

Mən Yaponiya hökuməti nümayəndə heyətinin rəhbəri cənab Toşiro Tzunozakini və "İtoçu" korporasiyasının "Enerji kemikl" qrupunun prezidenti cənab Koçu Nocimanı salamlayıram.

Mən Səudiyyə Ərəbistanının "Delta" şirkətinin prezidenti, yaxın dostumuz cənab Bədr əl-Əybanı salamlayıram.

Böyük bir neft müqaviləsinin imzalanması Azərbaycan ictimaiyyətində, respublikamızda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində geniş maraq doğurur. Bu, xarici ölkələrdən Azərbaycana gəlmiş qonaqlarda da böyük maraq doğurur. Onların bir çoxu bizim bu mərasimdə, bu gün "Gülüstan" sarayında iştirak edir.

Bu mərasimdə iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların respublikamızdakı nümayəndəliklərinin başçılarını, Azərbaycana gəlmiş bütün xarici qonaqları və Azərbaycan ictimaiyyətinin bu mərasimdə iştirak edən nümayəndələrinin hamısını ürəkdən salamlayıram.

Azərbaycanda dördüncü neft müqaviləsinin imzalanması çox sevindirici haldır, əlamətdar bir hadisədir. Bu hadisə münasibətilə "Gülüstan" sarayına toplaşanları və Azərbaycan Respublikasının vətəndaşlarını, xalqımızı ürəkdən təbrik edirəm.

Hörmətli dostlar, beləliklə, "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarının istifadə olunması üçün son illər aparılan böyük və gərgin iş başa çatıb, bu yataqların istifadə olunması üçün hazırlanmış neft müqaviləsi bizə təqdim edilibdir. Hesab edirəm ki, onu bu təntənəli mərasimdə imzalamaq artıq mümkündür. Mən şirkət rəhbərlərini və müqaviləni imzalayacaq şəxsləri bu mərasimə başlamağa dəvət edirəm.

İmzalama mərasimi başlanmazdan əvvəl bir məlumatı da sizə çatdırmaq istəyirəm. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qor ilə mənim dünən telefon danışığım olmuşdur. Bizim telefon danışığımızda Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələri haqqında bir çox məsələlər müzakirə edilmişdir. Vitse-prezident cənab Albert Qor dünən Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatasının açılmasından məmnun olduğunu bildirmişdir. [173-174]

Cənab Albert Qor bu gün Amerika Birləşmiş Ştatlarının "AMOKO" və "Yunokal" şirkətləri ilə və başqa şirkətlərlə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanacaq müqavilə haqqında xoş arzularını bildirmiş və

bu münasibətlə öz təbrikini çatdırmışdır. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qorun bu müqavilənin imzalanması münasibətilə bu mərasimə göndərdiyi təbriki və salamları məmnuniyyətlə sizə çatdırıram.

Bir daha təbrik edirəm və sizi müqaviləni imzalamağa dəvət edirəm. Sağ olun.

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, dostlar!

Bu gün biz böyük və tarixi əhəmiyyət kəsb edən bir hadisənin iştirakçısıyıq. Bakıda dünyanın böyük neft şirkətləri ilə Azərbaycan arasında dördüncü neft müqaviləsi imzalandı. Müqavilə hazırlanarkən biz bu işə çox səylər qoymuşuq, onun lazım olub-olmadığını çox müzakirə etmişik. Bu gün müqavilənin imzalanması mərasimində bu konsorsiumun üzvü olan ölkələrin nümayəndələrinin çıxışları, onların fikirləri, mülahizələri və gətirilən konkret rəqəmlər, dəlillər onu göstərir ki, bu müqavilə həqiqətən çox xeyirlidir, faydalıdır.

Amerika Birləşmiş Ştatları, Yaponiya nümayəndə heyətlərinin başçıları, "AMOKO", "Yunokal", "İtoçu", "Delta" şirkətlərinin rəhbərləri öz çıxışlarında bu müqavilənin mənası, əhəmiyyəti haqqında çox faydalı sözlər söylədilər. Bizim qonaqlarımız eyni zamanda Azərbaycan Respublikasının bu günü, gələcəyi haqqında, dövlətimizin gördüyü işlər barədə və Azərbaycanda hazırkı vəziyyət haqqında çox xoş sözlər dedilər.

Hörmətli qonaqlar, bu fikirlərinizə və xoş münasibətinizə görə mən sizə təşəkkür edirəm. Eyni zamanda sizin fikirləriniz, mülahizələriniz bir daha inandırır ki, tutduğumuz yolla biz bundan sonra da inamla gedə bilərik. [174-175]

Azərbaycanın enerji ehtiyatlarından istifadə edilməsi üçün bu gün dünyanın böyük neft şirkətləri, bir çox ölkələri ilə əməkdaşlığa həsr olunmuş dördüncü müqavilə imzalandı. İki il müddətində biz dörd müqaviləni hazırlayıb imzalamışıq. Hesab edirəm ki, bu, böyük nailiyyətdir.

Məlumdur ki, bu müqavilələr Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi və xalqımızın rifah halının yaxşılaşdırılması üçün çox dəyərli sənədlərdir. Bu müqavilələr sosial-iqtisadi sahədə bizim gələcək illər üçün uzunmüddətli proqramımızın böyük bir hissəsidir. Son iki il müddətində, birinci müqavilə imzalanandan indiyədək Azərbaycanın iqtisadi vəziyyətində xeyli dəyişikliklər baş vermişdir. Mən əminəm ki, gələcək illərdə bu müqavilələrin əməli surətdə həyata keçirilməsi nəticəsində müsbət dəyişikliklər gündən-günə artacaq və bu müqavilələr Azərbaycanın iqtisadiyyatına ilbəil, ardıcıl surətdə öz müsbət təsirini göstərəcəkdir.

Həmin müqavilələr bu gün də bizim üçün həm iqtisadi, həm də mənəvi əhəmiyyət kəsb edir. Ancaq onlar Azərbaycanın gələcəyi üçün daha çox əhəmiyyətlidir. Bu müqavilələrin müddətləri 25-30-40 ildir. Demək, biz nəinki bu günümüz üçün, həm də Azərbaycanın gələcək nəsillərinin rifahı üçün çalışırıq, bundan ötrü yaxşı əsas yaradırıq. Eyni zamanda bu müqavilələr Azərbaycanda gedən böyük iqtisadi islahatların tərkib hissəsidir, respublikamızın iqtisadiyyatım bazar iqtisadiyyatı yolu ilə aparmaq, dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatı səviyyəsinə qaldırmaq işində çox dəyərli addımlardır.

Bu müqavilələr Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğunun, iqtisadi strategiyamızın böyük bir hissəsidir. Bu müqavilələr Azərbaycanı dünya iqtisadiyyatı ilə daha sıx bağlamağa kömək edir və hesab edirəm ki, onların həyata keçirilməsi bu əlaqələri daha da genişləndirəcəkdir.

Bilirsiniz ki, bu müqavilələrin hazırlanması və imzalanması çox gərgin bir vəziyyətdə həyata keçirilmişdir. Bu müqavilələr Azərbaycanın bütün ictimaiyyəti tərəfindən böyük məmnuniyyətlə, iftixar hissi ilə qəbul olunduğu halda, ölkəmiz onların həyata keçirilməsində bəzi qüvvələrin maneçilikləri ilə rastlaşır. Bizim bu cəsarətli addımlarımız Azərbaycandan kənarda [175-176] da bəzən qısqanclıqla, ayrı-ayrı mənfi münasibətlərlə qarşılaşır. Ancaq bunların heç biri bizim iradəmizi pozmayıbdır. Biz tutduğumuz yolun düzgünlüyünə inanırıq. Ona görə də tutduğumuz bu yolla cəsarətlə, inamla gedirik.

Mən məmnuniyyət hissi ilə qeyd edirəm ki, qonaqlarımız bugünkü çıxışlarında Azərbaycan Respublikasının daxilində yaranmış ictimai-siyasi sabitliyi xüsusi qeyd etdilər. Bu həqiqətdir. Eyni zamanda bu, belə böyük iqtisadi addımların atılması, xarici şirkətlərin Azərbaycanla müştərək iş görməsi üçün əsas şərtdir. Azərbaycanda ictimai-siyasi sabitliyə nail olmaq, ölkəmizin iqtisadiyyatında çox dəyərli dəyişikliklər aparmaq, iqtisadi islahatlar keçirmək respublikamızın simasını tamamilə dəyişdirmiş və Azərbaycana xarici ölkələr tərəfindən marağı, müştərək iş görmək istəyini artırmışdır.

Məhz bunların nəticəsində biz Azərbaycanda iqtisadi sahədə xeyli nailiyyətlər, belə müqavilələrin imzalanmasına imkan əldə etmişik və bundan sonra da bu cür addımların atılması üçün yaxşı zəmin yaratmışıq.

Azərbaycanın enerji ehtiyatları çox zəngindir və bunlardan gələcəkdə də müştərək istifadə etmək üçün bizim imkanlarımız böyükdür. Bizim bu sahədə bir çox əhəmiyyətli, maraqlı planlarımız vardır. Ümidvaram ki, biz gələcək illərdə bu planları da həyata keçirəcəyik. Azərbaycan iqtisadiyyatının başqa sahələrində də xarici ölkələrin şirkətləri ilə əməkdaşlıq etmək üçün böyük imkanlar vardır. Güman edirəm ki, qarşıdakı illərdə biz bu imkanlardan da səmərəli istifadə etməyə nail olacağıq.

Bir sözlə, bu gün biz Azərbaycanın gələcək inkişafının yeni bir mərhələsindəyik. İmzaladığımız

müqavilənin, yəni neft yatağının adı "Dan ulduzu"dur. Dan ulduzu böyük işıq verən bir ulduzdur. Güman edirəm ki, "Dan ulduzu" neft yatağı üzrə müqavilə Azərbaycanın gələcək işlərinə çox böyük və nurlu işıq verəcəkdir.

Mən sizi bir daha təbrik edirəm. Ümidvaram ki, bu gün imzaladığımız müqavilə əməli surətdə, dərhal həyata keçiriləcək və biz onun müsbət nəticələrini görəcəyik. Gələcək nəsillər üçün isə biz daha müsbət nəticələr hazırlayırıq.

Bugünkü mərasimdə iştirak etdiyinizə görə mən sizin hamınıza təşəkkür edirəm. Müqavilə uğurlu olsun! Əminəm ki, uğurlu olacaqdır. Ümidvaram ki, biz gələn illərdə yeni müqavilələrin imzalanmasına bir də toplaşacağıq. Sağ olun. [176-177]

## ARDNŞ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏNİN İMZALANMA MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

**Sual: Cənab prezident, bir sıra mütəxəssislər imzalanmış ikinci müqavilənin şərtlərini birinci müqavilənin şərtlərindən, üçüncü müqavilənin şərtlərini isə ikinci müqavilənin şərtlərindən daha əlverişli hesab edirlər. Bu məntiqi inkişaf etdirsək, deyə bilərikmi ki, bu gün imzalanan müqavilənin şərtləri əvvəlkilərdən daha əlverişlidir?**

**Heydər Əliyev:** Bəli, hesab edirəm ki, daha əlverişlidir.

**Sual: Bu əlverişliliyin komponentləri barədə bir neçə kəlmə demək istəməzdinizmi?**

**Heydər Əliyev:** Bunların haqqında Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev öz çıxışında dedi. Əgər onun gətirdiyi rəqəmlər sizi qane etmirsə, ona müraciət edin və o sizə daha geniş məlumat verər.

**Sual: Azərbaycanın neftlə bağlı siyasətinin strateji xətti necə olacaq? Yenə "Prodakşn Şerinq" tipli xəttə üstünlük veriləcək, yoxsa yeni bir xətt olacaq?**

**Heydər Əliyev:** Bilirsinizmi, bu barədə qəti bir fikir söyləmək mümkün deyildir. Hər bir konkret məsələ konkret vaxtda həll edilir. Gələcəkdə hansı üsuldan istifadə edəcəyimizi gələcək göstərəcəkdir.

**Sual: Cənab prezident, Xəzərin sektorlara bölünməsi prinsipinin dəstəkləndiyi barədə. ABŞ-ın açıq bəyan olunmuş mövqeyi Xəzərin hüquqi statusunun müəyyən edilməsinə müsbət təsir göstərəcəkmi və bu, Sizcə, Rusiya və İranın mövqelərinin sərtləşməsinə gətirib çıxarmayacaqmı?**

**Heydər Əliyev:** Sualınızı tam anlamadım, amma belə başa düşdüm ki, söhbət Xəzər dənizinin statusundan gedir və bununla əlaqədar Rusiya, digər ölkələr öz mövqelərini sərtləşdirməyəcəkmi? Bilirsiniz, Xəzər dənizinin statusu məsə[177-178]ləsi çox vaxt tələb edən, olduqca böyük məsələdir. Biz status barədə lazım olan yerlərdə müvafiq danışıqlar aparır, öz mülahizələrimizi, öz mövqeyimizi bildiririk. Lakin bu müqavilənin imzalanması Xəzər dənizinin statusu ilə qətiyyən bağlı deyildir. Biz artıq dördüncü müqaviləni imzalayırıq, Xəzər dənizinin statusu məsələsini isə hələ çox müzakirə etmək lazımdır.

**Sual: Cənab Heydər Əliyev, neft layihələrində Amerikanın sanballı firmalarının iştirakının fəallaşdığını nəzərə alaraq, Azərbaycan neft diplomatiyasından nə kimi dividentlər əldə etmək ümidindədir? Daha bir sual: Müqavilənin təsdiqlənməsi müddətini bir gün bildirmək mümkündürmü?**

**Heydər Əliyev:** Mən dərhal cavab verəcəyəm – texniki məsələlər qurtardıqdan, yəni müqavilə texniki cəhətdən hazırlanıb bizim parlamentə təqdim edildikdən sonra, zənnimcə, parlament müzakirəyə dərhal başlayacaq və əminəm ki, onu təsdiq edəcəkdir. O ki qaldı dividentlərə, sizi başa düşdüyüm kimi, ABŞ-dan gözlənilən dividentlərə, siz hansı dividentlərdən danışırsınız?

**Sual: Mənim sualım Don Steysiyədir. Əgər mümkünsə, yeni yaradılmış konsorsiumun gələcək üçün yaxın planlarından danışın. Konsorsiumun ilkin proqramına nələr daxildir?**

**Don Steysi:** Biz ən əvvəl təşkilati məsələləri həll etmək istərdik. Biz işçilər götürülməsi məsələsinə baxacaq, özümüz üçün ofis axtaracağıq. Biz konsorsiuma daxil olan bütün şirkətlərin nümayəndələrindən ibarət kollegial bir orqan yaratmalıyıq. Təbii ki, bütün bunlar Milli Məclis tərəfindən bəyənilməyincə edilməyəcəkdir.

**Sual: Mənim sualım Yaponiya hökumətinin nümayəndəsinədir. Yaponiya hökuməti Xəzərin statusu məsələsinin həllində hansı prinsiplərə üstünlük verir?**

**Toşiro Tzunozaki:** Cənab prezident Heydər Əliyevin dediyi kimi, bu barədə danışıqlar davam edir və biz də öz tərəfimizdən bu prosesi diqqətlə izləyirik.

**Sual: Cənab Kalitski, Xəzərin statusu ilə əlaqədar ABŞ-ın mövqeyi bəllidir: ABŞ Xəzərin sektorlara bölünməsi prinsipini müdafiə edir. Bu prinsipin reallaşması üçün Amerika dövləti öz tərəfindən Azərbaycana, eləcə də bu mövqedə dayanan ölkələrə nə kimi əməli dəstək verə bilər?** [178-179]

**Yan Kalitski:** Bu məsələdə Amerikanın mövqeyi tam aydın şəkildə bəyan edilmişdir. Bu məsələ məhz Xəzəryanı dövlətlərin maraqları ilə bağlıdır. Prezident Bill Klinton həmin məsələ barəsində bəyanatlarla dəfələrlə çıxış etmişdir, mən də öz bəyanatlarımda bu barədə dəfələrlə danışmışam.

**Sual: Cənab Kalitski, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının istismarı ilə bağlı Amerika**

**hökumətinin siyasəti müəyyənləşibmi? Əgər müəyyənləşibsə, bu siyasət nədən ibarətdir? Azərbaycan neftinin ixracı sahəsində təhlükəsizliyin təmin edilməsində Amerika Azərbaycana necə yardımçı ola bilər?**

**Yan Kalitski:** Mənə elə gəlir ki, cənab prezident Heydər Əliyev bir az öncə çox aydın şəkildə bildirdi ki, bu mətbuat konfransı dördüncü konsorsiumun yaradılması haqqında müqavilə imzalanmasına həsr edilmişdir. Ona görə də, icazənizlə, bu məsələlər barəsində qısaca olaraq cavab verim ki, biz konsorsiumun yaradılmasını çox güclü şəkildə dəstəkləyirik.

**Sual: Cənab prezident, ABŞ vitse-prezidentinin Sizə yazdığı məktubda xahiş olunur ki, Lissabon sammitindən sonra Azərbaycanın dövlət başçısı Ermənistan prezidentinə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz təkliflərini göndərsin. Bu münaqişənin həlli üçün Azərbaycanın təklifləri məlumdur. Ola bilərmi ki, yeni təkliflər meydana çıxsın? Yəni Albert Qor "təkliflər" dedikdə nəyi nəzərdə tutur?**

**Heydər Əliyev:** Bilirsinizmi, cənab vitse-prezident Albert Qorun məktubundakı "təkliflər" ifadəsi, mən belə hesab edirəm ki, ümumi xarakter daşıyır. Yəni bu o deməkdir ki, danışıqlar davam etməlidir və o üç prinsip – Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa status verilməsi və Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin olunması prinsipləri əsasında konkret işlər görülməlidir. Bu işləri görmək üçün də lazımi addımlar atmaq gərəkdir. Təkliflər bundan ibarət olmalıdır.

**Sual**: **Cənab prezident, neft yataqlarının işlənməsində Azərbaycanın gələcək strategiyası necə olacaq? Əgər belə bir strategiya yoxdursa, onu işləyib hazırlamaq planlaşdırılırmı?** [179-180]

**Heydər Əliyev:** Azərbaycanın neft yataqlarından istifadə olunması üçün Azərbaycan dövlətinin, Azərbaycan hökumətinin çox açıq-aydın strategiyası var. Məhz bu strategiyanın nəticəsidir ki, biz 1994-cü ildən indiyə qədər ardıcıl surətdə dörd böyük neft müqaviləsi imzalamışıq. Bu strategiya məlum və aydındır. Gələcək işlərimizi də bu strategiya əsasında davam etdirəcəyik.

Bugünkü mərasimdə iştirak etmiş bütün mətbuat işçilərinə, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Sağ olun. [180-181]

## BAKIDA YENİ SELLÜLYAR RABİTƏ SİSTEMİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*15 dekabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar,
bacılar və qardaşlar!

Mən sizin hamınızı, buraya toplaşan Bakı şəhərinin sakinlərini, Azərbaycan vətəndaşlarını ürəkdən salamlayıram və sizin hamınıza öz xoş arzularımı çatdırıram, sizə səadət, xoşbəxtlik diləyirəm.

Bu gün, 1996-cı ilin sona çatdığı bir vaxtda, dekabr ayında paytaxtımızda, Bakı şəhərində günəş, gözəl hava hamımızı sevindirir. Bu gözəl gündə siz hamınız istirahət etməlisiniz, öz işlərinizlə məşğul olmalısınız. Ancaq görürəm ki, Azərbaycanın ümumi işlərinə, ümumi məsələlərinə olan münasibətiniz sizi buraya toplayıbdır. Mən bundan çox məmnunam və sizinlə, öz bacı-qardaşlarımla görüşdüyümə görə çox sevindiyimi bildirirəm. Sizin hamınıza hörmət və ehtiramımı bildirirəm.

Bugünkü hadisə münasibətilə Azərbaycana Türkiyə Cümhuriyyətindən böyük nümayəndə heyəti, hörmətli qonaqlarımız gəlibdir. Mən qardaş Türkiyədən Azərbaycana gəlmiş və bu mərasimdə iştirak edən bütün dostlarımızı ürəkdən salamlayıram, onların hamısına "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Bu gün burada yeni rabitə sisteminin – "Azərsell" rabitə sisteminin açılması, şübhəsiz ki, həyatımızda yeni bir hadisədir, çox mühüm bir hadisədir. Çünki indiki zamanda rabitə hər bir insan üçün ən çox lazım olan bir vasitədir. İnsanların işləməsi üçün, fəaliyyət göstərməsi üçün, dövlətin, dövlət orqanlarının, ayrı-ayrı özəl qurumların, hər bir təşkilatın səmərəli işləməsi üçün rabitə indi çox mühüm bir vasitədir. Rabitə sahəsində son illər nailiyyətlərimiz təqdirəlayiqdir. Mən onları bu gün məmnuniyyət hissi ilə qeyd edirəm. Ancaq eyni zamanda, dünyada rabitə sahəsində əldə olunan nailiyyətlərə bizim çatmağımız üçün hələ bundan sonra da çox iş görməliyik. Bu yolda, bu mərhələdə "Azərsell" rabitə sisteminin açılması hesab [181-182] edirəm ki, Azərbaycan Respublikası vətəndaşlarının, dövlət orqanlarının, iş adamlarının, ölkəmizdə işlə məşğul olan qurumların hamısının işlərini asanlaşdıracaq və bu işləri vaxtlı-vaxtında, operativ surətdə həyata keçirməkdə onlara yardım edəcəkdir.

Mən bunu çox mühüm hadisə hesab edirəm və buna görə də burada sizinlə bir yerdəyəm. Çox əhəmiyyətli hal bundan ibarətdir ki, bu rabitə sistemi Azərbaycan rabitəçiləri ilə Türkiyə rabitəçiləri arasında əməkdaşlıq nəticəsində hasil olmuş, meydana gəlmiş və təşkil edilmişdir. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri bütün sahələrdə əməkdaşlıq etməyimizə əsas yaradıbdır. Biz bu əməkdaşlığı son illərdə gündən-günə gücləndirir, gündən-günə genişləndiririk.

Mən dəfələrlə demişəm ki, xarici ölkələrlə əməkdaşlığımızda Türkiyə Cümhuriyyəti birinci yerdə durur və birinci yerdə də durmalıdır. Türkiyənin iş adamlarının, şirkətlərinin, iş görən bütün qurumlarının Azərbaycana daha sürətlə, daha inamla gəlməsi üçün çox gözəl şərait yaranıbdır. Məmnunam ki, son vaxtlar Türkiyə şirkətləri, iş adamları, özəl sektoru bu imkanlardan səmərəli istifadə etməyə çalışır və səmərəli istifadə edirlər. Bunların nəticəsi olaraq belə bir birgə müəssisə yaranıbdır və bu, həm Azərbaycan-Türkiyə əməkdaşlığının gözəl bir nümunəsidir, həm də Azərbaycan ilə Türkiyə arasında iş birliyinin, əməkdaşlığın inkişaf etməsi üçün gözəl bir vasitədir. Mən bu hadisə münasibətilə həm Türkiyə Cümhuriyyətindən gələn qonaqlarımızı, həm də Azərbaycan rabitəçilərini ürəkdən təbrik edirəm, sizə bu işinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir. Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yaratmaq, bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx bağlamaq məqsədi daşıyır.

Bildiyiniz kimi, bu sahədə çox işlər görülübdür. Bunlardan biri də Azərbaycanın zəngin neft və qaz yataqlarının [182-183] dünyanın böyük neft şirkətləri ilə müştərək işlənməsindən və böyük fayda götürülməsindən ibarətdir. Dünən biz Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının Amerika Birləşmiş Ştatları, Yaponiya və Səudiyyə Ərəbistanının şirkətləri ilə birlikdə, müştərək işlənməsi və neft hasilatı ilə əlaqədar yeni bir müqavilə imzaladıq. Bu, iqtisadiyyatımızın inkişaf etdirilməsi üçün böyük bir addımdır, eyni zamanda Azərbaycana xarici sərmayənin gəlməsi üçün, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlanması üçün böyük bir addımdır və böyük bir tədbirdir.

Biz bu yolla gedirik və gedəcəyik. Bu sırada atılan hər bir addım, görülən hər bir iş Azərbaycan iqtisadiyyatının inkişaf etməsinə kömək edir. Bu baxımdan rabitə sahəsində görülən işlər də, şübhəsiz ki, yüksək qiymətə layiqdir və bugünkü hadisəni də mən belə qiymətli hadisələrdən biri hesab edirəm. Bunların hamısı Azərbaycan xalqının, vətəndaşlarının sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa, xalqımızın, vətəndaşlarımızın

rifah halını yüksəltməyə yönəldilibdir.

Bu gün respublikamızın çətin dövrüdür. Ermənistan silahlı qüvvələrinin səkkiz il öncə Azərbaycana qarşı başladığı təcavüz Azərbaycana böyük zərbələr vurubdur. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. Bir milyondan çox Azərbaycan vətəndaşı işğal edilmiş torpaqlardan zorla çıxarılıb, yerindən-yurdundan didərgin olunubdur. Güman edirəm, bu gün buraya, bu meydana toplaşmış Azərbaycan vətəndaşları arasında da həmin rayonlardan, həmin bölgələrdən didərgin düşmüş insanlar var, qaçqın vəziyyətində yaşayanlar var. Biz onların vəziyyəti haqqında, həyatı haqqında daim düşünürük. Azərbaycan dövləti, Azərbaycan prezidenti qaçqınlara, yerindən-yurdundan didərgin düşmüş insanlara qayğı göstərməyi özünün əsas vəzifələrindən biri hesab edir. Əmin ola bilərsiniz ki, biz bu vəzifələrimiz üzərində hər gün düşünürük və onları axıradək yerinə yetirəcəyik. Ancaq bizim məqsədimiz ölkəmizin işğal olunmuş torpaqlarını azad etməkdən, Azərbaycanın suverenliyini təmin etməkdən, vəzifəmiz Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etməkdən, müstəqil Azərbaycan Respublikasının bütün ərazisinə öz nəzarətimizi təmin etməkdən, bütün ərazimiz üzərində öz hakimiyyətimizi təmin etməkdən ibarətdir.

Bilirsiniz ki, biz bu yolda çox işlər görmüşük. Bunların sırasında dekabr ayının əvvəllərində Portuqaliyanın Lissabon şə[183-184]hərində ATƏT-in Zirvə görüşündə aparılan işlər və əldə edilən nəticələr sizə məlumdur. ATƏT-in Zirvə görüşündə bu təşkilata aid qlobal əhəmiyyət, dünya əhəmiyyəti kəsb edən bir çox işlər sırasında Ermənistan-Azərbaycan münaqişəsi də müzakirə olunmuşdur. Orada Azərbaycan öz haqlı tələblərini irəli sürmüş, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzü bir daha pisləmiş və onların bu təcavüzkar siyasətini dünyaya bir daha bildirmiş, bu məsələnin sülh yolu ilə həll olunması haqqında bir daha bəyanat vermişdir. Aparılan işlər nəticəsində biz müsbət nəticə əldə etmişik. Bu da ondan ibarətdir ki, Lissabon Zirvə görüşündə toplaşmış bütün dövlət başçıları, hökumət başçıları hamısı birlikdə Azərbaycanın ədalətli işini müdafiə etmişdir, məsələnin sülh yolu ilə həll olunması üçün irəli sürülmüş əsas prinsipləri – Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması və təmin olunması, yalnız və yalnız Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa status verilməsi prinsiplərini dəstəkləmiş və bu barədə sizə məlum olan sənədi qəbul etmişdir. Hesab edirəm ki, bu, məsələnin sülh yolu ilə həll olunması üçün, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi üçün atılan çox dəyərli bir addımdır. Əminəm ki, bu görülən iş, əldə olunan nəticə gələcəkdə bizi daha uğurlu nəticələrə gətirib çıxaracaqdır.

Bunların hamısı onu göstərir ki, biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq. Bunların sırasında da rabitə sisteminin inkişaf etdirilməsi mühüm sahələrdən biridir. Məhz buna görə də bugünkü hadisəyə belə münasibət göstərmişəm. Ona görə də siz buraya toplaşmısınız və mən buraya gəlmişəm.

Bu hadisə münasibətilə mən rabitəçilərimizi təbrik edirəm, Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş və Azərbaycanla birgə iş aparmış, yaxşı nəticə əldə etmiş Türkiyə şirkətlərini və Türkiyə Cümhuriyyətinin nümayəndələrini ürəkdən təbrik edirəm. Sizin hamınızı təbrik edir, gələcək işlərinizdə sizə uğurlar arzulayıram!

Əziz bacı və qardaşlar, hamınıza bir daha hörmət və ehtiramımı bildirir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun. [184-185]

## UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ, HABELƏ YUNİSEF-in 50 İLLİYİ MÜNASİBƏTİLƏ "UŞAQLAR DÜNYANIN SEVİNCİDİR" ŞƏNLİK MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, Teleteatr*

*15 dekabr 1996-cı il*

Əziz uşaqlar, əziz balalar, əziz övladlarımız!

Mən sizin hamınızı və televiziya vasitəsilə Azərbaycan Respublikasının bütün uşaqlarını, müstəqil Azərbaycanın bütün övladlarını salamlayır, hamınızı Beynəlxalq Uşaq günü münasibətilə, beynəlxalq uşaq təşkilatının – YUNİSEF-in 50 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün sizin aranızda olmaqdan çox məmnunam: siz bizim Azərbaycanın əziz uşaqları, əziz övladlarısınız. Azərbaycanın gəncləri Azərbaycanın gələcəyidir. Doğma Vətən – Azərbaycan, doğma ölkə, müstəqil Azərbaycanın dövləti sizin gələcəyiniz üçün çox işlər görür. Siz Azərbaycanın müstəqilliyinin ilk illərində oxumağa başlamısınız, təhsil alırsınız, Azərbaycanın gözəl gələcəyini görmək imkanınız var. Ona görə də siz bizim, Azərbaycanın xoşbəxt balalarısınız. Oxumağınız, təhsil almağınız, həyatda yaşamaq, işləmək, cəmiyyətdə özünüzü göstərmək üçün hazırlaşmağınız sizin əsas vəzifənizdir.

Mən çox məmnunam ki, son illər xalqımız sülh, əmin-amanlıq şəraitində yaşayır. Sizə təhsil almaq, istedadınızı inkişaf etdirmək, özünüzü gələcəyə hazırlamaq üçün daha da əlverişli şərait yaranıbdır. Bu sülh, əmin-amanlıq şəraiti, respublikamızın həyat tərzinin gündən-günə yaxşılaşması sizin hər birinizə gözəl imkanlar yaradır. Mən sizi şən, xoşbəxt, oxuyan-oynayan, çalan-şənlənən görürəm. Bu, məni həddindən artıq sevindirir və əminəm ki, bu gün Azərbaycanda televiziya ekranlarının qarşısında oturan analarınız, atalarınız, bacılarınız, qardaşlarınız və sizin kimi uşaqlar bu şənliyə, şən əhval-ruhiyyənizi, istedadınızı nümayiş etdirməyinizə çox sevinirlər, sizi alqışlayır, şən mahnılarınızdan, rəqslərinizdən, şən əhval-ruhiyyənizdən ilham alırlar. [185-186]

Mən buraya gəlməmişdən öncə, saat 2-dən televiziya ilə sizə baxır, mahnılarınızı dinləyir, rəqslərinizi müşahidə edirdim. Mən görürəm ki, siz nə qədər istedadlısınız. Bugünkü çıxışlarınızı görərkən fəxr edirəm ki, bizim Azərbaycanın bu qədər gözəl, göyçək, istedadlı balaları var, uşaqları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz. Mən çox sevinirəm. Çox sevinirəm ki, bu gün belə bir televiziya marafonu təşkil olunubdur. Mən çox sevinirəm ki, bu gün televiziya sizin sərəncamınıza verilibdir. Mən çox sevinirəm ki, bu gün siz öz mahnılarınızla, rəqslərinizlə, çıxışlarınızla, sözlərinizlə Azərbaycanın bütün vətəndaşlarını sevindirir, şadlandırırsınız. Sizi təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzu edirəm.

Siz uşaqsınız, körpəsiniz, qarşınızda böyük həyat yolu var. Ümidvaram ki, siz bu həyat yolu ilə uğurla gedəcəksiniz, valideynlərinizi, doğma Vətəninizi, doğma dövlətinizi sevindirəcəksiniz.

Son illər YUNİSEF təşkilatı Azərbaycanda çox gərəkli fəaliyyət göstərir, uşaqların qorunması, sağlamlığının təmin olunması, onlara təhsildə müəyyən imkanlar yaradılması üçün yardım, kömək göstərir, bir çox uşaq evlərinə himayəçilik edir. Ona görə də sizinlə birlikdə mən YUNİSEF-in Azərbaycanda fəaliyyət göstərən nümayəndəliyinə təşəkkürümü bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, YUNİSEF müstəqil Azərbaycanın uşaqlarının həyatına bundan sonra da qayğı və diqqət göstərəcək, burada fəaliyyətini gələcəkdə daha da genişləndirəcəkdir.

Əziz balalar, mən sizi sevirəm, hər birinizi bağrıma basır, qucaqlayıram, hər birinizi öpürəm. Sizə xoşbəxtlik arzulayıram. Valideynlərinizə xoşbəxt həyat, əmin-amanlıq arzu edirəm. Bugünkü bu gözəl mühitdə bütün Azərbaycan xalqına sizinlə birlikdə xoşbəxt həyat arzulayıram. Əminəm ki, Azərbaycan xalqının həyatı bundan sonra gündən-günə xoşbəxt, gözəl olacaqdır. Ölkəmiz gündən-günə yüksələcək, müstəqil dövlətimiz yaşayacaq və Azərbaycan xalqı Dünya Birliyində daim özünə layiq yerini tutacaqdır.

Sizi bir də təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. [186-187]

## AZƏRBAYCAN RESPUBLİKASI SƏRHƏD QOŞUNLARININ YARADILMASININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Şəhriyar adına mədəniyyət mərkəzi*

*16 dekabr 1996-cı il*

Əziz sərhədçilər!

Müstəqil Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının yaranmasının beşinci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm, bu şərəfli işinizdə sizə uğurlar arzulayıram.

Sərhəd hər bir ölkənin müstəqilliyini, suverenliyini təsdiq edən amillərdən biridir. Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr, hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi – bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır. Hər bir ölkənin sərhədinin toxunulmazlığı həm ölkə üçün, həm də beynəlxalq hüquq normaları üçün əsas prinsiplərdən biridir.

Müstəqil Azərbaycan Respublikasının dövlət sərhədləri respublikamız dövlət müstəqilliyini əldə etdiyi, Azərbaycanın beynəlxalq təşkilatlar, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanındığı və qəbul olunduğu andan müəyyən edilibdir. Bu, SSRİ dağılarkən Sovetlər İttifaqının tərkibində olan Azərbaycan Respublikasının sərhədləridir. O vaxt bizim xalqımız, dövlətimiz bu sərhədləri öz müstəqil Dövlətinin sərhədləri kimi qəbul edib və beynəlxalq təşkilatlar da, dünya birliyi də bu sərhədləri tanıyıblar. Bu sərhədlər xalqımız və müstəqil dövlətimiz üçün müqəddəs amillərdir. Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir. Buna görə də hər bir vətəndaş Azərbaycanın müstəqilliyi haqqında, öz müstəqil dövləti haqqında, müstəqil ölkəsi haqqında danışarkən sərhəd məfhumu, sərhəd anlayışı birinci sıralarda durur.

Bizim xalqımız və millətimiz üçün, ölkəmiz üçün əziz olan dövlət müstəqilliyinin əsas amillərindən biri – Azərbaycan Respublikasının sərhədləri, onun qorunması sizə, Azərbaycanın Sərhəd Qoşunlarına tapşırılmışdır. Bunların hamısı Azər[187-188]baycan Respublikası Sərhəd Qoşunlarının Respublika Silahlı Qüvvələri tərkibində nə qədər gərəkli yer tutduğunu və böyük rol oynadığını aydın göstərir. Bunların hamısı hər bir sərhədçinin Vətən, millət, xalq qarşısında, dövlət qarşısında nə qədər böyük məsuliyyət daşıdığını göstərir. Buna görə də sizə, hörmətli sərhədçilər, xalqımız, dövlətimiz şərəfli iş tapşırıb. Sizin üzərinizə şərəfli vəzifə qoyulubdur. Eyni zamanda sizin üzərinizə çox böyük məsuliyyət qoyulubdur.

Mən əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın Sərhəd Qoşunlarında xidmət edən hər bir şəxs öz vəzifəsinin nə qədər şərəfli olduğunu və üzərinə düşən bu vəzifənin nə qədər məsuliyyətli olduğunu dərk edir.

Azərbaycan müstəqil dövlət kimi gəncdir. Beş il dövlət tarixi üçün böyük bir zaman deyil. Ancaq eyni zamanda bu, Azərbaycan Respublikasının, bizim ölkəmizin daim müstəqil olması üçün başlanğıc dövrüdür, təməl daşıdır. Bu beş il müddətində görülən işlər Azərbaycan xalqının azad, sərbəst yaşamağa qadir olduğunu bütün dünyaya nümayiş etdirdi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi yaşamağa qadir olduğunu bütün dünyaya göstərdi. Bu, xalqımızın müstəqillik, milli azadlıq istəyinin, iradəsinin ifadəsidir. Vaxt var idi, bəziləri hesab edirdilər ki, Azərbaycan müstəqil dövlət kimi yaşaya bilməz. Hətta artıq Sovetlər İttifaqı dağılan zaman bu ittifaqı qoruyub saxlamağa çalışırdılar. Sübut etməyə çalışırdılar ki, xalqımız azad yaşaya bilməz və respublikamız müstəqil dövlət ola bilməz. Onlar xalq qarşısında nə qədər böyük günahlar ediblər, eyni zamanda, xalqımızın böyük iradəsini dərk edə bilməyən adamlar idilər. Onlar bizim torpağımızda yaşasalar da, xalqımıza mənsub olsalar da, ancaq xalqımızın böyük mənəvi potensialına, dərin milli azadlıq hisslərinə və əsrlər boyu müstəqillik arzuları ilə yaşayan potensialına inanmırdılar, onu dərk edə bilmirdilər.

Bu beş il onu göstərdi ki, bizim ölkəmiz müstəqil ola bilər, xalqımız azad, sərbəst, heç bir başqa dövlətdən asılı olmayaraq yaşaya bilər, özü öz həyatını qura bilər. Bu beş il onu göstərdi ki, bu yolda – milli azadlıq yolunda, müstəqillik yolunda qarşımıza çıxan bütün maneələri, bütün müqavimətləri dəf etməyə biz qadirik. Bunları dəf etdik, bunların hamısını məğlub etdik, öz müstəqilliyimizi bütün dünyaya sübut etdik.

Bu beş il Azərbaycan Respublikasının həyatında eyni zamanda mürəkkəb proseslər illəri, Azərbaycan xalqının həya[188-189]tında böyük sınaqlar illəri olmuşdur. Mən bu gün böyük iftixar hissi ilə deyirəm ki, xalqımız bu sınaqlardan müvəffəqiyyətlə, uğurla çıxıbdır. Xalqımız bu maneələrin qarşısını alıbdır, bu müqavimətləri dəf edibdir, bunların hamısını darmadağın edibdir. Bir tərəfdən hələ 1988-ci ildən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüzü, ikinci tərəfdən ölkəmizin daxilində həm Azərbaycanın müstəqilliyinə zidd olan qüvvələr, həm də Azərbaycanın bu çətin dövründə öz şəxsi mənafelərini təmin etmək üçün, xalqın mənafelərinə zidd məqsədlərinə nail olmaq üçün hakimiyyət mübarizəsi aparan, vəzifə davası aparan ünsürlər, qruplar, dəstələr Azərbaycan xalqını bu müstəqillik yolunda çox əzab-əziyyətlərə salıblar.

Böyük itkilər vermişik. Azərbaycanın torpaqlarının müdafiə edilməsində, ərazi bütövlüyünün qorunmasında xalqımız böyük qurbanlar, şəhidlər veribdir. Azərbaycanın suverenliyinin və milli azadlığının qorunması yolunda xalqımız qurbanlar, şəhidlər veribdir. Azərbaycanın dövlətçiliyini qoruyub saxlamaq yolunda xalqımız qəhrəmanlıq nümunələri göstəribdir, müdriklik göstəribdir, dövlətimizə, dövlətçiliyimizə böyük sədaqət nümayiş etdiribdir. Amma eyni zamanda bizim bu yolda da qurbanlarımız, itkilərimiz olubdur.

Bir şey bizdə böyük iftixar hissi doğurur ki, bütün bunların qarşısını almışıq, bu qurbanlar, itkilər Azərbaycanın bugünkü müstəqil, qüdrətli bir dövlət olması üçün verilibdir. Bu qurbanların, bu itkilərin xatirəsi qəlbimizdə daim yaşayacaq və onların müstəqillik yolunda şəhid olması xalqımızı bundan sonra müstəqillik uğrunda mübarizəyə daha da səfərbər edəcəkdir.

Bütün bu proseslərdə Sərhəd Qoşunlarının da özünəməxsus yeri, özünəməxsus rolu var. Azərbaycanda keçmişdə milli sərhəd qoşun dəstələri heç vaxt olmayıbdır. Sərhəd qoşun dəstələri xalqımızın tarixində ilk dəfə beş il bundan öncə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra yaranıbdır. Ancaq eyni zamanda belə qoşunların yaradılması üçün, bu işin təşkil edilməsi üçün respublikamızda böyük təcrübə olubdur. Bu təcrübə də keçmiş Sovetlər İttifaqının Sərhəd Qoşunlarının həyat yolu, təcrübəsi, peşəkarlıq nümunələri, nailiyyətləridir.

Azərbaycan keçmişdə də bir sərhəd respublikası kimi yaşayıbdır. Sovetlər İttifaqının tərkibində olarkən o böyük ölkənin cənub sərhədlərinin bir hissəsini Azərbaycanın ərazisindən keçən sərhəd xətləri təşkil edibdir. Ona görə də Sərhəd Qoşunları bizim üçün tanış olan hərbi hissələrdir. Sərhədi qorumaq [189-190] prinsipləri, mexanizmi bizim üçün tanışdır. Ancaq eyni zamanda, müstəqil dövlətimizin sərhədlərini qorumaq üçün o, tanışlıq, o vaxtkı cüzi imkanlarımız, əlbəttə ki, kifayət deyil. İndiyə qədər əldə olunan təcrübə və nailiyyətlər bundan sonra Azərbaycanın Sərhəd Qoşunlarının güclənməsi, möhkəmlənməsi, təşkilatlanması üçün əsasdır. Ancaq qarşıda görüləsi işlər çoxdur.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, respublikamızın Sərhəd Qoşunlarının tərkibində xidmət edən zabitlər, əsgərlər, bütün şəxsi heyət – bunların hamısı Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin etmək üçün nə qədər böyük məsuliyyət daşıdıqlarını daim düşünməli, bu məsuliyyətin qarşısında cavabdehliyi daim bilməlidirlər. Mən Azərbaycanın Sərhəd Qoşunlarının bu günə qədər olan xidmətlərini və əldə etdiyi nailiyyətləri müsbət qiymətləndirirəm. Ancaq eyni zamanda, bunu heç də yetərli hesab etmək mümkün deyil. Görülən işlər, keçilmiş bu beş illik yol Azərbaycanda güclü, peşəkar, çox səriştəli, müasir tələblərə cavab verən Sərhəd Qoşunlarının yaranması üçün ancaq və ancaq əsasdır, bazadır. Ümidvaram ki, bu əsasda Azərbaycanın Sərhəd Qoşunları bundan sonra öz fəaliyyətini gündən-günə həm genişləndirəcək, həm təkmilləşdirəcək, kamilləşdirəcək, həm də keyfiyyətini yüksəldəcəkdir.

İmkanlar vardır. Ancaq bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Mən qeyd etdim ki, bizim sərhədçilərimiz üçün keçmiş Sovetlər İttifaqının Sərhəd Qoşunlarının təcrübəsi böyük əhəmiyyət kəsb edir. Qeyd etməliyəm ki, Sovetlər İttifaqı dağılıb və Sovetlər İttifaqı kimi bir fövqəldövlətin 70 il dövr sürdüyü bir zamanda bu dövlətin, bu quruluşun böyük nailiyyətləri də olubdur. Bəli, böyük nailiyyətləri də olub, çatışmamazlıqları, mənfi cəhətləri də olubdur. Məhz bu ikincisinə görə həmin dövlət artıq yaşaya bilməyib, dağılıb və bu da böyük tarixi hadisə olubdur. Ancaq o dövlətin Sərhəd Qoşunları, – mən bunu şəxsən çox yaxşı bilirəm, – böyük təcrübəyə malik olublar. Dünyanın bütün başqa regionlarından fərqli ictimai-siyasi, iqtisadi quruluşa malik olan böyük bir dövlətin sərhədlərini qorumaq üçün bütün başqa ölkələrin sərhəd sistemlərindən güclü Sərhəd Qoşunları, sərhəd sistemi yaranmalı idi.

Belə bir sistem yaranmışdı. Bəlkə də dünyada heç bir başqa ölkənin o qədər güclü sərhəd qoşun hissələri olmayıb, o [190-191] qədər güclü sərhədqoruma sistemi, mexanizmi olmayıb. Bunu etiraf etmək lazımdır. O təcrübə bizim üçün çox gərəklidir. Doğrudur, sərhədi qorumaq üçün keçmişdə yaranmış mühəndis-texniki qurğular, cürbəcür cihazlar, sərhədqoyma vasitələri, avadanlığı almaq, təmin etmək indiki iqtisadi vəziyyətimizə görə ölkəmiz üçün mümkün deyil. Bəlkə də buna heç ehtiyac yoxdur. Ancaq bu gün bizim üçün o sistemin yararlı olan təcrübəsindən faydalanmaq, səmərəli istifadə etmək lazımdır.

Bir təcrübə də bizim üçün çox gərəklidir. Bu gün bu həqiqəti də etiraf etmək lazımdır ki, keçmişdə Sovetlər İttifaqının sərhəd dəstələrində xidmət edən əsgərlərdən zabitlərə qədər yüksək mənəviyyata malik sərhəd dəstələri müşahidə olunurdu. Biz yüksək peşəkarlığa, yüksək nizam-intizama malik sərhəd dəstələrinin şahidi olmuşuq. Hesab edirəm ki, keçmiş sərhəd dəstələrində gördüyümüz belə nizam-intizam və Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına sədaqət bizim sərhəd dəstələrində yüksək səviyyədə təmin oluna bilsə, sərhədlərimizin qorunmasında indiyə qədər meydana çıxan nöqsanları aradan qaldırmaq üçün çox işlər görmək olar və çox müsbət nəticələr əldə etmək olar.

Sərhədlərimiz bizi əhatə edən dost ölkələrlə olan sərhədlərdir. Ermənistanla bizim aramızda müharibə var, münaqişə var. Ermənistan Respublikası öz hərbi təcavüzü ilə Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərini pozmuşdur. O, nəinki Ermənistanla Azərbaycan arasında olan sərhədləri pozmuşdur, hətta Azərbaycanla İran arasında olan sərhədlərin bir hissəsini pozmuşdur və o hissəni də işğal etmişdir. Ona görə də burada, Ermənistanla bizim aramızda ordumuzun silahlı dəstələri durur. Onlar həm bir ordu kimi ölkəmizin ərazisini müdafiə edir, həm də Ermənistanla bizim aramızda durur. Doğrudur, onların durduğu yer bizim sərhədimiz deyil. Bizim sərhədimiz Ermənistan silahlı qüvvələrinin işğalı altında qalıbdır. Ancaq Ermənistan

silahlı qüvvələri ilə üz-üzə duran ordumuzun hissələridir.

Bütün digər ölkələrlə sərhədlərimiz demək olar ki, dost ölkələrlə olan sərhədlərimizdir. Amma eyni zamanda, – siz bunu bilirsiniz, – mən qeyd etmək istəyirəm ki, bu ölkələrdə də cürbəcür təxribatçı qruplar, terrorçu dəstələr, qaçaqmalçılar, narkotik maddələrin keçirilməsi və satışı ilə məşğul olan gizli qruplar, dəstələr və başqa cinayətkar ünsürlər sərhəddən bizim ölkəmizə daxil olmaq cəhdləri göstərirlər və bəzən də, [191-192] təəssüflər olsun ki, daxil olurlar, burada öz cinayətkar işlərini görə bilirlər, təxribatçılıq edirlər, ölkəmizə böyük ziyanlar vururlar.

Bununla yanaşı olaraq, ölkəmizin daxilində mövcud olan cinayətkar ünsürlər, cinayətkar dəstələr, vaxtilə cinayət yolu ilə dövləti, dövlət hakimiyyətini devirməyə cəhd göstərən qruplar, dəstələr, onların da bir qismi, ayrı-ayrı qruplara, dəstələrə mənsub olan şəxslər yaxalanmaqdan qurtarmaq üçün ölkəmizdən qaçıb qonşu ölkələrdə gizlənirlər. Ancaq sakitcə gizlənmirlər, orada öz cinayətkarlıq fəaliyyətini davam etdirirlər, ölkəmizə qarşı cürbəcür təxribat planları qururlar, terror aktları həyata keçirmək planları qururlar, ölkəmizin daxilində olan sabitliyi pozmağa çalışırlar, cürbəcür başqa cinayət yollarına əl atırlar. Bütün bu cinayət məqsədlərini ölkəmizin daxilində həyata keçirmək üçün, şübhəsiz ki, onlar bizim sərhədlərimizdən keçib gəlməlidirlər. Onlardan istifadə edirlər – ya Sərhəd Qoşunlarının daim sərhəddə durduğu məntəqələrdən, yaxud da, təəssüflər olsun ki, rəsmi keçid məntəqələrindən keçirlər, gəlirlər və burada cürbəcür cinayətkar işlərini törətməyə çalışırlar və bəzən də təəssüf ki, görürlər.

Sizə məlumdur ki, təxminən son bir ay içərisində Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi tərəfindən bir neçə belə qruplar, dəstələn yaxalanıblar, həbs ediliblər, məsuliyyətə cəlb olunublar. Onların bir çoxu artıq etiraf edirlər ki, bu cinayət əməllərini həyata keçirmək üçün başqa ölkələrə gediblər, başqa ölkələrdən gəliblər, ayrı-ayrı sərhəd keçid məntəqələrindən keçiblər. Bunlar hamısı bir tərəfdən, sərhədlərimizin etibarlı qorunmasının bizim üçün nə qədər vacib olmasını göstərir, ikinci tərəfdən də bizim sərhəd dəstələrinin, Sərhəd Qoşunlarının işində olan ciddi nöqsanları, çatışmazlıqları göstərir.

Ona görə də bu gün biz Sərhəd Qoşunlarının yaranmasının beşinci ildönümünü qeyd edərkən açıq-aydın dərk etməliyik ki, bu qoşunların qarşısında çox böyük, Azərbaycanın dövlətçiliyini qorumaq üçün çox əhəmiyyətli, vacib vəzifələr durur. Təəssüflər olsun ki, bu qoşunların, bu dəstələrin işində çox nöqsanlar da var. Ümid edirəm ki, siz bu beş illik təcrübədən istifadə edərək, Sərhəd Qoşunlarına xalqımız tərəfindən göstərilən qayğıya və diqqətə, dövlətimizin Sərhəd Qoşunlarına göstərdiyi qayğıya və diqqətə cavab olaraq fəaliyyətinizi daha [192-193] da səmərəli edəcəksiniz və işinizdə olan nöqsanların aradan qaldırılması üçün ciddi tədbirlər görəcəksiniz.

Eyni zamanda, Sərhəd Qoşunlarının fəaliyyətinin müvəffəqiyyətli olması üçün bu qoşunlara kömək etmək lazımdır. Mən Azərbaycanın prezidenti kimi, Sərhəd Qoşunlarının istənilən səviyyədə fəaliyyət göstərməsi üçün indiyə qədər lazımi tədbirlər görmüşəm və bundan sonra da görəcəyəm. Sərhəd qoşunlarının, sərhəd dəstələrinin maddi-texniki bazasının yaranması, inkişaf etdirilməsi üçün bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Sərhəd Qoşunlarında xidmət edən Azərbaycan vətəndaşlarına – əsgərlərə, zabitlərə də lazımi qayğı indiyə kimi göstərilib, bundan sonra da göstəriləcəkdir.

Eyni zamanda hesab edirəm ki, gərək bizim xalqımız, cəmiyyətimiz, ictimaiyyətimiz də Sərhəd Qoşunlarına bundan sonra daha çox qayğı göstərsinlər, kömək etsinlər. Keçmiş zamanların yaxşı bir ənənəsi də var. Keçmişdə, Sovetlər İttifaqı dövründə Sərhəd Qoşunlarına, adətən, ayrı-ayrı böyük təşkilatlar hamilik, kömək edirdilər. Xüsusən, onlar üçün yaşayış binaları tikmək, onların maddi-texniki bazasını gücləndirmək və başqa məsələlər üçün çox işlər görülürdü. Azərbaycanda da belə işlər çox görülübdür və mən keçmişdə bunların həm şahidi, həm də iştirakçısı olmuşam. Bilirəm, nə etmək olar. Vaxtilə Sovetlər İttifaqının Sərhəd Qoşunları birbaşa mərkəzdən maliyyələşdirilirdi və bütün sahələrdə təmin edilirdi. Sərhəd qoşunları yerli orqanlara tabe olmurdu. Lakin yerli hakimiyyət orqanları ilə Sərhəd Qoşunları arasında sıx münasibətlər var idi. Bu münasibətlər də Sərhəd Qoşunlarına daha da kömək etməklə və sərhədlərimizin qorunması üçün yerli hakimiyyət orqanları tərəfindən lazımi tədbirlər görülməsi ilə əlaqədar idi.

Ancaq bununla yanaşı, – bunu bizim sərhədçi veteranlarımız yaxşı bilirlər, – vaxtilə Azərbaycan Respublikasının rəhbərliyi öz daxili imkanlarından istifadə edərək, Azərbaycanın ərazisində yerləşən sərhəd dəstələrinin ərazisinin abadlaşması, yaşayış evlərinin tikilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi üçün çox işlər görübdür. Məsələn, Naxçıvanda olan böyük sərhəd dəstəsinin binasının, – onun gözəl binası var, maddi-texniki bazası var, – o binanın tikilməsi üçün Azərbaycan Respublikası öz vəsaitindən nə qədər pul və ayrı-ayrı başqa vəsaitlər ayırmışdı və ondan istifadə edirdi. Orada sərhəd [193-194] dəstəsi üçün binalar, yaşayış evləri tikilirdi. Eləcə də Prişibdə, Lənkəranda, başqa yerlərdə o vaxtlar ayrı-ayrı zastavaları hamiliyə götürürdülər, onlara kömək edirdilər. Bunlar hamısı sınaqdan çıxmış təcrübələrdir. Hesab edirəm ki, biz bu ənənələrdən də səmərəli istifadə etməliyik.

Ona görə də mən Azərbaycanda imkanı olan təşkilatları bu işə dəvət edirəm. Yerli hakimiyyət orqanlarını sərhəd dəstələrinin yaşayış yerlərini abadlaşdırmaq üçün, maddi-texniki bazasının imkanlarını genişləndirmək üçün onlara kömək etməyə dəvət edirəm. Bu sahədə də müəyyən təcrübə var. Mən keçən ay Naxçıvanda olarkən sərhəd dəstəsinə getdim, orada sərhədçilərlə görüşdüm. Sərhədçilərlə görüş zamanı, Naxçıvan Muxtar

Respublikasının rəhbərliyi ilə görüş zamanı mənə məlum oldu ki, yerli hakimiyyət orqanının – Naxçıvan Ali Məclisinin təşəbbüsü ilə sərhəd dəstəsini ərzaq, yanacaq və başqa şeylərlə təmin etmək üçün orada çox kömək olunur. Mən orada sərhəd dəstəsini çox yaxşı vəziyyətdə gördüm. Bu məni çox sevindirdi.

Sərhədçilər də çox iş görə bilərlər. Bu da bizə keçmiş təcrübədən məlumdur. Sərhədi yaxşı qorumaqla yanaşı, sərhəd boyu torpaqlardan səmərəli istifadə etmək olar. Qabaqda qışdır, sonra yaz gələcək. Əkin əkmək, mal-qara saxlamaq, təsərrüfatlar yaratmaq olar. Zastavalarda çox yaxşı təsərrüfatlar yaratmaq mümkündür. Bunlar bizim sərhədçilərin ərzaqla təmin olunması üçün yardımçı təsərrüfat kimi çox iş görə bilərlər. Bunları etmək lazımdır. Bunları sərhədçilər özləri etməlidirlər. Eyni zamanda bizim yerli hakimiyyət orqanları, yəni icra orqanları bu işə qoşulmalıdırlar, kömək etməlidirlər və birgə fəaliyyət göstərməlidirlər. Yenə də deyirəm, mənim bu yaxın vaxtlarda Naxçıvanda gördüyüm təcrübə, hesab edirəm bütün başqa sərhəd bölgələrinə də yayılmalıdır. Hər bir yerdə hakimiyyət orqanları ilə sərhəd dəstələrinin komandirləri, zabitləri sağlam əməkdaşlıq edə bilsələr, çox iş görə bilərlər. Təkcə ərzaq təminatında yox, başqa məsələlərdə də.

Bilirsiniz ki, 1989-cu ilin sonunda Azərbaycanda gedən ictimai-siyasi proseslər nəticəsində bəzi qüvvələr, dəstələr tərəfindən Azərbaycanla İran və Türkiyə arasındakı sərhəddə mühəndis-texniki qurğuların çoxu dağıdılıbdır. O vaxtları insanlar çox ehtiraslı, həyəcanlı olduqlarına görə və ümumiyyətlə, mərkəzi dövlət tərəfindən Azərbaycana qarşı çox ədalətsiz[194-195]liklər edildiyinə görə, Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyindən olan narazılığa görə belə hərəkətlər ediblər və sərhəd boyu güclü mühəndis-texniki qurğular dağıdılıbdır.

Bəlkə də o vaxt bu hadisələr müsbət xarakter daşıyırdı. Çünki xalqımız istəyirdi ki, azad olsun, bu simli sərhədlərdən xilas olsun. Məsələn, Arazın o tayındakı bacı-qardaşlarımızla sərbəst əlaqəmiz olsun. Bunları da anlamaq lazımdır. Hər şeyə tarixi dövrün hökmü ilə qiymət vermək lazımdır. Ancaq nəticə etibarilə bunlar bizim indiki müstəqil dövlətimiz üçün böyük zərər vurub. Mənə yaxşı məlumdur, burada iştirak edən sərhədçilər, o illərdə sərhəddə xidmət edənlər bilirlər ki, o vaxt Azərbaycanın, Sovetlər İttifaqının sərhədlərini qorumaq üçün nə qədər güclü texniki vasitələr yaradılmışdı. Əgər onlar qorunub saxlansaydı, indi bu vasitələr bizim sərhədlərimizin qorunması üçün çox gərəkli, lazımlı olardı. Onları o vaxt dağıdıblar.

Ancaq yenə də Naxçıvanda mənə məlumat verdilər ki, onlar – həm yerli hakimiyyət orqanları, həm də sərhəd dəstələri öz imkanlarından istifadə edərək, bir çox yerlərdə o mühəndis-texniki qurğuları bərpa ediblər, beləliklə də, sərhədin qorunmasında lazımi nizam-intizam yarada biliblər.

Bilirsiniz, bizim respublikamızda 1990-cı ildən hərc-mərclik, özbaşınalıq olduğuna görə, nizam-intizam, qanun-qayda pozulduğuna görə çox cinayətlər ediblər. Məsələn, mən 1991-1992-ci illərdə Naxçıvanda yaşayarkən, işləyərkən, hətta 1993-cü ildə buraya gələnə qədər məlumatlar alırdıq, bilirdik ki, bizim mal-qaranı Arazdan o tərəfə keçirib çox ucuz qiymətə satırdılar. O tərəfdən bu tərəfə keçib qaçaqmalçılıqla məşğul olurdular. Belə şeylər olurdu. Təəssüflər olsun ki, o vaxt bizim sərhədi qoruyaraq, eyni zamanda bu sərhədlərdə cürbəcür cinayətkar niyyətlərini həyata keçirirdilər, qaçaqmalçılıqla, başqa təxribat işləri ilə məşğul olurdular. Allaha şükürlər olsun ki, bunlar tədricən aradan götürülüb. Siz təsəvvür edin, 1992-1993-cü illərdə sərhədlərin vəziyyəti ilə bugünkü vəziyyəti müqayisə edin. Xatırlayın, o vaxt vəziyyət nə cür idi? O vaxt sərhəd yox dərəcəsində idi, kim haradan istəyirdi, oradan da keçirdi. İndi bu sahədə vəziyyət xeyli yaxşılaşıbdır, nizam-intizam yaranıbdır. Ancaq tam həqiqi sərhədqoruma nizam-intizamı yaratmaq və sərhəddə bütün vasitələrdən səmərəli istifadə etmək üçün hələ çox işlər görülməlidir. Ona görə də siz gə[195-196]rək keçmişdə baş vermiş bu bəlaları təhlil edərək, onlardan nəticə çıxarasınız, buraxılmış nöqsanlardan nəticə çıxarasınız, eyni zamanda bu son illər əldə olunmuş təcrübədən, nailiyyətlərdən istifadə edəsiniz, müsbət təcrübəni yaya biləsiniz ki, sərhədlərimiz etibarlı qorunsun və biz dövlət müstəqilliyimizi günbəgün, aybaay, ilbəil gücləndirə bilək.

Bizim hər bir vətəndaşımızdan yüksək mənəviyyat tələb olunur. Biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Bunu qiymətləndirmək, qorumaq, möhkəmləndirmək, gücləndirmək lazımdır. Bunun üçün əsas şərtlərdən biri insanlarda yüksək mənəvi keyfiyyətləri tərbiyə etmək, inkişaf etdirmək, insanlarımızda, cəmiyyətimizdə yüksək mənəviyyatı təmin etməkdir. Təəssüf ki, bu sahədə bizim həyatımızda böyük nöqsanlar, çatışmazlıqlar, bizi narahat edən hallar var. Rüşvətxorluq, dövlətin, xalqın, millətin malını dağıtmaq, qarət etmək, vəzifədən sui-istifadə etmək, korrupsiya, cəmiyyətimizi zəhərləyən cürbəcür belə hallar mövcuddur. Təəssüflər olsun ki, bunlar Silahlı Qüvvələrimizə də sirayət edibdir. Sərhəd dəstələrində də belə cinayətkar, mənəviyyatsız adamlar var. Onlar tutduğu vəzifədən, yerdən, durduğu sərhəd nöqtəsindən şəxsi mənafeyi üçün istifadə edərək dövlətin, xalqın mənafeyinə zərbələr vururlar. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Sərhəd dəstələrində bu hallarla ən ciddi mübarizə aparılmalıdır.

Sərhədçi böyük, romantik peşədir. Mən sərhədçilərin tarixini yaxşı bilirəm. Çünki özüm də keçmişdə sərhəddə çox olmuşam. Azərbaycanın sərhədlərində bəlkə də elə nöqtə yoxdur ki, mən orada olmayım. Vaxtilə, gənc yaşlarımda xidmət etmişəm, çox yerlərə piyada getmişəm, çox yerlərə at üstündə getmişəm, bizim gözəl təbiəti sərhədlərimizdə görmüşəm. Eyni zamanda sərhədçilərimizlə həmişə fəxr etmişəm. Mən sərhədi yaxşı bilirəm, sərhədin nə qədər romantik yer olduğunu bilirəm, sərhədçilərin romantik insanlar olduğunu bilirəm, bu peşənin də çox romantik, cazibədar peşə olduğunu bilirəm.

Keçmişdə çox gözəl bir ənənə var idi. Bu ənənəni indi də yaratmaq lazımdır. Sərhədçi bilməlidir ki, bu gözəl peşədir. Əgər bir insan özünü sərhədçi peşəsinə həsr edirsə, cəmiyyətdə özünəməxsus böyük bir yer tutur. Keçmişdə insanlar var idi [196-197] ki, daim sərhəddə yaşayırdılar və bununla fəxr edirdilər. Məsələn, bu yaşıl papaqları keçmişdə gənclər nə qədər iftixar hissi ilə qavrayırdılar! Bu gün də biz çalışmalıyıq ki, yaşıl papaqlar hər bir gəncdə, hər bir yeniyetmə azərbaycanlıda iftixar hissi doğursun, onları cəzb etsin və biz sərhədçi peşəsini yaşadaq, inkişaf etdirək. Çünki bizim qarşımızda on illər, yüz illər var. Müstəqil dövlətimiz əsrlər boyu yaşayacaqdır.

Nə qədər yaşayacaqsa, o qədər də onun sərhədləri olacaq və o qədər də o sərhədləri qorumaq lazım olacaqdır. Şübhəsiz, dünyada elə bir əmin-amanlıq dövrü gələcək ki, bəlkə də sərhədləri qorumaq lazım olmayacaqdır. İnsanlar elə bir səviyyəyə gəlib çatacaqlar, dövlətlərarası münasibətlər elə bir yüksək, sivilizasiyalı səviyyəyə gəlib çatacaqdır ki, bəlkə bunlara ehtiyac olmayacaqdır. Ancaq o səviyyəyə çatmaq üçün də nizam-intizamı möhkəmləndirmək, sərhədlərimizi hər yerdə həkk etmək, nümayiş etdirmək, tanımaq, qorumaq lazımdır.

Bax, bunlara görə də sərhədçi peşəsi gözəl peşədir. Sərhədçi peşəsi yüksək qiymətə layiq olan bir peşədir. Hər bir gənc, hər bir insan özünü sərhədçi peşəsinə həsr edirsə, axıra qədər həsr etməlidir. Belə olan halda o, cəmiyyətdə özünə layiq yer tutur, belə olan halda hər bir sərhədçi cəmiyyətdə çox hörmətli bir insan olur. Mən arzu edirəm ki, bizim sərhədçilərimiz belə hörmətə malik olsunlar, belə hörmətə layiq olsunlar, hər bir sərhədçi yüksək mənəviyyatlı bir insan olsun.

Bu arzularla, bu istəklərlə mən sizin hamınızı bir daha təbrik edirəm, sizə, bütün sərhədçilərə cansağlığı, səadət arzulayıram. Müstəqil Azərbaycanın sərhədlərinin etibarlı qorunmasında sizə uğurlar arzulayıram. Sağ olun. [197-198]

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ QVARDİYASININ YARADILMASININ BEŞ İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*Azərbaycan Milli Qvardiyasının Qərargahı*

*25 dekabr 1996-cı il*

Salam, milli qvardiyaçılar!

Azərbaycan Respublikası Milli Qvardiyasının yaranmasının 5-ci ildönümü münasibətilə sizi təbrik edirəm!

Milli qvardiyaçılar!

Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir. Hər bir müstəqil ölkənin özünəməxsus silahlı qüvvələri var. Dövləti, dövlətçiliyi mühafizə etmək, qorumaq üçün onun gərəkli gücü olmalıdır. Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır. Azərbaycan Respublikasının, onun prezidentinin Milli Qvardiyasının da Silahlı Qüvvələrin tərkibində xüsusi rolu vardır. Onun qarşısında böyük, şərəfli, məsuliyyətli vəzifələr qoyulubdur.

Dövlətimizin qorunmasında öz üzərinə düşən vəzifələri yerinə yetirən Milli Qvardiya birinci növbədə Azərbaycan dövlətinin, prezidentin xüsusi silahlı dəstəsidir. Bu xüsusi silahlı dəstə məhz həm dövlətin, həm də respublika prezidentinin mühafizəsini təmin etmək üçün xüsusi səlahiyyətlərə malikdir və mühüm vəzifələr daşıyır.

Azərbaycan Respublikasının Milli Qvardiyası ötən 5 il ərzində böyük, şərəfli yol keçmişdir. O, bu yolda bir çox çətinliklərlə, maneələrlə rastlaşmışdır. Bu yol enişli-yoxuşlu olmuşdur. Azərbaycanın Milli Qvardiyası respublikamızın torpaqlarının qorunması yolunda şəhidlər, itkilər vermiş, qəhrəmanlıq nümunələri göstərmişdir. Milli Qvardiya Azərbaycanın dövlət[198-199]çiliyinin qorunmasında da layiqli xidmətlər göstərmişdir.

Bütün bunlarla yanaşı, Milli Qvardiyanın təşkilində, onun idarə olunmasında, həyatında qüsurlara, səhvlərə də yol verilmişdir. Bəzən dövlətçilik prinsiplərinə zidd olan ünsürlər də Milli Qvardiyanın sıralarına soxula bilmişdilər. Müəyyən mərhələlərdə bunlar Milli Qvardiyanın fəaliyyətinə zərər gətirmiş, ziyanlar vurmuşdur. Ancaq bunlara baxmayaraq, Milli Qvardiyamız ümumən sağlam olmuşdur.

İndi Milli Qvardiya sağlam əqidəli, vətənpərvərlik hissləri, duyğuları ilə yaşayan qvardiyaçılardan ibarətdir. Son illər Milli Qvardiyanın təşkili, təkmilləşdirilməsi sahəsində aparılan işlər bu gün Milli Qvardiyanı Azərbaycanın dövlətçiliyinə, onun prezidentinin fəaliyyətinə layiq olan səviyyəyə gətirib çıxarmışdır.

Bunlar Milli Qvardiyanın 5 il ərzində keçdiyi yoldur və xüsusən son illər ərzində əldə etdiyi nailiyyətlərdir. Bu nailiyyətlər münasibətilə mən sizi təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da Milli Qvardiyanın təkmilləşdirilməsi, inkişaf etməsi, mənəvi cəhətdən sağlamlaşdırılması, onun döyüş qabiliyyətinin, peşəkarlıq səviyyəsinin yüksəldilməsi yolunda öz xidmətlərinizi göstərəcəksiniz.

Azərbaycanın prezidenti kimi mən Milli Qvardiyanı dövlətçiliyimizin, prezidentin xüsusi dayaq qüvvəsi hesab edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Milli Qvardiyanın şəxsi heyəti, hər bir əsgəri, zabiti, döyüşçüsü bu yüksək keyfiyyətlərə, tələblərə layiq olacaqdır.

Səmərəli fəaliyyət göstərmək, dövlətçiliyimizin keşiyində sədaqətlə xidmət etmək, dövlətçiliyimizə qarşı baş verə biləcək hər bir təxribat, terror, düşmənçilik hərəkətlərini dəf etmək üçün Milli Qvardiyanın indi artıq yüksək səviyyəli qüdrəti, imkanları var. Ancaq bunlarla kifayətlənmək, razılaşmaq olmaz. Mən əldə edilən nailiyyətləri qiymətləndirirəm. Eyni zamanda, Milli Qvardiyanın 5-ci ildönümü tamam olan bu gündə mən təlim-tərbiyə, fiziki hazırlıq işinizi, peşəkarlıq keyfiyyətlərinizi daha da artırmağı sizdən tələb edirəm.

Milli Qvardiyanın səmərəli fəaliyyəti üçün istənilən qayğı və diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Sizin borcunuz bu diqqət və qayğını qiymətləndirməkdən, ona layiq olmaqdan, göstərilən yüksək etimadı doğrultmaqdan ibarətdir. Gərək siz öz xidməti vəzifənizi yerinə yetirməyə hər dəqiqə, hər an hazır olasınız. Gərək siz Azərbaycan dövlətçili[199-200]yinə, onun prezidentinə qarşı yönəldilə biləcək hər bir cinayətkar, təxribatçı, terror hərəkətlərinin qarşısını hər dəqiqə, hər an almağa qadir olasınız. Mən əminəm ki, siz artıq bu gün də bu imkanlara, şəxsi keyfiyyətlərə maliksiniz. Ona görə də mən sizə inanıram, etibar edirəm. Mən sizə güvənirəm və bu şərəfli işinizdə sizə uğurlar arzulayıram.

Mən əminəm ki, Milli Qvardiyanın hər bir döyüşçüsü Vətənin, müstəqil Azərbaycanın, onun prezidentinin yolunda özünü əsirgəməyəcəkdir, lazım gələrsə qəhrəmanlıq, rəşadət nümunələri göstərəcəkdir. Bu duyğularla, bu inamla mən sizi bir daha təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm

ki, siz öz hazırlıq işlərinizi günü-gündən daha da gücləndirəcəksiniz, daim sayıq olacaqsınız, öz üzərinizə düşən vəzifəni hər dəqiqə, hər an ləyaqətlə yerinə yetirməyə hazır olacaqsınız.

Mən sizi təbrik edirəm, sizə cansağlığı arzulayıram. Bu şərəfli işinizdə sizə uğurlar arzulayıram. Sağ olun.

## MİLLİ QVARDİYANIN ƏSGƏRLƏRİ ÜÇÜN TİKİLMİŞ YENİ KAZARMANIN AÇILIŞI MƏRASİMİNDƏ TƏBRİK SÖZÜ

Milli Qvardiya daha böyük nailiyyətlər əldə etməli, öz hazırlıq, xüsusən fiziki, mənəvi hazırlıq işlərini daha da təkmilləşdirməlidir. Mən ümidvaram ki, siz bunu edəcəksiniz.

Mən bu kazarmanın tikilməsində, onun avadanlıqla təmin olunmasında və yaxşı səviyyədə hazırlanıb Milli Qvardiyanın istifadəsinə verilməsində iştirak edən inşaatçılara və bu sahədə xidmət göstərənlərin hamısına təşəkkür edirəm. [200-201]

## XALQ ARTİSTİ ZEYNƏB XANIM XANLAROVAYA

Hörmətli Zeynəb xanım!

Sizi – milli musiqi sənətimizin görkəmli xadimini, Azərbaycan incəsənətinin parlaq nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xalq mahnıları, muğam və müasir musiqini özündə birləşdirən tükənməz sənətinizi xalqımız yüksək qiymətləndirir. Sizin bənzəri olmayan ifaçılıq ustalığınız, bəstələdiyiniz təravətli və gözəl mahnılar Azərbaycan musiqi mədəniyyəti tarixində unudulmaz iz qoymuşdur.

Uzun illər opera və balet teatrımızın aparıcı solisti kimi Sizin Azərbaycan milli operasının inkişafında xidmətləriniz danılmazdır. Səhnəmizdə oynadığınız gözəl rollar heç zaman sənətsevərlərin xatirindən silinməyəcəkdir. Yaratdığınız Leyli və Əsli obrazları dramatik ifaçılıq və musiqi səciyyəsi baxımından son dərəcə dolğun və təsirli olmuşdur.

Siz Azərbaycan milli musiqisinin, mədəniyyətinin vətənimizdən uzaqlarda ən böyük təbliğatçılarından biri olmaqla bərabər, öz nadir istedadınızla bütün Şərq aləminin sevimli Zeynəbinə çevrilmisiniz. Azərbaycan xalq mahnıları, muğam, təsnif və müasir bəstəkarların əsərləri ilə yanaşı, siz dünya xalqları folklorunun mahir ifaçısı kimi də geniş şöhrət tapmışsınız.

Siz həmişə respublikanın ictimai həyatında fəal iştirak etmiş, bu gün də bir ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edirsiniz.

Əminəm ki, Siz mədəniyyətimizin, incəsənətimizin inkişafı, müstəqil Azərbaycanın çiçəklənməsi üçün bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, möhkəm cansağlığı və yaradıcılığınızda yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*27 dekabr 1996-cı il* [201-202]

## AZƏRBAYCAN-TÜRKİYƏ MÜŞTƏRƏK MÜƏSSİSƏSİNİN – ÇAYPAKETLƏMƏ FABRİKİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı, Bakıxanov qəsəbəsi*

*28 dekabr 1996-cı il*

Hörmətli bacılar, qardaşlar!
Hörmətli dostlar, xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün bu toplantı xüsusi bir əhəmiyyət kəsb edir. Bunun mənası, məzmunu Azərbaycanda son illərdə iqtisadiyyatın təkmilləşdirilməsi, bazar iqtisadiyyatının yaranması və inkişaf etməsi yolunda atılan bir addım kimi qiymətləndirilməlidir.

Respublikamızın istehsal imkanları, təbii sərvətləri və o cümlədən Azərbaycanın təbiətindən alınan məhsullar çox zəngindir, genişdir. Bunlardan səmərəli istifadə etmək lazımdır. Bunun üçün sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata geniş yol verilməsi, bazar iqtisadiyyatının yaranması bizim strateji yolumuzdur. Biz bu yolla əzmlə, addım-addım irəliləyirik.

Bildiyiniz kimi, Azərbaycanda geniş imkanlar yaranıbdır, lazımi qanunlar qəbul olunubdur. Respublikamızda iqtisadi islahatlar həyata keçirilir və insanların təşəbbüskarlıq, sahibkarlıq addımları dövlət və hökumət tərəfindən bəyənilir, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradılır. Aparılan bu iqtisadi siyasətin nəticəsində Azərbaycanda son illər özəl müəssisələr yaranır, xarici sərmayədarlar, iş adamları Azərbaycanın müxtəlif təşkilatları, istehsal müəssisələri, ayrı-ayrı iş adamları ilə işgüzar əlaqələr qurmağa daha da çox həvəs göstərirlər və bunlar da öz müsbət nəticəsini verir. Bunların parlaq təzahürlərindən biri də bu gün burada Azərbaycanın və Türkiyənin "İntersun" şirkəti ilə müştərək yaratdığı birgə müəssisənin – yeni çay fabrikinin işə başlaması və bu münasibətlə keçirilən bu mərasimdir. [202-203]

Azərbaycanda çay bitkisi geniş yayılmış bir bitkidir. Azərbaycan torpaqları çay yetişdirmək, istehsal etmək üçün yararlı imkanlara malikdir. Azərbaycan qədimdən çay istehsal edən bir ölkədir. Keçmiş illərdə Azərbaycanda çay istehsal etmək üçün imkanlar da çox idi. Cənub bölgəsində – Lənkəran, Astara, Masallı rayonlarında geniş çay plantasiyaları var idi. Vaxtilə Azərbaycanda ildə 25-26 min ton yaşıl çay yarpağı toplamaq mümkün olmuşdur.

Qeyd etmək istəyirəm ki, o vaxtlar respublikamızın Cənub bölgəsində çayçılıqla məşğul olan təsərrüfatlarımız çay bitkisinin becərilməsindən alınan məhsuldan çox xeyir götürdükləri halda, Azərbaycanda bu məhsulun, istifadə edilən çayın keyfiyyətini qaldırmaq o qədər də mümkün olmamışdır. Amma buna baxmayaraq, bizdə böyük çay plantasiyaları olmuş, çayçılarımız bundan mənfəətlər götürmüş, çay bitkisini becərmək, məhsul əldə etməklə öz həyatlarını qurmuşlar.

Təəssüflər olsun ki, sonrakı dövrdə bu çay plantasiyaları baxımsızlıq, ayrı-ayrı qrupların dağıdıcı, pozucu işləri nəticəsində dağılmışdır. Kənd təsərrüfatı naziri bu gün mənə məlumat verdi ki, respublikada bu il cəmisi min ton yaşıl çay yarpağı əldə edilibdir. Amma mənim xatirimdədir, 1980-ci ildə respublikada 26 min ton çay yarpağı yığılmışdı. Demək, bu rəqəm 26 dəfə azalıbdır. Mən soruşuram ki, nə üçün bu belə olubdur? Deyir ki, siz gördüyünüz çay plantasiyalarından indi çox az bir hissə qalıbdır. Bilirsiniz, dağıtmaq asandır, amma yaratmaq, qurmaq çətindir.

Xalqımız həmişə yaradıcı, qurucu xalq olubdur. Xalqımızın bu istedadından, fədakarlığından istifadə edərək biz 1970-1980-ci illərdə Azərbaycanın kənd təsərrüfatında böyük imkanlar yaratmışdıq, o cümlədən Lənkəran, Astara, Masallı rayonlarında gözəl çay plantasiyaları, bağları salmışdıq. İnsanlar ona baxanda heyran olurdular. Hətta bəzən televiziyada, filmlərimizdə həmin çay plantasiyalarını, o plantasiyalarda Azərbaycanın cavan qızlarının – çayçıların işlərini görəndə adam həddindən artıq sevinirdi. Təəssüflər olsun ki, həmin o dağıdıcı, pozucu qüvvələr xalqın illər, on illər boyu yaranmış sərvətini dağıdıblar, viran ediblər. İndi bunları yenidən qurmaq, yaratmaq lazımdır. Biz bununla məşğuluq. Bu gün mən sizə tam qətiyyətlə deyirəm ki, Azərbaycanın çay plantasiyaları, bağları qısa bir müddətdə bərpa olunacaq, yenidən yaradılacaq, qurulacaqdır. Bunlar [203-204] hamısı xalqımıza, zəhmət adamlarımıza, azərbaycanlılara yenidən böyük gəlirlər, faydalar gətirəcək və xalqımızın rifah halının yaxşılaşmasına kömək edəcəkdir.

Respublikamızda yeni addımlar atılır və bunun üçün də indi xarici sərmayədən geniş istifadə olunur. Azərbaycanın müvafiq təşkilatları xarici sərmayədarlarla müştərək işlər görürlər. Mən belə işlərin görülməsini dəstəkləyirəm, bəyənirəm. Onların iş görməsi üçün respublikamızda lazımi şərait yaranıb, müvafiq qərarlar qəbul olunub və bundan sonra da qəbul olunacaqdır. Buna görə də mən həm çayçılarımıza, çayçılıqla məşğul olan rayonların zəhmətkeşlərinə, həm də xarici sərmayəçilərə deyirəm ki, bu sahədə səmərəli müştərək iş

görmək, gəlir, yaxşı mənfəət götürmək olar. Gəlin, birləşin, işləyin, müştərək iş görün, həm özünüz üçün mənfəət götürün, həm xalqın rifah halı yaxşılaşsın, həm də Azərbaycanın iqtisadiyyatı yüksəlsin. Mən bunun üçün sizin hamınıza lazımi zəmanət verirəm.

Bu gün burada açılışına toplaşdığımız modern, müasir avadanlıqla təchiz olunmuş, böyük istehsal imkanlarına, müasir texnologiyaya malik yeni çay fabriki məni çox sevindirir. Hesab edirəm ki, bu, respublikamızın iqtisadi həyatında əlamətdar bir hadisədir. Mən əminəm ki, bu başlanğıc davam edəcəkdir, çay fabriki nəzərdə tutulan istehsal həcminə çatacaqdır, yüksək keyfiyyətli məhsul istehsal edəcəkdir və Azərbaycan Respublikası əhalisinin çaya olan ehtiyacını ödəyəcəkdir.

Bu gün mən fabrikin bütün sexlərinə, texnoloji proseslərə, avadanlığa və istehsal olunan çay məhsuluna baxdım. Bunu siz də görmüsünüz. "İntersun" şirkəti son vaxtlar çox maraqlı iş görür, bu çayları Azərbaycan televiziyasında mütəmadi olaraq təbliğ, reklam edir, xalqımıza tanıdır. Ona görə də mən bura gəlməmişdən əvvəl bu çaylarla televiziya vasitəsilə tanış olmuşam. Amma indi bu çayları əyani olaraq gördüm, yəni bu çayın özünü də, onun qabını, qutularını da gördüm. Bunlar hamısı həqiqətən dünya standartlarına uyğun olan bir səviyyədədir. Mən inanıram, "İntersun" şirkətinin rəhbərləri də mənə dedilər ki, onların bu çayları nəinki Azərbaycanda, başqa ölkələrdə də satılacaqdır, yayılacaqdır.

Burada məlumat verildi ki, bu çaylar İraqa, Türkiyəyə artıq ixrac olunubdur. Sözsüz ki, bundan sonra da geniş yayılacaqdır. Beləliklə, Azərbaycanda istehsal edilən çaydan başqa [204-205] ölkələrdə də istifadə olunacaqdır. Bu isə mənfəət gətirəcəkdir və çay istehsal edən bir ölkə kimi Azərbaycana da yeni şöhrət qazandıracaqdır. Mən bunu çox qiymətləndirirəm və əmin olduğumu bildirmək istəyirəm ki, fabrik layiqli səviyyədə işləyəcək, öz istehsal gücünü təmin edəcək və respublikanın iqtisadiyyatına da lazımi mənfəət verəcəkdir, burada çalışan işçilər də öz maddi tələblərini ödəyə biləcəklər və beləliklə də ümumi, səmərəli iş görüləcəkdir.

Bu çay müəssisəsinin təşkil olunmasının və bu gün istifadəyə verilməsinin bir xüsusiyyəti də ondan ibarətdir ki, çay çox gözəl bir məhsuldur. İnsana lazım olan məhsullar arasında azərbaycanlılar, xalqımız üçün çaydan gözəl və çox geniş istifadə olunan məhsul yoxdur. Bunu bəlkə bir çörəklə müqayisə etmək olar. Hər bir azərbaycanlı çörək yeyəndən sonra mütləq çay içir. Bu, bizim əsrlərdən-əsrlərə keçmiş ənənəmizdir. Elə bir azərbaycanlı tapa bilməzsən ki, o, çaysız yaşasın. Ona görə də belə bir müəssisənin yaranması Azərbaycanın milli ənənələrinə, xalqımızın milli tələbatına uyğun olan bir haldır. "İntersun" şirkətinin də respublikamızda məhz bu məhsulun hazırlanmasına başlaması onu göstərir ki, onlar bizim Azərbaycanın həyatını yaxşı öyrəniblər, xalqımızın birinci növbədə ən əsas tələb olunan məhsulunu müəyyən ediblər və bu məhsulun istehsalına başlayıblar. Mən buna xüsusi qiymət verirəm.

Aydındır ki, çay çox mənfəətli bir içkidir, məhsuldur. İnsanların istifadə etdiyi bütün içkilərdən – təkcə sudan savayı, çay da su ilə bərabər içilir. Ona görə də mən alkoqollu içkilər istehsal edən müəssisələrə, yaxud o içkilərə meyl edən insanlara deyirəm: bizim ulu babalarımız daim çay içiblər. Onlar çayı ən mötəbər içkimiz hesab ediblər və bu da ulu babalarımızdan bizə gəlib çatan ənənədir, öyrəndiyimiz bir vərdişdir. Ona görə də çaydan səmərəli istifadə etmək lazımdır. Yəni bunu təbliğ etməyə ehtiyac yoxdur. Desəm də, deməsəm də hər bir ailədə, evdə hər hansı insan mütləq çay içməlidir. Şübhəsiz, hamı istəyir ki, bu çay keyfiyyətli olsun. Hətta bizdə çay haqqında mahnılar var, çayı tərənnüm edən nə qədər sözlər var.

Azərbaycanda gözəl bir ənənə mövcuddur ki, hər yerdə çayxana vardır. Bu, Azərbaycanın milli xüsusiyyətini əks etdirən bir ənənədir. Xarici ölkələrdə spirtli içkilər içilən yerlər, başqa müəssisələr də var. Mən buna etiraz etmirəm, bəli, bunlar da olmalıdır. Ancaq Azərbaycanda çayxanalar insanlar [205-206] üçün lazım olan, ən geniş yayılan müəssisələrdir. İnsanlar gedib çayxanada istirahət edirlər, söhbət edirlər. Çay samovarları, çay nümunələri həmişə xalqımız tərəfindən sevilib. Yenə də deyirəm, çay içmək xalqımızın vərdişidir, xüsusiyyətidir. Hesab edirəm ki, bunlar hamısı millətimizə xas olan çox müsbət xüsusiyyətlərdir. Mən çox istərdim ki, xalqımız ancaq çay içsin, insanlar spirtli içkilərə, onların həyatına ziyan vuran cürbəcür içkilərə meyl etməsinlər. Bu baxımdan da yüksək keyfiyyətli çay istehsal olunması bu ənənələrimizin daha da möhkəmlənməsinə və genişlənməsinə, inkişaf etməsinə kömək edir.

Beləliklə, mən bu çay istehsalını, yaradılan çay fabrikini həm iqtisadi, insanların tələbatının ödənilməsi nöqteyi-nəzərindən, həm də milli ənənələrimizin inkişaf etdirilməsi üçün hər bir evdə, hər bir çayxanada yüksək keyfiyyətli çay hazırlanması baxımından müsbət qiymətləndirirəm. Bunların hamısına görə mən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və Türkiyənin "İntersun" şirkətinə bu təşəbbüsləri üçün təşəkkürümü bildirirəm.

Mən sizi bu yeni müəssisənin açılması münasibətilə təbrik edirəm. Çox məmnunam ki, bazar iqtisadiyyatı yolunda addımlar atılır, əməli işlər görülür və bunlar öz nəticəsini verir. Bu gün bir daha bəyan edirəm ki, bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün Azərbaycan dövləti, hökuməti tərəfindən bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Sağlam, təmiz, pak bazar iqtisadiyyatı yolu ilə gedən iş adamlarına Azərbaycanda geniş yer veriləcəkdir, xarici şirkətlərə, sərmayəçilərə geniş meydan açılacaqdır. Mən sizin hamınızı belə işlərlə əməli surətdə məşğul olmağa dəvət edirəm. Respublikamıza gəlmək və müştərək iş görmək üçün xarici şirkətləri bir daha Azərbaycana dəvət edirəm.

Bu gün açılan müəssisə eyni zamanda Azərbaycan-Türkiyə əməkdaşlığının nümunəsidir. Mən dəfələrlə demişəm ki, xarici ölkələrlə əməkdaşlığımız sahəsində Türkiyə Cümhuriyyətinin, şirkətlərinin, iş adamlarının xüsusi yeri vardır və biz buna xüsusi əhəmiyyət veririk. Bu müəssisə bu baxımdan Azərbaycan-Türkiyə əməkdaşlığının əməli nəticəsi, nümunəsidir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əməkdaşlıq bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Mən sizi bir daha təbrik edirəm. Hamınızı "Məryəm", "Final", "Mərcan", "Azərçay" çayı içməyə dəvət edirəm. Bu [206-207] çaylardan çox-çox için, bu çaylardan nə qədər çox içsəniz, o qədər sağlam olacaqsınız, yaxşı işləyəcəksiniz.

Sizin hamınızı qarşıdan gələn əlamətdar günlər münasibətilə təbrik edirəm. Dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik, birlik günüdür. Bu, bizim üçün əziz gündür. Çünki dünyanın bütün ölkələrində azərbaycanlılar yaşayırlar. Azərbaycanlılar günü-gündən bir-birinə qovuşmalıdırlar, yaxınlaşmalıdırlar, əlaqələrini artırmalıdırlar. Məhz həmin gün – 31 dekabr günü, azərbaycanlıların həmrəylik günü bax, bu məqsədləri daşıyır. Mən bu gün bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Bütün dünya azərbaycanlılarına səadət arzulayıram, onları bir-biri ilə daha sıx olmağa dəvət edirəm. Bütün dünya azərbaycanlılarının həmrəyliyini arzulayıram.

Biz Yeni il əfərəsindəyik. Bir neçə gündən sonra 1997-ci il başlayacaqdır. Qarşımızda böyük vəzifələr durur. Ümidvaram ki, 1997-ci ildə bizim gördüyümüz işlər daha da sürətlə irəliləyəcəkdir. Azərbaycanı yeni nailiyyətlər gözləyir. Mən buna əminəm.

Qarşıdan gələn Yeni il münasibətilə sizi və Azərbaycanın bütün vətəndaşlarını ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət arzulayıram, bütün işlərinizdə uğurlar diləyirəm. Sağ olun. [207-208]

**DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ MÜRACİƏTİ**

Hörmətli həmvətənlər! Əziz soydaşlarımız!

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günüdür. Bu ümummilli bayram münasibətilə hamını ürəkdən salamlayır, ən səmimi arzularımı yetirirəm.

Suverenliyinin və dövlət müstəqilliyinin altıncı ilini yaşayan xalqımız ötən dövr ərzində ağır sınaqlarla qarşılaşsa da, haqq yolundan dönməmiş, öz taleyinin sahibi olduğunu, demokratik, hüquqi prinsiplərə və milli dövlətçiliyə sadiqliyini dünyaya sübut etdirmişdir.

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq, böyük gələcəyə doğru inamla addımlayır. Azərbaycan dövlətinin daxili və xarici siyasəti xalqımızın iradəsinin beynəlxalq aləmdə təsdiqinə, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə xidmət edir.

Əziz soydaşlar!

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır. Xalqımızın milli müstəqillik uğrunda çoxəsrlik mübarizəsində dünyanın bütün ölkələrində yaşayan soydaşlarımızın da diqqətəlayiq xidmətləri, haqq-sayları vardır.

Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqibə birliyi, sarsılmaz həmrəylik tələb olunur. Zaman-zaman qəlbimizdə yaşatdığımız müstəqillik və azadlıq ideallarının həyata keçdiyi bu tarixi sınaq anlarında dünyanın müxtəlif guşələrində soydaşlarımızın Vətən təəssübkeşliyinə, övladlıq haqqına dərin inamını ifadə edərək, Sizi azad, müstəqil, qüdrətli, demokratik Azərbaycan dövləti uğrunda səfərbər olmağa və milli həmrəyliyə çağırıram.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 dekabr 1996-cı il* [208-209]

## ZƏNGİLAN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ

*Prezident Sarayı*

*29 dekabr 1996-cı il*

Hörmətli zəngilanlılar!

Bu gün biz Zəngilan rayonunun nümayəndələri ilə – sizinlə görüşürük. Bu görüşün məqsədi birinci növbədə, Zəngilan rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunandan sonra rayon əhalisinin yaşayışı, vəziyyəti haqqında məlumat almaqdan, eyni zamanda, işğal olunmuş Zəngilanın və respublikamızın digər rayonlarının torpaqlarının azad edilməsi ilə əlaqədar indiyədək görülmüş işlər barəsində fikir mübadiləsi aparmaqdan, Zəngilan rayonunun işğal edilməsinin səbəbləri haqqında bu rayonun nümayəndələrinin fikirlərini, mülahizələrini dinləməkdən ibarətdir.

Bilirsiniz ki, Ermənistanın Azərbaycana 1988-ci ildən başlanmış hərbi təcavüzü xalqımıza çox böyük zərbələr vurmuşdur, xalqımız böyük itkilər vermişdir. Torpaqlarımızın bir qismi, o cümlədən, Zəngilan rayonu da işğal olunubdur, indi də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Respublikamızın tarixində bu, faciəli bir dövrdür. 1988-ci ildən başlayan bu hərbi təcavüzün qarşısı alınmadığına, lazımi tədbirlər görülmədiyinə görə ölkəmizə, respublikamıza böyük zərbələr vurulubdur. Son illər biz Azərbaycana vurulan bu zərbələrin aradan götürülməsi, işğal edilmiş torpaqların azad olunması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi yolunda çox işlər görmüşük və görürük. 1994-cü ilin may ayında hərbi münaqişədə atəşkəsin əldə olunması görülən işlər sırasında xüsusi yer tutur. Artıq iki ildən çoxdur ki, müharibə getmir, qan tökülmür, atəşkəs rejimi mövcuddur. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün bu müddətdə davamlı olaraq işlər görülür, tədbirlər həyata keçirilir. Siz bunları bilirsiniz, məlumatınız var. Buna baxmayaraq, mən bu gün sizinlə görüşüb, sizi də dinləmək istədim. Çünki Zəngilan rayonunun işğal olunmasından artıq üç il keçibdir. Sizin indiki yaşayış [209-210] tərziniz, vəziyyətiniz bizim daimi nəzarətimizdədir, dövlətin, hökumətin qayğısı altındadır. Ancaq aydındır ki, sizin də, bizim də əsas arzumuz və məqsədimiz işğal olunmuş torpaqlarımızı azad etməkdən, Azərbaycanın hər bir vətəndaşının öz yerinə, yurduna, evinə, elinə-obasına qayıtmasından ibarətdir.

Mən əminəm ki, biz buna nail olacağıq. Ancaq təəssüflər olsun ki, keçmiş illərdə buraxılan, bağışlanması mümkün olmayan səhvlər, cinayətlər, xəyanətlər respublikamızı elə ağır bir vəziyyətə salıbdır ki, onu bu vəziyyətdən çıxarmaq üçün həddindən artıq çox səylər qoymaq lazım gəlir. Biz bu səyləri qoyuruq. Biz bu istiqamətdə ardıcıl surətdə fəaliyyətdəyik. Buna görə də mən əminəm ki, işğal edilmiş torpaqlarımız azad olunacaq, Azərbaycanın hər bir vətəndaşı öz yerinə, öz evinə qayıdacaqdır.

Mən sizin də fikirlərinizi dinləmək, bilavasitə sizi eşitmək istəyirəm. Ermənistan silahlı qüvvələrinin ölkəmizə təcavüzü başlanandan həm sizin rayonun vəziyyəti, yəni Zəngilan rayonunda və sizin rayonun ətrafında gedən proseslər haqqında, həm 1993-cü ilin oktyabrında rayonun işğal edilməsi ilə əlaqədar olan vəziyyət barədə, həm də indi məskunlaşdığınız yerlərdə vəziyyətiniz haqqında məlumatlarınızı dinləmək istəyirəm. Buna görə də bu gün sizinlə görüşə gəlmişəm.

Mən sizin hər birinizi dinləməyə hazıram. Ancaq güman edirəm, yəqin ki, rayon icra hakimiyyətinin başçısı yığcam bir məlumat verə bilər, bundan sonra isə kim istəsə danışa bilər. Mən bu gün sizin sərəncamınızdayam.

### YEKUN NİTQİ

Burada bir çox görüş iştirakçılarının da çıxış etmək arzusu tamamilə təbidir və mən bunu belə qiymətləndirirəm ki, bugünkü müzakirəmiz hər kəs üçün o qədər əhəmiyyətlidir ki, hərə öz sözünü demək istəyir, hərə öz fikrini bildirmək istəyir. Ancaq yenə də deyirəm, vaxt gecdir və indiyə qədər burada dinlədiyimiz çıxışlar, hesab edirəm ki, ümumiyyətlə bu məsələnin yekunlaşdırılması üçün tam əsas yaradır.

Əziz zəngilanlılar, mən bu gün bizim görüşümüzün əvvəlində də dedim, indi, görüşümüz sona çatarkən də qeyd edirəm ki, görüşün məqsədi həm Zəngilan rayonunun problemləri ilə, həm də bütün Azərbaycan problemləri ilə əlaqədardır. Çünki Azərbaycan ayrı-ayrı bölgələrdən ibarətdir və ölkəmizin hər bir şəhəri, hər bir yaşayış məntəqəsi, hər bir rayonu Azərbay[210-211]canın ayrılmaz hissəsidir və onun ərazi bütövlüyünü təşkil edən məntəqədir, bölgədir. Buna görə də əgər biz Zəngilan problemləri haqqında danışırıqsa, demək, bütün Azərbaycanın problemləri haqqında danışırıq. Zəngilan problemlərinin təhlili, müzakirəsi yolu ilə biz – bu gün bütün çıxışlarda bu hiss olundu, – görüşümüzü ümumazərbaycan problemlərinin təhlilinə, müzakirəsinə çevirdik.

Zəngilan Azərbaycanın gözəl bir guşəsidir, qədim Zəngəzur diyarının bir parçasıdır və qədim Azərbaycan diyarıdır. Burada gətirilən bəzi tarixi həqiqətlər Zəngilanın tamamilə qədim Azərbaycan diyarı olduğunu sübut eləyir. Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi hadisələr var, Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş veribdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.

Buna görə də Zəngilan rayonunun Ermənistan silahlı qüvvələrinin işğalı altında olması həm zəngilanlılar üçün böyük ürək ağrısıdır, faciədir, həm də bütün Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün faciədir, ürək ağrısıdır. Biz deyəndə ki, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, o cümlədən Zəngilanın da işğal olunmasını və Zəngilan rayonu torpaqlarının işğal altında olmasını nəzərdə tuturuq. Bir milyon qaçqın, evlərindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarının köçkün vəziyyətində yaşaması haqqında danışarkən onların içərisində Zəngilan rayonunun 35 min sakinini də nəzərdə tuturuq. Bax, bunlara görə də Zəngilanın həm keçmişi, həm Ermənistanın Azərbaycana təcavüzü başlanandan bəri Zəngilan rayonunun ərazisində və onun ətrafında gedən cürbəcür proseslər, həm də 1993-cü ildə Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması mühüm məsələlərdir və bizim üçün mühüm bir problemdir.

Zəngilan Azərbaycanın həm İranla, həm də Ermənistanla sərhəd olan bir bölgəsidir. Zəngilan bir tərəfdən Araz çayı vasitəsilə İran sərhədindədir, o biri tərəfdən də 150 kilometr məsafədə Ermənistanla Azərbaycanın sərhədini təşkil edən [211-212] bir ərazidir. Bu baxımdan Zəngilanın Azərbaycan dövləti üçün, Azərbaycan Respublikası üçün çox mühüm strateji əhəmiyyəti var. Zəngilan torpağı zəngilanlılar üçün əzizdir bütün Azərbaycan xalqı üçün əzizdir, ancaq Zəngilan Azərbaycanın mühüm bir hissəsi olaraq və indi müstəqil Azərbaycanın iki dövlətlə sərhədində yerləşərək və xüsusən səkkiz ildir ki, bizimlə hərbi münaqişədə, müharibə vəziyyətində olan Ermənistanla bizim sərhədimizin 150 kilometrini əhatə edən bir rayon kimi Azərbaycan Respublikası üçün çox strateji əhəmiyyətə malik bir torpaqdır, ərazidir.

Burada bugünkü çıxışların hamısı Zəngilan rayonunda 1988-ci ildən – Ermənistanın Azərbaycana təcavüzü başlanan zamandan bəri olan hadisələri geniş əks etdirirdi. Hesab edirəm ki, bu çıxışlardan biz həm 1993-cü ilə qədər Zəngilanın ətrafında və Zəngilanın ərazisində baş verən hadisələr, həm də 1993-cü ildə Zəngilanın Ermənistan tərəfindən işğal olunması və bununla əlaqədar Zəngilan əhalisinin ağır və çətin vəziyyətdə rayondan köçməsi haqqında geniş məlumatlar aldıq. Bu məlumatlar onu göstərir ki, Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş başqa əraziləri kimi, Zəngilanın da ətrafında, ərazisində baş vermiş hadisələr və nəhayət, 1993-cü ildə onun ərazisinin işğal olunması o zaman, o illər, o dövrdə Azərbaycanda gedən ictimai-siyasi proseslərlə, Azərbaycan xalqına böyük zərbələr vurmuş hakimiyyət mübarizəsi ilə, ayrı-ayrı qrupların, dəstələrin vəzifə əldə etmək cəhdləri ilə əlaqədardır. Məhz bunların nəticəsində vaxtilə Zəngilanın mühafizəsi, müdafiəsi lazımi səviyyədə təşkil olunmayıbdır. Məhz bunların nəticəsində hələ 1992-ci ilin dekabr ayında, – burada deyildiyi kimi, – Zəngilanın 13 yaşayış məntəqəsi bilavasitə Ermənistan tərəfindən işğal olunub, zəbt edilib, ələ keçirilibdir. Burada deyildiyi kimi, Zəngilanın bir çox torpaqları, – yaşayış məntəqəsi olmasa da, ancaq torpaqları, onun ərazisinin bir hissəsi – hələ o dövrdə işğal olunubdur, zəbt edilibdir. Sonralar isə – nəhayət, 1993-cü ilin oktyabrında Zəngilan rayonu Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə işğal olunubdur.

Zəngilanın Azərbaycan üçün strateji əhəmiyyəti bir də ondan ibarətdir ki, Zəngilan tək Ermənistanla Azərbaycanı ayıran sərhəddə yerləşdiyinə görə yox, eyni zamanda Zəngilanla həmsərhəd olan, yəni Azərbaycanla həmsərhəd olan Qafan, Mehri rayonlarında yaşayan azərbaycanlılar üçün həmişə [212-213] dayaq olubdur. Azərbaycanla orada yaşayan azərbaycanlıları bağlayan bir məntəqə olubdur. Məsələn, Mehridə olan böyük Nüvədi kəndi haqqında burada söhbət elədilər. Bəli, bu Nüvədi kəndinin də ətrafında gedən cürbəcür proseslər məhz Azərbaycan tərəfinin həm bacarıqsızlığı, həm səriştəsizliyi, həm də bəzən satqınlığı nəticəsində meydana çıxmışdır. Hətta 1991-ci ildə də orada azərbaycanlılar yaşayırdı. 1992-ci ildə mən Naxçıvanda olarkən nüvədililər Naxçıvana bir neçə dəfə gəlmişdilər və onların orada yaşamasına kömək etmək üçün mənə müraciət etmişdilər.

Burada Azərbaycan ilə, yəni Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngilan rayonundan keçərək Mehri rayonunun ərazisindən Naxçıvana gedən yol haqqında söz açıldı. Bu yolun tikilməsi üçün və Naxçıvanın birbaşa Azərbaycanın əsas hissəsinə bağlanması üçün 1970-ci illərdə burada biz çox iş görmüşdük, qərar qəbul etmişdik. Hətta Ermənistanın o vaxtkı rəhbərləri də bizim təklifimizlə qərar qəbul etmişdilər. Və ona görə də biz o yolun tikilməsinə başladıq. O yolun Azərbaycan üçün böyük strateji əhəmiyyəti var idi. Ancaq həmin illərdə, – bu, təxminən 1985-ci il, 1986-cı il idi, – mən Moskvada işləyərkən Ermənistan tərəfinə yolun Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti olduğunu dərk etdi və ayrı-ayrı qüvvələr orada artıq Azərbaycana qarşı təxribatçı planlarını artırmağa və bu yolun tikilməsinə maneçiliklər törətməyə başladılar. Mən indi vaxt olsa, bu barədə öz xatirələrimi geniş yazmalıyam. Çünki bu yolun tikilməsi üçün mən Moskvada ən yüksək səviyyələrdə gərgin mübarizələr aparmışdım. Biz bu yolu Araz boyu, yəni dəmir yolu keçən yerdə,

dəmir yolu ilə paralel olaraq çəkmək planı qurmuşduq. Belə bir plan var idi, təsdiq olunmuşdu. Sonra bu yolun qarşısını almaq üçün cürbəcür bəhanələr ortaya atdılar ki, bunu Araz boyu çəkmək olmaz, dəmir yolu ilə yanaşı çəkmək olmaz. Moskvada yaşayan bir çox erməni alimləri, cürbəcür iqtisadçıları və başqa qüvvələri cəlb etdilər və ekspertiza rəyi almağa çalışdılar ki, bu yolu bu cür çəkmək olmaz. Eyni zamanda bu yolun çəkilməsinə etiraz da edə bilmirdilər. Elə bir marşrut verdilər ki, o yolun məsafəsini üç dəfə uzatdı və ikinci də əgər həmin yol o marşrutla getsəydi, dağlardan keçsəydi, ilin təxminən yarısı ərzində bağlı olacaqdı.

Şübhəsiz ki, mən onunla razı ola bilməzdim və çox kəskin mübarizələr, kəskin müzakirələr getdi. Nəhayət, o yolun çəkil[213-214]məsinə mən nail oldum və yol çəkildi. Burada artıq qeyd edildi ki, cəmisi 10 kilometr qalmışdı. Amma 1987-ci ildən sonra bu yolun çəkilməsi də dayandırıldı, bütün bu proseslər də başlandı.

Mən bir daha qeyd etmək istəyirəm, o yolun çəkilməsində biz Mehri rayonunda yaşayan azərbaycanlıları da nəzərə almışdıq. O yol məhz Nüvədi kəndindən, onun yanından, başqa Azərbaycan kəndlərinin yanından keçib getməli idi. Beləliklə, o Azərbaycan kəndlərini də, azərbaycanlıların yaşayış məntəqələrini də biz Azərbaycana tamamilə bağlamaq istəyirdik. Ancaq tək bu yol yox, ümumiyyətlə, Zəngilan, yenə də deyirəm, bütün Zəngəzur mahalında yaşayan azərbaycanlılar üçün bir dayaq məntəqəsi idi. Məsələn, Ermənistandan Qafana gedən dəmir yolu da Zəngilandan keçirdi və ona görə də bunun əhəmiyyəti çox böyük idi. Bunların hamısına görə Zəngilanın müdafiəsi – bu söz deyiləndə Azərbaycan Respublikasının müdafiəsi kimi anlamaq lazımdır – lazımi səviyyədə təşkil olunmalı idi. Ancaq yenə də deyirəm, bu, təşkil olunmamışdı. Burada xatırlatdılar, mən 1991-1992-ci illərdə Naxçıvanda işləyərkən, orada yaşayarkən Zəngilanla daim əlaqə saxlayırdım, maraq göstərirdim. Hətta sonralar Nüvədi kəndindən köçmüş azərbaycanlılar orada bir yerdə çadır qurmuşdular, hansı kənd idi?

**Yerdən səs:** Vejnəli kəndində.

**Heydər Əliyev:** Vejnəli kəndində çadırlarda yaşayırdılar. Mən Naxçıvandan iki-üç dəfə oraya vertolyotlarla nümayəndə heyəti göndərmişdim, gedib onların vəziyyətini öyrənmişdilər. Onlara kömək göndərmişdim oradan. Naxçıvanda biz özümüz ağır vəziyyətdə idik, blokada vəziyyətində idik. Ancaq eyni zamanda bütün imkanlardan istifadə edib həm Zəngilana, həm də Mehri, Qafan rayonlarından didərgin düşüb orada yaşayan azərbaycanlılara kömək etmək istəyirdim.

Bunlar hamısı keçmişdə olan proseslərdir, hadisələrdir. Ancaq təəssüflər olsun ki, bunların heç birisi nəticə vermədi və son nəticə bundan ibarət oldu ki, Zəngilan rayonu Ermənistanla həmsərhəd olan digər rayonlarımız kimi işğal edildi və zəngilanlılar ağır bir vəziyyətdə İran ərazisindən keçib gəldilər, indi Azərbaycanın cürbəcür məntəqələrində məskunlaşıblar.

Burada çıxışlarda bildirildi ki, zəngilanlılar öz torpaqlarını [214-215] müdafiə etmək əzmində idilər, vuruşurdular, döyüşürdülər, orada olan ordu hissələri də vuruşurdu, döyüşürdü. Ancaq Cəbrayıl, Füzuli və Qubadlı rayonları işğal olunandan sonra Zəngilan həqiqətən mühasirədə idi. Mən də xatırlayıram bunu – mühasirədə idi. Ancaq bir həqiqəti bu gün təkrar etmək lazımdır: bütün bu rayonların işğal edilməsi prosesi, təəssüflər olsun ki, 1991-ci ildə, 1992-ci ildə və 1993-cü ilin əvvəllərində Azərbaycan rəhbərliyinin buraxdığı səhvlərin, bir çox hallarda xəyanətkarlığın, satqınlığın nəticəsi olmuşdur. İndi bəzən müxalifət qüvvələri hesab edirlər ki, bunlar hakimiyyətdə olanda hansı rayonlar işğal olunmuşdur, onlar hakimiyyətdən gedəndən sonra hansı rayonlar işğal edilmişdir. Bunlar hamısı əsassız söhbətlərdir, əsassız sözlərdir. Onlar əsassızdır, çünki işğal olunmuş bütün torpaqların aqibəti həmin o illərdə, 1990-91-92-ci illərdə həll edilmişdi. Elə Zəngilanı götürsək, əgər 1992-ci ilin dekabr ayında 13 yaşayış məntəqəsi zəbt edilmişdisə və bunun qarşısı alınmamışdısa və bu da bilavasitə Ermənistan tərəfindən olmuşdusa, nədən söhbət gedə bilər? İkinci tərəfdən, 1991-1992-ci illərdə və 1993-cü ilin iyun ayına qədər Azərbaycanda hakimiyyətdə olan qüvvələr Azərbaycanı elə bir ağır, elə bir fəlakətli vəziyyətə gətirib çıxarmışdılar ki, 1993-cü ilin yayında – iyun ayında Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün aparılan tədbirləri onlar, həmin o günahkarlar anlamalıdırlar, başa düşməlidirlər. Əgər siz belə qəhrəman idinizsə, bu rayonları qoruyub saxlaya bilərdinizsə, saxlayaydınız, niyə hakimiyyətdən getdiniz? Saxlayaydınız, kim sizə mane olurdu? Hakimiyyət sizin əlinizdə, dövlət sizin əlinizdə – saxlayaydınız, qoymayaydınız o rayonlar da işğal olunsun. Amma hamınız qaçdınız. Axı məsələ tək bu rayonların işğal olunması deyildi, Azərbaycan artıq daxildən parçalanmışdı. Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı və bunların hamısını edən, Azərbaycanı bu vəziyyətə çatdıran, bu dərəcəyə gətirən 1992-ci ilə qədər vəzifədə olan adamlarla 1992-ci ildə vəzifəyə gəlib 1993-cü ilə qədər Azərbaycanı bu fəlakətli vəziyyətə salan adamların arasında gedən mübarizə idi və bunların içində olan ayrı-ayrı adamların, ayrı-ayrı qüvvələrin bir-biri ilə apardığı mübarizə idi. Əgər 1992-ci ilin martına, mayına qədər hakimiyyətdə olan qüvvələr bacarmırdılarsa, – onlar hakimiyyətdən getdi, sonrakılar gəldi, – onlar gərək Azərbaycanı saxlayaydılar. Amma bir il müddətində əvvəlkilərin səhvləri[215-216]nin üstünə o qədər səhvlər qoydular ki, Azərbaycan artıq dağılırdı. Azərbaycan dağılan vaxt da ölkəni qoyub qaçdılar.

İyun ayında Azərbaycanda bu fəlakətli vəziyyət yarandığı zaman, mən Bakıya dəvət olunduğum zaman Azərbaycanda nə var idi, kim var idi? Azərbaycanın bütün yüksək vəzifəli adamları qaçmışdı, dağılmışdı və bunu da onların özləri təşkil etmişdilər, özləri özlərini bu vəziyyətə salmışdılar. Surət Hüseynov böyük bir hərbi dəstəni sərhəddən, yəni döyüş bölgələrindən çıxarıb gətirmişdi ki, burada, Bakıda hakimiyyəti ələ alsın. Onun bu hərəkətlərinin qarşısını almaq üçün, hakimiyyətdə olan Xalq Cəbhəsi başqa hissələri cəbhədən çıxarıb

gətirmişdi Bakıya ki, özünü müdafiə etsin. Beləliklə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi üçün bir çətinlik yox idi. Bütün hərbi qüvvələr, silahlar, sursatlar, təyyarələr, vertolyotlar, tanklar və toplar – bir hissəsi çıxarılıb gətirilmişdi Gəncəyə. O biri hissəsi də toplanmışdı Bakıya ki, burada özlərini müdafiə etsinlər, Surət Hüseynov gəlib bunları yıxa bilməsin. Onda erməni silahlı qüvvələri ilə kim vuruşmalı idi və kim vuruşa bilərdi? Və vuruşan adam qalmışdımı? Yox! Yox idi. Ordunun bir hissəsini isə Lənkəran-Astara zonasında xalq Cəbhəsinə mənsub olan, sonra bunlarla mübarizəyə qalxan Əlikram Hümbətov keçirmişdi əlinə. Yetmişə qədər tank orada saxlanmışdı. O da orada bir hökumət qurmaq istəyirdi.

Bunların hamısını edən kim idi? Bir tərəfdən Surət Hüseynov, bir tərəfdən Surət Hüseynovu dəstəkləyən və Moskvada oturan Mütəllibovun adamları, bir tərəfdən Rəhim Qazıyev, bir tərəfdən Əlikram Hümbətov, o biri tərəfdən də hakimiyyətdə olan adamların özləri. Bunlar kim idi? Rəhim Qazıyev kim idi? Xalq Cəbhəsindən çıxmış, müdafiə naziri olmuş adam, Əlikram Hümbətov kim idi? Xalq Cəbhəsindən çıxmış, Müdafiə Nazirliyində yüksək rütbə almış bir adam. Surət Hüseynov kim idi? Xalq Cəbhəsinin başçısı, prezident olan Əbülfəz Elçibəy tərəfindən və onun silahdaşları tərəfindən yüksək vəzifələrə təyin olunmuş, Milli Qəhrəman adı almış bir adam. Bunlar hamısı bir dəstənin adamları idi. Sonra isə Azərbaycana rəhbərlik üstündə mübarizə apararaq bir-biri ilə vuruşmağa başladılar. Rəhim Qazıyev Surət Hüseynovla birləşdi, Əlikram Hümbətovla birləşdi bunlara qarşı. Oradan Mütəllibovun qüvvələri onlarla birləşdi. Bunlar da öz qüvvələrini toplaya bilmədilər. Bir tərəfdən Ermənistan silahlı qüvvələri [216-217] Azərbaycanın torpaqlarını işğal eləyə-eləyə gəlir, bir tərəfdən də bunlar Azərbaycanı dağıdırdılar.

Bilirsiniz, mən bu məsələlərə heç toxunmaq istəmirəm, çünki bunlar məlumdur. Ancaq burada bir neçə söz deyildi, ona görə də mən demək istəyirəm. İyun ayının 15-də mən Azərbaycan parlamentinin sədri, Milli Məclisin sədri seçilən zaman burada kim var idi? Prezident Əbülfəz Elçibəy səngəri qoydu qaçdı. Məndən qabaq parlamentin sədri istefa verdi, çıxdı. Yaxşı, bacarmadı, çıxdı. Heç olmasa, bu dövləti qorumaq üçün kömək etmək əvəzinə, çıxan kimi getdi müxalifətə qoşuldu. Baş nazir çıxdı, qaçdı. Özü çıxdı. Ondan qabaqkı müdafiə naziri Rəhim Qazıyev artıq müxalifətdə idi. Ondan sonra müdafiə naziri qoyulmuşdu Dadaş Rzayev, onu da çıxarmışdılar, müdafiə naziri yox idi. Daxili işlər naziri İsgəndər Həmidov idi – Azərbaycanı dağıtdı, özləri onu çıxarmışdılar. Ancaq bunun dalında böyük bir "bozqurdlar" dəstəsi var idi. Yeni qoyulmuş daxili işlər naziri Allahverdiyev idi, onu da çıxarmışdılar. Demək, müdafiə naziri yox, daxili işlər naziri yox, milli təhlükəsizlik naziri yox – çıxarmışdılar, qaçmışdı, – bu da yox. Prezident yox, baş nazir yox, başqa nazirlər yox. Hamısı qaçdı, dağıldı.

Mən bunu demək istəmirdim, çünki bunu hamı bilir. Ancaq mən burada tək qalmışdım. Bir tərəfdən ermənilər orada bu fürsətdən istifadə edib hücumlarını gücləndirirdilər, bir tərəfdən də içəridə bu vətəndaş müharibəsinin qarşısını almaq lazım idi. Rəhim Qazıyevlə Surət Hüseynov mənə təzyiqi artırmaq üçün Əlikram Hümbətovun qüvvələrini orada gücləndirdilər. O, yeddi rayonu keçirmişdi əlinə, sentyabr ayına qədər orada ağalıq eləyirdi. Azərbaycanın başqa bölgələrində cürbəcür dəstələr, cürbəcür qüvvələr, silahlı dəstələr özbaşınalıq edirdi. Burada dərəbəyilik idi. Azərbaycan belə vəziyyətdə idi. Əlbəttə ki, ermənilər bu fürsətdən istifadə etdilər. Rayonların bir çoxunu əvvəl işğal etmişdilər, qalanlarını da sonra işğal etdilər.

İndi bunların hansının mənəvi haqqı var gəlib desin ki, biz olanda belə idi, biz gedəndən sonra necə olub? Axı siz niyə getdiniz, nə üçün getdiniz? Əgər siz hesab edirsinizsə ki, xalq sizə etimad göstərmişdi, seçmişdi, öz aqibətini sizə tapşırmışdı – bu vəzifələrinizi yerinə yetirəydiniz. Qaçan qaçdı, qaça bilməyən də bəyan etdi ki, "mən vəzifəmi dondururam". Yeni bir termin çıxdı Azərbaycanda – "vəzifəmi dondururam, fəaliyyə[217-218]timi dondururam". Bu donduranlar dondular bir tərəfdə, qaçanlar qaçdılar, səngər qaldı belə.

Ona görə də, bilirsiniz, o adamlar xalqa xəyanət ediblər, millətə xəyanət ediblər və indi onların heç birinin bu barədə danışmağa mənəvi haqqı yoxdur. Azərbaycanda, şübhəsiz ki, siyasi plüralizm var və olacaqdır, fikir müxtəlifliyi olacaqdır. Müxalifətdə ayrı-ayrı siyasi partiyalar, ayrı-ayrı təşkilatlar var və olmalıdır. Amma kimlər? Yüksək vəzifələrdə olub, xalqın etimadını doğrulda bilməyib, Azərbaycan Ermənistanın təcavüzü altında olduğu zaman Azərbaycanı dağıdanların, 1993-cü ildə Azərbaycanı bu ağır vəziyyətə salanların və öz səngərlərini, öz vəzifələrini qoyub qaçanların yenidən gəlib, müxalifət olub bugünkü iqtidarı tənqid eləməyə, ya söz deməyə haqqı yoxdur. Heç bir haqqı yoxdur.

Doğrudur, mən onların nə o sözlərini, nə də o fikirlərini bizim bugünkü hakimiyyətimiz üçün böyük bir təhlükə, yaxud da yeni söz kimi qəbul etmirəm. Çünki onların Azərbaycanda heç bir dayağı yoxdur, heç bir sosial bazası yoxdur. Onların Azərbaycan xalqı üçün ancaq dəhşətli hərəkətləri var – Azərbaycanın daxilində oturanların da və Azərbaycandan kənarda yaşayanların da. Onların indi apardıqları iş ona yönəldilibdir ki, Azərbaycanda təxribat aparırlar, terror həyata keçirsinlər, bunun vasitəsilə yenə də Azərbaycanı qana bürüsünlər və gəlib yenə də vəzifə alsınlar. Təəssüf ki, onlar normal müxalifət olmaq əvəzinə, normal siyasi fəaliyyət aparmaq əvəzinə bu cür cinayətkar yollara gedirlər, bu cür cinayətkar işlərlə məşğul olurlar, bu cür cinayətləri hazırlayırlar, həyata keçirmək istəyirlər.

1994-cü ilin oktyabr ayında, 1995-ci ilin mart ayında Azərbaycanda dövlət çevrilişinə göstərilən cəhdlər buna nümunədir. Bəli, siz bilirsiniz ki, həm Azərbaycandan kənarda, həm Azərbaycanın içində müxalifətdə olan həmin qüvvələr dövlət çevrilişinə cəhdlərdə iştirak etmişdilər. Ondan sonrakı hadisələr – indi məhkəmə

prosesləri gedir – körpünün partladılması, Azərbaycan prezidentinin təyyarəsinin vurulması cəhdləri, başqa terror cəhdləri – bunlar da həmin qüvvələr tərəfindən istiqamətləndirilən işlərdir. O adamlar da indi yaxalanıblar, cəzalanırlar, cəzalarını alacaqlar. Nəhayət, – mən bunu bir dəfə demişəm, – yəqin ki, bu günlərdə hüquq-mühafizə orqanları məlumat verəcəklər – Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi son aylarda apardıqları, hesab edirəm [218-219] ki, çox peşəkar işlərin nəticəsində iki böyük təxribatçı, terrorçu qrup aşkar eləyiblər, yaxalayıblar. Onların bir qismi artıq həbsdədir, istintaq gedir. Onların da yeganə məqsədi Azərbaycanda qarışıqlıq yaratmaq üçün Azərbaycan prezidentinə qarşı terror etməkdir. Budur bunların müxalifət yolu. Belə müxalifət heç yerdə, heç bir ölkədə qəbul oluna bilməz. Və belə müxalifətə biz yol verməyəcəyik. Kim Azərbaycanda hakimiyyət uğrunda bu cür mübarizə aparırsa, birincisi, bilsinlər ki, onlar məğlub olublar və məğlub olacaqlar. Bizim gücümüz elədir ki, indi onların hər birinin qarşısını almağa qadirik. İkincisi də, bizim xalqımızda olan bu birlik, həmrəylik, bu gün Zəngilan rayonunun nümayəndələrində də hiss etdiyim əhval-ruhiyyə onu göstərir ki, Azərbaycanın bugünkü iqtisadı xalq tərəfindən müdafiə olunur, qorunur və bundan sonra da qorunacaqdır.

Zəngilan rayonunun işğaldan azad olunması Azərbaycan Respublikasının işğal edilmiş başqa rayonlarının azad olunması ilə bərabər, bizim qarşımızda duran ən əsas problemdir, ən ümdə vəzifədir. Mən bunu bir neçə dəfə demişəm, bu gün də qeyd etmək istəyirəm ki, mənim bir prezident kimi bütün fəaliyyətimin əksər hissəsi bu məsələnin həllinə, yəni Ermənistan-Azərbaycan münaqişəsinin tamamilə ləğv edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, işğal edilmiş torpaqların azad olunmasına və didərgin düşmüş vətəndaşlarımızın öz yerlərinə qayıtmasına həsr olunmuşdur. Allaha şükür olsun ki, siz bunu görürsünüz, bilirsiniz, bu gün bu barədə çox xoş sözlər dediniz. Mən sizə təşəkkür edirəm ki, siz bu işləri həm görürsünüz, həm də qiymətləndirə bilirsiniz. Ancaq kimin bunu nə cür qiymətləndirib-qiymətləndirməməsindən asılı olmayaraq mən bir Azərbaycan vətəndaşı kimi, azərbaycanlı kimi və üzərimə götürdüyüm məsuliyyəti dərk edərək bilirəm ki, mənim əsas vəzifəm bu məsələni həll etməkdən ibarətdir və bunun üçün də mən çalışıram.

İki il yeddi aydır ki, atəş yoxdur. Bunun özü böyük nailiyyətdir. Əgər mən 1993-cü ildə Azərbaycana gələndə həmin bu daxili məsələlər olmasaydı, mənə imkan verilsəydi – o vaxt imkan da verilmirdi axı! – o vaxt bu atəşkəsi yarada bilərdim. Bir neçə dəfə də bu atəşkəsi yaratdım, danışıqlar apardıq, saziş bağladıq ki, atəş dayandırılsın, amma üç gündən sonra saziş pozuldu. Ermənistan tərəfi dedi ki, siz pozmusunuz, biz dedik ki, onlar pozubdur. Ancaq o vaxt atəşin dayandırılması[219-220]nı həmin bu qüvvələr istəmirdi. 1993-cü ildə mən burada prezident vəzifələrini həyata keçirərkən Surət Hüseynov böyük bir silahlı qüvvəni əlinə keçirdiyinə görə və onun verdiyi öhdəliklərə görə müdafiə məsələlərini mən ona həvalə etdim Siz burada doğru deyirsiniz, – o bu işlərlə məşğul olmalı idi. Lakin bu işlərlə məşğul olmaq əvəzinə satqınlıqla məşğul olurdu. Xatirinizdədir ki, 1993-cü il oktyabr ayının sonunda Zəngilan işğal olunandan sonra – noyabr ayının 2-də mən xalqa müraciət etdim. Mən bu gün bir də qeyd etmək istəyirəm ki, Azərbaycanın həqiqi milli ordusu, döyüşən milli ordusu məhz o gündən sonra yaranmağa başladı. Bilirsiniz ki, o vaxt bütün xalq ayağa qalxdı. Ondan sonra bizim hərbi hissələr hücuma keçdilər, bir çox yerlərdə irəliyə getdik. İndi Horadiz haqqında danışılır – Horadiz qəsəbəsi də o vaxt bizim apardığımız hücumlar nəticəsində azad olundu. Füzuli rayonunun başqa kəndləri də azad olundu. Başqa bölgələrdə də, Kəlbəcər bölgəsində də irəliyə getdik. Amma yenə də bizim irəliyə getməyimizin qarşısını almaq istəyən daxilimizdə olan satqın qüvvələr – o vaxt təəssüf ki, hələ hər şeyə nəzarət etmək mümkün deyildi, mən bunu açıq deyirəm, – həmin qüvvələr irəliləmək sürətimizi aşağı saldılar. Bunları nəzərə alaraq 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında sazişi imzaladıq və mən buna qərar verdim.

Ona görə də iki il yeddi ay ərzində atəşkəsin saxlanması böyük nailiyyətdir. Amma eyni zamanda bu, sülh danışıqlarımızın aparılması üçün çox əhəmiyyətli bir haldır. Siz burada Lissabon Zirvə görüşünün qərarlarından məmnun olduğunuzu bildirdiniz. 1994-cü ilin oktyabrında Budapeşt Zirvə görüşündə bizim bu problemlə əlaqədar olan qərar haqqında da dediniz. Əgər atəşkəs olmasaydı, nə Budapeştdə biz o qərarı əldə edə biləcəkdik, nə də Lissabonda bu bəyanatı əldə edə biləcəkdik. Ona görə bu müddətdə görülən işlər ölçüyə gələn işlər deyil, bunların hamısını ölçmək üçün çox vaxt lazımdır. Çünki hər gün davamlı olaraq iş görülür ki, Azərbaycan bu bəladan xilas olsun.

Mən hesab edirəm ki, bizim apardığımız işlər, nəhayət, Lissabon Zirvə görüşündə qəbul olunmuş sənədlə özünün müsbət nəticəsini veribdir. Çox tarixi əhəmiyyətli bir sənəddir. Çünki artıq Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin əsas prinsipləri müəyyən olunub, onlar ATƏT-in üzvlərinin hamısı tərəfindən qəbul olunub. Deməк, [220-221] bundan sonra danışıqlar bu əsasla gedəcəkdir. Dünən mən Rusiya prezidentinin xüsusi nümayəndəsi olan səfir Yuri Yukalovu qəbul etdim, onunla ətraflı danışıqlar apardım. Ona da demişəm. Amerika Birləşmiş Ştatlarının nümayəndələrinə də demişəm, başqa xarici ölkələrin nümayəndələrinə də demişəm ki, indi bizim əlimizdə qəbul olunmuş prinsiplər var, bu prinsiplər əsasında biz tədbirlərimizi hazırlamalıyıq. Biz, yəni Azərbaycan tərəfi öz təkliflərimizi hazırlayırıq, bu yaxın vaxtlarda onları təqdim edəcəyik. Və ümidvaram ki, 1997-ci ildə biz bu danışıqları daha da sürətlə aparıb, istədiyimiz məqsədlərə nail ola biləcəyik.

Ona görə də sizin indiyə qədərki dözümlüyünüzə, dəyanətinizə yüksək qiymət verərək bu gün sizə deyirəm ki, biz hamınız bu çətinliklərə dözməliyik. Dözməliyik ki, məsələni sülh yolu ilə həll edək, bir daha qan

tökülməsin və işğal olunmuş torpaqlarımızı azad edək. Ancaq eyni zamanda, mən bu gün burada səslənən çıxışları da bəyənirəm ki, əgər bütün bu tədbirlərimiz nəticə verməsə, yəni torpaqlarımız sülh yolu ilə azad olunmasa, şübhəsiz ki, biz öz torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edəcəyik. Və bizim xalqımız buna hazır olmalıdır, daim hazır olmalıdır. Hər bir vətəndaş buna hazır olmalıdır. Zəngilanlılar da buna hazır olmalıdırlar. Bu gün bəzi çıxışlarda deyilən sözləri mən çox məmnuniyyət hissi ilə qəbul etdim ki, hazırıq özümüz də, övladlarımız da lazım olan zaman gedib torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparaq.

Ancaq mən bir daha bəyan edirəm ki, mənim bir prezident kimi siyasətim atəşkəs rejimini sülh müqaviləsi əldə olunana qədər qoruyub saxlamaqdan ibarətdir. Mən bu bəyanatı Lissabonda da vermişəm, burada bu gün sizin qarşınızda da deyirəm – bizim tərəfimizdən yenidən atəş açılmasına təşəbbüs olmayacaqdır. Biz sülh danışıqlarının müsbət nəticəsinə inanırıq, ona görə də atəşkəs rejimini qoruyub saxlayacağıq və 1997-ci ildə sülh danışıqlarını daha da sürətlə, daha da çoxsahəli aparacağıq, Lissabonda qəbul olunmuş prinsiplər əsasında Böyük Sülh Müqaviləsinin əldə edilməsinə nail olmağa çalışacağıq. Ümidvaram ki, biz buna nail olacağıq. Mən əminəm ki, Zəngilan torpağı azad ediləcək, o çinar meşələrini gedib bir də sizinlə görəcəyik, o gözəl bulaqları, dağları, daşları, sizin üçün, hər bir azərbaycanlı üçün əziz olan tarixi abidələri – hamısını gedib görəcəyik. Mən əminəm ki, o gün gələcək, mən [221-222] sizinlə Zəngilanda görüşəcəyəm. Mən əminəm ki, şairlərin burada şer vasitəsilə ifadə etdiyi arzular yerinə yetəcəkdir.

Ona görə də indi yaşadığınız yerlərdə bütün imkanlardan istifadə edərək uşaqlarınıza da baxın, ailənizə də baxın, harada işləmək mümkündür, nə etmək mümkündür – onunla da məşğul olun. Sizə olan qayğı və yerindən-yurdundan didərgin düşmüş bütün vətəndaşlarımıza qayğı 1997-ci ildə daha da artacaqdır. Əmin ola bilərsiniz ki, bütün imkanlarımızdan istifadə edib bu qayğını, köməyi daha da gücləndirəcəyik. İşğaldan azad edilən torpaqlar dərhal bərpa olunacaqdır. Burada artıq bildirildi, dünən Horadizdə sakinlər böyük bir təntənəli mərasim keçiriblər. Dünya Bankının ayırdığı vəsaitdən istifadə edərək orada otuz ev bərpa olunub və sahiblərinin istifadəsinə verilibdir. Bu münasibətlə orada təntənəli mərasim keçirilibdir. Doğrudan da, bu, kiçik bir hal olsa da, ancaq öz mənasına görə çox böyük əhəmiyyət kəsb edir. Dünya Bankı, beynəlxalq təşkilatlar bizi əmin ediblər ki, işğal olunmuş torpaqlar azad edilərkən onların bərpa olunması üçün, orada yaşayış şəraiti yaratmaq üçün Azərbaycana yardımlar ediləcək, kreditlər veriləcək və lazımi işlər görüləcəkdir. Bunun üçün biz xüsusi təşkilat yaratmışıq. Baş nazirin müavini Abid Şərifov mənim tapşırığımla bu işlərlə məşğul olubdur və bundan sonra da məşğul olacaqdır. Yəni, artıq, görürsünüz, biz bu tədbirləri həyata keçirməyə başlamışıq. Ümidvaram ki, vaxt gələcək, bunların hamısını həyata keçirəcəyik, sona çatdıracağıq.

Sizin problemlərlə əlaqədar yerli icra hakimiyyəti orqanları, – mən bunu bir daha deyirəm, televiziya ilə də veriləcəkdir, bilsinlər, – öz fəaliyyətlərini gücləndirməlidirlər, bütün rayonlarda, şəhərlərdə məskunlaşmış köçkünlərin problemlərinə qayğı və ciddi münasibət göstərməlidirlər. Nazirlər Kabineti, onun müvafiq şöbələri, müvafiq işçiləri qarşıya çıxan məsələlərlə ciddi məşğul olmalıdırlar. Prezidentin İcra Aparatı, onun şöbələri bu məsələlərlə daim məşğul olmalıdırlar. Baş nazirin müavini İzzət Rüstəmov Azərbaycana humanitar yardım məsələləri ilə məşğul olan şəxsdir, xüsusi bu məsələ üçün ayrılıbdır, o da bundan sonra öz fəaliyyətini gücləndirməlidir.

Burada deyildi – Dövlət Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin işində keçmişdə çox böyük səhvlər olubdur. Həqiqətən belə olubdur – böyük səhvlər olubdur, böyük dağıntılar olubdur. O komitənin rəhbərliyini mən tamamilə yenidən təyin etmişəm – Qəhrəmanov burada çıxış etdi, onun birinci [222-223] müavini Ziya Quliyev və başqaları güman edirəm ki, keçmişdə buraxılan səhvlərdən özləri üçün lazımi nəticə çıxarıblar, bundan sonra sədaqətlə işləməlidirlər.

Ümumiyyətlə, Azərbaycana gələn humanitar yardım öz ünvanına çatmalıdır. Gələn humanitar yardıma xəyanət edənlər, əl uzadanlar, ondan öz məqsədləri üçün istifadə edənlər on böyük cinayət edirlər. Bundan da böyük, bundan da çirkin cinayət ola bilməz. Mən bunu bu sahədə işləyən bütün işçilərə demək istəyirəm. Məsələn, bizim Qızıl Aypara Cəmiyyəti var, onun rəhbərliyini də işdən çıxarmışıq, çünki gələn humanitar yardımların bəzilərini dağıdıblar. Həmin bu Qaçqınlar komitəsində belə hallar çox olubdur. Yerli icra hakimiyyəti orqanlarında belə hallara yol verilir. Mən bu gün bir daha xəbərdarlıq edirəm və respublikanın müvafiq təşkilatlarına tapşırıram ki, bu məsələyə ciddi nəzarət etsinlər. Bu baxımdan, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımıza, bacı-qardaşlarımıza həm öz imkanlarımızdan qayğı göstərməliyik, kömək etməliyik, həm də xaricdən gələn humanitar yardımları onlara vaxtlı-vaxtında çatdırmalıyıq. Belə yardımlar gəlir, lazımdır ki, bunlardan yalnız və yalnız bu kontingent istifadə etsin. Ayrı-ayrı adamlar – vəzifəsindən sui-istifadə edib bunları dağıtmaqla, satmaqla, özlərinə sərvət yığmaqla məşğul olanlar, yenə də deyirəm, ən qatı cinayət edirlər. Belə adamlar cəzalandırılmalı, məsuliyyətə cəlb olunmalıdırlar.

Biz hamımız respublikamızın və müstəqil Azərbaycanın çox gərgin bir dövrünü yaşayırıq. Azərbaycanda yeni dövlət qurulur, yeni iqtisadiyyat yaranır, yeni iqtisadi münasibətlər yaranır, islahatlar həyata keçirilir, yeni qanunlar qəbul edilir, yeni işlər görülür. Bilirsiniz, bu dövrdə yaşamaq həm çətindir, həm də şərəflidir. Çətindir ona görə ki, hamımız ağır vəziyyətdə yaşayırıq, ağır bir dövr keçiririk. Amma şərəflidir ona görə ki, biz müstəqil Azərbaycanın gələcəyinin əsasını yaradırıq, təməlini qoyuruq. Bizim gələcək nəsillərin xoşbəxt yaşamasının təməlini qoyuruq, himnini qoyuruq, əsasını qoyuruq. Bu, şərəflidir. Ona görə biz bu gərginliyə,

çətinliyə dözməliyik, siz bu ağır vəziyyətə dözməlisiniz – gələcək naminə, müstəqil Azərbaycanın xoşbəxt gələcəyi naminə! Azərbaycanın xoşbəxt gələcəyinə mən tam inanıram və siz də inana bilərsiniz ki, biz özümüz də bu gələcəyi görəcəyik. Bizim övladlarımız, balalarımız isə azad, sərbəst, müstəqil Azərbaycanda firavan ya[223-224]şayacaqlar! Buna görə də bizim çəkdiyimiz zəhmətlərin böyük əhəmiyyəti var və buna görə də hərə gərək bu böyük işə öz payını versin, öz səyini qoysun. Əminəm ki, belə də olacaqdır.

Burada siz birlikdən, həmrəylikdən danışdınız. Ayrı-ayrı pozucu qüvvələrin, müxalifətdə olan adamların təxribatçı fəaliyyətindən də danışdınız. Ancaq bunların hamısına baxmayaraq mən bu gün, yeni il ərəfəsində və Dünya azərbaycanlılarının həmrəylik günü ərəfəsində sizin hamınızı və bütün Azərbaycan vətəndaşlarını, Azərbaycan xalqını bir daha birliyə, həmrəyliyə dəvət edirəm. Qarşımızda duran çətinlikləri həmrəylik yolu ilə, birlik yolu ilə aradan götürə biləcəyik, vəzifələri yerinə yetirə biləcəyik. Kim bu birliyin, həmrəyliyin mənasını, əhəmiyyətini bu gün dərk edə bilmirsə, o, sabah bunu dərk edəcəkdir, gələcəkdə dərk edəcəkdir. Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur, bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o öz xalqına xidmət etmiş olacaqdır. Kim bu yolda bizə mane olacaqsa, o maneələri biz aradan götürməyə qadirik.

Mən sizin hamınızı qarşıdan gələn Yeni il – 1997-ci il münasibətilə təbrik edirəm, 31 dekabr – Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzu edirəm. Sizi bir daha əmin edirəm ki, işğal olunmuş torpaqlarımız azad olunacaq, zəngilanlılar öz yerlərinə-yurdlarına qayıdacaq, müstəqil Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa ediləcəkdir. Sağ olun. [224-225]

## XARİCİ DÖVLƏTLƏRİN AZƏRBAYCANDAKI SƏFİRLİKLƏRİNİN, BEYNƏLXALQ TƏŞKİLATLARIN NÜMAYƏNDƏLİKLƏRİNİN VƏ ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ RƏSMİ GÖRÜŞDƏ NİTQ

*Prezident iqamətgahı*

*30 dekabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il – qarşıdan gələn 1997-ci il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, səadət arzulayıram, ölkələrinizə, xalqlarınıza onların həyatında uğurlar diləyirəm.

1996-cı ilin son günlərini birlikdə yaşayırıq. Bu ili yola salarkən bu gün məmnuniyyət hissi ilə deyə bilərik ki, 1996-cı il sizin üçün, bizim üçün, hamımız üçün əmin-amanlıq ili, uğurlu il olubdur.

Respublikamız üçün 1996-cı il Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, inkişaf etməsi ili olubdur. Azərbaycanın dünya ölkələri ilə əlaqələri 1996-cı ildə genişlənib və inkişaf edibdir. Azərbaycanın beynəlxalq təşkilatlarla, beynəlxalq maliyyə mərkəzləri, dünyanın iqtisadiyyat sahəsindəki böyük şirkətləri ilə əlaqələri genişlənib və inkişaf edibdir.

Bütün bu nailiyyətlərin əldə olunmasında, Azərbaycan Respublikasının dünya ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsində dünyanın müxtəlif dövlətlərinin respublikamızda fəaliyyət göstərən səfirliklərinin, beynəlxalq təşkilatların və dünyanın böyük iqtisadi şirkətlərinin nümayəndəliklərinin Azərbaycandakı fəaliyyəti yüksək qiymətə layiqdir.

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizi – xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların, maliyyə mərkəzlərinin və böyük şirkətlərin nümayəndəliklərini Yeni il münasibətilə ürəkdən təbrik edirəm və Azərbaycanla uğurlu əməkdaşlığa görə sizə təşəkkürümü bildirirəm. [225-226]

Sizin ölkələriniz, xalqlarınız 1996-cı ildə öz həyatında böyük nailiyyətlər əldə etmişlər, dünyada gedən proseslərdə fəal iştirak etmişlər. Bu nailiyyətlər münasibətilə mən sizi ürəkdən təbrik edirəm. Eyni zamanda, bu gün biz 1997-ci ili qarşılayarkən qarşımızda duran vəzifələrin nə qədər böyük, əzəmətli və məsuliyyətli olduğunu dərk etdik. Buna görə də siz də, biz də – hamımız gələcəyə böyük ümidlərlə yaşayırıq.

Mənim arzum budur ki, həm Azərbaycan xalqının, həm də sizin xalqlarınızın, ölkələrinizin ümidləri doğrulsun. Mən arzu edirəm ki, 1997-ci ildə bütün dünyada sülh və əmin-amanlıq daha da möhkəmlənsin və inkişaf etsin, ölkələr arasındakı münasibətlər genişlənsin, əməkdaşlıq inkişaf etsin və xalqlar hamısı firavan yaşasınlar.

Mən arzu edirəm ki, 1997-ci ildə dünyanın müxtəlif bölgələrində olan hərbi münaqişələr ləğv olunsun. Güman edirəm ki, sizin də, bizim də – hamımızın arzumuz ondan ibarətdir ki, Ermənistanla Azərbaycan arasında olan Dağlıq Qarabağ münaqişəsi 1997-ci ildə sülh yolu ilə həll edilsin, bölgəmizdə, Qafqazda sülh və əmin-amanlıq yaransın.

Hörmətli dostlar, bu ümidləri, arzuları yerinə yetirmək üçün mən sizin hamınızı əməkdaşlığa dəvət edirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan Respublikası, onun dövləti öz sülhsevər xarici siyasətini bundan sonra da ardıcıl surətdə həyata keçirəcəkdir.

Bizim arzumuz ölkəmizdə sülh, əmin-amanlıq, sabitlik yaratmaqdan ibarətdir. Bizim arzumuz bölgəmizdə – Qafqazda sülh, əmin-amanlıq yaratmaqdan ibarətdir. Bizim arzumuz dünyada, dünyanın hər bir guşəsində sülhün, əmin-amanlığın bərqərar olunmasından ibarətdir. Mən bu arzularla sizi üzümüzə gələn 1997-ci il münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə, ailələrinizə cansağlığı, səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Yeni iliniz mübarək olsun! [226-227]

## BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN ŞƏHİD ÖVLADLARI VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN KEÇİRDİYİ YENİ İL ŞƏNLİYİNDƏ ÇIXIŞ

*Respublika əl oyunlar stadionu*

*31 dekabr 1996-cı il*

Əziz balalar, övladlar!

Müstəqil Azərbaycanın uşaqları, övladları, gəncləri!

Mən sizi üzümüzə gələn 1997-ci il, Yeni il münasibətilə təbrik edirəm, sizə cansağlığı, səadət, firavan həyat, daim belə şən, xoşbəxt əhval-ruhiyyə arzulayıram.

Əziz balalar, uşaqlar, gənclər, siz Azərbaycanın gələcəyisiniz. Müstəqil Azərbaycanın gələcək illərinin qurucularısınız. Xalqımız, millətimiz sizə böyük ümidlər bəsləyir. Əsrimiz sona çatan zaman, Yeni il ərəfəsində mən əmin olduğumu bildirmək istəyirəm ki, siz təhsil alıb, yaşayıb, böyüyüb müstəqil Azərbaycan Respublikasını daha da çiçəkləndirəcəksiniz, xoşbəxt edəcəksiniz.

Sizlərə – uşaqlara, gənclərə qayğı və diqqət Azərbaycan dövlətinin, hökumətinin, prezidentinin ümdə vəzifəsidir və əsas borcudur. Mən bu gün sizə Azərbaycanın bütün yeniyetmələrinə, gənclərinə, uşaqlarına bir daha bəyan edirəm ki, biz bu borcumuzu 1997-ci ildə də, gələcək illərdə də şərəflə yerinə yetirəcəyik. Siz daim dövlətin, hökumətin, prezidentin atalıq qayğısı əhatəsində yaşayacaqsınız, böyüyəcəksiniz, təhsil alacaqsınız.

Əziz balalar!

Bu gün siz gözəl istedadınızı nümayiş etdirirsiniz. Sizin bu gün burada ifa etdiyiniz mahnılar, musiqiniz, rəqsləriniz idman oyunu nümunələriniz – bunlar hamısı Azərbaycan xalqının nə qədər böyük istedada malik olmasını sübut edir. Xalqımız istedadlı xalqdır. Xalqımız zəkalı, qəhrəman, qüdrətli xalqdır. Bunu bizim yaşlı nəsillər də sübut ediblər. Bunu bizim igid, qəhrəman döyüşçülərimiz, böyük alimlərimiz, ziyalılarımız da sübut ediblər. Əziz balalar, bunu bu gün burada [227-228] Yeni il şənliyini bu qədər gözəl, cazibədar keçirməyinizlə siz də nümayiş etdirirsiniz. Bu istedadınıza, qabiliyyətinizə, bu şən əhval-ruhiyyənizə görə mən sizi təbrik edirəm. Sizə şən həyat, xoşbəxtlik arzu edirəm.

Sizin vəzifəniz yaxşı oxumaqdan, təhsil almaqdan, özünüzü fiziki cəhətdən hazırlamaqdan, idman etməkdən, Azərbaycan xalqının gözəl ənənələrini, vərdişlərini mənimsəməkdən, sərbəst, müstəqil həyata hazırlaşmaqdan ibarətdir. Mən əminəm ki, siz bu vəzifələrinizi yerinə yetirəcəksiniz, yaxşı oxuyacaqsınız, Azərbaycanın sağlam, gənc nəslə malik olmasını təmin edəcəksiniz, ölkəmizi gələcəkdə irəliyə aparacaqsınız.

Sizin hamınızı, hər birinizi qucaqlayıram, öpürəm, bağrıma basıram. Sizə şən həyat, xoşbəxtlik arzulayıram. Əziz balalar, Yeni iliniz mübarək olsun! Sağ olun! [228-229]

## AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

*31 dekabr 1996-cı il*

Hörmətli həmvətənlər, əziz bacılar və qardaşlar, Azərbaycan Respublikasının vətəndaşları!

1996-cı il başa çatır. Biz 1997-ci ili qarşılayırıq. 1996-cı il ilə vidalaşaraq, məmnuniyyət hissi ilə deyə bilərik ki, bu il Azərbaycan üçün bəhrəli, uğurlu il olubdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyi möhkəmlənib, inkişaf edibdir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi sahəsində dəyərli tədbirlər həyata keçirilibdir. Bu il Azərbaycan xalqı 1995-ci ilin noyabr ayında qəbul olunmuş Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası əsasında yaşamış, işləmiş və yaratmışdır. Azərbaycanda demokratik prinsiplər bütün sahələrdə bərqərar olubdur. Azərbaycan iqtisadi islahatlar prosesini sürətlə həyata keçirir və bu sahədə böyük nailiyyətlər əldə edilibdir.

1996-cı il ölkəmiz üçün, xalqımız üçün sülh və əmin-amanlıq ili olubdur. Ölkənin daxilində ictimai-siyasi sabitlik günü-gündən möhkəmlənibdir və insanların rahat yaşaması üçün, əmin-amanlıq şəraitində yaşaması üçün gərəkli imkanlar yaranıbdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, ölkəmizə qarşı Ermənistanın hərbi təcavüzünün qarşısının alınması sahəsində çox işlər görülüb və müsbət nəticələr əldə edilibdir. 1996-cı ildə xalqımız, ölkəmiz sülh şəraitində, atəşkəs şəraitində yaşayıbdır. 1994-cü ildə əldə olunmuş atəşkəs rejimi 1996-cı ildə davam edibdir. İki il yeddi aydır ki, atəş yoxdur, döyüşlər getmir, qan tökülmür.

Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsi üçün, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün, böyük sülh yaranması üçün görülən işlər öz nəticəsini verir. 1996-cı ilin sonunda ATƏT-in Lissabon Zirvə görüşündə sülh danışıqlarını sürətlə həyata keçirmək üçün və Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək üçün çox tarixi əhəmiyyətli qərar qəbul olunubdur. Bunlar hamısı respublikamızın 1988-ci ildən Ermənistan təcavüzü nəticəsində düşdüyü ağır vəziyyətdən çıxarılması üçün [229-230] görülən işlərdir. 1996-cı ildə bu sahədə görülən işlər, demək olar ki, yaxşı nəticələr veribdir.

Dünya Birliyində Azərbaycan Respublikasının mövqeləri möhkəmlənib, dünyanın bir çox ölkələri ilə əlaqələrimiz genişlənibdir. Dünya miqyasında Azərbaycan respublikasının nüfuzu günü-gündən artmaqdadır. Azərbaycan bütün beynəlxalq təşkilatlarda fəal iştirak edir. Bu təşkilatlarda və qəbul edilən qərarlarda Azərbaycanın mənafeləri daim müdafiə olunub və müdafiə olunur.

1996-cı ildə Azərbaycanda daxili ictimai-siyasi sabitliyin möhkəmlənməsi xalqımızın rahat yaşaması üçün şərait yaradıbdır. Ancaq eyni zamanda, bu sabitliyi pozmağa çalışan, Azərbaycanın dövlət quruculuğuna, ölkəmizdə demokratik proseslərin həyata keçirilməsinə maneçilik göstərən xarici və daxili qüvvələrin hərəkətləri də mövcud olmuşdur. Məmnuniyyət hissi ilə qeyd etmək olar ki, respublikamıza qarşı yönəldilmiş təxribatçı, terrorçu, düşmən qüvvələrin bütün hərəkətlərinin qarşısı alınmış və Azərbaycan vətəndaşlarının hüquqları, onların əmin-amanlıq şəraitində yaşaması təmin edilmişdir.

Respublikamızda həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatımızda müsbət dəyişikliklərin meydana gəlməsini təmin edibdir. 1996-cı ildə ilk dəfə daxili məhsul istehsalı azalmamış, hətta bir qədər – 1,2 faiz artmışdır. Sənaye istehsalının geriləməsi sürəti xeyli azalmış, kənd təsərrüfatı məhsulları istehsalı təxminən 3 faiz çoxalmışdır. Azərbaycanın iqtisadiyyatına investisiya qoyuluşu 80 faiz, xarici sərmayə qoyuluşu isə 2 dəfə artmışdır. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatında müsbət meyllərin artıq mövcud olmasını göstərir. Azərbaycanda maliyyə, pul dövriyyəsi sahəsində aparılan tədbirlər və islahatlar öz müsbət nəticəsini vermiş, inflyasiya il müddətində 1 faizdən aşağı olmuşdur. 1994-cü ildə bu, 25 faiz, 1995-ci ildə isə 3 faiz olmuşdur. Milli valyutamızın – manatın dəyəri möhkəmlənmiş, dollara nisbətən onun məzənnəsi 7 faiz yüksəlmişdir.

Bütün bunlar respublikamızda iqtisadiyyat sahəsində aparılan tədbirlərin və iqtisadi islahatların əyani nəticəsidir və bunların sayəsində əhalinin rifah halını yaxşılaşdırmaq üçün müəyyən tədbirlər həyata keçirmək mümkün olmuşdur. 1996-cı ildə respublikamızda maaşlar, pensiyalar, müavinətlər ümumən 50 faiz, büdcədən ödənilən əmək haqları isə 70 faiz artmışdır. Son illərdə ilk dəfədir ki, respublikamız yeni ilə – [230-231] 1997-ci ilə artıq təsdiq edilmiş büdcə ilə daxil olur. 1996-cı ildə büdcədə nəzərdə tutulmuş bütün vergilərə və rüsumlara 100 faiz icra edilmişdir.

Şübhəsiz ki, bütün bunlar respublikanın iqtisadiyyatında ilk müsbət addımlardır, müsbət meyllərdir. Ancaq əvvəlki illərlə müqayisə edərkən bizim bunları yüksək qiymətləndirməyə əsasımız var. Çünki, bildiyiniz kimi, son illər, təxminən 1989-cu ildən başlayaraq, Azərbaycanda həmin bu göstəricilər və digər iqtisadi göstəricilər ilbəil mənfi istiqamətdə olmuşdur. İndi isə biz müsbət meyllərin, müsbət nəticələrin şahidiyik.

Bunların hamısı respublikamızın ictimai-siyasi həyatında böyük canlanma yaratmışdır. Mən məmnuniyyət hissi ilə qeyd edirəm ki, ölkəmizin vətəndaşları, xalqımızın tam əksəriyyəti Azərbaycan dövlətinin xarici və daxili siyasətini ürəkdən bəyənir, alqışlayır və bizim bu siyasətimizin, tədbirlərimizin həyata keçirilməsində fəal iştirak edirlər. Bütün bunlar respublikamızı 1997-ci ildə daha sürətlə inkişaf etdirməyə yaxşı əsas yaradır. Mən

əminəm ki, biz 1996-cı ildə əldə etdiyimiz nailiyyətlərə əsaslanaraq, 1997-ci ildə daha yüksək sürətlə respublikamızın iqtisadiyyatını inkişaf etdirə bilərik və ölkəmizin vətəndaşlarının rifah halının yaxşılaşmasını təmin edə bilərik. Əziz həmvətənlər, mən sizi əmin edirəm ki, bunun üçün əsas var və biz bunu təmin edə biləcəyik.

Respublikamızda yaranmış ümumxalq birliyi, həmrəyliyi, vətəndaş birliyi Azərbaycan Respublikasının müstəqil siyasət aparması üçün böyük dayaqdır və buna görə də biz beynəlxalq aləmdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq üçün, inkişaf etdirmək üçün çox təsirli addımlar atırıq və bunlar da öz nəticəsini verir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, indi respublikamızda yüksək əhval-ruhiyyə var. Keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, ölkəmizin ərazisinin bir hissəsinin işğal olunmasına baxmayaraq, əhalimizin bir qisminin köçkün vəziyyətində çadırlarda yaşamasına baxmayaraq, insanlar, vətəndaşlarımız gələcəyə nikbin əhval-ruhiyyə ilə baxırlar.

Biz 1996-cı ili bu göstəricilərlə, bu nailiyyətlərlə sona çatdırırıq. Ona görə də hesab edirəm ki, 1996-cı il Azərbaycanın dövlət müstəqilliyi tarixinə böyük nailiyyətlər ili kimi həkk olacaqdır.

1997-ci ildə ölkəmizin qarşısında, dövlətimizin qarşısında böyük vəzifələr durur. Mən əminəm ki, xalqımızın birliyinə və [231-232] həmrəyliyinə əsaslanaraq, ölkəmizdə yaranmış sağlam ictimai-siyasi əhval-ruhiyyəyə əsaslanaraq, biz bu vəzifələrin öhdəsindən gələcəyik. 1997-ci ildə iqtisadi islahatlar geniş surətdə həyata keçiriləcək, özəlləşdirmə proqramı böyük vüsət alacaqdır. ?Torpaq islahatı haqqında? Qanun əməli surətdə həyata keçiriləcəkdir. İnsanların sərbəst yaşaması üçün, sərbəst fəaliyyət göstərməsi üçün daha geniş imkanlar yaranacaqdır. Demokratiyanın, siyasi plüralizmin daha da inkişaf etməsi üçün lazım olan imkanlar yaranacaqdır. İnsanların bütün haqları, hüquqları qorunacaqdır.

Respublikamızın təbii sərvətlərinin və iqtisadi potensialının xarici şirkətlərlə müştərək istifadə olunması üçün, xüsusən neft və qaz yataqlarının müştərək istifadə olunması üçün imzalanmış müqavilələr, yaradılmış birgə müəssisələr artıq öz konkret nəticələrini verəcəkdir. Üzümüzə gələn 1997-ci ildə biz o konkret nəticələrin şahidi olacağıq. Bunlar hamısı ölkəmizin iqtisadiyyatının daha da sürətlə inkişaf etməsinə şərait yaradacaq, əhalinin rifah halının günü-gündən yaxşılaşmasına imkan verəcəkdir. Hesab edirəm ki, gələn ilin təsdiq olunmuş dövlət büdcəsində nəzərdə tutulmuş rəqəmlər 1997-ci ildə əhalinin əmək haqqının artırılması üçün imkanlar yaradır və mən bu barədə lazımi qərarlar qəbul edəcəyəm.

Bir sözlə, bizim əsas məqsədimiz ölkəmizdə sabitliyi, əmin-amanlığı təmin etmək, insanların rahat yaşaması üçün bütün şəraitləri yaratmaqdır. Əhalinin rifah halını yaxşılaşdırmaq üçün əldə olunan əsaslardan, imkanlardan 1997-ci ildə biz tam səmərəli istifadə edəcəyik. Ona görə də mən 1997-ci ilə böyük ümidlərlə, böyük nikbinliklə baxıram və sizi əmin edirəm ki, əziz bacılar və qardaşlar, 1997-ci ildə sizi xoşbəxt günlər, yaxşı günlər gözləyir.

Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün qəbul edilmiş sənəd 1997-ci ildə bu məsələnin həlli sahəsində təsirli tədbirlər həyata keçirilməsinə böyük imkan yaradır. Bu sahədə biz artıq əməli iş aparırıq və ümidvaram ki, 1997-ci il həmin məsələdə xalqımız üçün, ölkəmiz üçün dönüş ili olacaqdır. Bu ümidlərlə, bu arzularla biz 1997-ci ilə qədəm qoyuruq.

Ölkəmizin müdafiəsində, onun ərazisinin qorunmasında Azərbaycanın Milli Ordusu, Silahlı Qüvvələri keşikdədir. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, Silahlı Qüvvələrimiz öz [232-233] fəaliyyətini gücləndirib və Azərbaycanın dövlətçiliyini, torpaqlarını, ölkəmizi qorumağa qadirdilər. Bir daha qeyd edirəm, bunlar hamısı bizi 1997-ci ildə daha da yaxşı nəticələr əldə etməyə sövq edir və bizə böyük imkanlar yaradır.

Əziz həmvətənlər, mən sizi qarşıdan gələn 1997-ci il münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram, bütün işlərinizdə uğurlar diləyirəm.

Azərbaycan torpaqlarının müdafiəsində olan, cəbhə bölgəsində Ermənistan silahlı qüvvələri ilə üz-üzə duran döyüşçülərimizə, Azərbaycanın Silahlı Qüvvələrində xidmət edən bütün övladlarımıza Yeni il salamlarımı və təbrikimi göndərirəm.

Azərbaycanın ərazi bütövlüyünün, torpaqlarının müdafiəsində, müstəqilliyinin və milli azadlığının əldə edilməsi uğrunda mübarizədə həlak olmuş şəhidlərimizin ailələrini xüsusi salamlayıram, Yeni il münasibətilə onları ürəkdən təbrik edirəm.

Respublikamızın ərazi bütövlüyünün müdafiəsi iştirakçılarını və torpaqlarımızı qoruyarkən fiziki zərər çəkmiş, şikəst olmuş və çətin vəziyyətdə yaşayan vətəndaşlarımızı xüsusi salamlayıram, Yeni il münasibətilə onları ürəkdən təbrik edirəm.

Yeni il salamlarımı və təbriklərimi veteranlara çatdırıram. Veteranlar – Azərbaycanın hörmətli insanları, ağsaqqalları cəmiyyətimizdə həmişə çox böyük rol oynamışlar və bu gün də rol oynayırlar. Onların hamısına cansağlığı, uzun ömür arzulayıram.

Azərbaycanın gələcəyi bizim gənclərə məxsusdur, gənclərin əlindədir. Müstəqil Azərbaycan dövlət müstəqilliyinin altıncı ilinə qədəm qoyubdur. Qarşımızda böyük yol var. Əminəm ki, xalqımız böyük çətinliklərlə əldə etdiyimiz dövlət müstəqilliyinin qorunub saxlanmasında bundan sonra da fədakar olacaqdır, öz səylərini əsirgəməyəcəkdir. Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır. Bu Yeni il

axşamı Azərbaycan gənclərini ürəkdən salamlayıram, onlara səadət, xoşbəxtlik arzulayıram.

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar, bir daha hamınızı Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə səadət və xoşbəxtlik arzulayıram. Hər bir evdə, hər bir ailədə [233-234] bu Yeni il axşamı şən, xoşbəxt əhval-ruhiyyə olmasını arzulayıram. Mən sizinləyəm. Sizin mənə göstərdiyiniz etimad, mənim prezidentlik fəaliyyətimi dəstəkləməyiniz, onu müdafiə etməyiniz, mənə məhəbbətiniz mənə daha da güc verir, daha da çox inam verir və bu inamla biz sizinlə birlikdə ilbəil irəli gedəcəyik.

Yeni iliniz mübarək olsun. [234-235]

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlərim!

Müqəddəs Milad bayramı – İsa peyğəmbərin mübarək mövludu münasibətilə sizi – Azərbaycanın bütün pravoslav xristianlarını ürəkdən təbrik edir, bu əziz gündə hamınıza xoş ovqat və səadət arzulayıram.

Milad bayramı Uca yaradana tapınan, qəlbində İlahi kəlamın nurunu gəzdirən insanların bayramıdır. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir şəxs məhz belə yüksək mənəvi-etik dəyərlərin sayəsində vətən qarşısında övladlıq borcunu dərk edir və yaşadığı ölkənin layiqli vətəndaşı olur. Qeyd etmək xoşdur ki, Azərbaycanda yaşayan pravoslav xristianlar da ölkədə gedən demokratik yeniləşmə və dövlət quruculuğu prosesində əsl vətəndaş məsuliyyəti ilə yaxından iştirak edir, müstəqil respublikamızın parlaq gələcəyi naminə əllərindən gələni əsirgəmirlər.

Qoy bu bayram ailələrinizə sevinc, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq və əmin-amanlıq gətirsin.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*5 yanvar 1997-ci il* [235-236]

## XALQ ŞAİRİ QABİLİN ANADAN OLMASININ 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNİN RƏSMİ HİSSƏSİNDƏN VƏ KONSERTDƏN SONRA ONUNLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*7 yanvar 1997-ci il*

Hörmətli Qabil, səni anadan olmağının 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Belə yubileylərin təşkil olunması ədəbiyyat gecələrinin keçirilməsi deməkdir. Mən vaxtilə düşünürdüm ki, müntəzəm olaraq şeir gecələri keçirmək lazımdır. Mənim 70-ci illərdə bu barədə bir çox fikirlərim var idi. Xalqımız tarixən, əsrlərlə şeirlə yaşayıb, şairlər yığışıblar, özləri də, oraya toplaşanlar da şeirlər deyiblər. Ona görə də mən o vaxt fikirləşirdim ki, musiqi gecələri öz yerində, şeir gecələri də keçirmək lazımdır.

Mən şairlərin, yazıçıların, ədəbiyyatçıların son illərdə keçirilən yubileylərini xatırlayıram. Bunlar elə ədəbiyyat, şeir, poeziya bayramıdır. Bu yubileylərdə hər bir sənətkarların yaradıcılığına qiymət verilir. Biz, məsələn, Qabilin əsərlərini oxumuşuq, lakin bu şeirləri bir daha yada salmaq çox əhəmiyyətlidir, həm də dinləyəndə o, insana zövq verir.

Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm, buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm. Hesab edirəm, bu yubiley gecəsi çox yaxşı oldu. Doğrudur, Qabil özü narahat idi ki, yubiley gecikir. Ancaq bu gecikməyin xeyri oldu, respublikanın bir çox yerlərində Qabilin yaradıcılığına həsr edilmiş tədbirlər keçirildi. Yubiley gecəsinin məhz bu yanvar ayında olması bir də ona görə yerinə düşdü ki, burada yubilyarın Yanvar faciəsinə həsr olunmuş şeiri dəfələrlə səsləndi, yeddi il bundan əvvəl xalqımızın başına gələn faciələr, bəlalar yad edildi və Qabilin vətəndaşlıq şücaəti bir daha nəzərə çarpdırıldı. [236-237]

Yubiley gecəsində çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil. Qabilin həmin Yanvar faciəsinə həsr olunmuş şeirinin özü siyasətdir. Yaxud, yadımdadır, mən Naxçıvanda olanda Qabil burada qəzetdə çıxış etmişdi və Mütəllibova 24 sual vermişdi ki, o bu suallara cavab versin. Mən o vaxt bu yazını oxudum, fikirləşdim ki, görəsən, Mütəllibov bu suallara cavab verəcək, yoxsa yox? O, həmin suallara cavab verə bilmədi. Qabilin bu sualları verməsinin özü bir vətəndaşlıq şücaəti, mövqeyi idi. Ona görə də Qabil heç də siyasətdən kənarda qalmayıb, öz fikrini deyibdir.

Anar da, Sabir Rüstəmxanlı da buradakı çıxışlarında dedilər ki, Azərbaycanda milli azadlıq hərəkatı başlayanda, 1989-1990-cı illərdə xalqımıza qarşı ədalətsizliklər olanda bir çoxları meydanlara gəlirdi, xalqımızın dərdi haqqında danışırdı, bəziləri isə gəlmirdi. Amma Qabil gəlib orada xalqın dərdini deyən adamlardan biridir. Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır.

Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da, o, çox böyük iş idi və Qabil bu işi gördü. Bu, həqiqətən Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi.

Mən bu gün bu yubiley gecəsinə böyük məmnuniyyət hissi ilə gəlmişəm. Qabilin xidmətləri çox böyükdür.

Qabil öz çıxışında Mədinə Gülgünün vəfatı ilə əlaqədar Aktyor evində yas mərasimindəki görüşümüzü xatırlatdı. Doğrudan da, o vaxt mən Qabilə dedim ki, sən əsl kişisən. Bu, elə-belə söz deyil. Bu mənim əvvəlki dövrdə, qurultaylarda, müxtəlif tədbirlərdə yazıçılarla görüşlərimdə müşahidələrimin nəticəsi idi və beynimdə Qabil haqqında toplanmış bir fikir idi. O fikri də mən uzun müddətli ayrılıqdan sonra oradakı görüşümüzdə bildirdim. Yəni bu adi bir söz deyildi. Bilirsiniz ki, insanlar arasında "sən kişisən, mən də kişiyəm" sözləri çox işlənir. Amma mən heç vaxt belə söz işlətmərəm. O vaxt isə mən bu sözü işlətdim, çünki doğrudan da onun yeri idi.

Xalq şairi Qabil həm də bizim elə sənətkarlarımızdandır ki, onun xarakterindəki özünəməxsus incə yumor hissləri çox güclüdür. [237-238]

**Qabil**: Mənə göstərilən diqqət və qayğı üçün dövlətimizin başçısı möhtərəm Heydər Əliyevə bir daha dərin minnətdarlığımı bildirirəm. Mən vaxtilə "Ömür hədləri" kitabına şeirlə avtoqraf yazıb Sizə göndərdiyimi xatırlatmaq və həmin şeiri oxumaq istəyirəm:

*Məsləhətdir, aç oxu sən bu kitabı, Heydər,*
*Çox suala tapacaqsan da cavabı, Heydər.*
*Görəcəksən quruluş zay quruluşdur, a kişi,*
*Yandırır həm şişi o, həm də kababı, Heydər.*

*Üstünə kim bu saat qalxdı, xoruzlandısa da,*
*Xoruzun uçmağa hardaydı ki, tabı, Heydər.*
*Hansı namərdin olub vicdanı, abrı, həyası?!*
*Mərdə, mərdanəyə xas, vicdan əzabı, Heydər!*

**Heydər Əliyev:** Bu şeirin qiyməti ondan ibarətdir ki, onu sən o vaxt yazdın, mənə göndərdin. Yadımdadır, vaxt – 1991-ci ilin fevral ayında mən buraya gəlmişdim, Ali Sovetin sessiyasında iştirak edirdim. Həmin o namərdlər mənə hücum etdilər. Sən şair baba idin, vəzifən yox idi və məndən vəzifə almamışdın. Amma sən həmin şeiri yazıb mənə göndərdin. Bu, sənin vətəndaşlıq mövqeyini bildirdi. Çox sağ ol. [238-239]

## FRANSA RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*13 yanvar 1997-ci il*

Bu səfər də əvvəlki səfərlərin davamıdır. Bilirsiniz ki, Fransanın prezidenti cənab Jak Şirak məni Fransaya rəsmi səfərə dəvət edibdir. Fransa ilə Azərbaycan arasındakı əlaqələr son illər, xüsusən üç il bundan öncə mən Fransaya ilk dəfə səfər edəndən, Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalandıqdan sonra inkişaf edir. İndiki səfər bu proses çərçivəsində yeni bir səfərdir. Mən hesab edirəm ki, bu, həm Fransa, həm də Azərbaycan üçün əhəmiyyətlidir, lazımlıdır. Güman edirəm ki, bu, Fransa-Azərbaycan əlaqələrinin inkişaf etməsində yeni bir mərhələ olacaqdır. [239-240]

## FRANSA PREZİDENTİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Paris, Yelisey sarayı*

*13 yanvar 1997-ci il*

Cənab prezident! Azərbaycanın ünvanına söylədiyiniz xoş sözlərə və məni Fransaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikası Avropanın bütün ölkələri ilə, o cümlədən, Fransa ilə əlaqələrini daha da möhkəmləndirməyə böyük diqqət yetirir.

Mərhum prezident Fransua Mitteranın dəvəti ilə mən 1993-cü ildə Fransada rəsmi səfərdə olduğum zaman Azərbaycanla Fransa arasında imzalanmış sənədlər ölkələrimizin əməkdaşlığı üçün möhkəm zəmin yaratmışdır. Xatırlatmaq istəyirəm ki, həmin sənədlər ölkəmizin parlamenti tərəfindən təsdiq edilmişdir və müvəffəqiyyətlə həyata keçirilir. İndi söhbət ölkələrimiz arasında iqtisadiyyat, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da sıxlaşdırılmasının zəruriliyindən və buna nail olmaqdan gedir.

Demokratik inkişaf yolunu seçmiş müstəqil ölkəmiz üçün ən ağrılı problem Ermənistanın Azərbaycana hərbi təcavüzüdür. Bu təcavüz nəticəsində respublikamızın ərazisinin 20 faizi işğal edilmiş, daimi yaşayış yerlərindən zorla köçürülmüş bir milyondan çox vətəndaşımız çadırlarda çox ağır şəraitdə yaşamağa məcbur olmuşlar və bu vəziyyət bu gün də davam edir. Ermənistan silahlı qüvvələri tərəfindən başlanmış bu müharibədə ölkəmizə ağır maddi və mənəvi zərbələr vurulmuşdur ki, bütün bunlar barəsində təkcə Azərbaycan xəritəsinə nəzər salmaqla geniş məlumat almaq mümkündür. Lakin biz münaqişəni sülh yolu ilə nizama salmaq istəyirik, elə bu məqsədlə də müharibədə 1994-cü ilin may ayında əldə olunmuş atəşkəsdən istifadə etmək istəyirik. Əminik ki, hərbi münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində və bir sıra böyük dövlətlərin vasitəçiliyi ilə [240-241] aparılan danışıqlar öz səmərəsini verəcək, Ermənistanı öz təcavüzkar niyyətlərindən əl çəkməyə məcbur edəcəkdir.

1996-cı il dekabrın əvvəlində ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Lissabon zirvə görüşündə qəbul edilmiş bəyanatın Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında çox böyük əhəmiyyəti olduğunu qeyd etməklə yanaşı, biz həm də Fransanın Lissabonda Azərbaycanın mövqeyini müdafiə etməsindən razı qaldığımızı bildirmək istəyirik. Ölkəmiz müharibə yox, sülh istəyir və buna görə də kompromisli mövqedə dayanır. Mən əminəm ki, Lissabonda qəbul edilmiş üç əsas prinsip – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarəetmə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat prinsipləri münaqişənin sülh yolu ilə tezliklə həll edilməsində mühüm rol oynayacaqdır.

Biz təəssüf hissi ilə qeyd edirik ki, Ermənistan beynəlxalq təşkilatların qətnamələrinə və bütün ölkələr tərəfindən tanınmış hüquqi normalara məhəl qoymamaqla davam edir, hərbi münaqişənin aradan qaldırılması üçün konkret addımlar atmır. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələri ölkəmizin ərazisindən çıxarılsın, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin edilsin, yerindən-yurdundan didərgin düşmüş qaçqınlarımız öz doğma yurdlarına qayıtsınlar.

Fransanın ölkəmizlə əlaqələrə xüsusi diqqət yetirməsindən məmnun qaldığımı bildirirəm və əminəm ki, Fransa başqa dövlətlərlə yanaşı, Minsk qrupunun fəal üzvü kimi öz fəaliyyətini daha da genişləndirəcək və Ermənistan-Azərbaycan münaqişənin tezliklə nizama salınmasında öz nüfuzundan istifadə etmək üçün səylərini artıracaqdır.

Respublikamızdakı mövcud ictimai-siyasi vəziyyət sabitdir və Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu və islahatların həyata keçirilməsi sahəsində böyük işlər görülür. Bazar iqtisadiyyatı yolunu seçmiş respublikamız dünya dövlətləri ilə sıx əlaqələr qurmağa ciddi diqqət yetirir. Ölkəmiz Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi barədə dünyanın bir sıra çox nüfuzlu şirkətləri ilə müqavilələr imzalamışdır və bu müqavilələr dönmədən həyata keçirilir. Mən çox razıyam ki, Fransanın "Elf Akiten" və digər şirkətləri ilə respublikamızın əməkdaşlığı durmadan inkişaf edir. Bir daha bildirmək istəyirəm ki, xarici ölkələrin iş adamlarının fəa[241-242]liyyəti üçün Azərbaycanda geniş imkanlar vardır. Əmin olduğumu bildirirəm ki, "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə işlənməsi barədə müqavilənin bu gün Parisdə, Fransa prezidentinin iqamətgahı olan Yelisey sarayında Fransa və Azərbaycan prezidentlərinin iştirakı ilə imzalanması ölkələrimizin iqtisadi əlaqələrinin əsaslı inkişafında tarixi bir hadisə olacaqdır.

Prezident Jak Şirakın ölkəmizə dost münasibəti bəsləməsi bizi olduqca razı salır və bir daha əmin olduğumu bildirmək istəyirəm ki, hər ikisi Avropada yerləşən ölkələrimizin və xalqlarımızın əlaqələri bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Cənab prezident, mən Sizi ölkəmizə rəsmi səfərə dəvət edirəm. [242-243]

## AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ FRANSANIN "ELF AKİTEN" VƏ "TOTAL" ŞİRKƏTLƏRİ ARASINDA NEFT MÜQAVİLƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ BƏYANAT

*Paris, Yelisey Sarayı*

*13 yanvar 1997-ci il*

Hörmətli cənab prezident Jak Şirak! Hörmətli xanımlar və cənablar!

Mən Fransa prezidentinin dəvəti ilə Fransada, Parisdə rəsmi səfərdə olmağımdan böyük məmnunluq hissi keçirirəm.

Mənim burada olmağımdan, elə bu salonda mərhum prezident Fransua Mitteranla Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalamağımızdan ötən üç il ərzində ölkələrimizin münasibətlərində müəyyən uğurlar əldə edilmişdir. Lakin hesab edirəm ki, bu, azdır. Bu imkandan, cənab prezident Jak Şirak ilə olan söhbətimizdən istifadə edərək mən Fransa ilə Azərbaycan arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və genişləndirilməsinə səy göstərdiyimizi şərh etdim. Sevinirəm ki, bu barədə rəyimiz yekdildir və ümidvaram ki, bu görüş, söhbətlərimiz və danışıqlarımız Fransa-Azərbaycan münasibətlərinin sürətlə inkişafı üçün dönüş nöqtəsi olacaqdır.

Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsi probleminə dair Fransa prezidenti ilə mənim fikir mübadiləmiz çox faydalı və hesab edirəm, gərəkli oldu. Biz regionumuzda sülhün bərqərar olmasını, Ermənistan ilə Azərbaycan arasında sülh yaranmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərinin azad olunması və Ermənistan silahlı birləşmələri tərəfindən öz yerlərindən zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının yurdlarına qayıtması şərti ilə münaqişənin tamamilə aradan qaldırılmasını istəyirik. Biz ümid edirik ki, bu baxımdan ATƏT-in üzvü olan ölkələrlə, Minsk qrupuna, Minsk konfransına daxil olan ölkə[243-244]lərlə əməkdaşlıq, Fransa ilə əməkdaşlıq həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amildir.

Azərbaycanın "Lənkəran-dəniz" və 'Talış-dəniz" neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın ən iri "Elf Akiten" və "Total" şirkətləri arasında bu gün 25 il müddətində imzalanmış müqavilə Azərbaycanın Fransa ilə öz əlaqələrini dərinləşdirmək və genişləndirmək səyini sübut edir. Yeri gəlmişkən deyim ki, "Elf Akiten" şirkəti 1996-cı ilin iyununda beynəlxalq neft şirkətlərinin imzaladıqları bir müqavilədə də iştirak edir. İndiki müqavilə Fransanın "Elf Akiten" şirkətinin iştirak etdiyi ikinci müqavilədir.

Mən sevinirəm ki, bu müqavilə Parisdə Yelisey sarayında, prezidentin, mənim dostum cənab Jak Şirakın iştirakı ilə imzalanmışdır və əminəm ki, bu müqavilə həm Fransanın, həm də Azərbaycanın iqtisadiyyatına böyük fayda gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə sizi təbrik edirəm. Fransa xalqına, Fransa Respublikasına, onun prezidentinə səadət və xoşbəxtlik diləyirəm! Mersi boku. [244-245]

## FRANSA BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA – "AZƏRBAYCAN VƏ QAFQAZ XXI ƏSRİN ASTANASINDA" MÖVZUSUNDA MÜHAZİRƏ

*Paris*

*13 yanvar 1997-ci il*

Möhtərəm cənab rektor!
Hörmətli xanımlar və cənablar!

Mən Fransada, Parisdə sizinlə, belə nüfuzlu auditoriya ilə görüşməyimdən son dərəcə məmnunam. Fransanı, Parisi və buraya toplaşanların səviyyəsini kifayət qədər yaxşı təsəvvür etdiyimə görə bu görüşü özüm üçün böyük şərəf sayıram.

Mənə təklif olunan mövzu üzrə sizi maraqlandıran məsələlərdən danışmaqdan öncə indicə tanış olduğunuz tərcümeyi-halımla bağlı məlumatda kiçik bir dəqiqləşdirmə etmək istərdim. 1982-ci ilin axırında, Leonid Brejnevin vəfatından sonra mən Moskvaya dəvət edildim, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini təyin olundum və Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildim. 1987-ci ilin sonunadək, Sovetlər İttifaqının o zamankı rəhbərliyi, xüsusilə Mixail Qorbaçov ilə aramızdakı prinsipial fikir ayrılıqlarına görə istefa verməyə məcbur olanadək bu vəzifələrdə qaldım. Bundan sonra mən təqib edildim. Sovetlər İttifaqının tarixindən bilirsiniz ki, orada kim yüksək vəzifədən gedirdisə ictimai-siyasi həyatdan tamamilə təcrid olunurdu.

1990-cı il yanvarın 20-də, yəni 7 il öncə Sovetlər İttifaqının rəhbərliyi sovet qoşunlarının böyük kontingentini Bakıya yeridərək xalq hərəkatını, milli hərəkatı yatıranda, təcavüz ediləndə mən bu aksiyaya qarşı çıxdım və Sovet İttifaqı Kommunist Partiyasından çıxdım. Ondan sonra mən təqiblərə məruz qaldım, mətbuatda mənə qarşı böyük böhtan kampaniyası başlandı və 1990-cı ilin yayında Moskvadan köçməyə məcbur oldum. O zaman Sovetlər İttifaqı rəhbərliyinin düzgün olmayan hərəkətlərinə qarşı çıxdığım üçün, həyatımın əsas hissəsini keçirdiyim Bakıda yaşamağıma da, təəssüf ki, im[245-246]kan vermədilər. Mən daha uzağa – doğulduğum, lakin gənclik illərimdə çıxdığım Vətənə – Naxçıvana getməyə məcbur oldum. Naxçıvan indi olduğu kimi, o zaman da blokadada idi. Mən üç il orada tam təcrid olunmuş vəziyyətdə yaşadım və 1993-cü ilin iyununda, Bakıda və Azərbaycanda vətəndaş müharibəsi başlayanda, Azərbaycan ziyalılarının nümayəndələrinin, xalqın, respublikamızın müxtəlif təbəqələrindən olan bir çox adamların xahişi ilə yenidən Bakıya gəldim və Azərbaycan parlamentinə rəhbərlik etdim, sonra isə, burada deyildiyi kimi, 1993-cü il oktyabrın 3-də Azərbaycanın prezidenti seçildim.

Mən burada səslənən məlumata bu əlavəni etməyi və bəzi dəqiqləşdirmələr etməyi zəruri bildim ki, mənim həyatım barədə sizdə tam təsəvvür olsun, elə düşünməyəsiniz ki, hər şey çox hamar olub – mən Siyasi Büronun üzvü idim və sonra birdən-birə Azərbaycanın prezidenti oldum.

İndi isə söhbətimizin əsas mövzusu haqqında. 1993-cü ildə mən Bakıya gələndə Azərbaycan fəlakət vəziyyətində idi, vətəndaş müharibəsi başlanmışdı. Əslində həmin il Azərbaycan Respublikasının müstəqilliyinin ikinci ili idi. Ölkəmiz haqqında təsəvvürünüz olmaq üçün mən Azərbaycan müstəqil dövlət olandan əvvəlki hadisələr barədə sizə məlumat verməк məcburiyyətindəyəm.

Keçmişdə SSRİ-yə daxil olan respublikalar 1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar dövlət müstəqilliyi əldə etdilər. Lakin Sovetlər İttifaqı respublikalarında, – onların sayı 15 idi, – ictimai-siyasi proseslər eyni deyildi və tamamilə müxtəlif şəkildə baş verirdi. 1988-ci ildə Azərbaycana qarşı təcavüz başlandı, yəni, qonşu Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətini özünə birləşdirmək iddiaları ilə Azərbaycana qarşı çıxdı. Dağlıq Qarabağ Azərbaycanın kiçik bir bölgəsidir, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, 1923-cü ildə Azərbaycan Respublikasının tərkibində muxtar vilayət statusu almışdı. Deməliyəm ki, bu kiçik muxtar vilayət, əlbəttə, sosialist sistemi şəraitində, kifayət qədər yüksək inkişaf etmişdi. Lakin Ermənistandakı, həm də təkcə ondakı deyil, bəzi başqa ölkələrdəki millətçi, ekstremist dairələr, o cümlədən "Daşnaksütyun" partiyası bu vilayəti Ermənistana birləşdirməyin zəruriliyi barədə Dağlıq Qarabağda vaxtaşırı əhval-ruhiyyə yaradırdılar. Lakin müxtəlif vaxtlarda edilən bu cəhdlər uğursuz oldu. Bunların qarşısı alı[246-247]nır və dediyim kimi, Dağlıq Qarabağ müvəffəqiyyətlə inkişaf edirdi.

Nəzərinizə çatdırım ki, 1988-ci ildə, bu münaqişə ilk dəfə başlayanda Dağlıq Qarabağda 170 min nəfər yaşayırdı. Bunun 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi. Burada elə bir təəccüblü şey yox idi. Azərbaycanın başqa bölgələrində də, keçmiş Sovetlər İttifaqının digər respublikalarında da, başqa ölkələrdə də müxtəlif millətlərdən olan insanlar yaşayırlar. Lakin 1988-ci ildə Dağlıq Qarabağda, Ermənistanda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda hərəkat başlandı və bu, silahlı münaqişəyə çevrildi. Yeri gəlmişkən deməliyəm ki, – mən burada sizin qarşınızda tamamilə açıq danışır və mötəbər tarixi məlumatlara,

materiallara əsaslanıram, – belə hərəkatın kükrəyişi üçün qığılcım, özü də çox güclü qığılcım professor Aqanbekyanın 1987-ci ilin sonunda Fransanın "Humanite" qəzetinə verdiyi müsahibə olmuşdur. O bu müsahibədə bəyan etmişdi ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır, o bu məsələni Sovetlər İttifaqının o zamankı rəhbəri Mixail Qorbaçov ilə müzakirə etmiş və Qorbaçov buna müsbət yanaşmışdı. Şübhəsiz ki, buna oxşar başqa çıxışlar da olmuşdur. Mən bu çıxışdan ona görə danışıram ki, orada Mixail Qorbaçova birbaşa istinad edilirdi. Hər şey bundan başladı, sonra isə artıq səkkiz il davam edən qanlı müharibəyə çevrildi.

Hesab edirəm ki, o zaman, Azərbaycan və Ermənistan Sovetlər İttifaqının tərkibində olarkən, – 1988-ci ildən 1991-ci ilədək üç ildən çox vaxt keçmişdir – sovet rəhbərliyi bu münaqişənin qarşısını ala və onun bu qədər genişlənməsinə, belə ağır nəticələrə gətirib çıxarılmasına imkan verməyə bilərdi.

Sovet rəhbərliyinin Azərbaycana ədalətsiz münasibəti, şübhəsiz ki, respublikamızın əhalisi arasında kommunist rejiminə və sosializm sisteminə çox böyük narazılıq dalğası yaratdı. Sovetlər İttifaqının kommunist rəhbərliyinin Azərbaycan xalqına münasibətdə ədalətsizliyinə qarşı xalqın bu hiddəti 1989-cu ilin sonunda geniş xarakter alanda sovet rəhbərliyi və şəxsən Qorbaçov 1990-cı il yanvarın 20-də Azərbaycana sovet qoşunlarının iri kontingentini yeritməklə xalqımızı əzməyi qərara aldılar.

1990-cı ilin yanvar faciəsi Azərbaycanda ictimai-siyasi vəziyyəti daha da kəskinləşdirdi. Son nəticədə bütün bunlar respublikamızda qeyri-sabitliyə səbəb oldu. Azərbaycanın daxilin[247-248]dəki ayrı-ayrı mənfi qüvvələr də bundan istifadə edərək hakimiyyət uğrunda mübarizəyə başladılar. 1991-ci ilin oktyabrında Azərbaycan dövlət müstəqilliyi əldə edəndə ağır siyasi vəziyyətdə idi. Bütün bunlar Azərbaycanda dövlət hakimiyyətini zəiflədir, nəticədə respublikada hakimiyyətin zorla devrilməsi baş verirdi. 1992-ci ildə də belə çevriliş oldu, onun nəticəsində Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldi. Lakin o, bir ildən artıq hakimiyyətdə qala bilmədi, silahlı dəstələr ayağa qalxdı və əslində onu devirdi, elə o zaman 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandı. Belə bir şəraitdə 1993-cü ildə mən Azərbaycanda sabit rəhbərliyi təmin etmək məsuliyyətini öz üzərimə götürməli oldum. Böyük çətinliklərə baxmayaraq, üç ildir ki, Azərbaycanda dövlət hakimiyyəti sabitdir.

Bununla belə, həmin dövrdə Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi. Ermənistan silahlı birləşmələri Azərbaycanın daxilində siyasi sabitliyin olmamasından, habelə kənarda bəzi dövlətlərin güclü dəstəyindən istifadə edərək Azərbaycan ərazisinin bir hissəsini işğal edə bildilər. Hazırda Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Bu əraziyə Dağlıq Qarabağ və ümumi sahəsi təqribən 16 min kvadratkilometr olan ətraf rayonlar daxildir. Bu rayonlar bilavasitə Ermənistan ərazisinə bitişikdir. İşğal olunmuş torpaqlardan Azərbaycanın bir milyondan çox vətəndaşı qovulub çıxarılmışdır, onlar respublikamızın müxtəlif bölgələrində, əksəriyyəti çadırlarda yaşayır.

1994-cü ildə Ermənistan ilə atəşkəs və barışıq haqqında saziş əldə edilmişdir və iki il yeddi aydır ki, ona əməl olunur. Lakin Azərbaycanın ərazi bütövlüyü, onun dövlət sərhədləri pozulmuşdur, ölkəmizə çox böyük maddi və mənəvi zərər vurulmuşdur. Biz hərbi əməliyyatların yenidən başlanmasını istəmirik, hesab edirik ki, məsələni sülh yolu ilə həll etmək lazımdır və bu sahədə öz tərəfimizdən bütün zəruri tədbirləri görürük. Məsələnin sülh yolu ilə həlli üçün şərt Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərinin hamısından çıxarılması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, respublikamızın bütün vətəndaşlarının öz yaşayış yerlərinə qaytarılmasıdır. Biz həm də Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarə statusu verilməsini və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat yaradılmasını mümkün sayırıq. Bu formula güzəştlidir və biz [248-249] Ermənistan ilə Azərbaycan arasında sülh yaratmaq, regionumuzda, bütün Qafqazda sülh yaratmaq naminə bu güzəştə gedirik. Lakin Ermənistan tərəfi pozucu mövqe tutduğuna görə bu məsələni həll etmək mümkün olmur. Ermənistan Dağlıq Qarabağın dövlət müstəqilliyi əldə etməsinə, şübhəsiz ki, sonradan onu Ermənistana birləşdirməyə çalışır. Biz bununla razılaşmırıq və heç vaxt da razılaşmayacağıq, ona görə ki, öz ərazimizin bir hissəsini başqa dövlətə güzəştə gedə bilmərik. Heç bir dövlət də belə güzəştə gedə bilməz.

Ermənistan özünün pozucu mövqeyini 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində də nümayiş etdirdi. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması ilə məşğul olan Minsk qrupu tərəfindən Dağlıq Qarabağ münaqişəsinə sülh yolu ilə son qoyulmasının prinsipləri haqqında layihə təklif edilmişdi. Lissabon sammitində ATƏT-in əsas sənədinə daxil edilməli olan bu layihədə münaqişənin aradan qaldırılmasına dair əsas prinsiplər, yəni üç prinsip göstərilmişdi: Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təminatı.

Münaqişənin dinc yolla aradan qaldırılması üçün əsas kimi biz bu prinsiplərlə razılaşdıq. Ermənistan isə buna razı olmadı və həmin layihənin ATƏT-in sənədinə daxil edilməsinə konsensus vermədi. Lakin Azərbaycanın prinsipial mövqeyi və Ermənistandan başqa ATƏT-in bütün üzvlərinin çox ədalətli mövqeyi nəticəsində bu prinsiplər ATƏT sədrinin xüsusi bəyanatında öz ifadəsini tapdı. ATƏT-ə daxil olan dövlətlərdən yalnız Ermənistan bu prinsiplərə, beləliklə də Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və ümumiyyətlə beynəlxalq hüquq normalarının əsas prinsiplərinə etiraz etdi. Lakin biz hesab edirik ki, ATƏT üzvlərinin bu

prinsipləri dəstəklənməsi ilə şübhəsiz ki, ATƏT-in üzvü olan bütün ölkələrin, xüsusən Minsk qrupuna daxil olan ölkələrin iştirakı ilə fəal iş görərək həmin prinsiplərin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının əsasını təşkil etməsinə və münaqişəyə son qoyulmasına, Ermənistan ilə Azərbaycan arasında sülhün, özü də sabit və uzunmüddətli sülhün təmin edilməsinə nail ola bilərik.

Mən bütün bunları deməyi ona görə lazım bildim ki, müstəqil Azərbaycan dövlətinin hansı şəraitdə öz milli dövlət qu[249-250]ruculuğu prosesini həyata keçirməsi və sosial-iqtisadi xarakterli məsələləri həll etməsi haqqında təsəvvürünüz olsun.

Qafqazdakı münaqişələr haqqında, ümumiyyətlə, buradakı vəziyyət barədə danışmalı olsaq, burada Gürcüstan ərazisində gürcü-abxaz, gürcü-osetin münaqişələri var, Çeçenistanda sizə məlum olan Rusiya ilə Çeçenistan arasında münaqişə var, Qafqazın digər regionlarında da bəzi münaqişələr mövcuddur. Allaha şükür ki, bunlar genişlənməyib. Biz hesab edirik ki, həm Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün, həm də Qafqazda bütün münaqişələrə son qoyulması üçün hər bir dövlətin ərazi bütövlüyü prinsiplərinin qəti şəkildə tətbiqinin həlledici əhəmiyyəti var. Biz dünyada bütün ölkələrin ərazi bütövlüyünə tərəfdarıq. Yer kürəsinin hər hansı nöqtəsində separatizmin, təcavüzkar millətçiliyin, beynəlxalq terrorizmin əleyhinəyik.

Bütün bu problemlərə və çətinliklərə baxmayaraq, müstəqil dövlət kimi Azərbaycan yaşayır və inkişaf edir, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu, həyatın bütün sahələrində demokratiya prinsiplərinin bərqərar olması yolu ilə inamla gedir. 1995-ci ilin noyabrında biz ümumxalq səsverməsi yolu ilə Azərbaycanın ilk demokratik Konstitusiyasını qəbul etdik. Elə həmin vaxt müstəqil Azərbaycan Respublikasının parlamentinə çoxpartiyalılıq əsasında ilk seçkilər keçirildi. Konstitusiyanın müddəaları həyata keçirilir, parlament işləyir, ölkəmizin demokratik inkişafı üçün xeyli çox mühüm qanunlar qəbul olunubdur. Azərbaycanda bütün sahələrdə siyasi plüralizm təmin edilibdir, biz insan hüquqlarının, şəxsiyyətin hüquqlarının, şəxsiyyət azadlığının qorunmasına böyük əhəmiyyət veririk. Azərbaycan çoxmillətli dövlətdir, bizdə üç din – müsəlman, pravoslav, xristian, yəhudi dinləri sərbəst fəaliyyət göstərir. Biz iqtisadiyyatda geniş bazar dəyişikliklərinin həyata keçirilməsi yolu tutmuşuq, dövlət mülkiyyəti özəlləşdirilir və qarşıdakı iki il ərzində bütün dövlət müəssisələrinin 70 faizi özəlləşdiriləcəkdir. Biz torpaq islahatı haqqında çox radikal, öz şəraitimiz üçün kifayət qədər inqilabi qanun qəbul etmişik. Həmin qanun satmaq və digər şəxslərə vermək hüququ ilə torpaqların xüsusi mülkiyyətə verilməsini nəzərdə tutur.

Bu tədbirlər öz nəticələrini verir. Son vaxtlar Azərbaycanın sosial-iqtisadi vəziyyəti yaxşılaşır, iki ildir ki, respublikada inflyasiya aşağı səviyyədədir. Məsələn, inflyasiyanın aylıq səviyyəsi bir faizdən aşağıdır, ümumən 1996-cı ildə isə beş faizdən [250-251] az olubdur. Milli valyutanın – manatın məzənnəsi sabitdir, son vaxtlar Amerika dollarına nisbətən onun məzənnəsi möhkəmlənmişdir. Biz bütün iqtisadiyyatın, xüsusən xarici ticarətin sərbəstləşdirilməsinə dair çoxlu tədbirlər görmüşük. Həm Azərbaycanın iqtisadiyyatına sərmayə qoymaq, həm də özəlləşdirmədə iştirak etmək, ölkəmizin iri sənaye və kənd təsərrüfatı müəssisələrindən birgə istifadə etmək üçün xarici sərmayədarları Azərbaycana fəal cəlb edirik.

Azərbaycanın zəngin təbii sərvətləri, böyük iqtisadi, sənaye, kənd təsərrüfatı, elmi-texniki və intellektual potensialı var. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı prinsipləri, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi əsasında formalaşdırılması bizim tutduğumuz magistral yoldur.

Biz Azərbaycanın neft və qaz yataqlarından xarici şirkətlərlə birgə istifadə edilməsi sahəsində daha çox uğurlar qazanmışıq. 1994-cü ilin sentyabrında Azərbaycanın neft yataqlarının beynəlxalq şirkətlər konsorsiumu ilə birgə işlənməsinə dair ilk böyük müqavilə imzalamışıq, onu "Əsrin müqaviləsi" adlandırırlar. Bu gün Parisdə, Yelisey sarayında Fransa prezidenti cənab Jak Şirakın və Azərbaycan prezidentinin iştirakı ilə beşinci müqavilə – Xəzərin Azərbaycan sektorundakı "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın iri "Elf Akiten" və "Total" şirkətləri arasında müqavilə imzalandı. Bu gün imzalanmış müqavilə 25 il ərzində birgə iş görülməsini və təxminən 1,5 milyard Amerika dolları həcmində kapital qoyulmasını nəzərdə tutur. İlkin hesablamalara görə, həmin yataqlardan 350 milyon barrel neft alınacağı gözlənilir. Son iki ildə imzaladığımız bütün müqavilələr isə Azərbaycan iqtisadiyyatına təxminən 15 milyard Amerika dolları həcmində investisiya qoyulmasını nəzərdə tutur. Bu müqavilələrdə dünyanın 11 ölkəsinin 16 transmilli şirkəti iştirak edir.

Hesab edirəm ki, bu rəqəmlər Azərbaycanın öz təbii ehtiyatlarından məqsədəuyğun və səmərəli şəkildə istifadə etməsi və şübhəsiz, öz səylərini dünya birliyinin səyləri ilə birləşdirməsi üçün xarici investisiyalardan, iqtisadi və texniki baxımdan inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasından necə istifadə etməsi barədə sizdə təsəvvür oyadır. Zənnimcə, bütün bu dediklərim şübhə yeri qoymur ki, ölkəmiz bütün dünya üçün açıqdır. Azərbaycanın məqsədi öz iqtisadiyyatını [251-252] dünya iqtisadiyyatına inteqrasiya etməkdir. Ölkəmizdə azad sahibkarlıq üçün bütün şərait yaradılmışdır, xarici investisiyaların qorunması qanunlarımızla, Konstitusiya ilə və şübhəsiz ki, prezident hakimiyyəti ilə tam təmin olunur. Bütün bunlar belə deməyə əsas verir ki, Azərbaycanın sosial-iqtisadi gələcəyi gözəldir. Biz əminik ki, həyatımızın bütün sahələrini demokratikləşdirmək yolu ilə getməklə Azərbaycanı dünyanın sivilizasiyalı ölkələri sırasına çıxaracağıq. Azərbaycan özünün bütün qonşuları ilə sülh və əmin-amanlıq şəraitində yaşamağa çalışır. Ermənistan ilə qarşılıqlı münasibətlərimiz haqqında danışdım. Bizim Şimal qonşumuz Rusiya, Cənub qonşumuz İrandır, Qərbdə Gürcüstanla həmsərhədik. Türkiyə

də həmsərhəd olduğumuz qonşu ölkədir. Ermənistan istisna olmaqla, bu ölkələrin hamısı ilə normal əlaqələrimiz var və bu əlaqələrin daha dost, daha fəal xarakter almasına səy göstərəcəyik.

Coğrafi mövqeyinə görə Azərbaycanın əhəmiyyəti böyükdür. Hesab edirəm ki, onun coğrafi-siyasi mövqeyi təkcə bizim özümüzdən ötrü deyil, həm də Dünya Birliyi üçün əhəmiyyətlidir. Azərbaycan Avropa və Asiyanın qovuşuğunda yerləşir. Avropa ölkəsi kimi isə Avropanın ən ucqarındadır. Azərbaycan Avropa ölkəsi olmaq istəyir. Biz Avropa Birliyi ilə fəal əməkdaşlıq edirik, ərizə vermiş və Avropa Şurasına qonaq sifəti ilə qəbul olunmuşuq, yaxın vaxtlarda onun tamhüquqlu üzvü statusunu almağa ümid bəsləyirik, ATƏT-in həyatında fəal iştirak edirik və şübhəsiz ki, ölkəmiz, demək olar, bütün beynəlxalq təşkilatların üzvüdür.

Azərbaycanın təkcə Qafqaz üçün deyil, həm də Qafqazın hüdudlarından kənara çıxan region üçün böyük əhəmiyyəti var. Biz hesab edirik ki, Zaqafqaziya regionunda, – mən Azərbaycanı, Gürcüstanı və Ermənistanı nəzərdə tuturam, – sabitliyin, normal vəziyyətin olması bütün Qafqaz üçün, habelə Rusiya və Qafqazla qonşu olan digər ölkələr üçün mühüm amildir. Biz çalışırıq ki, mühüm amil kimi bu rolumuzu mümkün qədər yaxşı yerinə yetirək. Hesab edirəm ki, əgər Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmaq mümkün olarsa, bu, Qafqazda digər münaqişələrə də son qoyulmasına, burada sülhün və sabitliyin bərqərar olmasına gətirib çıxaracaqdır, bunun isə həm digər ölkələr, həm də ümumən Avropa üçün böyük əhəmiyyəti olacaqdır. Qafqazda sülhə, əmin-[252-253]amanlığa, sabitliyə nail olmaq üçün biz öz tərəfimizdən hər şeyi edirik və bundan sonra da edəcəyik.

İndi Azərbaycanda daxili siyasi vəziyyət sabitdir. Ötən illərdən fərqli olaraq, son üç ildə biz Azərbaycanda ictimai-siyasi sabitliyi tam təmin edirik. Dövlət respublikada vəziyyətə tam nəzarət edir və mən əminəm ki, Azərbaycanda vəziyyət aydan-aya, ildən-ilə yaxşılaşacaqdır.

Biz Fransa ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Bu gün Fransa prezidenti cənab Jak Şirak, Fransa Milli Məclisinin sədri, ticarət naziri, Parisin meri ilə söhbətlərdə mən bir daha bildirdim ki, Fransa ilə Azərbaycan arasında bütün sahələrdə – iqtisadi, mədəni, siyasi sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün mövcud imkanlardan bütünlüklə istifadə etmək lazımdır. Hesab edirəm ki, bu gün Fransanın "Elf Akiten" və "Total" şirkətləri ilə imzalanmış müqavilə həm yaxşı əsas, həm də Fransanın bütün digər şirkətləri üçün yaxşı çağırışdır ki, onlar Azərbaycanla əməkdaşlığa dair səylərini gücləndirsinlər.

Çıxışımı tamamlayaraq bu gün Fransada, Parisdə olmağımdan dərin məmnunluq duyduğumu bildirmək istəyirəm. Fransa Respublikasının tarixi və təcrübəsi, Fransada demokratiya təcrübəsi, həyatın bir çox başqa sahələrində sizin ölkənizin təcrübəsi Azərbaycanda demokratik dövlət quruculuğu işində bizim üçün zəngin mənbə və nümunədir. Fransa Respublikasına, fransız xalqına dərin hörmət və ehtiramımı bildirirəm. Sizə, bütün fransızlara səadət və xoş həyat, yeni uğurlar arzulayıram. Suallarınıza cavab verməyə hazıram. Diqqətinizə görə sağ olun.

**De Monbrel** (FBMİ-nin rektoru): Hesabat üçün Azərbaycan prezidenti Heydər Əliyevə təşəkkür edirəm. Artıq gec olduğunu nəzərə alaraq diskussiyanı məhdudlaşdırmaq üçün Azərbaycan dövlətinin başçısına cəmi üç sual verməklə kifayətlənmək istəyirəm. Mənim fikrimcə bu suallar əvvəl-axır veriləcəkdir.

**Sual**: **İlk sual sırf informasiya xarakteri daşıyır və Sovet İttifaqının hüquqi varisliyi probleminə aiddir. Azərbaycan ilə Rusiya arasında hüquqi varislik problemi tam həll edilmişdirmi, yoxsa Ukraynanı Rusiyaya qarşı qoyan mübahisəli məsələlər kimi məsələlər hələ də qalırmı?**

**İkinci sual**: **Siz neft haqqında danışdınız, lakin bo**[253-254]**ru kəmərləri ilə bağlı problemlərdən demədiniz. Bu barədə bir neçə kəlmə söyləyə bilərdinizmi?**

**Üçüncü sual**: **Siz İranla yaxşı münasibətlərinizin olduğunu xatırlatdınız. Gələcəkdə İran Azərbaycanı ilə əlaqədar problemlər ola bilərmi?**

**Heydər Əliyev**: SSRİ-nin hüquqi varisi probleminə – Rusiyaya gəldikdə, əlbəttə, bütün məsələlər həll edilməmişdir. Sovetlər İttifaqı dağılanda və Azərbaycan müstəqillik əldə edəndə mən Azərbaycanda deyildim, daha doğrusu, orada idim, lakin dövlət fəaliyyətində iştirak etmirdim. 1993-cü ilin oktyabrında Azərbaycanın prezidenti olanda isə təhlil etməyə başladım. Və əmin oldum ki, Sovetlər İttifaqına mənsub olan hər şey hər halda Azərbaycan üçün ədalətsiz bölüşdürülübdür. Axı, mən, burada xatırladıldığı kimi, təqribən 14 il Azərbaycan Respublikasına rəhbərlik etmişdim və beş ildən çox Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşdum, Sovetlər İttifaqı vaxtında Azərbaycanın ərazisində nələrin olduğunu yaxşı bilirdim. Təəssüf ki, Azərbaycanda olanların hamısı özündə qalmadı. Bu, ədalətsizlik idi. Bəzi xırda məsələlər var, biz indi onları qaldırırıq. Lakin indi bütün bunlar artıq gecdir. Amma bunun ədalətsiz olduğunu mən artıq dedim.

O ki qaldı neft kəmərinə, xarici neft şirkətləri konsorsiumu Azərbaycan Neft Şirkəti ilə birlikdə Azərbaycanda neft ixracı üçün iki neft kəmərinin tikintisi haqqında qərar qəbul etmişlər. Neft kəmərlərindən biri – Rusiya ərazisindən keçərək Qara dəniz sahilindəki Novorossiysk limanına gedən kəmər qismən mövcud idi, lakin 1996-cı il ərzində kəmər bütünlüklə çəkilmişdir. Həmin neft kəməri ilə Qara dəniz sahilinə, oradan isə daha uzağa neft ixrac etmək mümkündür. Tikintisinə martda başlanacaq və 1998-ci ildə qurtaracaq ikinci neft kəməri Qərb istiqamətində Gürcüstan ərazisindən keçməklə yenə Qara dəniz sahilinə – Supsa limanına çıxacaqdır. Lakin 1994-cü ilin sentyabrında imzaladığımız müqavilədə güman ki, Türkiyənin Aralıq dənizi

sahilindəki Ceyhan limanınadək böyük neft kəmərinin çəkilməsi nəzərdə tutulur. Bu neft kəmərinin marşrutuna dair bir neçə layihə, təkliflər var. Lakin bu, məsələ barədə hələ qəti qərar qəbul edilməmişdir. Hesab edirəm ki, biz bu neft kəmərini də çəkməli olacağıq. Ona görə ki, hər bir müqavilənin imzalanması ilə Azərbaycanda gələcəkdə çıxarılacaq neftin həcmi artır. Qazaxıstan ərazisində neft çıxaran xarici neft şirkətləri Xəzər dənizi, Azərbaycan [254-255]vasitəsilə neftin Avropaya ixracını təşkil etmək barədə təkliflər verirlər. Bunun özü də ölkəmizin ərazisindən keçməklə ixrac olunacaq neftin əlavə miqdarından xəbər verir. Ona görə də bu neft kəmərləri çəkilməlidir. Bunlar Azərbaycandan, Xəzər hövzəsindən, Mərkəzi Asiyadan nefti ixrac etmək üçün lazımdır. Bu, Azərbaycanın böyük coğrafi-siyasi və strateji əhəmiyyətini bir daha təsdiq edir.

Sizin üçüncü sualınıza, İran haqqında suala gəldikdə isə, mən artıq dedim, bu ölkə ilə bizim dostluq münasibətlərimiz var, bunları möhkəmləndirmək, inkişaf etdirmək üçün tədbirlər görürük. O ki qaldı İranda yaşayan azərbaycanlılara, bəli, onlar orada çoxdur. Mən dəqiq rəqəm bilmirəm, amma deyirlər ki, təxminən 20-30 milyondur. Onlar İran vətəndaşlarıdır. Bu gün prezident cənab Jak Şirak dedi ki, Fransada beş milyon müsəlman yaşayır. Onlar Fransa xalqının bir hissəsidir. İranda yaşayan azərbaycanlılar da müsəlmandırlar, onlar da İran xalqının bir hissəsidir. Bu baxımdan hansısa bir problem görmürəm. Mən artıq dedim ki, biz bütün dövlətlərin – Azərbaycanın da, Ermənistanın da, Rusiyanın da, Fransanın da, İranın da ərazi bütövlüyünə tərəfdarıq.

**De Monbrel**: Bu tədbirdə iştirak etməyə razılaşdığına və belə mühüm suallara cavab verdiyinə görə prezident Heydər Əliyevə təşəkkür edirəm. Mən Azərbaycan rəhbərinə və onu müşayiət edən bütün şəxslərə xoşbəxt yeni il arzulayıram və təklif edirəm ki, görüşü yekunlaşdıraq.

**Heydər Əliyev** (zarafatla): Yox, dayanın, mənim sözüm var. Birincisi, bu demokratik olmur. Siz özünüz suallar verdiniz və başqalarına isə bu imkanı vermirsiniz. Biz Fransaya demokratiya öyrənməyə gəlmişik, sən demə, burada, bu institutda avtoritar rejim mövcuddur. Ona görə də mən burada daha bir saat qalmağa, suallara cavab verməyə hazıram, ona görə ki, biləsiniz, biz demokratiya yolu ilə gedirik və mən istənilən adamın istənilən sualına cavab verməyə hazıram. Ümumiyyətlə, mənə az sual verəndə narazı qalıram.

**Sual**: **Cənab prezident, bilmək istərdim ki, hazırda Azərbaycan və Rusiya arasında münasibətlər necədir və Siz ölkənizin MDB-də iştirakını necə qiymətləndirirsiniz?**

**Heydər Əliyev**: Rusiya ilə münasibətlərimiz yaxşıdır, dostluq münasibətləridir. Biz istəyirik ki, bu münasibətlər daha yaxşı olsun və öz tərəfimizdən tədbirlər görürük. [255-256]

MDB-yə gəldikdə, biz MDB-nin üzvüyük. Lakin orada bizim razı olmadığımız məsələlər də var. Biz özümüzü demokratik qaydada aparır, öz mövqeyimizi, öz rəyimizi bildiririk. Ümumiyyətlə, biz hesab edirik ki, MDB daha demokratik birlik olmalıdır. Demokratiya prinsipləri onda daha geniş bərqərar olmalıdır və MDB-ni inkişaf etdirmək, təkmilləşdirmək lazımdır.

**Sual**: **Cənab prezident, Siz dediniz ki, Azərbaycan çoxmillətli ölkədir, orada ruslar, yəhudilər yaşayırlar. Deyə bilərsinizmi, Azərbaycanda nə qədər rus və yəhudi yaşayır, onların vətəndaşlıqla bağlı hansı hüquqları var?**

**Heydər Əliyev**: Deyə bilərəm. Azərbaycanda ruslar 300 mindən çox, yəhudilər isə təxminən 50 min nəfərdir. Onlar vətəndaşlığın bütün hüquqlarından istifadə edirlər, Azərbaycanın tamhüquqlu vətəndaşlarıdır. Biz şadıq ki, respublikamızda bu millətlərdən olan insanlar yaşayırlar. Deməliyəm ki, təxminən 1988-1989-cu illərdən 1993-cü ilədək rusdilli əhalinin Azərbaycandan müəyyən axını olmuşdur. Biz bunun qarşısını aldıq. Onlardan bəziləri Azərbaycandakı qeyri-sabitlikdən qorxub gedirdilər, bir sıra hallarda isə onlara qarşı ədalətsiz münasibət olmuşdu. Biz bu problemi aradan qaldırdıq. İndi Azərbaycanda rusdilli əhali normal, sabit yaşayır. Bizim parlamentimizdə milliyyətcə rus, ukraynalı deputatlar var, bu millətlərin nümayəndələri dövlət, təsərrüfat orqanlarında işləyirlər. Biz Azərbaycanın çoxmillətli olmasını ölkəmizin sərvəti hesab edirik. Ermənistan öz ölkəsində monomilliliyə nail olmuşdur. İndi orada ermənilərdən savayı heç kim yoxdur. Hesab edirəm ki, onlar böyük səhv etmişlər. Amma bu, onların öz işidir.

**Sual**: **Sualımı dəqiqləşdirmək istəyirəm. Digər millətlərdən olan sakinlər Azərbaycan vətəndaşlığını qəbul etməyə borclu idilər, yoxsa könüllü olaraq Azərbaycan vətəndaşları olmaq istəmişlər? İkinci sual: Azərbaycanda yaşayan və özlərinin Rusiya pasportunu saxlamaq istəyən xaricilər hansı hüquqlara malikdirlər?**

**Heydər Əliyev:** Bilirsiniz, biz heç kəsi Azərbaycan vətəndaşlığını qəbul etməyə məcbur etməmişik, qəbul edən edib, etməyən isə etməyibdir. Bizdə bu mənada da azadlıqdır. Azərbaycanda Rusiya vətəndaşlığını qəbul etmiş ruslar var, biz buna da etiraz etmirik. Vətəndaşlıq milli mənsubiy[256-257]yətlə müəyyən olunmur. Hesab edirəm ki, Fransada da belədir. Biz Azərbaycanda məhz bu prinsipi əsas götürürük.

**Sual**: **Xəzərin statusu haqqında sual vermək istərdim. Dediyinizdən hiss olundu ki, fikrinizcə, bu məsələdə problem yoxdur. Lakin Xəzərin statusuna dair sazişin olmaması haqqında danışdığınız yataqların istismarına mane ola və ya bunu ləngidə bilməzmi?**

**Heydər Əliyev**: Bilirsiniz, Xəzər min illərdən də çoxdur ki, mövcuddur. Lakin onun statusu heç vaxt müəyyən edilməmişdir. Ona görə bu gün də buna böyük ehtiyac yoxdur. Bununla belə, bu məsələ barəsində Xəzəryanı dövlətlər arasında danışıqlar gedir. Hesab edirəm ki, biz nə vaxtsa vahid rəyə gələcəyik. Lakin bu,

hər bir ölkənin öz sektorunda Xəzərin neft yataqlarından istifadə etməsinə əsla mane olmur. Xəzərin sektorlara bölünməsi çoxdan müəyyən edilmişdir. Biz yaranmış praktikadan istifadə edirik və bu, düzgündür.

Sağ olun. [257-258]

## FRANSA TİCARƏT-SƏNAYE PALATASINDA KEÇİRİLƏN GÖRÜŞDƏ ÇIXIŞ

*Paris*

*14 yanvar 1997-ci il*

Hörmətli prezident! Hörmətli xanımlar və cənablar!

Bu gün səhər tezdən burada, Parisdə, Fransa Ticarət-Sənaye Palatasında keçirilən görüşdən olduqca məmnunam. Mənim Fransaya səfərim Fransa ilə Azərbaycan arasında münasibətləri daha da inkişaf etdirmək və dərinləşdirmək məqsədi daşıyır.

Cənab prezident, mənim üç il bundan öncə Fransaya ilk səfərimi xatırlatdığınız üçün sizə minnətdaram, hesab edirəm ki, həmin səfər Fransa-Azərbaycan əlaqələrinin uğurla inkişaf etməsinin əsasını qoymuşdur. 1993-cü ilin dekabrında Parisdə Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında imzalanmış saziş, mərhum prezident Fransua Mitteranın və Azərbaycan prezidentinin imzaladıqları saziş Fransa ilə Azərbaycan arasında münasibətləri uzun müddət inkişaf etdirmək üçün başlıca sənəd, eyni zamanda proqramdır.

Məmnuniyyətlə deyə bilərəm ki, ötən üç ildə biz müəyyən nailiyyətlər qazanmışıq. Cənab prezident, sizin adlarını çəkdiyiniz Fransa şirkətləri Azərbaycanda, Azərbaycan iqtisadiyyatı ilə, Azərbaycanın dövlət şirkətləri və xüsusi firmaları ilə sıx əlaqələr yaratmışlar və ümid edə bilərik ki, bu yaxşı başlanğıc özünün konkret nəticələrini verəcəkdir.

Dünən Fransa prezidenti cənab Jak Şirak ilə çox gözəl, dostcasına söhbətimiz oldu. Biz ölkələrimiz arasında münasibətlərə dair bütün məsələlər haqqında ətraflı fikir mübadiləsi etdik, regional xarakterli və dünyadakı vəziyyətə dair bəzi başqa məsələlər barədə danışdıq.

Fransa ilə Azərbaycan arasında iqtisadi əlaqələr problemləri, iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi söhbətlərimizdə, danışıqlarımızda böyük yer tutmuşdur. Biz yekdil fikirdəyik ki, əldə olunmuş nailiyyətlər əlaqələrimi[258-259]zin inkişafını daha da sürətləndirməyə imkan verir. Bu baxımdan burada, Ticarət-Sənaye Palatasında keçirilən görüş hesab edirəm, dünən prezident cənab Şirak ilə əldə etdiyimiz razılaşmaların məhz konkret şəkildə reallaşdırılmasıdır.

Dünənki günün mühüm hadisəsi burada, Parisdə, Yelisey sarayında Fransa prezidentinin və Azərbaycan prezidentinin iştirakı ilə Fransanın "Elf Akiten", "Total" şirkətləri və Azərbaycan milli neft şirkəti arasında böyük neft müqaviləsinin imzalanmasıdır. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının ehtiyatlarının Fransa şirkətləri və Azərbaycan milli neft şirkəti tərəfindən birgə işlənməsini nəzərdə tutur. Müqavilə 25 illik müddətə imzalanmışdır.

Demək istəyirəm ki, bu, Fransanın "Elf Akiten" şirkəti ilə Azərbaycanın imzaladığı ikinci müqavilədir. Ötən ilin iyununda Bakıda bir sıra ölkələrin fövqəlmilli şirkətlərinin konsorsiumu ilə böyük neft müqaviləsi imzalanmışdır, həmin şirkətlərin tərkibinə Fransanın "Elf Akiten" şirkəti də daxildir.

Bu faktlar inandırıcı şəkildə göstərir ki, biz iqtisadi inteqrasiyanı artıq əməli surətdə həyata keçirir, iqtisadi münasibətlərimizi inkişaf etdiririk. Azərbaycanın energetika ehtiyatları, neft sənayesi iqtisadiyyatımızın iri sahəsi olaraq aparıcı rol oynayır və buna görə də əməkdaşlıqda ilk iri addımlar məhz bu sahədə atılmışdır.

Azərbaycan böyük iqtisadi potensiala malikdir, iqtisadiyyatımız olduqca çoxsahəlidir və birgə işləmək üçün, əməkdaşlıq üçün Fransanın digər şirkətlərini cəlb etməyə imkan var. Bununla əlaqədar mən adlarını çəkdiyimiz Fransa şirkətinin təşəbbüsünü alqışlayıram və razılaşma əldə olunması və əməli işə başlanması üçün öz tərəfimdən hər şeyi edəcəyəm.

Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra öz iqtisadiyyatından, öz ehtiyatlarından sərbəst və azad surətdə istifadə edir. Azərbaycan dünya iqtisadiyyatı ilə fəal birləşməyə, xarici şirkətlərlə birlikdə qabaqcıl texnologiyadan da, təbii olaraq, xarici investisiyalardan da istifadə etməyə çalışır.

Azərbaycan azad və açıq ölkədir. Biz bəyan etmişik ki, ölkəmiz bütün dünyanın üzünə açıqdır. Biz dünya iqtisadi sisteminə daxil olmaq istəyirik. Biz beynəlxalq maliyyə mərkəzləri ilə, o cümlədən Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə fəal əməkdaşlıq edirik. Təbii ki, bütün bunlar iqtisadi əlaqələrimizi [259-260] genişləndirmək və dərinləşdirmək üçün əlverişli imkanlar yaradır.

Biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq. Biz həyatın bütün sahələrini, Azərbaycanın həyatının bütün sahələrini demokratikləşdirmək, o cümlədən iqtisadi sahəni demokratikləşdirmək üçün tədbirlər görürük. Biz iqtisadiyyatımızın gələcək inkişafı üçün əsasları, bazar iqtisadiyyatı prinsiplərini və dünyanın bütün ölkələri ilə fəal iqtisadi əlaqələri bərqərar etmişik. Biz dövlət mülkiyyətini özəlləşdirməyə başlamışıq və yaxın iki ildə Azərbaycanda bütün mülkiyyətin 70 faizindən çoxu özəlləşdiriləcəkdir.

Biz torpaq islahatı haqqında çox mühüm qanun qəbul etmişik. Bu qanunda torpağı başqa şəxslərə satmaq və vermək hüququ ilə onun özəl mülkiyyətə verilməsi nəzərdə tutulur. Biz azad sahibkarlıq üçün, sahibkarlıq

təşəbbüsü üçün, özəl biznes üçün, o cümlədən kiçik və orta özəl biznes üçün hər cür şərait yaratmışıq.

Biz bəzi iri sənaye müəssisələrini xarici şirkətlərin idarəsinə vermək sahəsində tədbirlər həyata keçiririk. Qəbul etdiyimiz qanunlar xarici şirkətlərə Azərbaycanda mülkiyyətin özəlləşdirilməsində fəal iştirak etməyə, təbii olaraq, öz vəsaitlərini bütün sahələrə qoymağa imkan verir. Biz bir sıra tədbirlər görmüşük – bunlar həm qanunlar, həm prezident fərmanları, həm də digər sənədlərdir. Onlar iqtisadiyyatın bütün sahələrində liberallaşdırmanı, xüsusən, xarici ticarətin, ixrac və idxalın liberallaşdırılmasını təmin etmişdir.

Bunun nəticəsində artıq iqtisadiyyatda, sosial sahədə müsbət dəyişikliklər baş verir və belə düşünürəm ki, bu proseslər yaxın vaxtlarda daha uğurla inkişaf edəcəkdir.

Biz maliyyə sahəsində tədbirlər görülməsinə böyük əhəmiyyət veririk və istəyirik ki, Azərbaycanın maliyyə sistemi müasir beynəlxalq standartlara tam müvafiq olsun, dünya maliyyə mərkəzləri və bankları ilə əlaqə yarada bilsin. Biz Azərbaycanda bank sisteminin islahatı sahəsində bir sıra tədbirlər görmüşük. Bunun nəticəsində ötən il milli valyutamızın – manatın məzənnəsi Amerika dolları ilə nisbətdə xeyli möhkəmlənmiş və sabitləşmişdir. Bütün il ərzində inflyasiya kəskin surətdə azalaraq, hər ay bir faizdən də az, bütövlükdə 1996-cı ildə isə beş faizdən az olmuşdur.

Bizdə qiymətlər, ən əvvəl zəruri malların, ərzaq məhsullarının qiymətləri sabitdir. Azərbaycanda əmək haqqının artımı [260-261] qiymətlərin artımını hətta müəyyən dərəcədə qabaqlayır. Halbuki iki il əvvəl bizdə inflyasiya astronomik rəqəmlərlə ifadə edilirdi. Əgər təxminən 1994-cü ildə inflyasiya 1.700 faiz idisə, özünüz nəticə çıxara bilərsiniz, son iki ildə iqtisadiyyatımızda necə böyük müsbət dəyişikliklər baş vermişdir.

Bütün bunlar bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsi, azad sahibkarlıq üçün, özəl təşəbbüs üçün şərait yaradılması sayəsində mümkün olmuşdur. Biz bu sistemin səmərəli olduğunu yəqin etmişik və öz iqtisadiyyatımızda məhz bu prinsiplər əsasında dönmədən gedəcəyik.

Azərbaycan Konstitusiyası, qəbul edilmiş qanunlar və prezidentin fərmanları Azərbaycanda xarici investisiyaların qorunmasına və xarici şirkətlər üçün, xarici investisiyalar üçün maksimum əlverişli şərait yaradılmasına tam təminat verir.

Son iki ildə Azərbaycan 11 ölkəni təmsil edən transmilli şirkətlərlə, cəmi 16 şirkətlə beş iri neft müqaviləsi imzalamışdır. Bu müqavilələr üzrə investisiyaların ümumi məbləği 15 milyard dollardan artıqdır. Bu müqavilələr təxminən 25-30 il müddətinə imzalanmışdır. Lakin mən əminəm ki, əməli iş onları daha uzunmüddətli müqavilələrə çevirəcəkdir. Belə düşünürəm ki, bütün XXI əsr Azərbaycan iqtisadiyyatının, ən əvvəl neft və qaz sənayesinin coşqun inkişafı əsri olacaqdır.

Azərbaycan iki qitənin – Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşuğunda yerləşərək, çox faydalı, əlverişli coğrafi mövqeyə malikdir və tarixdə "İpək yolu" kimi məlum olan marşrutla Şərqlə Avropanı Azərbaycan vasitəsilə birləşdirmək üçün çəkilən və çəkiləcək nəqliyyat kommunikasiyaları Azərbaycanı bu baxımdan bir çox Avropa və Asiya ölkələri üçün çox maraqlı və cəlbedici edir.

Azərbaycanın həyatını, onun perspektivlərini səciyyələndirən bütün bu müsbət cəhətlərlə yanaşı, təəssüf ki, qanqaraldıcı amil də var. Bu amil ondan ibarətdir ki, Ermənistan tərəfindən səkkiz il əvvəl başlanmış təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizini Ermənistan silahlı birləşmələri işğal etmiş, Azərbaycanın bir milyondan artıq vətəndaşı zəbt olunmuş torpaqlardan didərgin salınmışdır. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, öz yaşayış yerlərini tərk edən, dediyim kimi, bir milyondan artıq vətəndaşımız isə çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

Bu amil Azərbaycanın həyatını mürəkkəbləşdirməklə yanaşı regionumuzda lazımi iqtisadi əlaqələrin qurulmasına, o [261-262] cümlədən Qafqazda, Zaqafqaziya ölkələri arasında, Ermənistan ilə Azərbaycan arasında iqtisadi əlaqələrin qurulmasına da mane olur, biz Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərtilə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün tədbirlər görmüşük və görürük. Nə qədər çətin olsa da, biz sülh danışıqlarına, bu məsələnin dinc vasitələrlə həllinə qəti tərəfdarıq.

Bu münaqişəyə son qoyulduqdan, Qafqazda, regionumuzda tam sülh bərqərar edildikdən sonra ölkəmizin və qonşularımızın Avropa ilə, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələri daha sürətlə inkişaf edəcəkdir.

Ticarəti, iqtisadi əməkdaşlığı, iqtisadi əlaqələri fəallaşdırarkən biz həm də hesab edirik ki, bunun özü də münaqişənin aradan qaldırılması və regionumuzda sülhün bərqərar olması üçün çox səmərəli vasitədir.

Mənə göstərdiyiniz diqqət üçün, bugünkü görüş üçün sizə təşəkkür edirəm, hamınızı Azərbaycana dəvət edirəm, siz Azərbaycanda bizim imkanlarımız haqqında daha dolğun təsəvvür əldə edə bilər və eyni zamanda xalqımızın, respublikamızın qonağı olmaq imkanı qazana bilərsiniz. Əminəm ki, siz mehriban – qonaqpərvərliklə və səmimi münasibətlə qarşılaşacaqsınız. Sizə bir daha təşəkkür edirəm, sağ olun.

**Huber Flana** (palatanın prezidenti): Cənab prezident, əgər Sizə ilk sualı verməyə heç kim cəsarət etmirsə, onda bu sualı mən verəcəyəm. Mən Fransanın iki iri neft şirkəti – "Elf Akiten" və "Total" şirkətlərinin dünən böyük müqavilə bağlamasını alqışlayıram. Sevinirəm ki, bu masanın arxasında Fransanın çox iri müəssisələrinin nümayəndələri toplaşmışlar. Bu iri müəssisələr üçün Azərbaycan bilavasitə maraq doğurur. Lakin bu iri müəssisələr çox mühüm rol, lokomotiv rolu oynaya bilərlər, ona görə ki, subpodratçıların, nisbətən kiçik müəssisələrin bir çoxu onlarla işləyirlər, bu müəssisələr onların ardınca Azərbaycana gələ bilərlər.

Paris Ticarət-Sənaye Palatası ticarətin, sənayenin və xidmət bölməsinin bütün sahələrində işləyən 275 min müəssisəni təmsil edir. Bunların əksəriyyəti orta və kiçik müəssisələrdir. Bu orta və kiçik müəssisələr sizin ölkənizdə hansı fəaliyyət sahələrində əlverişli bazar tapa bilərlər? Fransanın orta və [262-263] kiçik müəssisələri üçün sizin ölkənizdə hansı fəaliyyət sahələri üstün xarakter daşıyır?

**Heydər Əliyev**: Bilirsiniz, hesab edirəm ki, orta və kiçik müəssisələr üçün Azərbaycanda ən çox, bizdə deyildiyi kimi, xalq istehlakı malları, ərzaq məhsulları, şübhəsiz, həm də toxuculuq malları, ayaqqabı və digər məişət malları istehsalı ilə məşğul olmaq imkanı var, əhalimizin bu mallara tələbatı böyükdür. Fransa müəssisələri ölkəmizdə olan xammaldan, kənd təsərrüfatı məhsullarından da istifadə edə bilərlər. Bayaq dediyim kimi, insanlar üçün, məişət üçün, tikinti üçün müxtəlif məhsullar istehsalından ötrü bizim kimya sənayesinin imkanlarından da istifadə etmək olar. Bir sözlə, bizim imkanlarımız böyükdür.

**Sual**: **Sağ olun, cənab prezident. Ticarət-Sənaye Palatası sədrinin dediyindən savayı mən əlavə etmək istərdim ki, bizim Ticarət-Sənaye Palatamız hazırlıq və təlim işləri ilə də məşğul olur. Bizim 33 məktəbimiz var, bunlarda çox yüksək səviyyəli menecerlər, habelə tam bir sıra peşələr üzrə sənətkarlar və fəhlələr hazırlanır. Tələbə mübadiləsini qaydaya salmağın mümkünlüyünü bilmək istərdik, çünki bizim xaricdə də məktəblərimiz var. Həmçinin bilmək istərdik ki, Azərbaycan ilə Fransa arasında tələbə mübadiləsinə ölkəniz maraq göstərirmi?**

**Heydər Əliyev**: Bəli, hesab edirəm ki, tamamilə mümkündür və hətta bizim üçün zəruridir. Bizim buna ehtiyacımız var, ona görə ki, indi iqtisadi sistemimizi bütünlüklə yenidən qururuq. Biz bütün xidmət, servis sistemini də yenidən qururuq. Nəqliyyat sistemini, xüsusən şəhər nəqliyyatını yenidən qururuq. Bütün bu işlərdə sizin ölkənizin, Fransa kimi ölkənin təcrübəsi, şübhəsiz, bizim üçün lazımlı və vacibdir. Görünür, biz sizin təklifinizi nəzərdən keçirməli və bu barədə düşünməliyik ki, adamlarımızı Fransada öyrətmək, yaxud onları Azərbaycanda öyrətmək üçün sizin menecerlərinizdən, mütəxəssislərinizdən necə istifadə edə bilərik.

**Sual**: **Sağ olun cənab prezident, mən Lübomir Şlyadiləm, "Sesite jeneral"ı təmsil edirəm. Bu, Fransanın iri bankıdır, mən onun beynəlxalq münasibətlər şöbəsinin müdiriyəm. Biz Bakıdakı həmkarlarımızla, mərkəzi bankla, Azərbaycanın Beynəlxalq Bankı ilə ünsiyyət yaratmışıq. Keçən il mən maliyyə naziri ilə görüşmüşəm. Cənab prezident, energetika sahəsindəki** [263-264] **layihələrin perspektivi olduqca böyükdür. Şübhəsiz ki, biz bu layihələrin uğurla həyata keçirilməsini arzulayırıq. Lakin həmin layihələr Azərbaycan tərəfdən təminatın olmasını tələb edir. Layihələr heç olmasa beynəlxalq maliyyə birliyinin ayıracağı vəsaitə təminat vermək üçün respublikanın təminatına ehtiyac duyacaqdır. Əlbəttə, biz Avropa və Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq təşkilatlarla bu layihələrin öyrənilməsində iştirak edirik. Mənim sualım belədir: Siz Azərbaycan Respublikası tərəfindən təminat verilməsinin mexanizmini dəqiqləşdirə bilərdinizmi və ayrı-ayrı iştirakçılar arasında rolların bölgüsü necədir, başqa sözlə, mərkəzi banka münasibətdə Maliyyə Nazirliyi necə fəaliyyət göstərir, bu təminatı almaq üçün hansı sistemə əsaslanmaq, necə işləmək lazımdır?**

**Heydər Əliyev**: Ən əvvəl suverenliyə təminat barəsində. Mən artıq dedim ki, biz Azərbaycanda bütün əcnəbi investorlara və bizimlə iqtisadi əlaqələr yaradanların hamısına qanunlarımızla, Konstitusiyamızla təminat veririk.

Bununla əlaqədar demək istəyirəm ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın müstəqilliyi sarsılmaz və dönməzdir, Azərbaycan öz müstəqilliyinin məhdudlaşdırılmasına və ya özünün hər hansı milli-dövlət hüquqlarından məhrum edilməsinə bir daha heç vaxt yol verməyəcəkdir.

O ki qaldı bank-maliyyə sisteminə, dediyim kimi, biz bank sisteminə dair xüsusi qanunlar qəbul etmişik, bu sahədə islahatlar aparırıq. Bu isə mərkəzi bank ilə Maliyyə Nazirliyi arasında daha sivilizasiyalı münasibətlər yaradılmasını tələb edir. Onu nəzərdə tuturam ki, biz mərkəzi banka tam müstəqillik və xüsusən beynəlxalq bankımıza tam müstəqillik verilməsi xətti götürmüşük. Bank-maliyyə sistemi beynəlxalq bank-maliyyə sisteminin standartlarını özündə getdikcə daha geniş tətbiq edəcəkdir.

Biz sosialist maliyyə-bank sistemindən miras qalmış nə varsa, hamısından tamamilə imtina etmişik. Aydın başa düşürük ki, ölkəmizin dünya iqtisadiyyatında layiqli yer tutması və dünya iqtisadiyyatında layiqli yer tutması və dünya iqtisadiyyatı ilə tam inteqrasiyaya nail olması üçün bizim bank-maliyyə sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq lazımdır. Biz bu istiqamətdə az iş görməmişik və bundan sonra da bu yolla gedəcəyik. Odur ki, qoy bu məsələ nə sizdə, nə də başqalarında heç bir narahatlıq doğurmasın. [264-265]

**Sual**: **Cənab prezident, mən Sizinlə qazdan danışacağam. Mən "Sofreqaz" şirkətinin sədriyəm. Biz Sizin ölkənizdə bir neçə il ərzində fəal işləmişik və "Azəriqaz" şirkəti ilə əməli münasibətlər yaratmışıq. Ölkənizdə qaz sənayesinin inkişafına kömək etmək üçün bir neçə həftədən sonra Bakıda öz nümayəndəliyimizi açmağa hazırlaşırıq. Bundan başqa, biz Avropa Birliyinin təşəbbüsü ilə yaradılan və bütün Mərkəzi Asiya, Qafqaz ölkələrini və Ukraynanı birləşdirən aparıcı işçi qrupuyuq. Bu qrup qazın nəqlinin bütün növlərini öyrənməyi və təşviq etməyi, habelə gələcəkdə maliyyələşdirməyi qarşısına məqsəd qoymuşdur. Məqsəd öz müstəqilliyinə bu yaxınlarda nail olan həmin ölkələrin beynəlxalq neft və qaz ticarətində beynəlxalq ticarət qaydalarına müvafiq surətdə iştirakını təmin etməkdir. Cənab prezident, sualım belədir: Siz bölgənizdə qazın beynəlxalq nəqlinin gələcək inkişafını necə təsəvvür**

**edirsiniz və bu gün qaz idxalçısı olan, sabah isə bəlkə də ixraccısı olacaq Azərbaycan bu beynəlxalq qaz nəqlində hansı yeri tuta bilər?**

**Heydər Əliyev**: Sağ olun. Ən əvvəl onu deyim ki, "Sofreqaz" şirkəti Azərbaycanda artıq məşhurdur və dünən mən şad oldum ki, Fransa prezidenti Jak Şirak, bizdə olan məlumata görə, Azərbaycanla əməkdaşlıq edən şirkətlər arasında "Sofreqaz"ın da adını çəkdi və bu işə böyük maraq göstərdi. Mən sizin Azərbaycanla əməkdaşlıq üçün təşəbbüsünüzü alqışlayır və dəstəkləyirəm. Bilirsiniz ki, bir müddət bundan əvvəl mənim fərmanımla "Azəriqaz" Dövlət Şirkəti Səhmdar Cəmiyyətə çevrilmişdir. Bununla da biz şərait yaratmış və təməl qoymuşuq ki, bizim bu sahə özəlləşdirmə yolu ilə daha sürətlə irəliləyə bilsin və təbii olaraq xaricdə müvafiq iqtisadi əlaqələr, məsələn, sizinlə, "Sofreqaz" la əlaqələr yarada bilsin.

Bizimlə əməkdaşlıqda gələcəkdə də mənim köməyimə ümid bəsləyə bilərsiniz. Başlıca niyyət qaz və neft ticarətini beynəlxalq standartlara müvafiq surətdə təşkil etməkdə sizin fəaliyyətinizi yaxşılaşdırmaqdır. Perspektivlərə gəldikdə, bu gün biz qaz idxalçısı deyilik. Doğrudur, indi biz istehlak etdiyimiz qədər qaz çıxarmırıq – ildə təqribən 6 milyard kubmetr qaz istehsal edirik. On il bundan əvvəl 15 milyard kubmetr qaz çıxarırdıq. Malik olduğumuz, istehsal etdiyimiz nə varsa, bizə çatmır. Lakin bununla yanaşı, indi qaz idxalından imtina [265-266] etmişik. Olanımızla kifayətlənirik. Gələcəkdə qaz ixrac edəcəyik. Bu, şübhəsizdir. İlkin proqnozlara görə, "Şahdəniz" yatağında 500 milyard kubmetr qaz var. Yeri gəlmişkən, "Elf Akiten" həmin yatağın işlənməsinə dair müqavilənin iştirakçısıdır. Bizdə başqa qaz yataqları da var və biz bütün neft yataqlarında çoxlu miqdarda neftlə yanaşı, qaz çıxarırıq.

Biz gələcəkdə qaz ixrac edəcəyik. Bununla yanaşı, sizin bu suallarınız Azərbaycanı qaz və neftin Mərkəzi Asiyadan Avropaya nəql olunması baxımından cəlb edir. Qazaxıstandakı "Tenqiz" yatağından neftin Azərbaycan vasitəsilə Avropaya ixracı sahəsində əməkdaşlığa artıq başlanmışdır.

Belə hesab edirəm ki, Türkmənistanda da qazın Xəzər dənizi və Azərbaycan vasitəsilə ixracının təşkili bütün tərəflər üçün çox faydalı olardı. Zənnimcə, biz buna gəlib çıxacağıq. Buna görə də bu baxımdan geniş imkanlar açılır. Elə "Sofreqaz" şirkəti də bizim müəyyənləşdirdiyimiz proqram üzrə "Azəriqaz"la indi əməkdaşlığa başlamaq haqqında təkcə Azərbaycanda deyil, Qafqazda da, Mərkəzi Asiyada da danışılmış problemlərin həllində çox böyük yer tuta bilər.

Mən sizə uğurlar arzulayıram.

**Sual: Ölkənizdə Ticarət-Sənaye Palatası varmı? Mən Sizə demək istərdim ki, Azərbaycanda Ticarət-Sənaye Palatasının yaradılmasına imkan verən şəraiti müvafiq təşkilatlarla və İqtisadiyyat Nazirliyi ilə birlikdə öyrənmək üçün Paris Ticarət-Sənaye Palatası Sizin sərəncamınızdadır.**

**Heydər Əliyev**: Azərbaycanda Ticarət-Sənaye Palatası var, lakin o, sizin malik olduğunuz standartlar səviyyəsinə hələlik, təəssüf ki, çıxmamışdır. Buna görə də təklifinizi minnətdarlıqla qəbul edirəm və evə qayıtdıqdan sonra Azərbaycan Ticarət-Sənaye Palatasına tapşıracağam ki, sizinlə əlaqə yaratsınlar. Fransadakı səfirimizə burada tapşırıram ki, o, bununla məşğul olsun ki, Azərbaycan Ticarət-Sənaye Palatası sizinlə əməkdaşlığın bünövrəsini qoyaraq, sizin təcrübənizdən, tövsiyələrinizdən istifadə etsin və biz iqtisadi münasibətlərimizi birlikdə genişləndirək.

Bizim səfir məlumat verir ki, bu gün burada Azərbaycan-Fransa Ticarət-Sənaye Palatasının açılış mərasimi olacaqdır.

Soruşuram, nə üçün burada bundan xəbərsizdirlər?

**Huber Flano**: Cənab prezident, mən bunun cavabını bilirəm. Fransa Xarici İşlər Nazirliyinin keçmiş baş katibi [266-267] cənab Buarenin təşəbbüsü ilə Fransa-Azərbaycan Assosiasiyası yaradılmışdır. İndi bu assosiasiya Fransa-Azərbaycan Ticarət-Sənaye Palatası adlanmaq istəyir.

Cənab prezident, təşəkkür edirəm. Söhbətimiz başa çatır. Sizə və Sizi müşayiət edən nazirlərə təşəkkürümü bildirirəm ki, hamı bu səhər ziyafətində iştirak etməyə razılıq vermişdir. Hamı razılıq vermişdir ki, Azərbaycan Ticarət-Sənaye Palatası ilə əlaqələr yaradılsın, onun səviyyəsinin yüksəldilməsinə və bu səviyyənin beynəlxalq standartlara çatdırılmasına kömək göstərilsin. Burada kiçik bir vərəqə var. Təəssüf ki, o, fransız dilində yazılmışdır. Lakin bu vərəqədə bizim Ticarət-Sənaye Palatası haqqında, onun strukturları və vəzifələri haqqında məlumat var. Mən sizə bir daha təşəkkür edirəm. Fransaya səfərinizi uğurla başa çatdırmağı arzulayıram. Ümidvaram ki, səfəriniz faydalı və xoş olacaqdır.

Cənab prezident, Sizə təşəkkür edirəm.

**Heydər Əliyev**: Çox sağ olun. [267-268]

## FRANS-PRESS AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏSİ

*Paris*

*14 yanvar 1997-ci il*

**Müxbir:** Cənab prezident Heydər Əliyev, mən Sizi salamlayıram və Sizinlə görüşmək imkanı qazanmağı özüm üçün şərəf hesab edirəm. Məni qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu gün məni qəbul etməyinizin çox böyük əhəmiyyəti vardır. Mənim fikrimcə, fransızların çoxu Qafqazda olan vəziyyəti heç də dərindən bilmir.

Mənə elə gəlir ki, Azərbaycandakı vəziyyəti fransızların dərindən başa düşmələrində iki əsas amil mühüm rol oynayır. Bunlardan birincisi neft, ikincisi isə Ermənistanla münaqişədir.

Cənab prezident icazə versəniz, mən Sizə məhz bu iki amil ətrafında suallar verərdim.

**Sual: Cənab prezident, Fransanın iki neft şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkətinin imzaladığı müqavilə belə bir fikir söyləməyə imkan verir ki, Siz neft sahəsində fəaliyyət göstərən şirkətlərin sayını artırırsınız, müxtəlif edirsiniz. Bu, o deməkdirmi ki, Siz neft istehsalı sahəsində yeni bir Avropa qütbü yaratmaq istəyirsiniz?**

**Cavab:** Bilirsiniz, biz respublikamızın qapılarını dünyanın bütün ölkələri üçün açmışıq. Şübhəsiz ki, biz birinci növbədə, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri ilə əməkdaşlıq etmək istəyirik. Təbii sərvətlərimizdən səmərəli istifadə etmək, iqtisadi potensialımızı müasirləşdirmək, modernləşdirmək və ondan səmərəli istifadə etmək üçün bizə birinci növbədə sərmayə, investisiya, ikincisi isə müasir, yüksək tələblərə uyğun olan texnika və texnologiya lazımdır. Şübhəsiz ki, bunlar da iqtisadi cəhətdən inkişaf etmiş böyük dövlətlərdə vardır.

Respublikamızın neft sərvətlərindən istifadə etməyə maraq göstərən ölkələr, şirkətlər çoxdur. Ancaq biz hər cəhətdən ya[268-269]rarlı olan ölkələri, şirkətləri seçirik ki, bu da təsadüfi deyildir. Biz, eyni zamanda, həmin şirkətin mənsub olduğu ölkə ilə əlaqələrimizi əsas götürürük. Məsələn, biz Fransa ilə bütün sahələrdə olan əlaqələrimizi genişləndirmək, inkişaf etdirmək istəyirik. Keçmişdə respublikamızın Fransa ilə əlaqələri az olubdur. Ona görə də biz Fransanın böyük şirkətləri olan "Elf Akiten"in və "Total"ın təkliflərini qəbul etdik. Ancaq bu, təkcə onların xahişi deyil. 1993-cü ildə mənim Parisə ilk dəfə rəsmi səfərim zamanı mərhum prezident Fransua Mitteran da məndən bu haqda xahiş etmişdi. Fransanın keçmiş baş naziri cənab Balladyur da mənə bu barədə xüsusi məktub yazmışdı. Yəni demək istəyirəm ki, bu əlaqələr təkcə kommersiya xarakteri daşımır, həm də ölkələrimiz arasındakı əlaqələrin inkişafına kömək edəcəkdir. Ona görə də "Elf Akiten" və "Total" şirkətləri artıq Azərbaycana gəliblər. Dünən Yelisey sarayında cənab Jak Şirakın və mənim iştirakımla bu müqavilə imzalandı. Demək, bu müqavilə təkcə iqtisadi əlaqələrə yox, həm də dövlətlərimiz arasındakı siyasi əlaqələrə təsir edir və etməlidir.

Fransanın bir çox başqa şirkətləri də son zamanlar Azərbaycana gəliblər. Biz artıq bir neçə sahədə birgə işə başlamışıq. Demək, Azərbaycanın neft sərvətlərinin istifadə olunmasında Fransa artıq özünəməxsus böyük yer tutubdur. Mən bunu müsbət hal hesab edirəm.

**Sual: Cənab prezident, respublikanızın zəngin neft yataqları Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün siyasi silah ola bilərmi?**

**Cavab:** Biz bu amildən istifadə etməyə çalışırıq. Çünki belə hesab edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsini aradan götürmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır. Bu amil də çox mühümdür.

**Sual: Bu amildən Siz necə istifadə etmək niyyətindəsiniz?**

**Cavab:** Neft istehsalı sahəsində Azərbaycanla müştərək iş görməyə başlayan böyük ölkələr beynəlxalq təşkilatların üzvüdürlər və onların işində çox yaxından iştirak edirlər. Biz iqtisadi əməkdaşlığımızla əlaqədar həmin ölkələrin səylərini münaqişənin aradan qaldırılmasına yönəltməyə çalışırıq. Çünki bu ölkələr öz beynəlxalq nüfuzlarından və imkanlarından istifadə edərək Ermənistanı başa sala bilərlər ki, o, bu təcavüzkar hərəkətindən əl çəksin. Bilirsiniz ki, müxtəlif bölgə[269-270]lərdəki münaqişələrin aradan qaldırılmasında məhz dünyanın böyük dövlətləri beynəlxalq təşkilatlarla birgə fəaliyyət göstərirlər.

**Sual: İndi Fransa Minsk qrupuna rəhbərlik edir. Siz bu fikirdəsinizmi ki, bu münaqişənin həllində Fransa da müsbət rol oynaya bilər?**

**Cavab:** Fransanın Minsk qrupuna rəhbərlik etmək məsələsi hələ həll olunmayıb. Ancaq Fransa Minsk qrupunun üzvü kimi şübhəsiz ki, bu işdə çox müsbət rol oynaya bilər.

**Sual: Cənab prezident, bu, o deməkdir ki, Siz Fransanın Minsk qrupuna həmsədrlik etməsinə razı deyilsiniz?**

**Cavab:** Məsələ onda deyil ki, biz Fransanın Minsk qrupuna rəhbərlik etməsinə razı deyilik. Bilirsiniz ki, bu məsələ bir qədər mürəkkəbləşib. Hələ yay aylarında Minsk qrupuna rəhbərliyə Finlandiyanın yerinə Almaniya

nəzərdə tutulmuşdu. Biz ona razılıq vermişdik. Sonra Ermənistan və Rusiya etiraz etdiyinə görə Almaniyanın namizədliyi aradan götürüldü. Bu vaxt Amerika Birləşmiş Ştatları bizə müraciət etdi ki, onlar Minsk qrupuna həmsədrlik etmək istəyirlər. Biz onlara razılıq verdik. Onlara razılıq verdiyimizə görə biz öz qərarımızı dəyişdirə bilmərik. Məsələn, biz Almaniyaya razılıq vermişdik. Amma Almaniya öz namizədliyini geri götürəndə biz onu Minsk qrupuna həmsədrlik etməyə məcbur edə bilməzdik. Biz Almaniyanın həmsədr olmasını istəyirdik.

**Sual: Necə baxırsınız, Fransa həmsədr kimi bu məsələnin həllində xüsusi rol oynaya bilməzmi, yoxsa Fransa Ermənistanla daha yaxın əlaqələr saxlayır?**

**Cavab:** Bilirsiniz, yenə də deyirəm, mən məsələni bu cür qoymaq istəmirəm. Etika qaydaları var. Əgər biz Amerika Birləşmiş Ştatlarına razılıq vermişiksə, eyni zamanda başqa bir ölkəyə razılıq verə bilmərik. Məsələn, Almaniyanın namizədliyi olanda Amerika Birləşmiş Ştatları belə bir fikir bildirdi ki, bəlkə onlar da həmsədr olsun? Onlara dedik ki, biz Almaniyaya razılıq vermişik. Amma Almaniya öz namizədliyini geri götürəndən sonra Amerika bizə bir daha müraciət etdi. Şübhəsiz ki, Amerikanın namizədliyinə etiraz etməyə bizim əsasımız yox idi, ona görə də razılıq verdik.

**Sual: Cənab prezident, bəlkə də səhv edirəm, mən bildiyimə görə, ATƏT Fransanın həmsədrliyi üçün razılıq vermişdir.** [270-271]

**Cavab:** ATƏT razılıq verməyibdir. ATƏT-in bundan əvvəlki sədri cənab Flavio Kotti bunu bəyan edibdir. Amma o, Minsk qrupunun başqa üzvləri ilə, o cümlədən Azərbaycanla məsləhətləşməyib. O, məsləhətləşməmiş bunu bəyan etməməliydi. Biz münaqişədə olan bir tərəfik. Bizim fikrimizlə hesablaşmamaq tamamilə düzgün ola bilməz.

**Sual: Mən yenə də Dağlıq Qarabağ münaqişəsinin həllində Fransanın rolundan danışmaq istəyirəm. Fransanın prezidenti cənab Jak Şirak dünən bu məsələdə özünün tamamilə neytrallığını qeyd etdi. Bu, Sizi tam qane edirmi?**

**Cavab:** Bilirsiniz, mən cənab Jak Şiraka çox inanıram. O, çox təcrübəli, böyük sınaqlardan keçmiş dövlət xadimi, siyasi xadimdir. Ona görə də mənim onun şəxsiyyətinə böyük hörmətim var. Cənab Jak Şirakla dünənki söhbətimizdə mən öz fikirlərimi ona çox açıq şəkildə bildirdim. Mən ümid edirəm ki, cənab Jak Şirak və Minsk qrupunda Fransanın nümayəndəsi bundan sonra Minsk qrupunun üzvü kimi bu məsələnin həllində daha da fəal olacaqlar. Ancaq açıq demək istəyirəm ki, Fransa Minsk qrupunun üzvü kimi – Minsk qrupu dörd ildir ki, fəaliyyətdədir – böyük fəallıq göstərməyibdir. Ümid edirəm ki, bizim dünənki danışıqlarımızdan, cənab Jak Şirak indi bu məsələyə qarışandan sonra Fransa Minsk qrupunun üzvü kimi bu sahədə çox iş görə bilər.

Bilirsiniz ki, Fransa ilə Ermənistan arasında uzun illərdir dostluq əlaqələri var. Fransızların dediklərinə görə, cənab Jak Şirak da bir dəfə öz nitqində demişdir ki, Fransa üç yüz ildir Ermənistanla dostluq əlaqəsi saxlayır. Fransada çox erməni yaşayır. Erməni diasporu Fransanın siyasi həyatında da fəal iştirak edir. Təəssüf ki, burada olan erməni lobbisi obyektiv mövqe tutmur. Onlar məsələnin məzmununa varmadan, bu münaqişənin səbəbini araşdırmadan birtərəfli olaraq Ermənistanı dəstəkləyirlər. Azərbaycana qarşı çox mənfi münasibət göstərirlər. Burada erməni mənşəyindən olan adamların çoxu dövlət orqanlarında işləyirlər. Təəssüf ki, onların bir çoxu bu məsələdə çox qeyri-obyektiv mövqe tutur.

**Sual: Cənab prezident, deyə bilərsinizmi ki, Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas cəhətlər hansılardır?**

**Cavab:** Əsas cəhət ondan ibarətdir və Ermənistan bunu başa düşməlidir ki, bu məsələni zorla həll etmək olmaz. [271-272] Lissabon Zirvə görüşündə ATƏT-in sədrinin bəyanatlarında irəli sürülən prinsiplər həyata keçirilməlidir. Bu prinsiplər üç bənddən ibarətdir: Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək səviyyəli özünüidarəetmə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması. Lissabonda ATƏT-in üzvü olan ölkələrin hamısı bu prinsipləri dəstəklədi, təkcə Ermənistan buna etiraz etdi. Ermənistan bu pozucu mövqeyindən əl çəkməlidir.

**Sual: Bu, o deməkdirmi ki, əvvəlki vaxtlarda olduğu kimi Ermənistanla Azərbaycan arasında danışıqlar aparmaq mümkün deyil?**

**Cavab:** Yox, biz birbaşa danışıqlar aparırıq. Biz indi də bu danışıqları aparmağa hazırıq. Lissabon Zirvə görüşündən sonra biz təşəbbüsdə olmuşuq ki, danışıqlar yenidən başlansın. Amma Ermənistan tərəfi bunu hələ ki, ləngidir.

**Sual: Mənə elə gəlir ki, Fransanın digər şirkətlərinin də indi Azərbaycana gəlmək və orada fəaliyyət göstərmək imkanları vardır, bu isə Fransa ilə Azərbaycanın bir-birini yaxşı tanıması üçün geniş imkanlar yaradır.**

**Cavab:** Bəli, biz də bunu istəyirik.

**Müxbir:** Çox sağ olun, cənab prezident. [272-273]

## FRANSANIN "TV ARTE" TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*14 yanvar 1997-ci il*

**Sual: Cənab prezident, Sizinlə bu görüş mənim üçün böyük şərəfdir. Sizin müsahibəniz bu axşam "Arte" kanalı ilə efirə buraxılacaq, fransız və alman dilində bütün Avropaya yayımlanacaqdır.**

**Cənab prezident, mən Sizə 4-5 sual verəcəyəm və Sizdən çox xahiş edirəm, əgər mümkünsə, onlara qısa cavab verəsiniz ki, biz tərcümə etməyə macal tapaq. Siz Fransaya bu səfərinizə nə kimi ümidlər bəsləyir, ondan iqtisadi və siyasi sahədə nə gözləyirsiniz?**

**Cavab:** Mən həm iqtisadi, həm də siyasi sahədə Fransa-Azərbaycan əlaqələrinin inkişaf etməsini və genişlənməsini gözləyirəm.

**Sual: Siz bu səfəriniz zamanı iqtisadi sahədə əldə etdiyiniz nəticələr haqqında konkret olaraq məlumat verə bilərsinizmi? Bu nəticələr ölkəniz qarşısında nə kimi perspektivlər açır?**

**Cavab:** Ən böyük nəticə ondan ibarətdir ki, mən Fransa prezidenti cənab Jak Şirakla bütün məsələlər haqqında, Fransa-Azərbaycan əlaqələri haqqında ətraflı danışıqlar aparmışam, söhbət etmişəm. Mən bu görüşdən və danışıqlardan məmnunam. Bu görüşdən sonra mən belə fikrə gəlmişəm ki, Fransa prezidenti cənab Jak Şirak Azərbaycan haqqında daha dolğun və düzgün obyektiv məlumata malik oldu və Azərbaycan-Fransa əlaqələrinin bütün sahələrdə, o cümlədən iqtisadi, mədəni və siyasi sahələrdə inkişaf etməsinə çox böyük maraq göstərir. Bu görüşün ən yüksək nəticəsi ondan ibarətdir ki, Fransanın böyük şirkətləri olan "Elf Akiten" və "Total" şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uzunmüddətli müqavilə imzalanıb. Müqavilənin imzalanması mərasimi Yelisey sarayında keçirilib, Fransa və Azərbaycan prezidentləri bu mərasimdə iştirak ediblər. Bu müqavilə Azərbaycanda [273-274] iki böyük neft yatağında işlərin "Elf Akiten" və "Total" şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müştərək təşkil olunmasını təmin edir və 25 il müddətində o yataqların işlənməsi, oradan neft çıxarılması nəzərdə tutulur. Bu, çox səmərəli bir müqavilədir.

**Sual: Cənab prezident, məhz buna görə də Sizdən soruşmaq istərdim ki, indiki çətin böhrandan çıxmaq üçün Rusiya ilə müqayisədə Azərbaycan neftdən başqa, əlavə daha nə kimi imkanlara malikdir, hansı vasitələrdən istifadə edir?**

**Cavab:** Bəli, biz bu iqtisadi böhrandan çıxmaq üçün bütün vasitələrdən istifadə edirik, o cümlədən də bizim indiyədək imzaladığımız neft müqavilələri, – yeri gəlmişkən, bu, xarici şirkətlərlə imzaladığımız beşinci müqavilədir, – bir neçə ildən sonra öz iqtisadi faydasını verəcək və onlar da Azərbaycanı böhrandan çıxarmağa kömək edəcəkdir. Bu sahədə vəziyyətin Rusiyaya nisbətən necə olacağını deyə bilmərəm. Mən Rusiya ilə Azərbaycanı müqayisə etmək istəmirəm. Rusiya çox böyük bir dövlətdir.

**Sual: Sovet İttifaqının dağılmasından bir neçə il keçir, necə bilirsiniz, onun süqutu Azərbaycan üçün yaxşıdır, yoxsa pisdir?**

**Cavab:** Sovet İttifaqının dağılması çox yaxşıdır. Çünki bunun nəticəsində Azərbaycan dövlət müstəqilliyi əldə etdi, müstəqil bir dövlət oldu. Bu, Azərbaycan üçün tarixi bir nailiyyətdir.

**Sual: Siz öz ölkənizin gələcəyini düşünəndə hansı istiqamətə daha çox üstünlük verirsiniz – Avropaya tərəf, Rusiyaya tərəf, yoxsa Şərqə tərəf üz tutmağı üstün tutursunuz?**

**Cavab:** Biz müstəqil bir dövlət kimi müstəqil siyasət yürüdürük, ona görə də nə o tərəfə, nə də bu tərəfə dönmək istəmirik. Biz bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əlaqələr qururuq və qurmaq istəyirik. Bu baxımdan biz həm Qərb ölkələri ilə, həm Şərq ölkələri ilə, həm də Amerika Birləşmiş Ştatları və Rusiya ilə əlaqələrə eyni səviyyədə fikir veririk. Odur ki, biz Fransa ilə əlaqələrimizin inkişaf etməsinə çox yüksək qiymət veririk.

**Sual: Cənab prezident, bilirəm ki, vaxtınız çox azdır. Ona görə də axırıncı sualımı verirəm. Siz Dağlıq Qarabağ münaqişəsinin həllində Fransadan nə gözləyirsiniz?** [274-275]

**Cavab:** Onu gözləyirəm ki, Fransa Ermənistanla Azərbaycana eyni gözlə baxsın, bu münaqişənin həllində subyektivliyə yol verilməsin. Bu münaqişənin sülh yolu ilə həllində subyektivliyə yol verilməsin. Bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün dekabrın əvvəllərində ATƏT-in Lissabon sammitində prinsiplər müəyyən olunubdur. Bunlar, birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, ikincisi, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi, üçüncüsü, bütün Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi prinsipləridir. Arzu edirəm ki, Minsk qrupunun üzvü kimi Fransa bu prinsiplərin həyata keçirilməsinə kömək göstərsin və bu işdə fəal iştirak etsin.

**Müxbir: Cənab prezident, mən Sizə minnətdarlığımı bildirirəm: Səfərinizin uğurla başa çatmasını arzulayıram.**

**Heydər Əliyev:** Təşəkkür edirəm. Sağ olun. [275-276]

## FRANSANIN HƏFTƏLİK "PUAN" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*14 yanvar 1997-ci il*

**Müxbir:** Cənab prezident, bizi qəbul etdiyinizə və Sizinlə görüşmək şərəfinə nail olduğuma görə öz minnətdarlığımı bildirirəm. "Puan" həftəlik jurnaldır, mənim Sizə bir neçə sualım vardır:

**Cənab prezident, mənim birinci sualım Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın coğrafi-siyasi vəziyyəti haqqındadır. Siz Fransada bu sahədə apardığınız danışıqlar barədə nə deyə bilərsiniz?**

**Cavab:** Bunlar çox geniş mövzulardır. Sizi konkret olaraq hansı məsələ daha çox maraqlandırır?

**Sual: Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində vəziyyət necədir?**

**Cavab:** Bilirsiniz ki, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir. Ermənistan Azərbaycanın bu kiçik bölgəsini öz əlinə keçirmək, öz ərazisinə birləşdirmək üçün 1988-ci ildə respublikamıza qarşı hərbi təcavüz edibdir. Bu təcavüz nəticəsində, bəzi səbəblərdən, 1993-cü ilə qədər Ermənistanın silahlı qüvvələri Azərbaycanın həm Dağlıq Qarabağ hissəsini, həm də onun ətrafında olan rayonlarını – respublikamızın ərazisinin təxminən 20 faizini işğal edibdir. Bu torpaqlar indi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlarımızdan Azərbaycanın bir milyondan çox vətəndaşı öz yerindən, yurdundan zorla çıxarılıbdır. Onların hamısı indi Azərbaycanın müxtəlif bölgələrində, əksəriyyəti çadırlarda yaşayır. Beləliklə, Azərbaycana həm maddi, həm də mənəvi cəhətdən böyük zərbələr vurulubdur. Bir müstəqil dövlət kimi Azərbaycanın ərazi bütövlüyü pozulub. İşğal edilmiş ərazilərimizdə Azərbaycanın bütün varidatı dağılıb, tarmar olunub. Qan tökülüb, minlərlə insan tələf olunubdur.

Bütün bunlara baxmayaraq, Azərbaycan bu məsələnin sülh yolu ilə həll olunmasına üstünlük verir. Bu məqsədlə 1994-cü [276-277] ilin mayında Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş əldə edilibdir. İki il səkkiz aydır ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq. Biz Ermənistan ilə Azərbaycan arasında səkkiz ildən çox davam edən münaqişədə bunu müsbət hal hesab edirik. Çünki biz müharibə etmək istəmirik. Biz bölgədə sülh yaratmaq istəyirik. Ancaq iki il səkkiz ay müddətində aparılan danışıqlar, xüsusən Minsk qrupu çərçivəsində gedən proses hələ ki, istənilən nəticəni verməyibdir.

Keçən il dekabrın əvvəlində Lissabonda ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsi də müzakirə olunmuşdur. Orada Minsk qrupu ATƏT-in Zirvə görüşünə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasının əsas prinsiplərini göstərən bir layihə təklif etdi. Həmin prinsiplər bizim üçün tam əlverişli olmasa da, bu məsələnin sülh yolu ilə həll edilməsi üçün biz o prinsipləri qəbul etdik. Ancaq Ermənistan tərəfi Lissabonda pozucu bir mövqe tutdu. Onlar bu prinsiplərin qəbul edilməsinə mane olmağa çalışdılar. ATƏT-in Zirvə görüşündə sənədlər konsensus yolu ilə qəbul edildiyinə və Ermənistan bu sənədin qəbuluna konsensus vermədiyinə görə Azərbaycan çox ciddi bir addım atdı, ATƏT-in bütün sənədinin qəbuluna konsensus vermədi. Gərgin bir vəziyyət yarandı. Sonra aparılan danışıqlar nəticəsində həmin prinsiplər ATƏT sədrinin xüsusi bəyanatında öz əksini tapdı. O sənəddə göstərildi ki, ATƏT-in bütün üzvləri bu prinsiplərlə razıdır, Ermənistandan başqa.

Bu prinsiplər nədən ibarətdir? Orada üç bənd var: birincisi, Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyünün tanınması; ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə təhlükəsizlik təminatı verilməsi. Təsəvvür edin, əgər Ermənistan bu prinsipləri – ATƏT-in, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq hüquq normalarına söykənən prinsipləri qəbul etmirsə, demək, özünün nə qədər təcavüzkar olduğunu dünyaya nümayiş etdirir. Biz hesab edirik ki, bu prinsiplər ATƏT-in və Minsk qrupunun üzvü olan bütün ölkələr tərəfindən dəstəkləndiyinə görə indi danışıqları bunların əsasında aparmaq, bu prinsiplərin həyata keçirilməsinə nail olmaq lazımdır. Hesab edirəm ki, Minsk qrupunun üzvü kimi Fransa da bu prinsiplərin həyata keçirilməsində fəal iştirak [277-278] etməlidir. Mən bu barədə öz fikirlərimi dünən prezident cənab Jak Şirakla görüşərkən açıq-aydın bildirdim və ona öz təkliflərimi verdim.

Mən hesab edirəm ki, Dağlıq Qarabağ haqqında xeyli danışdıq.

**Sual: Azərbaycan çox böyük dövlətlərlə əhatə olunmuşdur və çox varlı bir ölkədir. İndi Siz respublikanızın Qərb və Şimal ölkələri ilə əlaqələrini necə qurursunuz?**

**Cavab:** Bilirsiniz, Azərbaycan müstəqil bir dövlətdir, Bizim qarşımızda duran əsas məqsəd, vəzifə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarətdir. Ona görə də biz Azərbaycanın təbii sərvətlərindən səmərəli istifadə etməyə çalışırıq. Məhz buna görə də biz bir neçə neft müqaviləsi imzalamışıq. Dünən burada, Parisdə Yelisey sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın "Elf Akiten" və "Total" şirkətləri arasında Xəzərin Azərbaycan sektorundakı iki neft yatağının işlənməsi haqqında yeni bir müqavilə imzalanmışdır.

Azərbaycanı əhatə edən ölkələrlə biz çox mehriban qonşuluq və dostluq əlaqələri yaradırıq. Ermənistanla olan əlaqələrimiz haqqında mən sizə danışdım. Ancaq digər qonşu ölkələrlə bizim çox normal, mehriban dostluq əlaqələrimiz var. Şübhəsiz ki, bunlar hamısı ikitərəfli, qarşılıqlı surətdə faydalı münasibətlər əsasında qurulur və bunlar Azərbaycanın suverenliyinə, müstəqilliyinə heç vəchlə toxunmamalı və zərər gətirməməlidir.

**Sual: Axırıncı sualımı verirəm. Bilirəm ki, Sizin çox. gərgin iş rejiminiz vardır.**

**İki il bundan əvvəl Siz müsahibə zamanı deyirdiniz ki, respublikamızda elə vəziyyət yaranıb ki, bəzi qrupları tərksilah etmək lazımdır. Bununla əlaqədar soruşmaq istəyirəm: elə vaxt olubmu ki, həyatınızdan qorxmusunuz? Eşitmişəm ki, Sizə qarşı çoxlu sui-qəsd cəhdləri olubdur.**

**Cavab:** Birincisi, mən həyatımdan heç vaxt qorxmamışam və qorxmuram. Əgər mən həyatımdan qorxmuş olsaydım bu qədər ağır məsuliyyəti – 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi mövcud olduğu halda – öz üzərimə götürməzdim. Təəssüflər olsun ki, Azərbaycanda 1989-cu ildə bir çox qeyri-qanuni silahlı dəstələr yaranmışdı. Bunlar heç də Azər[278-279]baycan torpaqlarının qorunmasına xidmət etməmişdir. Onlardan ayrı-ayrı mafioz qruplar öz məqsədlərinə nail olmaq və silah yolu ilə hakimiyyəti ələ keçirmək üçün istifadə etmişlər. Məhz bunların nəticəsində 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi baş vermişdir. Bunların qarşısını alandan və mən prezident seçiləndən sonra 1994-cü ilin oktyabrında Azərbaycanda yenidən silah gücü ilə dövlət çevrilişinə cəhdlər göstərilmişdir. Biz onun qarşısını aldıq, cinayətkarları zərərsizləşdirdik. Bundan sonra 1995-ci ilin martında da böyük bir silahlı dəstə yenidən dövləti silah gücü ilə devirməyə çalışmışdı. Bunun da qarşısı alındı.

Son iki ildə apardığımız düzgün siyasət və qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin güclənməsi və xalqda, ictimaiyyətdə milli həmrəylik yaranması nəticəsində biz belə silahlı dəstələri, demək olar ki, aradan götürmüşük. Lakin onların bəziləri qaçıb ayrı-ayrı ölkələrdə gizlənirlər, çoxları isə Rusiyada, Moskvada yerləşiblər və öz terror hərəkətlərindən əl çəkmək istəmirlər. Son vaxtlar bəzi terrorçu dəstələri də Azərbaycana göndəriblər. Ancaq onlar bizim hüquq-mühafizə orqanları tərəfindən yaxalanıb, ələ keçiriliblər.

Son iki ildə Azərbaycanda cəmiyyətdə, əhali arasında, respublikamızda ictimai-siyasi sabitlik yaranıbdır və indi də bərqərardır. Bəzi cinayətkarların hərəkətlərinə gəldikdə isə, bunlar ola bilər, ancaq biz onların hamısının qarşısını almağa qadirik. Mən inanıram ki, Azərbaycanda ictimai-siyasi sabitlik bundan sonra da möhkəmlənəcəkdir. Məhz buna görə də xarici ölkələrin böyük şirkətləri Azərbaycanla müştərək iş görməyə çox böyük maraq göstərirlər.

**Sual: Cinayətkar dəstələrdən söhbət getdi, onlar Moskvadan göndərilir? Onları Moskvada kimlər idarə edir?**

**Cavab:** Onları Moskvada gizlənən ayrı-ayrı cinayətkarlar, cinayətkar dəstələr idarə edir.

**Müxbir: Cənab prezident, çox sağ olun. Siz bu müsahibənizlə bizə çox böyük şərəf verdiniz.** [279-280]

## FRANSANIN "EKSPANSİON" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*14 yanvar 1997-ci il*

**Sual: Jurnalımıza müsahibə verməyə razılaşdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. Vermək istədiyim ilk sual belədir: Siz ölkənizdə böyük siyasi dəyişikliklər həyata keçirmisiniz, bunlar respublikanın iqtisadi vəziyyətinə necə təsir göstərmişdir?**

**Cavab:** Bunlar iqtisadi vəziyyətə birbaşa təsir göstəribdir. Çünki bir tərəfdən Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, digər tərəfdən isə iqtisadi islahatların həyata keçirilməsi bazar iqtisadiyyatının inkişafına, Azərbaycana xarici sərmayələr qoyulmasının həvəsləndirilməsinə yönəldilmiş bir sıra tədbirlər şübhəsiz ki, Azərbaycanda sosial-iqtisadi şəraitə bir-başa və çox müsbət təsir edibdir. Bu, özünü bir çox sahədə göstərir. İlk növbədə insanlar, deyə bilmərəm ki, yaxşı yaşayırlar, lakin əvvəlkindən yaxşı yaşamağa başlamışlar. Biz müasir maliyyə sistemi yarada bilmişik, öz milli valyutamız var. O, 1993-1994-cü illərdə inflyasiyaya məruz qalırdı. 1994-cü ildə inflyasiya təqribən 1700 faizə qalxmışdı. Keçən il aylıq inflyasiya bir faizdən az, ümumən il ərzində isə beş faizdən aşağı olubdur. Zənnimcə, bu, MDB-yə daxil olan ölkələr arasında ən yaxşı göstəricidir.

Siz yəqin ki, Moskva televiziyasına baxırsınız. Rusiyada əmək haqqı, pensiyalar və sairə vaxtında verilmir. Bizdə bu problemlər yoxdur. Milli valyutamız – manat möhkəmlənibdir, o, sabitdir. Amerika dollarına nisbətən məzənnəsi təqribən 7 faiz qalxıbdır. Əslində inflyasiya yoxdur, biz heç bir emissiyaya yol vermirik. Bu, əsas malların, xüsusən ərzaq məhsullarının qiymətlərinin aşağı düşməsinə təsir göstəribdir. Belə vəziyyətdə əhalinin gəlirlərinin artması bəlkə də azdır, lakin qiymətlərin artımını qabaqlayır. Qiymətlər isə, demək olar, artmır.

**Sual: Cənab prezident, Siz iqtisadi islahatlar haqqında danışdınız. Məhz hansı iqtisadi islahatları aparmısınız?**

**Cavab:** Birincisi, dövlət mülkiyyətinin özəlləşdirilməsi[280-281]nə başlanıbdır, ikincisi, 1995 və 1996-cı illərdə bir neçə qanun qəbul edilib və prezidentin bir neçə fərmanı verilibdir, bunlar xarici ticarəti tamamilə sərbəstləşdirmişdir, iqtisadiyyat tamamilə sərbəstləşibdir. Aqrar bölmədə heyvandarlıq, demək olar, bütünlüklə özəlləşdirilib, torpaq islahatı haqqında qanun qəbul edilibdir. Bu qanun torpağın onu satmaq və digər şəxslərə vermək hüququ ilə xüsusi mülkiyyətə verilməsini nəzərdə tutur. Qarşıdakı iki il ərzində, – mən 1997 və 1998-ci illəri nəzərdə tuturam, – dövlət mülkiyyəti 70 faizə qədər özəlləşdiriləcəkdir. Azərbaycana sərmayə axını güclənibdir. İri neft müqavilələrinin imzalanması sizə məlumdur. Biz dünən beşinci müqaviləni – Fransanın "Elf Akiten" və "Total" şirkətləri ilə müqaviləni imzaladıq. Özü də imzalanma mərasimi Fransa prezidentinin və Azərbaycan prezidentinin iştirakı ilə Yelisey sarayında oldu. Bütövlükdə bu müqavilələr Azərbaycana 15 milyard Amerika dolları həcmində sərmayə qoyulmasını nəzərdə tutur. Şübhəsiz, bu müqavilələr bir neçə ildən sonra öz nəticələrini verəcəkdir. Hesab edirəm ki, məsələn, XX əsrin sonu – XXI əsrin əvvəli Azərbaycan üçün iqtisadi yüksəliş dövrü olacaqdır. Bir tərəfdən bu müqavilələr, digər tərəfdən isə iqtisadi islahatlarımız əməli nəticələrini verməyə başlayacaqdır.

**Sual: Başqa sözlə, indi Siz deyə bilərsinizmi xarici kapitalın bir hissəsi Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərir?**

**Cavab:** Şübhəsiz, məsələn, indi bu müqavilələr həyata keçirilir və ötən il birinci müqavilə üzrə konsorsium yarım milyard dollar kapital qoyubdur. Əlbəttə ki, bunun hamısı Azərbaycan iqtisadiyyatına yönəldilməyib, lakin layihə həyata keçirilir. Bir də ki, bu işləri yerinə yetirmək üçün çoxlu infrastruktur yaradılır, bu isə yeni iş yerləri deməkdir və şübhəsiz ki, insanların bir çox kateqoriyasına gəlir gətirir. Məsələn, Norveç kimi çox da böyük olmayan bir ölkənin 50-dən çox şirkətinin Azərbaycanda ofisləri var. Bu ofislərdə işləyən insanların isə əksəriyyəti bizim vətəndaşlarımızdır. Buna görə də sıx inteqrasiya gedir.

**Sual: Neft bölməsindən savayı daha hansı sahələrə diqqət yetirmək lazımdır?**

**Cavab:** Bizim kimya, neft kimyası sektoru çox mühümdür. Bu sahədə bizdə böyük kompleks var. Yeri gəlmişkən deyim ki, Fransa şirkətlərindən biri ilə polixlorvinil istehsalı sa[281-282]həsində əməkdaşlıq edilir. Kimya sənayesi sahəsində digər ölkələrlə də əlaqələrimiz var. Fransa şirkətləri Azərbaycanda fəaliyyət göstərməyə, o cümlədən sement zavodunun yenidən qurulmasında iştirak etməyə başlayırlar. Dünən "Lafarj sement şirkətinin prezidenti mənə öz layihəsini verdi, niyyət protokolu imzalamışlar, sement zavodunun yenidən qurulmasını 18 aya başa çatdırmağı vəd etdi. Bu bizim üçün çox mühümdür. Yaxud başqa misal, Fransanın "Sofreqaz" şirkəti bizim əhalini qazla təchiz edən konsern ilə əməkdaşlıq edir, başqa bir şirkət Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsində iştirak edir. Hesab edirəm ki, aqrar bölmə xarici sərmayədarların diqqətini getdikcə daha çox cəlb edir. Burada da orta və kiçik müəssisələr yaratmaq üçün imkan var.

**Sual: Sovet İttifaqının bərpası haqqında Rusiya Kommunist Partiyasının lideri cənab Züqanovun keçən ilin oktyabrında seçkilər ərəfəsində verdiyi bəyanat Azərbaycanda necə qarşılanmışdır?**

**Cavab:** Bizim cəmiyyətimizdə buna münasibət ümumən mənfidir. Bizdə buna sadəcə olaraq məhəl qoymurlar. Çünki prezidentin siyasətini, xəttini bilirlər. Ona görə də insanlarımız narahat deyillər ki, Sovetlər İttifaqını bərpa etmək və Azərbaycanı ona birləşdirmək mümkün olsun. Bu baxımdan xalq sakitdir.

**Sual: Hazırda Azərbaycanın Rusiya ilə, digər Qafqaz respublikaları ilə münasibətləri necədir?**

**Cavab:** Rusiya ilə münasibət normaldır, biz bunları inkişaf etdirir və istəyirik ki, daha da yaxşı, daha da dostcasına münasibətlər olsun. Gürcüstanla çox yaxşı dostluq münasibətlərimiz var. Ermənistanla münaqişə vəziyyətindəyik. Digər qonşularımızla da yaxşı dostluq münasibətlərimiz var.

**Sual: Siz Fransa biznesmenlərinin Azərbaycanın iqtisadi bazarında iştirakı haqqında bir qədər danışdınız. Əsasən biznesmenlərdən, habelə Fransanın siyasətçilərindən ibarət olan oxucularımıza nə arzu edərdiniz?**

**Cavab:** Mən onlara arzu edirəm ki, gecikməsinlər, Azərbaycanda yerlər tutulacaqdır. Mən bunu prezident Jak Şiraka, görüşdüyüm sənaye və telekommunikasiya, xarici ticarət nazirlərinə də demişəm.

**Müxbir: Çox sağ olun. İcazə verin, Sizə təşəkkür edim və uğurlar arzulayım.** [282-283]

## FRANSA–AZƏRBAYCAN TİCARƏT-SƏNAYE PALATASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*Paris*

*14 yanvar 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən hamınızı səmimi qəlbdən salamlayıram və bu axşam sizinlə burada görüşümdən çox məmnun olduğumu bildirirəm. Fransa-Azərbaycan Ticarət Palatasının açılması münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu ticarət palatası Fransa ilə Azərbaycan arasındakı iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə, inkişaf etməsinə və sürətlənməsinə kömək edəcəkdir.

Fransa-Azərbaycan Ticarət Palatasının yaranması və bugünkü açılış mərasimi onu göstərir ki, ölkələrimiz arasında olan iqtisadi əlaqələr artıq yüksək səviyyəyə qalxıbdır və Fransanın iş adamları Azərbaycana böyük maraq göstərirlər. Bunlar hamısı bizi çox sevindirir.

Müstəqil Azərbaycan Respublikasının prezidenti kimi mən üç il bundan əvvəl Fransaya ilk dəfə rəsmi səfər etmişdim. Burada, Parisdə mərhum prezident Fransua Mitteranla mən Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlıq haqqında və digər sazişlər imzalamışdıq. Fransa ilə Azərbaycan arasındakı əlaqələrin tarixində ötən üç ili biz bir-birini tanıma, bir-birinə inanma və yaxınlaşma illəri kimi qiymətləndirə bilərik.

Üç il bundan əvvəl Fransada Azərbaycanı az tanıyırdılar və ölkəmizin imkanları burada geniş məlum deyildi. O vaxt Fransada Azərbaycana çox ehtiyatlı münasibət göstərirdilər. Üç il ötəndən sonra biz artıq bir-birimizi tanımışıq. Xüsusən, Fransada artıq Azərbaycanı tanımağa başlayıblar, ölkəmiz haqqında ətraflı məlumat əldə ediblər və Azərbaycanın imkanları indi Fransam cəlb edir.

Fransanın prezidenti Jak Şirakın dəvəti ilə mən məhz bu şəraitdə dünən Parisə rəsmi səfərə gəlmişəm və bu iki gün ərzində bizim çox əhəmiyyətli, qiymətli və maraqlı görüşlərimiz, danışıqlarımız olmuşdur. Prezident Jak Şirakla mənim dünən[283-284]ki görüşümüz və apardığımız danışıqlar, söhbətlər, hesab edirəm ki, çox maraqlı, əhəmiyyətli, məzmunlu olmuşdur. Bu görüşdən, danışıqlardan çıxan nəticə ondan ibarətdir ki, Fransa Azərbaycanı bir partnyor kimi tanımış və Azərbaycan da Fransanı nüfuzlu və böyük iqtisadi imkanlara malik bir dövlət kimi özünə partnyor qəbul etmişdir.

Prezident Jak Şirak və mən eyni fikirdə olduq ki, Fransa ilə Azərbaycan arasında əlaqələri bütün sahələrdə – iqtisadiyyat, mədəniyyət, siyasət və həyatımızın digər sahələrində inkişaf etdirmək lazımdır. Bu danışıqlarımızın əyani nəticəsi və istəyimizin nümayişi kimi dünən Yelisey sarayında Azərbaycan və Fransa prezidentlərinin iştirakı ilə Fransanın "Elf Akiten" və Total" şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uzunmüddətli – 25 illik böyük bir müqavilə imzalandı. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı iki böyük yatağın "Elf Akiten", "Total" şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən birgə işlənməsinə və oradan neft hasil edilməsinə həsr olunmuşdur.

Bilirsiniz ki, "Elf Akiten" şirkəti dünyanın bir neçə neft şirkətinin yaratdığı konsorsiumun tərkibində 1996-cı ilin iyununda Azərbaycan ilə daha bir müqavilənin – neft-qaz yatağının birgə işlənməsi, yanacaq hasilatı ilə əlaqədar müqavilənin imzalanmasında iştirak etmişdir.

Güman edirəm ki, bunlar son müqavilələr deyil. Azərbaycanın neft və qaz yataqları çoxdur, biz gələcəkdə də Fransa ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrdə belə müqavilələrin imzalanmasının şahidi ola bilərik. Azərbaycan iqtisadiyyatının – sənayesinin, aqrar bölməsinin və digər sahələrinin böyük imkanları vardır. Bu sahələrdə Fransanın şirkətləri ilə müştərək iş görmək üçün artıq bir neçə təklif irəli sürülmüşdür, onların üzərində iş gedir, həmin təkliflərin bəziləri haqqında razılıq əldə edilmişdir. Güman edirəm ki, bunlar hamısı bizim gələcək əməkdaşlığımızı daha da genişləndirəcəkdir.

Azərbaycan müstəqil dövlət kimi öz qapılarını bütün dünyaya açıbdır. Biz dünyanın iş adamlarını Azərbaycana daim dəvət edirik. İndi Azərbaycana sərmayə qoymaq, respublikamızda iş görmək üçün çox əlverişli imkan yaranmışdır.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Respublikamızda iqtisadi islahatlar həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirir. Bunlar hamısı Azərbaycanda sahibkarlığın, təşəbbüskarlığın, [284-285] şəxsi mülkiyyətin inkişaf etməsi üçün böyük imkanlar yaradıbdır.

Xarici şirkətlərin gəlib Azərbaycanda iş görməsi üçün respublikamızda müvafiq qanunlar qəbul olunmuşdur. Mən hamıya zəmanət verirəm. Bütün sərmayəçilərin hüquqlarının qorunması Azərbaycanın Konstitusiyası və qanunları ilə təmin olunubdur və bundan sonra da təmin ediləcəkdir. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Belə bir şəraitdə hər bir şirkət, iş adamı Azərbaycana daha tez gəlsə o qədər də çox iş görə bilər.

Azərbaycanın neft və qaz yataqlarından xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etmək üçün son iki ildə beş müqavilə imzalanıbdır. Bu müqavilələrin layihələrində Azərbaycanda həmin müqavilələrin həyata keçirilməsinə 15 milyard Amerika dolları məbləğində sərmayə qoyulması nəzərdə tutulur. Neft müqavilələrinin həyata keçirilməsinin orta müddəti 30 ildir. Beləliklə, indi biz bu müqavilələr əsasında 11 ölkədən beynəlxalq aləmdə tanınmış 16 şirkəti Azərbaycana cəlb etmişik.

Azərbaycanın çox əlverişli coğrafi mövqeyi vardır. Azərbaycan Avropa ilə Şərqi birləşdirən qədim İpək yolunun üstündədir. İndi Azərbaycan Mərkəzi Asiya ilə Avropanı bağlayan Transqafqaz magistralının əsas bir hissəsini təşkil edir. Mən əminəm ki, bir neçə ildən sonra Azərbaycanın iqtisadiyyatında çox ciddi dəyişikliklər olacaqdır. Bu əminliyimin əsasını imzalanmış neft müqavilələri, Azərbaycanda iqtisadi islahatların və bazar iqtisadiyyatının, özəlləşdirmənin ardıcıl surətdə həyata keçirilməsi təşkil edir.

Qarşıdakı iki il müddətində Azərbaycanda olan bütün mülkiyyətin 70 faizi özəlləşdiriləcəkdir. "Torpaq islahatı haqqında" qanuna əsasən bütün torpaqlar şəxsi mülkiyyətə verilir. Bunların hamısı Azərbaycanın iqtisadiyyatında yeni, çox parlaq bir mənzərə yaradacaqdır.

Mən sizə bu məlumatları verərək, əmin olduğumu bildirmək istəyirəm ki, Fransa-Azərbaycan Ticarət-Sənaye Palatası respublikamızın bu imkanlarından səmərəli istifadə edərək, Fransa ilə Azərbaycan arasında olan iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün çox dəyərli işlər görəcəkdir. Mən ümidvaram ki, siz bu işlərin öhdəsindən gələcəksiniz.

Sizin hamınızı Azərbaycana dəvət edirəm. Fransa-Azərbaycan Ticarət-Sənaye Palatasına uzun ömür və uğurlu fəaliyyət arzulayıram. Sağ olun. [285-286]

## FRANSA MİLLİ MƏCLİSİNDƏ AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Paris*

*14 yanvar 1997-ci il*

Bugünkü dostluq görüşünə görə sizə təşəkkür etmək istəyirəm. Mən artıq ikinci dəfədir ki, burada, parlamentdə bu dostluq şəraitindəyəm, Fransa-Azərbaycan dostluğu qrupu ilə birlikdəyəm. Çox xoş haldır ki, bizim Fransa parlamentində belə mətin, sarsılmaz, etibarlı dostlarımız var. Güman edirəm ki, bu gün biz bir çox məsələlərdən açıq, ürəyimizcə, səmimi və düz danışdıq. Mən bəzi sözləri çox açıq-aşkar dedim. Elə görünə bilər ki, bu sözlər kiməsə toxunar. Lakin bütün bunlar ona görədir ki, biz burada özümüzə qarşı dostluq münasibətləri hiss edirik.

Qarşılıqlı münasibətlərdə səmimilik hiss etdikdə heç nəyi gizlətmirsən və hər şeyi açıqca bildirirsən. Buna görə də bizi burada, Fransada narahat edən məsələlərdən açıq danışdıq. Təbiidir ki, bu, erməni lobbisinin, erməni diasporunun fəaliyyətinə aiddir. Bununla yanaşı, mən hiss edirəm, siz ürəkdən istəyirsiniz ki, Ermənistan – Azərbaycan münaqişəsi mümkün qədər tez bir vaxtda aradan qaldırılsın. Buna görə sağ olun.

Sağ olun ki, siz vəziyyəti obyektiv qiymətləndirirsiniz. Bax, bu obyektivlik, ədalətlilik bizim üçün müstəsna əhəmiyyətə malik bir amildir. Biz Fransa ilə yaxşı dostluğa malik olmaq, Fransa-Azərbaycan münasibətlərini bütün istiqamətlərdə inkişaf etdirmək istəyirik. Təkcə neft sənayesində deyil, başqa sahələrdə də əməkdaşlığımızın böyük perspektivləri açılır. Azərbaycanda artıq bir çox Fransa şirkətləri işləyirlər və bütün bunlar dostluğumuzu möhkəmlətmək və inkişaf etdirmək üçün yaxşı vasitədir. Əminəm ki, Azərbaycanın simasında Fransa etibarlı, səmimi və şərəfli dosta malik olacaqdır. Bu [286-287] baxımdan parlament, xüsusən onun nüfuzlu üzvləri – bu stol arxasında əyləşmiş dostlarımız çox iş görə bilərlər.

Mən sizinlə söhbət edir, sizə baxıram və düşünürəm ki, sizin bir çoxunuz Fransa tarixinin bir hissəsidir, De Qoll, Pompidu və başqa prezidentlərin hökumətində nazirlər olmusunuz, bu gün isə parlamentdə işləyirsiniz. Necə böyük səadətdir! Şəxsən mən ümumiyyətlə tarixə, eləcə də öz xalqımın, başqa xalqların tarixinə böyük hörmətlə yanaşıram. Artıq tarixə çevrilən nə varsa, hamısının qədir-qiymətini bilmək və hamısını obyektiv qiymətləndirmək lazımdır. Fransa Respublikası zəngin tarixə malikdir və biz Fransa inqilabının tarixindən çox şey görüb-götürürük. Buna görə də sizinlə dostluq etmək istəyirik.

Bu səmimi qəbula görə sizə təşəkkür edirəm. Sizə cansağlığı və firavanlıq arzulamaq istəyirəm. Azərbaycana tez-tez gəlin və parlament üzvlərini bizə göndərin. Sizin sağlığınıza! Fransanın şərəfinə, Fransa Respublikasının şərəfinə! Fransa-Azərbaycan dostluğu şərəfinə! [287-288]

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETTİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*Paris*

*14 yanvar 1997-ci il*

Cənab nazir Erve De Şarett, xanım De Şarett!

Cənab nazirlər, senatorlar, Fransa parlamentinin üzvləri, hörmətli xanımlar və cənablar!

Fransa Respublikasına mənim rəsmi səfərimin ikinci günü başa çatır. Mən buraya Fransa prezidenti cənab Jak Şirakın dəvəti ilə gəlmişəm. İki gün ərzində biz burada böyük və səmərəni iş görə bilmişik. İndicə bizim hökumətlərimiz arasında sənədlər imzalandı, bunlar Fransa ilə Azərbaycan arasında münasibətlərin daha da inkişafı üçün əsas olacaqdır.

Mən və məni müşayiət edən şəxslər Parisə gəldiyimiz andan səmimi qonaqpərvərliklə, xoş münasibətlə qarşılaşmışıq və biz özümüzü burada, Parisdə, Fransada çox yaxşı hiss edirik.

Fransa qədim tarixi, zəngin ənənələri olan böyük ölkədir. O, dünya sivilizasiyasına çox böyük töhfələr veribdir. Fransa, fransız xalqı, Fransa mədəniyyəti hər yerdə, dünyanın bütün ölkələrində həmişə özünə diqqəti cəlb edibdir. Azərbaycan xalqı da Fransaya, fransız xalqına dərin hörmət bəsləyir.

Fransanın tarixi və fransız xalqının dünya mədəniyyətinə verdiyi böyük töhfələr, bütün dünyada olduğu kimi, Azərbaycanda da yaxşı məlumdur. Biz demokratiya prinsiplərinin formalaşmasına və təşəkkülünə fransız xalqının verdiyi töhfələri yüksək qiymətləndiririk. Yeni Fransanın başlanğıcını qoyan Fransa inqilabı təkcə Fransa, fransız xalqı üçün deyil, həm də bütün bəşəriyyət üçün tarixi hadisədir. Fransanın görkəmli xadimləri Didronun, Monteskyenin, Jan Jak Russonun işləyib hazırladıqları demokratiya prinsipləri dövləti, ölkəni idarə etməyin demokratik prinsiplərinin hazırlanması və bərqərar olması üçün əsas olubdur. [288-289]

Gənc müstəqil dövlət olan, demokratik inkişaf yolu tutan Azərbaycan Fransa demokratiyasının təcrübəsindən və görkəmli fransızların işləyib hazırladıqları, fransızların bir çox nəsilləri tərəfindən həyata keçirilmiş zəngin irsin hamısından geniş istifadə edir.

Fransa gözəl ölkədir. Fransa dünya mədəniyyətinin beşiyidir. Fransa Yer kürəsinin bütün insanlarını özünə cəlb edən ölkədir. Fransızlar həmişə özlərinin müdrikliyi, dühası, zəkası ilə şöhrət tapmışlar və fransızların bir çox nəsilləri bəşər sivilizasiyasını zənginləşdirmişdir. Ona görə də Fransaya gəlmək, gözəl Paris şəhərində olmaq hər bir kəs üçün, o cümlədən də bizim üçün böyük hadisədir.

Bu iki gün ərzində burada qarşılaşdığımız qonaqpərvərlik, səmimilik şəraitinə görə sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Dəvət üçün, dünən keçirdiyimiz gözəl görüş üçün, səmərəli söhbət üçün və Azərbaycan haqqında, Fransa-Azərbaycan münasibətləri haqqında dediyi gözəl fikirlər üçün Fransa prezidenti cənab Jak Şiraka təşəkkürümü bildirmək istəyirəm.

Prezident Jak Şirak zəmanəmizin görkəmli siyasi və dövlət xadimidir. Onun qızğın fəaliyyəti, həyat yolu və Fransa Respublikasının möhkəmlənməsinə verdiyi çox böyük töhfələr bizə yaxşı məlumdur. Prezident Jak Şirak dünyada sülhün, dünyanın bir çox regionlarında sabitliyin möhkəmlənməsinə böyük töhfələr vermiş, bununla da Yer kürəsinin bir çox ölkələrində dərin hörmət qazanmışdır. Prezident cənab Jak Şirak ilə görüş mənim üçün və məni müşayiət edənlər üçün böyük hadisə idi. Hesab edirəm ki, bizim aramızda dostluq münasibətləri yaranıbdır. Mən bunu yüksək qiymətləndirirəm və bu münasibətlərin daha da inkişaf etməsi üçün hər şeyi edəcəyəm.

Cənab Erve De Şarett, son vaxtlar Fransa-Azərbaycan münasibətlərinin genişləndirilməsi və dərinləşdirilməsi üçün gördüyünüz böyük iş üçün sizə təşəkkür edirəm. Fransanın xarici işlər naziri vəzifəsində siz Fransa ilə Azərbaycan arasında münasibətlərin belə yüksək səviyyəyə qaldırılması üçün qısa müddətdə çox iş görmüsünüz. Cənab Erve De Şarett, keçən ilin oktyabrında Sizin Azərbaycana gəlişiniz bizim münasibətlərimizdə yeni mərhələ oldu və mən şadam və minnətdaram ki, sizinlə görüşümüz, münasibətlərimizin bir çox problemləri, regionumuzla bağlı problemlər barəsində açıq söhbətimiz [289-290] əməkdaşlığımızı uğurla davam etdirə bilməyimiz üçün əsas oldu.

Mərhum Fransua Mitteranın dəvəti ilə mənim Fransaya ilk səfərimdən üç il keçmişdir. O zaman biz Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş və bəzi başqa sənədlər imzaladıq. Fransa ilə Azərbaycan arasında münasibətləri inkişaf etdirmək və dərinləşdirmək üçün ötən üç ildə müəyyən iş görülmüşdür. Lakin indiki görüş, xüsusən prezident cənab Jak Şirak ilə görüş, xarici işlər naziri cənab Erve De Şarett ilə danışıqlar və görüşlər, Senatın sədri, Milli Məclisin sədri ilə, Fransanın digər dövlət xadimləri ilə mənim görüşlərim Fransa-Azərbaycan münasibətlərinin yeni mərhələsinin başlanğıcıdır.

Mən şadam ki, Fransa Azərbaycanı əməkdaşlıq üzrə tərəfdaş kimi qəbul edir və sizi əmin etmək istəyirəm ki, biz layiqli tərəfdaş olacağıq. Biz bütün sahələrdə – iqtisadi, mədəni, siyasi, humanitar sahələrdə Fransa ilə Azərbaycan arasında əməkdaşlığı genişləndirmək və dərinləşdirmək mövqeyində dayanırıq. Biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq və dövlət quruculuğu təcrübəsinə, demokratiya təcrübəsinə, bazar iqtisadiyyatı, azad sahibkarlıq yaratmaq təcrübəsinə ehtiyacımız var. Bu məqsədlə biz Fransanın zəngin təcrübəsindən istifadə edirik və edəcəyik. Məhz bu, bizi Fransa ilə sıx əməkdaşlığa sövq edir.

Fransa ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq üçün böyük .imkanlar var. Biz bu istiqamətdə bəzi addımlar atmışıq. Azərbaycanın neft yataqlarının birgə işlənməsi haqqında Fransanın "Elf Akiten" və "Total" şirkətləri ilə Azərbaycan milli neft şirkəti arasında dünən Yelisey sarayında prezident cənab Jak Şirakın iştirakı ilə imzalanmış müqavilə iqtisadi əməkdaşlığımızın mühüm səhifəsidir. Siz yəqin bilirsiniz ki, Fransanın "Elf Akiten" şirkəti hələ keçən ilin iyununda digər fövqəlmilli şirkətlərlə birlikdə iri neft müqaviləsinin iştirakçısı olmuşdur. Həmin şirkətlər konsorsium yaratmış və Azərbaycanın iri neft-qaz yatağının işlənməsinə başlamışlar. Əməkdaşlığa dair bir çox başqa layihələr də var, cənab Erve De Şarett bunların haqqında danışdı. Mən bəyan edirəm ki, bu layihələrin reallığa çevrilməsi üçün biz bütün tədbirləri görəcəyik.

Gənc müstəqil dövlət kimi Azərbaycan, təəssüf ki, daxili və xarici xarakterli bir çox çətinliklərlə qarşılaşıbdır. Biz daxili çətinlikləri öz imkanlarımızla aradan qaldırırıq və mən əmi[290-291]nəm ki, bunları aradan qaldıracağıq. Bu baxımdan biz iqtisadi islahatların həyata keçirilməsinə, dövlət mülkiyyətinin özəlləşdirilməsinə, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün xarici sərmayələrin cəlb edilməsinə böyük əhəmiyyət veririk. Biz ölkəmizi bütün dünya üçün açmışıq. Mən bu gün burada bir daha bəyan edirəm ki, Azərbaycanda birgə fəaliyyət göstərmək, birgə bizneslə məşğul olmaq istəyənlərin hamısı sərbəst surətdə ölkəmizə gələ bilər və sərbəst əməkdaşlıq üçün əlverişli şəraitə malik ola bilər.

O ki qaldı xarici çətinliklərə, burada Azərbaycan ərazisinin bir hissəsini – Dağlıq Qarabağı qoparmaq məqsədi ilə hələ 8 il bundan əvvəl Ermənistan tərəfindən başlanmış hərbi təcavüzdən söhbət gedir. Bu təcavüz qanlı münaqişəyə, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalına, həmin ərazilərdən Azərbaycanın bir milyondan çox sakininin zorla qovulmasına səbəb olmuşdur. Bu insanlar dörd ildən çoxdur ki, çadır şəhərciklərində yaşayırlar.

1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə olundu. Bu atəşkəs iki il səkkiz aydır ki, davam edir. Biz bundan sonra da tədbirlər görəcəyik ki, Böyük Sülh Sazişi bağlanana qədər atəşkəs davam etsin. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması mövqeyində qəti dayanırıq və məsələnin bu cür həllinə nail olmaq üçün öz tərəfimizdən hər şeyi edəcəyik.

Bunun üçün üç şərt keçən il dekabrın əvvəlində Lissabon sammitində ATƏT sədrinin bəyanatında öz ifadəsini tapmış prinsiplərdir: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək dərəcədə özünüidarəetmə hüququ verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi. Biz bu prinsiplərlə razılaşmışıq və Ermənistan-Azərbaycan münaqişəsi sülh yolu ilə tam aradan qaldırılana qədər həmin prinsiplər əsasında danışıqlar aparmağa hazırıq.

Lakin Ermənistan bu prinsiplərlə razılaşmır. Ona görə də ATƏT-in üzvü olan bütün ölkələrin, Minsk qrupunun üzvü olan bütün ölkələrin köməyi və dəstəyi lazımdır. Şübhəsiz, biz Minsk qrupunun üzvü olan Fransanın da köməyinə və dəstəyinə ümid bəsləyirik, bu imkandan istifadə edərək bəyan etmək istəyirəm ki, biz müharibə istəmirik, biz sülh istəyirik. Biz Ermənistanla Azərbaycan arasında sülh olmasını, Qafqazda, bü[291-292]tün dünyada sülh olmasını istəyirik və inanırıq ki, bütün sülhsevər ölkələr və xalqlar bu məsələdə bizi müdafiə edəcəklər. İnanırıq ki, Fransa bizim bütün bu təkliflərimizi dəstəkləyəcəkdir.

Fransaya səfərim sabah başa çatır, mən Vətənə qayıdıram. Bu gün isə demək istəyirəm ki, mən Parisdə, Fransada olmağımdan, prezident cənab Jak Şirak ilə və Fransanın digər dövlət xadimləri ilə belə səmərəli görüşlər keçirməyimdən və söhbətlər aparmağımdan duyduğum dərin məmnuniyyət hissi ilə Vətənə qayıdıram. Azərbaycan Fransanın dostu olmaq istəyir. Siz bizə əmin ola bilərsiniz. Biz dostluqda etibarlı olacağıq. Fransa-Azərbaycan münasibətlərinin, bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etməsi üçün mövcud olan böyük imkanlardan tamamilə istifadə edəcəyik.

Fransaya səadət və tərəqqi arzulayıram, bütün fransızlara sülh və xoş həyat arzulayıram! Böyük Fransanın şərəfinə, Fransa Respublikasının şərəfinə, Fransa demokratiyasının şərəfinə, Fransa mədəniyyətinin şərəfinə, fransızların şərəfinə badə qaldırmağı təklif edirəm! Fransa prezidenti, mənim dostum cənab Jak Şirakın şərəfinə! Fransanın xarici işlər naziri cənab Erve De Şarettin, xanım De Şarettin şərəfinə! Hörmətli dostlar, sizin sağlığınıza! Sağ olun! [292-293]

## "YEVRONYUS" BEYNƏLXALQ TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*15 yanvar 1997-ci il*

**Sual: Siz 1944-cü ildə, 23 yaşınızda Sovet İttifaqı Kommunist Partiyasının üzvü, 70-ci illərdə Azərbaycanın rəhbəri olmusunuz. Sonra Brejnev Sizi Moskvaya çağırmış, Siz Siyasi Büroya üzv seçilmiş ilk azərbaycanlı olmusunuz. Deyirlər ki, Siz Leonid İliç ilə dost idiniz. Onu necə xatırlayırsınız?**

**Cavab:** Sizin informasiyanızda bəzi dəqiqsizliklər var. Əvvəla, mən 1943-cü ildə Kommunist Partiyasının üzvü olmuşam, ikincisi, mən Moskvaya Leonid Brejnevin ölümündən sonra, 1982-ci ilin dekabrında dəvət edilmiş, Sov. İKP MK-nın üzvü və Sovetlər İttifaqı hökuməti sədrinin birinci müavini olmuşam. Leonid Brejnev barədə sualınıza gəldikdə isə biz onunla uzun müddət birlikdə işləmişik. Mən 1969-cu ildə Azərbaycanın rəhbəri seçildim və təxminən 14 il, Moskvaya gedənədək həmin vəzifədə işlədim. Bütün bu illər ərzində Leonid Brejnevin rəhbərliyi altında işləmişəm. Bizim yaxşı, mehriban münasibətlərimiz var idi, biz işləyir və Sovetlər İttifaqı şəraitində zəruri bildiyimiz, Kommunist Partiyası rəhbərliyinin zəruri bildiyi hər şeyi yerinə yetirirdik.

**Sual: Cənab prezident, Sizin Andropov ilə münasibətlərinizin yaxşı olması doğrudurmu?**

**Cavab:** Bəli, belədir. Mənim onunla yaxşı münasibətlərim var idi. Yeri gəlmişkən, deyim ki, mən məhz onun təşəbbüsü ilə Moskvaya dəvət olunmuş, Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilmiş və Sovet hökuməti sədrinin birinci müavini təyin edilmişdim.

**Sual: 1985-ci ildən, Qorbaçov Kremlə gəldikdən sonra Sizin siyasi karyeranız ləngidi. Doğrudurmu ki, Siz Mixail Sergeyeviçi çox da xoşlamırdınız?**

**Cavab:** Bu, o qədər doğru deyil, mən Mixail Sergeyeviç Oorbaçov ilə hələ 1970-ci ildən tanış idim və onunla yaxşı mü[293-294]nasibətlərim var idi. Həmin dövrdə o, Stavropolda işləyirdi, mən isə Azərbaycanda. 1978-ci ildə Mixail Qorbaçov Moskvaya işə keçəndə mənim onunla yaxın münasibətlərim var idi və yaxşı əməkdaşlıq edirdik. 1982-ci ildə Andropovun təklifi ilə mən Moskvaya dəvət olunanda da bizim, Siyasi Büronun üzvləri kimi, mövqeyimiz eyni idi və münasibətlərimiz normal idi, hər halda mən belə hesab edirdim. Bəlkə də o, mənə qarşı münasibətində səmimi, vicdanlı olmayıb, lakin mən ona yaxşı münasibət bəsləyirdim. 1985-ci ildə Çernenkonun vəfatından sonra kimin Sov. İKP MK baş katibi olması məsələsi qalxanda mən birmənalı şəkildə Qorbaçovun namizədliyinə tərəfdar çıxdım. MK-nın baş katibi vəzifəsində möhkəmləndikdən bir müddət sonra Qorbaçov çoxlu səhvlərə yol verməyə başladı. Mən onun səhvlərini deyirdim. Bununla əlaqədar bizim münasibətlərimiz soyudu, nəticədə mən onun bəzi hərəkətləri ilə razılaşmayaraq 1987-ci ildə MK Siyasi Bürosunun üzvü və hökumət sədrinin birinci müavini vəzifəsindən istefa verdim.

**Sual: Cənab prezident, 1989-cu il noyabrın 9-da, bütün dünya Berlin divarının dağılmasına televiziya ilə baxan axşamı Siz harada idiniz və nə barədə düşünürdünüz?**

**Cavab:** Həmin vaxt mən Moskvada idim, Sovetlər İttifaqının hakimiyyət orqanları tərəfindən təqib olunurdum, işləmirdim və vaxtımın çoxunu televizorun qarşısında keçirirdim. O zaman hesab edirdim ki, dünyada böyük dəyişikliklər baş verir və bunu alqışlayırdım.

**Sual: 1994-cü ilin dekabrında Rusiya tankları Çeçenistana yeridildi. Bu Sizi daha çox sevindirdi, yoxsa narahat etdi?**

**Cavab:** Çeçenistanda vəziyyət ümumiyyətlə ziddiyyətli xarakter daşıyır. Çeçenistan Rusiya tərkibində müstəqillik iddiasındadır. Amma təbii ki, Rusiya Çeçenistana müstəqillik statusu verə bilməz, buna görə də hərbi əməliyyatlara əl atmışdır. Lakin Rusiya rəhbərliyi Çeçenistanla qarşılıqlı münasibətlərdə 1994-cü ilin dekabrında da bir sıra səhvlərə yol verərək, oraya tanklar göndərdi. Qayda-qanun yarada bilmədi, bu da, zənnimcə, Rusiyanın məğlubiyyəti idi. Mən separatizmin əleyhinəyəm. Bu fikirdəyəm ki, hər bir dövlətin ərazi bütövlüyünə hörmət və onu müdafiə etmək lazımdır. Buna görə də hesab edirəm ki, çeçenlər başa düşməlidirlər ki, onlar Rusiya[294-295]nın tərkibində yaşamalı, Rusiyanın tərkibində müvafiq özünü idarə statusuna malik olmalı və döyüşməməlidirlər.

1990-cı ildə sovet rəhbərliyi daha ağır səhvə yol vermişdir. Bəlkə də siz bu barədə az bilirsiniz. O vaxt, 1990-cı ilin yanvarında Mixail Qorbaçovun sərəncamı ilə sovet qoşunlarının böyük bir kontingenti Azərbaycana yeridildi, Bakının küçələri ilə şütüyən tanklar heç bir günah sahibi olmayan adamları basıb xırçım-xırçım etdi. O yanvar gecəsi çoxlu adam həlak oldu. Yeri gəlmişkən, bu Bakı faciəsinin bir neçə gündən sonra yeddi ili tamam olacaqdır. Bax, onda Bakıya iri qoşun kontingenti yeritməyə və dinc, müdafiəsiz əhalini məhv etmək üçün tankları Bakının küçələrinə buraxmağa heç bir əsas yox idi. Bu, təcavüz idi və mən o vaxt Moskvada olarkən bu təcavüzün əleyhinə çıxdım. Bununla əlaqədar daha böyük təqiblərə məruz qaldım.

**Sual: Siz 1993-cü ildən öz ölkənizin, 60-cı illərdəki kimi, yenidən tam sahibi oldunuz. Deyəsən, Azərbaycan xalqı Sizi çox sevir. Ötən il o Sizin partiyanıza, hakimiyyətinizi daha da möhkəmləndirən yeni konstitusiyaya elliklə səs verdi. Amma buradan baxanda adama elə gəlir ki, ölkənizdə indiki siyasət 60-cı illərdə, Siz Bakıda DTK-ya başçılıq etdiyiniz illərdə yeridilmiş siyasətə kifayət qədər oxşayır. Bu bizə elə gəlir, yoxsa həqiqətən belədir?**

**Cavab:** Yox, sizə elə gəlir və yəqin ki, təəssüratınız yalan informasiyaya əsaslanır. İndi Azərbaycanda vəziyyət 1969-cu ildəki, mən Azərbaycan Kommunist Partiyasının rəhbəri sevildiyim ildəki vəziyyətlə müqayisədə bambaşqadır. 1993-cü ildə məni Azərbaycana xalq dəvət etdi. Mən qovulmuşdum, Naxçıvanda idim. Bu, blokadada olan kiçik bir respublikadır. Üç il orada çox ağır şəraitdə yaşadım. 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandıqda, hakimiyyət böhranı yarandıqda, Azərbaycanı idarə etmiş adamların hərəsi bir yana qaçdıqda və camaat bir-birini öldürdükdə millətimizin ən yaxşı nümayəndələri məni Bakıya dəvət etdilər. Mən oraya getmək istəmirdim, bu yüksək məsuliyyəti bir daha öz üzərimə götürmək istəmirdim. Amma hiss etdikdə ki, ölkəm, xalqım ağır, fəlakətli vəziyyətdədir, dəvəti qəbul edib Bakıya gəldim və Azərbaycan parlamentinə başçılıq etdim. Bir neçə ay respublikaya rəhbərlikdə tək qaldım. Çünki prezident qaçmışdı, baş nazir istefa vermişdi və buna görə də par[295-296]lamentin sədri həm prezidentin, həm baş nazirin, həm də parlament sədrinin vəzifələrini təkbaşına icra edirdi. Mən vəziyyətin gərginliyini zəiflədərək, vətəndaş müharibəsinin qarşısını almağa və çox çətin şəraitdə Azərbaycanda yavaş-yavaş qayda-qanun yaratmağa, qanunçuluğu təmin etməyə müvəffəq oldum. Məhz 1993-cü ildən əvvəlki son illər Azərbaycanda qanunsuzluqla, cinayətkarlığın tüğyan etməsi, müxtəlif cinayətkar qrupların, silahlı quldur dəstələrinin əməlləri ilə səciyyələnirdi. Bunların hamısını aradan götürmək lazım idi. Ona görə də bu tədbirləri gördüm. 1994-cü ilin oktyabrında Azərbaycanda hakimiyyəti və təbii olaraq məni silahlı yolla devirməyə yeni cəhd göstərildikdə mən heç nə etmədim, sadəcə olaraq televiziya ilə xalqa üz tutub yaranmış vəziyyəti ona izah etdim və gecədən keçmiş iki saat ərzində yarım milyon adam Prezident sarayının qarşısına toplaşdı. Onlar bütün günü orada dayandılar və hakimiyyəti müdafiə etdilər. Bu ağır vəziyyəti, bax, bu yolla aradan qaldırmaq mümkün oldu.

İndi Azərbaycanda demokratik, hüquqi dövlət qurulur. Biz ümumxalq səsverməsi yolu ilə konstitusiya qəbul etmişik, çoxpartiyalılıq əsasında parlament seçmişik. Parlamentdə müxalifət partiyaları var, onlar çıxış etmək hüququna malikdirlər. Azərbaycanda 300-dək qəzet çıxır, özü də böyük əksəriyyəti müxalifət qəzetləridir, nə istəyirlərsə onu da yazırlar, yəni biz mətbuat azadlığı, şəxsiyyət azadlığı və siyasi plüralizm üçün şərait yaratmışıq. Bunların hamısı Azərbaycanda bərqərar edilməli olan demokratiyadır. Belə bir şəraitdə, görünür, kimsə Qərbə yalan informasiyalar yayır və ona görə də sizdə belə təsəvvür yaranır ki, Azərbaycanda bugünkü vəziyyət, ola bilsin, 1969-cu ildəki vəziyyətə bənzəyir. Bu, heç də belə deyildir.

**Sual: Siz indicə mətbuat azadlığından danışdınız. Lakin məsələn, "Reportyorlara sərhəd yoxdur" təşkilatı kimi təşkilatlar var və onların nümayəndələri iddia edirlər ki, 1996-cı ildə müxalifət qəzetlərinin 90 nömrəsindən çoxu senzuraya məruz qalmışdır. Jurnalistləri Müdafiə Komitəsinin fikrincə, Azərbaycan parlamentinin sədri deputatların fəaliyyətini tənqid edən müxbirləri akkreditədən məhrum edir. Mümkündürsə, azad mətbuatı necə təsəvvür etdiyinizi deyin.**

**Cavab:** Bəlkə də hansısa hallar olubdur. Lakin yenə də hesab edirəm ki, sizdə olan məlumat həqiqətə tam uyğun [296-297] deyildir. Azərbaycanda mətbuat azaddır, heç bir senzura yoxdur. Dövlət sirrini açan hansısa materiallar hazırlandıqda isə, şübhəsiz ki, bunların dərc edilməsinə yol vermək olmaz. O ki qaldı parlament sədrinin nəsə etməsinə, bu mənə məlum deyildir.

**Sual: Cənab prezident, Sizin ölkənizi Qafqazın Küveyti adlandırırlar. Beynəlxalq Valyuta Fondu bildirir ki, bu əsrin sonunadək Azərbaycanda neft hasilatı iki dəfə, gələn əsrin əvvəlində isə 4 dəfə artacaqdır. Sizcə, Sovet İttifaqı bu potensialdan nə üçün bütünlüklə istifadə etməmişdir?**

**Cavab:** Sovetlər İttifaqı bundan ona görə bütünlüklə istifadə etməmişdir ki, o zaman onun digər, həm də az xərclə daha çox neft verən yataqları var idi. Məsələn, 80-ci illərdə mən Moskvada işləyəndə Sovetlər İttifaqında ildə 620-630 milyon ton neft çıxarılırdı. Bu neftin çox hissəsi Sibirdə hasil edilirdi. Sibir neftinin çıxarılmasına, deyək ki, Xəzər dənizində, Azərbaycanda çıxarılan neftdən daha az investisiya lazım idi. Buna görə də o zaman Sovetlər İttifaqı öz ehtiyaclarını Sibirdə çıxarılan neft ilə ödəyir və Azərbaycana, Xəzər dənizinə az diqqət yetirirdi. İndi isə, biz ayrıldıqdan sonra, Rusiya öz neftini Sibirdə çıxarır. Yeri gəlmişkən, orada hələ də böyük ehtiyatlar olmasına baxmayaraq, hasilatın həcmi azalmışdır. Biz isə nefti özümüzdə, çıxarırıq. Məsələnin mahiyyəti də bundan ibarətdir.

**Sual: İqtisadçılar Sizin ölkənizdə yaxın gələcəkdə istehsalın rekord səviyyədə, ildə 5 faiz, sonra isə 7 və 9 faiz artacağını söyləyirlər. Qəfil pul axınının təkcə zənginlik deyil, həm də problemlər gətirəcəyindən, cinayətkarlığı artıracağından, yeni gərginlik yaradacağından qorxmursunuzmu?**

**Cavab:** Gəlin, əvvəlcə pul əldə edək, sonra da bununla əlaqədar yarana biləcək mənfi hallarla necə mübarizə aparmaq barədə düşünək.

**Sual: Sizcə, çeçen münaqişəsinin baş verməsində neft nə kimi rol oynamışdır?**

**Cavab:** Ola bilsin, neft həlledici rol oynamamışdır.

**Sual: Xəzər dənizi ətrafında, xüsusən Xəzər nefti ətrafında bu gün çox mühüm strateji oyun gedir. Rusiya üçün Xəzər dənizi daxili göldür və onun sərvətlərini bölüşdürmək lazımdır. Belə başa düşürük** [297-298] **ki, Siz Xəzəri onun sahilboyu ölkələri arasında beş sektora ayırmağı məqsədəuyğun hesab edirsiniz. Deyəsən, Amerika Sizin tərəfinizdədir. Lakin Rusiya, Qazaxıstan, İran da var. Diplomatik tarazlığı necə tapmaq olar?**

**Cavab:** Yeri gəlmişkən, indiki halda Qazaxıstanla Azərbaycan bir mövqe tutur, Rusiya ilə İran isə başqa mövqe, Türkmənistan Rusiya ilə İranın mövqeyinə qoşulur. Tamamilə qanunauyğun haldır ki, hər ölkənin öz mövqeyi var. Biz hesab edirik ki, bizim mövqe daha düzgündür, çünki Xəzər dənizinin mineral ehtiyatlarından istifadə üçün onun sektorlara bölünməsi artıq çoxdan yaranmış praktikadır və biz bu praktikadan istifadə edirik. Xəzər dənizinin statusu əvvəllər heç vaxt qaldırılmayıb. Əvvəllər heç kəs düşünmürdü ki, Xəzər necə adlansın – dəniz, göl, yoxsa daxili sututar. Kaspi özü üçün qalmada idi. İndi isə, biz onun mineral ehtiyatlarından istifadə etməyə, müqavilələr imzalamağa başladıqda ona böyük maraq yaranmışdır və hərə öz xəttini yeritmək istəyir. Hesab edirik ki, bizim mövqeyimiz daha düzgündür.

**Sual: Düz bir il bundan əvvəl Siz Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdünüz. Minsk qrupu çərçivəsində danışıqlar aparılacağına ümid var idi. Son bir ildə Dağlıq Qarabağın hərbi, siyasi vəziyyətində nə dəyişmişdir?**

**Cavab:** Əslində heç nə dəyişməyibdir. 1996-cı il ərzində biz ATƏT-in Minsk qrupu çərçivəsində də danışıqlar apardıq, Ermənistan prezidentinin və Azərbaycan prezidentinin xüsusi nümayəndələri vasitəsilə də birbaşa danışıqlar apardıq. Amma təəssüflər olsun ki, Ermənistanın pozucu mövqeyi danışıqlar prosesində irəliləməyə imkan vermir. Məsələ burasındadır ki, Ermənistan Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır və bununla da onu Ermənistana ilhaq etməyə can atır. Biz bununla heç vaxt razılaşmayacağıq. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan ərazisinin bir hissəsidir. Biz vəziyyətdən çıxış kimi Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarə statusu verməyi təklif etdik, amma bir şərtlə ki, Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş Azərbaycan əraziləri tamamilə azad edilməlidir. Siz yəqin bilirsiniz ki, bu münaqişə nəticəsində onlar müxtəlif səbəblər üzündən Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər, oradan respublikamızın bir milyondan [298-299] artıq sakini qovulmuşdur və onlar ölkəmizin müxtəlif bölgələrində çox ağır şəraitdə, çadır şəhərciklərində yaşayırlar. Biz Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş bütün torpaqlardan onların çıxarılmasını, adamların öz yaşayış yerlərinə qayıtmasını tələb edirik və həm də Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsini, Ermənistanla Azərbaycan arasında sülh yaranmasını və dövlətlərimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsini mümkün hesab edirik.

Biz düzgün mövqedə dayanmışıq, güzəştlərə gedirik, bu məsələyə konstruktiv surətdə yanaşırıq. Ermənistan isə öz hərbi üstünlüyündən, Azərbaycan ərazisinin 20 faizinin işğal altında olmasından istifadə edərək Azərbaycana təzyiq göstərir və hüquqa zidd əməllərindən əl çəkmir. Onların iddiaları beynəlxalq hüquq normalarına, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərinə tamamilə ziddir. Bax, buna görə də həmin problem 1996-cı il ərzində həll edilməmişdir.

**Sual: Cənab prezident, qəzetlər yazır ki, Siz neft diplomatiyasının, yəni neft sərvətlərindən xarici siyasətin xeyrinə istifadə etməyin ustasısınız. Doğrudanmı belə hesab edirsiniz ki, neftin sayəsində beynəlxalq yardım ala biləcəksiniz?**

**Cavab:** Azərbaycan gənc müstəqil dövlətdir, öz mövqeyini möhkəmləndirmək, müstəqilliyini qoruyub saxlamaq və Dünya Birliyinin tamhüquqlu üzvü olmaq istəyir. Ona görə də Dünya Birliyində möhkəmlənmək üçün, dünya ölkələrinin, o cümlədən Fransa kimi bir ölkənin, Avropanın digər dövlətlərinin Azərbaycanı təkcə diplomatik cəhətdən deyil, həm də qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün tərəfdaş kimi tanımalarından ötrü biz bütün imkanlarımızdan istifadə edirik. Buna görə də, biz təbii ehtiyatlarımızdan, iqtisadi potensialımızdan istifadə edirik. Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatının bərqərar edilməsinə, Azərbaycanın bütün dünyaya açılmasına, ölkəmizə xarici sərmayələrin gəlməsinin həvəsləndirilməsinə yönəldilibdir. Əslində elə bundan ötrü də biz xarici şirkətlərə Azərbaycanın təbii ehtiyatlarından istifadə sahəsində birgə iş aparmaq üçün imkan yaradırıq. Burada bir tərəfdən birbaşa kommersiya məqsədi var, digər tərəfdən isə hər hansı iqtisadiyyat siyasətin əsasıdır. Biz də belə siyasət yeridirik. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bundan necə [299-300] istifadə etməyin mümkünlüyünə gəldikdə isə, biz bunun üçün hər bir vasitədən istifadə etməyə çalışırıq. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik, hərbi əməliyyatların, müharibənin yenidən başlanmasını istəmirik, sülh istəyirik. Ona görə də əgər Dağlıq Qarabağ münaqişəsinin, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında həmin imkanlar da bizə kömək edəcəksə, bu, yaxşıdır.

**Sual: Cənab prezident, Sizin ölkəniz Avropa Şurasının üzvü olmaq niyyətindədir. Sizcə, Avropanın Şərq sərhədləri haradan keçir?**

**Cavab:** Bizim regionda Avropanın Şərq sərhədləri məhz Azərbaycanın sərhədindən keçir. Biz Avropa kontinentinin ən ucqarındayıq.

**Sual: Cənab prezident, şübhəsiz ki, biz hamımız Boris Nikolayeviç Yeltsinə tezliklə sağalmağı arzulayırıq. Lakin digər tərəfdən özümüzə sual veririk, həmin sualı Sizə də vermək istəyirik: İndi Kremldə hakimiyyət kimlərin əlindədir?**

**Cavab:** Kremldə hakimiyyət Boris Yeltsinin əlindədir.

**Sual: Azərbaycan nə üçün MDB-nin strukturlarında tam iştirak etmək istəmir?**

**Cavab:** Ona görə ki, MDB-nin bəzi strukturları milli, dövlət müstəqilliyini, o cümlədən də Azərbaycanın milli və dövlət müstəqilliyini tapdalayır. Buna görə də biz həmin strukturlarda tam iştirak etmirik. Məsələn, burada mənə bildirdilər ki, guya Belarus Rusiya ilə yenidən birləşmək istəyir. Əlbəttə, bu, onların işidir və biz buna etiraz edə bilmərik. Lakin bu, Azərbaycan üçün məqbul deyildir.

**Sual: Cənab prezident, Siz NATO-nun Şərqə doğru genişləndirilməsi barədə nə fikirdəsiniz?**

**Cavab:** Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qayğılarım o qədər çoxdur ki, mən bu məsələnin mahiyyətinə o qədər də varmıram.

**Sual: Son illər Sizin ölkənizdə bir neçə dəfə qiyam cəhdi olmuşdur. Lakin insan hüquqlarının müdafiə təşkilatı bildirir ki, Azərbaycanın hakimiyyət orqanları bu cəhdlərdə iştirak edən adamlarla o qədər də yaxşı davranmırlar. Deyirlər ki, milis onları müntəzəm olaraq döymüş, onlara işgəncə verilmişdir, vəkil ilə görüşə icazə verilmir, həbsxanada qeyri-insani şəraitdə saxlanırlar. Bu, belədir, ya yox?** [300-301]

**Cavab:** Bu, həqiqətə uyğun deyildir. Yalandır, tamamilə yalandır. Əllərinə silah götürüb terror əməli törətməyə, qanuni dövləti devirməyə cəhd göstərən adamlar cəzalandırılmalıdır və onlar cəzalarını çəkirlər. İstintaq, məhkəmə prosesi gedir. Bizdə məhkəmə prosesləri açıq aparılır və məhkəmə müvafiq qərar qəbul edir. Yerdə qalanlarının isə hamısı yalandır. Belə yalan məlumatla onlar öz vəziyyətlərini müəyyən dərəcədə yüngülləşdirmək istəyirlər.

**Sual: Söhbətimizi bitirməzdən əvvəl, mümkündürsə, bir sirri açın: Rusiya qəzetləri yazır ki, Qəbələ rayon mərkəzinin yaxınlığındakı radiolokasiya stansiyası olmasa Yeltsinin nüvə çemodanı kor və kar olar. Deməli, şübhəsiz, Moskva bu stansiya üzərində öz nəzarətini saxlamağa çox maraq göstərir. Siz isə stansiyanı ona verməyə hazır deyilsiniz. Bu, o deməkdir ki, Rusiyanın təhlükəsizliyi Sizin əlinizdədir?**

**Cavab:** Qəbələ rayonundakı stansiya raket-nüvə zərbəsinin qarşısını almaq məqsədi ilə Yer kürəsinin böyük hissəsinə nəzarət edən iri radiolokasiya stansiyasıdır. Rusiyanın, ümumiyyətlə bütün kontinentin müdafiəsi üçün bu stansiyanın əhəmiyyəti çox böyükdür. Lakin ondan Rusiya istifadə edir, biz onu ələ keçirməmişik. Biz bu radiolokasiya stansiyasının statusunu müəyyən etməyə dair danışıqlar aparırıq. Rusiyanın həmin stansiyadan istifadə etməsinə maneçilik törətmirik.

**Sual: Cənab prezident, Sizin mandatınız 1998-ci ildə qurtarır. Prezident vəzifəsinə namizədliyinizi yenidən irəli sürməyi nəzərdə tutmusunuzmu və gələcək əsrdə ölkənizin başında kimi görürsünüz?**

**Cavab:** Birincisi, 1998-ci iləsək yaşayaq, ikincisi isə, əgər həmin vaxtadək yaşasaq, mən isə hesab edirəm ki, yaşayacağıq, onda növbəti seçkilərdə Azərbaycan prezidenti seçilmək üçün öz namizədliyimi irəli sürəcəyəm. XXI əsrdə Azərbaycanın başında kimi görməyimə gəldikdə isə bunu gələcək göstərəcəkdir. Ümidvaram ki, o vaxtadək insanlar yetişəcəklər. Siz Qərbdə bilməlisiniz ki, keçmişdə Sovetlər İttifaqına daxil olan ölkələrdə, o cümlədən də Rusiyada dövlətlərin başçıları siyasi fəaliyyət, dövlət fəaliyyəti, iqtisadi fəaliyyət təcrübəsi və həyat təcrübəsi olan insanlar olmalıdır. Bunsuz belə ölkələrdə dövləti idarə etmək mümkün deyildir.

**Müxbir:** Sizə təşəkkür edirik.

**Heydər Əliyev:** Sağ olun. [301-302]

## FRANSADA AKKREDİTƏ OLUNMUŞ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Paris, "Bukets" kafesi*

*15 yanvar 1997-ci il*

**Sual: Cənab prezident, Parisə səfərinizin ilk günlərindən və prezident Jak Şirak ilə görüşünüzdən sonra Sizdə bu cür təsəvvür yarandımı ki, Fransa indən belə Azərbaycana daha görüş miqyasda gələcəkdir? Sizcə, Minsk konfransına aid məsələlərdə Fransanın dəstəyinə ümid bəsləyə bilərsinizmi?**

**Cavab:** Hörmətli xanımlar və cənablar, öncə sizi salamlayıram. Sizin aranızda olmağımdan şadam. Mən jurnalistlərlə görüşlərə həmişə böyük əhəmiyyət vermişəm və verirəm, çünki onlar informasiya, təbliğat, hadisələrin izahı üçün çox iş görürlər. İstərdim ki, jurnalistlər öz missiyalarını həmişə obyektiv surətdə yerinə yetirsinlər. Mən sizin obyektivliyinizə və ədalətli olacağınıza ümid bəsləyirəm.

Bu gün mənim Fransaya rəsmi səfərimin üçüncü günüdür. Bir neçə saatdan sonra Parisi tərk edir, vətənimə qayıdıram. Deyə bilərəm ki, Parisə gəlmək imkanının yaranması məni olduqca sevindirir. Səfərimin necə keçməsindən, görüşlərdən, habelə Fransada, Parisdə olmağımdan razıyam. Mən buradan dərin məmnunluq hissi ilə gedirəm.

Görüşlərim və söhbətlərim çox olubdur. Lakin bunlarda əsas yeri Fransa prezidenti cənab Jak Şirak ilə olan görüş, danışıqlar və söhbətlər tutur. Biz onunla ilk növbədə ikitərəfli münasibətlərimizə aid olan çoxlu məsələlər müzakirə etdik. Yekdil fikrimiz belədir ki, bu münasibətlər daha uğurla inkişaf etməlidir, habelə Fransa Azərbaycana daha çox diqqət göstərəcək və ölkəmizə daha geniş miqyasda gəlməsi üçün tədbirlər görəcəkdir. Azərbaycan həmişə çalışmışdır ki, böyük siyasi sanbalı olan, Avropa və dünya siyasətində böyük rol oynayan Fransa kimi iri ölkə ilə mehriban, dostcasına, yaxşı münasibətlər saxlasın.

Biz belə bir rəyə gəldik ki, iqtisadi əməkdaşlığımızı geniş[302-303]ləndirmək üçün böyük imkanlar var. Srağagün Fransa və Azərbaycan prezidentlərinin iştirakı ilə Yelisey sarayında Azərbaycan milli neft şirkəti və Fransanın "Elf Akiten", Total" şirkətləri arasında iri neft müqaviləsinin imzalanması da bunu təsdiq etdi. Müqavilə 25 il üçün imzalanmışdır və Azərbaycanın iki iri neft yatağının işlənməsi və mənimsənilməsini nəzərdə tutur. Yəqin bilirsiniz ki, keçən ilin iyununda Bakıda Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının birgə işlənməsinə dair bəzi fövqəlmilli şirkətlərin, o cümlədən "Elf Akiten"in daxil olduğu konsorsium ilə böyük neft müqaviləsi imzalanıbdır.

Gördüyünüz kimi, Fransa iqtisadiyyatı Azərbaycana daxil olur. Biz buna sevinirik və Fransanın digər şirkətlərinin də ölkəmizdə əməkdaşlıq etmək imkanı almaları üçün hər şeyi edəcəyik. Yeri gəlmişkən, qeyd edim ki, bir neçə layihə var, onların barəsində prezident Jak Şirak da, mən də danışmışıq və həmin layihələrin reallaşdırılması üçün tədbirlər görəcəyik.

İndi isə Ermənistan-Azərbaycan münaqişəsinin həllində Fransanın Azərbaycanı dəstəkləməsi məsələsi barədə. Bilirsiniz ki, münaqişənin səkkiz illik tarixi var və o, Dağlıq Qarabağı qoparmaq və Ermənistana birləşdirmək məqsədi ilə Ermənistan Respublikasının Azərbaycana qarşı etdiyi hərbi təcavüz nəticəsində başlanmışdır. Bu münaqişə böyük fəlakətlərə, qurbanlara, qan tökülməsinə və son nəticədə Azərbaycan ərazisinin 20 faizinin işğal olunmasına gətirib çıxarmışdır. Həmin ərazilərdən bir milyondan çox azərbaycanlı zorla qovulub çıxarılmışdır və onlar ağır şəraitdə çadır şəhərciklərində yaşayırlar.

Biz 1994-cü ildə atəşkəsə nail olmuşuq, hərbi əməliyyatları dayandırmışıq və iki il səkkiz aydır ki, müharibə getmir, döyüş əməliyyatları yoxdur, qan tökülmür. Lakin sülh də yoxdur. Qeyd etdiyim kimi, Azərbaycan ərazisinin bir hissəsi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır, bu torpaqlarda hər şey talan edilib, dağıdılıbdır. Azərbaycana çox böyük maddi və mənəvi zərər vurulub, ən başlıcası isə çoxlu insan həlak olubdur.

Bütün bunlara baxmayaraq, biz Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, qaçqınların öz yaşayış yerlərinə qaytarılması və bu halda Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək status verilməsi şərtilə Ermənistan-Azərbaycan münaqişəsi[303-304]nin sülh yolu ilə aradan qaldırılması, Ermənistanla sülh bağlanması mövqeyində dayanırıq.

Bu münaqişənin həllinin əsas prinsipləri keçən il dekabrın əvvəlində ATƏT-in Lissabon sammitində ATƏT sədrinin bəyanatında, ATƏT-in sənədində öz ifadəsini tapmışdır. Həmin prinsiplər üç bənddən ibarətdir: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcədə özünüidarə verilməsi. Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı. Biz bu prinsipləri qəbul etmişik və hesab edirik ki, bunlar qəti qərar üçün, yəni Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əsas ola bilər. Lakin Ermənistan tərəfi bu prinsipləri qəbul etmədi, Lissabon sammitində pozucu mövqe nümayiş etdirdi və həmin prinsipləri

dəstəkləyən ATƏT-in bütün üzvlərinin əslində əleyhinə çıxan yeganə dövlət oldu. Məsələnin dinc yolla həllinə mane olan da Ermənistanın belə mövqeyidir.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə 1992-ci ildə ATƏT-də yaradılmış Minsk qrupu, Minsk konfransı məşğul olur. Minsk konfransı mövcud olduğu dörd ildə çox iş görüb, lakin əsas məqsədə nail ola bilməyibdir. İndi biz ümid edirik ki, Lissabon sammitindən sonra Minsk qrupu sammitin sənədlərində ifadəsini tapmış prinsiplər əsasında bu məsələ ilə daha fəal məşğul olacaqdır. Fransa Minsk qrupunun üzvüdür və biz ümid edirik ki, bu baxımdan o, həmin problemlə daha fəal məşğul olacaqdır. Onu da qeyd edim ki, təəssüflər olsun, biz indiyədək Minsk qrupunun işində Fransanın böyük fəallıq göstərməsini hiss etməmişik. Prezident cənab Jak Şirak, xarici işlər naziri cənab Erve de Şarett ilə apardığımız danışıqlar, söhbətlər hesab etməyə əsas verir ki, Fransa öz fəaliyyətini genişləndirəcək və biz Minsk qrupunun üzvü kimi Fransa ilə əməkdaşlıq edəcəyik. Zənnimcə, sizin sualınıza cavab verdim.

**Sual: Sizin diplomatcasına dediklərinizdən görünür ki, Minsk qrupunun həmsədri kimi Fransadan hər halda çox şey gözləmirsiniz?**

**Cavab:** Fransa Minsk qrupunun həmsədri deyil. Ancaq bu məsələ sizi maraqlandırırsa deyə bilərəm ki, yarandığı vaxtdan etibarən Minsk qrupunun sədri bir ölkə – İtaliya, şəxsən isə bu ölkənin xarici işlər nazirinin müavini Rafaelli idi. Sonra Minsk qrupunun sədrliyi İsveçə həvalə edildi və bu [304-305] işlə tanınmış diplomat cənab Yan Eliasson məşğul oldu. 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt sammitində Rusiya və ABŞ öz aralarında belə razılığa gəldilər ki, Minsk qrupunda bir yox, iki sədr olacaq və Rusiya və Finlandiya həmsədrlər olacaqlar. Finlandiya həmsədrlik vəzifəsindən çıxır, onda Minsk qrupunun həmsədri kimi Almaniyanın namizədliyi irəli sürüldü və biz buna razılıq verdik. Lakin məlum oldu ki, Rusiya və Ermənistan Almaniyanın namizədliyinin əleyhinədirlər. Onda Amerika Birləşmiş Ştatları bizə müraciət edərək Minsk qrupunda həmsədr olmaq istədiyini bildirdi. Həmsədr olmadan da ABŞ-nı Minsk qrupunun üzvü kimi bu məsələ ilə yaxından məşğul olduğunu nəzərə alaraq, biz buna razılıq verdik və konkret surətdə cənab Stroüb Telbottun namizədliyini müdafiə etdik. Bu yaxınlarda Fransanın namizədliyi məsələsi qalxıb. Biz onun bu prosesdə daha fəal iştirak etmək arzusuna böyük hörmətlə yanaşırıq, ancaq biz öz rəyimizi bildirmiş və Amerika Birləşmiş Ştatlarının namizədliyini dəstəkləmişik. Hesab edirəm ki, öz mövqeyimizi dəyişməyə əsasımız yoxdur. Ona görə də biz çox şadıq və fəal əməkdaşlıq edəcəyik ki, Fransa Minsk qrupunun üzvü kimi açığını desək, indiyə qədər olduğu kimi yox, geniş fəaliyyət göstərsin.

**Sual: Cənab prezident, bu, sırf formal xarakter daşıyan həmsədrlik məsələsindən əlavə, onu göstərirmi ki, Siz Ermənistanla başlanmış bilavasitə, birbaşa danışıqları Minsk qrupu çərçivəsində, ATƏT-in və ya hər hansı digər beynəlxalq təşkilatın rəhbərliyi altında aparılan beynəlxalq danışıqlardan daha üstün tutardınız?**

**Cavab:** Bizim qəti mövqeyimiz belədir ki, həm bu, həm də digər kanaldan istifadə etmək lazımdır. Yəni Minsk qrupu çox lazımdır, çünki ona 11 dövlət daxildir və fəal olacağı təqdirdə bu qrup vasitəsilə çox iş görmək mümkündür. Ancaq eyni zamanda biz Ermənistan Respublikası prezidentinin və Azərbaycan prezidentinin nümayəndələri tərəfindən aparılan birbaşa danışıqlara da böyük əhəmiyyət veririk. Bu, elə mürəkkəb və çətin məsələdir ki, hansı başqa, üçüncü kanal da olarsa, mən ondan da imtina etməyəcəyəm.

**Sual: Cənab prezident, Sizin səfərinizin ilk günü Fransanın "Fiqaro" qəzetində dərc olunmuş müsahibənizdə belə bir fikir söyləmisiniz ki, Dağlıq Qarabağ münaqişəsində Rusiya Ermənistana daha çox rəğbət [305-306] bəsləyir, ümumiyyətlə Rusiyanın vasitəçilik səylərini, o cümlədən Minsk qrupu çərçivəsindəki səylərini necə qiymətləndirirsiniz? İcazənizlə, ikinci, Xəzər nefti ilə bağlı sualımı da verərdim: dünən həmin neftin Çeçenistan ərazisi ilə nəqlinin mümkün olan variantlarından biri barədə xəbər verilmişdir. Xəzər neftinin Türkiyə vasitəsilə, Rusiya limanları ilə nəql olunması haqqında suala necə cavab verərdiniz?**

**Cavab:** Biz Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Rusiyanın roluna böyük əhəmiyyət veririk. Ancaq təəssüf ki, Rusiya bu sahədə özünün bütün imkanlarından istifadə etmir. Onun Ermənistanda da, Azərbaycanda da böyük təsiri var və Minsk qrupunun iştirakı olmadan bu məsələni təkbaşına həll edə bilər. Lakin Rusiyadakı hansısa qüvvələr bu problemi həll etməyə imkan vermirlər. Son vaxtlar Rusiya bu məsələ ilə daha fəal məşğul olur. Bir il bundan öncə, 1996-cı ilin yanvarında Rusiyanın xarici işlər naziri Yevgeni Primakov ilə, – o, bu vəzifəyə yenicə təyin edilmişdi, – uzun çəkən görüşüm, habelə Rusiya prezidenti cənab Yeltsin ilə geniş söhbətim olmuşdur. Mən hiss etdim ki, Rusiya bu məsələdə dönüş edib və Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması ilə daha fəal məşğul olmaq niyyətindədir. Bu, prezident Boris Yeltsinin və xarici işlər naziri Yevgeni Primakovun mətbuat üçün verdikləri bəyanatlarda da öz ifadəsini tapmışdır. Lakin hələlik bu məsələdə irəliləyiş yoxdur.

Başa düşürsünüz, bu məsələnin həllinə Ermənistanın pozucu mövqeyi mane olur. Ermənistan bütün beynəlxalq hüquq prinsiplərinin əleyhinə çıxır və Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Halbuki bu, beynəlxalq hüququn ən adi prinsiplərinə ziddir. Ermənistan çalışır ki, Dağlıq Qarabağ dövlət müstəqilliyi alsın. Biz buna heç vaxt razı olmayacağıq, Dünya Birliyi də bununla razılaşmayacaqdır. Dünya Birliyi də onunla razılaşmayacaq ki, Fransanın tərkibində olan Korsika, yaxud deyək ki, Rusiyanın tərkibindəki Çeçenistan dövlət

müstəqilliyi alsın. Mən Rusiyaya dair belə misalları çox çəkə bilərəm. Rusiyada 20-dək milli qurum, federasiya subyektivləri var, əgər Çeçenistana dövlət müstəqilliyi almaq imkanı verilsə, onlar da dövlət müstəqilliyi əldə etmək üçün növbəyə dayanacaqlar. Ona görə Dünya Birliyinin mənafeyi, öz dövlətinin müdafiəsi naminə Rusiya Ermənistana daha çox təsir gös[306-307]tərə bilər ki, o, ağıllı yol tutsun. Ermənistanda Rusiyanın böyük qoşun kontingentinin, Rusiya hərbi bazalarının olmasını, Rusiyanın Ermənistana böyük maliyyə-iqtisadi kömək göstərməsini də nəzərə alsaq, yəqin ki, bu münaqişənin həlli üçün Rusiyanın çox iş görə biləcəyini başa düşmək çətin olmaz. "Fiqaro" qəzetinə müsahibə verərkən mən bunu nəzərdə tutmuşam.

O ki qaldı neftə, biz fövqəlmilli şirkətlərlə beşinci müqavilə imzalamışıq. Düz bir il öncə, 1996-cı ilin yanvarında Moskvada Rusiyanın baş naziri Viktor Çernomırdin və Azərbaycan prezidenti Heydər Əliyev Azərbaycan neftinin Şimal marşrutu ilə Rusiya ərazisindən keçməklə Qara dəniz sahilindəki Novorossiysk limanına ixracı üçün neft kəməri haqqında Rusiya ilə Azərbaycan arasında saziş imzalamışlar. Bu neft kəməri hazırdır və tezliklə onun istismarına başlayacağıq. Ancaq kəmər həm də Çeçenistan ərazisindən keçir. Hesab edirəm ki, neft kəmərinin təhlükəsizliyinin təmin olunmasının qayğısına Rusiya qalmalıdır. Biz sazişi bir il əvvəl, Çeçenistanda qızğın döyüşlər gedərkən imzalamışıq. Güman edirəm, belə bir sazişi imzalayarkən Rusiya rəhbərliyi nəzərə almışdır ki, bütün bu məsələləri həll edəcəkdir. Lakin biz ikinci – Qərb istiqamətində Gürcüstan vasitəsilə Qara dəniz sahilindəki Supsa limanına çıxan neft kəmərini də çəkirik. Biz hər iki kəmərdən istifadə etmək niyyətindəyik. Doğrudur, ikinci neft kəməri 1998-ci ilin sonunda hazır olacaqdır. Məncə, bu məlumat kifayətdir.

**Sual: Cənab prezident, bu heyətlə biz əvvəllər Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələrin bir çox siyasi xadimləri ilə görüşmüşük. Çox xoşdur ki, rus dilində danışmaq zəruriliyi Sizi həyəcanlandırmır. Çünki keçmiş Sovet İttifaqının bir sıra dövlətlərinin bəzi siyasi xadimləri rus dilini nədənsə çox tez unudublar. Sualım belədir: Azərbaycanda rus mədəniyyətinə, rus dilinə Azərbaycanın münasibəti, şəxsən Sizin münasibətiniz, bu baxımdan Sizin siyasətiniz necədir?**

**Cavab:** Qeyri-adi sualdır. Buna baxmayaraq, ona tam açıqlığı ilə, səmimi cavab verəcəyəm. Rus dili böyük bir xalqın dilidir. Rus dili dünyada yayılmış dillərdən biridir, keçmişdə rus imperiyasına, sonralar isə Sovet İttifaqına daxil olmuş bir çox xalqların təhsilinin, mədəniyyətinin, elm və texnikasının inkişafında böyük rol oynamışdır. Şəxsən mən rus dilinə dərin hörmət bəsləyirəm. Onun köməyi ilə mən nəinki rus mədəniy[307-308]yəti, həm də, dünyanın bütün digər xalqlarının mədəniyyəti barədə çox şey öyrəndim. Azərbaycan əhalisinin əksəriyyəti də rus dilinə bu cür hörmət bəsləyir. Buna görə də mən mümkün olan yerdə bu dildən istifadə edirəm. Heyf ki, fransız dilini bilmirəm, yoxsa sizinlə bu dildə danışardım. Eybi yoxdur, fransız dilini də öyrənərəm və gələn dəfə fransızca danışaram. Əvvəllər buna sadəcə olaraq ehtiyac yox idi. Sovet İttifaqı bizi sıxışdırır və başqa dilləri yaxşı öyrənməyə imkan vermirdi.

Rus mədəniyyəti Azərbaycan mədəniyyətinin, elm və təhsilinin inkişafına olduqca böyük təsir göstərmişdir. Ona görə də bizdə rus dilinə hörmət var. Mən öz Azərbaycan dilimi çox sevirəm və rus dili kimi, ana dilimi də yaxşı bilirəm. Lakin burada Azərbaycan dilində danışmağa ehtiyac yoxdur, bunun üçün rus dilindən istifadə edirəm, bir də ona görə ki, burada oturanların yarısı rus dilini bilir. Mən sizə hörmət edirəm və buradakılara hörmət əlaməti olaraq rusca danışıram. Siz cavabımdan razı qaldınızmı?

**Sual: Lap artıqlaması ilə razı qaldım, cənab prezident. Lakin birinci sualın davamı kimi daha bir kiçik sual vermək istərdim: Rusiya ilə qarşılıqlı münasibətlərdə daha nə kimi problemlər var?**

**Cavab:** Azərbaycan gənc müstəqil bir dövlətdir, təxminən 200 il Rusiyanın tərkibində olmuşdur – əvvəlcə çar imperiyasının, sonra da Sovet İttifaqının. Bu da Rusiya idi və təbii ki, biz ayrıldıqdan sonra qarşımıza olduqca çox problem çıxdı, indi onları tədricən həll etmək lazımdır. Amma bunlar o qədər də böyük problemlər deyil. Ən böyük və ağır problem Ermənistan-Azərbaycan münaqişəsidir. Yeri gəlmişkən, mən rusiyalılara həmişə demişəm və deyirəm: bu münaqişənin uğurla aradan qaldırılması həm də Rusiyanın cənub hüdudlarında təhlükəsizlik üçün təminatdır. Qafqazda sülh və əmin-amanlıq Qafqazın başqa ölkələri kimi, Rusiya üçün də böyük əhəmiyyətə malikdir.

**Sual: Yəqin əlavə etmək olar, Rusiya bundan o qədər də razı deyil ki, Azərbaycan NATO-ya yaxınlaşmaq istəyir və MDB-nin kollektiv təhlükəsizliyi haqqında müqavilənin üzvü olmaq istəmir?**

**Cavab:** Amma Rusiyanın özü də "Sülh naminə tərəfdaşlıq" proqramım imzalayıb. Onu Azərbaycan da imzalayıb. Aramızda fərq yoxdur. MDB-nin kollektiv təhlükəsizliyinə gəldikdə isə, təəssüflər olsun ki, orada ortaya elə məsələlər [308-309] çıxır ki, biz onları qəbul edə bilmərik. Məsələn, mən hesab etmirəm ki, MDB hərbi ittifaq olmalıdır. Buna görə də kollektiv təhlükəsizlik haqqında müqavilə məsələsi ilə əlaqədar bizdə problemlər var. Bunun isə kimin xoşuna gəlib-gəlmədiyi artıq başqa məsələdir.

**Sual: Mən MDB barədə söhbəti davam etdirmək istərdim. Həmişə təxirə salınan MDB sammiti, Sizcə, nə vaxt keçirilə bilər?**

**Cavab:** Boris Nikolayeviç sağalıb ayağa qalxandan sonra. Elan ediblər ki, Boris Yeltsin ayın axırınadək sağalacaq. Görünür, MDB sammiti də onda olacaqdır.

**Sual: Belarusla Rusiyanın mümkün inteqrasiyasına Sizin münasibətiniz?**

**Cavab:** Xəbərim yoxdur. Mən burada olanda aldığım məlumata görə, Belarusda elan ediblər ki, onlar Rusiya ilə birləşməyə razıdırlar. Bizim belə bir arzumuz yoxdur və Azərbaycan üçün tarixi nailiyyət olan öz dövlət müstəqilliyimizi itirmək istəmirik. Buna görə də heç vaxt yol verməyəcəyik ki, nəsə bizim müstəqilliyimizi poza bilsin.

**Sual: Cənab prezident, Rusiyada indiki vəziyyət barədə nə düşünürsünüz və orada mümkün ola biləcək intizamsızlığın nəticələrindən ehtiyat etmirsinizmi?**

**Cavab:** Rusiya dünyanın ən böyük dövlətidir və zənnimcə, indi hamının marağı var ki, orada sabitlik olsun. Məncə, bunu Fransa da, bütün Avropa da eyni dərəcədə istəyir. Buna görə də biz ən əvvəl istəyirik ki, Rusiyada vəziyyət sabit olsun, orada heç bir intizamsızlıq olmasın. Orada intizamsızlıq yaranmasının Rusiya üçün də, onunla bilavasitə əlaqədə olan digər ölkələr üçün də çox ağır nəticələri olacaqdır.

Biz Rusiyam necə görmək istəyirik? Biz onu imperiya iddiaları olmayan, demokratik, azad, bütün MDB ölkələri ilə bərabərhüquqlu münasibətlər yaradan bir dövlət kimi görmək istəyirik. Mənə elə gəlir ki, Rusiyada sabitlik orada demokratik prinsiplərin nə dərəcədə bərqərar edilməsindən çox asılı olacaqdır. Biz Rusiyanı demokratik bir ölkə kimi görmək istəyirik.

**Sual: Cənab prezident, Rusiya-Azərbaycan müştərək komissiyası gələn ay görüş keçirməlidir. Bu görüşdə qarşılıqlı hesablaşma və neft sazişinin işlənib** [309-310] **tamamlanması məsələlərinə toxunulacaqdır. Siz qarşıdakı görüş üçün nə təklif edirsiniz?**

**Cavab:** Bakıda artıq bu cür görüş keçirilmişdir. Bizə Rusiyadan baş nazirin müavini cənab Serovun rəhbərliyi ilə böyük bir nümayəndə heyəti gəlmişdi. Biz bir çox məsələləri müzakirə etdik. Yeri gəlmişkən, sabah Moskvada MDB Ölkələri Hökumət Başçıları Şurasının iclası olacaqdır. Baş nazir başda olmaqla Azərbaycanın nümayəndə heyəti oraya yola düşür. Qarşılıqlı hesablaşmalar haqqında danışıqlar davam etdiriləcəkdir. Belə düşünürəm ki, artıq biz bu məsələnin optimal həlli yoluna çıxmışıq və ola bilsin ki, Moskvada qəti qərara gələcəyik.

O ki qaldı neft sazişinə, mən bilmirəm, siz nədən danışırsınız. Mən artıq neft kəmərindən söhbət açdım. Yeri gəlmişkən, Rusiyada neft kəmərlərinə rəhbərlik edən "Transneft" Səhmdar Cəmiyyətinin bas. direktoru da bu yaxınlarda Rusiya nümayəndə heyəti ilə birlikdə Bakıda olmuşdur. Burada bizim böyük problemlərimiz yoxdur.

**Sual: Siz dediniz ki, qarşılıqlı hesablaşmalar barəsində optimal qərar tapılmışdır. Deyə bilərsinizmi, bu, hansı qərardır? İndi də neft sazişi haqqında. Mən ondan danışdıqda Bakı-Novorossiysk marşrutu ilə nəql ediləcək neftin həcmi məsələsinin həllini nəzərdə tuturdum.**

**Cavab:** Qarşılıqlı hesablaşmalar barəsində Rusiyanın Azərbaycana, Azərbaycanın da Rusiyaya borcu .var. Hərçənd orada heç də hər şey aydın deyil. Lakin Sovet İttifaqı parçalandıqdan sonra lazımi qayda-qanun olmadı, ona görə də mən bu rəqəmlərə çox da inanmıram. Buna baxmayaraq, biz onları qəbul etdik və danışıqları da bu əsasda aparırıq. Güman ki, bir-birimizə nə qədər borclu olduğumuzu tezliklə müəyyənləşdirəcəyik. Bəlkə də borcumuz əllinin əlliyə nisbətindədir. Bu, böyük problem deyildir.

Neft kəmərinə gəldikdə isə, mən dedim ki, biz nefti Şimal boru kəməri ilə ixrac edəcəyik. Ancaq bu kəmərlə nə qədər neft göndərəcəyimiz barədə qəti razılaşma yoxdur. Nə qədər bacarsaq, o qədər də göndərəcəyik. Tam gücü ilə işləsə, həmin boru kəməri ilə ildə 5 milyon tonadək neft ixrac etmək olar.

**Sual: Ermənistan bu vədlərə inanmır. İkinci sualım belədir: Azərbaycan bir çox regionlarla həm**[310-311]**sərhəd ölkədir. Fikirləşirsinizmi ki, Azərbaycanın hazırda İranın tərkibində olan cənub hissəsi nə vaxtsa Azərbaycanın şimal hissəsi ilə birləşmək istəyəcək?**

**Cavab:** Öncə onu deyim ki, bizim bəyan etdiklərimizə inanmamağa Ermənistanın əsası yoxdur. Dağlıq Qarabağ əmi 80 min nəfər erməninin yaşadığı kiçik bölgədir və Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə əldə etməklə Azərbaycanın bu kiçik bölgəsi çox müvəffəqiyyətlə yaşaya bilər. Dağlıq Qarabağın təhlükəsizliyinə inanmaması və ya bundan narahat olması barədə Ermənistanın bəyanatı uydurmadır və Dağlıq Qarabağa müstəqillik statusu verilməsinə nail olmaq məqsədi daşıyır.

O ki qaldı Azərbaycanın İranın ərazisində olan hissəsinə, demək istəyirəm ki, biz sərhədlərin dəyişdirilməsinin əleyhinəyik. Biz hər bir dövlətin ərazi bütövlüyü prinsipinə hörmət edirik, Ermənistanın da, Rusiyanın da, Fransanın da, İranın da ərazi bütövlüyünü tamamilə tanıyırıq. Hesab edirik ki, münaqişələr yaratmaqdan ötrü gah orada, gah da burada hansısa etnik qrupları fitvalamaq lazım deyildir.

**Sual: Cənab prezident, mənim iki qısa sualım var. Azərbaycan Qərb şirkətləri qrupu ilə neft müqavilələri imzalamışdır. Sizcə, bu şirkətlərin mənsub olduqları ölkələr Dağlıq Qarabağa dair sazişin əldə edilməsi üçün Ermənistana təzyiq göstərə bilərlərmi? İkinci sual: Türkiyə öz ölkəsinə neft və qaz nəql olunması haqqında Türkmənistan və İran ilə yenicə saziş imzalamışdır. Siz orta müddətli perspektivdə neftinizin İran vasitəsilə Türkiyəyə nəqlini nəzərdə tutursunuzmu?**

**Cavab:** Birincisi, bütün bu fövqəlmilli şirkətlərlə müqavilələr imzalayarkən biz qarşımıza öncə kommersiya məqsədləri qoymuşuq. Həmin fövqəlmilli şirkətlərin mənsub olduqları ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllinə kömək etsələr bu, həm Azərbaycanın, həm də Ermənistanın xeyrinə olar. Biz

beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundun istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.

O ki qaldı qazın nəqlinə dair Türkiyə, İran və Türkmənistan arasındakı müqaviləyə, mən onlara uğurlar diləyirəm. İran [311-312] ərazisi vasitəsilə Türkiyəyə neft nəql etmək barədə planlarımız yoxdur.

**Sual: Cənab prezident, təkidlə Dağlıq Qarabağ mövzusuna qayıtdığımız üçün bağışlayın. Ermənistanın tərslik mövqeyini, bu məsələdə hazırkı vəziyyəti necə, donmuş vəziyyət, geriləmə kimi, yoxsa az da olsa, hər halda irəliləyiş kimi qiymətləndirərdiniz. Sizcə, bu məsələnin nizama salınması üçün nə qədər vaxt lazım gələcəkdir?**

**Cavab:** Mən hesab edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsində vəziyyət ilişib qalmışdır. Minsk qrupunun həmsədri müəyyən edilən kimi bu qrup işləməyə başlayacaqdır. Ümidvaram ki, indi Minsk qrupu daha fəal olacaqdır. Biz Ermənistanla birbaşa əlaqələrə tezliklə yenidən başlayacağıq. Bu əlaqələr Lissabon Zirvə toplantısı ərəfəsində dayandırılmışdır. O ki qaldı Ermənistanın pozuculuq mövqeyinə, bu, təzə hal deyildir. Belə düşünürəm ki, Ermənistan əgər hərbi əməliyyatlara yenidən başlanmasını istəmirsə, onda beynəlxalq hüquq prinsipləri və normaları ilə hər halda razılaşmağa məcbur olacaqdır. Məsələn, biz hərbi əməliyyatların yenidən başlanmasına heç vaxt razılıq verməyəcəyik və məsələnin dinckliklə nizamlanmasına çalışacağıq.

**Sual: Cənab prezident, bilmək istərdim, Çeçenistanda müharibəyə görə Rusiyanın Azərbaycana qarşı qoyduğu blokada qalırmı? Bu blokada adamların hərəkətinə aid idimi, yoxsa Azərbaycanın ərzaq və mallarla təchizatı yolunu kəsirdi?**

**Cavab:** Yaxşı sualdır, sağ olun. İki il öncə Rusiya blokada qoydu, yəni Azərbaycanla sərhədi bağladı və bunu bəhanə gətirdi ki, Çeçenistanda döyüş əməliyyatları gedir və guya Azərbaycandan oraya hansısa yaraqlılar keçirlər. Bu, düşünülməmiş və ədalətsiz bir qərar idi. Hər halda bu iki ildə heç kəs bir sübut gətirib təqdim edə bilmədi ki, Azərbaycandan Çeçenistana hansı yaraqlılar keçib getmişlər. Halbuki faktlar var ki, Azərbaycanda layiqli cəzadan gizlənən müxtəlif cinayətkar ünsürlər Rusiyada, sonra Çeçenistanda olmuş, oradan da Rusiya sərhədçilərinin qoruduqları sərhəddən keçərək Azərbaycan ərazisinə soxulmuş və bizdə terror əməlləri törətməyə can atmışlar. Bu blokada ucbatından Azərbaycana böyük iqtisadi zərər dəymişdir. Təəssüf ki, sərhəd indiyədək tamamilə açılmayıbdır. Biz onun açılmasına çalışırıq, çünki [312-313] Rusiya ilə aramızda çox böyük iqtisadi əlaqələr var. Ümidvaram ki, sərhədi tezliklə açacaqlar.

**Sual: Cənab prezident, icazə verin, hər halda Fransaya səfərinizə qayıdaq. Haqqında danışdığınız 25 illik müqavilənin pul hesabı ilə həcmi nə qədərdir? Yəqin ki, bu müqavilədən başqa, Fransa ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq haqqında digər maraqlı danışıqlar da aparılmışdır?**

**Cavab:** 25 il müddətinə bağlanan bu müqavilədə bütün tərəflərin kapital qoyuluşunun ümumi məbləği təxminən 1,5 milyard Amerika dollarına bərabərdir. İlkin hesablamalara görə, 250 milyon barrel neft çıxarılacağı gözlənilir. Belə düşünürəm ki, müqavilənin əməli surətdə həyata keçirilməsi onu daha səmərəli edəcəkdir. Müqavilə istər Fransa şirkətləri üçün, istərsə də Azərbaycan üçün çox sərfəlidir. İndi Fransa şirkətləri ilə Azərbaycan arasında yaxşı əlaqələr yaradılır. Məsələn, Fransanın "Lya farj" şirkəti bizim iri bir sement zavodunu yenidən qurmaq təşəbbüsü irəli sürmüşdür. Şirkətin prezidenti bu barədə öz təkliflərini mənə təqdim etmişdir. Fransanın "Sofreqaz" şirkəti Azərbaycanın qaz təchizatı sistemini təkmilləşdirmək məsələsi ilə məşğul olur. Kimya sənayemiz Fransanın "Teknik" və digər şirkətləri ilə böyük əlaqələrə malikdir. Fransanın başqa şirkətləri də bizə maraq göstərirlər. Bir sözlə, yaxşı əlaqələr yaradılır. Belə düşünürəm ki, iqtisadi əlaqələrimizin gələcəyi yaxşı olacaqdır.

**Sual: Cənab prezident, görüşümüz sona çatır və mən Sizə tarixi səpkili sual vermək istərdim, çünki Siz təkcə dünya siyasətinin müasir iştirakçısı deyilsiniz, həm. də keçmişdə siyasətin iştirakçısı olmuşsunuz, Sovet İttifaqı dövründə bir neçə il Siyasi Büronun üzvü olmuşsunuz. Geriyə baxsaq, Siz ötən dövrü necə təsəvvür edirsiniz? Hesab edirsinizmi ki, Sovet İttifaqının dağılması başqa şəkildə ola bilərdi? Buna yol verməmək olardı? Bu hadisələrə necə baxırsınız?**

**Cavab:** Öz tərcümeyi-halının nöqteyi-nəzərindən keçmişə böyük hörmətlə baxıram. Hesab edirəm, siz mənim tərcümeyi-halımı bilirsiniz. 14 ilədək Azərbaycan Respublikasına rəhbərlik etmişəm, ondan əvvəl uzun illər Dövlət Təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işləmişəm, sovet generalı, Siyasi Büro üzvlüyünə namizəd, sonra onun üzvü olmuşam, beş ildən artıq sovet hökuməti sədrinin birinci müavini işləmi[313-314]şəm. 1987-ci ilin sonunda Siyasi Büronun ayrı-ayrı üzvləri, o cümlədən Qorbaçov ilə aramızda olan bəzi ixtilaflara görə istefaya çıxmışam. Bundan sonra mən təqiblərə məruz qaldım. 1990-cı ilin yanvarında Azərbaycana böyük qoşun kontingenti yeridilib heç bir günahı olmayan insanları əzəndə, tələfat olanda sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı qəbul etdiyi qərarların və praktiki tədbirlərin əleyhinə çıxdım. Elə həmin vaxt Kommunist Partiyasından çıxdım, bundan sonra Moskvada məni daha çox təqib etməyə, mətbuatda mənim haqqımda böhtançı məqalələr dərc etməyə başladılar. Mən həyatımın çox mürəkkəb dövrünü yaşadım. Moskvam tərk etməyə məcbur oldum, həyatımın çox hissəsinin keçdiyi Bakıya gəldim. Ancaq kommunist təqibləri mənə burada da yaşamağa imkan vermədi, mən Naxçıvana – Azərbaycandan ayrı düşmüş, lakin ona məxsus olan kiçik muxtar respublikaya getdim. O zaman Naxçıvan blokadada idi, mən üç il orada son dərəcə

ağır şəraitdə yaşadım. 1993-cü ildə Azərbaycanda, Bakıda vətəndaş müharibəsi başlayanda, hakimiyyət böhranı olanda xalq məni Bakıya dəvət etdi və prezident seçdi.

Mən keçmişdəki bütün fəaliyyətim ilə fəxr edirəm. Mən çox yüksək vəzifələrdə olanda da, son dərəcə ağır şəraitdə yaşayanda da təqiblərə məruz qalmışam. Mən şadam, görünür, mənim taleyim belədir.

Mən Sovetlər İttifaqında nə olmuşdursa hamısına qara yaxmağın, pisləməyin əleyhinəyəm. Orada yaxşı, gözəl şeylər çox olubdur. Mən həm Kommunist Partiyasının üzvü, həm də Sovet İttifaqı Kommunist Partiyasının rəhbərlərindən biri olanda da bu işə vicdanla və sədaqətlə xidmət etmişəm. Ancaq 1990-cı ildə, təcavüzlərdən sonra məni çətinliklərin gözlədiyini bilə-bilə eyni qətiyyətlə və ləyaqətlə bu partiyadan çıxdım.

Sovetlər İttifaqının dağılması tarixi proseslərin qanunauyğun nəticəsidir. Bu, baş verməli idi və baş verdi. Mən bundan razıyam. Mən Sovetlər İttifaqının dağılmasını alqışlamışam və indi onun hər hansı şəkildə bərpasının əleyhinəyəm. Görürsünüz, mən Sovetlər İttifaqını möhkəmləndirmişəm, eyni zamanda əmin olanda ki, o, daha lazım deyildir, hesab edirəm, öz mövqeyimi düzgün və vicdanla müəyyən etmişəm. Ancaq Sovetlər İttifaqı da öz tarixi rolunu oynayıbdır. Faşizmin darmadağın edilməsində, bu əjdaha üzərində qələbə çalınmasında Sovetlər İttifaqının böyük rolu var. Bunların hamısını unut[314-315]maq, inkar etmək lazım deyildir. Bizim tariximiz mürəkkəb, ziddiyyətlidir. XX əsr sona çatır, görünür, bir müddətdən sonra tədqiqatçılar bu yüzillikdə baş vermiş hadisələrə daha ədalətli və düzgün qiymət verəcəklər. Mən hansısa nəticələr çıxarmıram, sadəcə olaraq bəzi mülahizələrim haqqında danışıram.

**Müxbir: Son dərəcə açıq diskussiyaya, verdiyiniz cavablara görə çox sağ olun.**

**Heydər Əliyev:** Çox sağ olun. Sizinlə Azərbaycanda görüşməyə şad olacağam. Yalnız bir şeyi əlavə etmək istəyirəm. Dünən axşam "Mond" qəzeti Azərbaycanın əleyhinə böhtanla dolu uydurmalara bütöv bir səhifə həsr edibdir. Burada, Fransada səfərdə olduğum vaxt belə bir yazıdan çox təəssüfləndim. Burada ermənilərin böyük diasporunun olduğunu bilirəm. Mən Fransada yaşayan ermənilərin hamısına böyük hörmətlə yanaşıram. Ancaq Ermənistandakı, digər ölkələrdəki, o cümlədən də Fransadakı ekstremist, millətçi, təcavüzkar erməni dairələri qəzetlərdə böhtançı uydurmalar dərc edir, Fransa ictimaiyyətinə yalan məlumat verirlər. Bütün bunlara inanmayın. "Mond" qəzetində yazılanların hamısı başdan-başa iftiradır. Fransa prezidentinin dəvəti ilə burada rəsmi səfərdə olduğum vaxtda "Mond" qəzetinin bu cür qeyri-etik hərəkəti özünə rəva bilməsindən təəssüflənirəm. Sağ olun. Xudahafiz. [315-316]

## FRANSANIN "TV-5" TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*15 yanvar 1997-ci il*

**Sual: Cənab prezident, Siz tarixin canlı səhifəsisiniz, Sovet İttifaqında yüksək vəzifə tutmuş şəxssiniz. Siz Fransanın neft şirkətləri ilə, o cümlədən "Elf Akiten"lə yenicə müqavilə imzaladınız. Fransaya səfərinizdən nə gözləyirsiniz?**

**Cavab:** Mən Fransaya səfərimdən, ən əvvəl, ölkələrimiz arasında əməkdaşlıq proseslərinin sürətlənməsini gözləyirəm. Fransa böyük ölkədir, Avropada, bütün dünyada çox mühüm rol oynayır. Fransa zəngin tarixə və təbii olaraq, texnologiyalar sahəsində böyük imkanlara malikdir. Odur ki, Fransa ilə əməkdaşlıq, onunla dostluq münasibətlərinin möhkəmləndirilməsi ölkəmizin inkişafı üçün də, Avropa Birliyində, Dünya Birliyində Azərbaycanın mövqelərinin möhkəmlənməsi üçün də mühüm amildir.

**Sual: Cənab prezident, "Elf Akiten" və "Total" şirkətləri ilə imzalanmış müqavilə, görünür, çox mühümdür.**

**Cavab:** Bəli, bu, mühüm müqavilədir. O, bir çox ölkələrin transmilli şirkətləri ilə bağladığımız beşinci müqavilədir. Son iki ildə imzaladığımız bütün müqavilələr dünyanın 11 ölkəsini və 16 transmilli şirkəti əhatə edir. Bu müqavilələr üzrə kapital qoyuluşlarının, yəni investisiyaların ümumi məbləği 15 milyard dollara çatır. Buna görə də onlardan hər biri bizim üçün böyük iqtisadi əhəmiyyətə malikdir. Lakin bununla yanaşı, bunlar qarşılıqlı surətdə faydalı müqavilələrdir. Onlar transmilli şirkətləri bizimlə bu müqavilələri imzalamış olan ölkələr üçün də böyük iqtisadi əhəmiyyətə malikdir. Məsələn, Fransanın "Elf Akiten" və "Total" şirkətləri ilə imzalanmış müqavilə həm Azərbaycana, həm də Fransaya böyük iqtisadi fayda gətirəcəkdir.

**Sual: Siz imzalanmış müqavilədən Ermənistanla, Dağlıq Qarabağla mövcud münaqişənin həlli üsulu** [316-317] **kimi istifadə etməyə ümid bəsləyirsinizmi? Gərək ki, Sizdə əhalinin 20 faizini ermənilər təşkil edir?**

**Cavab:** Azərbaycan əhalisinin 20 faizinin ermənilərin təşkil etməsi məlumatı doğru deyildir. Hazırda Azərbaycanda cəmi 80 min erməni var. Deyəsən, siz səhv salmısınız. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Lakin orada heç kəs yaşamır. Bu torpaqlardan bir milyondan çox azərbaycanlı didərgin salınmışdır, onlar çadırlarda yaşayırlar. Ermənistanla Azərbaycan arasında münaqişənin yaranmasına səbəb olmuş Dağlıq Qarabağda isə hazırda erməni millətindən 80 min adam yaşayır. Ermənistanın bu təcavüzü nəticəsində Dağlıq Qarabağdan bütün azərbaycanlılar qovulmuşdur. Bunu sizin sualınızı dəqiqləşdirmək üçün deyirəm.

O ki qaldı sualın mahiyyətinə, təbii ki, bu müqavilələr regionumuzda, xüsusən Azərbaycanda çox geniş iqtisadi fəaliyyəti təmin edəcəkdir. Onlar Azərbaycanın Qərb ölkələri ilə əlaqələrini möhkəmləndirəcəkdir. Biz ümidvarıq ki, bu ölkələr Azərbaycanla uzunmüddətli əməkdaşlığa başlayaraq, – həmin müqavilələr 25-30 il müddətinə imzalanıb, – regionumuzda sülhün bərqərar edilməsində maraqlı olacaqlar. Bu isə öz növbəsində Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə tənzimlənməsinə kömək edəcəkdir.

Biz müharibə istəmirik, biz təcavüzə məruz qalmışıq. Mən dedim ki, Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunubdur. Biz tələb edirik ki, onlar Azərbaycanın ərazisini tərk etsinlər, yurdlarından qovulmuş bir milyondan çox azərbaycanlı öz yerlərinə qayıtsın. Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və Ermənistanla sülh şəraitində yaşamaq istəyirik. Hesab edirəm ki, əgər Ermənistan bizimlə sülh yaradarsa, müharibəni dayandırarsa və Azərbaycanla iqtisadi əlaqələr saxlayarsa, bu müqavilələr ona da öz iqtisadiyyatını inkişaf etdirməkdə kömək göstərəcəkdir.

**Sual: Siz Ermənistanla birbaşa danışıqlara tərəfdarsınızmı?**

**Cavab:** Biz Ermənistanla birbaşa danışıqlara tərəfdarıq və bu danışıqları aparırıq. Son bir il ərzində bu danışıqları Ermənistan prezidentinin və Azərbaycan prezidentinin xüsusi nümayəndələri aparmışlar. Lissabon sammitinə hazırlaşmağımızla əlaqədar bu danışıqlar sammit ərəfəsində dayandırılmışdır. [317-318] Lakin biz Ermənistan ilə Azərbaycan arasında birbaşa danışıqları tezliklə bərpa edəcəyik və biz buna böyük əhəmiyyət veririk.

**Sual: Siz Azərbaycanın ərazi bütövlüyünün tanınmasını tələb edirsiniz, ermənilər isə Dağlıq Qarabağ ərazisində özləri üçün beynəlxalq təminat tələb edirlər. Bu barədə nə deyə bilərsiniz?**

**Cavab:** Biz bunun əleyhinə deyilik, yəni biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edirik, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcədə özünüidarə verilməsinə təminat veririk. Eyni zamanda biz Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik tədbirlərinin zəruriliyi ilə razılaşırıq. Bu məsələdə müxtəlif variantları, o cümlədən də beynəlxalq təminatlarla bağlı variantları nəzərdən keçirmək olar.

**Sual: Azərbaycan ərazisinin işğalı adlandırdığınız vəziyyətə nə qədər dözəcəksiniz?**

**Cavab:** Şübhəsiz bu, bizim üçün çox ağırdır və buna dözmək istəmirik. Səkkiz ildir ki, münaqişə davam edir. Dörd ildən çoxdur ki, Azərbaycan vətəndaşları öz yerlərindən zorla qovulmuşlar və hazırda çadırlarda yaşayırlar. Buna dözmək mümkün deyildir. Ancaq Ermənistan tərəfi bütün bu məsələlərə pozucu münasibət göstərir, o, münaqişənin həlli ilə razılaşmır və biz dözməyə məcburuq. Burada iki yol var: ya dözmək və məsələnin sülh yolu ilə həllinə nail olmaq, ya da hərbi əməliyyatlara yenidən başlamaq. Biz isə hərbi əməliyyatlara yenidən başlamaq istəmirik. İki il səkkiz aydır ki, barışıq mövcuddur, biz atəşkəs şəraitində yaşayırıq. Bu, həm Ermənistan, həm də Azərbaycan üçün yaxşıdır. Hərbi əməliyyatların başlanması yenidən qan tökülməsinə, insanların həlak olmasına gətirib çıxaracaqdır. Biz bunu istəmirik.

**Sual: Bu böhranda Rusiyanın rolu müsbət, yoxsa mənfidir?**

**Cavab:** Müsbət və ya mənfidir deyə birmənalı cavab vermək olmaz. Rusiya bu məsələdə, sözün tam mənasında, müsbət rol oynaya bilər. Ancaq təəssüf ki, o, bu münaqişənin aradan qaldırılması üçün hələ özünün bütün imkanlarından istifadə etmir. Biz istəyirik ki, birincisi, Rusiya fəal olsun, ikincisi isə ədalətli olsun, həm Ermənistana, həm də Azərbaycana eyni şəkildə yanaşsın və ədalət, obyektivlik əsasında bu münaqişəyə real surətdə son qoyulmasına çalışsın. [318-319]

**Sual: Çeçenistanda müharibə ilə əlaqədar Rusiya ilə sərhəddə Azərbaycanın blokadası davam edir. Amma indi Çeçenistanda müharibə sanki qurtarmışdır. Belə isə Siz bu problemin həllini görürsünüzmü?**

**Cavab:** Çeçenistan hadisələri ilə əlaqədar iki il bundan əvvəl Azərbaycana qarşı blokada qoyulması ədalətsiz bir tədbir idi. Rusiya dövləti və onun ayrı-ayrı məmurları ədalətsizliyə yol verdilər, çünki bu, qeyri-hüquqi qərar idi və Azərbaycanı ağır vəziyyətə saldı. Rusiya ilə bizim çox fəal iqtisadi əlaqələrimiz var. Odur ki, ölkələrimiz arasındakı yolların, bütün kommunikasiyaların bağlanması Azərbaycan iqtisadiyyatını, ümumiyyətlə, bütün həyatımızı çox ağır vəziyyətə saldı. İki ildən sonra Rusiya yəqin etdi ki, Azərbaycandan Çeçenistana heç bir yaraqlı keçib getməmişdir və bu, Çeçenistanda münaqişənin həllində heç. bir rol oynamamışdır. İndi orada müharibə dayanmışdır. Ümid edirik ki, Rusiya bu blokadanı götürəcəkdir. Biz bu barədə Rusiya rəhbərləri ilə danışmışıq. Onlar bizə vədlər verirlər. Ümidvarıq ki, öz vədlərini tezliklə yerinə yetirəcəklər.

**Sual: Siz Azərbaycanda vəziyyətin sabitliyini poza biləcək qanunsuz bölmələrin ölkənizə daxil olmasının qarşısını almaqda Moskvanın roluna ümid bəsləyirsinizmi?**

**Cavab:** Əgər Rusiya Azərbaycanda layiqli cəzadan gizlənən cinayətkar qrupların orada yaşamasına və qalmasına imkan verməsə, onda biz özümüz bu adamların öhdəsindən gələrik və Rusiyanın bizə heç bir köməyi lazım olmaz.

**Müxbir: Siz sərt hökmdar kimi ad çıxarmısınız, Sizi hətta ziyalı müstəbid adlandırmışlar. Vəziyyətin qeyri-sabit ola biləcəyi müsəlman dövlətində Siz özünüzü müxalifətlə kifayət qədər sərt aparırsınız. Amma bununla yanaşı, Azərbaycanda demokratiya var.**

**Cavab:** Bilirsinizmi, belə bir fikirlə razı deyiləm ki, mən sərt siyasət yeridirəm. Heç bir sərtlik yoxdur. Qanunlara əməl edilməsi hamı üçün eynidir. Mən isə qanunlara ciddi əməl edilməsinə tərəfdaram. Qanunsuz, hüquqa zidd olan hallardan heç birisi dəstəklənə və ya onlara yol verilə bilməz. Müxalifətin bəzi adamları isə olduqca çox qanunsuz əməllərə əl atırlar. Onların bu fəaliyyətinin qarşısı alındıqda sərtlikdən danışmağa başlayırlar. Sərtlik deyilən şey yoxdur. Yeri gəlmiş[319-320]kən deməliyəm ki, bizdə demokratiya yenicə başlayır. Biz cəmi beş ildir ki, dövlət müstəqilliyi şəraitindəyik. Fransa neçə əsrdir demokratiya şəraitində yaşayır, amma siz də şikayətlənirsiniz ki, tam demokratiya yoxdur. Buna görə də yenicə başlanan demokratiya öz təşəkkülünün təbii olaraq mürəkkəb dövrünü keçirir. Müxalifətdə dayanmış adamlar isə sadəcə olaraq başa düşmürlər ki, müxalifət sivilizasiyalı, siyasi müxalifət olmalıdır. Bizim bəzi müxalifətçilərimiz silaha əl atır, qanunsuz silahlı dəstələrdən istifadə edirlər. Təbiidir ki, biz bu cür müxalifətə qarşı qanunun müvafiq tədbirlərini görəcəyik. Ona görə də mən "sərt" və ya "müstəbid" fikri ilə razı deyiləm. Bu, düz deyildir. Biz demokratiya mövqeyində möhkəm dayanmışıq. Biz Azərbaycanda demokratik, sivilizasiyalı və hüquqi dövlət qururuq və quracağıq. Qoy buna heç kəsin şəkk-şübhəsi olmasın.

**Sual: Siz sovet tarixini bilən bir adamsınız. İndi isə, baş verən hadisələri nəzərə alaraq, müstəqil və çox güclü dövlətin rəhbərisiniz. XX əsrin hadisələri, o cümlədən Belqradda, Sofiyada baş verən hadisələr barəsində fikriniz necədir?**

**Cavab:** XX əsr çox mürəkkəbdir. Tezliklə biz XXI əsrə qədəm qoyacağıq və onda indiki yüzillikdə baş vermiş və baş verən hadisələrə daha düzgün qiymət vermək mümkün olacaqdır. Lakin bütün bu hadisələr ümumən qanunlardan və sairədən tez-tez kənara çıxsa da, görünür, xüsusən Avropada, keçmişdə totalitar rejim şəraitində olmuş ölkələrdə, o cümlədən Yuqoslaviyada, Bolqarıstanda, keçmiş Sovetlər İttifaqı ərazisində baş verən proseslərlə müəyyən dərəcədə əlaqədardır. Bu ölkələrdə keçmiş kommunist, sosialist rejimindən, totalitar, avtoritar rejimdən demokratiyaya keçid baş verir. Lakin bu keçid, təəssüf ki, bəzi yerlərdə xoşagəlməz hadisələrlə müşayiət olunur.

**Sual: Müsahibənizə görə sağ olun. Nəhayət, sonuncu sual. Sizdən ötrü Fransa, Avropa nə deməkdir?**

**Cavab:** Bizim üçün Fransa, Avropa və dünya siyasətində çox böyük rol oynayan ölkə də şübhəsiz ki, böyük iqtisadi potensiala malik, Avropanın iqtisadi birliyində layiqli yer tutan ölkədir. Avropanın bir hissəsi olan Azərbaycan isə Avropa Birliyi ilə fəal əməkdaşlıq edir, Avropa Şurasına daxil olmaq istəyir. Yeri gəlmişkən deyim ki, bizi oraya qonaq sifəti ilə qəbul etmişlər, tezliklə isə Azərbaycanın Avropa Şurasına tam [320-321] hüquqlu üzv qəbul edilməsi mərasimi olacaqdır. Buna görə də Azərbaycan Avropa Birliyinin tam hüquqlu üzvü olmaq istəyir. Fransa Avropada çox mühüm yer tutduğuna görə onunla əməkdaşlığımız həm qarşılıqlı fayda baxımından, həm də Fransa ilə əməkdaşlığın Azərbaycanı Avropa dövləti kimi təsdiqləyəcəyi və onun Avropa Birliyində mümkün qədər tez bir vaxtda layiqli yer tuta biləcəyi baxımından bizim üçün əhəmiyyətlidir.

**Müxbir:** Sağ olun. [321-322]

## FRANSADA YAŞAYAN AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Paris*

*15 yanvar 1997-ci il*

Hörmətli həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Fransada yaşayan soydaşlarımız bu gün buraya toplaşıblar. Mən sizinlə görüşməyimdən çox məmnunam. Bilirsiniz ki, yarım saatdan sonra mən təyyarə meydanında olmalıyam. Bakıya qayıtmalıyam. Vaxt belə az olsa da, mən sizinlə görüşməyi çox vacib hesab etdim.

Bilirsiniz ki, mənim Fransaya rəsmi səfərim çox yaxşı keçdi. Burada Fransanın prezidenti Jak Şirakla, Xarici İşlər naziri ilə, Senatın parlamentin sədrləri ilə, digər nazirlərlə çoxlu görüşlərim oldu. Mən Fransaya gəldiyim dəqiqədən indiyədək çox maraqlı görüşlər keçirdim. Fransada bir çox mətbuat orqanlarının nümayəndələri ilə də görüşdüm, jurnalistlərin suallarına da cavab verdim. Dünən Fransa televiziyasının iki kanalında müsahibə verdim. Çalışırıq ki, Azərbaycanı Fransada daha da tanıdaq.

Mən üç il əvvəl də burada rəsmi səfərdə olmuşam. Ötən bu üç ildə Fransada Azərbaycana olan münasibət dəyişibdir. İndi Azərbaycanı Fransada yaxşı tanıyırlar. Amma təəssüf ki, ondan əvvəl respublikamızı Fransada o qədər də tanımırdılar.

Deyilənə görə, Fransada çox az azərbaycanlı yaşayır. Mən müxtəlif ölkələrdə səfərə gedəndə həmişə azərbaycanlılarla görüşürəm. Soruşuram ki, niyə bəs az görüşürsünüz? Cavab verirlər ki, bir-birimizlə əlaqələrimiz o qədər də yaxşı deyil. Mən hər yerdə – Almaniyada da, Belçikada da, İngiltərədə də və başqa ölkələrdə də azərbaycanlıların bir-biri ilə əlaqəsinin zəif olduğunu gördüm. Nədənsə, millətimiz hələ bir-biri ilə sıx əlaqələr qurmağa nail ola bilməyib.

Bilirsiniz ki, ölkəmizin başına gələn ən böyük bəla Ermənistanın Azərbaycana etdiyi təcavüzdür. Artıq 8 ildən çoxdur ki, Ermənistan Azərbaycana təcavüz edib və bəzi səbəblərdən [322-323] torpaqlarımızın 20 faizi işğal olunubdur. İşğal olunmuş bu torpaqlardan bir milyondan çox vətəndaşlarımız yerlərindən-yuvalarından didərgin düşmüşdür. Onların çoxu çadırlarda ağır vəziyyətdə yaşayır.

1994-cü ilin mayında müharibədə atəşi dayandırdıq. İki il səkkiz aydan çoxdur ki, atəş yoxdur, qan tökülmür. Aydındır ki, ölkə müharibə içərisində olanda orada yaşayış da çətin olur, bir çox problemləri də həll etmək çətinləşir. Biz müharibədə atəşi dayandırdıq və çalışırıq ki, bu müddətdə məsələni sülh yolu ilə həll edək. Ancaq burada da bir çox çətinliklərlə rastlaşmışıq. Çünki Ermənistan Azərbaycanın torpaqlarını işğal edəndən sonra, şübhəsiz ki, öz üstünlüyündən istifadə etməyə və istədiyinə nail olmağa çalışır. İstədiyi də ondan ibarətdir ki, Dağlıq Qarabağ müstəqil dövlət olsun. Sonra isə onu Ermənistana birləşdirsin. Biz buna razı ola bilmərik.

Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı işğal ediblər, orada yaşayan azərbaycanlıları zorla qovublar, sonra isə ətraf rayonların bir çoxunu ələ keçiriblər. İndi onlar bu gücə söykənirlər, arxalanırlar. Bilirsiniz ki, Ermənistanda Rusiyanın çox böyük qoşun hissələri, hərbi bazaları var. Bu onlar üçün böyük köməkdir.

Biz Azərbaycanın müstəqilliyini qoruyuruq. Azərbaycanda Rusiyanın və başqa bir ölkənin ordusu, əsgəri yoxdur. Bilirsiniz ki, biz respublikanın müstəqilliyini qoruyub saxlayırıq. Amma bir çox çətinliklər nəzərdə tutduğumuz planın həyata keçirilməsinə mane olur.

Bilirsiniz ki, Azərbaycanın neft ehtiyatlarından istifadə olunması üçün biz dünyanın bir çox böyük neft şirkətləri ilə əlaqələr qurmuşuq, müqavilələr imzalamışıq. Yanvarın 13-də Parisdəki Yelisey sarayında prezident Jak Şirak və mənim iştirakımla yeni bir müqavilə imzalandı. Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın "Elf Akiten" və "Total" şirkətləri arasında imzalanmış bu müqavilə 25 illik bir müddəti əhatə edir. Bu, Fransa ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayacaq, eyni zamanda Fransa kimi böyük bir dövlətin Azərbaycana münasibətini daha da yaxşılaşdıracaqdır.

Təəssüflər olsun ki, Azərbaycanla münaqişədə olan, bizə qarşı düşmənçilik edən ermənilərin dünyanın əksər ölkələrində çox böyük imkanları, diasporu, tərəfdarları var. O cümlədən, Fransada da belədir. Burada ermənilər çoxdur, onlar [323-324] uzun illərdir ki, burada yaşayırlar, çox böyük imkanları var, böyük kapitala malikdirlər. Ermənilərin bir çoxu Fransada dövlət orqanlarında işləyirlər və bu ölkənin siyasətinə təsir edirlər.

Mən üç il bundan əvvəl Parisə rəsmi səfərə gələndən sonra Fransanın Xarici İşlər naziri Erved de Şarett Bakıda olarkən onunla keçirdiyim görüşdə də onlar bildiriblər ki, bəli, biz Ermənistanla qonşuyuq, uzun illər Fransada yaşayan ermənilər xalqımızın bir hissəsidir. Amma biz azərbaycanlılarla da dost olmaq istəyirik. Biz də istəyirik ki, ölkəmiz Fransa ilə dost olsun, əlaqələrimiz daha da yaxşılaşsın. Ancaq ermənilər buna mane olurlar.

Dünən mənə göstərdilər, burada yaşayan ermənilər "Mond" qəzetində böyük elan veriblər və orada

Azərbaycan haqqında yaramaz, böhtan sözlər yazıblar. Onlar orada mənə müraciət etdilər ki, Dağlıq Qarabağa azadlıq verək, Azərbaycanda ermənilərə qarşı soyqırım olubdur. Bəs ermənilər keçmiş illərdə də, 1988-ci ildən indiyə qədər də nə qədər azərbaycanlıları qırıblar. Ermənistanda yaşayan azərbaycanlıların başına nə işlər gətiriblər, onları zorla çıxarıblar, bir çoxlarını öldürüblər. Dağlıq Qarabağda və ətraf rayonlarda olan müharibədə nə qədər azərbaycanlılar qırılıblar. Yaxud ermənilər Xocalı kimi böyük bir yaşayış məskənində insanların hamısını qırıblar. Soyqırımı ermənilər ediblər, günahlarını azərbaycanlıların, türklərin üzərinə atırlar.

Təəssüflər olsun ki, dünyada ədaləti əldə etmək çətindir. Ermənilərin burada mövqeləri, imkanları, kapitalları var. Ona görə də hamıya təsir edirlər. Ancaq Fransanın Prezidenti, Xarici İşlər naziri, Senatın, Parlamentin sədrləri mənimlə görüşəndə söz verdilər ki, onlar Azərbaycanla da dost olmaq, hətta Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsinə kömək etmək istəyir.

Respublikamızın ictimaiyyətində Fransaya inam vardır. Lakin Fransada ermənilərin təsiri çox olduğuna görə ictimai fikir belədir ki, onlar ermənilərin tərəfini saxlayırlar. Təəssüflər olsun ki, təkcə burada yox, Rusiyada da, Amerikada da belədir. Bax, biz belə bir çətin şəraitdə dövlətimizin müstəqilliyini möhkəmləndiririk, inkişaf etdiririk. Ancaq indi dünyada vəziyyət belədir ki, heç bir ölkə tək yaşaya bilməz. Yaşamaq, in[324-325]kişaf etmək üçün dünyanın bütün ölkələri ilə gərək əlaqə olsun.

Dünya ölkələri ilə əlaqələr yaratmaq üçün respublikamızda geniş imkanlar vardır. Çünki bizim neft yataqlarımıza dünyada maraq çox böyükdür. Məsələn, son iki ildə biz beş neft müqaviləsi imzalamışıq. Bu müqavilələrə görə Azərbaycanın neft sənayesinə 25-30 il müddətində təxminən 15 milyard Amerika dolları məbləğində sərmayə qoyulacaqdır. Bunlar hamısı ölkəmiz üçün böyük imkanlar yaradacaqdır. Şübhəsiz ki, biz bunların vasitəsi ilə Amerika Birləşmiş Ştatları, Fransa, Almaniya, İngiltərə və digər ölkələrlə münasibətləri daha da yaxşılaşdıracağıq. Azərbaycana olan hörmət, ehtiram artacaqdır. Azərbaycanı da sayacaqlar.

Təəssüflər olsun ki, ölkəmizi Avropada uzun illər çox az tanıyıblar. Amma, yenə də deyirəm, respublikamıza düşmənçilik edən ermənilər əsrlər boyu dünyanın hər yerinə səpələniblər. İndi bilmirəm, Fransada nə qədər erməni yaşayır.

**Yerdən səs**: Fransada 300 min erməni yaşayır.

**Heydər Əliyev**: Fransanın 60 milyon əhalisi var, onun 300 mini ermənidir. Prezident Jak Şirak mənimlə söhbətində dedi ki, Fransada 5 milyon müsəlman var. Sözsüz ki, o, müsəlman deyəndə ərəbləri, türkləri, farsları, azərbaycanlıları və sairi nəzərdə tutur. Amma həmin müsəlmanların Fransanın siyasi həyatına elə bir təsiri yoxdur. Ancaq 300 min erməni Fransaya təsir edə bilir.

**Yerdən səs**: Cənab Prezident, Fransada yaşayan ermənilər buradakı televiziyada, nəşr olunan bütün jurnallarda, qəzetlərdə, necə deyərlər, hakimdirlər. Ona görə də nə istəyirlər, onu da yazırlar. Nəinki mətbuatda, digər sahələrdə də çoxlu ermənilər işləyir.

**Heydər Əliyev**: Doğru deyirsiniz. Burada bir çox sahələrdə erməni var. Məsələn, Xarici İşlər Nazirliyində nə qədər erməni işləyir. Fransanın keçmiş Baş naziri Balladyurun da kökü ermənidir.

**Yerdən səs**: Ermənilər uzun illər burada təbliğat aparırlar ki, biz Qarabağda çoxdan yaşayırıq, ona görə də o torpaqlar bizim olmalıdır. Belçikada, başqa yerlərdə nə qədər fransız yaşayır, nə üçün onlar demirlər ki, bu torpaqlar bizimdir?

**Heydər Əliyev**: Yaxşı olardı ki, siz bu sualı mənə yox, fransızlara verəydiniz. Mən sizdən heç kəsi qınamı[325-326]ram. Ancaq Avropa ölkələrində çoxlu azərbaycanlı yaşayır. Mən açıq deyirəm, inciməyin, təəssüflər olsun ki, onların bir çoxunda vətənə münasibət, qayğı, Vətən hissiyyatı zəifdir, bilirəm ki, vətəndən ötrü sizin ürəyiniz gedir, vətəni çox istəyirsiniz. Amma, gəlin görək, əməli işdə nə edə bilərsiniz? Baxın, vətən müharibə ilə üzləşib. Məgər bizim üçün asandır?

Mən arzu edirəm ki, həmvətənlərimiz öz azərbaycanlılıq hissini nəinki unutmasınlar, həmişə bu hissiyyatla yaşasınlar. Azərbaycan müstəqil bir dövlətdir. Bu, tarixi bir hadisədir. Respublikamız bütün beynəlxalq təşkilatların üzvüdür. İndi bizimlə bərabərhüquqlu bir dövlət kimi danışırlar. Baxın, Azərbaycanın Prezidenti ikinci dəfədir ki, Fransa Prezidentinin dəvəti ilə buraya rəsmi səfərə gəlib, görüşlər keçirir, danışıqlar aparır. Bunlar hamısı xalqımız üçün böyük nailiyyətlərdir.

Müstəqil Azərbaycan Respublikasında 8 milyona yaxın insan yaşayır. Gərək bu müstəqil dövlətimizi elə gücləndirək, möhkəmləndirək ki, bütün dünyada olan azərbaycanlılar özlərini daha da yaxşı hiss etsinlər. Amma dünyada olan azərbaycanlılar da hansı ölkələrdə yaşamaqlarından asılı olmayaraq, gərək müstəqil respublikamız haqqında düşünsünlər. Bizim qarşımızda duran ən böyük maneə, əngəl yalnız və yalnız Ermənistanın Azərbaycana etdiyi təcavüzdür. Dağlıq Qarabağ məsələsidir. Ermənilər istəyirlər ki, biz Dağlıq Qarabağı Ermənistana verək. Biz bunu edə bilmərik. Biz heç vaxt bunu etməyəcəyik. Biz heç vaxt torpaqlarımızı Ermənistan silahlı qüvvələrinin işğalı altına qoymayacağıq.

Hazırda biz sülh danışıqları aparırıq. Mən çalışıram ki, bu danışıqlar nəticə versin, Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından sülh yolu ilə çıxsınlar, Dağlıq Qarabağa da Azərbaycan dövlətinin tərkibində yüksək dərəcədə üzünü idarə etmə statusu verək. Onlar buna razı olmurlar. Amma razı olmalıdırlar. Başqa yolu yoxdur. Əgər bunlar nəticə verməsə, biz nəyin bahasına olursa-olsun öz torpaqlarımızı Ermənistan işğalından azad etməliyik. Biz öz torpaqlarımızın, ərazimizin, sərhədlərimizin sahibi olmalıyıq. Biz

bu fikirlə yaşayırıq, mübarizə aparırıq. Mən sizi də bu fikrə qoşulmağa dəvət edirəm.

**Yerdən səs**: Cənab Prezident, ermənilər "Mond" qəzetində Azərbaycan əleyhinə yazı dərc etmişdilər. Yaxşı olar ki, o yazıya cavab verilsin.

**Heydər Əliyev**: Tapşırmışam, o yazıya cavab ve[326-327]riləcək. Ancaq bu yazını ermənilər dərc elətdiriblər. Azərbaycanlılar da buradakı başqa qəzetlərdə ermənilərin təcavüzkar hərəkətləri barədə yaza bilərlər, amma yazmırlar. Eşitdiyimə görə, "Mond" qəzetində belə bir yazını pul ilə çap edirlər. Mən deyə bilmərəm ki, Fransadakı azərbaycanlıların hamısı kasıbdır. Yəqin dövlətlisi də, ortabab yaşayanı da var. Amma yazmırlar.

**Yerdən səs**: Cənab Prezident, düz deyirsiniz, "Mond" qəzetində yalnız pula çap edirlər, həm də ermənilərin orda adamları var.

**Heydər Əliyev**: Yaxşı olar ki, siz də bir hərəkət edəsiniz. Doğrudur, səfirlik vasitəsi ilə mən o yazıya cavab verəcəyəm. Ancaq siz də bir iş görün. "Mond" qəzetinə də, başqa qəzetlərlə də məktublar göndərmək lazımdır. Bildirin ki, ermənilər yazdıqları yalandır, siz Azərbaycana qarşı böhtan atırsınız, həqiqəti demirsiniz, dünya ictimaiyyətini aldadırsınız, cinayət edirsiniz. Bunları yazmaq lazımdır.

Ramiz Abutalıbov (Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri): Möhtərəm Prezident, icazə verin bir məsələ haqqında Sizə məlumat verim. Fransada dörd Azərbaycan cəmiyyəti mövcuddur. Onlardan birini, "Azərbaycan evi" cəmiyyətini vaxtilə biz yaratmışdıq. O, 1989-cu ildən 1993-cü ilə qədər fəaliyyət göstərdi. Bu cəmiyyətin fəxri prezidenti Timurçin Hacıbəyli idi, mən isə icraçı sədr idim. O dövrlərdə biz Qarabağ münaqişəsinə dair hər il bir kitab, cəmi 4 kitab buraxmışıq. İcazə verin, bu kitabları sizə təqdim edim.

Möhtərəm Prezident, Sizin Fransaya hazırlıqlı rəsmi səfəriniz zamanı biz cəmiyyətimizin toplantısını keçiririk. Səid İsmayılovu cəmiyyətimizə yeni sədr seçdik. Mən istəyirəm ki, bu cəmiyyətin idarə heyətinin üzvlərini də sizə təqdim edim. Hüseyn Azərməhd, Vəfa Mustafayev və Aytən Muradova idarə heyətinin üzvüdür. Ağsaqqallarımız Qədir Süleymanoğlu, Tofiq Tağıyev, Qüdrət Bəkirzadə cəmiyyətimizin ən fəal üzvləridir. Onların üçü də Fransada müqavimət hərəkatının üzvləri olub.

Hazırda Bakıda Azərbaycan-Fransa Dostluq Cəmiyyəti yaranıb. Biz istəyirik ki, Fransadakı Azərbaycan cəmiyyəti ilə sıx əlaqə yaransın.

**Heydər Əliyev**: Çox yaxşı. Heç olmasa, balaca [327-328] da olsa, addımlar atmaq lazımdır. Mənə başqa sualınız, sözünüz varmı?

**Yerdən səs**: Cənab Prezident, bilmək istəyirəm ki, Qazax rayonunda vəziyyət necədir?

**Heydər Əliyev**: Qazax rayonunda vəziyyət normaldır. Qazax rayonunun bir neçə kəndi 1990-cı ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, qalan yerlərində vəziyyət normaldır.

**Yerdən səs**: Bəs iqtisadi vəziyyət necədir?

**Heydər Əliyev**: İqtisadi vəziyyət isə Azərbaycanın hər yerində olduğu kimidir. Azərbaycanda iqtisadi vəziyyət yaxşıdır. Bilirsiniz ki, biz indi özəlləşdirmə proqramını həyata keçiririk, torpağı camaata paylayırıq. Camaat torpağın sahibi olur. Yəqin ki, kənd yerlərindən xəbəriniz var. Əvvəllər mal-qaranın, heyvanların hamısı kolxozda, sovxozda idi. Mən hələ Naxçıvanda işləyərkən bunları kəndlərə payladım. Heyvanların sayı iki dəfə artdı. Ət, süd, yağ istehsalı da artdı. İndi ət, süd sarıdan problem yoxdur. Çünki respublikada mal-qaranı, heyvanları camaata paylamışıq. Kənd adamları mal-qaraya yaxşı baxırlar, özlərinə mənfəət götürürlər, əhalini də təmin edirlər.

İndi torpağı da camaata paylayırıq. Hərənin öz mülkiyyəti, torpağı olanda çox məhsul götürəcək, özü də yaxşı yaşayacaq, dövlətə də xeyir verəcəkdir. Biz bütün müəssisələri özəlləşdiririk. Siz bilirsiniz ki, özəl sektor necə böyük əməliyyata malikdir. Bunlar hamısı Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırır. Keçmişdə bizdə olan kollektiv işlər isə öz nəticəsini vermədi.

Mən sizə deyim ki, əgər Azərbaycanda bir milyon qaçqın olmasaydı və torpaqlarımızın 20 faizi işğal altında qalmasaydı, respublikamızın işləri daha da yaxşı olacaqdır. Biz bu çətinlikləri keçib gedəcəyik, mən əminəm ki, iki-üç ilə qədər Azərbaycanın iqtisadi vəziyyəti çox yaxşı olacaq. Bizim ən böyük məsələmiz torpaqlarımızı azad etmək, Dağlıq Qarabağ problemini aradan qaldırmaqdır. Biz bunu aradan qaldırmalıyıq. Biz bunu həll edəndən sonra, arxayın olun, narahat olmayın, hər şey yaxşı olacaq, siz də hər yerdə Azərbaycan haqqında böyük ruh yüksəkliyi ilə, qürur hissi ilə danışacaqsınız.

**Yerdən səs**: Cənab Prezident, yaxşı olar ki, azərbaycanlı gəncləri Avropa ölkələrinə oxumağa göndərilsinlər. [328-329]

**Heydər Əliyev**: Bəli, biz gəncləri xaricə oxumağa göndəririk və yenə də göndərəcəyik.

**Yerdən səs**: Cənab Prezident, mən Fransanın Qrenobl şəhərində yaşayıram, doktorluq dissertasiyası üzərində işləyirəm, adım, soyadım Ağasəlim Rəsulovdur.

Möhtərəm Prezident, mən çox fəxr edirəm ki, elmi işimlə əlaqədar Fransada tanıdığım elm adamlarının çoxu Sizin tərcümeyi-halınızı yaxşı bilənlərdir və dünyanın ən görkəmli dövlət xadimi kimi Sizə onların çox böyük hörmət və ehtiramı var. Bu elm adamlarından bir çoxu məndən xahiş ediblər ki, onların şəxsi salamlarını və xoş arzularını Sizə çatdırım.

Mən Fransadakı Azərbaycan cəmiyyətinin işində yaxından iştirak edirəm. Qrenoblda çox az azərbaycanlı yaşayır. Onlar da cəmiyyətin işində fəallıq göstərirlər. Cənab Prezident, icazə verin, bu kitabları Sizə təqdim edim.

**Heydər Əliyev**: Sağ olun, salamat qalın. [329-330]

**QUSAR RAYONUNUN YUXARI ZEYXUR KƏNDİ ƏRAZİSİNDƏ AVTOBUS QƏZASINDA HƏLAK OLANLARIN AİLƏLƏRİNƏ**

1997-ci il yanvarın 15-də Qusar rayonunun Yuxarı Zeyxur kəndi ərazisində avtobus qəzası baş vermişdir. Faciə nəticəsində insan tələfatı olmuş, yaralananlar var.

Həlak olanların ailələrinin kədərinə şərik olaraq onlara dərin hüznlə başsağlığı verirəm, bu ağır gündə səbir və dözüm diləyirəm.

Allah rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*16 yanvar 1997-ci il* [330-331]

## M. QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*19 yanvar 1997-ci il*

**Heydər Əliyev:** Biz səni Türkiyəyə müalicəyə göndərdik ki, sağalıb gələsən. Gələndən sonra dedin ki, hər şey yaxşıdır. İndi necə oldu ki, yenə də xəstələndin?

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, Türkiyədə həkim prostat vəzini kəsib, lakin azca hissəsi qalıb, o da əngəl yaradıb. Əvvəl bundan yaxşı idim. Mən Türkiyədən Bakıya qayıdandan sonra Sizə də zəng etdim. Bir müddətdən sonra Türkiyədə məni müalicə edən həkimlə telefonla əlaqə saxladım. O dedi ki, düzələcək. Sonra gördüm ki, yox, düzəlmir. Sonra Azərbaycan Milli Məclisinin üzvü, Yeni Azərbaycan Partiyasının üzvü professor Sudeif İmamverdiyevə müraciət etdim. Baxan kimi dedi ki, əməliyyat keçirmək lazımdır. O, əməliyyat keçirdi, prostat vəzinin artıq hissəsini kəsib götürdü. İndi 3-4 gündür özümü yaxşı hiss edirəm. Deməк, səhhətim düzəlib.

İndi müxalifət qəzetləri də ağızlarına gələni yazırlar. Lalə Şövkət Partiyasının qəzeti bu barədə material verib.

**Heydər Əliyev:** Belə məsələlərdən də yazırlar. Görünür, belə şeylərlə sensasiya yaratmaq istəyirlər. Yaxşı, qoy həkim gəlib məlumat versin, görək vəziyyət necədir?

**Sudeif İmamverdiyev:** Cənab prezident, ikinci gün əməliyyat keçirmişik. Bu əməliyyat hər cəhətdən çox yaxşı keçdi. Türkiyədə bu prostat vəzini aparatla götürmək çətin olub. Yəni texnika elə nahiyədə yerləşən vəzi tam təmizləyə bilmir. Vəzin orada qalmış hissəsi qapama yaradırdı, bu isə narahatlığa səbəb olurdu. Bəxtiyar müəllimin vəziyyəti də ona görə gündən-günə pisləşirdi.

Biz əməliyyatı elə-belə keçirmədik. Əvvəlcə yaxşıca yoxladıq, aparatla baxdıq. Gördük ki, maneə var və əməliyyat keçirib həmin artıq hissəni götürdük. [331-332]

İndi Bəxtiyar müəllimin vəziyyəti gündən-günə yaxşılaşır. Biz düşünürük ki, bu vəziyyət get-gedə daha da yaxşılaşacaq. Müalicə yüksək keyfiyyətlə, düşünülmüş qaydada aparılır. Bəxtiyar müəllim özü də razıdır ki, vəziyyəti gündən-günə yaxşılaşır. İnşallah, hər şey yaxşı olacaq.

**Bəxtiyar Vahabzadə:** Heydər müəllim, Allah Sizdən razı olsun. Mən Sizə çox minnətdaram.

Cənab prezident, Yaşar Əliyev mənimlə bir palatada müalicə olunur. Onun da üzərində əməliyyat keçirilib. Siz Azərbaycana əvvəlki dövrdə rəhbərlik etdiyiniz zaman Gəncədə xalq hakimi işləyib. İndi də hüquq-mühafizə orqanlarında çalışır. İcazə verin, Yaşar müəllim "Respublika" qəzetində dərc olunmuş müsahibəni Sizə oxusun.

**Yaşar Əliyev:** Cənab prezident, biz Bəxtiyar Vahabzadə ilə dostuq. Xəstəliyimiz bir vaxta düşüb. Mənim də üzərimdə əməliyyat keçirilib. "Respublika" qəzetində dərc olunmuş bu müsahibənin sərlövhəsi belədir: "Xalq şairi Bəxtiyar Vahabzadə: sessiyanı çağırmaq şəxsi təşəbbüsüm idi".

Müxbir 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar belə bir sual verir: Bəxtiyar müəllim, sizcə o vaxt Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

Bəxtiyar müəllim bu suala belə cavab verir:

- Mən belə hesab edirəm ki, yox. Bilirsən, ay oğul, milli qanı olan, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, bu qırğın olmazdı, heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisələrin çoxundan xəbərim yox idi. Süleyman Dəmirəldən bu barədə soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, çevikliklə, cəsarətlə diplomatik gedişlər edərək 53 dövlətin dəstəyini almağa necə nail olmasından danışaraq dedi ki, "Heydər Əliyevin qədrini bilin".

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, Süleyman Dəmirəl ilə görüşümdə o mənə dedi ki, mən siz ziyalılardan narazıyam. Ona görə ki, prezident Heydər Əliyevə lazımi səviyyədə dəstək vermirsiniz. [332-333]

**Heydər Əliyev:** Sağ olun. O da sağ olsun, siz də sağ olun. Amma kimin dəstək verib-verməməsi əhəmiyyətli deyil, mən öz işimi aparıram.

**Bəxtiyar Vahabzadə:** Heydər müəllim, Allah Sizdən razı olsun. Fransa səfəriniz necə keçdi?

**Heydər Əliyev:** Fransaya səfərim çox yüksək səviyyədə keçdi. Fransa-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox yaxşı danışıqlarımız oldu. Fransanın prezidenti Jak Şirakla çox maraqlı söhbətlərimiz oldu. Xarici işlər naziri və digər nazirlərlə, senatın, parlamentin sədrləri ilə, Fransanın ən yüksək vəzifəli adamlarının hamısı ilə görüşlərimiz, danışıqlarımız oldu. Biz orada Yelisey sarayında Jak Şirakın və mənim iştirakımla beşinci neft müqaviləsini imzaladıq, o da, mən də nitq söylədik.

**Bəxtiyar Vahabzadə:** Fransanın Minsk qrupuna həmsədrliyi məsələsi də müzakirə olundumu?

**Heydər Əliyev:** Bu məsələ ilə əlaqədar mürəkkəb danışıqlar oldu. Ancaq bu danışıqlar hələ davam edəcək. Görək sonra necə olacaq?

**Bəxtiyar Vahabzadə:** Allah yaxşı eləsin.

**Heydər Əliyev:** Bilirsiniz, Azərbaycanın səhiyyəsi, həkimləri yüksək səviyyədədir. Adam bəzən özününkünün qədrini bilmir. Mən hələ 70-ci illərdə də respublikaya rəhbərlik edərkən görürdüm ki, bizim tanınmış müxtəlif adamlar belə bir xəstəlik haqqında tez-tez şikayətlənirdilər. Mən də kömək edirdim, respublikamızın cərrahları belə əməliyyatlar keçirirdilər və çox yaxşı nəticələr də əldə edirdilər. Haqqına demək lazımdır, o vaxt Moskvada da çox yüksək səviyyəli mütəxəssislər var idi.

**Bəxtiyar Vahabzadə:** Mütəxəssislərin hamısı orada yetişirdi.

**Heydər Əliyev:** Bəli, hamısı orada yetişirdi. Sudeif İmamverdiyev də orada yetişib. Azərbaycanın ən böyük uroloqu Cavadzadə də, başqaları da Moskvada təcrübə keçiblər. O vaxt respublikamız üçün ən yüksək səviyyə ora idi. İndi həqiqəti demək lazımdır ki, səhiyyənin təşkili və tibbi yardımı sayəsində yaranmış sistem çox gözəl sistemdir. Heyf ki, o dağılır.

**Bəxtiyar Vahabzadə:** Elə təhsil sistemi də belə idi. Bizim təhsil sisteminin dünyada əvəzi yox idi.

**Heydər Əliyev:** Rus, sovet təhsil sisteminin əvəzi [333-334] yoxdur. Dünyada Moskva Universitetinə bərabər universitet yoxdur. Mənim oğlum İlham Moskvada Beynəlxalq Əlaqələr Universitetini bitiribdir. Bu, dünyada ən məşhur universitetdir. Dünyanın ən böyük diplomatlarının çoxu orada təhsil alıbdır. Dünyada elə bir ikinci universitet yoxdur. Amma biz vaxtilə bunların qədrini bilməmişik. Biz elə bilirdik ki, hardasa bundan da yaxşısı var.

İndi bir tərəfdən yaxşı oldu ki, dünya dəyişdi, hər şey açıldı, biz harada nəyin olub-olmadığını bildik. Mənim Türkiyəyə də, Fransaya, İngiltərəyə, Amerikaya da – hamısına böyük hörmətim var. Hər bir ölkədə çox yüksək səviyyədə mütəxəssislər var. Ancaq axı Azərbaycan da böyük mütəxəssislər, kadrlar yetişdirib. Elm, səhiyyə, tibb, təhsil, tibb xidməti sahəsində biz nə qədər yüksək səviyyəli adamlar yetişdirmişik, bunların qədrini bilmək lazımdır. Mən dəfələrlə demişəm ki, bəziləri dünyanı anlamayan, burnunun ucundan o tərəfi görməyən adamlar indi hər şeyi pisləyirlər. Elə deyil. Təsəvvür edin, Azərbaycanda olan mədəniyyət xadimləri harada var?

**Bəxtiyar Vahabzadə:** Üzeyir bəy, Qara Qarayev, Fikrət Əmirov?

**Heydər Əliyev:** Belə şəxsiyyətlər harada var? Yoxdur. Azərbaycanda olan şairlər harada var? Azərbaycanda şairə, bəstəkara, aktyora, rəssama olan hörmət harada var? Xarici ölkədə rəssam şəkil çəkir, aparıb küçədə qoyur ki, görsün onu sata bilir, yoxsa yox. Amma bizdə rəssam bir şəkil çəkir, gətirib sərgiyə qoyuruq, onu tərifləyirik, hörmətini qaldırırıq. Xaricdə şair şer yazır, haradasa dərc olunur, ya olunmur, tanınmır.

**Bəxtiyar Vahabzadə:** Heydər müəllim, ən mühümü teatr sənətidir. İnanın ki, keçmiş SSRİ-də olan rejissorluq məktəbi dünyanın heç yerində yoxdur. Moskvadakı 10-15 dram teatrının hər birinin öz yolu var. Stanislavskinin, Efrosun, Yefremovun teatrları, rejissurası bir-birindən tamamilə fərqlənirdi. Orada məktəblər var ki, adamı dəhşətə gətirir. Respublikamızdakı rejissorlar da orada təhsil alıb gəliblər. Ona görə də, hətta 5-6 ildir teatr olmasa da, respublikamızda teatr da, aktyorlarımız da yüksək səviyyədədir.

Gərək ki, Sizə demişdim. Mən göytürklər haqqında, yəni 1.500 il bundan əvvəlki tariximiz haqqında bir pyes yazmışam. Bizim teatr indi onu hazırlayır. Mən onu aparıb həm də Tür[334-335]kiyə teatrına verdim. Birinci pyesimdir ki, onlara verirəm. Sizi inandırıram, baxdılar, təəccüb etdilər ki, bu nə məktəbdir, nə yenilikdir, bu teatrda bu yeniliyi necə yaratmaq olar? Amma onu bizim teatrda, səhnədə yaratmaq mümkündür. Çünki mən bu məktəbi keçmişəm. Məsələn, teatrın səhnəsində ekran onların təsəvvürlərində yoxdur. Ekranı səhnəyə gətirmək, kino ilə teatrı birləşdirmək rus rejissorluq məktəbinə məxsusdur.

Heydər müəllim, bilirsiniz ki, mən həmişə, ömrüm boyu "türk-türk" demişəm, respublikamızın müstəqilliyini istəmişəm. Amma bir həqiqət var ki, biz onu deməliyik. Biz böyük bir məktəb keçmişik – biz böyük rus mədəniyyəti məktəbini keçmişik. Xüsusən, XIX əsr rus mədəniyyəti dünya mədəniyyətinin zirvəsidir.

**Heydər Əliyev:** Tamamilə doğrudur.

**Bəxtiyar Vahabzadə:** Biz o bulaqdan su içmişik. Fikrət Əmirov, Qara Qarayev yaradıcılığı başqa-başqa üslublardır. Amma hərəsinin öz böyüklüyü, üstünlüyü var. Üzeyir bəy tamam başqa bir zirvədir. Rəssamlığımızı götürək, Səttar Bəhlulzadə tamam başqa bir dünyadır, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev başqa-başqa məktəblərdir.

Ədəbiyyatımız da belədir. Götürək Süleyman Rəhimovu. O diapazonda, genişlikdə, nəfəsdə dünya ədəbiyyatında çox nadir yazıçılar var. Onu ancaq Aleksey Tolstoyla, Lev Tolstoyla müqayisə etmək olar. Onlar böyük nəfəslərdir. Biz o bulaqdan su içməyimizə təəssüflənməməliyik, biz onları təbliğ etməliyik.

Qurban olum, aman günüdür, hər şey ola bilər, ancaq müstəqilliyimizi əlimizdə möhkəm saxlamalıyıq.

**Heydər Əliyev:** Bilmirəm, burada televizor var, yoxsa yox. Mənim Fransadakı çıxışımı dünən də, srağagün də verirdilər. Fransada Beynəlxalq Əlaqələr İnstitutu var. Mən 1993-cü ildə də, bu dəfə də Fransaya gedəndə orada çıxış etdim. Fransaya səfərə gələn dünya ölkələri başçılarının hamısı orada mütləq çıxış edirlər.

Klinton da, Kol da, Mitteran da – hamısı orada çıxış ediblər.

Böyük mütəxəssislər, Fransada olan səfirlər oraya toplaşmışdılar. Salon ağzınadək dolu idi. Mən orada çıxış etdim, suallar da verdilər. Mən təkcə orada yox, hər yerdə, demişəm ki, respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik. Buna arxayın ola bilərsiniz. Dünyada da bilirlər ki, Azərbaycan nəinki müstəqilliyə nail olmuşdur, [335-336] həm də respublikamızın hazırkı dövləti həqiqi müstəqillik siyasəti aparır. Mən orada çoxlu suallara cavab verdim. Bu, sirr deyil. Bu görüş televiziya vasitəsilə verilib.

Məsələn, mənə belə bir sualla müraciət etdilər ki, niyə siz Müstəqil Dövlətlər Birliyində bir çox sənədlərə imza atmırsınız və hər şeylə razı deyilsiniz? Cavab verdim ki, bu da bizim müstəqilliyimizi göstərir. Biz bu təşkilata daxil olmuşuq, o bizə lazımdır. Amma bu təşkilatın hansı qərarları respublikamızın müstəqilliyinə zərrə qədər də toxunursa, biz onu imzalamırıq, qəbul etmirik. Bu da təbiidir. Bir ölkə tamam qəbul edir – özü bilər, başqa bir ölkə də qəbul etmir. Görürsünüz, bu məsələləri Qərb ölkələrində bilirlər və mənə belə suallar verirlər. Yəni müstəqilliyimizi gündən-günə möhkəmləndirmək, onu müdafiə etmək sahəsində həyata keçirdiyimiz tədbirlərimizi Qərb ölkələrində bilirlər. Fransada da məndən bu barədə soruşurdular.

Müstəqilliyimiz haqqında narahat olmayın. Bu gün yanvarın 19-u, sabah 20-sidir. Bu günlər biz 20 Yanvar hadisəsinin yeddinci ildönümünü qeyd edirik. Yeddi il bundan əvvəl şəhidlər vermişik. Mən Fransaya səfərimdə də bu barədə danışdım. Dedim ki, mənim buraya səfərim Azərbaycana qarşı olmuş hərbi təcavüzün, bizim o faciəmizin, şəhidlərimizin yeddinci ildönümünə təsadüf edir.

Azərbaycana nə üçün belə hərbi təcavüz etdilər? Azərbaycanda ayağa qalxmış xalqın azadlıq hərəkatını boğmaq üçün bunu etdilər. Biz şəhidlər verdik, insanlarımız qırıldı. Azərbaycanın başına gələn bu bəla o vaxt heç bir respublikada baş verməmişdi.

Xalq da, siz də arxayın ola bilərsiniz ki, ölkəmizin müstəqilliyi sarsılmazdır. Doğrudur, bu, asan deyil, çox çətindir. Amma nə qədər çətin olsa da, bəlkə də başqa məsələlərdə biz nəyi isə itirə bilərik, ancaq müstəqillik məsələsində heç bir şeyi itirə bilmərik.

Fürsətdən istifadə edərək, Yanvar faciəsinin yeddinci ildönümü münasibətilə demək istəyirəm ki, Bəxtiyar müəllim, biz sizin bu sahədəki xidmətlərinizi həmişə qeyd etmişik və bu gün də mən bunu bildirirəm. Bilirsiniz ki, biz Yanvar faciəsinə siyasi qiymət verilməsi ilə əlaqədar 1994-cü ildə qərar qəbul etmişik. Yadımdadır, 1990-cı il yanvarın 22-də sizin sədrliyinizlə sessiya keçirildi. Təsəvvür edin, respublikanı, hökuməti idarə edən adamlar qaçdılar, sessiyaya Bəxtiyar Vahabzadə [336-337] sədrlik edirdi. Əgər sən dünənədək bu hökumətə, xalqa, dövlətə, respublikaya rəhbərlik edirdinsə, onun ağır günündə də gəl xalqla bir yerdə ol. Sən qaçıb evdə gizlənmisən, Bəxtiyar Vahabzadə isə özünü burada fəda, necə deyərlər, şəhid edir. Yəni Bəxtiyar Vahabzadə burada bu qərarı qəbul edir, amma sən gedib dörd gündən sonra özünü Azərbaycana hakim təyin etdirirsən və bu faciənin üstünü örtməyə, basdırmağa başlayırsan.

Onlar bu faciənin üstünü basdırdılar, sizin qəbul etdiyiniz qərar isə qərar kimi qaldı. Yanvarın 22-də sessiyada siz qərar qəbul etdiniz ki, Sovet Ordusunun qoşunları əgər buradan tezliklə çıxmasa, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxacaqdır. Amma sovet ordusunun qoşunları Azərbaycandan çıxmadı. Bir neçə gün ondan sonra Azərbaycana təyin edilmiş rəhbərlər də sizin qəbul etdiyiniz qərarı yerinə yetirmədilər, Rusiyanın qoşunlarını buradan çıxarmadılar.

Sovet ordusunun qoşunlarını nəinki buradan çıxarmadılar, Bakı 1990-cı ili tamamilə fövqəladə vəziyyətdə, əsgərlərin avtomatı altında yaşadı. Qoşunları yalnız 1991-ci ilin sonunda Bakıdan çıxardılar. Bu da o vaxt baş verdi ki, artıq Moskvada qiyam olmuşdu. Sovet İttifaqı dağılırdı. Qoşunları da Bakıdan məhz bu vaxt çıxardılar.

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, o vaxt onlar qiyamçıları dəstəklədilər, onlara səs verdilər.

**Heydər Əliyev:** Bəli, onlar qiyamçılara səs verdilər, amma bundan da bir şey çıxmadı.

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, o vaxtkı sessiyada hökumət adamlarından yalnız Həsən Həsənov iştirak edirdi.

**Heydər Əliyev:** Onlar nə sessiyada iştirak etdilər, nə də şəhidlərin matəm, dəfn mərasiminə gəlmədilər.

**Bəxtiyar Vahabzadə:** Ondan 5-6 gün sonra qəzetdə elan etdilər ki, bu sessiya qeyri-qanunidir və onun heç bir hüquqi əsası yoxdur.

**Heydər Əliyev:** Bəli, bax, satqınlıq, milləti satmaq budur. Şübhəsiz ki, belə adamlar nə millətin qayğısına qala, nə də respublikamızın müstəqilliyini qoruya bilərdilər.

20 Yanvar hadisəsi faciəli olsa da, o, xalqımızın müstəqilliyə nə qədər meylli olduğunu, bu arzu ilə yaşadığını göstərdi və onu nümayiş etdirdi. Qan töküldü, faciə oldu, şəhidlər verdik, amma xalqımızın iradəsini dünyaya sübut etdik. Bunun da [337-338] böyük əhəmiyyəti var. Ona görə də mən bu faciə haqqında danışanda deyirəm ki, əlbəttə, biz itkilər verdik, günahsız insanlar qırıldı, amma digər tərəfdən, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin irticaçı, təcavüzkar siyasəti büruzə verildi və Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi ən yüksək zirvəyə qalxdı.

**Bəxtiyar Vahabzadə:** Heydər müəllim, o vaxt Siz Moskvada çıxış etdiniz.

**Heydər Əliyev:** Bəli, yanvarın 21-də mən Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən

Moskvada təcrid edilmiş, cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər. Hətta hazırlaşırdılar ki, orada məni həbs etsinlər.

Sizə danışmışam, o vaxt mən Moskvada deyildim. Xəstə idim, Moskvadan kənarda sanatoriyada müalicə olunurdum. Axşam bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim. Uşaqlarım – oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya gedirəm. Bildirdilər ki, axı bu, təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata, biz də səninlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb – oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən – vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi.

Eybi yoxdur, yeddi il keçdi. Şəhidlərin ruhu, əlbəttə ki, qəlbimizdə yaşayır və daim yaşayacaqdır. Biz bu günü heç vaxt unutmayacağıq. Ona görə də mən yanvar faciəsinin yeddinci ildönümünün qeyd edilməsi ilə əlaqədar sərəncam verdim ki, xalqımız o günləri bir daha yad etsin. Mən buraya gələrkən gördüm ki, camaat indidən Şəhidlər xiyabanına axışır. Respublika sarayında sabah böyük bir mərasim olacaqdır, mən də orada iştirak edəcəyəm.

Bu söhbəti sən saldın, mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda, mübarizədə Bəxtiyar Vahadzadənin xidmətləri böyükdür. Ölkəmizin, xüsusən o çox gərgin [338-339] vəziyyətində siz vətəndaşlıq, ziyalılıq cəsarəti göstərmisiniz. Ona görə də nə mən, nə də xalqımız bunu unuda bilmərik və onu yüksək qiymətləndiririk.

Təhsil, teatr barədə sizin fikirlərinizlə mən tamamilə razıyam. Məsələn, siz Süleyman Rəhimov haqqında söz açdınız. Mənim xatirimdədir o vaxt mən işləyəndə ilk dəfə Süleyman Rəhimov və sonra yazıçılarımızdan, şairlərimizdən bir çoxları Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Bu, o vaxt dövlətimizin ən yüksək mükafatı idi. Bunları bu gün heç vaxt təhlil etmək lazım deyil. Kim hansı dövrdə, hansı dövlətdən hansı mükafatı alıbsa, o, yüksək bir nişanədir. O vaxt mən yazıçılarımızdan, şairlərimizdən ilk dəfə Süleyman Rəhimovun belə yüksək mükafata layiq görülməsi barədə təklif verdim və ona nail oldum. Süleyman Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verildi.

Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad verirlər? Süleyman Rəhimov haqqında sizin dediyiniz bu fikirlərlə razıyam. Çünki mən Süleyman Rəhimov haqqında hələ o vaxt belə düşünürdüm. Düşünürdüm ki, Süleyman Rəhimov ədəbiyyatımızda həqiqətən özünəməxsus yer tutub.

Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz. Sabah başqa bir şəxs yaranacaqdır, onun bəlkə də başqa xüsusiyyətləri olacaqdır.

Bəli, xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bununla fəxr etməliyik. Biz kasıb xalq deyilik. Yəni biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir.

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, indi cavanlarımız yetişir. Bizə tamamilə bənzəməyən, yaxın gəlməyən, təzə bir yolla gedən cavan şairlərimiz yetişirlər. Dünən "Ata şapalağı" adlı bir şer oxudum, o, nə gözəl yazır! Atası [339-340] rəhmətə gedib, şair deyir ki, mənim ata şapalağına ehtiyacım var. Deyir ki, ata, qalx mənə bir şapalaq vur – mən bu dünyanı dərk edə bilmirəm, bəlkə sənin şapalağın məni ayıltdı, bu dünyanı dərk edə bildim. Bizim ata nəsihətinə, ata öyüdünə həmişə ehtiyacımız var.

Üzr istəyirəm, mənim tamam başqa bir yolum var.

**Heydər Əliyev:** Sənin öz yolun var, bu yolu dəyişdirə bilməzsən. Amma onun da öz yolu var.

**Bəxtiyar Vahabzadə:** Bəli, onun da öz yolu var. Onu təqdir etmək lazımdır. Onun qolundan tutub irəli aparmaq lazımdır.

**Heydər Əliyev:** Düz deyirsən. Mən Anarla danışmışam, sizə də deyirəm, vaxt ayırıram, istəyirəm ki, bu yaxınlarda yazıçıların hamısı ilə, eyni zamanda, ya bir yerdə, ya da ayrıca gənc nəsillə görüşək. Çünki biz vaxtilə bunu edirdik. Məsələn, Anar, Elçin, Yusif Səmədoğlu – xatirimdədir, 25 il bundan əvvəl biz onlarla cavanlar kimi görüşürdük. İndi onlar yaşlaşıblar. Amma gərək bugünkü gənclərlə də görüşək. Belə cavanlarımız var və olacaqdır.

Bilirsiniz, bəzən mən çox görkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki, yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.

**Bəxtiyar Vahabzadə:** Azər Zeynalov var. İlahi, o nə gözəl, şirin oxuyur!

**Heydər Əliyev:** Bəli, Azər Zeynalov. Mən Rəşid Behbudovu çox sevirdim. Rəşid Behbudov yaşlaşdıqca mən daim narahat olurdum ki, onun yerini kim tutacaq. İndi baxıram, Azər Zeynalov gözəl oxuyur.

Fəxr etməliyik ki, bizim Rəşid Behbudov kimi böyük bir müğənnimiz olubdur. Bu yaxınlarda Moskvada onun çox böyük yubileyini keçirdik. Moskvadan gələn böyük-böyük adamlar mənə deyirdilər ki, son illər Moskvada belə bir şey olmamışdır. Oradakı "Rossiya" salonuna Moskvanın bütün elitası, ziyalıları toplaşmışdılar. Bunun mənası nədir? Biz, birincisi, Rəşid Behbudovu xatırladıq, onu yada saldıq. İkincisi, Azərbaycanın musiqisini, mədəniyyətini göstərdik, üçüncüsü, Rusiya və Azərbaycan mədəniyyətlərini bir-birinə yaxınlaşdırdıq. Görürsünüz, bir tədbirlə nə qədər məsələ həll olundu. [340-341]

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, Füzulinin yubileyi bir möcüzə idi. Yadınıza gəlir. İhsan Doğramacının köməyi ilə Türkiyədə Füzulinin yubileyi qeyd olundu. Amma respublikamızda keçirilən yubiley, yenə də deyirəm, möcüzə idi.

**Heydər Əliyev:** Bəli, xalqımızı tanıtmaq lazımdır. Mən neçə ildir çalışıram, işləyirəm, bir məqsədim var: xalqımızı tanıtmaq.

Siz indi Fransaya səfərim haqqında soruşdunuz. Mən Fransada üç gün oldum. Mən buradan təyyarə ilə saat 8-də uçdum, otelə çatandan yarım saat sonra biz Fransa prezidenti ilə görüşə başladıq. Həmin gün gecə saat 1-dək görüşlər davam etdi. O birisi gün də bütün gün görüşlər oldu. Üçüncü gün mən Fransada işlərimi qurtardım, saat 4-də oradan çıxdım. Həddindən çox görüşlər, böyük auditoriyalar oldu. Bunlar bir çox məqsəd daşıyır. Amma bunun ən böyük məqsədi Azərbaycanı tanıtmaqdan, ölkəmizin bu gün nə olduğunu göstərməkdən ibarətdir. Biz buna nail olduq.

Füzulinin yubileyi də həm Füzulinin yubileyinə, xatirəsinə hörmət idi, həm də Füzulini və xalqımızı dünyada tanıtmaq məqsədi daşıyırdı. Bax, xalqımız belə xalqdır ki, 500 il bundan əvvəl onun dahi bir şairi olubdur və onun əsərləri 500 ildir ki, yaşayır.

Bəxtiyar müəllim, daha sizin vaxtınızı almaq istəmirəm, xəstəsiniz. Allah şəfa versin. Mən inanıram ki, bu, son əməliyyatdır, daha belə əməliyyat olmayacaq, sağalacaqsınız, çıxacaqsınız, möhkəm işləyəcəksiniz və öz yerinizdə möhkəm dayanacaqsınız.

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, Allah sizdən razı olsun. Çox sağ olun.

**Heydər Əliyev:** Mən sizə öz hörmət və ehtiramımı bildirirəm. Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var. İndi Milli Məclisimiz keçmişdə Milli Məclisdə olan bazarkomlardan ibarət deyil. Xalqı təmsil edən ziyalılardır, sizsiniz, elm adamları, bilikli adamlardır. Mən çox məmnunam. Sağ olun.

**Bəxtiyar Vahabzadə:** Cənab prezident, çox sağ olun. Allah Sizdən razı olsun. Allah ömrünüzü uzun eləsin. [341-342]

## ÜMUMXALQ HÜZN GÜNÜNƏ, ŞƏHİDLƏRİN ANILMASINA HƏSR OLUNMUŞ XATİRƏ GECƏSİ BAŞA ÇATDIQDAN SONRA ƏDƏBİ-BƏDİİ KOMPOZİSİYANIN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*20 yanvar 1997-ci il*

Bir neçə gündür ictimaiyyətimiz, xalqımız, millətimiz 20 Yanvar faciəsinin ildönümü münasibətilə qəmqüssə keçirir. Televiziyada göstərilən verilişlər, xüsusən bu gün Şəhidlər xiyabanının ziyarət edilməsi həm şəhidlərin ruhunu şad edir, həm də onların qəhrəmanlığının qəlbimizdə daim yaşadığını, xalqımızın nə qədər məğrur, azadlıqsevən xalq olduğunu nümayiş etdirir.

O hadisədən yeddi il keçsə də, faciəni unutmaq olmaz və hər il yanvarın 20-də hamımız matəm əhval-ruhiyyəsi içində oluruq. Siz də bu gün belə bir əhval-ruhiyyə ilə öz əsərinizi təqdim etdiniz. Mənim fikrimcə, göstərilmiş ədəbi-bədii kompozisiya şəhidlərimizin xatirəsinə, onların qəhrəmanlığına layiqdir.

Bunun üçün incəsənət xadimlərinə təşəkkürümü bildirirəm. Bugünkü tamaşanın həm bədii dəyəri, həm də ifaçıların hər birinin keçirdiyi daxili hisslər, hadisəni dərk etməsi xatirə gecəsinə həqiqətən xüsusi əhəmiyyət verdi. Bunlar çox təsirli idi, şəxsən mənə təsir etdi. Güman edirəm ki, salondakıların hamısına təsir etdi.

Biz xalqımızın başına gətirilmiş müsibətlər içərisində rəhmsizliyi və qəddarlığı ilə seçilən bu günü unutmamaq üçün gərək onu həmişə gözümüzün önünə gətirək. Həm də nəinki təkcə biz unutmayaq, həmçinin gərək gələcək nəsillər də unutmasın. Ona görə sizin bugünkü tamaşanızın da bu baxımdan çox böyük əhəmiyyəti var.

Bununla belə, nə qədər kədərli olsa da, 20 Yanvar gününü [342-343] xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. İnsanlar dünyadan getdi, bəziləri bu gün də şikəstdir, ancaq xalqımızın adını ucaltdılar. Ona görə də bu gün bizim üçün həm matəm günü, həm də iftixar günüdür. Şəhidlərlə də iftixar etməliyik ki, Azərbaycanın adını belə ucaldıblar. Azərbaycanın şairləri, yazıçıları, mədəniyyət xadimləri, incəsənət xadimləri, bəstəkarları və ifaçıları ilə də fəxr edə bilərik ki, bizim belə yüksək səviyyəli mədəniyyətimiz var, hətta bu kədərli, qəmli hadisəni də incəsənətimiz vasitəsilə nümayiş etdirə bilirik. Bunun özü də çox əlamətdardır.

Mən Ümumxalq hüzn gününə, şəhidlərin anılmasına həsr olunmuş xatirə gecəsində iştirak etmiş bütün incəsənət xadimlərinə bir daha təşəkkür edərək onlara yeni yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki, sizin yaradıcılığınız bundan sonra həmişə şadlığımıza, xalqımızın sevincinə, qələbələrinə həsr olunsun. 20 Yanvar da bizim qələbəmizdir. Ancaq elə olsun ki, bizi sevindirən hadisələr daha çox olsun. Sağ olun. [343-344]

## "NEFTÇİ" İDMAN-SAĞLAMLIQ MƏRKƏZİNİN 60 İLLİYİ VƏ MƏRKƏZİN OLİMPİYA QURĞUSUNUN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*25 yanvar 1997-ci il*

Əziz dostlar, idmançılar!
Hörmətli xanımlar və cənablar!

Bu gün bizi buraya bu salona bir neçə əlamətdar hadisə toplamışdır. Bir neçə yubiley təntənəsi üst- üstə düşüb, hamısını birlikdə qeyd edirik. Azərbaycan idmanının inkişafında böyük xidmətləri olan "Neftçi" cəmiyyətinin 60 illiyi, "Neftçi" futbol komandasının 50 illiyi, idman-sağlamlıq mərkəzi kompleksinin açılış mərasimi və nəhayət, son illərdə, xüsusən 1996-cı ildə Azərbaycan Respublikası idmançılarının əldə etdikləri nailiyyətlərin yekunlaşdırılması – bunlar hamısı birlikdə bizim bugünkü mərasimimizə xüsusi əhəmiyyət və keyfiyyət verir.

Mən sizin hamınızı, Azərbaycanın bütün idmançılarını bu təntənəli yubileylər münasibətilə təbrik edirəm, Azərbaycan idmançılarına yeni uğurlar, respublikamızın idmanına gələcək yüksəliş arzulayıram.

Xalqımız, millətimiz fəxr edə bilər ki, biz insan həyatının, cəmiyyətinin mühüm sahəsi, ayrılmaz bir hissəsi olan idmanda belə yüksək zirvələrə qalxa bilmişik, böyük nailiyyətlər əldə etmişik. O nailiyyətlər haqqında bu gün burada konkret faktlar gətirildi, nümunələr göstərildi. Həqiqətən Azərbaycan idmançılarının dünya yarışlarında olimpiya oyunlarında, keçmiş Sovetlər İttifaqının yarışlarında və son illərdə keçirilən cürbəcür beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlər xalqımızın milli sərvətidir. Biz bununla fəxr edirik və bu, xalqımızı gələcəkdə də idmana cəlb etmək üçün böyük amildir.

İnsan yaranandan bəri idman onunla bərabər inkişaf edibdir. İnsan idmansız yaşaya bilməz. Hər bir insan idmanla məşğul olmadığını bəyan etsə də, onsuz da məşğul olur. İnsanın hər bir fiziki hərəkəti idmandır. Ancaq idmanın formalaşmış nümunələrindən istifadə etmək və onu insan həyatının ayrıl[344-345]maz hissəsi kimi qəbul etmək – bu, idmanın yüksək nümunələridir. Hesab edirəm ki, xalqımız bütün əsrlərdə qəhrəmanlıq, cəsurluq, döyüş nümunələri göstərərkən məhz fiziki cəhətdən sağlam, dözümlü, dəyanətli olduğuna görə belə zirvələrə çatıbdır.

Keçmiş əsrlərdə xalqımız arasında idmanın bir çox növləri böyük şöhrət qazanmışdır. Əsrlərdən-əsrlərə Azərbaycan pəhləvanları xalqımızda nə qədər fiziki güc, qüdrət, iradə olduğunu sübut etmişlər. Xalqımız öz pəhləvanları, cəngavərləri, qəhrəmanları ilə fəxr etmişdir. Qəhrəmanlıq yüksək fiziki keyfiyyətlər, cəsarət, iradə tələb edir. Bunlarsız insan qəhrəman ola bilməz. Bunların olması, insanda cəmləşməsi də onun fiziki cəhətdən nə qədər yüksək zirvələrə çatdığını göstərir. Bunlar hamısı idmandır. Bəzən insanlar idmanın ayrı-ayrı növlərinin sön dövrdə, yəni idmanın mütəşəkkil surətdə yayıldığı dövrdə yarandığını hesab edirlər. Ancaq belə deyil, insan həmişə idmanla bir yerdə olubdur.

İndi müasir həyat tələb edir ki, insan idmanla daha çox məşğul olsun. Hesab edirəm ki, xalqımız müstəqil Azərbaycanda idmanla məşğul olmaq üçün daha da çox imkanlar əldə edibdir. Azərbaycanın idman ustalarının beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlər onu göstərir ki, xalqımızın idman sahəsində böyük potensialı var. Ancaq bu potensialı hərəkətə gətirmək, inkişaf etdirmək, yüksək beynəlxalq standartlar səviyyəsinə çatdırmaq üçün idmanı təşkil etmək, ona qayğı göstərmək lazımdır. Məhz buna görə də son illər biz, Azərbaycanın dövləti, bütün çətinliklərə baxmayaraq, müstəqil Azərbaycan Respublikasında idmanın inkişafı üçün lazimi vəsait ayırmağı zəruri hesab etmişik və bundan sonra da bu tədbirləri görəcəyik.

Bu gün biz burada "Neftçi" idman mərkəzinin abadlaşdırılmış, bərpa olunmuş, yeniləşdirilmiş, təmir edilmiş kompleksi ilə tanış olduq. Gördüyünüz şəxsən məni çox sevindirir. Həm "Neftçi" idman cəmiyyəti, həm Dövlət Neft Şirkəti, Gənclər və İdman Nazirliyi, həm Suraxanı rayonunun icra hakimiyyəti birlikdə çox iş görüblər, bu kompleksin müasir səviyyəyə çatdırılması üçün tədbirlər həyata keçiriblər və böyük nailiyyətlər əldə ediblər. Mən bunu bəyənir, təqdir edirəm və işləri görənlərin hamısına təşəkkürümü bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu kompleks "Neftçi" idman cəmiyyətində idmanın daha da yüksəklərə qaldırılmasına, Azərbayca[345-346]nın gəncləri içərisindən idman ustalarının hazırlanmasına və idmanın kütləviliyinin təmin olunmasına xidmət edəcəkdir.

Mən dəfələrlə öz fikrimi bildirmişəm və bu gün bir daha demək istəyirəm ki, idman təkcə ayrı-ayrı çempionların əldə etdikləri nailiyyətlərdən ibarət olmamalıdır, idman kütləvi olmalıdır. Bədən tərbiyəsi Azərbaycan xalqının həyatına, Azərbaycan cəmiyyətinin hər bir hüceyrəsinə sirayət etməlidir. Bu bizim məqsədimizdir. Çalışmalı və nail olmalıyıq ki, Azərbaycanda bədən tərbiyəsi geniş yayılsın, gənclər məktəblərdə, insanlar hər yerdə – müəssisələrdə, təşkilatlarda bədən tərbiyəsi ilə məşğul olsunlar. Bu, xalqımızın fiziki, mənəvi sağlamlığının əsasını təşkil edən amillərdən biridir. Biz çalışırıq və çalışmalıyıq ki,

xalqımız sağlam olsun, gənc nəsillər sağlam yetişsinlər. Xalqımızın həm fiziki sağlamlığını, həm şüuri, mənəvi sağlamlığını təmin etmək dövlətimizin ali məqsədi, vəzifəsidir. Bu vəzifəni yerinə yetirmək üçün bədən tərbiyəsini geniş yaymalı, ona geniş imkanlar yaratmalı, insanları bədən tərbiyəsinə, idmana kütləvi surətdə cəlb etməliyik.

Xalqımızın görkəmli nümayəndələrinin idman sahəsində indiyə qədər əldə etdikləri nailiyyətlər və ümumiyyətlə, tarix boyu qəhrəmanlıq salnaməsi xalqımızın fiziki cəhətdən nə qədər sağlam kökləri olduğunu bildirir. Biz bu kökləri yaşatmalı, inkişaf etdirməli, sarsılmaz, böyük bir çinara döndərməliyik. Elə etməliyik ki, gələcək nəsillərimiz daha sağlam, güclü olsunlar, mənəviyyatca daha da yüksək səviyyələrə çatsınlar.

İdman bunun üçün gözəl vasitədir, bədən tərbiyəsi əsas vasitələrdən biridir. İnsanların fiziki, mənəvi sağlamlığı, şüurunun inkişaf etməsi idmanla, bədən tərbiyəsi ilə sıx bağlıdır. Ona görə də mən daim idmana, bədən tərbiyəsinə xüsusi əhəmiyyət vermişəm və verirəm. Azərbaycanın prezidenti kimi öz qayğımı bundan sonra da göstərəcəyəm. İdmanla, bədən tərbiyəsi ilə məşğul olan bütün təşkilatlar, Azərbaycan Gənclər və İdman Nazirliyi bu imkanlardan istifadə etməli, ölkəmizdə idmanı, bədən tərbiyəsini geniş inkişaf etdirmək üçün çalışmalıdırlar.

Qarşımızda beynəlxalq yarışlar, 2000-ci ilin dünya Olimpiya oyunları durur. Biz bunlara hazırlaşmalıyıq. Azərbaycan Respublikası idmançılarının son illər beynəlxalq yarışlarda, dünya çempionatlarında əldə etdikləri nailiyyətlər, qızıl, gümüş, bürünc medallar idmanımızın nə qədər böyük potensialı olduğunu göstərir. Eyni zamanda onu göstərir ki, xalqımız milli [346-347] azadlığını əldə edəndən, Azərbaycan müstəqil dövlət olandan sonra xalqımızın daxilindəki bu potensial daha güclü inkişaf edir. Çünki keçmiş zamanlarda biz heç vaxt beynəlxalq yarışlarda Azərbaycan müstəqillik qazandıqdan sonra əldə etdiyimiz qədər nailiyyət əldə etməmişdik.

Biz müstəqil dövlətik və ölkəmizin yığma komandasının Atlantada Olimpiya oyunlarında Azərbaycan bayrağı altında iştirak etməsini hamımız böyük iftixar hissi ilə seyr edir, fərəhlənir, sevinirdik. Sevinməyə haqqımız da var. Çünki orada bayrağımız dalğalanırdı, dünya dövlətlərinin komandaları arasında müstəqil Azərbaycan dövlətinin də komandası vardı. Nəinki vardı, bu komandanın bəzi üzvləri yüksək nailiyyətlər də əldə etdilər.

Bu bizim ilk addımımız idi. Ancaq tam əminəm ki, gələn Olimpiya oyunlarına qədər idmanımız inkişaf edəcəkdir, Azərbaycan idmançıları özlərini hazırlayacaqlar və gələn Olimpiya oyunlarında Azərbaycan idmanı, ölkəmizin idmançıları, Azərbaycan Respublikası daha yüksək pillələrə qalxacaqdır. Mən buna tam əminəm. Bunun üçün Azərbaycan dövləti və prezident kimi mən bütün imkanları yaradacağıq. Buna arxayın, əmin ola bilərsiniz.

Bu gün sizinlə, Azərbaycan idmanının görkəmli nümayəndələri ilə – veteranlarla və gənclərlə görüşməyimdən çox məmnunam. Bilirsiniz, bu gün biz burada həm idman tariximizi görür, həm də bugünümüzü, gələcəyimizi görürük. İdman veteranları ilə görüşəndə, onları burada görəndə iyirmi-otuz, qırx il bundan öncə Azərbaycan idmanının bayrağını qaldıranları görürük, tariximizin nə qədər zəngin olduğunu görürük.

Bu gün idmançıları, gəncləri, yeniyetmələri görəndə, günümüzün daha parlaq olduğunu dərk edir və gələcəyimizin nə qədər gözəl olacağını təsəvvür edirik. Bu, xoşbəxt bir gün, xoşbəxt dövrdür.

Keçmişimizə görə fəxr edə bilərik. Mən Azərbaycan idmanını bu səviyyəyə qaldıranlara, idmanımızın veteranlarına, respublikamızda idmanın inkişafı üçün xidmət göstərənlərin hamısına hörmət və ehtiramımı bildirir və təşəkkür edirəm. Bu gün Azərbaycan idmanının inkişafı üçün xidmət göstərənlərə, bu sahədə çalışanların hamısına uğurlar arzulayıram. Əmin ola bilərsiniz ki, bu sahədə gördüyünüz işlərin hamısı Azərbaycan dövləti tərəfindən dəstəklənəcəkdir. Çünki bu, həyatımızın mühüm sahəsidir.

Azərbaycanın gənclərinə cansağlığı arzu edirəm. Onlar [347-348] Azərbaycanın gələcəyidir. Bütün sahələrdə Azərbaycanın gələcəyi parlaqdır. Xüsusən respublikamızın gələcəyini təşkil edən gənclərimiz, onların fiziki hazırlığı, gələcək üçün gördükləri iş böyük əhəmiyyət kəsb edir. Bunlar hamısı birlikdə hər bir Azərbaycan vətəndaşında yüksək milli iftixar, vətənpərvərlik hissi doğurur.

İdman eyni zamanda insanlarda vətənpərvərlik hissini yüksəldən amillərdən biridir, xalqımızın döyüş qabiliyyətini artıran amillərdən biridir. Biz müstəqil dövlətik, Milli Ordumuz var. Hər il gənclər Milli Ordumuza xidmətə gedirlər. İdman nə qədər çox inkişaf etsə, gənclər bədən tərbiyəsinə nə qədər çox qoşulsalar, məktəblərdə bədən tərbiyəsi nə qədər geniş yayılsa, orduya gedən gənclərimiz bir o qədər sağlam olacaq, yüksək fiziki keyfiyyətlərə malik olacaqlar. Bu da onların döyüş qabiliyyətini artıracaq, orduda ləyaqətlə xidmət etmələri üçün əsas yaradacaqdır.

Ordumuz gündən-günə güclənir və güclənməlidir. Azərbaycanı qorumaq, Azərbaycan dövlətinin müstəqilliyini daim saxlamaq üçün güclü ordumuz olmalıdır və belə ordu yaranır. İndi ordumuz Azərbaycan torpaqlarının keşiyində, müdafiəsində durubdur. Ordumuz işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün, lazım gələrsə hər zaman döyüşə hazır olmalıdır. Bunların hamısını təmin etmək üçün gənclərimiz sağlam olmalı, bədən tərbiyəsi və idmanla məşğul olmalıdırlar.

Görürsünüz, bədən tərbiyəsi, idman həyatımızın, demək olar, bütün tərəflərini, istiqamətlərini əhatə edir.

İdman, bədən tərbiyəsi nə qədər mühüm bir sahə, nə qədər gözəl işdir. Bədən tərbiyəsi, idman insana fiziki hazırlıq verir, insanı fiziki cəhətdən möhkəmləndirir, ona gözəllik verir. Arzumuz da budur. Şəxsən mənim daim arzum odur ki, Azərbaycan milləti, hər bir azərbaycanlı fiziki cəhətdən güclü, sağlam olsun, gözəl, ağıllı, şüurlu olsun. Biz belə gənc nəsil hazırlamalıyıq, belə gənc nəslin hazırlanması üçün bütün imkanlarımızdan istifadə etməliyik. Bu imkanlardan biri də bədən tərbiyəsi, idmandır.

Əmin olduğumu bildirmək istəyirəm ki, idmanla məşğul olan bütün təşkilatlar qarşılarında duran vəzifələrin nə qədər məsuliyyətli, şərəfli olduğunu dərk edirlər. Əminəm ki, onlar indiyə qədər olduğu kimi bundan sonra da öz peşələrinə, işlərinə, xalqımıza, vətənimizə sadiq olacaqlar. Bu əlamətdar hadisələr münasibətilə sizi bir daha təbrik edir, cansağlığı, səadət arzulayır, Azərbaycanda bədən tərbiyəsinin, idmanın inkişafı yolunda sizə uğurlar diləyirəm. Sağ olun. [348-349]

**XALQ ARTİSTİ**
**LEYLA XANIM VƏKİLOVAYA**

Hörmətli Leyla xanım!

Sizi – xalqımızın böyük sənətkarını, görkəmli balet ustasını, tanınmış pedaqoqu 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Sizin yarım əsrdən artıq bir dövrü əhatə edən fəaliyyətiniz sənətsevərlər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Klassik ənənələrlə Azərbaycan xalq rəqslərinə xas olan xüsusiyyətləri böyük məharətlə birləşdirən parlaq ifaçılıq ustalığınız mədəniyyətimizin tarixində əbədi iz qoymuşdur.

Uzun illər opera və balet teatrımızın aparıcı solisti kimi siz Azərbaycan milli balet sənətinin tarixində yeni bir səhifə açmısınız. Öz ülvi sənətinizlə çoxsaylı xarici qastrollar zamanı da siz bütün tamaşaçılarınızın qəlbini fəth etmisiniz.

Səhnəmizdə oynadığınız unudulmaz rollar yeni nəsil Azərbaycan balet ustaları üçün yaradıcılıq məktəbi, ifaçılıq örnəyinə çevrilmişdir. Bu nəslin yetişməsində sizin xidmətləriniz danılmazdır.

Çoxillik pedaqoji fəaliyyətinizdə siz balet sənətinin tədrisi ilə yanaşı, Azərbaycan Dövlət rəqs ansamblının rəhbəri kimi milli rəqs sənətimizin təbliği və inkişafına böyük əmək sərf etmisiniz.

Əminəm ki, siz həyatınız boyu incəsənətimizin tərəqqisi üçün çalışdığınız kimi bundan sonra da müstəqil Azərbaycanın mədəniyyətinin inkişafı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*29 yanvar 1997-ci il* [349-350]

## AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK KOMİTƏSİNİN YARADILMASININ 5-ci İLDÖNÜMÜNƏ VƏ GÖMRÜK ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMI GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Şəhriyar adına mədəniyyət mərkəzi*

*30 yanvar 1997-ci il*

Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!
Gömrük xidmətinin işçiləri!

Müstəqil Azərbaycan Respublikasının gömrük xidmətinin, gömrük təşkilatının yaranmasının beşinci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm, ölkəmiz üçün əhəmiyyətli, çox vacib olan işinizdə sizə uğurlar arzulayıram.

Gömrük xidməti ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycanda yaranmış yeni dövlət strukturlarından biridir. Doğrudur, Azərbaycanın gömrük işi sahəsində müəyyən tarixi var, o barədə burada deyildi. Ancaq Azərbaycan müstəqil dövlət olmadığı dövrdə – XIX əsrdə də, XX əsrdə də bir sərhəd məntəqəsi kimi müəyyən gömrük idarələri bu ərazidə yerləşibsə də, Azərbaycanın özünün gömrük xidməti olmayıbdır. Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində olduğu zaman buradakı sərhəd məntəqələrində Sovetlər İttifaqına mənsub olan gömrük xidməti orqanları var idi. Çünki idxal-ixrac bizim bu məntəqədə çox az miqdarda olurdu və bunlar hamısı da Azərbaycan Respublikasının bilavasitə fəaliyyəti ilə bağlı deyildi. Ona görə də Azərbaycanda həqiqi gömrük xidmətinin, gömrük işinin, gömrük təşkilatının yaranması Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsi ilə əlaqədardır. Bu da təbiidir, çünki hər bir müstəqil dövlətin özünəməxsus, onun müstəqilliyini təmin edən və təşkil edən orqanları, strukturları olub, onlardan biri də gömrük xidmətidir. Buna görə də gömrük xidmətinin Azərbaycanda bizim başqa sahələrə nisbətən yaşı həqiqətən beş ildir. Çox gənc bir təşkilatdır, xidmət orqanıdır. Ancaq eyni [350-351] zamanda Azərbaycanın həm iqtisadi, həm siyasi cəhətdən dövlət müstəqilliyini təmin etmək, qorumaq, inkişaf etdirmək üçün gömrük xidməti çox əhəmiyyətli, çox lazımlı təşkilatdır.

Gömrük xidmətinin üzərinə düşən vəzifələr haqqında burada danışıldı. Mən məmnunam ki, gömrük təşkilatının nümayəndələri ? Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və digər şəxslər burada çıxış edərkən gömrük xidmətinin əhəmiyyəti və vəzifələri haqqında doğru-düzgün anlayışları olduğunu nümayiş etdirdilər. Bu, onu göstərir ki, siz, Gömrük Komitəsində çalışan Azərbaycan vətəndaşları öz vəzifələrinizin nə qədər əhəmiyyətli, nə qədər məsuliyyətli olduğunu dərk edirsiniz. Bu, eyni zamanda əsas verir ki, siz bu vəzifələri layiqincə yerinə yetirə bilərsiniz.

Həqiqətən, gömrük xidməti Azərbaycanın iqtisadi müstəqilliyinin qorunub saxlanması üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir, Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə sıx inteqrasiya olmağa cəhdlər göstərir və bu sahədə artıq bizim nailiyyətlərimiz var. Azərbaycanda qəbul olunmuş qanunlar, fərmanlar və sərəncamlar əsasında, onların nəticəsində idxal-ixrac, xarici ticarət sərbəstləşdirilibdir. Azərbaycanda xarici investisiyaların artmasını biz bütün vasitələrlə həvəsləndiririk və bunun üçün geniş şərait yaradırıq. Azərbaycan iqtisadiyyatının xarici ticarət vasitəsilə dünya iqtisadiyyatı ilə daha da sıx bağlanması üçün lazımi tədbirlər həyata keçiririk. Bu tədbirlərin həyata keçirilməsində gömrük xidmətinin xüsusi rolu var. Gömrük xidməti xüsusi yer tutur. Azərbaycanda sərbəst iqtisadiyyatın inkişaf etməsi üçün son illər görülən tədbirlər artıq öz nəticəsini verir. Sahibkarlıq, təşəbbüskarlıq və hər bir sahibkarın iqtisadi fəaliyyət göstərməsi üçün bütün ölkələrlə əlaqə saxlamasına şərait yaratmaq – bunlar hamısı Azərbaycanın bugünkü iqtisadi həyatının mənzərəsidir. Bu iqtisadi mənzərənin yaranması və gündən-günə inkişaf etməsi üçün, şübhəsiz ki, bizim başqa dövlət orqanları ilə yanaşı, onlarla birlikdə gömrük xidməti də çox iş görür və çox iş görməlidir. Bir də deyirəm, onun üzərinə çox böyük, mühüm vəzifələr düşür.

Bu beş il müddətində Azərbaycanda gömrük xidməti təşkil edilibdir. Ancaq bu beş illik yol da həmişə uğurlu olmayıbdır. Mən bu gün artıq əldə olunan iqtisadi göstəricilər əsasında deyə bilərəm ki, həm Azərbaycanın dövlət mənafelərini qoru[351-352]maq üçün, daxili bazarı qorumaq üçün, həm də Azərbaycanın iqtisadiyyatına gömrük xidmətinin verdiyi fayda üçün gömrük xidmətinin fəaliyyəti, demək olar ki, son iki ildə qənaətbəxş hesab edilə bilər. Gömrük xidmətinin beş yaşı olmasına baxmayaraq, bu beş il müddətində keçilən yol çox mürəkkəb və çətin olubdur. Bu, şübhəsiz ki, Azərbaycan Respublikasında, onun həyatında cürbəcür dəyişikliklərlə, gedən proseslərlə əlaqədar olubdur. Amma eyni zamanda gömrük təşkilatının özü təşkil olunduğu gündən işinin yaxşı qurulmaması səbəbindən ilk illərdə gömrük xidmətinin Azərbaycana həm iqtisadi, həm dövlətçilik nöqteyi-nəzərindən faydası çox az olubdur. 1995-ci ilin yanvar ayında gömrük xidmətində ciddi

nöqsanlar mövcud olduğuna görə və onlar dözülməz olduğuna görə mən gömrük xidmətinin işini ciddi müzakirə etdim, çox qəti qərarlar çıxartdım. Gömrük Komitəsinin rəhbərliyi dəyişdirildi və bu ciddi tədbirlərin və tələblərin nəticəsində 1995-ci ildə, 1996-cı ildə Gömrük Komitəsi tərəfindən görülən işlər artıq gömrük təşkilatının Azərbaycanda özünəməxsus yer tutmasını nümayiş etdirir.

Burada rəqəmlər gətirildi. Həqiqətən, bu rəqəmlər çox maraqlıdır. Çünki əgər 1994-cü ildə Azərbaycanda idxal-ixrac 1 milyard 140 milyon Amerika dolları həcmində olubsa və gömrük xidmətindən gələn rüsum cəmisi 16, ya 17 milyard manat olubsa, 1995-ci ildə idxal-ixrad təxminən o qədər, bəlkə bir az da ondan az olub, ancaq gömrük xidmətindən dövlət büdcəsinə gələn vergi 65 milyard manat olubsa, 1996-cı ildə idxal-ixrac artıb, – bunun özü də müsbət göstəricidir, – 1 milyard 600 milyon, yaxud 1 milyard 700 milyon dollar səviyyəsinə gəlib çatıbdır. Ancaq bu idxal-ixrac əməliyyatlarından gömrük rüsumu, gömrük vergisi 272, yaxud 273 milyard manata gəlib çatıbdır, 1995-ci ilə nisbətən 4 dəfə artıbdır. Əgər 1995-ci ilə nisbətən 1996-cı ildə idxal-ixrac bir dəfə yarım artıbsa, gömrük xidmətindən büdcəyə gələn gəlir 4 dəfə artıbdır. Şübhəsiz ki, bu, təqdirəlayiq haldır. Bu, bir tərəfdən respublikamızın gömrük xidmətinin nə qədər böyük imkanlara malik olduğunu göstərir, ikinci tərəfdən də bu imkanlardan səmərəli istifadə olunmasını göstərir. Ancaq bunlar da hələ son hədd deyil.

Mən 1995-ci və 1996-cı illərdə əldə olunan nailiyyətlərə müsbət qiymət verərək, eyni zamanda bildirmək istəyirəm ki, bu heç də hələ Azərbaycan Respublikasının iqtisadi potensialı[352-353]nın, idxal-ixrac əməliyyatlarının və bütün bunların hamısından gömrük xidmətinin səmərəli istifadə etməsinin son həddi deyil. Hesab edirəm ki, bu göstəricilər sizi, respublikamızın gömrük təşkilatını, gömrük işçilərini 1997-ci ildə daha da yaxşı işləməyə sövq etməlidir. Qarşınızda duran vəzifələri artıqlaması ilə yerinə yetirməlisiniz. Dövlət büdcəsində 1997-ci ildə gömrük vergisindən büdcəyə gələn gəlir 403 milyard manat həcmində nəzərdə tutulubdur. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, 1995-1996-cı illərdə, xüsusən 1996-cı ildə olduğu kimi bu rəqəm də artıqlaması ilə yerinə yetiriləcəkdir.

Bunun üçün Azərbaycanın gömrük təşkilatının imkanları var. Bu imkanlar da, şübhəsiz ki, bizim iqtisadi siyasətdə apardığımız işlərlə bağlıdır. Yəni gömrük rüsumu, gömrük vergisi göydən düşmür. Gömrük birbaşa Azərbaycan Respublikasının xarici ticarəti ilə, idxal-ixrac əməliyyatları ilə sıx bağlıdır. Bizim planlarımız, nəzərdə tutduğumuz işlər onu göstərir ki, 1997-ci ildə Azərbaycan Respublikasının iqtisadiyyatı sürətlə inkişaf edəcəkdir. Azərbaycan Respublikasının bütün ölkələrlə ticarət əlaqələri genişlənəcəkdir, idxal-ixrac əməliyyatları artacaqdır. Buna görə də gömrük xidmətinin fəaliyyətindən gələn gəlirlər də planda nəzərdə tutulmuş rəqəmlərdən artıq olmalıdır.

Beləliklə, beş il müddətində sizin keçdiyiniz yol bir tərəfdən ilk illərdə çox qüsurlu olubdur, ancaq son iki ildə müsbət nəticələr veribdir. Ümumən götürsək, bu müsbət nəticələri mən gömrük xidmətinin fəaliyyətində yalnız və yalnız ilk addımlar hesab edirəm. Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni gömrük xidməti Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi eyni zamanda başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz. Respublikamızın daxili bazarını qorumaq üçün ? bu isə birbaşa idxal-ixrac əməliyyatları ilə bağlıdır, – və respublikamızdan çıxan malların Azərbaycan iqtisadiyyatına zərər vurmaması üçün gömrük xidməti öz nəzarətini daha da gücləndirməlidir, öz fəaliyyətini artırmalıdır.

Bu sahədə sizin çox böyük imkanlarınız var və bu baxımdan, mən bir də qeyd edirəm, sizin əldə etdiyiniz nailiyyətləri [353-354] qiymətləndirərək hesab edirəm ki, işinizdə çox qüsurlar da var. Qüsurlar da ondan ibarətdir ki, gömrük rüsumundan yayınma halları az deyil. Siz burada valyutanın qeyri-qanuni keçirilməsinin tutulması, yaxud narkotik maddələrin və ya başqa malların tutulması haqqında bir neçə rəqəm gətirdiniz. Mən hesab edirəm ki, respublikamızın sərhədlərindən xaricə və xaricdən Azərbaycana qeyri-qanuni keçirilən əməliyyatlar sizin bu rəqəmlərinizdən xeyli çoxdur.

Bizə bu barədə çox siqnallar gəlir, ictimaiyyət arasında bu barədə çox danışıqlar gedir və onlar da əsassız deyil. Ona görə də gömrük işçilərinin qanun-qaydaya riayət etməsi, Azərbaycanın qanunlarının sözsüz həyata keçirilməsini təmin etməsi, öz peşəsinə, öz dövlətinə sadiq olması sizin işinizin əsas şərtləridir. Təəssüflər olsun ki, sizin gömrük işçilərinin öz vəzifələrindən sui-istifadə etməsi halları, dövlət mənafeyini qorumayaraq öz mənafeyinə, şübhəsiz ki, qeyri-qanuni yolla sərvət əldə etməyə çalışması halları da var və bunlar sizə məlumdur. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Mən hesab edirəm ki, əgər bütün gömrük məntəqələrində, gömrük orqanlarında işlərin hamısı qanunun yüksək tələblərinə uyğun olsaydı, birinci növbədə gömrük xidmətindən gələn gəlir 1996-cı ildə əldə etdiyiniz yüksək göstəricilərdən də xeyli artıq olardı, eyni zamanda respublikamızın iqtisadiyyatına zərər vuran hallar olmazdı, yaxud da az olardı. İndi, bu bayram günü konkret faktlar gətirib sizin əhval-ruhiyyənizi pozmaq istəmirəm. Ancaq güman edirəm ki, mənim ümumi şəkildə dediyim fikirlərdən siz özünüz üçün nəticə çıxaracaqsınız.

Biz Gömrük Komitəsinin, gömrük xidmətinin, gömrük təşkilatlarının son iki ildə gördüyü işlərə müsbət qiymət veririk. Amma eyni zamanda sizin işinizdə ciddi nöqsanların, qüsurların olmasını da qeyd edirik və mən sizdən tələb edirəm ki, bu nöqsanları, qüsurları aradan qaldırmaq üçün 1997-ci ildə səmərəli tədbirlər həyata

keçirəsiniz, lazımi nəticələr əldə edəsiniz. Bir daha qeyd edirəm, nöqsanlarınız da var, qüsurlarınız da var və gömrük xidmətini daha da yüksək göstəricilər səviyyəsinə qaldırmaq üçün böyük imkanlarınız da var. Bunları siz bilirsiniz. Amma siz indi bilməlisiniz ki, biz də bilirik, şəxsən mən də bilirəm. Ona görə də mən bu tələbləri sizin qarşınızda qoyuram.

Respublikamıza xarici ölkələrdən gizli yolla, yəni sərhədlərdən, gömrük məntəqələrindən keçən qaçaqmalçılıqla, [354-355] ümumiyyətlə, qaçaqmalçılıqla mübarizə aparmaq lazımdır. Qaçaqmalçılıqla mübarizə gömrük təşkilatının əsas vəzifəsidir. Sizin gətirdiyiniz o rəqəmlər onu göstərmir ki, Azərbaycanın sərhədlərində qaçaqmalçılıq ancaq o dərəcədədir. Xeyr, ondan çox-çox yüksək dərəcədədir. Siz onların az bir hissəsinin qarşısını ala bilmisiniz, çox hissəsinin qarşısını ala bilməmisiniz. Buna görə də qaçaqmalçılıqla mübarizə sizin qarşınızda duran əsas vəzifələrdən biridir. Qaçaqmalçılıq adi bir cinayət deyil. O, Azərbaycanın müstəqilliyinə iqtisadi cəhətdən zərbə vuran hallardan biridir. Ancaq qaçaqmalçılığın da bir neçə növü var. Bir var ki, qaçaqmalçılıq yolu ilə gömrük rüsumundan gizlətmək üçün mal keçirir, yaxud valyuta keçirirlər, amma bir də var ki, qaçaqmalçılıq yolu ilə narkotik maddələr keçirir, silahlar keçirir və cinayət məqsədi ilə istifadə olunması üçün başqa ləvazimatlar keçirirlər. Siz bu sahədə çox cavabdehsiniz.

Şübhəsiz ki, bizim Sərhəd Qoşunları ilə birlikdə, başqa hüquq-mühafizə orqanları ilə birlikdə. Ancaq bütün malların keçirilməsinə birbaşa nəzarət edən orqan, bütün başqa orqanlardan fərqli olaraq, gömrük orqanlarıdır, gömrük xidmətidir. Ona görə bunu birinci növbədə biz sizdən tələb edirik.

Qeyri-qanuni, yəni qaçaqmalçılıq yolu ilə baş vermiş hər bir hadisə birinci növbədə Azərbaycanın iqtisadiyyatına zərbə vurur. Qaçaqmalçılıq yolu ilə o dediyim cinayət üçün istifadə olunan silahlar, narkotiklər və başqa ləvazimatlar isə təkcə iqtisadi zərbə deyil, Azərbaycanın daxilində cinayətkarlığı artırmaq, narkomaniya xəstəliyini artırmaq, narkotik maddələrin gizli surətdə, cinayətkarcasına satılmasına şərait yaratmaqdır. Bir də ki, bizim ölkəmiz Cənubla Şimal, Şərqlə Qərb arasında olan bir ölkədir. Ona görə də bizim sərhədlərimizdən, ölkəmizin ərazisindən gedən yollar təkcə Azərbaycanın idxal-ixracı deyil. Ölkəmizin ərazisindən Şərqdən Qərbə, Cənubdan Şimala və əks istiqamətdə də mallar keçirilir. Biz burada da qaçaqmalçılığın bütün növlərinin qarşısını almalıyıq. Xüsusən, narkotik maddələrin, silah-sursatın və cinayət törətmək üçün istifadə olunan başqa ? malların, ləvazimatların tranzit vasitəsilə Azərbaycandan keçirilməsinin qarşısını almalıyıq. Bu da gömrük təşkilatının qarşısında duran vəzifədir, onun üzərinə düşən məsuliyyətdir.

Bunların hamısını həyata keçirmək üçün siz öz peşənizi daha yaxşı mənimsəməlisiniz. Beş il müddətində sizin əldə etdiyiniz nailiyyətlər şübhəsizdir, təqdirəlayiqdir. Ancaq gömrük [355-356] xidmətinin inkişaf etmiş dünya dövlətlərinin gömrük xidməti səviyyəsinə çatması üçün çox iş görmək lazımdır. Sadəcə beş ildə buna nail olmaq mümkün deyil. Çünki müddət azdır, vaxt azdır. Amma eyni zamanda bu beş il müddətində də bizim daxilimizdə o qədər qarmaqarışıqlıq olubdur, o qədər cürbəcür cinayətkar hərəkətlər olubdur ki, bunlar imkan verməyibdir. Ona görə də dünya təcrübəsini mənimsəmək, inkişaf etmiş ölkələrin gömrük xidmətləri ilə sıx əlaqə qurmaq, onların təcrübəsindən istifadə etmək və gömrük peşəsindən istifadə etmək və gömrük peşəsini Azərbaycanda köklü surətdə yaratmaq və inkişaf etdirmək – bu sizin qarşınızda duran ən böyük vəzifələrdən biridir.

Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün, bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Yəni elə hesab etməyin ki, siz artıq hər şeyə nail olmusunuz. Bizim Azərbaycanda nə gömrük məktəbi olubdur, nə gömrük universiteti olubdur, nə də gömrük akademiyası olubdur.

Gömrük işçilərinin əksəriyyəti, şübhəsiz cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alan adamlar, ola bilər ki, çox azdır. Ona görə də siz bu təhsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gərək gömrük elminin və gömrük biliklərinin mənimsənilməsi sahəsində özünüzü təhsilləndirəsiniz, təkmilləşdirmək, onlara xüsusi gömrük təhsili vermək, onların təcrübəsini artırmaq üçün gərək bir illik, iki illik, üç illik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən ən çox lazımdır. Çünki keçmişdə, Sovetlər İttifaqı dövründə bizim bütün sahələrdə xüsusi təhsil məktəblərimiz olubdur. Amma gömrük sahəsində xüsusi təhsil məktəblərimiz olmayıbdır. Ona görə də siz bunu etməlisiniz.

Siz dünyanın gömrük təşkilatına daxil olmusunuz. Bu, çox yaxşıdır. Bundan səmərəli istifadə etmək lazımdır. Ancaq orada üzvlüklə, yaxud da ki, onların ayrı-ayrı toplantılarında iştirak etməklə kifayətlənmək olmaz. Siz gərək çalışasınız ki, dünya gömrük təşkilatının bütün imkanlarından istifadə edib Azərbaycan gömrük işçilərinin bilik səviyyəsini artırasınız. [356-357]

Şübhəsiz ki, gömrük xidmətinin maddi-texniki bazası da inkişaf etməlidir. Son illərdə biz bu sahədə sizə müəyyən imkanlar yaratmışıq. Bilirsiniz ki, müəyyən sərəncamla gömrük xidmətindən alınan vəsaitin 60 faizini biz sizin özünüzdə istifadə edib gömrük işinin maddi-texniki bazasını inkişaf etdirməyə yönəltmək üçün sizə imkanlar vermişik. Bundan səmərəli istifadə etmək lazımdır. Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki

bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir. Hesab edirəm ki, 1997-ci ildə gömrük məntəqələrinin, bütün gömrük xidmətlərinin, gömrük təşkilatlarının maddi-texniki bazasının yaranması, bütün gömrük məntəqələrinin dünya standartlarına uyğun texnika ilə, ləvazimatla, cihazlarla təchiz olunması işini siz ya başa çatdırmalısınız, yaxud da bu sahədə yüksək bir səviyyəyə çatmalısınız.

Ancaq bunların hamısı ilə birlikdə gömrük işçiləri bilməlidirlər ki, onlar müstəqil Azərbaycan dövlətinin çox mühüm, vacib bir sahəsində işləyirlər. Özünü bu peşəyə həsr edən insanlar maddi maraq, yaxud da ki, qeyri-qanuni yolla gəlir əldə etmək məqsədi daşımamalıdırlar. Təəssüf ki, Azərbaycanda gömrük təşkilatı yaranan kimi belə qeyri-sağlam meyllər çox meydana çıxdı. Mənim xatirimdədir, 1992-ci ildə gömrük təşkilatı yaranan kimi insanların, gənclərin və başqalarının çoxu bu təşkilatda işləməyə çalışırdı. Mənim xatirimə gəlir, 70-ci illərdə gənclərin çoxu çalışırdı ki, hüquq-mühafizə orqanlarına getsinlər. Ona görə yox ki, bəziləri onu çox sevirdilər. Hesab edirdilər ki, orada daha çox gəlir əldə edə bilərlər. Şübhəsiz ki, qeyri-qanuni yolla. Belə bir meyl, belə hərəkətlər, əhval-ruhiyyə bu gömrük təşkilatı yaranan kimi də meydana çıxdı. Bunların hamısı ilə mübarizə aparmaq lazımdır.

Hər peşəyə gələn insan gərək birinci, peşəni sevsin, özünü peşəyə həsr etsin və o peşənin öz daxili mənəviyyatına uyğun olduğunu dərk edərək işləsin. Hər peşəyə, o cümlədən gömrük xidməti peşəsinə başqa məqsədlərlə gələn adamlar bu orqanın daimi işçisi ola bilməzlər və onlar, şübhəsiz ki, bu orqana və dövlətə mənfəət gətirə bilməzlər. Ona görə bütün dövlət or[357-358]qanlarından tələb olunan prinsiplər – mənəvi təmizlik, mənəvi saflıq, dövlətin qanunlarına riayət etmək, öz işinə sədaqət – bunlar hamısı gömrük xidmətində çalışan işçilər üçün də olan tələblərdir, onların müvəffəqiyyətlə işləməsi üçün əsas prinsiplərdir və siz bu prinsiplərin gömrük təşkilatının, Gömrük Komitəsinin hər bir özəyində bərqərar olunmasını təmin etməlisiniz.

Bizim arzumuz, istəyimiz odur ki, müstəqil Azərbaycan Respublikasının bütün dövlət orqanları Azərbaycanın dövlətçiliyini möhkəmləndirmək üçün öz vəzifələrini layiqincə yerinə yetirsinlər və Azərbaycan demokratik, hüquqi bir dövlət kimi, mənəvi dəyərlərə sadiq olan bir ölkə kimi Dünya Birliyində öz layiqli yerini tutsun. Hamı bu iş üçün çalışmalıdır. Amma gömrük xidmətində olan adamlar ön cərgədədir, ön sıradadır. Çünki bizim ölkəmizə daxil olan hər bir şəxs, hansı məqsədlə gəlirsə-gəlsin, ilk növbədə gömrüklə rastlaşır. Gömrük işçiləri qanun-qayda ilə hərəkət edərlərsə, onlar ölkəmizə gələn xarici vətəndaşlarda ilk müsbət təəssürat yaradarlar. Əksinə olduğu halda isə, şübhəsiz ki, mənfi təəssürat yaranır. Bunların, hamısını siz öz işinizdə nəzərə almalısınız.

Mən bir daha qeyd edirəm ki, 1995-96-cı illərdə əldə etdiyiniz nailiyyətlər 1997-ci ildə və gələcək illərdə sizin daha da yaxşı işləməyiniz üçün əsas yaradıbdır. Bundan səmərəli istifadə etmək lazımdır. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gömrük işçiləri, Dövlət Gömrük Komitəsi Azərbaycan dövlətçiliyinin müstəqil Azərbaycan dövlətinin inkişaf etməsinə öz xidmətlərini bundan sonra da göstərəcəkdir. Bu şərəfli vəzifələrin yerinə yetirilməsində sizə uğurlar arzulayıram. Sağ olun! [358-359]

## AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ RƏHBƏRLİYİ, HƏQİQİ VƏ MÜXBİR ÜZVLƏRİ, İNSTİTUT DİREKTORLARI VƏ APARICI ALİMLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*31 yanvar 1997-ci il*

Hörmətli alimlər, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümdən çox məmnun olduğumu bildirirəm.

Sizinlə son illər, mən Azərbaycan Respublikasının prezidenti seçiləndən sonra ayrı-ayrı toplantılarda, yığıncaqlarda, mərasimlərdə görüşmüşük. Ancaq bu gün mən sizi bu görüşə dəvət edərkən Elmlər Akademiyasının rəhbərliyi ilə, aparıcı alimlərlə, akademiyanın həqiqi üzvləri, müxbir üzvləri, institut direktorları ilə görüşüb, akademiyanın işi ilə əlaqədar bəzi məsələlər haqqında fikir mübadiləsi aparmaq məqsədi daşıyıram. Buna böyük ehtiyac var. Mən çoxdan belə bir görüşə həm sizin üçün, həm də mənim üçün ehtiyac olduğunu düşünürdüm və belə bir görüşü planlaşdırırdım. Təəssüflər olsun ki, bir çox başqa məsələlər vaxtı aldığına görə bu görüş müəyyən qədər gecikibdir. Amma geciksə də, bu gün görüşüb, söhbət edib, fikir mübadiləsi aparıb akademiyanın işləri ilə daha da yaxından tanış olaraq akademiyanın işlərini gücləndirmək üçün lazımi tədbirlər görmək imkanımız var.

Siz bilirsiniz ki, Elmlər Akademiyasına keçmiş illərdə də və son illərdə də mənim daim hörmətim və diqqətim, qayğım olmuşdur. Ancaq hesab edirəm ki, bizim elmimizə, xüsusən Elmlər Akademiyasına qayğı, diqqət daha da artıq olmalıdır.

Respublikamız keçid dövrünü yaşayır. Dövlət müstəqilliyinin beşinci ili başa çatıbdır. Bu beş il müddətində ölkəmizin həyatında baş vermiş hadisələr, gedən proseslər, dəyişikliklər sizə yaxşı məlumdur. Bu dəyişikliklər sırasında Elmlər Akademiyasının da işində müəyyən dəyişikliklər əmələ gəlmişdir [359-360] və bütün sahələrdə olduğu kimi, bir çox çətinliklər, problemlər də meydana çıxmışdır və çox qüsurlar, nöqsanlar da mövcuddur.

Ancaq ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik.

XX əsr sona çatır. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir. Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir. Biz bununla daim fəxr edirik. Ancaq eyni zamanda o da həqiqətdir ki, ölkəmizdə – Azərbaycanda elm XX əsrdə çox sürətlə inkişaf etmişdir. XX əsrdə Azərbaycanda xalqın təhsillənməsi, yüksək təhsil ocaqlarının, institutların yaranması, xalqın təhsilə cəlb olunması, elmi tədqiqat institutlarının yaranması, elmi tədqiqat işlərinin təşkil olunması və bunların nəticəsində 50 il bundan öncə Azərbaycanda ilk dəfə Elmlər Akademiyasının yaranması – bunların hamısı XX əsrdə Azərbaycanda elmin sürətlə inkişafını nümayiş etdirən faktlardır.

Bunlar bizim milli sərvətimizdir, biz bu nailiyyətlərlə fəxr edirik və yaranmış elmi potensialı qorumalı, saxlamalı, ondan indi və gələcəkdə də müstəqil Azərbaycanın inkişafı naminə daha səmərəli istifadə etməliyik.

Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir və bu, hər bir azərbaycanlı üçün ən böyük xoşbəxtlikdir. Amma bu müstəqilliyi əldə edərkən nəyimiz vardı, nəyimiz yox idi – bunun da çox böyük əhəmiyyəti var. Biz dövlət müstəqilliyini əldə edərkən müstəqil dövlət kimi yaşamaq üçün, demək olar, hər şeyimiz var idi. O cümlədən böyük elmimiz var idi. Bizim bu böyük elmimiz Azərbaycanın istedadlı insanları, alimləri tərəfindən, elmi tədqiqat institutları, təşkilatları, Elmlər Akademiyası tərəfindən, sahə institutları tərəfindən yaranmış elmdir. Ona görə də Azərbaycanın güclü elmi potensialı haqqında həmişə böyük iftixar hissi ilə danışarkən, şübhəsiz ki, birinci növbədə elmi nailiyyətlərimizi nəzərdə tuturuq və xüsusən Elmlər Akademiyasının əldə etdiyi nailiyyətləri nəzərdə tuturuq.

Biz həmişə öz işlərimizdən narazı olmuşuq. Bu, təbiidir, çünki nailiyyətlər bizimdir, ancaq daha da çox nailiyyətlər [360-361] əldə etmək prinsipi həyatımızda bizi həmişə müşayiət edibdir. Bu gün də bu fikirlərlə, bu duyğularla yaşayırıq. Ona görə də çox vaxt özümüz öz elmi nailiyyətlərimizi tənqid etmişik, bu gün də tənqid edirik – çox imkanlarımızdan istifadə olunmasını da daim qeyd edirik, bunlar təbiidir. Ancaq eyni zamanda əldə olunan nailiyyətləri də qiymətləndirməliyik, çünki bunlar hamısı göz qabağındadır.

Bütün bu nailiyyətlərin əldə olunmasında Azərbaycan Elmlər Akademiyasının xidmətləri çox böyükdür.

Əlli il bundan öncə Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir hadisədir. Ona görə də mən bir neçə dəfə bəyan etmişəm ki, biz Elmlər Akademiyasının yarım əsrlik yubileyini qeyd etməliyik. Qeyd etməliyik ona görə yox ki, bizə bir bayram lazımdır: ona görə ki, həm xalqımıza, həm də dünyaya bir daha nümayiş etdirək, sübut edək ki, xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir.

Doğrudur, əllil illik yubileyin keçirilməsi gecikib, ancaq – bu gün mən sizinlə səmimi danışıram – bunun gecikməsinin səbəbi daha çox sizin üzərinizə düşür, nəinki bizim. Çünki həyatımız indi o qədər gərgindir, işlər o qədər çoxdur, hər gün yeni-yeni problemlər meydana çıxır, ona görə də nəzərdə tutulmuş bəzi tədbirlərin təxirə salınması, vaxtında keçirilməsi təbiidir. Ancaq eyni zamanda təşəbbüs olanda və belə tədbirlərin keçirilməməsi üçün cəhdlər çox göstəriləndə biz məcbur oluruq bəzi vacib məsələləri kənara qoyub onlarla məşğul olaq.

Təəssüf ki, belə təşəbbüs, cəhdlər Elmlər Akademiyasının rəhbərliyi tərəfindən göstərilməyibdir. Mən dünən akademiyanın prezidenti Eldar Salayev ilə danışarkən ona bu barədə dedim. Dedim ki, mən demişdim akademiyanın əlli illik yubileyini keçirmək lazımdır, sizin də borcunuz o idi ki, yaxamızdan tutaydınız ki, gəlin bunu keçirək. Belə olsaydı, bu yubiley çoxdan, yəni bir il bundan öncə keçirilmiş olardı. Ancaq güman edirəm, bunun o qədər əhəmiyyəti yoxdur ki, heç bir il gec, bir il tez keçirilsin. Mühüm odur ki, belə bir yubiley mərasimini keçirmək zərurəti bu gün də var, onu keçirmək lazımdır və biz yubiley mərasimini mütləq keçirəcəyik.

Ancaq iş təkcə yubiley keçirib akademiyanın əlli illik fəaliyyətinə, yaxud da ümumiyyətlə elmi nailiyyətlərimizə [361-362] qiymət verməkdən ibarət deyildir. Başlıca məqsəd əldə edilən nailiyyətlər əsasında elmi bundan sonra daha sürətlə inkişaf etdirməkdən ibarətdir.

Aydındır ki, indi elmin istənilən səviyyədə yaşaması, inkişaf etməsi üçün tələb olunan şərait yoxdur. Çünki son illər respublikamızın sosial-iqtisadi böhran dövrü keçirməsi, iqtisadi çətinliklər, Azərbaycanın uzun müddət müharibə şəraitində olması, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğal edilməsi, bir milyondan artıq vətəndaşımızın qaçqın vəziyyətinə düşməsi və cürbəcür başqa səbəblər iqtisadiyyatımızda çox çətinliklər yaradıbdır. Bu çətinliklər təkcə bizim respublikamızda, ölkəmizdə deyil, keçmiş Sovetlər İttifaqına mənsub olmuş digər respublikalarda, müstəqil dövlətlərdə də var. Ancaq bir tərəfdən Ermənistanın təcavüzü ilə əlaqədar olaraq, digər tərəfdən son iki ildə Azərbaycanın Şimaldan nəqliyyat blokadasına alınması ilə əlaqədar olaraq, – Çeçenistandakı hadisələrə və başqa səbəblərə görə, – bizim respublikamızda olan çətinliklər başqa respublikalara nisbətən daha çoxdur. Bunlar hamısı indi bizim sosial-iqtisadi vəziyyətimizin istənilən səviyyədə olmamasına gətirib çıxarıbdır. Ancaq bu çətinliklərə baxmayaraq, biz bütün mövcud imkanlardan istifadə edib elmin inkişafını təmin etməliyik və Elmlər Akademiyasının işinin daha da səmərəli aparılması üçün lazımi tədbirlər görməliyik. Bu tədbirləri də görürük.

Elmin inkişafı, akademiyanın səmərəli işləməsi üçün birinci növbədə maliyyə vəsaiti tələb olunur. Keçmiş illərə nisbətən indi bu imkanlar azdır. Ancaq buna baxmayaraq, biz 1997-ci ildə Elmlər Akademiyasına ayrılan vəsaiti xeyli artırmışıq. Məsələn, əgər 1996-cı ildə Elmlər Akademiyasına büdcədən 17 milyard manat ayrılmışdısa, 1997-ci ildə 26 milyard manat nəzərdə tutulubdur. Güman edirəm ki, bu, yaxşı artımdır. Məlumdur ki, bu akademiyanın bütün tələblərini ödəməyəcək, ancaq keçən ilə nisbətən artım çoxdur. Bəlkə də bizim büdcənin həyata keçirilməsi zamanı, əgər sizin işləriniz səmərəli olsa bu, müəyyən qədər artırıla da bilər.

Məlumdur ki, elm sahəsində, xüsusən Elmlər Akademiyasında işləyənlərin, alimlərin, elmi işçilərin məvacibi də azdır. Vaxtilə Elmlər Akademiyasının işçiləri, alimlər təkcə Azərbaycanda deyil, keçmiş Sovetlər İttifaqında ən yüksək məvacib alırdılar. 50-ci, 60-cı illərdə məvaciblər artırılmışdı, sonralar da bu davam edirdi. Sizin də xatirinizdədir, mənim də xatirim[362-363]dədir ki, məsələn, 70-ci illərdə Elmi Tədqiqat İnstitutu direktorunun məvacibi Azərbaycanda ən yüksək rəhbər vəzifələrdə olanların, – Mərkəzi Komitənin katibləri, Nazirlər Soveti sədrinin müavinləri, – məvaciblərindən artıq idi. Elmi rütbəyə görə verilən məvacibi də – bəzi alimlərimiz həm akademiyada, həm də başqa yerdə işləyirdilər – bunun üstünə gələndə alimlərimiz respublikanın ən yüksək rəhbər vəzifəli şəxslərindən iki-üç dəfə çox pul alırdılar. Xatirimdədir, elə buna görə 60-cı illərdə Azərbaycanda bir xəstəlik əmələ gəlmişdi – yəqin ki, bunu siz də xatırlaya bilərsiniz – partiya, sovet, dövlət işində işləyən çox adamlar bununla yanaşı özlərinə mütləq elmi dərəcələr almaq istəyirdilər, namizədlik, doktorluq dissertasiyaları hazırladılar. Hesab edirdilər ki, gələcək üçün lazımdır, sabah işdən çıxarılanda elmi dərəcələri var, gedib bundan da çox məvacib alacaqlar.

Bunlar hamısı sizə məlumdur. Sizə məlumdur ki, mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra bu hallarla ciddi mübarizəyə başladım, dövlət, partiya işindəki şəxslərin belə məsələlərlə məşğul olmasının qarşısını almağa çalışdım, hətta bəzi adamlar gizlin şəkildə belə işlər gördüklərinə görə cəzalandırıldılar.

Mən o vaxt yalnız və yalnız elmin zibillənməsinin qarşısını almaq istəyirdim. Çünki o insanlar vəzifələrindən sui-istifadə edirdilər. Şübhəsiz ki, özləri elmi əsər, yaxud dissertasiya yazmırdılar, kiməsə yazdırır, müdafiə edirdilər. Bir tərəfdən lazımi elmi biliyi olmadığı halda elmi ad alır, ikinci tərəfdən də, öz vəzifəsindən istifadə edirdilər. Mən o vaxt da bunun əleyhinə olmuşam, indi də əleyhinəyəm. Bu, mənim mənəvi prinsipimdir. Ancaq bunu o mənada xatırlayıram ki, elm sahəsində – akademiyada, yaxud başqa elmi tədqiqat institutlarında işləyən adamların məvacibi yüksək olduğuna görə bəzi vəzifəli şəxslər də bu yollara əl

atırdılar.

İndi də sizin məvacibiniz dövlət orqanlarında işləyən adamların məvaciblərindən az deyil, ancaq onlarınkı da, sizinki də azdır, hamınınkı azdır. Bilirəm ki, bu da böyük çətinliklər yaradır. Bu, şəxsən məni narahat edir. Ümumiyyətlə, əhalinin sosial-iqtisadi vəziyyəti, maddi vəziyyəti, o cümlədən, xüsusən bizim ziyalıların, alimlərin maddi vəziyyəti məni narahat edir. Ona görə bu sahədə də çalışırıq və bundan sonra da çalışacağıq ki, mövcud imkanlardan istifadə edək və sizin, yəni Elmlər Akademiyası işçilərinin məvacibini artıraq. [363-364]

Mən bu sahədə ilk addımı atmışam – sizin Elmlər Akademiyasında çalışan bütün işçilərin məvacibinin 50 faiz artırılması haqqında bu gün qərar qəbul etmişəm. Bununla yanaşı, bizim görkəmli alimlərimiz – hansılar ki, Elmlər Akademiyasının həqiqi, müxbir üzvləridir – şübhəsiz ki, seçilməlidirlər. Keçmişdə rütbə məvacibləri olub, indi də var. Bu rütbə münasibətlərinin də xeyli artırılması haqqında qərar qəbul etmişəm. İndi akademikliyə görə nə qədər alırsınız?

**Yerdən:** Əlli min manat.

**Heydər Əliyev:** Müxbir üzvü nə qədər alır?

**Yerdən:** İyirmi beş min manat.

**Heydər Əliyev:** Bunu on dəfə artırsam necə olar? (Alqışlar) On dəfə artırmışam. Sizin üçün daha da sübutlu olmaq üçün istəyirəm ki, mənim imzaladığım sərəncam elan edilsin. Sərəncamı mən bu gün imzalamışam. ("Azərbaycan Respublikasının Elmlər Akademiyası işçilərinin aylıq əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası prezidentinin sərəncamı oxundu).

Doğrudur, bəlkə bundan da çox olmalı idi, ancaq hesab edirəm ki, bu artım müəyyən qədər təsirli olacaqdır. Təkcə akademiklər, yaxud da müxbir üzvlər üçün yox, bütün Elmlər Akademiyasında işləyənlər üçün müəyyən qədər kömək olacaqdır. Ümidvaram ki, respublikanın iqtisadiyyatında 1997-ci ildə müəyyən irəliləyişə nail olunacaq, bunun nəticəsində həm sizin, həm də ümumiyyətlə respublikamızdakı bütün insanların maddi vəziyyətinin yaxşılaşması üçün yeni qərarlar qəbul etmək imkanı əldə edəcəyik.

Akademiyanın qarşısında duran vəzifələr çox böyükdür, işləriniz çoxdur. Bu gün mən bu barədə çox geniş hesabat, yaxud məruzə dinləmək fikrində deyiləm və məsələlərə toxunmaq məqsədində deyiləm. Ancaq bəzi məsələlər haqqında fikir mübadiləsi aparmaq olar.

Birincisi, mən bir daha bu fikrə qayıdıram, – hazırlaşıb yaxın vaxtlarda Elmlər Akademiyasının əlli illik yubileyini qeyd etmək lazımdır. Bu barədə sizdən konkret təkliflər gözləyəcəyəm, mənim aparatım bu haqda göstərişimi alıbdır. İş proqramımıza uyğun olaraq münasib vaxt tapılacaq və bu yubileyi geniş və təntənəli qeyd edəcəyik.

Mən xatırlayıram, 22 il bundan əvvəl – 1975-ci ildə biz Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyini qeyd edirdik. O vaxtlar Sovetlər İttifaqı, yəni Rusiya Elmlər Aka[364-365]demiyasının 250 illik yubileyi qeyd olunurdu. Həmin dövrdə Elmlər Akademiyası "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdi. Təntənəli bir iclas keçirdik. O iclasdakı nitqim də mənim xatirimdədir. Akademiyanın işçilərinin çoxu təltif olundu. O zaman biz respublika akademiyasının 30 illiyi haqqında söhbət aparırdıq. İndi isə 50 illik yubileyindən bəhs edirik. Ondan fərqli olaraq indi bu akademiya müstəqil Azərbaycan dövlətinin akademiyasıdır. Müstəqil dövlət kimi biz öz milli akademiyamızın yubileyini keçirəcəyik. Mən çox məmnunam ki, biz akademiyanın yaranmasının yubileyini 22 il bundan əvvəl də bir yerdə keçirmişik. İndi, illər keçəndən sonra yenə də bir yerdəyik və bu tarixi hadisəni bir yerdə qeyd edəcəyik.

O vaxtlar akademiya çox problemlərlə məşğul olurdu. Bu da ondan irəli gəlirdi ki, istəyirdik Sovet İttifaqının akademiyasındakı bütün istiqamətlərdə biz də işləyək, özümüzü göstərək. Biz o vaxtlar da düşünürdük ki, bu o qədər də düzgün siyasət deyil. Çünki Sovetlər İttifaqının akademiyası bütün ölkəni əhatə edirdi və şübhəsiz ki, elmin bütün sahələrində səmərəli iş aparırdı və buna da imkan vardı. Amma Azərbaycanda, nisbətən böyük olmayan bir respublikada bütün sahələri əhatə etmək mümkün deyildi. Belə hal təkcə bizim respublikamıza aid deyildi, hər bir müttəfiq respublikanın akademiyası Sovet İttifaqı akademiyası kimi olmaq istəyirdi. Beləliklə də, qüvvələr, vəsait dağılırdı, çox şeyləri əhatə etməklə işlərin də çoxu bəzən yarımçıq qalırdı.

İndi Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycanın Elmlər Akademiyası dövlət elmlər akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun, akademiya gərək özü işini bu strategiya əsasında qursun. Bu strategiyanı da gərək siz respublikamızın həm elmi tədqiqat sahəsindəki imkanları əsasında qurasınız, həm də elmi tədqiqat işlərinin nəticəsinə görə respublikamıza lazım olan sahələri əhatə etməyə çalışasınız. Elm elə bir şey deyil ki, gəlib bir yerdə zavod tikəsən, başqa yerlərdən ona xammal, yaxud cihazlar gətirəsən, orada texnika qurasan və nəsə istehsal edəsən.

Elmi inkişaf etdirmək üçün gərək elmi kadrlar olsun. Bu, bizdə var. Hansı sahədə hansı kadrlarımız var? Bu, əsas amillərdən biridir. İkinci amil hansı sahənin respublikamızın iqtisadiyyatının, sosial həyatının, tariximizin, mədəniyyətimizin inkişafı üçün elmi tədqiqat nöqteyi-nəzərindən daha lazımlı [365-366] olması ilə bağlıdır. Ola bilər, elə sahələr var ki, o respublikamız üçün bu gün bəlkə o qədər də bilavasitə lazım deyil. Amma imkanlar varsa ki, biz bu sahədə dünya elminə hansısa bir yenilik gətirə bilərik, şübhəsiz, bunlar nəzərə alınmalıdır. Mən hamısını əhatə etmək fikrində deyiləm. Mənim dediyim bu sözlərdən istifadə edib siz özünüz

konkret strateji prinsiplər yarada bilərsiniz. Bunların əsasında Azərbaycan elminin inkişafının strategiyası yaranmalıdır. Bu strategiyanın həyata keçirilməsi üçün, tutaq ki, 5-10 il vaxt olmalıdır, bunun əsasında iş görülməlidir. Həmin işləri həyata keçirmək üçün hansı vəsait lazımdır, bunu haradan əldə etmək olar? Bunu dövlət büdcəsindən almaq, yaxud başqa ölkələrlə inteqrasiya, başqa elmi mərkəzlərlə əlaqə nəticəsində əldə etmək olar? İndi belə imkanlar çoxdur. Keçmişdə, biz Sovetlər İttifaqının tərkibində olarkən yalnız bu ittifaq çərçivəsində hərəkət edə bilərdiksə, indi bütün dünya ilə əlaqə qururuq və qura bilirik.

Əgər biz iqtisadiyyatı elmi nöqteyi-nəzərdən inkişaf etdirmək, xüsusən Azərbaycanın iqtisadi potensialından, ölkəmizin təbii sərvətlərindən istifadə etmək üçün dünya iqtisadiyyatı ilə inteqrasiyaya gedirdiksə, demək, burada da baxmaq lazımdır ki, elmin bəzi sahələrini inkişaf etdirməkdən ötrü hansı elmi mərkəzlərlə, yaxud hansı böyük şirkətlərlə əlaqə qurmaq və onlardan müəyyən maliyyə vəsaiti əldə edib bu işləri aparmaq olar. Ona görə də sizin indiki iş planınız, elmi strategiyanız gələcəkdə o keçmiş işlərdən tamamilə fərqli olmalıdır.

İndi ümumiyyətlə, qüsurlarımızdan biri ondan ibarətdir ki, çalışırıq keçmişdə necə olub, onu təkrar edək. Təsadüfi deyil ki, müxtəlif sahələrdə işləyən insanlarımızın əksəriyyətindən bir şey soruşsan, deyəcək ki, biz bunu elə həmişə belə etmişik – əvvəl də belə etmişik, indi də belə edirik. Bundan uzaqlaşmaq lazımdır. Şübhəsiz ki, keçmişdə olan, bu gün üçün dəyərli təcrübədən istifadə etmək lazımdır, ondan imtina etmək olmaz. Mən dəfələrlə demişəm, keçmişimiz zəngindir və ondan istifadə etmək lazımdır. Amma keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb onları təkrar etmək düzgün deyil. Ona görə də indi siz elmin inkişafı üçün akademiyanın strategiyasını müəyyən edərkən, gərək işə bax, bu prinsiplər əsasında yanaşasınız.

Bir şeyi bilməlisiniz ki, – bu mənim fikrimdir, – Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəs[366-367]sisəsidir. O, Azərbaycan dövlətinə məxsusdur. Son illər təkcə Azərbaycanda yox, dünyanın hər yerində müxtəlif akademiyalar yaranır. Eşidirsən ki, filan yerdə akademiya yaranıb, filankəs o akademiyaya üzv seçilib. Respublikamızda gərək ki, kimlərsə akademiyalar yaratdılar. Əgər belə desək, bu, özəl akademiyalardır. Bəlkə də bunlar lazımdır, mən bu barədə mübahisə aparmaq istəmirəm, qoy olsun. Amma Azərbaycan dövlətinin ən yüksək elm müəssisəsi respublikamızın Elmlər Akademiyasıdır. O dövlətə məxsusdur. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaqdır.

Biz bu akademiyanın hörmətini də həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız yüksək səviyyəli elmi tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi məsələlər arasında ərisin, itsin. Buna yol vermək olmaz.

İndi mən elmin inkişafı üçün strategiya haqqında ümumi fikirlərimi deyirəm, amma konkret olaraq bu məsələlərlə siz özünüz məşğul olmalısınız. Ancaq bir məsələ barəsində mən konkret təkliflərimi vermək istəyirəm. Bu da Azərbaycanın tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə tarix onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Bu, indi bizim üçün xüsusilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. O cümlədən, mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır.

Ona görə də biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmamışdır. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. [367-368]

Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın.

Mən bilirəm ki, bu çətin məsələdir. Əgər o illər – 1970-1980-ci illərdə bu, bir tərəfdən çətin məsələ olduğu üçün yaranmadısa, amma eyni zamanda bilirik ki, başqa respublikalarda tarixçilər pis də, yaxşı da olsa, hər halda öz xalqlarının tarixini yaza bildilər. Biz bunu edə bilmədik. Ancaq indi bir tərəfdən bəlkə yaxşıdır ki, bunu edə bilməmişik. Çünki etsəydik də, onu yenidən yazmalıydıq. Necə deyərlər, yanlış da bir naxışdır. İndi olan olub, keçən keçib. Mən sadəcə olaraq bu keçmiş haqqında deyirəm ki, bu səhvləri bundan sonra da təkrar etməyək. Ancaq heç kəsi də günahlandırmaq istəmirəm.

İndi vəzifə ondan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Ancaq təəssüflər olsun ki, mənim bu təkliflərim müqabilində Elmlər Akademiyası tərəfindən konkret bir təklif almamışam. Mən bir-iki dəfə demişəm ki, Azərbaycanın XX əsr tarixi yazılmalıdır. Mən bunu niyə belə demişəm? XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim

tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışırdım ki, biz XX əsrin tarixini tez yazaq. Çünki, bilirsiniz, tariximiz bir tərəfdən təhrif olunub, digər tərəfdən isə bəziləri keçmişdir nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar. Vaxtilə hamımız gənc idik, o vaxtkı ideologiya bizə nə verirdisə, onu da qəbul edirdik. Biz Kommunist Partiyasının, Oktyabr inqilabının tarixini, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının, 26 Bakı komissarının tarixini – hamısını olduğu kimi qəbul edirdik. Buna heç kəs günahkar deyil.

Mən 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik edən bir şəxsəm. O vaxt biz 26 Bakı komissarının yubileylərini keçirirdik, o cümlədən Şaumyanın da yubileyini keçirirdik. Bir tarixçi gəlib dedimi ki, Şaumyan haqqında yazılanların hamısı düz deyil, başqa cür yazmaq lazımdır? Heç bir tarixçi gəlib demədi. Xatirimdədir, biz Şaumyanın yubileyini keçirərkən mən [368-369] bu Tarix İnstitutundan, Partiya Tarixi İnstitutundan nə qədər materiallar tələb edirdim ki, onu, bunu verin, oxuyub gətirin. İki-üç ay mən tələblər edirdim. Hamısı Şaumyanın elə sözlərini gətirirdilər ki, deyirdin bu, dahidir.

Yenə də mən sizi günahlandırmıram. Çünki bizə qalmış miras o idi. Siz də, bizim o yaşlı tarixçilərimiz də, 1970-ci illərdən fəallıq göstərən tarixçilərimiz də onlardan istifadə edirdilər. Ona görə də biz onların hamısını o ideologiyanın konsepsiyasında bizə verilən kimi əks etdirirdik.

Sonra nə oldu? 1990-cı ildən başladılar ki, hamısı pisdir. Başqa adamları qaldırdılar və onları bir tarixi şəxsiyyət kimi şişirtdilər. Yəni o kommunist ideologiyasının vaxtında buraxılan səhvlər indi də təkrar edilir. Həmin səhvlər o vaxtlar bir istiqamətdə, indi başqa istiqamətdə buraxılır.

Belə subyektivliyə və tariximizin bundan sonra da təhrif edilməsinə yol verməmək üçün mən bir neçə dəfə təklif verdim ki, XX əsrin tarixi necə var, elə də yazılsın. Amma bu son günlər, sizinlə bu görüşə gələrkən, fikirləşirdim ki, təkcə XX əsrin tarixi yazılsa, bəlkə də bu, az olar. Mən bilirəm ki, indi götürülüb tariximizin hamısını yazmaq çətindir. Bunun üçün bir neçə il vaxt lazımdır. Gəlin bunu əsr-əsr yazaq. Götürək XIX əsrlə XX əsri yazaq. Bunlar bizim üçün həm yaxındır, həm məlumat, arxiv materialı çoxdur, həm də onlar çox işlənilibdir. Amma harada hansı səhv olubsa, gətirib düzəldək və yeni səhvlərə də yol verməyək.

Mən bu barədə daha geniş danışmaq istəmirəm, bunun əhəmiyyəti məlumdur. Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Bunun üçün mən bu gün konkret bir təklif vermək istəyirəm. Məsələn, mən bunu dedim, siz gedib müzakirə edəcəksiniz. Tarix institutuna göstəriş verəcəksiniz, plan quracaqsınız, – bu, öz yerində. Ancaq mən sizdən xahiş edirəm. Siz bir müəllif kollektivi yaradın və onun tərkibini mənə təqdim edin. XIX-XX əsrlər tarixinin yazılması üçün mən xüsusi vəsait ayıracağam. Mən sizə söz verirəm ki, çox yüksək vəsait ayıracağam. Yəni bu işlə məşğul olan adamlar öz iş yerindən məvacibini alır-alsın. Akademikdirsə, müxbir üzvdürsə, bu gün qəbul etdiyim sərəncamla ona nə çatırsa, alsın. Amma bundan əlavə, mən qrant verirəm. Bəli mən Azərbaycanın XIX-XX əsrlər tarixinin yaranması[369-370]na qarant verirəm. Ola bilərdi, mən müsabiqə elan edim və böyük bir mükafat təyin edim ki, kim yazıb gətirəcəksə, onu alacaq. Bilirsiniz, onda kim nə cür yazacaq, sonra necə olacaq – bu, bir az qarışıq məsələdir. Ancaq güclü bir müəllif kollektivi yaransın, o müəllif kollektivi planını gətirib ortaya qoysun, müəyyən edək ki, onlara nə qədər vaxt lazımdır. Onlar başqa işlərdən azad olunsunlar, bu işin üstündə otursunlar. Bu vaxt müddətində sizə ayda bunun üçün nə qədər vəsait lazımdır – mən bunu verirəm. Mən bunu dövlətin büdcəsindən ayırıram. Çünki bu, dövlət üçün ən vacib bir məsələdir. Mən başqa vəsaitlərdən kəsib buna yönəldəcəyəm.

Mən güman edirəm ki, bu, yaxşı təklifdir. Elədirmi? Əgər bu təklifi qəbul edirsinizsə, onda mən sizdən qısa müddətdə əməli təkliflər gözləyəcəyəm. Siz təklifinizi verən kimi xüsusi sərəncam olacaq, o müəllif kollektivi elan ediləcək, onların işləməsi üçün şərait yaradılacaqdır. Əgər bütün arxivlərin, sənədlərin onların sərəncamına verilməsi üçün mənim göstərişim lazımdırsa – olacaqdır. Müəyyən edək ki, biz bu tarixi nə vaxt alacağıq və belə bir əsər nə vaxt nəşr olunacaqdır.

Sizin qarşınızda bir çox başqa məsələlər də var. Mən bu barədə əlavə söz demək istəmirəm. Çünki mənim əsas fikrim ondan ibarətdir ki, Azərbaycanın milli akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rolunu oynamalıdır. Azərbaycanın prezidenti, hökuməti bunun üçün bütün imkanları yaradacaqdır.

Bu vəzifələri yerinə yetirmək üçün siz isə elmin inkişafı haqqında müəyyən bir mərhələdə strategiyanızı və taktikanızı müəyyən etməlisiniz, onu təsdiq etməlisiniz və Azərbaycan prezidentinə təqdim etməlisiniz . Elmlər Akademiyası Azərbaycan prezidentinin bilavasitə rəhbərliyi altında işləməlidir, ona bilavasitə tabe olmalıdır və onun bilavasitə himayəsi altında olacaqdır.

Mən bu sözlərlə sizə imkan verirəm ki, kim nə demək istəyirsə, buyursun.

## YEKUN NİTQİ

Fikir mübadiləsini davam etdirmək mümkündür, amma görürəm ki, bununla yekunlaşdırmaq da olar. Ona görə sizin çıxışlarınızda olan bəzi məsələlər haqqında öz fikrimi demək istəyirəm. [370-371]

Birincisi, burada elmin əlaqələndirilməsi və keçmiş təcrübə haqqında deyildi. Mən belə fikirdəyəm və

hesab edirəm ki, elmi tədqiqat işlərinin əlaqələndirilməsi ilə bizim Elmlər Akademiyası məşğul olmalıdır. Dediyim sözləri bəlkə bir daha təkrar edəcəyəm, bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının, müstəqil Azərbaycan Elmlər Akademiyası Azərbaycanın ən yüksək müəssisəsi, elmi təşkilatıdır. Gərək siz də çalışasınız ki, buna layiq olasınız. Azərbaycan Elmlər Akademiyası dövlətin akademiyasıdır, prezidentin birbaşa himayəsi altındadır, tabeliyindədir və prezidentin qarşısında cavabdehdir.

Eldar Salayev burada dedi ki, qanun qəbul olunub, indiyə qədər imzalanmayıbdır. Bilirsiniz, bunda sizin günahınız var, elə qanun qəbul edin ki, o, imzalansın. Bir tərəfdən deyirsiniz ki, akademiyanı kimsə dağıtmaq istəyir, o biri tərəfdən də 1992-ci ildə qərar qəbul etmisiniz ki, akademiya özünü idarə edən təşkilatdır, müstəqildir, filandır heç kəsdən asılı deyil, bir Allaha tabedir. Elə bu dağıntı işini özünüz etmisiniz. Nizam-intizam pozulanda, dövlətçilik pozulanda hər şey ola bilər. O vaxt ki, – 1992-ci ildə – dövlətçiliyi pozurdular onda siz bu fürsətdən istifadə edib bunu pozmusunuz. Elə bildiniz ki, bu, sizə xeyir gətirəcəkdir? Xeyir gətirməyəcəkdir. Görürsünüz gəlib nə günə düşdünüz? Ona görə öz səhvlərinizin bəlasını çəkirsiniz və mən bu səhvlərə yol verə bilmərəm.

Bəli, mən göstəriş vermişəm o qanunu işləsinlər. Şübhəsiz ki, elm müstəqildir, başqa sahələrdəki kimi elmdə də demokratik prinsiplər tam tətbiq olunmalıdır. Amma Azərbaycanın Elmlər Akademiyası Azərbaycan dövlətinindir və Azərbaycanın prezidentinə tabedir. Bu, özəl təşkilat deyil ki, özünüz-özünüzdən bir şey çıxarasınız. Siz dediniz qanun. Akademiya haqqında nə qanun qəbul olunacaq? Elm və texnika haqqında qanun qəbul ediləcək, amma akademiya, onun prinsipləri haqqında, ola bilər prezidentin fərmanı olsun. Hazırlayın, verin, mən fərman imzalayaram, bütün səlahiyyətləri verə bilərəm.

Bunları edə bilərəm. Amma bunları siz özünüz həyata keçirməlisiniz. Özünüz bəzi səhvlər buraxmısınız, sonra da fəallıq göstərməmisiniz, bu işlərin həyata keçirilməsi ilə məşğul olmamısınız. Ona görə də akademiya bu günə düşüb. İndi mən sizi bu vəziyyətdən çıxarmaq istəyirəm, yenə də deyirəm, akademiya bizim ən yüksək elm müəssisəmizdir, bü[371-372]tün elmin zirvəsində duran təşkilatdır. Bundan sonra akademiyaya bu statusla baxacağıq və o, bu statusla da fəaliyyət göstərməlidir.

Mən tapşırıram ki, Mahmud İsmayılovun qaldırdığı məsələyə baxın. Heç kəsə özbaşınalıq etmək imkanı vermək olmaz. Azərbaycanda da, başqa yerlərdə də bəlaların çoxu ondan irəli gəldi ki, dağıntı, özbaşınalıq, sahibsizlik gətirib bu vəziyyətə çıxardı. Mən imkan verə bilmərəm ki, Azərbaycanda özbaşınalıq olsun. Qanun-qayda, qanunun aliliyi hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün xüsusi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var və hamı bunlara tabe olmalı, riayət etməlidir. Bu məsələyə baxın.

Ziya Bünyadov Qazaxıstan variantı dedi. Mənə belə gəlir ki, dediyim sözlər Ziya Bünyadovun sözlərinə cavabdır. Narahat olmayın, burada heç bir Qazaxıstan variantı ola bilməz Akademiyanın indiyə qədər, əlli ildən artıq yaşadığı müddətdə topladığı təcrübə bizim üçün əzizdir, bunu qorumalı, saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, kimsə, o cümlədən prezident öz əhval-ruhiyyəsi ilə bunu dağıtsın. Ola bilər, başqa prezident bunu etsin, amma mən heç vaxt edə bilmərəm. Bayaq dedim, əgər akademiyanın əlli yaşı varsa, on yeddi il respublikaya rəhbərlik edərkən bilavasitə akademiyaya da rəhbərlik etmişəm. Əgər beş il də götürsəniz, onda gəlib iyirmi üç ilə çıxır. O illərdə də ki, mən kənarda olmuşam, amma ürəyim akademiya ilə olub, demək akademiyanın əlli ilinin yarısından çoxu mənim həyatımla, rəhbərliyimlə bağlıdır.

Sizin hamınızı görürəm, kim nə vaxt akademik seçilibdir bilirəm. Ola bilər İmam Mustafayev məndən qabaq seçilib, amma qalan hamınız mənim vaxtımda seçilmisiniz. Mən bunların hamısını bilirəm, görürəm. Ona görə də akademiya mənim üçün doğma bir yerdir. Həqiqətən, elm məbədidir. Mən ona belə də baxmışam, heç vaxt da fikrimi dəyişə bilmərəm. Bu, xalqımızın iftixarı, fəxridir, bunu dağıtmaq olarmı. Ona görə də bundan narahat olmayın.

Burada məsələlər qaldırıldı. Ola bilər, ümumi büdcədən ayırdığımız vəsaitdən əlavə, ayrı-ayrı nəşr, iş üçün vəsait lazım olsa, konkret proqram üçün də vəsait ayırmaq olar. Məsələn, Coğrafiya İnstitutunun direktoru dedi ki, atlas hazırlanıbdır. Hesab edirəm ki, bu, 1963-cü ildən indiyə qədər ilk dəfədirsə, Azərbaycanın coğrafiyası, tarixi üçün çox vacib bir şeydir. Ona görə [372-373] baxın, haqq-hesab edin, mənə təklif verin ki, onun nəşr olunması üçün nə lazımdır. Mən onun üçün xüsusi sərəncam verə, xüsusi vəsait ayıra bilərəm. Amma təkcə bu yox. Ümummilli xarakter daşıyan, Azərbaycan dövləti üçün lazım olan belə əsərlər, yaxud proqramlar varsa və bundan sonra da meydana çıxacaqsa onları müstəqil olaraq maliyyələşdirmək, himayə altına götürmək olar. Mən bunu da sizə elan edir və sizdən təkliflər gözləyirəm. Yenə də deyirəm, xalqımızın, millətimizin, müstəqilliyimizin yaşaması, inkişafı üçün yeni nə yarada bilərsiniz, bu barədə nə təklifləriniz var – bunları hazırlayıb verin. Bu, elmin inkişafı strategiyasından doğacaqdır. Amma hazır işlər varsa mən bunlara baxıb lazımi tədbirlər görə bilərəm.

Burada ekologiya fondu barədə təkliflər oldu. Mən hesab edirəm ki, bu da maraqlı təklifdir. Həqiqətən, 150 il, bəlkə bundan da öncə bizim Azərbaycanda, Bakıda, Abşeronda neft istehsalı başlananda Abşeronun torpaqlarına çox böyük zərər vurulub. Mənim xatirimdədir. 70-ci illərdə biz İttifaq dövləti qarşısında dəfələrlə bu məsələni qaldırırdıq. Abşeron torpaqlarını təmizləmək, rekultivasiya aparmaq və torpağa hopmuş nefti təmizləmək, torpaqları münbitləşdirmək qarşımızda duran əsas vəzifələrdən biri idi. Şübhəsiz ki, bu çox böyük işlər görülməli idi. O vaxt bu vəsait də sovet dövlətində yox idi.

Ancaq bu problem yaşayır, durur. Aydındır ki, biz indiki vəziyyətimizdə Abşeronda bu problemi həll edə bilmərik. Ancaq indi dünyanın böyük neft şirkətlərini Azərbaycan cəlb edərkən, onlarla müştərək iş görərkən ekologiya məsələsini xüsusi nəzarətdə saxlamalıyıq. Doğrudur, imzaladığımız müqavilələrin hamısında ekologiya problemləri qeyd olunubdur. Ancaq istərdim ki, Azərbaycan Elmlər Akademiyası bu işlərlə daha da ciddi məşğul olsun. Burada verilən təklif də çox maraqlıdır, o mənada ki, biz neft boru kəmərləri çəkəcəyik. Biri – Şimala gedən – keçmişdən olan boru kəməridir. Onu bərpa etdik, bu yaxınlarda istismara verəcəyik. O birisini də Gürcüstan ərazisindən Qara dəniz istiqamətində çəkirik. Onun tikintisi mart ayında başlanacaq, 1998-ci ilin sonunda başa çatacaqdır. Bir də böyük neft kəməri var, indi onun haqqında da axtarışlar aparırıq. Şübhəsiz ki, bu neft kəmərləri bizim ərazimizdən, torpağımızdan keçir, torpağımızın bir hissəsi onların altına düşür. Bu, çox mühüm məsələdir. [373-374] Ona görə də torpaq işi ilə məşğul olan alimlərimiz, institutlarımız, eyni zamanda ekologiya ilə məşğul olan təşkilatlarımız, birincisi, bu işə ciddi yanaşmalıdırlar ki, neft kəmərinin marşrutunda torpaqlarımız onun altına çox düşməsin, ikincisi də o yerlərdə ekologiyanın, təbiətin mühafizəsi üçün həqiqətən tam təminat yaranmalıdır. Hesab edirəm, bu məsələ də akademiyanın iş proqramına daxil olmalıdır.

Eyni zamanda mənə belə gəlir ki, ekologiya fondu məsələsi də elə fikirdir ki, onun haqqında düşünmək olar. Tapşırıram ki, Neft Şirkəti, Akademiya, Ekologiya Komitəsi ilə birlikdə fikirləşin, görün bu təklif nə şəkil ala bilər və bundan nə cür istifadə edə bilərik.

Arxiv haqqında burada söz deyildi. Bu, mühüm məsələdir. Bilirsiniz, ümumiyyətlə, biz indiyə qədər arxivlərə fikir verməmişik. Keçmişdə Sovet İttifaqı vaxtında Arxiv İdarəsi beşinci-altıncı dərəcəli idarə kimi olubdur. Mən indi xatırlayıram, o illərdə Azərbaycanda işləyərkən deyə bilmərəm ki, arxivlə həqiqətən ciddi məşğul olurduq. O vaxtlar müstəqil olmadığımıza, böyük dövlətin bir hissəsi olduğumuza görə bəlkə də bu qayğılar bizdə yox idi. Amma indi arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir, ikincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir.

Akademiyanın özünün arxivi yoxdur, siz Dövlət Arxivindən istifadə edirsiniz, ya akademiyanın arxivi var?

**Eldar Salayev:** Akademiyanın da arxivi var, amma materialların çox hissəsini Dövlət Arxivinə veririk.

**Heydər Əliyev:** Siz özünüzdə müasir materialları saxlayırsınız?

**Eldar Salayev:** Bəli, on il.

**Heydər Əliyev:** Mən bu barədə qəti fikir deyə bilmərəm. Sadəcə bu təklif məndə müəyyən düşüncələr oyadır. Ona görə də siz fikirləşin. Həqiqətən bizim böyük alimlərimiz, şəxsiyyətlərimiz yaşayırlar, yaradırlar. Onların yaradıcılığı kitablarında əks olunur. Onların fəaliyyəti, həyatı bizim tariximizdir. Burada deyildiyi kimi, bu materialların bəziləri ailələrinin şəxsi arxivində qalır. Düşünmək lazımdır.

Mənim yadımdadır, rəhmətlik Qara Qarayev – bizim böyük bəstəkarımız vaxtilə Moskvada yaşayırdı. Moskvada bir dəfə gəldi mənim yanıma, söylədi ki, burada öz mənzilimi yarı böldüm, yarısını verdim oğluma, yarısını ailə üzvlərimə, artıq [374-375] burada mənzilim yoxdur. Deyəsən dedi ki, arxivini də aparıb verdim ya Əlyazmalar Fonduna, ya da akademiyanın arxivinə. Mən bundan çox narahat oldum. Dedim ki, sən niyə belə edirsən? Moskvada yaşayırsan, yaşa, amma öz evini də saxla. Əgər sənin oğluna ev lazımdırsa, biz ev də verək, amma evini də saxla, arxivin də qalsın, ələ düşər. Dedi mən hamısını aparıb təhvil vermişəm. Bax, bu fakt indi mənim yadıma düşür. Qara Qarayevin şəxsi arxivləri bizim üçün böyük bir mənbədir – onun əlyazmaları, əsərlərinin əlyazmaları, notları, bütün həyatı. Qara Qarayevin həyatının timsalında, demək istəyirəm ki, bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir. Ona görə də siz düşünün. Mən bu barədə konkret bir şey deyə bilmərəm. Ancaq mənə belə gəlir ki, təklif diqqətəlayiqdir və bu barədə düşünüb müəyyən qərar qəbul etmək lazımdır. Mən heç bir şey deyə bilmərəm, çünki bu məsələni bilmirəm.

**Ziya Bünyadov:** Xüsusi arxivlər də var. Daxili İşlər Nazirliyinin Arxivi? Bunlar da xalqımızın tarixidir.

**Heydər Əliyev:** Bilirəm, onlar tamam başqa arxivlərdir. Onlar qorunur. Mən o arxivləri deyirəm ki, onlar dağılmasın.

**Ziya Bünyadov:** Partiya Mərkəzi Komitəsinin də arxivi olub.

**Heydər Əliyev:** Partiya dağılanda onu veriblər partiya tarixi arxivinə, o da götürüb veribdir Dövlət Arxivinə. Partiya Tarixi İnstitutu üçün biz vaxtilə gözəl bina tikmişdik. O binanı götürüb veriblər kommersiya strukturlarına, ora-bura dağıdıblar. Bilirsiniz, millətin tarixinə o qədər böyük zərbə vurublar ki, mən dəhşətə gəlirəm. İndi biz bəzi materialları axtarırıq, tapa bilmirik. Yanvar hadisələri ilə əlaqədar olan sənədlərin çoxunu tapa bilmirik. O vaxtlar bəzilərini dağıdıblar, yandırıblar. Mən burada uzun illər işləmişəm, heç vaxt düşünə bilməzdim ki, bu arxivləri kimsə dağıdacaq, yandıracaqdır. Ona görə arxivlərə münasibət tamamilə dəyişməlidir. Həm keçmiş partiya arxivi, həm dövlət arxivimiz, həm milli təhlükəsizlik və həm də daxili işlər nazirliklərində olan arxivlər qorunub saxlanmalıdır. Ancaq şəxsi arxivləri də qoruyub saxlamaq lazımdır.

**Püstə Əzizbəyova:** Bizim muzeyin binasının birinci mərtəbəsində arxiv var. Siz Moskvaya gedəndə, yadınızdadırsa, dedim ki, rəhmətlik Babayev oranı vermir, ala bil[375-376]mirəm. Tapşırdınız, Nazirlər Soveti də qərar qəbul etdi.

**Heydər Əliyev:** Yadımdadır.

**Püstə Əzizbəyova:** Ancaq o qərar indiyəcən həyata keçirilmir, arxiv də orada qalır.

**Heydər Əliyev:** İndi yenə də oradadır?

**Püstə Əzizbəyova:** Bəli. Özünüz baxsanız görəcəksiniz ki, bina da xeyli çöküb. Özü də arxiv ən gözəl salonun – Şərq salonunun altındadır. Mənə demişdilər ki, o arxivi partiya arxivinə köçürəcəklər. Sonra xəbər tutdum ki, oranı hansı assosiasiya isə alıb, qaytaran da deyillər, çünki çox pul veriblər.

**Heydər Əliyev:** Narahat olmayın, onların hamısını alacağıq. Pul veriblər, pulları qalar özlərində, yaxud başqalarında. Dövlətə mənsub olan şeylərin hamısı dövlətdə olacaqdır. Bərpa edəcəyik, narahat olmayın: Dağıtmaq asandır, amma qurmaq, yenidən bərpa etmək bir o qədər çətindir. Amma nə qədər çətin olsa da bunu edəcəyik.

Nəhayət, bir məsələ haqqında da öz fikrimi demək istəyirəm. Eldar Salayev öz çıxışında yanvar hadisələri ilə əlaqədar televiziya verilişləri və tarixin yenidən xalqa çatdırılması haqqında dedi. İndi bizim tariximiz nə qədər qorunub saxlanmalıdır və arxivlərimiz nə qədər qorunub saxlanmalıdır – elə bu yanvar hadisələri ilə əlaqədar olan məsələlər bunu göstərir. Yeddi il bundan öncə olubdur, elə bir uzaq zaman deyil ki! Amma təəssüf ki, o vaxtkı sənədlərin, materialların çoxunu tapmaq mümkün deyildir. İnsanlar gəlirlər, – bəzən mən də televiziya verilişlərinə baxır, onları dinləyirəm, – deyirlər ki, o yadımda deyil, bu yadımda deyil. Əgər yeddi il bundan öncə bizim başımıza gələn bu bəla unudulubsa və sənədlər də itibsə, tapılmırsa, təsəvvür edin, yüz il, iki yüz il bundan qabaq olan şeyləri bərpa etmək nə qədər çətindir.

**Ziya Bünyadov:** Bunlar hamısı çəkilib, bir kişi çəkib.

**Heydər Əliyev:** Deyirsən bir kişi çəkib onu tap, kasetləri gətirsin.

**Ziya Bünyadov:** Tapdım da, göndərdim də.

**Heydər Əliyev:** Göndərdin, çox sağ ol.

Hesab edirəm, bizim televiziya şirkəti çox əhəmiyyətli iş görür. Elan edib ki, kimdə nə kaset, lent varsa, yığsınlar. Kasetləri dağıdıblar, keçmiş Mərkəzi Komitədə, arxiv materiallarını yandırıblar, dağıdıblar, stenoqramları saxtalaşdırıblar. Dəh[376-377]şətli vəziyyətdir. Bu da onu göstərir ki, bundan nəticə çıxarmaq lazımdır. Xalqımızın tarixinə, həyatında baş verən hadisələrə biganə qalmaq olmaz. Yanvar hadisələri ilə əlaqədar olan bu televiziya verilişləri, – ola bilər, bunun çatışmazlıqları da var, bəzi adamlar nəyisə düz deyir, nəyisə düz demirlər – ümumən bizim tariximizin yenidən bərpa olunmasıdır və təqdirəlayiqdir, eyni zamanda çox lazımdır. Həyat da göstərir ki, bu, lazımdır.

O ki, qaldı Eldar Salayevin narazılığına ki, o yanvar plenumunda çıxış etməyibdir, Parisdə idi, filandı, – Eldar müəllim, iş onda deyil. Mən dünən də bunu sizə dedim, – iş onda deyil kim haradaydı. Bir halda ki, Eldar Salayev bu söhbəti saldı, mən bu məsələyə qayıtmalıyam. İş ondadır ki, Azərbaycanın başına o cür bəla, faciə gəldi, – mən dünən axşam da sənə dedim, – camaat coşdu, Azərbaycanın deputatlarının bir qismi öz təşəbbüsləri ilə yığışdılar, yanvarın 21-22-də bir qərar qəbul etdilər. Televiziyada deyildi, mən də deyirəm ki, o qərar o dövr üçün həqiqətən çox cəsarətli və tarixi əhəmiyyətə malik olan bir qərar idi.

O gecə camaat, yəni deputatlar və deputat olmayan adamlar özləri toplaşıb Azərbaycanın milli mənafeyini müdafiə etmək üçün o irticaya, təcavüzə, hərbi təcavüzə qiymət veriblər. Ancaq bundan iki gün sonra hər şey soyuyub. İş onda deyil ki, sən yanvar plenumunda olmamışdın, çıxış etməmisən, amma mart plenumunda çıxış etdin. İş ondadır ki, o vaxt siz hamınız birlikdə nə etdiniz? Mən dünən sənə deyirdim, 1989-cu ildə Tbilisi hadisələri olmuşdu. Orada 16 adam həlak olmuşdu, özü də oraya kənardan qoşun gəlməmişdi, Zaqafqaziya hərbi dairəsinin qoşunları idi. Meydanda 16 adam həlak olmuşdu. Amma gürcülər bu məsələni qaldırdılar. Moskvada xalq deputatları, – sizlər də onların arasında vardınız, – həmin o Qurultaylar sarayında hamını ayağa qaldırdılar ki, həlak olanların xatirəsi yad edilsin. Qorbaçovu məcbur elədilər – o, gürcü xalqından üzr istədi.

Amma ondan yarım il, yaxud yeddi-səkkiz ay sonra Azərbaycanın başına bundan on qat artıq bəla gəldi. Nə etdiniz? Bizdən, xalqımızdan üzr istədilərmi? Yox! Buna qiymət verildi? Yox! Həmin o yanvarın 24-25-də keçirilən plenumda, – indi vəzifədə olan bəzi adamlar da var, deyirlər ki, biz nə edəcəkdik? – Görün, nə edərdiniz. O vaxt Kommunist Partiyasının Mərkəzi Komitəsi ən yüksək, hakim dövlət strukturu idi. Ses[377-378]siyada qəbul olunmuş qərarı təsdiq edəydiniz, təkrar edəydiniz, – əgər bundan artığına gücünüz, yaxud qüdrətiniz çatmırdısa. O plenumda iştirak edənlərin bəziləri buradadır, mən sizin üzünüzə deyirəm – onu təsdiq edəydiniz, təkrar edəydiniz, yaxud da ona bənzər bir bəyanat qəbul edəydiniz ki, Azərbaycan Kommunist Partiyasının MK plenumu Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzü pisləyir və tələb edir ki, buna son qoyulsun.

Bunu etmədiniz. Camaat küçələrdə qırıldı. Küçələrdə partiya biletlərini atanlar atdı, yandıranlar yandırdı. Amma Mərkəzi Komitənin üzvləri, deputatlar faciədən beş gün sonra yığışdılar, ağızlarına su alıb oturdular, cinayətkarları da başladılar müdafiə etməyə. Budur, bizim tariximiz! Bu, həqiqətdir. Bu həqiqətdən heç kim qaça bilməz. Ona görə də, Eldar, sən necə çıxış etmisən, hansı cür çıxış etsən də onun qiyməti yoxdur. Çünki niyə, mən bunu belə hesab edirəm. Sənin mart ayındakı çıxışını oxumamışam, bilmirəm. Amma əgər sən orada çıxış edib məhkum etmisənsə, doğrudan da öz etirazını bildirmisənsə, nəyisə tələb etmisənsə, gətir o sənədi, qoy mənim qabağıma, deyim onu sabah televiziya ilə versinlər. Gətir o stenoqramı. Amma sən orada durub onu bir

balaca tənqid etmisənsə, bunu bir balaca tənqid etmisənsə, – hesab edirsən ki, böyük iş görmüsən – bu, böyük iş deyil.

Bəs ondan sonrakı dövr? Bu məsələnin üstünü örtdülər, basdırdılar. Arxivdənmi, haradansa o kaseti çıxarıb göstərirdilər – 1991-ci ildə mən Naxçıvandan gəldim, çıxış etdim, siz televiziyada gördünüz. Mən çıxış edir, deyirəm ki, Azərbaycandan fövqəladə vəziyyəti götürmək lazımdır, yanvar hadisələrinə qiymət vermək lazımdır. Yerdən sözümü kəsirlər: reqlament, filan, bəsməkan. Axı mən adi bir adam deyildim. O salonda oturanlar əgər xalqını sevən adamlardırsa, axı mən heç kimin əleyhinə getmirdim, xalqımın mənafeyini müdafiə edirdim. Mənim sözüm qaldı orada.

Amma bu gün mənim deməyə mənəvi haqqım var ki, Naxçıvandan ağır vəziyyətdə gəldim. Məni buraya gəlməyə qoymurdular, qarşımı alırdılar, həyatım böyük təhlükə altında idi. Mən gəldim, çıxış da etdim və öz mövqeyimi də bildirdim. Bilirsiniz, xahiş edirəm məni düzgün başa düşün, mən burada heç də öz şəxsiyyətimi şişirtmək istəmirəm, olan həqiqəti demək istəyirəm. Ona görə Qanlı Yanvar faciəsinin günahkarları, – şübhəsiz ki, onlar məlumdurlar, həm Moskvada, həm də [378-379] Azərbaycanda – başqaları da, o cümlədən sizlərin çoxları da ki, bu işlərə biganə qalmısınız, özünüzü kənara çəkmisiniz – bağışlanılası deyil. Qətiyyən bağışlanılası deyil.

Bunu ona görə demirəm ki, kimsə cəzalansın, kiməsə nə isə etsinlər. Ona görə deyirəm ki, xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır. Yanvarın 21-də mən xəstəxanadan gəlib övladlarımla birlikdə mitinqə gedəndə bilmirdim, oradan qayıdacağam, ya qayıtmayacağam. Ancaq mən getdim, orada öz mövqeyimi bildirdim, ona görə yox ki, mənə nə isə lazım idi. Onsuz da orada həyatdan təcrid olunmuş adam idim. Getdim, xalqın qarşısında çıxış etdim, mövqeyimi bildirdim. Ona görə bildirdim ki, xalqım oyansın, dirçəlsin.

Mən dəfələrlə demişəm – Azərbaycanda Kommunist Partiyasına məndən çox xidmət edən adamlar az tapılar – partiya stajına görə burada bəlkə İmam Mustafayev partiyada məndən çox olubdur – ancaq mən Kommunist Partiyasını tərk etdim. Tərk edəndə də beş maddədən ibarət ittiham verdim. Biri də ondan ibarətdir ki, 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı hərbi təcavüz edilib və indiyə qədər də bu təcavüzə qiymət verilməyibdir, ona görə də mən bu partiyada qalmaq istəmirəm.

Mən bunları danışanda həyəcanlanıram, çünki həqiqətən 20 yanvarda xalqımıza zərbə vurulub. Ermənistan ölkəmizə təcavüz edibdir, Ermənistanı dəstəkləyiblər – Moskva dəstəkləyib, Qorbaçov dəstəkləyibdir, Sovet hökuməti birtərəfli mövqe tutubdur. Azərbaycanın özü səhvlər buraxıbdır, başımıza bəlalar gəlibdir, – bu, başqa məsələ. Amma xalqımıza qarşı bu qədər güc, silah işlətmək – Sovet İttifaqının tarixində belə hadisə heç bir yerdə, heç bir regionda, heç bir ölkədə olmamışdır. Bəli, 1956-cı ildə Macarıstana sovet qoşunları yeridildi, – belə bir hadisə olmuşdu. Amma başqa heç bir yerdə belə şey olmamışdı. Heç bir respublikaya, xalqa qarşı belə hərbi təcavüz edilməmişdi. Belə hərbi təcavüz edildi və xalqımız da susanda dedilər ki, ona nə istəsən edə bilərsən.

Ona görə də biz gərək nəticə çıxaraq və hamı bilsin ki, yox, bizim xalqımız elə xalq deyil, bizim xalqımızla hörmətlə davranmaq lazımdır, hesablaşmaq lazımdır. İndi, biz müstəqil dövlət olanda mən bunu deyirəm – bu müstəqil dövlətimizlə, xalqımızla hesablaşmaq lazımdır. Biz heç kəsə tabe olma[379-380]yacağıq və heç kəs də güman etməsin ki, bu gün-sabah kimsə bizi özünə tabe edə bilər. Yox! Ya bu cür yaşayacağıq, ya da, mümkün olmasa, yaxşı olar ki, heç yaşamayaq, nəinki əsarət altına düşüb yaşayaq.

Mənim fikirlərim bundan ibarətdir. Ona görə hər biriniz özünüzə tənqidi yanaşın, bir faktı götürüb özünüzü müdafiə etməyə çalışmayın. Hər biriniz tənqidi şəkildə götür-qoy edin ki, doğrudan da o vaxtlar niyə mən onu etmədim, bunu etmədim. Ona görə yox ki, özünüzü cəzalandırasınız, yox. Heç kəsi cəzalandırmaq lazım deyil. Ona görə lazımdır ki, nəticə çıxarasınız. Nəticəni də hərə özü üçün çıxarmalıdır və xalqımız da nəticə çıxarmalıdır ki, xalqımızın başına bir də belə bəlalar gəlməsin.

Mən bir balaca həyəcanlandım, ola bilər, əvvəlki əhval-ruhiyyə bir az pozulsun. Amma istəmirəm pozulsun. Söhbətimi qurtararaq bir daha bildirmək istəyirəm ki, bizim bugünkü görüşümüz mənim üçün xüsusən çox əhəmiyyətlidir. Sizinlə bir neçə saat bir yerdə olub bu məsələləri müzakirə etmək mənim üçün də böyük əhəmiyyət kəsb edir. Güman edirəm ki, sizinlə birlikdə irəli sürdüyümüz vəzifələrin həyata keçirilməsi ilə məşğul olacaqsınız, konkret təkliflərinizi hazırlayıb təqdim edəcəksiniz. Akademiyanın, Azərbaycan Dövlət Elmlər Akademiyasının yubileyini də bu yaxınlarda keçirmək lazımdır. Vaxtını yəqin ki, bizim iş proqramımızda araşdırarsınız, çünki bir neçə tədbirlərimiz var – mənim xaricə səfərlərim, burada ayrı-ayrı beynəlxalq görüşlər var. Bunlarla uyğunlaşdırıb vaxt müəyyən edərsiniz, onu da layiqincə keçirəcəyik.

Yusif Məmmədəliyevin yubileyinin, Mustafa bəy Topçubaşovun yubileyinin təntənəli keçirilməsi və son illər ümumiyyətlə bizim elm, mədəniyyət xadimlərinin xatirəsinə göstərilən hörmət və ehtiram yəqin sübut edir ki, dövlətimiz – müstəqil Azərbaycanın dövləti və mən prezident kimi qayğımızı göstəririk və bundan sonra da göstərəcəyik. Buna tam arxayın ola bilərsiniz.

Son olaraq bir məsələ də. Dünən Eldar Salayev ilə danışarkən belə məsələ meydana çıxdı ki, o vəzifəsindən istefa vermək istəyir. Mənə müraciət etdi ki, on üç ildir işləyirəm, yaxşı olar, bu vəzifədən istefa

verim. Mən onun bu fikri ilə razıyam və istefası haqqında təklifini qəbul etdim. Ancaq şübhəsiz ki, bunu siz öz iclasınızda həyata keçirəcəksiniz. Bu gün Eldar Salayev mənə dedi ki, gələn beşinci gün – bir həftədən [380-381] sonra akademiyanın iclası təyin olunubdur və sizin nizamnamə əsasında Eldar Salayevin istefası qəbul edilər və yeni prezident seçərsiniz.

**Eldar Salayev:** Növbəti prezident seçkisində mən öz namizədliyimi irəli sürməyəcəyəm. Son zamanlar mənim elmi axtarışlarıma xaricdə maraq çoxdur, ona görə də bununla məşğul olmaq istəyirəm.

**Heydər Əliyev:** Eldar Salayev on üç ildir Azərbaycan Elmlər Akademiyasının prezidentidir. Həm alim kimi, həm prezident kimi xidmətləri olubdur. Ona görə də mən Eldar Salayevi Azərbaycanın yüksək ordeni ilə təltif etmişəm. (Eldar Salayevin "Şöhrət" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı oxundu).

Bir həftədən sonra siz məsələni öz nizamnamənizlə həyata keçirəcəksiniz. Mənim də bir təklifim var. Bu da ondan ibarətdir ki, akademiyanın prezident seçkilərində Fəraməz Maqsudov Azərbaycan Elmlər Akademiyasının prezidenti seçilsin. Fəraməz Maqsudovu hamınız tanıyırsınız, gənc vaxtlarından istedadı ilə riyaziyyat elmi sahəsində böyük işlər görübdür. Uzun illər riyaziyyat institutunun direktoru, akademiyanın həmin bölməsinin başçısı olubdur. Bununla yanaşı, Fəraməz Maqsudov respublikada gedən ictimai-siyasi proseslərdə öz prinsipial mövqeyini bildirən adamdır. Mən buraya gələndən sonra, 1991-1992-ci illərdə, həm də ki, 1993-cü ildə, xüsusən Azərbaycanda vətəndaş müharibəsi baş verdiyi zaman bunun şahidi olmuşam. Xatirimdədir, Fəraməz Maqsudov o vaxt bir qrup alimlə Gəncəyə getmişdi, böyük çətinliklərlə məsələləri araşdırırdılar. İmam Mustafayevin başçılığı ilə komissiya yaradılmışdı, Fəraməz Maqsudov da o komissiyada iştirak edirdi. Xatirimdədir, mən Milli Məclisin iclaslarını aparanda o, öz prinsipial fikirlərini, mövqelərini bildirirdi. Sonrakı dövrdə də respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, Milli Məclisin üzvüdür. Hesab edirəm ki, Fəraməz Maqsudov alim, təşkilatçı və ictimai-siyasi xadim kimi Elmlər Akademiyasına yaxşı prezident olar.

Bununla da gəlin bu görüşümüzü qurtaraq. Gələn görüşlərə qədər. Sağ olun. [381-382]

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏRİNİN 1-ci FORUMUNUN BİRİNCİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ FORUM NÜMAYƏNDƏLƏRİNİN BIR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident Sarayı*

*1 fevral 1997-ci il*

Əziz gənclər!

Gənclərlə görüş insanı həmişə sevindirir və xoş əhval-ruhiyyə yaradır. Ona görə də mən sizinlə görüşdən çox şadam. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsinin bir ili tamam olmuşdur. Mən forumun birinci ildönümü münasibətilə sizi təbrik edirəm. Bu bir il müddətində nə işlər görülüb və bundan sonra nə işlər görülə bilər – bu barədə sizi dinləmək, sizdən məlumat almaq üçün bu görüşə gəlmişəm. Mən sizi dinləyirəm...

### YEKUN NİTQİ

Əziz dostlar!

Sizin çıxışlarınız və verdiyiniz məlumatlar son dövrdə Azərbaycanda gənclər arasında işin xeyli canlanmasını göstərir. Belə nəticəyə gəlmək olar ki, 1994-cü ildə yaranmış Gənclər və İdman Nazirliyi artıq öz işini yaxşı təşkil edə bilibdir. Bu nazirliyin yaranmasının nə qədər əhəmiyyətli olduğu indi daha aydın görünür. Ötən müddətdə bütün sahələrdə gənclər arasında işlərin görülməsi nizama salınıbdır, onun istiqamətləri müəyyən edilibdir. Gənclər təşkilatlarının işinin əlaqələndirilməsi və onların hamısının bir istiqamətdə fəaliyyət göstərməsi üçün müəyyən nailiyyətlər əldə olunubdur. Bunlar hamısı Azərbaycanda gənclər arasında aparılan işin müsbət nəticələrini sübut edir.

Müstəqil Azərbaycan Respublikası gənclərinin ilk forumu bir il bundan əvvəl keçirildi. Forumda irəli sürülən vəzifələr [382-383] bu bir il müddətində həyata keçirilib və bir çox sahələrdə müsbət nəticələr əldə edilibdir. 1980-ci illərin sonunda, 1990-cı illərin əvvəllərində Azərbaycanda mövcud olan qarmaqarışıqlıq, özbaşınalıq, qanunsuzluq vəziyyəti ilə əlaqədar gənclərin də arasında belə mənfi halların inkişaf etməsinə demək olar ki, son qoyulubdur.

Respublikamızda yaranmış müxtəlif gənclər təşkilatları əsasən düz istiqamətdə fəaliyyət göstərirlər və indi Azərbaycan gənclərinin hamısının doğru-düzgün və sağlam əhval-ruhiyyədə olduğu göz qabağındadır. Azərbaycanın gəncləri həmişə fəal olublar, həyatımızın xüsusən o kəskin dövrlərində öz mövqelərini bildiriblər. Azərbaycan gənclərinin tam əksəriyyəti milli vətənpərvərlik əhval-ruhiyyəsində olub və öz mövqelərini bildirib. Ancaq təəssüflər olsun ki, keçmiş illərdə ayrı-ayrı siyasi qüvvələr, cinayətkar qüvvələr gənclərimizin bu vətənpərvərlik, milli əhval-ruhiyyəsindən öz məqsədləri üçün istifadə etdiklərinə görə Azərbaycan gəncləri müəyyən bir dövrdə parçalanıblar, bəziləri mənfi meyllərə çox uyublar, cinayət ediblər və şübhəsiz ki, özlərinə bədbəxtlik gətiriblər.

1993-cü ildən indiyə qədər respublikamızın ictimai-siyasi həyatını təmizləmək sahəsində apardığımız işlər sırasında gənclər arasında bu mənfi halların aradan qaldırılması çox mühüm yer tutur. Respublikamızda bugünkü ictimai-siyasi, mənəvi mühit, sabitlik eyni zamanda gənclərimizin arasında olan əhval-ruhiyyəni əks etdirir. Müstəqil Azərbaycan Respublikası gənclərinin bir il bundan əvvəl keçirilmiş ilk forumu bu baxımdan öz müsbət nəticələrini verir. Sizin bir il müddətində gördüyünüz işlər, əldə etdiyiniz nailiyyətlər müsbət qiymətə layiqdir. Mən bu baxımdan bütün təşkilatların işlərini müsbət qiymətləndirirəm, Azərbaycanın Gənclər və İdman Nazirliyinin fəaliyyətinə müsbət qiymət verirəm.

Sizin bu gün verdiyiniz məlumatlar məni sevindirir, eyni zamanda böyük ümidlər yaradır. Ümidlər yaradır ki, biz gənclərimizi həyata, gələcəyə günü-gündən daha da yaxşı hazırlaya bilərik, gələcəyimiz olan gənclər müstəqil Azərbaycanda öz yerini tutaraq ölkəmizə, millətimizə, dövlətimizə sədaqətlə xidmət edəcəklər.

Siz burada bir çox məsələlər qaldırdınız. Mən bu məsələlərin demək olar ki, tam əksəriyyətinə müsbət münasibət göstərirəm. Mən hesab edirəm ki, 2 fevral gününü Azərbaycanda Gənclər günü elan etmək barədə sizin təklifinizi qəbul etmək [383-384] olar və mən bu barədə öz fikrimi bildirirəm. Bunun üçün müvafiq sənəd imzalanacaqdır. Qoy gələcəkdə bu gün Azərbaycan gənclərinin günü, bayram günü olsun və siz gələcəkdə həmin günü hər il qeyd edə biləsiniz.

Mənə təqdim etdiyiniz "Arzu" qəzetinin çapdan çıxmasına çox sevindim. Çünki biz uşaqlara bütün qayğıları göstərməliyik. Uşaqların belə bir qəzetinin olması çox vacibdir.

Siz burada digər bir sıra qəzetlər haqqında da təklif verdiniz. Onların büdcədən maliyyələşdirilməsi ilə əlaqədar çətinliyiniz var?

**Əbülfəs Qarayev:** Cənab prezident, Qəzetlərimizin büdcədən maliyyələşdirilməsinə ehtiyac var.

**Heydər Əliyev:** Yaxşı, mən bu təklifinizi də qəbul edirəm və sərəncam verirəm ki, sizin bu qəzetlərin maliyyə məsələsi həll olunsun. Hesab edin ki, bu məsələ həll edildi. Burada uşaq təşkilatı və pionerlər evi haqqında məsələ qaldırıldı. Keçmişdə respublikamızın hər yerində pionerlər evi var idi. Bu gün demək lazımdır ki, həmin pionerlər evi gənclərin, yeniyetmələrin həyatında çox böyük rol oynayıbdır. Biz onu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Ola bilər, sizin çoxunuz uşaqlıq dövrünüzü pionerlər evində keçirmisiniz. Kim həmin pionerlər evindən necə istifadə edib, yaxud öz həyatı üçün ondan nə alıb, onu özü bilər. Mən isə demək istəyirəm ki, uşaqlıq dövrümdə məktəblə bərabər, pionerlər evi mənim həyatımda ən böyük rol oynayıb. Mən bütün uşaqlıq dövrümü, yəni orta məktəbin 10-cu sinfini qurtaranadək pionerlər evinin daimi müdavimi olmuşam. Mən uşaqlıq illərimdə pionerlər evində şahmat, dama oynamışam, dram, özfəaliyyət və bir sıra digər dərnəklərdə, müxtəlif idman yarışlarında iştirak etmişəm. Pionerlər evinə ömrüm boyu minnətdaram. Mən 70-ci illərdə respublikaya rəhbərlik edəndə Naxçıvandakı pionerlər evini şəhərin guya baş planına görə dağıtmaq istəyirdilər. Mən bunu eşitdim, qoymadım, dedim ki, o bina yaşamalıdır. Çünki o bina tək mənə yox, Naxçıvanda o dövrdə o nəslə, uşaqlara o qədər xidmət etmişdir ki, onu uçurmaq olmaz. Dedim ki, çalışın, ondan istifadə edin. Sonra oraya gedəndə gördüm ki, həmin pionerlər evindən çox səmərəli istifadə edirlər. Pionerlər evinin keçmiş illərdə xidmətləri çox böyük olubdur. Gənclərimizin tərbiyəsində və yetişməsində pionerlər evinin çox böyük rolu olubdur. Ona görə də pionerlər evinin adını indi nə qo[384-385]yursunuzsa-qoyun, amma bu evlərin hamısından gənclər, yeniyetmələr istifadə etməlidirlər!

İndi bu evlər var, yoxsa yox?

**Əbülfəs Qarayev:** Cənab prezident, bəzi rayonlarda var, bəzilərində isə yox. Bir çox yerlərdə ləğv edilib.

**Heydər Əliyev:** Bəs necə olub, niyə ləğv edilib?

**Əbülfəs Qarayev:** Cənab prezident, əvvəlki dövrdəki qarışıq illərdə bu evlər ləğv edilib.

**Heydər Əliyev:** Yaxşı, indi mən əmr verirəm, icra aparatının rəhbərinə tapşırıram ki, bu sərəncamın layihəsini hazırlasınlar.

Bir sıra kompleksləri sizdən almışdılar, onları qaytardılarmı? Həmin kompleksləri də sizə qaytarıram. 1970-1980-ci illərdə bütün şəhərlərdə və rayonlarda pionerlər evi olmuş binaların hamısı gənclər təşkilatına qaytarılsın, əvvəllər kimlərə verilibsə, onların əlindən alınsın. Siz orada uşaqların tərbiyəsi işinin müasir tələblərə uyğun qurulması, onların əylənməsi, uşaqların ayrı-ayrı sahələr üzrə hazırlanması üçün işlər aparın.

Burada Şəhriyar adına Mədəniyyət sarayının gənclərə verilməsi haqqında da təklif oldu. Elədirmi? Belə hesab edirəm ki, bu məsələyə də baxmaq lazımdır. Həmin binaya mənim bilavasitə münasibətim var. Çünki bilirsiniz ki, o bina vaxtilə Dövlət Təhlükəsizliyi Komitəsinə məxsus olubdur. O binanı da həmin təşkilat tikibdir. Mən də uzun illər o təşkilatda xidmət etmişəm və bir çox illərdə həmin təşkilatın rəhbəri olmuşam. O bina da vaxtilə bilavasitə mənim sərəncamımda olubdur. Ona görə də mən o binaya yaxşı bələdəm. Mən 1970-ci illərdə o binanın bərpa olunması, modernləşdirilməsi, təmir edilməsi üçün də çox işlər görmüşdüm. Buna görə də o binadan necə istifadə olunması üçün xüsusi haqqım da var. Mən tapşırıram ki, bu məsələyə baxın və öz təklifinizi verin.

Beləliklə, son bir il içərisində Azərbaycanda gənclər arasında iş, gəncliyə qayğı sahəsində məsələlər, əgər belə desək, nizama, qayda-qanuna, normal bir yola düşübdür. Sizinlə bizim borcumuz ondan ibarətdir ki, əldə edilmiş nailiyyətlər əsasında bu işi daha da sürətlə irəliyə aparaq.

Müstəqil Azərbaycan Respublikası gənclərinin bir il bundan əvvəl keçirilən forumunda mən qarşıda duran vəzifələr haqqında geniş danışmışdım. O məsələlərə bu gün yenidən qayıtmaq məqsədim yoxdur. Ancaq eyni zamanda gənclərin tərbiyəsi, təhsili, həyatı bizim üçün o qədər vacibdir, böyük [385-386] əhəmiyyət kəsb edir ki, bu məsələ barəsində hər dəfə danışmaq, fikirləri təzələmək, yeni fikirlər irəli sürmək olar.

Azərbaycan Respublikasında əhalinin çox hissəsini gənclər təşkil edir. XX əsrin sonuna çatdığı bir vaxtda respublikamızın tarixinə nəzər salsaq – XX əsrin əvvəlindən indiyədək olan dövrü təhlil etmək imkanına malikik – nəsillər nəsilləri əvəz edib və bu tariximizin hər mərhələsində gənclər həmişə özünəməxsus rol oynayıblar. Gənclər respublikamızın inkişafında, bu səviyyəyə çatmasında əvəzsiz xidmətlər göstəriblər.

Dünən mən Azərbaycanın görkəmli alimləri ilə görüşürdüm. Onların əksəriyyəti indi yaşlı insanlardır. Amma mən 30-40 il bundan əvvəli xatırlayıram – onlar ya gənc idilər, ya da gənclikdən təzə-təzə çıxmış insanlar idilər. Onlar Azərbaycan elminə nə qədər xidmətlər ediblər. Məhz onlar – bizim o görkəmli alimlərimiz universitetlərdə, ali və orta məktəblərdə gənclərimizə təhsil, tərbiyə veriblər, yeni nəsilləri təhsilləndiriblər, onları həyata hazırlayıblar, onlara ixtisas veriblər. Ona görə də bugünkü yaşlı alim 30-40-50 il bundan əvvəl gənc idi. O, gənc olaraq özündən əvvəlki nəsildən elm, bilik öyrənib, dövlətçilik idarəçilik təcrübəsini alıb, özü də yaradıb, qurubdur, öz biliyini, təcrübəsini ondan sonra gələn nəsillərə veribdir. Həyat belədir, nəsillər nəsilləri əvəz edir.

Siz gəncsiniz. Bu gün sizin qarşınızda böyük vəzifələr durur. Amma sonra gələn nəsillər sizin təcrübənizdən, yaratdığınız işlərdən istifadə edəcəklər. Siz də Azərbaycanın həyatında öz xidmətlərinizi

göstərərək, ölkəmizi inkişaf etdirərək, sonra gələn nəsillərə böyük irs qoyacaqsınız. Ona görə də gənclik xoşbəxtlikdir. Bunu bilin, insanın həyatında gənclik dövründən gözəl dövr yoxdur. Hər bir gənc isə bu gənclik dövründən gərək maksimum səmərəli istifadə etsin. Gənclik dövründə boş, mənasız keçirilən bir gün sonra böyük itkilərə gətirib çıxarır. Hər gündən, dəqiqədən səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmin, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm də ölkə, xalq üçün faydalı olsun.

Yenə də deyirəm, gənclər tariximizin bütün mərhələlərində öz xidmətlərini göstəriblər. Əminəm ki, gənclər Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında, saxlanmasında, inkişaf etməsində bu gün də öz xidmətlərini göstərəcəklər.

Bu günlər biz Yanvar faciəsinin 7-ci ildönümünü qeyd edirik. O faciə ilə əlaqədar bir çox mərasimlər keçirildi, mətbuat[386-387]da, televiziyada, radioda çoxlu verilişlər verildi. 1990-cı il yanvarın 20-də Sovet İttifaqının rəhbərləri, eyni zamanda Azərbaycana rəhbərlik edən şəxslər tərəfindən xalqımıza qarşı dəhşətli bir hərbi təcavüz edilmişdir. Onlar bu təcavüzü birlikdə etmişdilər. Bu təcavüzü edənlər o vaxt bunu bəzən onunla əsaslandırırdılar ki, guya o dövrdə Azərbaycanda Sovet hakimiyyəti dağılırdı və buna görə də Bakıya böyük qoşun qüvvələri yeridilməli idi ki, Sovet hakimiyyətini qoruyub saxlasın.

Mən yanvar hadisələri haqqında danışarkən demişəm və bu gün də deyirəm ki, 1990-cı il 20 Yanvar həm xalqımız üçün böyük faciədir, xalqımızın tarixinin qara səhifəsidir. Həm də xalqımızın tarixində qəhrəmanlıq səhifəsidir, xalqımızın milli azadlıq uğrunda mübarizəsinin parlaq səhifəsidir. Biz fəxr edə bilərik ki, xalqımız, xüsusən gənclər o dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan ədalətsizliyə dözmədi və milli azadlıq hisslərini, istəklərini həyata keçirmək üçün meydanlara, küçələrə toplaşdılar, ədalətsizliyə, haqsızlığa, o zülmə öz etirazlarını bildirdilər, Azərbaycan xalqının müstəqillik, azadlıq uğrunda mübarizəsini bütün dünyaya nümayiş etdirdilər. Bax, o dövrdə, o illər mübarizəyə qalxanların əksəriyyəti gənclər idi. Ona görə də mən gənclərin o illərdə fəaliyyətini, onların qəhrəmanlığını həmişə yüksək qiymətləndirmişəm və bu gün də yüksək qiymətləndirirəm.

O təcavüz zamanı 20 Yanvar gecəsi həlak olanların ruhu qarşısında baş əyirəm. Bu gün bir daha deyirəm ki, 20 Yanvar bizim üçün nə qədər böyük itkilər gətirdisə də, xalqımızı müstəqillik, azadlıq yoluna o qədər də sürətlə qaldırdı və xalqımızın qüdrətini, cəsarətini nümayiş etdirdi. Yenə də deyirəm, o günlər, o hadisələr haqqında danışarkən mən birinci növbədə gəncləri nəzərdə tuturam. O tankların altında qalanların, şəhid olanların əksəriyyəti məhz gənclər olublar. Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınması üçün döyüşlərdə də şəhid olanların əksəriyyəti gənclərimizdir. Vuruşanlar, döyüşənlər gənclərimizdir. Torpağımızı müdafiə edərkən şikəst, əlil olanların əksəriyyəti gənclərimizdir. Gənclərimiz bu gün də Azərbaycan Respublikası ictimaiyyətinin əsas hissəsini təşkil edir və biz Azərbaycanda hüquqi demokratik dövlət quraraq, respublikamızın müstəqilliyini qoruyub saxlamaq üçün lazım olan tədbirləri görərək daim gənclərə arxalanırıq, güvənirik. Bu işləri gənclərlə bir yerdə görürük və gələcəkdə də görəcəyik. [387-388]

Gənclərin qarşısında duran vəzifələr böyükdür. Ancaq əsas vəzifələrdən biri bundan ibarətdir ki, gərək gənclər həyatımızın bu çətinliklərinə baxmayaraq, təhsillənsinlər. Yəni biz məktəblərin, təhsil müəssisələrinin işinə daha da çox qayğı, diqqət göstərməliyik. Yenə də deyirəm, bu iqtisadi sosial çətinliklər dövründə biz təhsili yaşatmalıyıq. Gənclər mütləq təhsil, bilik almalıdırlar, təhsillənməlidirlər.

Respublikamızda müstəqil hüquqi demokratik dövlət qurulur. Milli ideologiya konsepsiyası haqqında danışanda gəncləri birinci növbədə Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etmək lazımdır. Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir.

Respublikamızda dövlət quruculuğu demokratiya prinsipləri əsasında gedir. Ölkəmizdə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulur. Gənclərin təhsili, tərbiyəsi məhz bu istiqamətdə aparılmalıdır. Bir daha qeyd edirəm, hüquqi, demokratik, dünyəvi dövlət qururuq.

Gənclər xalqımızın milli ənənələri, milli, mənəvi dəyərləri əsasında tərbiyələnməlidir. Gənclərin tərbiyə edilməsində, təhsillənməsində eyni zamanda ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Milli, mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşlarımızın və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir. Gənclər arasında aparılan iş bu istiqamətdə olmalıdır.

Siz milli vətənpərvərlik, vətəndaşlıq proqramının layihəsini hazırlamısınız. Bu, çox yaxşıdır. Bu proqramın layihəsinə baxmaq, onu qəbul etmək və ondan geniş istifadə etmək lazımdır. Milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipi olmalıdır. Vətəndaşlıq hər bir vətəndaş üçün əsas prinsipdir. Ancaq respublikamızda, ölkəmizdə yeni müstəqil dövlət, yeni iqtisadi-siyasi bir sistem qurulduğu, bizim üçün tamamilə yeni olan demokratik hüquqi dövlət qurulduğu bir zamanda insanların vətənpərvər olması hər şeydən üstün olmalıdır.

Eyni zamanda, Azərbaycanın ərazisinin bir qisminin Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində işğal edildiyinə, respublikamızın ərazi bütövlüyü pozulduğuna görə və ölkəmizin işğal edilmiş torpaqlarının azad olunması, ərazi bütövlü[388-389]yünün bərpa edilməsi dövlətimizin ən əsas məqsədlərindən biri olduğuna

görə milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun.

Gəncləri xüsusən milli vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyələndirmək lazımdır. Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün onun güclü müasir tələblərə cavab verən ordusu olmalıdır. Azərbaycan Respublikası üçün bu ordu daha da güclü olmalıdır. Çünki respublikamız təcavüzə məruz qalmışdır, Azərbaycanın torpaqları işğal edilibdir, ərazi bütövlüyü pozulubdur. Biz respublikamızın ərazi bütövlüyünü bərpa etməliyik.

Sizə məlumdur ki, 1994-cü ilin mayında atəşkəs haqqında imzaladığımız saziş davam edir. Biz Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Bu sahədə aparılan işlər sizə məlumdur. Bir daha deyirəm ki, biz məsələnin sülh yolu ilə həll olunması prinsipinə sadiqik. Biz bundan sonra da bu yolda öz səylərimizi göstərəcəyik. Ancaq bununla yanaşı, biz ordumuzu gücləndirməliyik, xalqımızı daim hərbi vətənpərvərlik əhval-ruhiyyəsində tərbiyə edərək torpaqlarımızın azad edilməsi üçün döyüşə daim hazır olmalıyıq və hər bir vətəndaş Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab etməlidir.

Hər bir ölkədə o ölkənin ordusunda xidmət etmək hər bir gəncin vətəndaşlıq borcudur. Ancaq bizim ölkədə hər bir gəncin borcu başqa ölkələrin gənclərinə nisbətən bir neçə dəfə artıqdır. Çünki respublikamızın düşdüyü vəziyyət və qarşıda duran vəzifələrimiz bizim gənclərimizin hərbi hazırlığının, orduda xidmətinin nə qədər zəruri olduğunu göstərir. Ona görə elə mən hesab edirəm ki, bütün gənclər təşkilatı, Gənclər və İdman Nazirliyi və bütün dövlət orqanlarımız Müdafiə Nazirliyi ilə birlikdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək məqsədi ilə əlavə tədbirlər görməlidirlər. Bu vəzifəni yerinə yetirmək məqsədi ilə 1997-ci il üçün lazımi proqram tərtib olunmalıdır və o, həyata keçirilməlidir.

Ümumiyyətlə, cəmiyyətimizdə, xüsusən gənclər arasında orduya, hərbi xidmətə hörmət və diqqət artmalıdır. Hər bir gəncin orduya xidmətə getməsi onun ailəsində bayram olmalıdır. Belə bir ənənə yaratmaq lazımdır. Keçmişdə belə bir ənənə var idi. Ailə öz övladını əsgərliyə göndərəndə məclis qururdu, onu təntənə ilə yola salırdı, ona xeyir-dua, sədaqətlə xidmət [389-390] etmək nəsihəti verirdi. Bu o vaxt idi ki, gənclərimiz öz Milli Ordumuzda xidmət etmirdilər. Gənclərimiz o vaxt mənsub olduğumuz böyük ölkənin ordusunda xidmət edirdilər. Bu gün demək lazımdır ki, onların böyük əksəriyyəti çox ləyaqətlə xidmət edirdi, yüksək vətəndaşlıq keyfiyyəti, yüksək mənəvi xüsusiyyətlər göstərirdi və xalqımızın başını ucaldırdılar, hörmətini qaldırırdılar. Biz bunları unutmamalıyıq, biz bunlarla fəxr etməliyik. İkinci dünya, Vətən müharibəsində Azərbaycanın igid oğulları qəhrəmanlıq nümunələri göstərmişlər, yüksək mükafatlara nail olmuşlar, yüksək adlar almışlar. Həzi Aslanov, İsrafil Məmmədov və başqaları belələrindən idi. Biz onların adları ilə gəncləri neçə on illər tərbiyələndirmişik. Onların qəhrəmanlığı bu gün da xalqımız üçün böyük nümunədir. Eyni zamanda, Azərbaycan torpaqlarını Ermənistan təcavüzündən müdafiə edərkən, qoruyarkən qəhrəmanlıq göstərən övladlarımızın, şəhid olanların və qəhrəmanlıq göstərib bu gün də orduda xidmət edənlərin, yaxud bizim sıralarımızda olanların nümunəsindən istifadə etmək lazımdır.

Gəncləri bu əhval-ruhiyyədə, bu ruhda tərbiyələndirmək, hazırlamaq sizin hamınızın əsas vəzifəsidir. Dövlət öz tərəfindən lazımi tədbirlər görəcəkdir. Əgər lazım gəlsə, mən bu barədə qərarlar da qəbul edə bilərəm. Ancaq siz təşəbbüs göstərməlisiniz, təkliflər verməlisiniz. Respublikamızda gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sizin fəaliyyətinizin mərkəzində olmalıdır. Hərbi hissələrlə, ordu ilə əlaqə, hərbi hissələri ziyarət etmək, torpaqlarımızın müdafiəsində duran gənclərlə görüşlər – bunlar daim sizin işinizin əsas hissəsini təşkil etməlidir.

Respublikamız yeni ictimai-siyasi, iqtisadi dövr keçirir. Bu dövrdə elmimiz də, təhsilimiz də, mədəniyyətimiz də – bütün imkanlarımız ölkəmizin inkişafına sərf olunmalıdır. Yeni iqtisadi formalar – bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yaranır, özəlləşdirmə prosesi gedir. Bu proseslərdə gənclər sağlam əhval-ruhiyyə ilə iştirak etməlidirlər. Yenə də deyirəm, bizim milli-mənəvi dəyərlərimizə söykənmək və gəncləri cinayətkarlıqdan qorumaq, cəmiyyətdə olan mənfi yollardan çəkindirmək sizin əsas vəzifələrinizdəndir.

Təəssüflər olsun ki, son 7-8-9 ildə respublikamızda cinayətkarlıq artıb, qeyri-qanuni silahlı dəstələr, cinayətkar qruplar mövcud olublar. Onların respublikamızın ictimaiyyətinə, dövlətinə nə qədər zərərlər vurduğunu siz yaxşı bilirsiniz. Təəssüf[390-391]lər olsun ki, bu cinayətkar dəstələrə, bu qruplara, ayrı-ayrı siyasi oyunlara gənclər də qoşulublar. Məsələn, 1993-cü ilin iyununda respublikada vətəndaş müharibəsinin baş verdiyi, ondan sonrakı aylarda – 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd, 1995-ci ilin martında yenə də dövlət çevrilişinə silahla, güclə cəhd göstərildiyi dövrləri götürək. Təəssüf ki, bu silahlı, qeyri-qanuni dəstələrin içərisində gənclər də olublar.

Mən ürək ağrısı ilə deyirəm ki, bəzən gənclər bu silahlı dəstələrə, bu cinayətkar qruplara nə üçün getdiklərini bilməyərək, özlərini bədbəxt etdilər. Onların bir çoxu həbs olunub, bir hissəsi qaçıb ayrı-ayrı ölkələrdə gizlənirlər. Təəssüflər olsun ki, onlar o cinayətkarlar tərəfindən yenidən cinayət əməllərinə cəlb olunurdular. Onlar özlərini də bədbəxt ediblər, öz ailələrini, valideynlərini də böyük əzab-əziyyətə salıblar və bizim üçün də böyük ürək ağrısı gətiriblər.

Hüquq-mühafizə orqanlarımız 1995-1996-cı illərdə cinayətkarlığın qarşısını almaq üçün çox işlər görüblər. Bir çox cinayətkar qruplar ifşa olunublar, yaxalanıblar, həbs ediliblər, məhkəməyə veriliblər. Azərbaycanda nə qədər uşaq oğrusu, adam oğrusu var idi. Bir il, iki il bundan qabaq insanlar nə qədər təhlükə altında idilər. Həbs edilən o adamların içərisində olanlar indi etiraf edirlər, ifadə verirlər, boyunlarına alırlar ki, nə qədər belə cinayətlər ediblər. Təəssüf ki, bunların da bir çoxu gənclərdir. Həyata necə deyərlər, tamamilə şüurla qoşulmamış adamlar bax, belə cinayətkar hərəkətlərə cəlb olunubdur və indi cəza çəkirlər. Ona görə də gənclərimizi belə mənfi hallardan, cinayətkarlıqdan qorumaq sizin əsas vəzifənizdir.

Hesab edirəm ki, respublikamızı bu cinayətkarlardan təmizləmək prosesi bundan sonra da davam edəcəkdir. İndiyədək görülən işlər respublikamızın, daxili ictimai-siyasi vəziyyətini artıq tamamilə dəyişdirib. Ölkəmizdə ictimai-siyasi sabitlik mövcuddur. İnsanlar artıq rahat yaşaya, işləyə, gəzə bilirlər, istirahət edə bilirlər və o silahlı dəstələrdən xilas olublar. Çox maraqlı bir haldır ki, indi insanların çoxu hüquq-mühafizə orqanlarına anonim olaraq telefonla zəng edirlər, silahların yerini göstərirlər və o silahlardan xilas olmaq istəyirlər. Son bir neçə ayda respublikanın müxtəlif məntəqələrində həddindən artıq çox silah-sursat çıxarılıbdır. İndi sual olunur – bu silahlar insanlara nə üçün lazımdır? Nə üçün adi bir adam aparıb öz [391-392] evində, həyətində, torpaq altında avtomat, pulemyot, qumbara və sair gizlədir? Bu, özünü müdafiə etmək üçündürmü? Yox. Yəqin bu, müəyyən bir cinayət işləri görmək üçündür. Məgər bu, gedib Ermənistan təcavüzünə qarşı müharibə etmək üçündür. Yox. Əgər gedib müharibədə iştirak edəcəksə, müharibəyə, cəbhəyə, orduya gedən adam dövlət tərəfindən silahla təchiz olunur. Əgər ayrı-ayrı vətəndaşlar, müxtəlif yerlərdə – həyətində, bağında, bağçasında, evinin içində zirzəmisində pulemyot, qumbaraatan, avtomat, snayper tüfəngi, qumbara, mina, partlayıcı maddələr gizlədirsə, deməк, bunların hamısını cinayət üçün edir.

Mən hüquq-mühafizə orqanlarına göstəriş vermişəm ki, son iki ildə aşkara çıxarılmış silahları, sursatları cəmləsinlər, ümumi bir hesabat versinlər ki, 1995-1996-cı illərdə Azərbaycanda həm o cinayətkarlardan, həm də ayrı-ayrı insanlardan, heç bir cinayət etməmiş adamlardan nə qədər belə silahlar, sursatlar yığılıb toplanıbdır. Bunlar onu göstərir ki, əvvəlki illərdə Azərbaycanda ictimai-siyasi kriminogen vəziyyət nə qədər gərgin idi. Məhz bunun nəticəsində də hər bir adam gedib özbaşına avtomat da, pulemyot da, qumbara da ala bilərdi, aparardı, saxlayardı, istifadə edərdi. Biz bunların qarşısını almışıq, bundan sonra da alacağıq, kökünü kəsəcəyik. Ancaq indi çalışmaq lazımdır ki, ümumiyyətlə bütün vətəndaşlar, xüsusən gənclər bir daha bu yola getməsinlər.

Bizdə silah-sursat dövlətimizdə, orduda, hüquq-mühafizə orqanlarında, dövlət orqanlarında olmalıdır. Dövlətçiliyimizi müdafiə etmək, sərhədlərimizi qorumaq, torpaqlarımızı müdafiə etmək üçün bunların hamısı olmalıdır. Amma ayrı-ayrı adamlarda qeyri-qanuni silahların olması cinayətin baş verməsinin əsas səbəbidir. Gəncləri bundan sonra bax, belə hallardan, bu cür xəstəlikdən – o illərdə Azərbaycanda bu xəstəlik geniş yayılmışdı – xilas etmək lazımdır.

Sizin əsas vəzifələrinizdən biri gəncləri zərərli və pis adət və ənənələrdən çəkindirmək və qorumaqdan ibarətdir. Bunlar hansılardır? Spirtli içkilərə meyl, nəhayət, alkoqolizm, narkotik maddələrdən istifadə olunması, nəhayət, narkomaniya. Bunların hamısı da ailəni, gəncin həyatını pozur, cəmiyyətə zərər gətirir, insanların mənəviyyatını pozur. Bilirsiniz, bunların qarşısını təkcə hüquq-mühafizə orqanlarının vasitəsilə almaq mümkün deyil. Siz gənclər, gənclər təşkilatı gərək məktəblərdə, başqa tərbiyə ocaqlarında, gənclər təşkilatında bu [392-393] mənfi halların qarşısının alınmasına çalışasınız, belə halların yayılmasına imkan verməyəsiniz, onların, insanın özünün həyatı, cəmiyyətimiz üçün nə qədər zərərli olduğunu yayasınız, izah edəsiniz, anladasınız.

Hesab edirəm ki, bizim informasiya orqanlarımız – televiziya, radio, qəzetlər, digər mətbuat orqanları da təbliğat işini genişləndirməlidir. Yenə deyirəm, gəncləri bu təhlükəli meyllərdən qorumaq, ümumiyyətlə, bu meyllərin qarşısını almaq, bunları ölkəmizdən tamamilə yox etmək lazımdır. Xalqımız dövri-qədimdən bu mənfi meyllərdən uzaq olmuşdur. Keçmişdən bizim millətimizdə spirtli içkilər istifadə olunmayıbdır. Bu, bizim dini, milli ənənələrimizə uyğun deyil. Nəyə lazımdır ki, indi gənclər araq içsinlər? Nə üçün, nəyə görə öz səhhətlərini korlasınlar və bunun da nəticəsində müxtəlif yollara getsinlər? Yaxud, narkotik maddələrdən istifadə olunması tarixi keçmişimizə, xalqımıza xas olan bir xüsusiyyət deyildir. Yəni bunlar son dövrdə xalqımızın, cəmiyyətimizin içərisində başqa ölkələrdən, yerlərdən gəlib daxil olmuş xəstəliklərdir. Bunların qarşısı alınmalıdır.

Gənclərimizi elmə, mədəniyyətə daha da çox cəlb etmək lazımdır. Gənclərimizdə elmi-tədqiqat işlərinə həvəs oyatmaq lazımdır. Siz burada bir gənc alimin elmi işini mənə verdiniz. Mən bundan çox məmnunam. Bir daha deyirəm, dünən mən görkəmli alimlərlə görüşürdüm. Amma mən istərdim ki, siz təşkil edəsiniz, Azərbaycanda olan gənc alimlərlə də görüşək. Dünən mənim görüşdüyüm alimlər görkəmli, böyük xidməti olan alimlərdir. Ancaq bizdə gənc nəsil, gənc alimlər də var. Gəlin, gənc alimlərlə bir görüş, toplantı keçirək, onları dinləyək, onların problemləri ilə daha da yaxından tanış olaq, onlara kömək edək. Bizim elmimiz inkişaf etməlidir. Elmimizi gənclər, siz inkişaf etdirəcəksiniz. İndiki görkəmli alimlər etdiklərini ediblər. Şübhəsiz ki, onlar öz xidmətlərini bundan sonra da göstərəcəklər. Amma elmimizin gələcəyi gənclərin əlindədir. Müstəqil Azərbaycanın gərək bundan da çox, bundan da güclü elmi potensialı olsun.

Mən çox arzu edərdim ki, siz ədəbiyyat, incəsənət, mədəniyyət sahəsində olan işlərə də daha çox diqqət yetirəsiniz. Məsələn, istərdim ki, yazıçılarla, şairlərlə görüşək. Mən bunu bir dəfə demişdim. 70-ci illərdə adətən

biz yazıçılarla bir ümumi görüş keçirirdik, bir də gənc yazıçılarla görüşürdük. İndi artıq yaşlı olan yazıçılar o vaxt gənc yazıçılar qrupuna daxil idi[393-394]lər. Amma indi mən istəyirəm ki, bugünkü gənc yazıçılarla görüşüm. İllər keçibdir, o gənc yazıçılar indi yaşlaşıblar. Amma indi gənc yazıçılar, şairlər var. Bunlarla görüşmək, onlara kömək etmək, onların problemləri, qayğıları ilə məşğul olmaq lazımdır. Gənclər təşkilatı, Gənclər və İdman Nazirliyi gərək eləcə də gənc bəstəkarlarla, rəssamlarla, yəni gənclərimizin ziyalı təbəqəsi ilə daha da yaxından məşğul olsun. Mən də bu barədə sizə öz xidmətlərimi təklif edirəm. Mən bu görüşlərin keçirilməsinə və gənclərin bu problemlərinin müzakirə olunmasına və imkan dairəsində həll edilməsinə kömək göstərməyə hazıram.

Bunların hamısının sonunda mən bir daha demək istəyirəm – bizim, sizin, hamımızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gəncliyini tərbiyə etmək, yetişdirməkdir. Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, respublikamızın gənclərini Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir. Azərbaycan gəncləri cəmiyyətimizdə demokratik prinsiplərin bərqərar olmasına, inkişaf etməsinə fəal qoşulmalıdırlar. Azərbaycan gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etmək lazımdır. Azərbaycan gəncləri – bugünkü və sabah gələn gənclər də gərək bilsinlər ki, hər bir azərbaycanlının milli borcu, vəzifəsi respublikamızın dövlət müstəqilliyini qoruyub saxlamaqdır. Azərbaycanı azad, sərbəst, müstəqil dövlət kimi inkişaf etdirməkdir. Azərbaycanın elmini, mədəniyyətini yüksəklərə qaldırmaqdır, respublikamızın adını, şanını-şöhrətini dünyaya yaymaqdır, Dünya Birliyində Azərbaycanın layiqli yer tutması üçün xidmətlər göstərməkdir. Hər bir vətəndaşın borcu Azərbaycanın dövlət müstəqilliyinə öz ölkəsinə, vətəninə, xalqına sadiq olmaqdan ibarətdir.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, gənclərimiz öz ölkəsinə, millətinə, dövlətinə, xalqına sadiq gənclər olacaqlar. Mən bu arzularla sizin hamınıza cansağlığı və işinizdə uğurlar arzulayıram. Sağ olun. [394-395]

## GÖRKƏMLİ AZƏRBAYCAN BALERİNASI, XALQ ARTİSTİ, PROFESSOR LEYLA VƏKİLOVAYA HƏSR EDİLMİŞ TAMAŞAYA BAXDIQDAN SONRA BALETİN İŞTİRAKÇILARI – İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət*
*Akademik Opera və Balet Teatrı*

*2 fevral 1997-ci il*

Leyla xanım, sizi, bütün tamaşa iştirakçılarını, hamınızı səmimi qəlbdən təbrik edirəm.

Mən belə başa düşdüm ki, bugünkü tamaşa Leyla xanımın yubileyinə həsr olunub. Hesab edirəm ki, siz ona layiq hədiyyə hazırlamısınız. Bugünkü tamaşa mənə çox böyük təsir bağışladı. Gözəl, yaxşı, şən tamaşalardır. Arlekin çox şən idi. Başlıcası budur ki, tamaşalar əla tamaşalardır. Mənim üçün xoşdur ki, bu tamaşalar bizdə birinci dəfə göstərilir. Bu, respublikamızın mədəni həyatında hadisədir, tamaşaçılarımıza, adamlarımıza qiymətli hədiyyədir. Bu baletlərin belə gözəl şəkildə tamaşaya qoyulmasına görə çox sağ olun, hamınız çox sağ olun. Siz əla ifa etdiniz. Şadam ki, baletimiz, Azərbaycan baleti yaşayır, mövcuddur, heç bir çətinliyə baxmayaraq, bu gün də yaxşı vəziyyətdədir.

Leyla xanımla görüşdükdə düşünürsən ki, o, Azərbaycanda müasir baletin yaradılmasına nə qədər zəhmət çəkmiş və qüvvə sərf etmişdir! Bizdə klassik balet onun çox böyük əməyinin nəticəsidir. Bu işə siz neçə il – əlli ilini həsr etmisiniz?

**Leyla Vəkilova:** Ömrümün 53 ilini bu işə sərf etmişəm, cənab prezident.

**Heydər Əliyev:** Bu illər heç də sadəcə 53 il deyildir. Mən təsəvvür edirəm, lakin siz özünüz daha yaxşı bilərsiniz ki, özünü balet sənətinə həsr etmək heç də asan deyildir. Tamaşaçı yarım saat, bir saat, saat yarım, iki saat oturur, əl çalır, həzz alır, çox böyük estetik zövq alır, sevinir – bu da tə[395-396]biidir. Amma bu balet necə yaranır, necə ərsəyə gətirilir, hər bir ifaçı səhnədə nə kimi hisslər keçirir... Məsələn, mən təsəvvür edirəm, lakin bununla yanaşı, mən də təsdiqləməyə cürət etmərəm ki, hər şeyi təsəvvürümdə axıradək canlandıra bilərəm. Bunu ancaq siz bilərsiniz ki, səhnədə hər şeyin gözəl, yaxşı görünməsi, yüksək səviyyədə olması üçün nə qədər əmək qoyulur. Azərbaycanda baletin belə inkişaf etməsinə görə biz məhz incəsənət ustalarımıza, o cümlədən Leyla xanıma minnətdarıq. Leyla xanım mənə bir balaca düzəliş verib dedi ki, ömrünün 53 ilini bu sənətə həsr etmişdir.

Zənnimcə, o, ömrünün bu illərini sənətə nahaqdan həsr etməyibdir, çünki bu, adamlara, xalqa çox böyük sevinc gətirən gözəl sənətdir, ən başlıcası isə bu sənət onu özünə peşə seçənlərə məmnunluq hissləri bəxş edir. Axı insan peşəni elə-belə seçmir, əksər hallarda öz daxili bacarığını, arzu və istəyini nəzərə alaraq seçir. Əlbəttə, baletlə hər kəs məşğul ola bilməz. Bundan ötrü xüsusi bacarıq və istedad gərəkdir. Lakin bundan başqa böyük arzu da lazımdır ki, sənətin belə çətin, belə ağır, çox ağır növü ilə məşğul olasan – bundan ötrü necə ürək gərəkdir!

Hesab edirəm ki, səhnədə olanların hamısı hünər göstərir. Balet isə səhnə sənətinin bütün janrları arasında, əlbəttə, xüsusi yer tutur. Mən bütövlükdə incəsənət, o cümlədən də balet həvəskarı kimi bunu həmişə hiss etmişəm, başa düşmüşəm və həmişə də qeyd etmişəm. Bu gün də çox şadam ki, Azərbaycan baleti belə yaxşı səviyyədədir.

Leyla xanım sizə təşəkkür edirəm, mən sizə öz təbrikimi göndərmişəm, siz onu almısınız. Mənim təbrikim mətbuatımızda dərc olunub. Bu gün xüsusi olaraq gəldim ki, sizi şəxsən təbrik edim. Eyni zamanda hamını bugünkü gözəl tamaşa münasibətilə təbrik edim. Çox sağ olun.

Mədəniyyət xadimlərini, görüş iştirakçılarını əmin edirəm ki, əvvəllər olduğu kimi, yenə də incəsənətə, opera teatrına həmişə kömək edəcəyəm, müasir şəraitdə mümkün olan bütün tədbirləri görəcəyəm ki, baletimiz getdikcə yüksəlsin, opera və balet teatrımız bugünkü kimi yaşasın, var olsun, bizdə yeni-yeni balet ustaları, yeni-yeni incəsənət ustaları yaransın.

Leyla xanım, sizi bir daha təbrik edirəm, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun. [396-397]

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA**

Möhtərəm cənab prezident!

Məşhəd şəhəri yaxınlığında zəlzələ nəticəsində çoxlu insan həlak olması xəbəri məni dərindən sarsıtdı.

Zati-aliləri, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*5 fevral 1997-ci il* [397-398]

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Sizi – Azərbaycanın bütün müsəlman əhalisini İslam dünyasının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olunduğu mübarək Ramazan ayı xeyirxah niyyətlər, mənəvi zənginlik, fiziki-ruhi kamillik və əxlaqi saflıq ayıdır. Bu bayram xeyrin şər, mənəvi ucalığın nəfs üzərində təntənəsinin bayramıdır.

Azərbaycan xalqı həmişə Tanrıya tapınan, qəlbində daim iman və inam gəzdirən xalqdır. Öz tarixi köklərinə, milli-dini keçmişinə sadiq olan xalqımızın mərd oğul və qızlarının yüksək vətəndaşlıq qeyrəti, Vətənə, torpağa bağlılığı, milli müstəqilliyimiz uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə ülvi mənəvi dəyərlərdən qaynaqlanır.

Bu gün suveren, demokratik Azərbaycan dövlətində dini etiqad və vicdan azadlığı bərqərar edilmişdir. Mütərəqqi islamı dəyərlərə qayıdış, milli-dini ənənələrin dirçəldilməsi cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində, xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.

Əziz müsəlman qardaş və bacılarım!

Orucluq Allah üçündür və müqəddəs dinimiz qarşısında mənəvi borcdur. Siz mübarək Ramazan günlərini böyük məmnunluq və fərəh hissləri ilə başa vurursunuz. İnanıram ki, Allah və din yolunda cəfakeşliyiniz və Azərbaycanın əmin-amanlığı, tərəqqisi, torpaqlarımızın düşmən tapdağından azad edilməsi, dövlət müstəqilliyimizin əbədi olması naminə etdiyiniz dualar sayəsində Böyük Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Bu əziz bayram günündə hamınıza firavanlıq, ailələrinizə xoşbəxtlik, evlərinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*7 fevral 1997-ci il* [398-399]

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ CƏNABLARINA**

Hörmətli cənab prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün qardaş İran xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edir, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*10 fevral 1997-ci il* [399-400]

## İRAN İSLAM İNQİLABININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*10 fevral 1997-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi İran İslam İnqilabının ildönümü münasibətilə ürəkdən təbrik edirəm mən xoş arzularımı, ürəkdən gələn təbriklərimi sizə və bütün İran xalqına çatdırıram.

İran Azərbaycanın qonşusudur, dostudur, dost ölkədir və qonşuluğumuz əsrlər boyu bizi bir yerdə edibdir. Adət-ənənələrimizin, mənəvi, dini ənənələrimizin eyni olması, bir-birinə bənzərliyi bizi bir-birimizə bağlayıb və doğma edibdir.

Azərbaycan xalqı İran xalqına, respublikasına, onun həyatına daim maraq göstərmişdir və İran xalqının nailiyyətləri ilə həmişə sevinmişdir, fəxr etmişdir. Bu gün İran inqilabının ildönümünlə bayram kimi qeyd edərək, biz İran xalqının imam Xomeyninin rəhbərliyi altında etdiyi inqilabdan sonrakı dövrdə əldə etdiyi nailiyyətlərə sevinirik və bu nailiyyətlər münasibətilə sizi, bütün İran xalqını təbrik edirik.

Həqiqətən, İran İslam İnqilabından sonra İranda böyük dəyişikliklər baş vermişdir. İran müstəqil dövlət kimi Dünya Birliyində öz mövqelərini daim bildirərək, özünəməxsus olan siyasəti aparmışdır. Ən əsası ondan ibarətdir ki, İran xalqının rifah halı, güzəranı yaxşılaşmışdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra İran ilə dərhal dövlətlərarası əlaqələr qurmuşdur. Bu gün bir daha məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, İran Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ötən beş il ərzində İran ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr sürətlə inkişaf etməkdədir. Həqiqətən, ötən 1996-cı il İran-Azərbaycan əlaqələri sahəsində çox məhsuldar olmuşdur. Mənim prezident cənab Haşimi-Rəfsəncani ilə və İran İslam. Respublikası prezidentinin birinci müavini cənab Həbibi ilə İranda və Azərbaycanda, Türkmənistanda keçirdi[400-401]yim görüşlərimiz və danışıqlarımız, bu ölkənin digər dövlət nümayəndələrinin respublikamıza etdiyi ziyarətlər və Azərbaycanın dövlət nümayəndələrinin İrana etdiyi səfərlər nəticəsində əlaqələrimizin sürətlə inkişaf etməsi üçün ciddi addımlar atılmışdır.

İranın və Azərbaycanın tarixi keçmişi, ölkələrimizin coğrafi vəziyyəti, dövlətlərimizin bugünkü siyasəti bizi bundan sonra da daha sıx əməkdaşlığa dəvət edir və hesab edirəm ki, belə əməkdaşlıq etmək üçün çox geniş imkanlar vardır. İqtisadi əməkdaşlığı daha da sürətləndirmək üçün İran-Azərbaycan müştərək iqtisadi əməkdaşlıq komissiyası xeyli iş görübdür. Ancaq hesab edirəm ki, onların qarşısında daha da böyük vəzifələr durur. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bu vəzifələri yerinə yetirəcəklər. Azərbaycanın prezidenti kimi mən bu komissiyanın gələcəkdə də fəaliyyət göstərməsi üçün əlimdən şələni edəcəyəm, lazımi tədbirləri görəcəyəm.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağının birgə işlənməsi üçün xarici ölkələrin şirkətləri ilə keçən ilin iyununda imzalanmış müqavilədə İran İslam Respublikasının neft şirkətinin də iştirak etməsi əməkdaşlığımızın parlaq nümunələrindən biridir. İran-Azərbaycan əlaqələrinin indiyədək keçdiyi yol onu göstərir ki, bizim bütün sahələrdə – iqtisadiyyat, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün çox böyük imkanlarımız vardır. Biz bu imkanlardan səmərəli istifadə etməyə çalışırıq və bundan sonra da çalışacağıq.

İran-Azərbaycan dostluğunun parlaq nümunələrindən biri də ondan ibarətdir ki, İran dövləti, hökuməti Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzü daim pisləmişdir. İran İslam Respublikası Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə ölkəmizin təkliflərini dəstəkləyir.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin bir qisminin işğal olunması ilə əlaqədar o rayonların, torpaqların, sakinlərinin qaçqın, didərgin düşməsi İranda da çox böyük narahatlıq hissi doğurur. İran İslam Respublikası Azərbaycanda olan məcburi köçkünlərin və qaçqınların maddi vəziyyətini yaxşılaşdırmaq üçün indiyədək xeyli kömək etmişdir. Bu fürsətdən istifadə edərək mən həmin kö[401-402]məyə görə İran hökumətinə və xalqına təşəkkürümü bildirirəm.

Çoxəsrlik tariximizdə ilk dəfədir ki, İran ilə Azərbaycanın çox gözəl, sağlam dövlətlərarası əlaqələri yaranıbdır. Mən bunu tarixi nailiyyət hesab edirəm. Hesab edirəm ki, biz bu nailiyyəti qoruyub saxlamalıyıq və ondan səmərəli istifadə etməliyik. Bir sözlə, İran-Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi var. Bizim vəzifəmiz xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqdan, dostluq əlaqələrimizi möhkəmləndirməkdən, əməkdaşlığımızı inkişaf etdirməkdən və üzərimizə düşən tarixi vəzifələri layiqincə yerinə yetirməkdən ibarətdir.

Ötən bir ayda bütün müsəlman aləmi, o cümlədən Azərbaycan orucluq ayını keçirdi. Mən çox məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, xalqımız öz mənəvi dəyərlərinə, dininə qayıdıb, öz dini-mənəvi adət-ənənələrini bərpa edibdir. Azərbaycanda da Ramazan ayı hər yerdə, hər bir vətəndaşın, müsəlmanın vicdanına görə layiqincə keçirilibdir. Nəhayət, dünən biz Orucluq bayramını qeyd etdik. Mən bu bayram münasibətilə sizi təbrik edirəm və sizin hamınıza cansağlığı, səadət arzulayıram.

Hörmətli dostlar, İran İslam İnqilabı bayramı münasibətilə sizi bir daha təbrik edirəm, hamınıza, bütün İran xalqına səadət və xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun. Sağ olun. [402-403]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞ NATO-nun BAŞ KATİBİ XAVYER SOLANA İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı*

*13 fevral 1997-ci il*

Hörmətli cənab Xavyer Solana!

Mən sizi Azərbaycan torpağında səmimi salamlayır və ümidvar olduğumu bildirirəm ki, bu səfər zamanı aparılan danışıqlar, keçirilən görüşlər sizdə Azərbaycan haqqında geniş təsəvvür yaradacaqdır. Azərbaycan 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuş, 1995-ci ilin aprelində isə Azərbaycan dövlətinin başçısının NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri zamanı müvafiq prezentasiya sənədi təqdim olunmuş və beləliklə, Azərbaycan Respublikası ilə Şimali Atlantika İttifaqı arasında əməkdaşlıq başlanmışdır. Azərbaycan həmin sənədlə üzərinə götürdüyü vəzifələri yerinə yetirir və NATO-nun baş katibi Bakıda qalacağı müddətdə buna əmin ola bilər. Eyni zamanda görüləsi işlər də çoxdur. Belə ki, bir sıra məsələləri dəqiqləşdirmək zəruridir və səfər zamanı biz buna nail olacağıq.

Azərbaycanın daxil olduğu Zaqafqaziya spesifik cəhətləri ilə seçilən regiondur. Azərbaycan beş ildir ki, müstəqillik şəraitində yaşayır. Qarşıda duran vəzifə müstəqilliyimizi qoruyub saxlamaq və onu möhkəmləndirməkdir. Biz demokratik, hüquqi dövlət qururuq. Belə ki, 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyasını qəbul etmişik, elə həmin il azad parlament seçkiləri keçirmişik. Hazırda iqtisadi və siyasi islahatlar aparırıq. Hesab edirəm ki, ölkəmizdə demokratik prinsiplər, insan hüquqları, siyasi plüralizm, mətbuat azadlığı bərqərar olmuşdur. Ölkəmizdə müxtəlif siyasi partiyalar fəaliyyət göstərir. Bir sözlə, biz demokratik cəmiyyət quruculuğu yolunda ciddi addımlar atmışıq və atırıq.

Ölkəmizdə keçirilən iqtisadi islahatlara gəlincə bildirmək istəyirəm ki, milli iqtisadiyyatın demokratik inkişafını təmin etmək üçün islahatlar aparılır və artıq bir sıra müsbət nəticə[403-404]lər əldə edilmişdir. Bu cəhətdən torpaq islahatı və torpağın xüsusi mülkiyyətə verilməsi mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, 2-3 ildən sonra Azərbaycanda azad bazar münasibətləri təşəkkül tapacaqdır.

Onu da əlavə edim ki, iqtisadiyyatın inkişafı üçün xarici investisiyaların böyük əhəmiyyəti var. Biz bu sahədə də ardıcıl siyasət yeridirik. Bildiyiniz kimi, Azərbaycanın neft yataqlarının birgə istismarı haqqında xarici şirkətlərlə bir sıra müqavilələr imzalanmışdır və bu müqavilələr hazırda həyata keçirilir.

Bütün keçmiş sovet respublikaları kimi, Azərbaycan da keçid dövrünü yaşayır və bu dövr bir sıra mürəkkəb problemlərlə müşayiət edilir. Lakin həyata keçirilən islahatlar mövcud çətinliklərin aradan qaldırılacağına təminat verir. Bununla belə Ermənistanın Azərbaycana qarşı təcavüzü, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, bir milyondan artıq dinc vətəndaşımızın didərgin düşməsi vəziyyəti olduqca mürəkkəbləşdirmişdir. Sizə məlumdur ki, 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında Ermənistanla razılıq əldə etmişik və iki il doqquz aydır ki, atəşkəs şəraitində yaşayırıq. Bu, şübhəsiz, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün müsbət haldır. Keçən ilin dekabrında ATƏT-in Lissabonda keçirilmiş Zirvə toplantısı münaqişənin dinc vasitələrlə tənzimlənməsinin prinsiplərini müəyyən etmişdir. Bu prinsiplər əsasında silahlı qarşıdurmaya son qoymaq məqsədilə danışıqlar aparırıq. Bildiyiniz kimi Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ilə ATƏT-in Minsk qrupu məşğul olur. Artıq bu qrupda dəyişikliklər edilib və yaxın vaxtlarda Minsk qrupuna ABŞ, Fransa və Rusiyanı təmsil edən üç həmsədr rəhbərlik edəcək. Ümidvarıq ki, həmsədrlərin təyin edilməsi ilə bağlı qərar qəbul edildikdən sonra Minsk qrupu daha fəal işləyəcəkdir.

Qeyd etmək istəyirəm ki, NATO Avropada təhlükəsizlik kimi olduqca vacib bir məsələ ilə məşğul olan təşkilatdır. Azərbaycan isə Avropanın bir hissəsidir. Güman edirəm ki, bölgəmizdə sabitliyi təmin etmək üçün siz də öz səylərinizi göstərəcəksiniz və apardığınız danışıqlar bu məsələnin həllinə kömək edəcəkdir. [404-405]

## NATO-nun BAŞ KATİBİ XAVYER SOLANA İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*Prezident sarayı*

*13 fevral 1997-ci il*

NATO-nun baş katibi Xavyer Solananın Azərbaycana səfəri əlamətdar bir hadisədir, mən bunu yüksək qiymətləndirirəm. Xüsusən də ona görə ki, bu səfər təkcə Azərbaycana deyil, Zaqafqaziyada olan ölkələrə – Gürcüstan, Ermənistan və Azərbaycanadır. Güman edirəm ki, hörmətli qonağımız bu səfər zamanı regionumuzdakı vəziyyətlə şəxsən tanış olandan sonra regionun təhlükəsizliyi və burada əmin-amanlığın, sülhün yaranması üçün daha çox səylər qoyulmasına kömək edəcəkdir.

Biz "Sülh naminə tərəfdaşlıq" proqramının həyata keçirilməsi barəsində çox ətraflı fikir mübadiləsi apardıq və belə fikrə gəldik ki, indiyə qədər Azərbaycan onun üzərinə düşən vəzifələri yerinə yetiribdir. Amma eyni zamanda bir çox məsələlərin də həll olunması lazımdır. Biz bu əməkdaşlığı əhəmiyyətli hesab edirik, bunu davam etdirəcəyik və bu görüşdən, danışıqlardan sonra imzaladığımız proqram çərçivəsində bu əməkdaşlığın həyata keçirilməsi üçün lazım olan tədbirlərin görülməsini təmin edəcəyik.

Biz Avropada təhlükəsizliyin təmin olunması üçün NATO-nun apardığı işi əhəmiyyətli hesab edirik. Hesab edirik ki, Avropanın bir hissəsi olan Qafqazda, Zaqafqaziyada, o cümlədən Azərbaycanda da, onun ətrafında da təhlükəsizliyin təmin olunmasına bundan sonra daha çox diqqət yetirilməlidir. Ümidvaram ki, bu görüşdən və danışıqlardan sonra NATO ilə Azərbaycan arasında olan əlaqələr daha da genişlənəcəkdir. Bunlar hamısı yalnız və yalnız bizim bölgədə təhlükəsizliyin təmin olunmasına yönəldilmək məqsədi daşıyır.

Hörmətli baş katib, Azərbaycana səfərinizə görə sizə təşəkkür edirəm. Ümidvaram ki, sabah siz Azərbaycanın paytaxtı Bakı ilə az da olsa tanış ola bilərsiniz. Xəzər dənizini seyr [405-406] edə, Azərbaycanın tarixi abidələrini də görə bilərsiniz. Azərbaycanın vətəndaşları ilə də istədiyiniz qədər görüşə bilərsiniz. Bir də qeyd etmək istəyirəm ki, siz burada hər yerdə mehriban əhval-ruhiyyə və qonaqpərvərlik hiss edəcəksiniz. Sizə bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [406-407]

## XALQ ARTİSTİ QƏDİR RÜSTƏMOVA

Hörmətli Qədir Rüstəmov!

Sizi – Azərbaycan milli musiqi sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycanın məşhur muğam ustadlarının layiqli davamçısı olmaqla ümumxalq məhəbbəti qazanmış xoşbəxt sənətkarlardansınız. Zəngin musiqi ənənələri olan qədim Qarabağ diyarının övladı kimi Siz öz ecazkar səsiniz və böyük istedadınızla neçə-neçə qədim xalq mahnısına yeni həyat vermisiniz. Sizin nadir ifaçılıq sənətiniz Azərbaycan milli musiqisinin özünəməxsus səhifəsidir. Gəncləri torpaq qədri bilməyə, Vətəni müdafiəyə səsləyən, ülvi və müqəddəs duyğuları tərənnüm edən nəğmələriniz qəlbi Vətən və xalq sevgisi ilə vuran el sənətkarının böyük vətənpərvərlik hissinin parlaq ifadəsidir.

İnanıram ki, milyonların ürəklərini fəth etmiş orijinal Qədir sənəti müstəqil Azərbaycanımızın musiqi mədəniyyətinə yeni-yeni töhfələr verəcək, öz pərəstişkarlarını bundan sonra da sevindirəcəkdir.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, sənət yollarında yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*14 fevral 1997-ci il* [407-408]

## BMT-nin YAXIN VƏ ORTA ŞƏRQDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ NƏZARƏT VƏ BUNUNLA BAĞLI PROBLEMLƏR ÜZRƏ YARDIMÇI KOMİSSİYASININ 32-ci SESSİYASINDA NİTQ

*"Gülüstan" sarayı*

*17 fevral 1997-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Mən sizi – Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət proqramının çərçivəsində Yaxın və Orta Şərq ölkələri toplantısının – 32-ci sessiyasının iştirakçılarını salamlayır və bu mühüm işinizdə sizə uğurlar arzulayıram.

Narkotiklərə nəzarəti, narkomaniya ilə narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasında narkotiklərə nəzarət, narkomaniya və narkobizneslə mübarizə məsələsi son illər ümummilli proqram çərçivəsində aparılır və biz buna xüsusi fikir veririk. Bu baxımdan biz həmin problemlərə həsr olunmuş beynəlxalq toplantının, sessiyanın Azərbaycanın paytaxtı Bakıda keçirilməsini qiymətləndirir, buna xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, bu sessiyanın keçirilməsi Yaxın və Orta Şərq ölkələrində bu problemlə mübarizə aparılması işinə kömək edəcəkdir.

Bu problem hər bir ölkəni, hər bir dövləti narahat etdiyi kimi, eyni zamanda, ölkələrarası, dövlətlərarası problemə çevrilmişdir. Buna görə də hesab edirəm ki, sessiya çərçivəsində aparacağınız müzakirələr, irəli sürülən fikirlər və qəbul etdiyiniz qərarlar hər bir ölkədə, xüsusən Yaxın və Orta Şərqdə, dünyada bu problemin həll olunması, narkomaniya və narkobiznesə qarşı mübarizənin gücləndirilməsi üçün faydalı olacaqdır.[408-409]

Bu problem bir neçə cəhətdən ibarətdir. Biz ölkəmizdə, Azərbaycanda bu problemin bütün istiqamətləri sahəsində lazımi tədbirlər görürük. Biz Azərbaycanda belə hesab edirik ki, birinci növbədə hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər.

Narkomaniya xəstəliyi artır. Bu problemə diqqətin güclənməsinə, görülən tədbirlərə baxmayaraq, bu xəstəlik geniş yayılır. Dünyada statistikanın göstəricilərinə görə bu, belədir. O cümlədən Azərbaycanda da son illər bu xəstəliyin artmasının, yayılmasının şahidiyik. Keçmiş zamanlarda bizim ölkələrdə, o cümlədən Azərbaycanda bu xəstəliyin hansı səviyyədə, nə qədər olması müəyyən dərəcədə gizli saxlanırdı. Ancaq indi biz bu cür münasibətlərdən imtina etmişik və hesab edirik ki, hər bir mənfi hal, təhlükəli xəstəlik haqqında həqiqəti olduğu kimi bilmək və onu ictimaiyyətə olduğu kimi çatdırmaq lazımdır. Bu cür münasibətlə, bu yolla narkomaniya kimi təhlükəli xəstəliyin qarşısını almaq tədbirlərini səmərəli həyata keçirmək olar. Ona görə biz ölkəmizin bütün orqanlarını problemə bu cür yanaşmaqla narkomaniyaya qarşı mübarizəyə səfərbər etmişik, ümummilli proqram tərtib etmişik. Onun həyata keçirilməsi üçün lazımi dövlət orqanlarına, ictimai təşkilatlara göstərişlər verilmiş, onların üzərinə vəzifələr qoyulmuşdur. Bu gün Azərbaycanın bütün dövlət orqanlarını, ictimaiyyətini narkomaniya xəstəliyinə qarşı ciddi mübarizə aparmağa bir daha dəvət edirəm. Güman edirəm ki, bu problemin həlli, narkomaniya ilə mübarizə sahəsində, narkomaniya xəstəliyinin yayılmasına qarşı tədbirlərin gücləndirilməsi sizin bugünkü sessiyanın işində də özünəlayiq yer tutacaq və qəbul edəcəyiniz sənədlərdə öz əksini tapacaqdır.

Narkomaniya xəstəliyinin yayılması səbəbləri aydındır. Narkotik maddələrin gizli, qeyri-qanuni istehsal olunması, onların qanunsuz dövriyyəsi, satılması, istehsal edilən ölkələrdən başqa ölkələrə gizli surətdə, qeyri-qanuni yollarla daşınması kimi hallar narkotik maddələrin, narkomaniya xəstəliyinin yayılmasına səbəb olan əsas amillərdir.

Ona görə də hər bir ölkədə narkotik maddələrin istehsalı, onların qeyri-qanuni istifadəsi ilə ciddi mübarizə aparılmalıdır. [409-410] Məlumdur ki, narkotik maddələrin müəyyən miqdarda istehsalı yalnız və yalnız tibb, müalicə məqsədləri ilə bağlıdır. Bu hallardan əlavə, başqa məqsədlər üçün narkotik maddələrin istehsalı tamamilə qadağan olunmalı, qarşısı ciddi alınmalı və qeyri-qanuni istehsalla məşğul olan şəxslər, qruplar, təşkilatlar ciddi məsuliyyətə cəlb edilməlidirlər. Biz respublikamızda məsələni belə qoymuşuq. Mən məsələnin belə kəskin qoyulmasını bu gün beynəlxalq toplantı qarşısında bir daha bəyan edirəm və Azərbaycan Respublikasının bütün təşkilatlarından həmin vəzifələrin yerinə yetirilməsini tələb edirəm.

Eyni zamanda qeyd etmək istəyirəm ki, bizim ölkəmizdə narkotik maddələrin qeyri-qanuni istehsalı cüzi

xarakter daşıyır, yayılmayıbdır və çox məmnunam ki, bu xəstəlik, yəni qeyri-qanuni istehsal xəstəliyi bəzi başqa respublikalarla müqayisədə respublikamızda çox az yer tutur. Ancaq nə qədər az yer tutmuş olsa da, bu cür halların kökü tamamilə kəsilməlidir.

Eyni zamanda məlumdur ki, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, yəni bir ölkədən başqa ölkələrə daşınması, yayılması halları son illər geniş xarakter almışdır. Burada indicə gətirilən faktlar, məlumatlar bunu sübut edir. Əfqanıstanda bir ildə 2500 ton tiryək istehsal edilirsə, bu, çox təhlükəli haldır. Təkcə Əfqanıstan xalqı üçün yox, bütün başqa ölkələr üçün çox təhlükəli haldır və Əfqanıstan bizim bölgəyə – Yaxın və Orta Şərqə mənsub olduğuna, yaxın olduğuna görə bu və bu kimi faktlara çox ciddi münasibət göstərməliyik. Ancaq təkcə Əfqanıstan deyil, Yaxın və Orta Şərqin bir neçə ölkələrində narkotik maddələrin qeyri-qanuni istehsalı və gizli yollarla başqa ölkələrə daşınması, satılması böyük bir biznesə çevrilmişdir. Təəssüflər olsun ki, bu biznesə – narkobiznesə həm o ölkələrin müəyyən qrupları, dəstələri qoşulmuş, həm də başqa ölkələrin, yəni həmin narkotik maddələrin yayılması, satılması ilə məşğul olan ölkələrin qrupları, dəstələri qoşulmuşdur. Bu, həqiqətdir, bunu etiraf etməliyik və belə bir halla mübarizə aparmağı, hesab edirəm, sizin sessiya özünün əsas vəzifələrindən biri hesab etməlidir.

Azərbaycan öz coğrafi mövqeyinə görə Şərq ilə Qərb arasında, Şimalla Cənub arasında yerləşən bir ölkədir. Bizim ölkəmizdən bir çox yollar keçir, bir çox nəqliyyat vasitələri başqa ölkələri bizim ölkəmizlə bağlayır. Bunlar hamısı zərurətdən doğan hallardır və ölkəmizin, bizə qonşu olan ölkələrin bir-biri ilə sıx əlaqə saxlaması üçün çox lazımdır. Ancaq bu yolla[410-411]rın, bu nəqliyyat vasitələrinin, imkanların narkotik maddələrin bir ölkədən başqa ölkəyə daşınması üçün və Azərbaycan ərazisinin bu məqsədlə istifadə edilməsinin yolverilməz olduğunu mən bu gün bir daha qətiyyətlə bildirirəm. Azərbaycan Respublikasının bütün müvafiq orqanlarından bir daha tələb edirəm ki, ölkəmizin ərazisindən narkotik maddələrin daşınması üçün tranzit yol kimi istifadə olunması hallarının qarşısını almaqdan ötrü əlavə tədbirlər görsünlər. Bu baxımdan Azərbaycanın Sərhəd Qoşunlarının, gömrük orqanlarının qarşısında çox məsuliyyətli vəzifələr durur. Onlar bunu birinci dərəcəli vəzifə kimi qəbul etməli və yerinə yetirməlidirlər. Azərbaycanın hüquq-mühafizə orqanları narkomaniya ilə və xüsusən narkobizneslə, o cümlədən narkotik maddələrin Azərbaycan ərazisindən daşınması halları ilə ciddi mübarizə aparmalı və onlar da bu vəzifələri özlərinin birinci dərəcəli vəzifəsi kimi qəbul etməlidirlər.

Narkomaniya və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi haqqında danışarkən, şübhəsiz ki, yalnız Yaxın və Orta Şərqdə olan ölkələr barədə yox, dediyim kimi, bunu bütün dünya üçün ümumbəşəri problem kimi başa düşmək lazımdır və biz bunu belə hesab edirik. Çünki Yaxın və Orta Şərqdən cürbəcür vasitələrlə daşınan narkotik maddələrin çox hissəsi başqa ölkələrə, Avropa ölkələrinə də gətirilir. Həmin ölkələrdə də bu mübarizəni gücləndirmək və bizim bölgənin ölkələri ilə Avropa ölkələri arasında bu barədə müştərək işlərin aparılması üçün tədbirlər görmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət haqqında proqramı və BMT-nin bu sahədə apardığı iş, onun xüsusi orqanlarının fəaliyyəti təqdirəlayiqdir. Mən Azərbaycanın adından bir daha bildirmək istəyirəm ki, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, qanunsuz istifadə olunması, narkobiznes bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı özünün bu proqramının bundan sonra da geniş miqyasda həyata keçirilməsi üçün lazımi tədbirlər görəcək və öz səylərini göstərəcəkdir.

Azərbaycan Respublikası bu proqramın həyata keçirilməsi sahəsində öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək və bəşəriyyətin bu böyük təhlükədən – [411-412] narkomaniya xəstəliyindən və narkobiznes kimi təhlükəli bir haldan xilas edilməsi üçün öz səylərini göstərəcəkdir.

Hörmətli qonaqlar! Siz buraya, Azərbaycana, Bakıya məhz bu gün müzakirəyə çıxarılmış məsələ ilə əlaqədar toplaşmısınız. Eyni zamanda, beynəlxalq xarakterli hər bir belə toplantı, görüş ölkələri bir-birinə daha da yaxınlaşdırır, ölkələr arasında əlaqələrin yaranmasına və inkişafına kömək edir. Belə görüşlər ölkələr, xalqlar, millətlər arasında dostluq, mehribanlıq əlaqələri yaradır, xalqların, ölkələrin bir-birini daha da anlaması üçün şərait yaradır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, hörmətli qonaqlar, siz bu imkandan istifadə edərək ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin inkişaf etməsi və möhkəmlənməsi üçün də səylər göstərəcəksiniz, beləliklə, Yaxın və Orta Şərqdə, bütün dünyada sülhün, əmin-amanlığın qorunması, saxlanması, möhkəmlənməsi üçün öz töhfələrinizi verəcəksiniz.

Müstəqil dövlət kimi Azərbaycan gəncdir. Azərbaycanın dövlət müstəqilliyinin cəmi beş yaşı var. Eyni zamanda, Azərbaycan xalqının çoxəsrlik qədim və zəngin tarixi, böyük mədəniyyəti, özünəməxsus milli-mənəvi ənənələri var. Ümidvaram ki, siz bu günlərdə Azərbaycanda olduğunuz zaman xalqımızın həm tarixi keçmişi, həm də bu günü ilə yaxından tanış ola biləcəksiniz. Mən arzu edərdim ki, siz xalqımız, ölkəmiz, müstəqil dövlətimiz haqqında doğru-düzgün təəssüratlar əldə edəsiniz.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək yolu ilə gedir. Azərbaycan Respublikasında hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, respublikamızın həyatında böyük dəyişikliklər baş verir. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatı böyük dəyişikliklər prosesi keçirir. Azərbaycan sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedərək dünya iqtisadiyyatına daha da sıx bağlanmaq əzmindədir.

Bu proseslər Azərbaycan dövləti qarşısında, xalqımız qarşısında bir çox problemlər meydana çıxarır. Biz bu problemləri həll edirik və ümidvaram ki, onların hamısını müvəffəqiyyətlə həll edəcəyik.

Ancaq eyni zamanda Azərbaycan Respublikasının həyatında onun özündən asılı olmayaraq yaranmış çox ağır, çətin bir problem də var. O problem qonşu Ermənistanın Azərbaycana [412-413] səkkiz il bundan öncə etdiyi hərbi təcavüzdür, bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasıdır, işğal edilmiş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşının yerindən-yurdundan zorla çıxarılması, didərgin düşməsidir.

Bu təcavüz nəticəsində döyüşlər gedib, vuruşmalar olub, qan tökülüb, Azərbaycan xalqı qurbanlar, şəhidlər veribdir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki varidatı viran edilib, dağıdılıbdır.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan daim bəyan edib və mən bu gün də bəyan edirəm ki, biz sülh tərəfdarıyıq, məsələlərin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Bu məqsədlə də 1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş əldə edilmiş və bu müddətdə Ermənistan-Azərbaycan hərbi münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün danışıqlar aparılır. Məsələnin sülh yolu ilə həlli üçün ötən illərdə çox iş görülüb, çox yollar axtarılıbdır.

Nəhayət, keçən il dekabrın əvvəlində Lissabon şəhərində ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün mühüm bir sənəd qəbul edilibdir. Bu sənəddə münaqişənin sülh yolu ilə həllinin prinsipləri öz əksini tapıbdır: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması. Biz bu prinsiplər əsasında danışıqlar aparmaq məqsədi daşıyırıq və danışıqlar nəticəsində məsələnin sülh yolu ilə həll edilməsinə nail olmağa çalışırıq. Hesab edirəm ki, beynəlxalq təşkilatların köməyi ilə, ATƏT-in Minsk qrupunun fəaliyyəti nəticəsində, Birləşmiş Millətlər Təşkilatının bu məsələyə daimi qayğısı və diqqəti ilə böyük ölkələrin və xüsusən Minsk qrupunun həmsədri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın bundan sonra da bu məsələyə daha ciddi qoşulması vasitəsilə məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

Hörmətlin qonaqlar! Hər bir ölkənin özünəməxsus problemi var. Eyni zamanda bütün bəşəriyyəti, dünyanı, dünyanın bütün insanlarını narahat edən problemlər də var. Bəzən ayrı-ayrı ölkələrin daxilində olan, ölkələrin bir-birinin arasında olan problemlər ümumbəşəri problemlərə çevrilir. Biz insanların ra[413-414]hat yaşaması, dünyanın hər yerində onların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün əngəl olan bütün problemlərin həll edilməsinin tərəfdarıyıq və bu sahədə daim öz səylərimizi göstəririk. Son illərdə dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər separatizm problemidir, terrorizm problemidir, hərbi münaqişələr problemidir. Biz bütün dünyada, dünyanın hər bir bölgəsində separatizmin əleyhinə olmuşuq və onun əleyhinəyik. Biz beynəlxalq terrorizmi pisləmişik, pisləyirik və daim onun əleyhinə çıxırıq. Biz dövlətlərarası, ölkələrarası, millətlərarası münaqişələrin hamısının sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və belə münaqişələrin gələcəkdə baş verməməsi üçün də lazımi tədbirlər görülməsinin tərəfdarıyıq. Biz dünyada, hər bir bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasını istəyirik və bu sahədə öz səylərimizi göstəririk. Biz dünyada ümumbəşəri problemlərin vaxtında həll olunmasının tərəfdarıyıq, o cümlədən dünyada bütün insanlar üçün böyük təhlükə olan narkomaniya ilə və narkobizneslə mübarizədə bundan sonra da ön sıralarda gedəcəyik.

Hörmətli qonaqlar, hörmətli sessiya iştirakçıları! Qarşınızda duran vəzifələrin müzakirəsində və gələcək işlərinizdə uğurlar arzulayır, sizə, xalqlarınıza, ölkələrinizə sülh, əmin-amanlıq, səadət diləyirəm. Sağ olun. [414-415]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*18 fevral 1997-ci il*

Hörmətli Gürcüstan prezidenti, əziz qardaşım
Eduard Şevardnadze!
Hörmətli qonaqlar, dostlar!

Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Məmnunam ki, mənim dəvətim qəbul olunub və əziz Eduard Amvrosiyeviç, Siz Azərbaycana rəsmi dövlət səfəri edirsiniz.

Əminəm ki, Sizin Azərbaycanda olmağınız, rəsmi səfəriniz Gürcüstan-Azərbaycan münasibətləri tarixində yeni mərhələ olacaq, əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə inkişafını təmin edəcək, xalqlarımız və ölkələrimiz arasında dostluq və qardaşlığın möhkəmlənməsinə kömək göstərəcəkdir.

Azərbaycanda Sizi xoş görüşlər gözləyir. Ümidvaram ki, bizim dövlətlərarası münasibətlərimizə aid bütün məsələləri müzakirə etmək imkanımız olacaqdır. Siz burada Sizə dost olan xalqın əhatəsində olacaqsınız və Sizi hər yerdə səbirsizliklə gözləyirlər, Sizinlə görüşmək, Sizi görmək istəyirlər.

Siz Azərbaycana ilk dəfə gəlmirsiniz. Lakin indiki gəlişiniz müstəqil Gürcüstanın prezidenti kimi buraya ilk səfərinizdir. Əminəm ki, bu səfər bizim münasibətlərimizin daha da inkişaf edəcəyini və möhkəmlənəcəyini göstərəcəkdir.

Xoş gəlmisiniz! Mən şadam ki, Siz burada, Azərbaycan torpağında, Bakıdasınız! [415-416]

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ARASINDA İKİTƏRƏFLİ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*18 fevral 1997-ci il*

Hörmətli prezident, cənab Eduard Şevardnadze!

Möhtərəm qonaqlar, hörmətli informasiya orqanlarının nümayəndələri, xanımlar və cənablar!

Bir az əvvəl biz Azərbaycan Respublikası ilə Gürcüstan arasında bir sıra mühüm sənədlərin imzalanmasının şahidi olduq. Bu sənədlər ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini zərurətə çevirir. 22 sənəd imzalanmışdır. Gürcüstan və Azərbaycan müstəqil dövlətlər olduğu vaxtdan bəri isə 32 sənəd imzalanmışdır. Beləliklə, respublikalarımız, dövlətlərimiz arasında 54 sənəd imzalanmışdır. Həm də bunlar dövlətlərimiz arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən çox mühüm sənədlərdir. Beləliklə, cəsarətlə demək olar ki, biz əməkdaşlığımızı daha da inkişaf etdirmək və genişləndirmək üçün qısa müddətə Gürcüstan ilə Azərbaycan arasında kifayət qədər müqavilə – hüquqi əsas yaratmağa müvəffəq olmuşuq.

Bütün sənədlər çox böyük əhəmiyyətə malikdir. Onlardan hər biri həm Gürcüstan, həm də Azərbaycan üçün həyati əhəmiyyətə malik sahələrə aiddir. Lakin Gürcüstan ilə Azərbaycan arasında strateji əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında prezident Şevardnadze ilə mənim imzaladığım sənədlərin əhəmiyyətindən danışmaq istərdim.

Biz xalqlarımızın iqtisadi, mədəni, elmi əlaqələrinin, dostluğunun zəngin tarixi olan qonşu dövlətlərik, indi Gürcüstanın və Azərbaycanın dövlət müstəqilliyi şəraitində strateji tərəfdaşlar olmuşuq və strateji tərəfdaşlığımızın və əməkdaşlığımızın daha da inkişaf etdirilməsi haqqında sənəd imzalamışıq. [416-417]

Bu, Gürcüstanın və Azərbaycanın dövlət siyasətinə, ölkələrimizin və xalqlarımızın milli mənafelərinə tam uyğundur. Sənəd ona yönəldilmişdir ki, gələcəkdə ölkələrimiz həqiqətən strateji tərəfdaşlar kimi əməkdaşlıq edərək, bir-birinə lazımi yardım və həyanlıq göstərə bilsinlər. Beləliklə, bu sənəd xalqlarımız arasında dostluqla, Gürcüstanda və Azərbaycanda yaşayan adamlar arasında münasibətlərlə bağlı tarixi zəminə malikdir. Bununla yanaşı, bu sənəd istər Gürcüstan üçün, istərsə də Azərbaycan üçün ciddi proqramdır və gələcək əməkdaşlığımızın aydın və dəqiq yolunu müəyyənləşdirir.

Əminəm ki, Azərbaycan prezidentinin bir il əvvəl Gürcüstana rəsmi səfəri zamanı imzalanmış sənədlərin həyata keçirildiyi kimi, bu gün imzalanmış sənədlər də uğurla həyata keçiriləcəkdir. Bu gün razılıq hissilə demək olar ki, ötən il ərzində bizim imzaladığımız sənədlər artıq öz əməli nəticələrini verir. Əgər bir ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmışdırsa, bu, çox şeyə dəlalət edir. Əlbəttə, mən bir il əvvəl imzalanmış sənədlərin əməli surətdə həyata keçirilməsini səciyyələndirən konkret faktlarla vaxtınızı almaq istəmirəm və yalnız bir fakt gətirdim. Lakin, zənnimcə, bu fakt kifayət qədər inandırıcı surətdə göstərir ki, biz razılaşmaların, imzalanmış sənədlərin əməli surətdə həyata keçirilməsi ilə məşğul oluruq. Buna görə də əminəm ki, bu gün imzalanmış sənədlər və bütün dövlətlərarası sazişlər, indiyədək imzalanmış sənədlər uğurla həyata keçiriləcəkdir ki, bu da başlıca vəzifənin ölkələrimiz arasında strateji əməkdaşlığın təmin olunması vəzifəsinin yerinə yetirilməsinə kömək edəcəkdir.

Bu gün imzalanmış sənədlər bir çox günlər və aylar ərzində hazırlanmışdır. Biz onların üzərində çox ciddi işləmişik. Bu gün də Gürcüstan və Azərbaycan nümayəndə heyətləri üzvlərinin böyük bir qrupu bu sənədləri qəti şəkildə dəqiqləşdirmiş və imzalamaq üçün təqdim etmişdir. Bu sənədlərin hazırlanması üçün həm Gürcüstan tərəfdən, həm də Azərbaycan tərəfdən səy göstərənlərin hamısına təşəkkür etmək, habelə əmin olduğumu bildirmək istərdim ki, Gürcüstan və Azərbaycanın dövlətlərarası münasibətləri ilə bağlı olan bütün problemlər üzərində biz bundan sonra da belə səliqə ilə, dəqiq və səylə işləyəcəyik.

Ölkələrimizin qarşısında böyük və məsul vəzifələr durur. Biz bu gün bunların barəsində danışdıq. Gürcüstan prezidenti, [417-418] mənim dostum və qardaşım Eduard Şevardnadze və Azərbaycan prezidenti arasında uzun sürən söhbət oldu. Biz iki saat yarımdan çox təkbətək söhbət etdik, dövlətlərarası münasibətlərimizə dair, demək olar, bütün məsələlər barədə, ölkələrimiz, dövlətlərimiz arasında münasibətləri intensivləşdirməyin zəruriliyi ilə bağlı olan bütün məsələlər haqqında fikir mübadiləsi apardıq. Eyni zamanda biz regional xarakterli bir çox məsələləri müzakirə etdik. Qafqaz dünyanın nadir regionudur. O, özünün tarixi və bugünkü mövqeyi ilə Yer kürəsinin bir çox ölkələrinin diqqətini cəlb edir. Biz, Qafqazda yaşayan, öz xalqları, öz dövlətləri üçün məsuliyyət daşıyan insanlar isə Qafqaz işlərinə daha böyük maraq göstəririk. Qafqaz problemi bu gün aramızdakı fikir mübadiləsinin böyük mövzusu olmuşdur. Başlıcası isə, biz yekdil fikirdəyik ki, Qafqaz sülh

regionu olmalıdır, burada sabitlik təmin edilməlidir. Qafqazda ölkələr, dövlətlər və xalqlar arasında mehriban qarşılıqlı münasibətlər olmalıdır və biz buna nail olmaqdan ötrü hər şeyi etməliyik.

Biz Qafqazda münaqişələrlə bağlı məsələləri, o cümlədən Gürcüstandakı, Azərbaycandakı münaqişələri ətraflı müzakirə etdik. Biz yekdil fikirdəyik ki, bu münaqişələri sülh yolu ilə, beynəlxalq hüquq normaları, BMT-nin və ATƏT-in prinsipləri əsasında, xüsusən də 1996-cı il dekabrın əvvəlində ATƏT-in Lissabon sammitində qəbul olunmuş sənədlər əsasında həll etmək lazımdır.

Biz MDB-də vəziyyət haqqında da fikir mübadiləsi apardıq, belə bir ümumi rəyimizi ifadə etdik ki, üzvü olduğumuz Müstəqil Dövlətlər Birliyi daha səmərəli, daha demokratik orqan olmalıdır. Birliyimizin məhz belə olması üçün biz öz tərəfimizdən hər şeyi edəcəyik.

Şübhəsiz ki, Şimali Qafqazdakı vəziyyət də bizi narahat edir. Belə bir yekdil fikirdəyik ki, orada sülh və sabitlik olmalıdır.

Biz qonşularımızla qarşılıqlı münasibətlərimiz haqqında da danışdıq. Belə bir yekdil fikirdəyik ki, bütün qonşularımızla dostluq, sülh, mehriban əməkdaşlıq münasibətlərimiz olmalıdır. Bu, o cümlədən də xüsusən Şimal qonşumuza – Rusiyaya da aiddir. Biz istəyirik ki, Rusiyada sabitlik olsun, Rusiyada demokratik islahatlar həyata keçirilsin, Rusiya demokratik dövlət olsun və onun ərazisində mövcud olan mürəkkəb problemlərin hamısı sülh yolu ilə həll edilsin. [418-419]

Biz bir çox başqa problemlər haqqında da söhbət etdik. Ən başlıca məqsədimiz isə Qafqazda və Cənubi Qafqazda sülhə nail olmaqdan ibarətdir. Bunun üçün Gürcüstan və Azərbaycan fəal əməkdaşlıq edirlər və fəal əməkdaşlıq edəcəklər. Biz əvvəl də bu fikirdə idik və bu gün həmin yekdil mövqeyimizi bir daha təsdiq etdik.

Ancaq biz ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına dair problemlər haqqında daha çox danışdıq. Böyük məmnuniyyətlə demək istəyirəm ki, Gürcüstan ilə Azərbaycan arasında keçmişdə də problem olmayıbdır və indi də heç bir problem yoxdur. Ölkələrimiz, dövlətlərimiz, xalqlarımız arasında münasibətlər dostluq, sıx əməkdaşlıq, qardaşlıq münasibətləri kimi səciyyələnir. Bu münasibətlərin daha da inkişaf etməsi üçün Azərbaycan tərəfi hər şeyi edəcəkdir. Hesab edirəm ki, bu baxımdan Gürcüstan prezidenti cənab Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri mühüm mərhələ olacaqdır. Biz öz tərəfimizdən hər şeyi edəcəyik ki, bu səfər nəticəsində nə əldə olunmuşsa və əldə olunacaqsa, hamısı reallaşdırılsın. Diqqətinizə görə sağ olun.

**Sual: Mənim sualım hörmətli Gürcüstan prezidenti Eduard Şevardnadze cənablarınadır. Dövrümüzün iki görkəmli siyasi xadiminin – Sizin və Azərbaycan prezidenti hörmətli Heydər Əliyev cənablarının həm şəxsi əlaqələrinin, həm də siyasi, iqtisadi və mədəni əlaqələrimiz sayəsində xalqlarımız arasında olan münasibətlərdə yeni ab-hava yaranmışdır. Hörmətli Eduard Şevardnadze, Sizin Zaqafqaziyada sülh ideyanıza ilk səs verən hörmətli prezidentimiz Heydər Əliyev cənabları olmuşdur. Artıq bünövrəsi qoyulmuş həmin fikrinizi möhtəşəm saraya çevirmək mümkün olacaqmı?**

**Eduard Şevardnadze:** Bu suala görə təşəkkürümü bildirirəm. Məncə, bizim bugünkü görüşümüz əlaqələrimizdə doğrudan da yeni mərhələdir, yeni keyfiyyət kəsb edən bir görüşdür. Bünövrəmiz olmasa, həmin yeni mərhələ və strateji əməkdaşlıq haqqında danışmaq çətindir. Bizim işimizin əsasını məhz tarixi ənənələr, dostluq, qardaşlıq əlaqələri, ənənələri təşkil edir. Əminəm, mən və Heydər Əliyev cənabları xalqlarımıza zəmanət verə bilərik ki, tariximizdə, xalq[419-420]larımızın əlaqələrində qiymətli olan bütün ənənələri gələcək nəsillərə çatdıracağıq. Əminəm, münasibətlərimiz elə səviyyəyə çatacaq ki, Güney Qafqazda – möhtərəm prezident burada Cənubi Qafqaz ifadəsi işlətdi, – yaşayan bütün millətlər bir-birinə qardaş gözü ilə baxacaqlar.

**Sual: Mənim sualım hər iki prezidentədir. Sizin bəyan etdiyiniz kimi, böyük neftin nəql edilməsi üçün variantlardan biri Gürcüstan ərazisidir. Başqa variantlar da varmı?**

**Eduard Şevardnadze:** Mən sizə cavab verərdim, lakin, təəssüf ki, bizim neftimiz yoxdur. Ona görə də Heydər Əliyeviç cavab verəcəkdir.

**Heydər Əliyev:** Bilirsiniz, nə qədər ki, variantlar yox idi, suallar da yox idi. Variantlar meydana çıxan kimi, saysız-hesabsız suallar da meydana çıxır, daha nə qədər variant lazımdır?

Əgər bu ifadəni düzgün işlətsək, hazırda iki variant var. Birincisi, Azərbaycandan neftin Şimal marşrutu ilə Rusiya ərazisi vasitəsilə Novorossiysk limanına nəql olunması variantı, ikinci variant ikinci neft kəməri xətti Qərb marşrutu ilə Gürcüstan ərazisi vasitəsilə Qara dəniz sahilindəki Supsa limanına nəql olunmasıdır. Xəbər verə bilərəm ki, birinci marşrut üzrə hər şey hazırdır, yəni Azərbaycan tərəfi və konsorsium nə lazımdırsa hamısını yerinə yetirmişlər və Azərbaycan ərazisində neft kəməri hazırdır. Biz nefti ixrac etməyə hazırıq. Rusiyanın "Transneft" şirkəti tərəfindən ləngimə var, lakin danışıqlar aparılır və hesab edirəm ki, məsələlər yoluna qoyulacaqdır.

O ki qaldı ikinci varianta, layihə işlərinin hamısı qurtarıbdır və tezliklə Gürcüstan ərazisindən, Supsa limanına neft kəmərinin tikintisinə başlanacaqdır. Konsorsiumun Beynəlxalq Əməliyyat Komitəsinin rəhbərləri söz veriblər ki, bu neft kəməri 1998-ci ilin axırınadək hazır olacaq və nefti nəql etmək imkanı yaranacaqdır.

İndi bu, azlıq edir, daha bir variant istəyirlər. Bəli, böyük neft kəməri variantı var. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış müqavilədə qeyd edilmişdir ki, böyük nefti ixrac etmək üçün neft kəməri çəkmək lazımdır. Hamı maraqlanır ki, bu kəmər haradan, hansı ölkələrin ərazisindən keçəcəkdir? Mənə belə gəlir ki, hökmən Gürcüstandan keçəcəkdir.

**Eduard Şevardnadze:** Bir-iki kəlmə əlavə edəcəyəm. Şübhəsiz ki, bu gün biz bu barədə danışmışıq, Hey[420-421]dər Əliyeviçə ən dərin minnətdarlıq sözlərimi çatdırmaq istəyirəm ki, o, ilkin neftin Şimala və Qərbə ixracı marşrutunun müəyyən edilməsində həlledici sözü dedi. Həmçinin böyük neftin marşrutunun müəyyənləşdirilməsi üçün kömək edəcəyinə görə də təşəkkürümü bildirmək istəyirəm. Mən nə deyə bilərəm? Təminat verirəm və həmkarlarım da bununla razılaşa bilər ki, bu, tamamilə təhlükəsiz və tamamilə etibarlı istiqamət olacaqdır. Buna bizim marağımız var və buna təminat verə bilərik.

Bəlkə o qədər də nəzakətli görünməyən daha bir məsələ haqqında. Heç kimə qısqanmaq lazım deyildir. Biz hamımız həm Şimal, həm Cənub, həm Qərb dövlətləri Xəzər dənizinin dibindəki zəngin sərvətdən istifadə etmək istəyirik və istəyirik ki, bu istifadə prosesi tamamilə təhlükəsiz olsun. Ona görə də Heydər Əliyeviçin haqqında danışdığı həmin istiqaməti Azərbaycanın hansısa şəkildə dəstəkləmək qərarı bütün dövlətlərin, o cümlədən, şübhəsiz ki, Gürcüstanın da xeyrinədir. Bu dəstəyə, belə mühüm qərarın qəbul edilməsinə görə bir daha təşəkkürümü bildirirəm.

**Sual: Mənim sualım Eduard Şevardnadzeyədir. Bu yaxınlarda Kiyevə səfəriniz zamanı belə bir məlumat yayılmışdı ki, guya Siz MDB sərhədlərində dövlətlərin hansısa yeni birliyini yaratmağı təklif etmisiniz. Əgər belədirsə, Siz bu birliyi necə təsəvvür edirsiniz?**

**Eduard Şevardnadze:** Belə söhbət olmayıb. Bu məlumat ortaya çıxdıqdan sonra Gürcüstan prezidentinin mətbuat katibi bəyanat verdi ki, həmin informasiya həqiqətə uyğun deyildir. Kiyevdə mən təxminən indiki kimi dedim ki, MDB-də hazırkı vəziyyət bizi, təbii olaraq, qane etmir. Buna görə də biz, bu birliyin üzvü olan dövlətlərin hamısı onun işini və fəaliyyətini necə canlandırmaq barədə düşünməliyik ki, o, hər bir dövlət üçün gərəkli olsun, müstəqilliyin inkişafına, möhkəmlənməsinə və bu əsasda inteqrasiya proseslərinin inkişafına kömək etsin. Söhbət bundan gedir. Mən heç bir yeni təşkilatdan danışmamışam.

**Sual: Cənab prezidentlər, icazənizlə iki sualım var. Görüşdə siz qeyd etdiniz ki, yeni strateji tərəfdaşlıq barədə düşünmək vaxtı gəlib çatmışdır və bundan ötrü Qafqaz xalqlarının təcrübəsindən istifadə etmək lazımdır. Bu, vahid Qafqaz ideyası ilə nə dərəcədə [421-422] bağlıdır? İkinci sual: Neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında müqavilədə "Əsrin müqaviləsi"nin həyata keçirilməsində iştirak edən ayrı-ayrı neft şirkətlərinin maraqları nə dərəcədə nəzərə alınıb?**

**Heydər Əliyev:** Sözün düzü, sualınızı o qədər də başa düşmədim. Biz nə deməliyik? Sualınızı dəqiq ifadə edin.

**Müxbir: Siz dediniz ki, yeni strateji tərəfdaşlıq barədə düşünmək vaxtı gəlib çatmışdır.**

**Heydər Əliyev:** Necə yəni gəlib çatmışdır? Biz ki, bəyannamə imzalamışıq. Bu isə vahid Qafqaz ideyasına əsla zidd deyildir. Ona görə ki, Gürcüstan ilə Azərbaycan arasında strateji əməkdaşlıq Qafqazda məhz sülhün və sabitliyin möhkəmlənməsi xeyrinədir.

O ki qaldı ikinci sualınıza, bu gün imzalanmış müqavilənin neft şirkətlərinə heç bir dəxli yoxdur.

**Sual: Mənim sualım prezident Eduard Şevardnadze cənablarınadır. Rusiyanın Gürcüstandakı hərbi bazalarının perspektivləri necədir? NATO-nun genişlənməsi barədə sizin rəyiniz necədir və Xavyer Solananın Tbilisiyə axırıncı səfəri zamanı Gürcüstan ilə NATO arasında nə kimi razılaşma əldə edilmişdir? Üçüncü sual hər iki prezidentədir: Siz Azərbaycan, Gürcüstan vasitəsilə və oradan da Ukraynaya Qafqaz neft dəhlizinin çəkilişinə necə baxırsınız?**

**Eduard Şevardnadze:** Hərbi bazalar barədə suala gəldikdə, bu gün biz həmin mövzuda danışdıq. Mən dəfələrlə izah etməli olmuşam ki, nə üçün Gürcüstan birdən öz ərazisini digər dövlətin hərbi bazaları üçün verməyə razılaşmışdır. Xahiş edirəm nəzərə alasınız ki, bu gün bizim üçün ən aktual problem Gürcüstanın ərazi bütövlüyünün bərpa olunması problemidir. Bu, birincisi. İkincisi isə Milli Ordunun formalaşdırılması problemidir. Məlumdur ki, Gürcüstan hadisələrindən sonra orada hərbi texnika, demək olar, qalmamışdı. Sovet İttifaqı dövründə nə vardısa, hamısı daşınıb aparılmışdı. Buna görə də silahlı qüvvələr yaradılması problemi bizim üçün həyati əhəmiyyətə malikdir. Rusiya ilə nə kimi razılaşma var? Rusiya Gürcüstanın ərazi bütövlüyünün təmin olunmasına kömək edir. Mən dəfələrlə demişəm ki, Abxaziya münaqişəsinin .aradan qaldırılması açarı Rusiyanın əlindədir. Bu, birincisi. İkincisi, Rusiya bizə silahlı qüvvələrin yaradılması pro[422-423]sesində texnika və silahla kömək edir. Əgər bunların hamısı həyata keçirilərsə, onda müqavilə təsdiqlənəcəkdir. Əgər belə olmasa, Rusiyanın köməyi ilə Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsi mümkün olmasa, onda, təbii ki, müqavilə təsdiqlənməyəcəkdir. Bax, belə məntiq və belə şərtlər var.

NATO-ya gəldikdə isə, – mən və Heydər Əliyeviç bu təşkilatın baş katibi Xavyer Solana ilə söhbət etmişik, – hesab edirəm ki, Zaqafqaziya dövlətlərinə NATO-nun marağı tamamilə əsaslıdır, çünki, necə deyərlər, biz Ümumavropa məkanına daxilik. Avropa təhlükəsizlik strukturlarının yaradılması prosesində Qafqaz, şübhəsiz ki, özünün müəyyən yerini tutur.

O ki qaldı NATO-nun bilavasitə genişləndirilməsinə, hazırda bu problem bizə aid deyildir. Lakin yeri gəlmişkən, Rusiya rəhbərliyinin cavab verdiyi kimi cavab verəcəyəm: bu və ya başqa dövlətin bu və ya digər beynəlxalq, yaxud regional təşkilatlara, o cümlədən də NATO-ya daxil olmasını qadağan etməyə heç kimin ixtiyarı yoxdur. Bu, birincisi, ikincisi, zənnimcə, mən bunu da Kiyevdə demişəm ki, bu problem həddindən artıq dramatikləşdirilir. Tamamilə əminəm ki, xüsusən "soyuq müharibə" qurtardıqdan sonra, bütün dünyanı bir-

birindən ayıran qarşıdurma aradan qaldırıldıqdan sonra Rusiyanın və digər dövlətlərin mənafeləri nəzərə alınmaqla hökmən güzəştli qərarlar tapılacaqdır.

Ukrayna Avrasiya dəhlizinin imkanlarından və Avropanı Asiya ilə, o cümlədən Mərkəzi Asiya ilə birləşdirən magistral yollardan istifadə etmək istəyir. Ukrayna, Azərbaycan, Gürcüstan və Ermənistanla, digər ölkələrlə, xüsusən Mərkəzi Asiya ölkələri ilə ən yaxın münasibətlər yaratmağa maraq göstərir. Bu baxımdan Gürcüstan və Azərbaycan əsas ölkələrdir.

Ukrayna və NATO. Ukrayna prezidenti bu barədə çox danışıb və dəfələrlə çıxış edibdir. Zənnimcə, Qərb dövlətləri bu təşkilatın üzvləri NATO ilə əməkdaşlıqda Ukraynaya xüsusi yer verməkdə düzgün hərəkət edirlər.

Cavab uzun olduğuna görə bağışlayın. Amma sual da sadə deyildi.

**Heydər Əliyev:** Hesab edirəm ki, Transqafqaz magistralı barəsində öz rəyimi bildirməliyəm. Biz buna çox böyük əhəmiyyət veririk. Keçən ilin mayında Sərəxsdə Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycanın imzaladıqları saziş həyata keçirilir. Transqafqaz magistralı fəaliyyət göstərir və deməliyəm ki, özünü tamamilə doğruldur. Qazaxıstan [423-424] və Qırğızıstan da bu sazişə qoşulurlar. Ukraynanın müraciəti bizim tərəfimizdən müsbət qarşılanır. Hesab edirəm ki, yüklərin Qara dəniz sahilindəki Gürcüstan limanından Avropaya, habelə Ukrayna limanlarına göndərilə biləcəyi bu magistraldan Ukrayna istifadə edə bilər. Buna onlar da, biz də maraqlıyıq. Yəni vaxtilə imzaladığımız həmin sazişin genişləndirilməsi və dərinləşdirilməsindən söhbət gedir. Bu sazişin xeyrinə edilən hər şeyi Azərbaycan müsbət qarşılayır.

**Eduard Şevardnadze:** Heydər Əliyeviç, əgər mümkündürsə, bir-iki kəlmə əlavə edim. İndi biz adətən yüklərin Şərqdən Qərbə və əks istiqamətdə axınından danışırıq. Lakin demək istəyirəm ki, Abxaziya münaqişəsi aradan qaldırılmaqla Qafqazın böyük tranzit regionuna çevrilməsi Rusiyaya da bu axma qoşulmaq imkanı verir. O zaman yüklər Şimaldan Cənuba – Türkiyəyə, Yaxın Şərqə və sairəyə, həm də əks istiqamətdə daşınacaqdır. Bir sözlə, Rusiya bu imkandan, şübhəsiz, yalnız həmin münaqişələr aradan qaldırılacağı təqdirdə istifadə edəcəkdir. Bu halda Abxaziyaya, Cənubi Osetiyaya dəmir yolu, avtomobil magistralları açılacaq və bütün dövlətlər üçün həqiqətən çox böyük imkanlar yaradılacaqdır.

**Sual: Mənim sualım Heydər Əliyev cənablarınadır. Azərbaycan və Gürcüstanın oxşar, eyni problemləri var. Strateji əməkdaşlıq yolu tutmuş iki qardaş ölkənin separatçılığa qarşı mübarizədə birgə fəaliyyəti mümkün ola bilərmi?**

**Heydər Əliyev:** Separatçılıq həm Gürcüstanın həyatına, onun ərazi bütövlüyünə, həm də Azərbaycanın həyatına, onun ərazi bütövlüyünə çox böyük zərbələr vurubdur. Ona görə də biz separatçılığın həm əleyhinəyik, həm də separatçılığın aradan qaldırılmasını, ona son qoyulmasını tələb edirik. Bu baxımdan Gürcüstanla Azərbaycanın vəziyyəti bir-birinə çox bənzərdir. Ancaq fərq də var. Fərq ondan ibarətdir ki, Azərbaycanın qarşılaşdığı separatçılıq təkcə Azərbaycanın daxilində olan bir qurumun separatçılığı deyil, Ermənistanın dəstəyi nəticəsində meydana gəlib və Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində baş veribdir. Gürcüstandakı separatçıları da başqa ölkələr tərəfindən gizli dəstəkləyənlər var.

Bu münaqişələrin aradan götürülməsi yoluna gəldikdə isə, eşitdiniz ki, prezident cənab Şevardnadze münaqişənin Rusiya vasitəsilə həll olunmasına çalışır. Bu məqsədlə həmin müna[424-425]qişə zonasına Rusiyanın sülhü mühafizə dəstələri yerləşdirilibdir. Amma Azərbaycanda belə sülhü mühafizə qüvvələri yoxdur. Azərbaycan münaqişənin ATƏT çərçivəsində, onun Minsk qrupu vasitəsilə sülh yolu ilə həll olunmasına çalışır. Biz bu sahədə fəaliyyət göstərə bilərik və hesab edirəm ki, fəaliyyət göstərməliyik. Bu da ondan ibarət ola bilər ki, biz bir-birimizə kömək edək, beynəlxalq təşkilatların, böyük ölkələrin bu münaqişələrə diqqətini daha da çox cəlb edək, təcrübə mübadiləsi aparaq, bir-birimizə öz təcrübəmizi çatdıraq, beləliklə də, əməkdaşlıq edək. Bir sözlə, bu sahədə əməkdaşlıq etmək imkanlarımız var və hesab edirəm ki, əməkdaşlıq etməliyik.

**Sual: Cənab Şevardnadze, sizin milli məsələlər üzrə köməkçiniz fevralın 6-da "Nezavisimaya qazeta"nın müxbirinə bildirmişdir ki, onu regionda islam dövləti yaradılması çox narahat edir və bu, pravoslav Gürcüstanı və Qafqazın xristian dininə etiqad edən digər ölkələri üçün təhlükə törədir. Siz milli məsələlər üzrə öz köməkçinizin dediklərini necə şərh edə bilərsiniz? İkinci sual ATƏT-in cinah sazişi barədədir. Azərbaycan regionda Rusiyanın silahlarının artmasının əleyhinədir. Bu məsələdə Gürcüstanla Azərbaycanın mövqeyi uyğun gəlirmi?**

**Eduard Şevardnadze:** Birinci sualı eşitmədim. Hansı köməkçidən söhbət gedir?

**Müxbir: Milli məsələlər üzrə köməkçidən.**

**Eduard Şevardnadze:** O nə deyib?

**Müxbir: O deyib ki, regionda islam dövləti yaradılır və bu, pravoslav Gürcüstanı və Qafqazın xristian dininə etiqad edən digər ölkələri üçün təhlükə törədir. Bu, 1997-ci il fevralın 6-da "Nezavisimaya qazeta"-da dərc olunub.**

**Eduard Şevardnadze:** Bilirsinizmi, mən də öz köməkçimə görə cavabdehəm, amma "Nezavisimaya qazeta"ya cavabdeh ola bilmərəm. O belə şey deyə bilməzdi, çünki köməkçilərim mənim fikirlərimlə, mövqeyimlə, həlalik ki, şərikdirlər. Mənim isə elə bir mövqeyim yoxdur ki, orada fikir dəqiq ifadə edilməsin və ya nəsə başqa bir şey düz olmasın. Mən bu məsələdə heç bir təhlükə görmürəm.

Tərksilaha, adi silahların azaldılması problemlərinə gəldikdə, bu təzə məsələ deyildir. Sizə bildirməliyəm ki, bütün danı[425-426]şıqlarda, o cümlədən Vyana danışıqlarında biz Azərbaycan nümayəndə heyəti ilə daim məsləhətləşir və mövqelərimizi uyğunlaşdırırdıq. Odur ki, gələcəkdə də bu ruhda hərəkət edəcəyik.

**Heydər Əliyev:** Vəssalam? Daha sual yoxdur? Sağ olun. [426-427]

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" sarayı*

*18 fevral 1997-ci il*

Hörmətli Gürcüstan prezidenti
cənab Eduard Şevardnadze!
Möhtərəm qonaqlar! Xanımlar və cənablar!

Mən sizi ürəkdən salamlayıram və əziz Eduard Amvrosiyeviç, sizə, bütün gürcüstanlı qonaqlara Azərbaycan xalqının, bütün Azərbaycan vətəndaşlarının hörmət və dostluq hisslərini çatdırıram. Gürcüstan prezidenti Eduard Şevardnadzenin Azərbaycana rəsmi dövlət səfəri ölkəmizin həyatında əlamətdar hadisə, Gürcüstan-Azərbaycan dövlətlərarası münasibətlərində mühüm mərhələdir.

Prezident Eduard Şevardnadzenin Azərbaycana səfərinin birinci günü bu gün, bu saatlarda sona çatır və böyük məmnunluqla demək olar ki, səfər uğurla, dostluq, qardaşlıq və səmimilik şəraitində keçir.

Bu gün biz səmərəli danışıqlar apardıq, iki prezident arasında dostcasına söhbət oldu, mühüm dövlətlərarası sənədlər imzalandı. Bu gün Gürcüstan ilə Azərbaycan arasında 22 sənəd imzalandı və onların arasında çox mühüm, tarixi əhəmiyyəti olan sənəd var. Bu, Gürcüstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və əməkdaşlıq haqqında bəyannamədir. Bu gün imzalanmış sənədlər və indiyədək imzalanmış sənədlər, – bunların sayı isə 32-yə çatır, dövlətlərimiz və ölkələrimiz arasında əməkdaşlığı və qarşılıqlı münasibətləri daha da inkişaf etdirmək üçün kifayət qədər tam müqavilə – hüquqi əsas yaradır.

Şübhəsiz, biz hamımız səy göstərəcəyik ki, əldə olunmuş razılaşmalar həyata keçirilsin, imzalanmış sənədlərdə müəyyən edilmiş vəzifələr yerinə yetirilsin və Gürcüstan-Azərbaycan əməkdaşlığı yüksək sürətlə irəliləsin. [427-428]

Gürcüstanlı əziz dostlarımızın Azərbaycana gəlişi nəinki onlarla bilavasitə ünsiyyətdə olan bizləri, həm də bütün Azərbaycan ictimaiyyətini, Bakı şəhərinin bütün sakinlərini sevindirir. Bu, təbiidir, çünki biz özümüzə əziz bildiyimiz adamları, qardaş gürcü xalqının nümayəndələrini qəbul edirik. Dostluq və əməkdaşlıq gürcü və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərdə çoxəsrlik və canlı tarixə malikdir. Ona görə də bu gün biz keçilmiş yola nəzər salaraq iftixarla deyə bilərik ki, xalqlarımız çiyin-çiyinə, birlikdə yaşayaraq, bir-birilə həmişə səmimi dostluq münasibətləri saxlamış, bir-birinə kömək etmiş, bir-birini təcrübə ilə, biliklərlə, malik olduqları hər şeylə zənginləşdirmişlər.

Bizim üçün, azərbaycanlılar üçün Gürcüstana, gürcü xalqına münasibətin xüsusi əhəmiyyəti, xüsusi xarakteri var. Biz əsrlər boyu birlikdə, yanaşı, görkəmli Azərbaycan şairi Səməd Vurğunun vaxtilə dediyi kimi, bir-birimizin yanında yaşayırıq. Bu birgə həyat xalqlarımıza daim xeyir, çox böyük məmnunluq gətirmişdir. Bu hissi indi də, bu günlərdə də, xüsusən xalqlarımız milli azadlığa, dövlət müstəqilliyinə nail olduğu vaxtdan bəri də keçiririk. Gürcüstan qədim ölkədir, gözəl təbiəti, çox yaxşı insanları, zəngin tarixi, yüksək mədəniyyəti olan ölkədir. Bəşər tarixinin bütün dövrlərində gürcü xalqının görkəmli övladları dünya sivilizasiyasına layiqli töhfələrini vermişlər.

Biz Gürcüstanın həyatını, Gürcüstanda gedən tarixi prosesləri səmimi qardaşlıq hissi ilə daim izləmişik və dostlarımızın, qardaşlarımızın nailiyyətlərinə, uğurlarına, müvəffəqiyyətlərinə sevinmişik. Gürcüstan özünün çoxəsrlik tarixi ərzində bir çox mərhələlərdən keçmişdir: qələbələr, yüksək nailiyyətlər olmuşdur, məğlubiyyətlər də, uğursuzluqlar da olmuşdur. Ancaq gürcü xalqı özünəməxsus mədəniyyətini, milli xüsusiyyətini, milli ənənələrini, mənəvi dəyərlərini qoruyub saxlamışdır. Bu, bizi həmişə sevindirmişdir və bu gün də sevindirir.

Ancaq hesab edirəm ki, XX əsrin sonu bizim üçün, özlərinin milli azadlığını və dövlət müstəqilliyini əldə etmiş bir çox başqa xalqlar üçün olduğu kimi, gürcü xalqı üçün də xüsusilə sevindirici və xoşbəxt bir mərhələdir. Baxmayaraq ki, bütün bunlar mürəkkəb və çətin şəraitdə gedibdir və gedir, lakin hər halda bu dövrün qiymətləndirilməsində müsbət amil üstün yer tutur, başqa sözlə, hər halda biz bu çətinliklərdən, bu itkilər[428-429]dən, bu faciələrdən keçərək milli azadlığın və dövlət müstəqilliyinin xoşbəxt yoluna çıxmışıq.

Gürcü xalqı da həmişə azadlıqsevər xalq olmuşdur, özünün milli müstəqilliyi uğrunda mübarizə aparmış və bu müstəqilliyə nail olmuşdur. Bir də deyirəm, bizim ölkəmizdə olduğu kimi, bütün bunlar çox mürəkkəb şəraitdə baş verir. Ancaq ən əsası odur ki, biz bu azadlığı əldə etmişik, bu müstəqilliyi qazanmışıq və xalqlarımızın, ölkələrimizin gələcəyini gözəl, işıqlı görürük.

Yenə deyirəm, gürcü xalqının tarixində müxtəlif xarakterli mərhələlər çox olub, lakin son dövr, Gürcüstanın öz dövlət müstəqilliyinə nail ola bildiyi dövr tarixə daxil olacaq və gələcək nəsillər tərəfindən xüsusilə yüksək qiymətləndiriləcəkdir.

Gürcüstan beş ildir dövlət müstəqilliyi şəraitində yaşayır, Azərbaycan beş ildir dövlət müstəqilliyi şəraitində yaşayır. Bu müddətdə bizim münasibətlərimiz xüsusi əhəmiyyət və xüsusi xarakter kəsb etmişdir. Bir də təkrar edirəm, biz gürcü xalqı ilə həmişə dostluq etmişik, bizi daim çox şey birləşdirib, həmişə get-gəlimiz olub, bir-birimizlə daim ünsiyyətdə olmuşuq. İnsanlarımız, xalqlarımız arasında qarşılıqlı əlaqə həmişə uğurlu olubdur. Ancaq hesab edirəm ki, son illərdə baş verənlər bütün əvvəlki tarixi dövrdə malik olduğumuzun hamısından üstündür.

Azərbaycanda olduğu kimi, Gürcüstanda da dövlət müstəqilliyinin bərqərar olması mürəkkəb şəraitdə gedib və indi də belə şəraitdə gedir. Təəssüflər olsun ki, biz həm də xarici xarakterli böyük çətinliklərlə qarşılaşmışıq. Gürcü xalqının bugünkü vəziyyət səviyyəsinə gəlib çatmaq üçün son illərdə nə kimi çətinliklərdən keçdiyini biz yaxşı bilirik. Biz bilirik ki, Gürcüstanın ərazi bütövlüyünün pozulması da, müxtəlif xarici qüvvələrin fəaliyyəti də, daxildə baş verən vətəndaş müharibəsi də Gürcüstanı çox çətin vəziyyətə salmışdır.

Lakin dostlar kimi, qardaşlar kimi bütün bunları müşahidə edərək həmişə inanmışıq ki, Gürcüstan hamar yola çıxacaqdır və çıxdı da. Təbii ki, bütün bunlarda Gürcüstanın qabaqcıl, tərəqqipərvər adamlarının səylərini yüksək qiymətləndirmək lazımdır. Onlar heç bir çətinliyə baxmayaraq, milli azadlıq və dövlət müstəqilliyi ideyasından imtina etmədilər, qurbanlar verilməsinə, heç bir çətinliyə baxmayaraq, irəlilədilər. Əlbəttə, bütün bunlarda Gürcüstan prezidenti, mənim böyük dostum Eduard Amvrosiyeviç Şevardnadze görkəmli rol oynamışdır. O [429-430] öz xalqının ən ağır günlərində və aylarında vətənə qayıdaraq, öz xalqına başçılıq etdi və onlar böyük çətinliklər bahasına vətəndaş müharibəsinin qarşısını aldı, digər bütün çətin prosesləri aradan qaldırdılar və Eduard Amvrosiyeviç öz xalqını, öz ölkəsini dövlət müstəqilliyinin və milli azadlığın hamar yoluna çıxardı.

Biz Gürcüstanın, Azərbaycanın ağır illərində və aylarında da birlikdə olduq, bir-birimiz barədə düşünürdük, bir-birimizə imkan daxilində kömək edirdik və inanırdıq ki, Gürcüstan da düşdüyü vəziyyətdən çıxacaqdır, Azərbaycan da. İndi biz əldə etdiyimiz nəticələrin, Eduard Amvrosiyeviç Şevardnadzenin rəhbərliyi altında Gürcüstanın, gürcü xalqının nail olduğu nəticələrin şahidiyik. İndi də həm Gürcüstanda, həm də Azərbaycanda çoxlu problem var. Lakin bu problemlər dövlətin olduğu bir vaxtda, qayda-qanun olduğu bir vaxtda, müvafiq qüvvələrin olduğu bir vaxtda, ölkənin azad demokratik inkişafı üçün təbii olaraq bütün şərait yaradıldığı bir vaxtda artıq tamam başqa bir şəraitdə həll edilir.

Belə bir şəraitdə Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlıq fəallaşdırılmışdır və belə bir şəraitdə bir il bundan əvvəl mən Eduard Şevardnadzenin dəvəti ilə Gürcüstana rəsmi səfərə getdim. Zənnimcə, biz orada səmərəli işləyə bildik və belə bir şəraitdə bir ildən sonra Gürcüstan prezidentini, onu müşayiət edən şəxsləri qəbul edirik və artıq indi biz əməkdaşlıqda atılmış iri addımlardan və qarşımızda açılan böyük perspektivlərdən danışırıq.

Gürcüstan və Azərbaycan əməkdaşlıq üçün böyük imkanlara malikdirlər. Buna görə də məqsədimiz, vəzifəmiz bu imkanlardan maksimum səmərə ilə istifadə etməkdir. Biz Gürcüstanla xoş dostluq münasibətlərini əsas tutaraq, öz daxili çətinliklərimizə baxmayaraq, Gürcüstana kömək göstərmək və əməkdaşlığımızı genişləndirmək üçün imkanımız daxilində hər şey etmişik və edəcəyik. Bununla əlaqədar belə bir məsələ, məncə, mühüm, tarixi haldır ki, biz Xəzər hövzəsindən, Azərbaycandan neftin Gürcüstan ərazisi ilə dünya bazarına ixracı üçün boru kəməri çəkilməsi haqqında qərar qəbul etmişik. Bu neft kəməri nəinki iqtisadi məqsədlərə xidmət edəcək, həm də iqtisadi fayda gətirəcəkdir, keçmişdə Azərbaycan ilə Gürcüstan arasında çəkilmiş bir çox digər xətlər kimi, o da gürcü və Azərbaycan xalqları arasında əməkdaşlığın, dostluğun və qardaşlığın möhkəmlənməsi məqsədlərinə xidmət edəcəkdir. [430-431]

Respublikalarımız öz coğrafi – coğrafi-siyasi xarakterinə görə xüsusi əhəmiyyətə malikdirlər. Ötən ilin mayında Sərəxsdə imzalanmış Transqafqaz magistralı haqqında saziş bu magistrala maraq göstərən bir çox ölkələr tərəfindən böyük dəstək almış və bəyənilmişdir. Həmin magistral məhz Xəzərdən, Azərbaycandan, Gürcüstandan keçir, Avropanı Şərqlə, Qərbi Şərqlə, Şərqi Qərblə birləşdirir.

Hesab edirəm ki, bu da tarixi əhəmiyyəti olan hadisədir və bu magistralın səmərəli fəaliyyət göstərməsinə kömək edəcəyik. Bizim əməkdaşlığımız üçün bir çox başqa konkret tədbirlər də nəzərdə tutulmuşdur. Ancaq mən əməkdaşlığın, mehriban münasibətlərin, dostluğun nə demək olduğunu əyani surətdə nümayiş etdirmək üçün bu iki böyük hadisə barədə danışdım. Bunların hamısı xalqlarımızın, ölkələrimizin naminə, milli dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi naminədir.

Bu gün baş vermiş hadisələr, hesab edirəm ki, sabah, o birisi gün də baş verəcək hadisələr, – görüşlər, söhbətlər, fikir mübadiləsi, – bunlar hamısı birlikdə, şübhəsiz ki, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin gələcək inkişafı üçün çox mühüm əsas olacaqdır. Bizi çox şey birləşdirir. Bizim mövqelərimiz eynidir, bir çox beynəlxalq məsələlərdə, regional xarakterli bir çox məsələlərdə mövqelərimiz oxşardır, biz separatizmə, terrorizmə, konstitusiyaya zidd hər cür əməllərə, hüquqi zidd hər cür hərəkətlərə qarşı mübarizədə yekdilik. Gürcüstanda demokratik dövlət, hüquqi dövlət qurulur. Biz Gürcüstanda gedən prosesləri böyük məmnunluqla izləyirik, ona görə ki, biz özümüz həyatın bu mərhələsindən keçirik, özümüz bu yolla, demokratik, hüquqi cəmiyyət qurmaq yolu ilə, həyatın bütün sahələrində demokratiya prinsiplərini bərqərar etmək yolu ilə, bazar iqtisadiyyatını inkişaf etdirmək yolu ilə gedirik. Bu məsələlərə eyni cür yanaşmağımız,

eyni səylər göstərməyimiz bizi yaxınlaşdırır, birləşdirir və tarixin bu mürəkkəb mərhələsindən mümkün qədər ağrı-acısız, itkilərsiz keçmək üçün bizə kömək edir.

Hesab edirəm, biz bu mərhələdən keçəcəyik, ölkələrimizdəki separatizm halını aradan qaldıra biləcəyik. Mən əminəm ki, Gürcüstanın ərazi bütövlüyü bərpa olunacaqdır. Mən əminəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Mən əminəm ki, biz birgə səylərlə Qafqazda, xüsusən Zaqafqaziyada sülhə və sabitliyə nail ola biləcəyik. [431-432]

Məlumdur ki, həm Abxaziyadakı münaqişə, həm də Ermənistan ilə Azərbaycan arasındakı münaqişə, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması Zaqafqaziyada vəziyyəti daha çox mürəkkəbləşdirir. Öz yerlərindən – Azərbaycanın Ermənistan qoşunları tərəfindən işğal edilmiş ərazilərindən qovulmuş bir milyondan çox qaçqının olması Azərbaycanda da, Gürcüstanda da, ümumən Zaqafqaziyada, Qafqazda da vəziyyəti mürəkkəbləşdirir. Ancaq mühüm cəhət budur ki. Gürcüstan prezidenti də, Azərbaycan prezidenti də düzgün mövqe tuturlar, müvafiq beynəlxalq hüquq normalarına tam uyğun gələn mövqe, eyni zamanda öz xalqlarının və ölkələrinin milli mənafelərini müdafiə etmək mövqeyi tuturlar.

Qonşularımıza bizim heç bir iddiamız yoxdur. Biz sərhədlərin dəyişdirilməsi mövqeyini tutmuruq və heç vaxt tutmayacağıq. Ancaq eyni zamanda biz sərhədimizin pozulmasına, Azərbaycanın ərazi bütövlüyünün tapdalanmasına heç vaxt yol verə bilmərik. İndiyədək nə baş vermişdirsə, bunların hamısı xalqa ziddir. Beynəlxalq hüquq normalarına birbaşa ziddir və hesab edirəm ki, biz öz torpağımızı, ərazimizi, milli mənafelərimizi müdafiə etməyə qadir olacağıq. Bu baxımdan Qafqazı sülh regionuna çevirmək, Zaqafqaziyada əmin-amanlığa və sülhə nail olmaq arzumuz regionda yaşayan milyonlarla insanın taleyi ilə bağlı olan arzudur. Hesab edirəm ki, bizim bu sahədəki səylərimiz dəstəklənəcəkdir. Biz buna nail olmağa çalışacağıq. Bunun üçün təkidlə mübarizə aparacağıq. Həm bu məsələdə, həm də bir çox digər məsələlərdə bizim – Gürcüstanın və Azərbaycanın mövqeləri üst-üstə düşür, bu isə bizi daha da yaxınlaşdırır, münasibətlərimizi, dostluğumuzu daha da möhkəmləndirir.

Eduard Amvrosiyeviç, sizin Azərbaycana gəlməyinizdən son dərəcə məmnunam. Biz çoxdan, təxminən otuz ildir ki, bir-birimizlə bağlıyıq. Bir vaxtlar siz də, mən də respublikalara rəhbərlik edirdik, – siz Gürcüstanın rəhbəri idiniz, mən Azərbaycanın rəhbəri idim və o illərdə də biz dostluq edirdik, xalqlarımız, ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə çalışırdıq. Həm də az iş görməmişik, sələflərimizin etdiklərinə çox şey əlavə etmişik. Gürcüstan və Azərbaycan xalqları arasında mövcud olan dostluq da məhz həm əvvəlki nəsillərin, həm də bizim nəslin, sizinlə mənim və həmin [432-433] illərdə istər Gürcüstanda, istərsə də Azərbaycanda bizimlə bir yerdə olan insanların yaratdıqlarına, topladıqlarına əsaslanır.

Xatirimdədir, 16 il bundan öncə, həmin bu yaraşıqlı "Gülüstan" sarayını yenicə tikib qurtaranda burada, Bakıda ilk qəbul olmuşdu. O zaman biz bu salonda sizinlə yanaşı oturmuşduq. Mən bunu böyük xoşbəxtlik sayıram ki, 16 il keçəndən sonra da bir yerdəyik, həm də təkcə ona görə ki, biz xalqlarımıza yenidən gərəkli və lazımlı olmuşuq, həm Gürcüstanda, həm də Azərbaycanda öz üzərimizə böyük məsuliyyət götürmüşük. Dostluq və əməkdaşlığın keçmişdəki çox zəngin təcrübəsindən istifadə etməklə biz indi xalqlarımızı daha yüksək səviyyəyə qaldırmaq və xalqlarımız, ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün əvvəlkindən də çox iş görə bilərik.

Buna görə də sizin gəlməyinizdən çox şadam. Çox məmnunam ki, biz bu gün bir çox məsələləri müzakirə edə bildik. Ümidvaram ki, sabah da, o birisi gün də sizinlə birlikdə yeni görüşlərin şahidi olacağıq və bu görüşlər gürcü və Azərbaycan xalqları arasında münasibətlərin daha da möhkəmlənməsinə və inkişafına xidmət edəcəkdir. Bütün dövrlərdə olduğu kimi, Azərbaycanda indi də Gürcüstana, gürcü xalqına çox böyük məhəbbət bəsləyirlər.

Bax, xalqımızın bu hissləri və özümün şəxsi hissləri ilə də mən müstəqil Gürcüstanın şərəfinə, gürcü xalqının şərəfinə, Gürcüstanın gələcək tərəqqisi şərəfinə, Azərbaycan xalqının böyük dostu, Gürcüstanın görkəmli oğlu, Gürcüstan prezidenti Eduard Amvrosiyeviç Şevardnadzenin şərəfinə, Gürcüstandan gəlmiş bütün qonaqlarımızın şərəfinə, gürcü və Azərbaycan xalqları arasında dostluq və əməkdaşlığın şərəfinə badə qaldırmağı təklif edirəm. Sizin sağlığınıza! [433-434]

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZEYƏ M. Ə. RƏSULZADƏ ADINA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*19 fevral 1997-ci il*

Hörmətli prezident, əziz dostum Eduard Şevardnadze!

Mən Sizi Bakı Dövlət Universitetinin fəxri doktoru adı almağınız münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı və böyük dövlət işinizdə uğurlar arzulayıram.

Hörmətli dostum, Sizə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsinin səbəbləri və əsasları haqqında burada artıq geniş məlumat verildi. Mən də təsdiq edirəm ki, burada göstərilənlər həqiqətən Sizə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi üçün tam əsasdır və ona görə də bu adı Siz tamamilə əsaslı olaraq almısınız. Mən sadəcə onu əlavə etmək istəyirəm ki, Sizin parlaq həyat yolunuz və böyük ictimai-siyasi, dövlətçilik fəaliyyətiniz həm Gürcüstanda – keçmişdə və indi, – həm də böyük bir dövlətin rəhbəri kimi bir vəzifədə gördüyünüz işlərin hamısı elmi əsaslar üzərində durmuşdur. Bunların hamısı dünya elminə böyük töhfələrdir və Sizin məhz elmi fəaliyyətinizin bu hissəsi, hesab edirəm ki, Sizə fəxri doktor adı vermək barədə qərar qəbul edərkən əsas tutulubdur.

Böyük siyasətlə, dövlət işi ilə məşğul olan şəxslər bəlkə də xüsusi elmi məqalələr, kitablar yazmırlar. Ancaq onların gündəlik ictimai-siyasi fəaliyyəti, böyük dövlət işinə rəhbərlik etməsi, dövlət əhəmiyyətli məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır. Buna görə də Eduard Şevardnadze kimi dünya miqyaslı böyük .siyasətçinin bütün fəaliyyəti eyni zamanda elmi fəaliyyətdir. İki gündür ki, dostum Eduard Şevardnadze ilə Gürcüstan-Azərbaycan əlaqələrinin bundan sonra da genişlənməsini, inkişaf etdirilməsini, Qafqazda olan vəziyyəti ətraflı müzakirə etmişik. Eyni za[434-435]manda, beynəlxalq aləmdə gedən prosesləri müzakirə etmişik. Mənsub olduğumuz Müstəqil Dövlətlər Birliyində gedən prosesləri, ölkələrimizin Avropa ilə, Qərb ölkələri ilə gündən-günə inkişaf edən əlaqələrini və bununla bağlı problemləri, bir çox başqa məsələləri müzakirə etmişik. Ancaq apardığımız söhbətlərin, fikir mübadiləsinin mərkəzində daim Qafqazda sülhün, əmin-amanlığın yaranması, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Gürcüstan və Azərbaycan ərazilərində baş vermiş hərbi münaqişələrə son qoyulması durmuşdur.

Hörmətli alimlər, hörmətli müəllimlər!

İnanın ki, hər bir belə məsələnin müzakirəsi, bu problemlərin həlli barədə müəyyən qərarların qəbul edilməsi, onların həllolunma yollarının araşdırılması və ayrı-ayrı tədbirlərin görülməsinin özü də elmi işdir, axtarışdır, ixtiradır. Təəssüf ki, görülən işlərin əksəriyyəti nə kitablara, nə bir başqa yerə yazılır. Ancaq bunlar xalqların, millətlərin, ölkələrin, xüsusən, konkret olaraq bizim regionun, ölkələrimizin, millətlərimizin xalqlarımızın həyatında əvəzsiz rol oynayır. Bu danışıqlar və əldə olunan razılıqlar haqqında əziz dostum Eduard Şevardnadze sizə ətraflı məlumat verdi. Mən bəyan edirəm ki, Eduard Şevardnadzenin indicə sizə verdiyi məlumatların hamısı ilə mən razıyam. Onlar bizim birgə fikirlərimizdir, birgə qəbul etdiyimiz təkliflərdir və biz bundan sonra bunları birlikdə də həyata keçirəcəyik. Eyni zamanda, cənab Şevardnadzenin dediyi kimi, bu məsələlərin həllində bundan sonra da alimlərimizin, ziyalılarımızın, ictimai-siyasi həyatda fəal iştirak edən şəxslərin fikirlərinə, tövsiyələrinə, təkliflərinə bizim ehtiyacımız var və hər dəfə sizin fikirlərinizdən və təkliflərinizdən əməli işimizdə istifadə olunacaqdır.

Bu gün dostum Eduard Şevardnadzeyə burada Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi eyni zamanda siyasi xarakter daşıyır. Bu, xalqlarımızın, ölkələrimizin, dövlətlərimizin arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrinin inkişafına kömək edən böyük amildir. Gürcüstan ilə Azərbaycan arasında əlaqələrin isə böyük tarixi var.

Azərbaycan prezidenti bir il bundan öncə Gürcüstanın görkəmli alimləri – Tbilisi Dövlət Universiteti professor-müəllim heyətinin qarşısında çıxış etmişdir və bu gün də Gürcüstanın prezidenti ilk dəfə olaraq Azərbaycanın görkəmli alimlərinin – Bakı Dövlət Universitetinin professor-müəllim [435-436] heyətinin qarşısında çıxış edir. Bunlar çox əlamətdar hallardır. Mən bir il bundan öncə Tbilisi Dövlət Universitetində keçirdiyim görüşləri, dostcasına, mehriban söhbəti məmnuniyyət hissi ilə xatırlayıram. Mənə Tbilisi Dövlət Universitetinin fəxri doktoru adının verilməsindən çox böyük qürur hissi duyuram. Hesab edirəm ki, bir il bundan öncə Tbilisi Dövlət Universitetində və bu gün Bakı Dövlət Universitetində baş verən hadisələr xalqlarımızın, ölkələrimizin bundan sonra da dostcasına yaşamasına, əlaqələrimizin inkişaf etməsinə kömək edəcəkdir və buna xidmət edəcəkdir.

Hörmətli dostum Eduard Şevardnadze kimi, mən də bu gün bu hadisələri elmimizin, təhsilimizin, ziyalıların dövlətə, dövlətçiliyə və dövlət başçılarına göstərdikləri hörmətin, ehtiramın təzahürü kimi qəbul edirəm. Eyni

zamanda, Gürcüstan prezidenti Eduard Şevardnadzenin sizin qarşınızda etdiyi dərin məzmunlu, elmi fikirlərlə, elmi əsaslarla dolu olan nitqi Gürcüstanın dövlət başçısının Azərbaycanın elm, təhsil xadimlərinə, ziyalılarına göstərdiyi böyük diqqətin və hörmətin təzahürüdür. Cənab Şevardnadzenin dediyi kimi, bundan sonra Gürcüstanın və Azərbaycanın ziyalıları, elm, mədəniyyət xadimləri, xüsusən universitetlərimiz, təhsil ocaqlarımız bir-biri ilə daha sıx əlaqə saxlayacaq, əməkdaşlıq edəcək, birgə elmi işlər aparacaq, təhsilin yenidən qurulması sahəsində təcrübə mübadiləsi edəcək və beləliklə də Gürcüstan-Azərbaycan əməkdaşlığının gələcəkdə inkişaf etməsinə öz töhfələrini verəcəklər.

Hörmətli xanımlar və cənablar! Hörmətli dostlar!

Mən bu gün sizinlə bir yerdə olduğuma görə, Bakı Dövlət Universitetinin professor-müəllim heyəti ilə, tələbələrinin nümayəndələri ilə görüşdüyümə görə çox məmnun olduğumu bildirirəm. Bu görüşə görə çox sevinirəm, çox şadam və bu görüşün yaranmasına səbəbkar olan dostum Eduard Şevardnadzeyə minnətdarlığımı bildirirəm.

Əziz dostum Şevardnadze!

Yüksək fəxri ad almağınız, bugünkü çox dərin məzmunlu və mənalı nitqiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm, Sizə cansağlığı, səadət arzulayıram. Dost, qardaş gürcü xalqına qarşısında duran böyük və möhtəşəm vəzifələrin yerinə yetirilməsində uğurlar diləyirəm. [436-437]

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN AZƏRBAYCAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ

*Respublika Sarayı*

*19 fevral 1997-ci il*

Hörmətli cənab prezident, əziz dostum və qardaşım
Eduard Şevardnadze!
Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Gürcüstan prezidentinin Azərbaycana rəsmi səfərinin ikinci günü başa çatır. Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, bu iki gün müddətində çox gərgin iş getmiş, çox görüşlər keçirilmiş, danışıqlar aparılmışdır. Hesab edirəm ki, Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni bir böyük addım atılmışdır.

Bu iki günün bir çox xüsusiyyətləri vardır. Birincisi budur ki, biz dost, qonşu, qardaş ölkənin prezidentini və onu müşayiət edən şəxsləri böyük qonaqpərvərliklə qəbul etdik və edirik. Bu iki gün müddətində Azərbaycan xalqının, azərbaycanlıların, vətəndaşlarımızın Gürcüstan dövlətinə, gürcü xalqına hörmət və məhəbbəti dəfələrlə ifadə olunmuşdur. Bütün görüşlər dostluq və mehribanlıq, qardaşlıq şəraitində keçmişdir. Biz bu iki gün müddətində dünyaya bir daha nümayiş etdirdik ki, Gürcüstan-Azərbaycan dostluğunun, qardaşlığının böyük tarixi, dərin kökləri vardır, bu dostluq, qardaşlıq dönməzdir, sarsılmazdır, heç bir qüvvə bu dostluğu poza bilməz.

Gürcüstandan gələn dostlarımıza, qonaqlarımıza, qardaşlarımıza bu iki gün müddətində göstərilən münasibət eyni zamanda Azərbaycanın, xalqımızın Gürcüstan prezidenti, dövlət başçısı, gürcü xalqının böyük oğlu, dünyada məşhur dövlət xadimi, siyasətçi, dünya miqyasında böyük şöhrət qazanmış şəxsiyyət, mənim əziz qardaşım Eduard Şevardnadzeyə olan səmimi hissiyyatları, dostluq münasibətləri və mehribanlıq duyğulandır. Hesab edirəm ki, burada qeyri-adi heç bir şey yoxdur. [437-438]

Bu iki gündə Azərbaycanda baş verən hadisələrin hamısı tam təbiidir. Birincisi, bunlar Azərbaycan xalqının qonaqpərvərlik, qonağa hörmət, ona dost münasibəti ənənələrini nümayiş etdirir. İkincisi, bütün bunlar Azərbaycan xalqı ilə Gürcüstan xalqı arasında çoxəsrlik tarixə malik olan dostluğun, qardaşlığın yeni nümayişidir. Bu, bizim adət-ənənəmizdir, səmimi hissiyyatlarımızdır. Xalqımızın adət-ənənələri və gürcü xalqına, gürcü xalqının böyük oğlu, mənim əziz dostum Eduard Şevardnadzeyə göstərdiyi dostluq münasibəti bu günlər çox parlaq şəkildə bütün dünyaya nümayiş etdirildi.

Onu da qeyd etməliyəm ki, belə münasibəti qazanmaq, belə münasibətə layiq olmaq lazımdır. Gürcü xalqı və onun müdrik rəhbəri Eduard Şevardnadze Azərbaycan xalqının qəlbində belə münasibət qazanmışdır və belə münasibətə layiqdir.

Mən qeyd etdim ki, biz bu iki gündə bir çox mühüm məsələləri müzakirə etmişik. Müzakirə etdiyimiz məsələlər də yeni deyildir. Həmin məsələlərin müzakirəsinə biz hələ bir neçə vaxt bundan əvvəl başlamışıq. Xüsusən, bir il bundan əvvəl mənim Gürcüstana rəsmi səfərim zamanı biz bu məsələləri müzakirə etmişdik, dövlətlərimiz arasında bir çox sazişlər imzalamışdıq. Onların içərisində ən böyük əhəmiyyətə malik olanı "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqında" Tbilisi bəyannaməsidir.

Prezident Eduard Şevardnadze və mən Tbilisi bəyannaməsini bir il bundan əvvəl imzalayarkən öz xalqlarımızın bu günü, gələcəyi haqqında, Qafqazdakı vəziyyət barədə narahat olduğumuzu bəyan etmişdik. Eyni zamanda, həm bizim ölkələrimizdə, həm Cənubi Qafqazda, həm də bütün Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasının indi nə qədər zəruri olduğunu dərk edərək bunu dünyaya bəyan etmişdik.

Məmnuniyyət hissi ilə demək olar ki, Tbilisi bəyannaməsi böyük əks-səda doğurmuş, dünyada böyük hörmətlə qəbul edilmiş, inkişaf etmişdir. Həmin bəyannamənin davamı olaraq keçən ilin iyun ayında Kislovodskda dörd dövlətin – Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın başçıları Qafqazda sülhün, əmin-amanlığın təmin edilməsinə aid yeni bir bəyannamə imzalamışlar.

Ancaq biz bununla da kifayətlənməmişik. Dünən Gürcüstan və Azərbaycan ölkələrimiz arasında strateji əməkdaşlıq və tərəfdaşlıq haqqında bəyannamə imzaladılar. Bununla da biz [438-439] Tbilisi bəyannaməsində irəli sürdüyümüz mühüm problemi inkişaf etdirərək Gürcüstanın və Azərbaycanın Qafqazda sülhün həqiqətən bərqərar olması üçün ciddi və təsirli addımlar atmağa hazır olduğunu dünyaya nümayiş etdirdik.

Biz qafqazlıyıq. Qafqazda olan vəziyyət bizi narahat edir. Biz öz xalqlarımızın, ölkələrimizin bu günü, gələcəyi haqqında düşünürük. Biz eyni zamanda, Qafqazda yaşayan bütün xalqlar, millətlər haqqında düşünürük. Qafqaz bizim doğma diyarımızdır və Qafqazda gedən hadisələrə biz biganə qala bilmərik. Bu baxımdan Gürcüstan və Azərbaycan arasında strateji əməkdaşlıq və tərəfdaşlıq haqqında bəyannamə, bizim bu barədəki fikirlərimiz məhz Gürcüstanın və Azərbaycanın indiki, mövcud vəziyyəti ilə də bağlıdır.

Hər iki ölkənin – Azərbaycanın da, Gürcüstanın da ərazi bütövlüyü pozulmuşdur. Təcavüzkar separatçıların və cürbəcür təxribatçı qüvvələrin xaricdən, daxildən etdiyi hərəkətlər Gürcüstanda Abxaziya problemi yaradıbdır. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz respublikamızda Dağlıq Qarabağ problemi, Ermənistan-Azərbaycan hərbi münaqişəsi yaradıbdır. Strateji əməkdaşlıq və tərəfdaşlıq haqqında bizim sazişimiz, bəyannaməmiz xalqlarımızı, ölkələrimizi məhz bu vəziyyətdən çıxarmaq məqsədi daşıyır.

Biz Gürcüstanın ərazi bütövlüyünün tanınmasını və onun bərpa olunmasını daim dəstəkləmişik və bu gün də dəstəkləyirik. Biz hesab edirik ki, Gürcüstan dövləti Gürcüstan ərazisinin hamısının sahibidir və sahibi olmalıdır. Gürcüstanda olan separatçı qüvvələrin qarşısı alınmalıdır. Gürcüstanın ərazi bütövlüyü tamamilə təmin edilməlidir.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşündə Gürcüstandakı vəziyyətlə, Gürcüstanın daxilindəki separatçı qüvvələrin hərəkəti, Abxaziya problemi ilə əlaqədar olan maddəni biz dəstəklədik. Beləliklə də, Gürcüstan dövləti ATƏT-in Lissabon Zirvə görüşünün sənədində öz problemini həll etmək üçün yaxşı bir qərar əldə etdi.

ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə olunarkən Gürcüstan Azərbaycanın ədalətli mövqeyini ATƏT-in üzvü olan bütün başqa dövlətlərlə bərabər dəstəklədi və həmin münaqişənin sülh yolu ilə həll olunması üçün ATƏT-in sədrinin bəyanatı qəbul edildi. Biz Ermənistan-Azərbaycan [439-440] münaqişəsinin Lissabon Zirvə görüşündə irəli sürülmüş prinsiplər əsasında sülh yolu ilə həll olunması üçün çalışırıq. Biz həmin prinsipləri əsas götürürük. Bu prinsiplər Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunmasından ibarətdir.

Biz münaqişənin bu prinsiplər əsasında sülh yolu ilə həll edilməsinə bundan sonra da çalışacağıq və ümidvar olduğumu bildirmək istəyirəm ki, Gürcüstan dövləti də Azərbaycanın haqq və ədalətli işini indiyədək olduğu kimi, indən sonra da dəstəkləyəcək və müdafiə edəcəkdir.

Bizim strateji əməkdaşlığımız və tərəfdaşlığımız bir çox başqa məsələləri də əhatə edir. Mənim dostum Eduard Şevardnadze bunlar haqqında çox ətraflı danışdı. Mən onun fikirləri ilə tamamilə razıyam.

Beləliklə, biz bu iki günə yekun vurarkən tam qətiyyətlə deyə bilərik ki, Gürcüstan prezidentinin Azərbaycana rəsmi səfəri Gürcüstan-Azərbaycan əlaqələrində yeni bir mərhələ olubdur, bu səfər tarixi bir xarakter daşıyır. Mən əminəm ki, biz burada əldə etdiyimiz razılıqlar və sənədlər əsasında gələcəkdə həm ölkələrimizin inkişafım, həm də ölkələrimiz arasındakı əlaqələrin inkişafını sürətlə irəliyə aparacağıq.

Bu günlər çox danışılıb, mən bir daha demək istəyirəm ki, bizim çoxəsrlik dostluğumuz tarixdə həddindən artıq parlaq səhifələr qoyubdur. Bu dostluq Azərbaycan xalqında gürcü xalqına böyük məhəbbət hissi doğurubdur. Bizim xalqlarımız tarix boyu yan-yana, bir yerdə yaşayıblar. İndi biz müstəqil dövlətlərik.

Cənab Şevardnadze indi qeyd etdi, Gürcüstanda 500 min azərbaycanlı yaşayır. Gürcüstan onların doğma vətənidir, ulu babaları orada yaşayıblar. Onların tarixi kökləri oradadır. Onlar bu gün Gürcüstan Respublikasının bərabər hüquqlu vətəndaşlarıdır.

Gürcüstan, xüsusən Tbilisi azərbaycanlılar, Azərbaycanın ziyalıları, mütəfəkkir adamları üçün doğma bir diyar olubdur. Dahi Azərbaycan oğlu Mirzə Fətəli Axundov Tbilisidə yaşayıb, yaradıb və onun qəbri indi də oradadır. Mən bu gün böyük minnətdarlıq hissi ilə bir daha demək istəyirəm ki, [440-441] gürcü xalqı Mirzə Fətəli Axundovun xatirəsini həmişə qoruyub saxlamışdır. Bununla yanaşı, böyük mütəfəkkir Mirzə Şəfi Vazehin, ilk Azərbaycan Demokratik Respublikasının qurucularından biri Fətəli xan Xoyskinin və başqalarının qəbirləri Tbilisidə yerləşir. Bütün bunlar Azərbaycanın Gürcüstanla, Tbilisi ilə nə qədər bağlı olduğunu sübut edir.

Məlumdur ki, tarixin enişləri də, yoxuşları da parlaq, işıqlı, qaranlıq, çətin günləri də olur. 1990-cı ildə Gürcüstanda gedən proseslər zamanı orada yaşayan azərbaycanlıların hüquqlarının pozulması və onların bir çox çətinliklərə məruz qalması bizi həmişə narahat etmişdir. Ancaq böyük məmnuniyyət hissi doğuran odur ki, bizim əziz dostumuz Eduard Şevardnadze Gürcüstan dövlətinə başçılıq edəndən sonra orada yaşayan azərbaycanlılara qarşı edilən ədalətsizlik və onların hüquqlarının pozulması halları aradan götürülmüşdür.

Bir daha qeyd edirəm ki, indi azərbaycanlılar orada Gürcüstanın bərabər hüquqlu vətəndaşlarıdır. İlk dəfə keçirilən demokratik seçkilər əsasında azərbaycanlıların nümayəndələri də Gürcüstan parlamentinə üzv seçiblər. Mən Gürcüstanda səfərdə olarkən, orada yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşərkən tam əmin oldum ki, məhz Eduard Şevardnadzenin səyləri nəticəsində orada azərbaycanlılara olan münasibət tamamilə normallaşıb, dəyişibdir. Ümidvaram ki, belə münasibət günü-gündən daha da yaxşılaşacaqdır.

Biz qonşu gürcü xalqının bu gününə, gələcəyinə dost münasibəti bəsləyən bir xalq kimi, Gürcüstanın bir neçə il bundan əvvəl düşdüyü ağır vəziyyətdən çox narahat idik. Eyni zamanda, çox sevindik ki, Eduard Şevardnadze Gürcüstana qayıtdı, çox ağır vəziyyətdə olan Gürcüstanın mövcud problemlərinin həlli ilə məşğul oldu və Gürcüstanı vətəndaş müharibəsindən, qardaş qırğınından, müxtəlif fəlakətlərdən xilas etdi.

Eduard Şevardnadzenin gürcü xalqı qarşısında xidmətləri böyükdür. Ancaq onun ən böyük xidməti məhz ondan ibarətdir ki, Gürcüstanda vətəndaş müharibəsi baş verən zaman o özünü xalqının yanına yetirdi və xalqını

bu ağır vəziyyətdən çıxardı. O indi azad, müstəqil, demokratik Gürcüstan Respublikasına müvəffəqiyyətlə başçılıq edir.

Biz qonşu, dost kimi buna sevinirik, bununla fəxr edirik və gürcü xalqını bu münasibətlə təbrik edirik. Bizi sevindirən bir də odur ki, məhz Eduard Şevardnadzenin Gürcüstana qayıt[441-442]ması və prezident seçilməsi Gürcüstanda yaşayan azərbaycanlıların həyatına, onların hüquqlarının qorunmasına zəmanət verib və bundan sonra da zəmanət verəcəkdir.

Bizim xalqlarımız böyük tarixi yol keçiblər. Biz tariximizin bütün mərhələləri ilə fəxr edə bilərik. Hər bir xalqın tarixi heç də hamar yolla getməyib, onun cürbəcür çətinlikləri də, qaranlıq, parlaq səhifələri də olur. Ancaq bizim tariximiz özümüzündür. Yaxşısı da, pisi də – hamısı bizimdir. Bununla yanaşı olaraq, xalqlarımızın ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, bütün bu çətin, ağır əzab-əziyyətli yollardan keçərək biz milli azadlığa, dövlət müstəqilliyinə nail olmuşuq.

Biz bu mərhələdə də eyni yolla gedirik. Gürcüstanda da, Azərbaycanda da hüquqi, demokratik, dünyəvi dövlət qurulur, demokratik prinsiplər bərqərar olunur, insan hüquqları qorunur, mətbuat, söz azadlığı, siyasi plüralizm təmin edilir, iqtisadi islahatlar həyata keçirilir. Bizim ölkələrimiz bazar iqtisadiyyatı yolu ilə dünya iqtisadiyyatına bağlanır.

Bu yolda Gürcüstanın da, Azərbaycanın da böyük nailiyyətləri, eyni zamanda çox çətinlikləri, problemləri vardır. Bu çətinlikləri, problemləri aradan götürmək üçün biz əməkdaşlıq edirik və həm Tbilisidə, həm də Bakıda imzalanan müqavilələr, sazişlər bu əməkdaşlığın inkişaf etdirilməsinə yönəldilmişdir.

Bu iki gündə yaratdığımız danışıqların ən əsas mənası bir də ondan ibarətdir ki, Gürcüstan üçün də, Azərbaycan üçün də nə qədər çətin olsa da, biz bu yolla – müstəqillik, milli azadlıq, demokratiya yolu ilə gedəcəyik. Bizi bu yoldan heç kəs heç vaxt döndərə bilməyəcəkdir. Biz dövlət müstəqilliyimizə, milli azadlığımıza sadiq olmuşuq və əbədi sadiq olacağıq.

Gürcüstanın təcrübəsi bizə çox kömək edir və Gürcüstan da bizim təcrübəmizdən bəhrələnir və bəhrələnə bilər. Beləliklə, dostluq, qardaşlıq, sıx əməkdaşlıq vasitəsilə biz bu ağır günləri keçib gedəcəyik.

İnanıram ki, xalqlarımızın, ölkələrimizin qarşısında xoşbəxt gələcək durur. İnanıram ki, biz bu çətinliklərdən müvəffəqiyyətlə çıxacağıq. İnanıram ki, Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. İnanıram ki, biz ümumi səylərimizlə Qafqazda sülhə, əmin-amanlığa nail olacağıq. İnanıram ki, bizdən sonra gələcək nəsillər də bizim tutduğumuz bu yolu davam etdirəcəklər, Gürcüstan-Azərbaycan [442-443] dostluğunu, əməkdaşlığını, müstəqil dövlətlərimizin gələcək inkişafını təmin edəcəklər.

Əziz dostum Eduard Şevardnadze!

Hörmətli qonaqlar!

Mən təşəkkür edirəm ki, siz Azərbaycana gəldiniz və biz birlikdə səmərəli iş gördük. Sizi əmin edirəm ki, əldə olunmuş razılıqlar və imzalanmış, qəbul edilmiş sazişlər bizim tərəfimizdən həyata keçiriləcəkdir. İnanıram ki, bizim dostluğumuz, qardaşlığımız bundan sonra da günü-gündən genişlənəcək, inkişaf edəcəkdir.

Mən sizə və sizin simanızda gürcü xalqına, Gürcüstanın bütün vətəndaşlarına sülh, əmin-amanlıq, firavanlıq və xoşbəxt gələcək arzulayıram.

Əbədi, sarsılmaz Gürcüstan-Azərbaycan dostluğuna eşq olsun!

Mənim dostum Eduard Şevardnadze bizə gözəl bir hədiyyə bəxş etdi. Mən isə bizim azərbaycanlıların mənim dostum Eduard Şevardnadzeyə nə qədər böyük məhəbbəti olduğunu ifadə edən və onu nümayiş etdirən, xalçaçılarımız tərəfindən toxunmuş bu xalçanı ona təqdim etmək istəyirəm. Diqqətinizə görə sağ olun. [443-444]

**ÇİN XALO RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ TSZEN TSZYAMİN CƏNABLARINA**

Çin xalqına üz vermiş ağır itki, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi, böyük islahatçı Den Syaopinin vəfatı ilə əlaqədar Sizə və Çin xalqına dərin hüznlə başsağlığı verirəm.

Mənim başsağlığımı Den Syaopinin ailə üzvlərinə və yaxınlarına çatdırmağınızı xahiş edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*20 fevral 1997-ci il* [444-445]

**İKİ MÜQƏDDƏS ŞƏHƏRİN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ
KRALI ZATİ-ALİLƏRİ
FƏHD İBN ƏBDÜL ƏZİZ ƏL-SƏUD
CƏNABLARINA**

Əziz dostum və qardaşım!

Böyük məmnuniyyətlə Sizə – müasir dünyanın görkəmli dövlət xadiminə, islam aləminin ən nüfuzlu siyasi rəhbərlərindən birinə, iki müqəddəs şəhərin sadiq xadiminə səmimi salamlarımı və xoş arzularımı yetirirəm.

Sizin qardaş ölkənizə etdiyim səfərdən iki il yarımdan çox vaxt keçsə də, aldığım təəssürat xatirəmdə daim canlanır. Gözəl ölkənizlə, qonaqsevər xalqınızla yaxından, tanışlıq, uzun illər ürəyimdə yaşatdığım böyük arzumun – Ümrə ziyarətinin həyata keçməsi, zati-alinizlə görüş və geniş danışıqlar ölkələrimiz arasında hərtərəfli əlaqələrin inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir. Həmin səfər zamanı göstərdiyiniz qayğı və diqqətə görə bir daha dərin minnətdarlığımı bildirməyi özümə borc bilirəm.

Biz Azərbaycanın islam aləmi ilə, xüsusilə Səudiyyə Ərəbistanı ilə hərtərəfli əməkdaşlığına böyük əhəmiyyət veririk. Torpaqlarımızın 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyona qədər vətəndaşımızın qaçqın vəziyyətinə düşməsi zati-alinizə məlumdur. Bu baxımdan biz İslam Konfransı Təşkilatının mənəvi dəstəyinə və Səudiyyə Ərəbistanının bu işdə yaxından köməyinə görə Sizə və bütün islam aləminə minnətdarıq. Bununla yanaşı, ümidvarıq ki, Siz və böyük təsirə malik olan başqa müsəlman dövlətləri erməni – Azərbaycan münaqişəsinin həllində qardaş Azərbaycan xalqına yardım göstərməkdə əllərindən gələni əsirgəməyəcəklər. Azərbaycanda bugünkü durum nə qədər çətin olsa da, xalqımız gələcəyə böyük inam və nikbinliklə baxır. İnanırıq ki, Böyük Yaradanın köməyi, islam aləminin dəstəyi, Sizin daimi yardımınız sayəsində xalqımız bu ağır vəziyyətdən tezliklə çıxacaqdır.

Azərbaycan xalqı qardaş Səudiyyə Ərəbistanı xalqına, onun böyük rəhbəri – şəxsən Sizə dərin məhəbbət bəsləyir. Öl[445-446]kənizdə səfərdə olan Azərbaycan nümayəndə heyəti, üzərində zati-alinizin portreti toxunmuş xalçanı Sizə təqdim etməklə xalqımızın zati-alinizə bəslədiyi böyük ehtiram və sevgini ifadə edir.

Zati-aliləri!

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, Sizin Azərbaycana səfəriniz xalqımız üçün böyük bir töhfə olardı. Sözsüz ki, belə bir səfər ölkələrimiz və xalqlarımız arasında qardaşlıq və əməkdaşlıq tellərinin daha da möhkəmlənməsinə xidmət edərdi. Odur ki, Sizi Azərbaycana səfər etməyə rəsmi dəvətimi bir daha təkrar edirəm.

Ulu Allahdan ölkənizə əmin-amanlıq və çiçəklənmə, zati-alinizə və xalqınıza xoşbəxt həyat, möhkəm cansağlığı və böyük uğurlar diləyirəm.

Dərin hörmət və ehtiramla,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı səhəri,*
*20 fevral 1997-ci il* [446-447]

## AKADEMİK ZİYA BÜNYADOVUN AİLƏSİNƏ BAŞSAĞLIĞI

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun faciəli ölümündən kədərləndiyimi bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Bu itki təkcə sizin deyil, bütün Azərbaycan xalqının itkisidir.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*21 fevral 1997-ci il* [447-448]

## GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, AKADEMİK ZİYA BÜNYADOVLA VİDALAŞMA MƏRASİMİNDƏ NİTQ

*Şəhriyar adına Mədəniyyət Mərkəzi*

*23 fevral 1997-ci il*

Hörmətli bacılar, qardaşlar, əziz həmvətənlər!

İkinci gündür ki, Azərbaycan Respublikası, Azərbaycan xalqı matəm içindədir. Xalqımıza böyük itki üz veribdir. Xalqımızın böyük oğlu Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi hamımızı kədərləndirib, qəzəbimizi coşdurub, hiddətləndiribdir. Biz hamımız matəmə qərq olmuşuq.

Dəhşətli bir hadisədir, təsəvvür etmək mümkün deyil. Azərbaycanın ən dəyərli insanlarından, şəxsiyyətlərindən biri vəhşi, namərd gülləsi ilə qətlə yetirilibdir. Hər bir itki insanı kədərləndirir. Ziya Bünyadov kimi insanların dünyadan getməsi, şübhəsiz ki, böyük itkidir və böyük qəm-qüssə doğurur. Ancaq bu qədər vəhşicəsinə, bu qədər amansız cinayət nəticəsində itkimiz bizi həddindən artıq kədərləndirib, həddindən artıq hiddətləndiribdir və hamımızı ağrıdır, incidir.

Bir də qeyd edirəm, Ziya Bünyadovun həyatdan getməsi bizim üçün böyük itkidir. Çünki o, xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Ziya Bünyadov haqqında çox danışmaq olar və güman edirəm, bundan sonra daha da çox danışılacaq, haqqında kitablar, xatirələr yazılacaqdır. Çünki o, öz varlığı ilə elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. Bir daha deyirəm, o, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik olan, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. Deyə bilərəm ki, bəlkə də təkrarsız bir insandır. Çünki o, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır. [448-449]

Bir baxın, gənc ikən hərbi qulluğa həvəs göstərib, hərbi məktəbə gedibdir. Bu, onun xasiyyətinin bir cinahıdır, əvvəldən .axıra qədər, ömrü boyu bu xüsusiyyət onu müşayiət edibdir. İkinci dünya müharibəsi, Vətən müharibəsi başlayan kimi orduya gedib, müharibənin əvvəlindən sonuna qədər cəbhədə olub, döyüşüb qəhrəmanlıq göstəribdir. Çox yüksək qəhrəmanlıq göstəribdir. Alman faşizminə qarşı müharibənin qəhrəmanlarından biri olubdur. Hamımız bilirik ki, bu nə qədər dəhşətli müharibə olubdur. Hamımız bilirik o müharibə nə qədər insan ömrü apardı, nə qədər qurbanlar getdi, nə qədər insanlar həlak oldu. Amma Ziya Bünyadovun qəhrəmanlığı, cəsurluğu və eyni zamanda Allahın bəxş etdiyi aqibət onu müharibədən qəhrəmanlıqla çıxardı. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək, şərəfli ad aldı.

Xatirənizdədir, İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi qurtarandan sonra, – ondan əlli ildən çox, əlli bir il keçib, Vətən müharibəsinin qəhrəmanları həmişə cəmiyyətə mötəbər, ən sayılan adamları idi. O müharibədə Sovet İttifaqı Qəhrəmanı adı almış şəxslər isə ən yüksək hörmətə layiq idilər və onlar da o qədər çox deyildilər. Azərbaycanlılardan İkinci dünya müharibəsində iştirak edib, alman faşizminin qarşısını almaqda rəşadət göstərərək yüksək adlar alanları, həmvətənlərimizi, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən insanları həmişə yüksək qiymətləndirmişik.

Ziya Bünyadov azərbaycanlıların içərisindən çıxmış az – yüz nəfərdən bəlkə bir az çox olan Sovet İttifaqı qəhrəmanlarından biri idi və bu adı həmişə şərəflə, böyük iftixar hissi ilə daşıyırdı.

Son illər, Sovet İttifaqı dağılandan sonra dünyada, keçmiş Sovet İttifaqında, Azərbaycanda gedən cürbəcür ictimai proseslər zamanı, hətta burada, Azərbaycanda tarixinə, millətinin qəhrəmanlıq səhifələrinə ləkə yaxmaq istəyən bəzi adamlar Vətən müharibəsi qəhrəmanlarının adlarını tarixdən silməyə cəhd göstərən zaman, Qələbə gününü Azərbaycanda ləğv edən adamlar belə şəxslərə mənfi münasibət göstərən zaman da Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzunu döşündə həmişə iftixarla gəzdirirdi.

Xatirəmdədir, fevralın 19-da, dörd gün bundan öncə Gürcüstan prezidenti Eduard Şevardnadzenin Azərbaycana səfəri münasibətilə "Gülüstan" Sarayında rəsmi qəbulda Ziya Bünyadov bizə yaxınlaşdı, Eduard Şevardnadzeni salamladı, mənim[449-450]lə görüşdü və onun sinəsində Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzu yenə də parlayırdı. Yəni o, öz əqidəsinə sadiq bir insan idi. Ziya Bünyadovun o qəhrəmanlığı tək onun qəhrəmanlığı deyildi, həm də Azərbaycan xalqının, Azərbaycan övladlarının nəyə qadir olduğunu dünyaya nümayiş etdirən, sübut edən böyük bir nümunə idi. Mən bunu həmişə belə hesab etmişdim və Ziya Bünyadov da bu hisslərlə yaşayaraq, o Qızıl Ulduzu döşündə daim daşıyırdı.

1995-ci ilin may ayında Böyük Vətən müharibəsinin, İkinci dünya müharibəsinin qurtarmasını, alman faşizmi üzərində Qələbənin 50 illik yubileyini dünya böyük təntənə ilə qeyd etdi. O vaxt Hitler faşizminə qarşı koalisiyam təşkil edən dövlətlərin paytaxtlarında böyük bayram mərasimləri keçirildi. Dünyanın dövlət başçıları və nümayəndə heyətləri Londona – Böyük Britaniyaya, Parisə – Fransaya, Moskvaya – Rusiyaya dəvət

edilmişdilər. Orada müstəqil Azərbaycan dövləti də təmsil olunmuşdu. Mən nümayəndə heyətinə Ziya Bünyadovu böyük ehtiram hissi ilə daxil etmişdim. Biz birlikdə orada bayram mərasimlərində iştirak etdik. Londonda da, Parisdə də, Moskvada da görürdüm ki, İkinci dünya müharibəsinin veteranları – döşlərində ordenlər, medallar, nişanlar gəzdirən ingilislər, fransızlar, ruslar və başqa .millətlərə mənsub olan veteranlar Azərbaycandan gəlmiş İkinci dünya müharibəsi veteranlarını və xüsusən Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovu çox böyük ehtiram və hörmətlə qarşılayırdılar.

Ömrünün son dəqiqələrinədək Ziya Bünyadov öz həyatının bu istiqamətini, bu cinahını həmişə yüksək qiymətləndirmiş, veteranlarla daim bir yerdə olmuş, öz cəbhə yoldaşlarını həmişə xatırlamış, onlara kömək etmişdir. Amma eyni zamanda Ziya Bünyadovun xüsusi keyfiyyəti ondan ibarətdir ki, hərbçi zabit, qəhrəman, döyüşçü keyfiyyətləri ilə yanaşı, o həm də, İkinci dünya müharibəsi bitəndən sonra özünü elmə həsr etmişdir. Onda olan həqiqi fitri istedad onu böyük elmə gətirib çıxarmışdır. Moskvada yüksək təhsil aldıqdan sonra Azərbaycanda 50-ci illərin əvvəllərindən ömrünün sonunadək elmimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir.

Biz hər bir elm adamını qiymətləndiririk, hər bir alimin elmimizə verdiyi töhfəni, xidməti qiymətləndiririk. Amma hərənin öz yeri var. Ziya Bünyadovun Azərbaycan elmində öz dəst-xətti, öz yolu, müstəqil fikri olmuşdur və özünəməxsus [450-451] böyük xidmətləri var. O, adi bir alim, adi bir professor deyildir. O, adi bir akademik deyildir. O, alimlərin, akademiklərin, professorların içərisində öz elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqelərinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi. Bunu anlamaq, bilmək lazımdır. Bunu bütün xalqımız bilməlidir. Onun elmi yaradıcılığı, Azərbaycana, Azərbaycan elminin inkişafına göstərdiyi xidmətlər haqqında kitablar, əsərlər yazılmalıdır.

Lakin bu gün, bu matəm günü onun cənazəsi qarşısında bir neçə məqamı xüsusi qeyd etmək istəyirəm. Əvvəla, onun elmdə, elmi axtarışlarında birinci növbədə elmi mənbələri, ilkin mənbələri axtarıb tapması, onlara istinad etməsi və onlardan şəxsən istifadə etməsi, ikincisi, onun elmi axtarışlarında və elmi fikirlərində olan prinsipiallığı, dəyişməzliyi, üçüncüsü, onun elmi yaradıcılığında Azərbaycan tarixinin həqiqətlərini üzə çıxarması və elmi cəhətdən əsaslandırması, tarixə salmasıdır.

Biz bu gün də etiraf etməliyik ki, Azərbaycan xalqının böyük tarixi indiyədək lazımınca tədqiq edilməyibdir, hələ tədqiq edilməli olan çox-çox mərhələlər, dövrlər var. Lakin Ziya Bünyadov yaradıcılığının xüsusiyyəti ondan ibarətdir ki, o, məhz özünü onadək tədqiq olunmamış hissələrə, mərhələlərə, sahələrə yönəldirdi və onun hər bir əsəri eyni zamanda elmi ixtira idi. O, Azərbaycan elmini, Azərbaycan tarix elmini, şərqşünaslıq elmini həqiqətən zənginləşdirən əsərlər yaradırdı. Onun orta əsrlərə aid əsərlərinin böyük tarixi əhəmiyyəti var, yəni tariximizin ona qədər məlum olmayan böyük mərhələlərini tədqiq edib, elmi surətdə əsaslandırıb xalqımıza çatdırmışdır. Amma eyni zamanda onun bu tədqiqatlarının, elmi əsərlərinin qiyməti, xüsusiyyəti ondan ibarətdir ki, o bizim tariximizi saxtalaşdıran, yaxud tariximiz haqqında yalan məlumat verən başqa dövlətlərin, başqa millətlərin tarixçilərinin bizim tariximiz haqqında yanlış, əsası olmayan fikirlərinin əleyhinə çıxmış, mübahisəyə qoşulmuş və elmi cəhətdən öz tarixi ixtiralarının, yaxud da öz tarixi əsərlərinin daha əsaslı olduğunu sübuta yetirmişdir.

Ziya Bünyadov adi bir tarixçi, adi bir tarix tədqiqatçısı deyildi. O, mübariz bir tarixçi idi. O, daim mübarizə aparan tarixçi idi. Onun mübarizəsi də Azərbaycanın milli mənafelərinin müdafiəsi ilə bağlı olmuşdur. IX-X əsrlərdə, orta [451-452] əsrlərin başqa mərhələlərində Azərbaycanın hansı hissəsi kimə mənsub olub, harada kim və necə olub – bütün bunları Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə və gələcək nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir. Bu onun elmi fəaliyyətinin və elmi yaradıcılığının məhz ona məxsus xüsusiyyətidir və xüsusi qiymətə malikdir.

Bu elmi tədqiqatları ilə əlaqədar Ziya Bünyadov, dediyim kimi çox prinsipial, çox mübariz mövqedə durmuşdu. 60-70-ci illərdə Ermənistanın millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan tarixinə aid cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə səsini qaldıran və onlara əsaslı, dəlilli və tarixi mənbələrə istinadla cavab verən, onların qarşısını alan alim Ziya Bünyadov idi.

Bilirsinizmi, burada Ziya Bünyadovun bütün xüsusiyyətləri gözlərimiz önünə gəlir. Əvvəla, o, çox dərin və zəngin bilikli alim idi. İkincisi, mübarizliyi, prinsipiallığı, üçüncüsü isə onun öz fikirlərini, yəni elmi qaynaqlara söykənən fikirlərini sübuta yetirməyə qadir olduğunu göstərən xüsusiyyətləridir.

O vaxtlar Sovet İttifaqı mətbuatında, Ermənistan mətbuatında, onların kitablarında, elmi yazılarında, Azərbaycan və Moskva mətbuatındakı məqalələrdə gedən mübahisələr çoxlarının yadındadır. Hər tərəfdən dəstə ilə alimlər, yaxud da alim adı daşıyan cürbəcür adamlar Azərbaycan tarixinə o vaxtlar təcavüz edirdilərsə, bu tərəfdən Ziya Bünyadov, yenə də deyirəm, öz iradəsi, biliyi ilə, elmi əsərləri ilə onlara layiqli cavab verirdi və Azərbaycan tarixinin doğru-düzgün olduğunu dünyaya sübut edirdi və onu qoruyurdu.

Buna görə də erməni millətçiləri, erməni separatçıları və ümumiyyətlə, Azərbaycana mənfi münasibət göstərən cürbəcür xarici qüvvələr Ziya Bünyadovu özlərinə düşmən kimi qəbul edirdilər. Lakin ölkəmizdə, xalqımızın içində isə, o cümlədən tək bizim xalqımızın arasında deyil, bütün dünyada Ziya Bünyadov öz elmi

obyektivliyi ilə, elmi biliyi ilə, elmi əsərləri ilə böyük hörmət və ehtiram qazanmışdı və burada da qəhrəmanlığını göstərirdi. [452-453]

Ziya Bünyadovun elmdə prinsipiallığını və dəyişməzliyini sübuta yetirən faktlar çoxdur. Bunların əksəriyyəti şəxsən mənə məlumdur. Mən Ziya Bünyadovla təxminən 40 ildir tanış və dost idim. Keçmiş illərdə, 70-ci illərdə də Azərbaycana rəhbərlik etdiyim zaman Ziya Bünyadov ilə həmişə sıx əlaqədə olmuşdum, ona görə də bu məsələlərin çoxunu şəxsən bilirəm və bildiyimə görə də bu gün bunları onun cənazəsi qarşısında deməyi özümə borc sanıram.

Xatirəmdədir, 60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü sürətdə qəbul olunması haqqında elmi mübahisələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdu. Biz bunu bir bayram kimi qeyd etmişdik. Bu münasibətlə Azərbaycan Lenin ordeni ilə təltif olunmuşdu. Bunların hamısı da tariximizin səhifələridir.

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikirlərini söyləyirdi. Xatirimdədir, 67-68-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olubdur. Amma bu, könüllü olmayıbdır. Odur ki, tarixi həqiqəti demək lazımdır.

O vaxtkı siyasi mühit, siyasi konyunktura bunu qəbul etmirdi. Ziya Bünyadov hətta buna görə günahlandırılırdı, onu hətta cəzalandırmaq istəyirdilər. Əgər səhv etmirəmsə, onu Elmlər Akademiyasının Partiya Komitəsinin müzakirəsinə də çağırmışdılar. Lakin Ziya Büryadov dediyinin üstündə durmuşdu. Bilirsinizmi, indi bu məsələlərə adi bir hal kimi baxırlar. Ancaq xahiş edirəm, 60-cı illərə, o dövrə, o illərdə hökm sürmüş ideologiyaya, ümumi mühitə, ümumi konyunkturaya qayıdasınız. Belə fikir söyləmək o vaxtlar hökumətin, partiyanın əleyhinə getmək demək idi. Amma Ziya Bünyadov çəkinmirdi, öz elmi fikirlərini cəsarətlə, doğru-düzgün deyirdi. Ziya Bünyadovun dedikləri də doğru idi. Sonralar, əvvəlki bütün tarix araşdırıldıqdan sonra hamı bu fikrə gəldi ki, o vaxtlar Ziya Bünyadov doğru deyirdi. Həqiqət bunda idi. Həqiqəti Ziya Bünyadov deyirdi, öz yazılarında göstərirdi. Amma Ziya Bünyadov bunu sübut edə bilmirdi. O vaxtlar çox çalışırdılar ki, Ziya Bünyadovu cəzalandırsınlar. Lakin Ziya Bünyadovun şəxsiyyəti, böyük alim kimi, Sovet İttifaqı Qəhrəmanı kimi və onun özünəməxsus bir neçə keyfiyyəti Ziya Bünyadovu qoruyub saxladı. [453-454]

Mən şəxsən Ziya Bünyadovun o illərdə xidmətlərinə çox yüksək qiymət vermiş və bu xidmətləri qiymətləndirmək üçün alimdən gələni etmişdim. Ona Dövlət mükafatı verilməsi də məhz Azərbaycan tarixinin ən mühüm dövrlərinin elmi cəhətdən əsaslandırılması və elmi əsərinin təqdim olunması ilə bağlı idi. Yaxud onun instituta direktor təyin olunması, akademik seçilməsi – bunların hamısı Ziya Bünyadovun məhz özünün zəhməti, özünün elmi xidmətləri və haqiqi alim kimi elmi əsərlərinin nəticəsi idi. Bəlkə də bütün mərhələlərdə Ziya Bünyadovun xidmətləri lazımınca qiymətləndirilməmişdir. Bunu da deyə bilərəm, bu da həqiqətdir. İndi bu həqiqəti də etiraf etmək lazımdır.

Nəhayət, Azərbaycanda milli azadlıq hərəkatı başlayarkən Ziya Bünyadovun elmi, ictimai-siyasi fəaliyyəti haqqında. Əvvəla, onu demək istəyirəm və qeyd etmək lazımdır ki, əgər millətimizdə, gənclərimizdə o illərdə milli dirçəliş və milli oyanış hissləri gündən-günə inkişaf edirdisə, bunların səbəbi bizim Ziya Bünyadov kimi alimlərin əsərlərinin təsiri ilə bağlı idi, Ziya Bünyadov kimi alimlərimizin, yazıçılarımızın və şairlərimizin milli ruhu qaldırmağa, milli əhval-ruhiyyəni inkişaf etdirməyə yönəldilmiş yazıları ilə, əsərləri ilə bağlı idi. Ona görə də o illərdə milli azadlıq hərəkatımızın cücərməsində, boy atmasında, inkişaf etməsində Ziya Bünyadovun əsərlərinin böyük təsiri, böyük xidməti var. Lakin Ziya Bünyadov, bizim üçün çox vacib olan bu milli oyanış, milli dirçəliş hisslərinin inkişaf etməsinə bir tərəfdən öz əsərləri ilə, digər tərəfdən isə məhz ictimai-siyasi fəaliyyəti ilə xidmət etmişdir.

O illərdə Ziya Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarların haqsız iddiaları əleyhinə etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi hörmətli adamların sözü ilə, Ziya Bünyadov kimi mötəbər adamların hərəkətləri ilə bizim minlərlə, on minlərlə insanlarımız, gənclərimiz bu hərəkatlara, bu cərəyanlara qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazını bildirir, milli azadlıq uğrunda, müstəqillik uğrunda mübarizəyə qoşulurdular. Burada da Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı [454-455] kimi Azərbaycanın açılmamış arxivlərinə bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə də özünü buna həsr etdi. O cümlədən, ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur.

Onun böyük xidmətlərindən biri də bolşevizm terroru nəticəsində 20-30-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri aşkara çıxarmaqdan, repressiya qurbanlarının adlarını açıb göstərməkdən, onlara bəraət qazandırmaqdan, onların adlarını tarixdə bərpa etməkdən və beləliklə o dövrü və doğru-düzgün işıqlandırmaqdan ibarət olmuşdur.

Gördüyünüz kimi, döyüşçü, müharibə iştirakçısı, bəşər tarixində ən dəhşətli müharibə olan İkinci dünya müharibəsinin, alman faşizminə qarşı müharibənin qəhrəmanı, eyni zamanda sonralar 50 il müddətində elmi axtarışlarla məşğul olmuş, həm də Azərbaycan elmindən dünya elminə töhfələr vermiş insan idi. Bunlarla yanaşı, onun həmişə bir xüsusiyyəti də olubdur, o, Azərbaycanın ictimai-siyasi həyatından, Azərbaycanda gedən ictimai-siyasi proseslərdən heç vaxt kənarda qalmamışdır.

Doğrudur, bunu da etiraf etmək lazımdır ki, onun bu sahədə də xidmətləri və fəaliyyəti müəyyən mərhələlərdə lazımınca qiymətləndirilməyibdir. Bilirsinizmi, Ziya Bünyadov xüsusi bir xarakterə malik adam idi. Onun özünəməxsus elə keyfiyyətləri var idi ki, bunun təkrarını mən cəmiyyətimizdə görməmişəm, bəlkə də olmayacaqdır. Buna görə də onun özünəməxsus keyfiyyətləri, xüsusiyyətləri, yəni müstəqilliyi, yenilməzliyi, mübarizliyi, prinsipiallığı bəzi adamlarda ona, şübhəsiz, qeyri-obyektiv, mənfi münasibət doğururdu. Ona görə də bəzən adamlar hissiyyata qapılaraq, onun xidmətlərini, müsbət keyfiyyətlərini unudaraq, nədənsə ondan inciyib onun xidmətlərinə qiymət verilməsinin qarşısını alırdılar. Bunlar da olubdur.

Məsələn, Ermənistanın Azərbaycana təcavüzü başlayandan bəri Ziya Bünyadov xalqı Ermənistana qarşı mübarizəyə və torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər et[455-456]məkdə həmişə ön sıralarda getmiş adam olubdur, həmişə mübarizə aparıbdır, həmişə öz sözünü deyibdir, heç vaxt çəkinməyib, heç vaxt kənarda durmayıb, heç vaxt gizlənməyibdir. Amma eyni zamanda, xatirimdədir, Naxçıvanda yaşayırdım, 90-cı illərin əvvəllərində Azərbaycan parlamentinə seçkilər keçirilirdi. Ziya Bünyadov da öz namizədliyini vermişdi. Mən bunu o vaxtlar qəzetlərdə oxuyurdum. Bəli, o öz namizədliyini vermişdi. Baxırdım ki, 5-6 layiqli adam vardırsa, onlardan biri də Ziya Bünyadov idi. Fikirləşirdim ki, əlbəttə, Ziya Bünyadov seçilməlidir. Amma sonra gördüm ki, Ziya Bünyadov seçilmədi. Onun yerinə bir nəfər alverçi, yaxud ticarət işçisi, bazar müdiri seçildi.

Sonralar Ziya Bünyadov öz namizədliyini başqa bir dairədən də vermişdi. Mən bunların hamısını uzaqdan müşahidə edirdim, baxırdım və ürəyim ağrıyırdı. Fikirləşirdim ki, görəsən, Ziyanın namizədliyi keçəcəkmi? Ziya Bünyadov o dairədən də seçilmədi. Amma Ziya Bünyadovun əlinin altında kiçik elmi əməkdaş işləmiş bir nəfər seçildi. Bilirsinizmi, həyatımızda, bax, belə ədalətsizliklər də olubdur: ümumi ədalətsizliklər, o cümlədən də Ziya Bünyadova qarşı ədalətsizliklər.

Amma bunların heç birisi Ziya Bünyadovun iradəsini sındırmayıbdır. O, heç vaxt əyilmədi, heç vaxt sınmadı, heç vaxt heç kəsə baş əymədi. Ona görə də Ziya Bünyadovu çoxları sevirdi, mən də sevirdim, ona xüsusi hörmət edirdim. Bəzən o, kiməsə acı söz deyə bilərdi, lakin onu anlamaq lazım idi ki, o acı sözün içində xeyirxah münasibət vardı, onun arxasında vətəndaşlıq vardı, onun arxasında Azərbaycan xalqına sevgi, məhəbbət vardı, onun arxasında böyük insan dururdu.

Nəhayət, Ziya Bünyadovun son illərdəki fəaliyyətini də xüsusi qeyd etmək istəyirəm. O da Ziya Bünyadovun daim ictimai-siyasi fəaliyyətdə olmasından və bu fəaliyyətlə əlaqədar Yeni Azərbaycan Partiyasının yaranmasında iştirak etməsindən ibarətdir. Xatirəmdədir, mən Naxçıvanda idim, Azərbaycanda vəziyyət qarışan zaman bir neçə dəfə Ziya Bünyadov bir çox alimlərlə, ziyalılarla birlikdə Naxçıvana gəldi, mənimlə söhbətlər apardı, məni Bakıya dəvət etdi. Beş il bundan öncə, 1992-ci ilin fevral ayında, ya da martın əvvəllərində Azərbaycanda hakimiyyət, dövlət böhranı oldu. O vaxtlar yəqin ki, xatirənizdədir. Ziya Bünyadov ağır bir vəziyyətdə Naxçıvana gəldi, mənimlə 3-4 saat söhbət apardı. Onun söhbətinin mə[456-457]nası bundan ibarət idi ki, Azərbaycan ağır vəziyyətdədir. Mənə müraciət edirdi ki, mən, yəni Heydər Əliyev Bakıya qayıtmalıdır. Mən keçmiş vaxtlarda olduğu kimi, Naxçıvandakı görüşlərimizdə də Ziya müəllimə böyük hörmətlə yanaşaraq ona bildirməyə çalışırdım ki, indi mənim Bakıya gəlməyim mümkün deyil, yaxud şəxsən mən bunu istəmirəm. O, hər dəfə də məndən narazı qayıdırdı. O, yanıma bir neçə dəfə gəlmişdi. 1992-ci ilin şaxtalı noyabr ayında bir dəstə ziyalı, o cümlədən Ziya Bünyadov Naxçıvana gəldilər, biz orada Yeni Azərbaycan Partiyasının təsis konfransını birlikdə keçirdik. Şaxta, soyuq idi, elektrik işığı yox idi. Biz o günləri orada kerosin lampasının işığında keçirdik və Yeni Azərbaycan Partiyası yarandı. Ziya Bünyadov Yeni Azərbaycan Partiyası sədrinin müavini seçildi.

Bəli, o vaxtlar Yeni Azərbaycan Partiyasının yaranmasına iqtidar mane olurdu və bunu istəmirdi. Bu işə qoşulan adamları burada təqib edir və onları bəzən tutur, bəzən sıxırdılar, bəzilərini incidirdilər. Ziya Bünyadov bunların heç birisindən nə qorxur, nə də çəkinirdi, heç birisindən! Həqiqətən, ilk dövrlərdə Yeni Azərbaycan Partiyası idarə heyətinin iclasları akademiyada Ziya Bünyadovun iş otağında, kabinetində keçirilirdi. O, heç bir şeydən qorxmurdu. Niyə qorxmurdu? Çünki o, həmişə olduğu kimi, gənc vaxtlarında Hitler faşizmi ilə döyüşən zaman olduğu kimi, 50 il ondan sonra da öz əqidəsinə sadiq idi. O, əqidə adamı idi, əqidəsinə sadiq idi. Mən bunu çox yüksək qiymətləndirirəm.

Bunlar olsa da, olmasa da, Ziya Bünyadovun qiyməti yüksəkdir və onun xidmətləri əvəzsizdir. Azərbaycan vətəndaşı kimi və keçmiş illərdə Ziya Bünyadovla bir yerdə işləmiş və Azərbaycana rəhbərlik etmiş bir şəxs kimi, indi isə Azərbaycan prezidenti kimi mən də Ziya Bünyadovun xidmətlərini yüksək qiymətləndirirəm. Amma bu mərhələni də, bu dövrü də ona görə xüsusi qeyd edirəm ki, Ziya Bünyadov ahıl yaşa çatdığı bir zamanda da öz əqidəsinə sadiq qaldığını göstərirdi və Yeni Azərbaycan Partiyasına da öz əqidəsi ilə gəlmişdi. Ona görə 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın ilk parlament seçkilərində Ziya Bünyadovun adı Yeni

Azərbaycan Partiyasının siyahısında birinci yazılmışdı və o, Milli Məclisə deputat seçildi. Milli Məclisin deputatı olduğu vaxtlarda Ziya Bünyadov fəal, prinsipial, mərd, obyektiv olmuşdur. [457-458]

Ziya Bünyadovun akademiyada vitse-prezident kimi, alim kimi fəaliyyəti böyükdür, yenə də deyirəm, bu barədə çox danışmaq olar. Bilirsinizmi, bu gün bu matəm mitinqində mənim bu qədər danışmağıma ehtiyac yox idi. Ancaq qəlbim Ziya Bünyadovun xidmətləri haqqında sözlərlə o qədər doludur, eyni zamanda bu faciə mənə də, xalqımıza da o qədər təsir edibdir ki, bu gün bu sözləri deməyi özümə borc bilirəm.

Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi dəhşətli bir hadisədir. Bilirsinizmi, son illər biz belə dəhşətli hadisələrlə qarşılaşırıq. Son illərdə Azərbaycanda bir çox müsbət amillərlə, nailiyyətlərlə, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar gedən müsbət proseslərlə yanaşı, təəssüflər olsun ki, belə qatı cinayətkarlar da, vəhşilər də meydana çıxıbdır. Məsələn, 50 il bundan qabaqkı tarixi götürsək, yadıma gəlməz ki, Ziya Bünyadov kimi adama kiminsə əli qalxıb güllə atsın, ona bıçaq vursun. Gərək nə qədər vəhşi olasan, nə qədər imansız olasan, xalqına nə qədər düşmən olasan ki, bu cür qatillik edəsən. Qatil qatildir. Hər bir insanı qətlə yetirən insan qatildir. Ancaq bu cür qatillik hədsiz-hüdudsuz qatillikdir. Kimə qarşı? Ziya Bünyadov kimi şəxsiyyətə qarşı! Bu qədər dahi, bu qədər ali, bu qədər böyük həyat yolu keçmiş şəxsiyyətə atılan güllə, onun qətlə yetirilməsi bütün Azərbaycan xalqına edilən təcavüzdür, Azərbaycan xalqına atılan güllədir. Çünki Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi. Belə bir adamı, bu qədər həyat yolu keçmiş adamı necə qətlə yetirmək olardı! Bu cinayət tək onu qətlə yetirən adamların cinayəti deyildir, onları bu işə sövq edən, bu cinayətə yönəldən, bu cinayət yoluna salan adamların əməlidir, o qüvvələrin işidir, o terroristlərin işidir.

Biz son illər belə terror hərəkətləri ilə rastlaşmışıq. Bəli, son illərdə burada belə terror hərəkətlərinə əsas qoyan qüvvələr, adamlar da var.

1990-cı ildə gözəl bir ziyalını, günahsız bir adamı – Əjdər Xanbabayevi qətlə yetirdilər. 1994-cü ildə Afiyəddin Cəlilovu, Şəmsi Rəhimovu qətlə yetirdilər. Neçə dəfə terror etmək cəhdi olmuşdu. Allaha şükürlər olsun ki, biz bu cəhdlərin qarşısını ala bildik. Neçə dəfə belə cəhdlər olmuşdu. O cəhdləri göstərmiş olan adamlar indi istintaq altındadırlar, yaxud da məhkəmə onların barəsində hökm çıxarmış və onlar cəzalarını çəkirlər. [458-459]

Nəhayət, belə bir cinayət, belə bir terror, belə bir qətl xalqımıza qarşı qətldir. Bu, Azərbaycanın dövlətçiliyinə qarşı, Azərbaycanın müstəqilliyinə qarşı olan terrordur. Bu, Azərbaycanın iqtidarına qarşı olan terrordur. Ona görə də bu, bizim üçün ağırdır.

Burada Ziya Bünyadovun ailəsi, ailə üzvləri matəm, qəm içindədirlər. Onlar ağır itki ilə üzləşiblər. Bizim hamımız da eyni qəm-qüssə içindəyik. Bu itki hamı üçün itkidir, bütün xalq üçün itkidir, dövlətimiz üçün itkidir. Bu, şəxsən mənim üçün böyük itkidir.

Görünür ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanı müstəqil bir dövlət kimi yaşatmaq, Azərbaycanda həqiqi demokratik, hüquqi dövlət qurmaq, Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz el-obasına qaytarmaq yolu hələ çətin yoldur, ağır yoldur. Amma biz bu yol ilə gedirik, gedəcəyik, biz mübarizə aparırıq, aparacağıq və heç kəs iradəmizi sındıra bilməyəcəkdir, heç kəs bizi sarsıda bilməyəcəkdir! Qoy, o terroru təşkil edən qüvvələr bilsinlər ki, bu cinayət açılacaq, cinayətkarlar mühakimə ediləcəklər. Lakin bu cinayətkarlar, bu cinayəti təşkil edənlər, terroru təşkil edən qüvvələr təkcə məhkəmə tərəfindən deyil, bütün xalq tərəfindən bu gün lənətlənirlər, sabah da lənətlənəcəklər. Qatı cinayətkar kimi onlar xalq qarşısında cavab verəcəklər. Mən buna əminəm. Biz buna nail olacağıq!

Ola bilsin ki, biz gələcəkdə də itki verəcəyik. Mən dəfələrlə demişəm, heç kəsin heç şeydən zəmanəti yoxdur ki, nə isə ola bilər, ya ola bilməz. Hər şey ola bilər. Ancaq biz mübarizəmizdən dönməyəcəyik! Biz irəli gedirik, Azərbaycanın müstəqilliyini möhkəmlətmək yolu ilə gedirik. Azərbaycanda demokratik dövlət qurmaq yolu ilə, Azərbaycanın milli mənafelərini qorumaq yolu ilə irəliləyirik və irəliləyəcəyik!

Ziya Bünyadov mübarizəmizin ön cərgəsində duran şəxsiyyətlərdən biri idi. Ziya Bünyadov bu mübarizənin qurbanı oldu. Ziya Bünyadov bu mübarizədə şəhid oldu. Bu gün biz onu millət yolunda, dövlət yolunda şəhid kimi son mənzilə yola salırıq.

Lakin gələcəkdə itkilərimiz olsa da biz yolumuzdan dönməyəcəyik. Hər bir belə hadisə, əksinə, bizi daha da səfərbər [459-460] edəcək, sayıq edəcək və daha mübariz edəcəkdir. Bu gün mən bütün terrorçu qüvvələrə və onların arxasında duran cürbəcür siyasi qruplara, başqa qüvvələrə xəbərdarlıq edirəm, Azərbaycanın daxilində və xaricində olan qüvvələrə xəbərdarlıq edirəm – qoy bilsinlər ki, onlar bu yolla heç nəyə nail ola bilməyəcəklər. Qoy bilsinlər ki, onlar məğlub olublar və məğlub olacaqlar. Qoy bilsinlər ki, Ziya Bünyadovun qanı yerdə qalmayacaqdır!

Ziya Bünyadov mübarizəmizin şəhididir. O, Sovet İttifaqı Qəhrəmanı kimi öz mübarizəsi ilə, şəhidliyi ilə həm də müstəqil Azərbaycan Respublikasının Milli Qəhrəmanı səviyyəsinə qalxmış bir insandır.

Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük həyat yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur. Biz Ziya Bünyadovun xidmətlərini heç vaxt unutmayacağıq. Hesab edirəm ki, Ziya

Bünyadovun Azərbaycan xalqı qarşısındakı xidmətləri günü-gündən daha geniş, daha parlaq açılacaq, görünəcəkdir. Ziya Bünyadovun gördüyü iş, xalqımıza qoyduğu irs, onun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Mən Ziya Bünyadovun müqəddəs cənazəsi qarşısında baş əyirəm və sizi əmin edirəm ki, biz tutduğumuz yoldan dönməyəcəyik. Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi bizim məqsədimiz, amalımızdır. Bu amal uğrunda Ziya Bünyadov fədakarcasına mübarizə aparıb şəhid oldu. Bu amal uğrunda biz axıradək mübarizə aparacağıq!

Allah Ziya Bünyadova rəhmət eləsin.

Mən bütün Azərbaycan xalqına bu faciə ilə əlaqədar başsağlığı verirəm.

Ziya Bünyadovun ailəsinə başsağlığı verirəm və bəyan edirəm ki, onun ailəsi Azərbaycan dövlətinin daim qayğısı altında olacaqdır. Ziya Bünyadovun qoyduğu irs, onun əsərləri yaşayacaq, bizim gənclərimiz Ziya Bünyadovun simasını, yaradıcılığını örnək edərək təhsil alacaq, tərbiyələnəcək, vətənpərvərlik duyğularını özlərində inkişaf etdirəcəklər.

Allah rəhmət eləsin. Allah sizə və Ziya Bünyadovun ailəsinə, bütün xalqımıza səbir versin. [460-461]

## XOCALI SOYQIRIMININ BEŞİNCİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlərim!

Beş il bundan öncə – 1992-ci il fevral ayının 26-da Ermənistan silahlı birləşmələri imperiyapərəst qüvvələrin bilavasitə iştirakı və havadarlığı ilə Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş Xocalı soyqırımını törətdilər. Xocalı şəhərinin minlərlə əliyalın mülki əhalisi dişinədək müasir hərbi texnika ilə silahlanmış düşmənin qəfil və amansız hücumuna məruz qaldı. Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edildi, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetirildilər, girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldular. Yeddi minlik əhalisi olan bütöv bir şəhər yerlə-yeksan edildi.

O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir.

Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır.

Xalqımızı əmin etmək istəyirəm ki, bu qan yerdə qalmayacaq, Xocalı soyqırımında müqəssir olan hər kəs öz cinayətkar əməlinə və milli xəyanətinə görə xalq qarşısında cavab ver[461-462]məli olacaqdır. Bunu bizdən şəhidlərimizin narahat ruhları tələb edir.

Bu milli hüzn günündə xalqımıza başsağlığı verir, bütün şəhidlərimizə, Xocalının günahsız qurbanlarına Tanrıdan rəhmət diləyirəm. Mərd Azərbaycan xalqını həmişə olduğu kimi dərd qarşısında əyilməməyə, dövlət müstəqilliyimizin əbədiliyi naminə daha mətin və mübariz olmağa çağırıram. Biz milli-mənəvi bütövlüyümüzlə, Azərbaycan dövlətçiliyi ətrafında sarsılmaz birliyimizlə haqqın və ədalətin təntənəsinə nail olacağıq.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*25 fevral 1997-ci il* [462-463]

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*26 fevral 1997-ci il*

Hörmətli cənab Kristian Zibek!

Sizi Almaniya Federativ Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməyiniz münasibətilə təbrik edir və sizə gələcək fəaliyyətinizdə uğurlar diləyirəm. Böyük məmnunluq hissi ilə qeyd edirəm ki, Azərbaycan-Almaniya əlaqələri artıq müəyyən tarixə malikdir. Ölkələrimiz arasında diplomatik münasibətlər yaranandın bəri əməkdaşlığımız sürətlə inkişaf edir. Bu müddət ərzində iqtisadiyyat, mədəniyyət, elm və texnika sahələrində görülən işlər bizi sevindirir. AFR dünyanın böyük dövlətlərindəndir, beynəlxalq siyasətdə onun əhəmiyyətli yeri var. Eyni zamanda AFR planetin ən inkişaf etmiş ölkələrindəndir. Bütün bunlara görə, biz Azərbaycan-Almaniya əlaqələrinə xüsusi diqqət yetiririk və yaranmış münasibətləri yüksək qiymətləndiririk. Xatırlatmaq istəyirəm ki, AFR-in xarici işlər naziri K. Kinkelin ölkəmizə səfəri, mənim keçən ilin yayında Almaniyaya səfərim ölkələrimiz arasında münasibətləri genişləndirməyə güclü təkan vermişdir. Bu səfərlər zamanı aparılmış danışıqların və əldə edilmiş razılaşmaların ikitərəfli əlaqələrin inkişafında böyük bir mərhələ açdığını vurğulamaq istəyirəm. Bununla belə, cəsarətlə demək olar ki, bütün bunlar başlanğıcdır, qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivdə daha geniş imkanlar var. Əmin olduğumu bildirərəm ki, cənab Kristian Zibek səfir kimi bu imkanların gerçəkləşdirilməsinə çalışacaqdır.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı AFR-in sabit mövqeyindən məmnunluğumu ifadə edərək, ümidvar olduğumu bildirirəm ki, Azərbaycanla Almaniya indən sonra da [463-464] bu ədalətli mövqe əsasında əməkdaşlıq edəcəklər. BununLa əlaqədar ATƏT-in keçən ilin dekabrında Lissabonda keçirilmiş Zirvə görüşünü xatırlatmaq yerinə düşər. Həmin sammitdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün konstruktiv addım atdıq. Belə ki, problemin tənzimlənməsinin prinsiplərini əks etdirən sənəd qəbul olundu. Sammit zamanı Azərbaycan və Almaniya nümayəndə heyətlərinin əməkdaşlığını yüksək qiymətləndirirəm. Həmin məsələ ilə əlaqədar federal kansler Helmut Kol, xarici işlər naziri Klaus Kinkellə keçirdiyim faydalı görüşləri məmnunluqla xatırlayıram. Bir daha vurğulayıram ki, münaqişənin tənzimlənməsi prinsiplərinin qəbul edilməsində AFR-in tutduğu mövqe böyük rol oynadı.

Azərbaycan-Almaniya ikitərəfli əlaqələrinin böyük gələcəyi var. Mən cənab Kristian Zibekin bu əlaqələrin reallaşdırılması prosesinin fəal iştirakçısı olacağına ümidvar olduğumu bildirirəm. [464-465]

## XORVATİYA RESPUBLİKASI VƏ NİDERLAND KRALLIĞININ AZƏRBAYCANA TƏYİN EDİLMİŞ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*26 fevral 1997-ci il*

Hörmətli səfir İviça Tomiç!

Sizi – Xorvatiyanın ölkəmizdəki ilk səfirini təyinatı münasibətilə təbrik edirəm, sizə gələcək fəaliyyətinizdə uğurlar diləyirəm.

Xorvatiya da Azərbaycan kimi gənc dövlətdir və öz müstəqilliyini möhkəmləndirmək yolu ilə gedir. Oxşar vəziyyətdə olan ölkələrimiz arasında əlaqələri inkişaf etdirmək üçün imkanlar var. Ümidvaram ki, siz səfir kimi bu əlaqələrin inkişafına xidmət edəcəksiniz. Mən Xorvatiya prezidenti F. Tuncmanla beynəlxalq tədbirlərdə keçirdiyim görüşləri yaxşı xatırlayıram. Həmin görüşlər zamanı tərəflərin qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi ilə bağlı eyni mövqedən çıxış etdiyini vurğulamaq istərdim və Xorvatiyanın ölkəmizdə səfirliyinin açılmasını həmin mövqeyin təsdiqi kimi qiymətləndirirəm. Əmin etmək istəyirəm ki, Azərbaycanın dövlət orqanları səfirliyin normal fəaliyyəti üçün hər cür şərait yaradacaqdır.

* * *

Hörmətli səfir Nikolas Van Dam!

Sizi Niderland Krallığının ölkəmizdə yeni səfiri kimi fəaliyyətə başlamağınız münasibətilə təbrik edir və razılıqla bildirirəm ki, Niderland Azərbaycanı ilk tanıyan dövlətlərdəndir. Bundan sonra isə diplomatik münasibətlər yaradıldı və ölkəmizə səfir təyin edildi.

Müstəqil Azərbaycan Respublikası Niderland ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Eyni zamanda Niderland Avropa Birliyinin üzvü kimi Azərbaycanla Avropa arasında əməkdaşlığın inkişaf etdirilməsinə kömək edə bilər. [465-466]

Cənab səfir, sizi əmin edirəm ki, səfir kimi sizin fəaliyyətiniz əvvəllər olduğu kimi diqqət və qayğı ilə əhatə ediləcəkdir. Ümidvar olduğumu bildirirəm ki, cənab Nikolas Van Dam Azərbaycan-Niderland əlaqələrinin inkişafı naminə əlindən gələni əsirgəməyəcəkdir.

Cənab səfirlərdən xahiş edirəm ki, mənim salamlarımı, hörmət və ehtiramımı Xorvatiya və Niderland rəhbərlərinə çatdırsınlar. [466-467]

## "ƏSRİN MÜQAVİLƏSİ" ÜZRƏ LAYİHƏNİN RƏHBƏR KOMİTƏSİNİN ÜZVLƏRİ VƏ ABƏŞ-in RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*28 fevral 1997-ci il*

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və rəhbər komitəsi bu gün növbəti toplantısını keçiribdir. Mənə məlumat verildi ki, bəzi məsələlərimizi müzakirə etmisiniz və xüsusən keçən il görülən iş və qarşıda duran planlar haqqında müzakirələr aparmısınız, müəyyən qərarlar qəbul etmisiniz. Sizin də, mənim də arzum olubdur ki, görüşək. Biz bu barədə ümumi fikrə gəlmişik ki, gördüyünüz işlər haqqında siz vaxtaşırı olaraq Azərbaycan prezidentinə məlumat verməlisiniz.

Hesab edirəm ki, biz əvvəlcə Terri Adamsı dinləyək, onun məlumatından sonra başqa məlumatlar da dinlənilsin.

### YEKUN NİTQİ

Mən birinci növbədə çox məmnunam ki, bu gün sizinlə bir daha görüşürəm. Bizim bu görüşlərimiz ənənəvi xarakter alıbdır. Hesab edirəm ki, belə də davam edəcəkdir. Əvvəllər də demişəm, bu gün də deyirəm ki, Beynəlxalq Əməliyyat Şirkətinin gördüyü işlər mənim şəxsi nəzarətim altındadır. Mən bir tərəfdən işlərin gedişinə nəzarət etmək, ikinci tərəfdən isə bu işlərin müvəffəqiyyətlə getməsinə kömək etmək məqsədi daşıyıram.

Cənab Terri Adams, sizin və Beynəlxalq Əməliyyat Şirkətinin, rəhbər komitənin başqa nümayəndələrinin verdiyi məlumatlardan mən məmnunam. Verdiyiniz məlumatlar onu göstərir ki, 1994-cü il sentyabrın 20-də imzalanmış müqavilə ardıcıl surətdə, müvəffəqiyyətlə həyata keçirilir. 1995-1996-cı illərdə görülən işləri müsbət qiymətləndirmək lazımdır. Mən çox şadam ki, siz nəzərdə tutulan bütün əməliyyatların, tədbir[467-468]lərin hamısının həyata keçirilməsinə nail ola bilmisiniz. Bu, çox yaxşıdır.

Bilirsiniz, keçmişdə və bizim bugünkü təcrübəmizdə belə hal nadir bir hal kimi qeyd olunur. Amma bilmirəm, bəlkə siz belə işləməyə öyrənmisiniz? Yəqin hər yerdə belə işləyirsiniz, elə deyilmi? Əgər belə deyilsə, onda sizin burada gördüyünüz iş nadir xarakter daşıyır. Bu, onu göstərir ki, konsorsiumun, xüsusən Beynəlxalq Əməliyyat Şirkətinin, rəhbər komitənin tərkibi həqiqətən dəyərli, işgüzar bir tərkibdir. Onlar işə çox məsuliyyətlə yanaşaraq belə nailiyyətlər əldə ediblər.

Bu nailiyyətlər münasibətilə mən sizi təbrik edirəm və sizə təşəkkürümü bildirirəm. Sizin bugünkü məruzəniz və indiyədək gördüyünüz işlər, əldə etdiyiniz nailiyyətlər "Əsrin müqaviləsi" adlanan müqaviləmizə mənfi münasibət göstərənlərə, ona xor baxanlara, yaxud ona inanmayanlara tutarlı cavabdır.

Rusiyanın ərazisində Şimal istiqamətində neft kəmərinin vaxtında hazırlanıb istismara verilməsi çox böyük qiymətə layiq olan bir haldır. "Əsrin müqaviləsi"ni imzalayandan sonra Rusiyanın bəzi dairələrində bizim bu müqaviləmizə mənfi münasibət göstərirdilər. Ancaq biz isə Şimal istiqamətində neft kəmərinin çəkilməsi haqqında 1996-cı ilin yanvar ayında Moskvada saziş imzaladıq, yəni Rusiya hökuməti ilə Azərbaycan hökuməti arasında saziş imzalandı. Bu sazişi Rusiyanın baş naziri Viktor Çernomırdin və mən imzalamışıq. Çox məmnunam ki, artıq biz öz payımıza düşən hissəni vaxtında yerinə yetirmişik və həmin saziş əməli surətdə həyata keçirilir.

Mən çox məmnunam ki, bizim tərəfdən nəinki neft kəməri hazırdır, indicə burada məlumat verildi ki, hətta bu neft borusunun Rusiyanın sərhədinə qədər hissəsi Azərbaycan nefti ilə doludur.

Azərbaycan Neft Şirkəti Rusiyanın "Transneft" şirkəti ilə gərək ciddi iş aparsın. Cənab Terri Adams burada elan etdi ki, mart ayının ortalarında görüş keçiriləcəkdir. Bunu mən də bilirəm, həmin görüşü keçirib Rusiya ərazisindəki həll olunmamış problemləri həll etmək lazımdır. Rusiya ilə Azərbaycan arasında imzalanmış sazişdə nəzərdə tutulduğu kimi, Azərbaycan nefti bu il həmin neft kəməri ilə dünya bazarına ixrac edilməlidir.

Rusiya tərəfi, "Transneft" bunu may ayınadək hazırlamağa söz verir. Biz çalışmalıyıq ki, onlar bu sözün üstündə dursunlar və görülməmiş işləri may ayınadək yerinə yetirsinlər. Mən [468-469] Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıram ki, bu işlə çox ardıcıl surətdə məşğul olsun. Əgər çətinlikləri olsa, mənə müraciət etsinlər ki, Rusiyanın rəhbərləri vasitəsilə mən bu məsələnin vaxtında həll edilməsinə nail olum.

Quyuların qazılması, "Çıraq" neft yatağında ikinci quyunun qazılıb başa çatdırılması və üçüncü quyunun qazılmasına başlanması haqqında cənab Terri Adamsın verdiyi məlumat və quyuların qazılmasından sonra nəzərdə tutulmuş göstəricilərdən də üstün göstəricilərin əldə edilməsi çox sevindirici haldır.

Ümidvaram ki, siz üçüncü quyunu da müvəffəqiyyətlə qazıb başa çatdıracaqsınız. Artıq qazılmış iki

quyudan əldə olunan nəticələr göstərir ki, siz üçüncü quyuda da çox müsbət nəticələr alacaqsınız və beləliklə də, "Çıraq" neft yatağından bu il avqustun 28-dən neftin çıxarılıb Sanqaçal terminalına çatdırılması barədə verdiyiniz öhdəlik yerinə yetiriləcəkdir.

Mən 28 avqust gününü səbirsizliklə gözləyirəm. Güman edirəm ki, biz həmin günü yüksək səviyyədə qeyd edəcəyik. Şübhəm yoxdur ki, burada nümayiş etdirdiyiniz, artıq izolə olunmuş borular da vaxtında yerinə qoyulacaqdır və "Çıraq" neft yatağından Sanqaçaladək neft borusu da çəkilib qurtaracaqdır.

Cənab Terri Adamsın bu gün verdiyi məlumatlarda məni sevindirən cəhət bir də ondan ibarətdir ki, bu müqavilənin həyata keçirilməsində Azərbaycanın müəssisələri, şirkətləri fəal iştirak edirlər və onlar bu işlərə cəlb olunurlar. Məni sevindirən xüsusən odur ki, Azərbaycanın bu işlərə cəlb olunmuş, bu işlərdə iştirak edən müəssisələri, şirkətləri işi yüksək səviyyədə görürlər. Məsələn, siz dediniz, mən də onu təkrar edirəm – Zığ zavodunda boruların izolə edilməsi və onların beynəlxalq standartlar səviyyəsində olması haqqında məlumatınız məni çox sevindirir. Mən sevinirəm ki, Azərbaycanın şirkətləri, müəssisələri tərəfindən görülən başqa işlər də – bunu sizin burada verdiyiniz məlumatlara görə deyirəm – beynəlxalq standartlara cavab verir, həmin standartlara uyğundur. Bu da "Əsrin müqaviləsi"nin Azərbaycan sənayesinə, xüsusən neft sənayesinə verdiyi mənfəətlərdən biridir.

Cənab Terri Adamsın burada nümayiş etdirdiyi diaqramlar da məndə məmnuniyyət hissi doğurur. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra – 1997-ci ildə, gələcək illərdə nəzərdə tutulmuş işlərdə Azərbaycanın müəssisələri, şirkətləri, təşkilatları bu müqavilənin icrasına daha fəal cəlb olu[469-470]nacaqlar. Hesab edirəm ki, o cümlədən Qərb marşrutu üzrə inşa ediləcək neft boru kəmərinin tikilməsində də Azərbaycanın şirkətləri fəal iştirak etməlidirlər. Hələ bir neçə vaxt bundan əvvəl mən bu barədə öz fikrimi Abid Şərifov vasitəsilə cənab Terri Adamsa çatdırmışdım. Bu gün bunu bir daha deyirəm və xahiş edirəm ki, buna əməl olunsun.

**Terri Adams**: Hazırda bu barədə təkliflər nəzərdən keçirilir.

**Heydər Əliyev**: Bu işdə Azərbaycan təşkilatlarının, şirkətlərinin fəal iştirakının zəruriliyi hökmən nəzərə alınmalıdır.

Bu gün verilən məlumatların hamısı sevindiricidir. O cümlədən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində Azərbaycan vətəndaşlarının işləməsi və onların sayının çox olması yaxşı haldır. Amma mən arzu edirəm ki, onların sayı daha da artırılsın. Siz dediniz ki, bu müqavilənin icrası ilə əlaqədar 3 min iş yeri açılıbdır. Yəni bu müqavilənin həyata keçirilməsində 3 min nəfər azərbaycanlı işləyir. Bu da çox yaxşıdır. Güman edirəm ki, işlər bu rəqəmin daha da artırılması istiqamətində gedəcəkdir. Yəni artıq görülən bu işlər zamanı Azərbaycanın həm mütəxəssisləri, həm mühəndisləri, həm də fəhlələri yeni təcrübə toplayırlar və sizin – Beynəlxalq Əməliyyat Şirkətinin tələblərinə uyğun işləmək qabiliyyəti əldə edirlər. Bunun özü də çox yaxşı, sevindirici haldır. Məsələn, eşidəndə ki, azərbaycanlı fəhlələr yüksək keyfiyyətli işlər görürlər – siz bunu bu gün dediniz – bilirsiniz, mən çox sevindim. Bir daha qeyd edirəm – bu, bizim müştərək işimizin, bir yerdə işləməyimizin və Azərbaycana yüksək səviyyəli Qərb texnologiyasının gəlməsinin nəticəsidir.

Verdiyiniz məlumatı mən nəzərə alaram, əsas neft boru kəməri barədə fikirlərinizi aprelin axırında müzakirə edib cəmləyəndən sonra biz bu məsələnin müzakirəsini bir yerdə aparıb son qərar çıxarmaq üçün lazımi tədbirlər görə bilərik.

"Əsrin müqaviləsi"ni imzaladığımız vaxtdan iki ildən bir neçə ay çox vaxt keçir. Bu dövrdə bir çox işlər görülübdür. Həmin müqavilədən sonra dörd müqavilə də imzalanıbdır. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin gördüyü işlər və əldə etdiyi nəticələr imzalanmış sonrakı müqavilələrin həyata keçirilməsi üçün də örnəkdir və çox gözəl təcrübədir. Güman edirəm ki, hamımız bu təcrübədən səmərəli istifadə etməyə çalışacağıq. [470-471]

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti isə bizim bütün bu müqavilələrimizin bayraqdarıdır, irəlidə gedənidir. Siz əlinizdə böyük bayraq irəliyə gedirsiniz. O biri müqavilələri həyata keçirənlər də arxanızca gedəcəklər, sizin qazandığınız təcrübədən istifadə edərək yaxşı nəticələr əldə edəcəklər.

Mən sizi bir daha təbrik edirəm. Sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, bu işlərin normal həyata keçirilməsi üçün mənim tərəfimdən bütün tədbirlər görüləcəkdir. [471-472]

**PAKİSTAN İSLAM**
**RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**ƏHMƏD XAN LEQARİ**
**CƏNABLARINA**

Pakistan İslam Respublikasında zəlzələ nəticəsində çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən sarsıtdı. Bu faciəli anda Sizə və bütün qardaş Pakistan xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah həlak olanlara rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*1 mart 1997-ci il* [472]

**İRAN İSLAM**
**RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**HAŞİMİ RƏFSƏNCANİ**
**CƏNABLARINA**

İran İslam Respublikasının Ərdəbil vilayətində zəlzələ nəticəsində yüzlərlə insanın həlak olması xəbəri məni dərindən sarsıtdı. Bu faciəli anda Sizə və bütün qardaş İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah həlak olanlara rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*1 mart 1997-ci il* [472]

Kitabın hazırlanmasında iştirak edənlər:
Tofiq Babayev, Müzəffər Maşayev, Arif Məmmədov, Kamil Muxtarov, Azər Fərzəliyev

Rəssamı *Fuad Fərəcov*

Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*

Texniki redaktoru *Zoya Nəcəfova*

"Tayms" qarnitur. Formatı 60x901/16. Ofset kağızı N2 1. Şərti çap vərəqi 30,5.
Uçot nəşr vərəqi 31,0. Tirajı 5000. Sifariş 147. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç.4.

Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.